**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**MAİS ƏMRAHOV**

# XX ƏSRDƏ AZƏRBAYCANDA MİLLİ – AZADLIQ HƏRƏKATI

***Ali məktəblər üçün dərslik***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin EMŞ-nın «Tarix bölməsi» nin 16 yanvar 2009-cu il tarixli 11 saylı protokolu və Azərbaycan Respublikası Təhsil nazirinin 09 fevral 2009-cu il tarixli 150 saylı əmri ilə dərslik kimi təsdiq olunmuşdur.*

Bakı – 2009

*Elmi redaktoru:* **O.B.Sultanov,**
tarix elmləri doktoru, professor

*Redaktoru:* **N.N.Əsədov,**
tarix elmləri namizədi, dosent

*Rəyçilər:* **X.S.Köçərli,**
tarix elmləri doktoru, professor
**Ə. M.Məmmədov,**
tarix elmləri doktoru

**M.İ.Əmrahov. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı.** ***Ali məktəblər üçün dərslik.*** — **Bakı: ADPU-nun nəşriyyatı, 2009.-371 səh.**

Dərslikdə XX əsrdə Azərbaycan xalqının milli-azadlıq hərəkatının mərhələləri- Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti, Azər baycanda sovet rejiminin təşəkkülü, sovet dövlət quruculuğu, inzibati-amirlik sistemi şəraitində Azərbaycanda milli müstəqillik uğrun da mübarizə, Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı, müha ribə dövründə Azərbaycan siyasi mühacirətinin Azərbaycanın sovet işğalından azad olunması uğrunda mübarizəsi, müharibə dövründə və müharibədən sonrakı illərdə respublikadakı ictimai-siyasi həyat, azərbaycanlıların Qərbi Azərbaycandan – tarixi-etnik ərazilərindən deportasiyası, əsrin sonlarında müstəqillik uğrunda xalq hərəkatı və Azərbaycan dövlət müstəqilliyinin bərpası prosesi işıqlandırılmışdır.

Dərslikdə Cənubi Azərbaycanda milli - demokratik, milli - azadlıq hərəkatına xüsusi fəsillər ayrılmışdır.

Dərslik ali məktəblərin tələbələri üçün nəzərdə tutulmuşdur. Kitabdan yenidənhazırlanma kurslarının dinləyiciləri, orta ixtisas məktəblərinin tələbələri, müəllimlər, magistrlər və Azərbaycanın XX əsr tarixi ilə maraqlananlar faydalana bilərlər.




**Ancaq indi müstəqil Azərbaycanın hər bir gənci məktəbdə Milli təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin.**

**Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz.**

**Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz.**

**Əgər bunu bilməsə o, millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz.**

**Heydər Əliyev**

***Nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkə- mizin həm dünəninə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır…***

***Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir. Belə bir ibrətamiz qəhrəmanlıq tarixinin açıqlanma- sında Azərbaycan istiqlal mübarizəsi, xüsusi ilə milli hərəkat tarixinin tədqiq edilməsi və hərtərəfli öyrənilməsi müstəsna əhəmiyyətə malikdir.***

***H.Ə.Əliyev***

# G İ R İ Ş

Azərbaycan xalqının milli oyanışı əsasən XX əsrlə bağlıdır. Bu gün respublikamızın yeritdiyi milli siyasətə təsir göstərən əsas amillər xalqımızın milli təfəkkürü ilə bağlı olub XX əsrin əvvəllərindən təşəkkül tapıb formalaşmağa başlayıb. Azərbaycanda ictimai hərəkatların, siyasi partiya və təşkilatların təşəkkülü, «Müsavat”» partiyasının yaranması, azərbaycanlılara qarşı soyqırımı, Cənub Azərbaycanda Məşrutə inqilabi, 1920 - ci ilin Təbriz üsyanı, Azərbaycanın bolşevikləşməsi, azərbaycanlıların öz dədə-baba yurdlarından qovulması, milli-demokratik hərəkatın iştirakçılarının təqib edilməsi də XX əsrin tarixi hadisələri sırasındadır. Gənc türklərin, Səttarxanın, Şeyx Məhəmməd Xiyabaninin və Atatürkün siyasi hərəkatı, böyük öndər M.Ə. Rəsulzadənin xalqımızın siyasi müstəqilliyi uğrunda mübarizəsi, nəhayət müstəqil Azərbaycan Cümhuriyyətinin yaranması XX əsrdə, xüsusilə əsrin birinci qərinəsində baş verib.

XX əsr tariximiz siyasi mədəniyyətin formalaşması uğrunda mübarizə tarixidir. Bu vəzifəni bir neçə nəsil həyata keçirib. H.Zərdabi, M.Şaxtaxtlı, Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü. Hacıbəyov, Ə.Topçubaşov, F.Xoyski və

digərləri bu sahədə önəmli rol oynayıblar. Deməli, milli siyasətimizin məna və mahiyyəti sələflərimizdən bizə yadigar qalıb. Mirzəbala Məm mədzadə «Milli Azərbaycan hərəkatı» əsərində yazırdı ki, «Azərbaycan əvvəl əsrlər uzunu davam edən siyasi dövləti bizə birlik həyatını yaşamış olduğunu xatırladırdı. Bu zəngin siyasi keçmişlə yan-yana Azərbaycan qoca bir ədəbiyyata, maddi və mənəvi bir mədəniyyətə malik idi». Ə.Topçubaşov yazırdı: «Allah biz türklərə anadangəlmə təbii işləmək istedadı verib, ruslar çalışır ki, bizim xalqda olan bu istedadı öldürsün. Bizi təhkimçi halına salsınlar ki, biz kölə vəziyyətinə düşək və zəli xalq olaq».

Bu baxımdan milli-azadlıq hərəkatı Azərbaycanın siyasi tarixində ən önəmli yerlərdən birini tutur. Müstəqil Azərbaycan Respublikası Azərbaycan Demokratik Respublikasının varisidir. Bu səbəbdən də, XX əsrin əvvəllərindən başlayaraq ADR-ə gedən yolun, Azərbaycan xalqının sovetlər dönəmində özgürlüyünü qoruyub saxlaması və müstəqil dövlət quruculuğu uğrunda xalqımızın mübarizəsi tarixinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Tarix cəmiyyətin keçmişini öyrənən bir elmdir. A.A.Bakıxanovun yazdığı kimi, «Tarix elə bir danışmayan natiqdir ki, sələflərinin vəsiyyətlərini bütün təfsilat və tərəfləri ilə xələflərə bildirir, etiraz və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların nəzərinə çatdırır. Bəli, keçmişdə vaqe olan bir iş gələcək üçün düstürəməldir və elmə əsaslanan bir möhkəm və payidar olar…Tarix elmi isə dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər. Xüsusən hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır: çünki tarix ona öz millətinin tələb və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfaların rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanılan əlaqənin əsas xeyir və zərərini ona məlum edər». Bu baxımdan, XX əsrdə Azərbaycanda formalaşan milli-demokratik fikri, siyasi partiyaların, siniflərin, ictimai qrupların təşəkkülünü, onların mübarizə formalarını və metodlarını öyrənmək üçün

çoxsaylı ədəbiyyatlara müraciət etməyə məcburuq. Çünki, bir çox xalqlar, o cümlədən Azərbaycan xalqı böyük öndər M.Ə.Rəsulzadənin yazdığı kimi, «öz tarixlərini bilmədiyinə görə cəhalətdə qalmış, öz yolunu müəyyən edə bilməmişdir».

Müasir mərhələdə tarix elmi çox inkişaf etmiş, ondan yeni-yeni sahələr ayrılmışdır. «Milli - azadlıq hərəkatı» adlı ayrıca bir elm, yaxud da tarix elminin ayrıca sahəsi yoxdur. Milli-demokratik fikrin, milli-azadlıq hərəkatının tarixi isə çoxcəhətli, ziddiyyətli və çoxşaxəlidir. İstər sovet dövrünün, istər xarici ölkələrin, istərsə də müasir dövrün ədəbiyyatına nəzər salarkən hər üçünə qərəzsiz, ədalətli və vicdanlı münasibət bəslənilməli, hər hansı hadisəni müzakirə edərkən ona zamanın prizmasından yanaşılmalıdır.

Ümumiyyətlə, sovet dövrü kitablarını təhlil edərək, belə nəticəyə gəlmək olar ki, çar Rusiyasının ucqarlarında, o cümlədən Azərbaycanda milli oyanışa, milli-demokratik fikrin yaranması və formalaşmasına, siyasi partiyaların, təşkilatların və cəmiyyətlərin işinə birtərəfli yanaşılmış, bolşevik ideyasının yeganə düzgün və xalq tərəfindən dəstəklənən ideya olduğu sübut olunmağa cəhd edilmişdir.

SSRİ məkanına dair yazılmış bütün xarici ölkə ədəbiyyatlarında isə «kommunizm qorxusu"», «kommunizm xofu»" hiss olunur. Ona görə də, bu əsərlərin dərin təhlilə ehtiyacı vardır.

XX əsrin son 15 ilində milli hərəkata, milli-azadlıq məsələlərinə, ADR- in yaranması və fəaliyyətinə dair çoxsaylı kitablar, məqalələr çap olunmuş, müxtəlif səviyyələrdə elmi- nəzəri konfranslar, «dəyirmi masa» lar təşkil edilmiş, xarici ölkələrin rəhbərləri, diplo matik nümayəndəlikləri və ayrı-ayrı kateqoriyadan olan insanlarla görüşlər keçirilmiş, fikir mübadilələri aparılmışdır. Ancaq yenə də, pluralizmin fonunda qərəzli münasibətlərə, sapmalara, xüsusilə keçmişə balta çalınması hallarına rast gəlinir. Ona görə də, milli-demokratik fikrin və milli-azadlıq hərəkatının tarixi kompleks şəkildə araşdırılmalı, bütün aspektlərdə nə Azərbaycanın Rusiyanın ucqarı olduğu, nə

də siyasi, iqtisadi və mənəvi həyat sahələrində əldə olunan nailiyyətlərin səbəbi və kökü yaddan çıxarılmamalıdır.

İndi isə problemin tarixşünaslığı haqqında.

Məlum olduğu kimi, XX əsrin əvvəllərində Azərbaycandakı inqilabi böhran çarizmin müstəmləkə siyasətinin təzahürü olub, vəziyyəti bir az da dərinləşdirmişdi. Hakim təbəqə ilə mütləqiyyət arasında, xalq kütləri ilə hakimiyyət arasında sosial maraqlar üzərində mübarizə kəskinləşirdi. Azərbaycanda yeni yaranmaqda olan burjuaziya öz mənafeyi uğrunda çıxış etməyə başlamışdı.

Milli istismarın əleyhinə olan milli - azadlıq hərəkatının liderləri Qafqazın federativ quruluşu uğrunda çıxış etməyə başladılar. Onlar müstəqilliyi mədəniyyət, o cümlədən maarif sahəsində inki şafda, Azərbaycan dilinin sərbəst inkişafı və ana dilində təhsil almaqda görürdülər. Xalq kütləri öz istəklərinə inqilabi mübarizə yolu ilə, burjuaziya isə islahatlar həyata keçirilməsi ilə nail olmaq istəyirdi.

Azərbaycan burjuaziyası çarizmdən iqtisadi cəhətdən asılı olmaq istəmirdi. Öz maraqlarını həyata keçirmək üçün müxtəlif vasitələrdən (petisiyalar göndərmək və s.) istifadə edərək rus burjuaziyasının hüquqlarının onlara da şamil olunmasına çalışırdılar.

Azərbaycan burjuaziyasının siyasi kredosu 1905-ci il hadisələri dövründə formalaşmağa başladı, onların ideoloji baxışlarında və Rusiya Dövlət Dumalarındakı fəaliyyətlərində öz əksini tapdı. Bu baxımdan D.B.Seyidzadənin «*İz istorii Azerbaydjanskoy burjuazii v naçale XX veka*» və «*Azerbaydjanskie deputatı v Qosudarstvennoy Dume Rossii*» əsəri bəhs etdiyimiz dövrün hadisələrinə qiymət verməkdə əhəmiyyətli rola malikdir. D.B.Seyidzadənin əsərində ilk dəfə olaraq Azərbaycandan olan deputatların Rusiya Dövlət Dumalarındakı fəaliyyəti, onların Duma tribunasındakı çıxışları arxiv materialları və dövrü mətbuat əsasında təhlil olunmuşdur. Əlbəttə, D.B.Seyidzadənin qeyd etdiyimiz əsəri bilavasitə Azər-

baycan burjuaziyasının fəaliyyətinə həsr edilmişdir və milli-demokratik hərəkatın bütün məsələlərini əhatə edə bilməzdi.

1905 –1906 - cı illərdə Qafqazda baş verən hadisələrə, xüsusilə erməni-müsəlman münaqişəsinin tarixinə dair qiymətli əsərlərdən biri də M.S.Ordubadinin «Qanlı illər»" əsəridir. Əsər ədibin şəxsi müşahidələri, Qafqazın müxtəlif yerlərində yaşayan müasirlərindən aldığı məktublar (245 məktub), dövrü mətbuat materialları əsasında yazılmışdır. Əsərdə Bakı, Gəncə, Naxçıvan və Qarabağda, Qazax qəzasında, Zəngəzurda, Göyçə ətrafında, Mehridə və digər bölgələrdəki millətlərarası toqquşmalar, axıdılan günahsız qanlar, verilən qurbanlar barədə danışılır. Göstərilir ki, Qafqazın dinc həyatını pozan, qırğın və fitnələrə səbəb olan başlıca qüvvə «Daşnaqsütyun"» partiyasının mənfur «Böyük Ermənistan"» xülyası və onun icraçılarıdır. Bunların şahidi olmaq üçün əsərdəki İrəvan hadisələri, Eçmədzin hadisələri, Zəngəzur hadisələri, Qatar hadisələri və s. yazıları oxumaq kifayətdir.

Bəhs olunan problemin tarixşünaslığında 1917- 1920-ci illərin milli-demokratik hərəkatı və ADR-in tarixşünaslığı mühüm yer tutur. Lakin bildiyimiz kimi, ADR-in tarixi uzun müddət saxtalaşdırılmış və təhrif edilmiş, faktlar, tarixi hadisələr sovet ideologiyası tələblərinə uyğun izah olunmuşdur. Ancaq etiraf etmək lazımdır ki, yeni qurulmuş müstəqil respublikada parlament hakimiyyəti mütləq idi. Burada Avropada tətbiq edilməyən həqiqi bir xalq cümhuriyyəti qurulmuşdu.

Azərbaycandakı milli-demokratik hərəkata, ADR-in daxili və xarici siyasəti məsələlərinə dair respublikadan kənarda çap edilən əsərlər xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan Ə.M. Topçu başovun, M.Ə.Rəsulzadənin, A.Ziyadxanlının, R.Vəkilovun, C.Hacı bəylinin, Y.V.Çəmənzəminlinin, M.B. Məmmədzadənin əsərləri çox qiymətli mənbələr hesab olunmalı və diqqətlə öyrənilməlidir. Ə.M.Topçubaşovun «*Azərbaycanın təşəkkülü*»", A.Ziyadxanlının «*Azərbaycan*»" kitabı qiymətli əsərlərdəndir. M.Ə.Rəsulzadənin, M.B.Məmmədzadənin,

Ş.Rüstəmbəylinin mühacirətdə yazılmış əsərləri faktların bolluğu, mübahisəli məsələlərin aydınlaşdırılması baxımından əvəzedilməzdir.

XX əsrin əvvəllərində mütləqiyyətin bir çox demokratik dəyişikliklər etməsi, digər tərəfdən Azərbaycanda milli burjuaziyanın meydana çıxması və onun milli təfəkkürün inkişafına təsiri cəmiyyətdə yeni qüvvələrin formalaşmasına gətirib çıxardı. Azərbaycan milli burjuaziyası tərəfindən dünyanın müxtəlif təhsil ocaqlarına oxumağa göndərilən və təhsillərini başa vuraraq vətənə qayıdan azərbaycanlı ziyalılar siyasi hərəkata qoşuldular. İlk vaxtlar Rusiya sosial - demokratlarının mövqeyini müdafiə edən bu ziyalılar sonrakı mərhələlərdə onlardan uzaqlaşdılar və milli-demokratik hərəkatda iştirak etdilər.

Azərbaycanda milli hərəkatın geniş yayılmasının bir səbəbi də, bu ölkənin müstəmləkə ölkəsi olması və öz həyat şəraitini yaxşılaşdırmaq uğrunda mübarizəyə qalxması idi. Azərbaycanda milli hərəkatın ən qabaqcıl nümayəndələri sırasında M.Ə.Rəsulzadə, H.Hacınski, F.Xoyski, Ə.Topçubaşov, N.Yusifbəyli və onlarla başqaları öndə dayanırdılar. Bütün bunlar 90-cı illərdə nəşr olunan kitablarda yer almışdır. Bu kitablarda ADR yaradıcıları, Azərbaycan hökuməti, Azərbaycan parlamenti və digər məsələlərə dair toplanmış materiallar öyrəndiyimiz problem baxımından böyük əhəmiyyətə malikdir.

M.Ə.Rəsulzadənin *«Azərbaycan Cümhuriyyəti"», «Əsrimizin Səyavuşu»", «Çağdaş Azərbaycan tarixi"», «Panturanizm haqqında"», «Qafqasya türkləri"»* və onlarca başqa əsərləri öyrəndiyimiz problemlə bağlı əsil tarixi mənbədir.

Azərbaycan türklərinin istiqlal mübarizəsi tarixinə dair əsərlər içərisində Hüseyn Baykaranın əsərləri xüsusi sanbala malikdir.

H.Baykara unudulmuş ziyalılarımızdandır. Əsl adı Qara, soyadı isə Hüseynovdur. Türkiyədə Hüseyn Baykara adı ilə

məşhur olan Qara Hüseynov 1904-cü ildə Susada anadan olmuşdu. BDU-nun tarix fakültəsində oxuyanda (1927) Qara Hüseynovun tələbələr qarşısında tez-tez Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda çıxış etməsi bolşeviklərin xoşuna gəlməmiş və o, təqiblərə məruz qalmışdı. 1927-ci ildə əvvəlcə İrana, sonra isə Türkiyəyə gedən Q.Hüseynov İstanbul Universitetinin hüquq fakültəsinə daxil olmuş, universiteti bitirdikdən sonra Eləziz şəhərində hakim işləmişdir. O hüquqşünaslıqla yanaşı ədəbi fəaliyyətini də dayandırmamışdır. Onun *«Azərbaycan istiqlalının 50 illiyi dolayısı ilə"», «Azərbaycanda erməni basqını və Naxçıvan məsələsi»", «Azərbaycan istiqlal mücadiləsinin iqtisadi təməli"»* və sair yazıları vətən sevgisi, vətənpərvərlik ruhu ilə doludur. Azərbaycanın sevıncı onun sevinci, kədəri onun kədəri olmuşdu.

H. Baykaranın Azərbaycanın azadlıq hərəkatından bəhs edən *«Azərbaycan istiqlal mübarizəsi tarixi"»* kitabı isə 1975-ci ildə İstanbulda buraxılmış, 1992-ci ildə Bakıda Azərbaycan dilində nəşr olunmuşdur.

Kitabda Azərbaycanın Rusiya tərəfindən işgalı, yeni yaranan dövlətin başına ğələn müsibətlər, S. Şaumyanın ermənilər və bolşeviklərlə birləşərək törətdikləri qırğınlar, həmçinin son vaxtlaradək bizə məlum olmayan hadisələrdən bəhs olunur.

H. Baykaranın kitabı nöqsanlardan xali deyildir. Coğrafi adlarda, tarixi hadisələrin vaxtında qeyri-dəqiqliyə yol verilmişdir. Bu isə onun vətəndən uzaqda olması ilə izah olunmalıdır.

Azərbaycanda milli-demokratik hərəkata həsr edilmiş əsərlərdən biri də Aydın Balayevin *«Azerbaydjanskoe naüionalğno–demokratiçeskoe dvijenie. 1917-1920»* kitabıdır. A.Balayevin kitabında fevral inqilabından sonra Azərbaycandakı milli-demokratik hərəkat, ADR-in yaranması, onun ilk addımları, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi məsələləri hərtərəfli işıqlandırılmışdır. Əsər oxucuda Bakı Kommunasının və

«Müsavat"» partiyasının siyasi siması haqqında təsəvvür yaradır. Kitab geniş arxiv materialları və dövrü mətbuat əsasında işlənmişdir.

Azərbaycanda milli-demokratik hərəkat məsələlərinə Nəsiman Yaqubovun «*Müsavat» partiyasının tarixi*"» nə dair monoqrafiyasında da geniş yer verilmişdir.

Azərbaycanda sovet hakimiyyətinin qurulması, 1920-30-cu illərdə respublikanın ictimai-siyasi həyatı, antisovet üsyanları, Azərbaycan siyasi mühacirəti, milli-azadlıq hərəkatı və digər məsələlər də tarixçilərin diqqət mərkəzində olan problemlərdir. Bu mövzulara dair C.B.Quliyev, Q.Ə.Dadaşov, Z.İ.İbrahimov, P.Ə.Əzizbəyova, M.Ə.Qazıyev, X.O.Əlimirzəyev, N.Əlizadə, A. Dadaşlı, İ.A.Hüseynov, K. Şahgəldiyev, S.Qarayev və başqaları əsərlər yazmışlar. Mətbuat səhifələrində minlərlə məqalə dərc olunmuşdu. Bu kitabların, dərc olunan məqalələrin, elmi-nəzəri və elmi-praktik konfransların, «dəyirmi masa» ların materiallarının təhlili göstərir ki, Azərbaycanın 20 –30 - cu illər tarixinin işıqlandırılmasında iki istiqamət üstünlük təşkil etmişdir: *birincisi,* sovet hakimiyyəti qurulmasının mədh edilməsi, hansı yolla olursa-olsun yeni hakimiyyətə yarınmaq; *ikincisi***,** Azərbaycan zəhmətkeşlərinin mənafeyinə «xəyanət etmiş» «Müsavat» və digər partiyaların ifşasına nail olmaq. Fikrimizcə, qeyd olunan istiqamətlərə bir sıra amillər güclü təsir etmişdi. *İlk növbədə* 28 aprel çevrilişinin mahiyyəti açıqlanmamış, yaxud da bilərəkdən çevrilişə haqq qazandırılmasına cəhd göstərilmişdi. *İkincisi*, yazılan əsərlər daha çox siyasi sifarişə uyğunlaşdırılmışdı; *üçüncüsü,* Azərbaycanda aparılan «sosialist dəyişikliklərinin» mahiyyəti bir qrup tarixçilər üçün aydın deyildi; *dördüncüsü,* yeni hakimiyyəti mədh etməklə yeni-yeni vəzifə kürsülərinə sahib olmaq; *nəhayət,* hakimiyyətdə əyləşənlərin xalqına öz keçmişini unutdurmaq cəhdi.

Bəhs edilən dövrün tarixşünaslığının təhlilindən aydın olur ki, müəlliflər 1918 -1920-ci illərdə hakimiyyətdə olub, bu dövrə aid kitablar və məqalələr yazan Azərbaycan ziyalılarının, həm çinin xarici ölkə alimlərinin əsərlərini «yaddan çıxarmışlar».

Əslində isə düz-əyri, pis-yaxşı, ədalətli və ya ədalətsiz olmasına baxmayaraq hadisələrin mahiyyəti tərəzinin gözünə qoyulmalı, müqayisə edilməli, hətta düşmənin yazmasına və ya söyləməsinə baxmayaraq fikirlər saf-çürük edilməli idi. Təəssüf ki, «XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı» problemi araşdırılarkən qarşı tərəfə «düşmən», «Müsavat», «burjua» yarlığı vurulmuş və kənara atılmışdı.

Problemin mahiyyətinin sovet ideologiyası prizmasından işıqlandırılması dərəcəsini müəyyənləşdirmək üçün fundamental nəşrlərə: 1964-cü ildə çapdan çıxmış *«Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri»* nin birinci cildinə, 1987-ci ildə nəşr olunmuş *«Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. I cild (1920 - 1937)»* kitabına nəzər salmaq kifayətdir. Bu nəşrlərdə ancaq kommunist partiyasının fəaliyyətinin müsbət cəhətlərini göstərən materiallar yer almışdı. Diqqəti çəkən odur ki, kitabda AK (b) P MK repressiyaya yaşıl işıq yandırmış, 1937-ci il plenumunun mate rialları, repressiyaya məruz qalanlar «yaddan çıxmışdır».

Azərbaycanın 20-30-cu illər tarixinin tarixşünaslığında ADR-in süqutu, sovet rejiminin «nailiyyətləri» tərif edilmiş, tarixi prosesə bolşevik eynəyindən baxılmışdı. İstər mərkəzdə, istərsə də bölgələrdə sovet hakimiyyətinin qələbəsinə və onun zəfər yürüşünə dair tarixçilər M.K.Rüstəmbəyli, T.Musayev, K.Əliyev, Q.Ə.Mədətov və başqaları əsərlər yazmış və yeni quruluşun şəninə gen-bol təriflər söyləmişlər. Lakin, Azərbaycan İnqilab Komitəsinin 1920-1921-ci illərə aid 368 dekretinin toplandığı və rus dilində işıq üzü görən «*Azrevkomun dekretləri*» adlanan kitabdakı materialları təhlil etdikcə sovet hakimiyyətinin iç üzü aydın olur.

20-30-cu illərə dair işıq üzü görən nəşrlər içərisində tarixi saxtalaşdıranlara cavab şəklində yazılan, əslində isə kommunist partiyasının fəaliyyətinə və sovet Azərbaycanında həyata keçirilən sosialist dəyişikliklərinə bəraət qazandıran kitablar maraq doğurur. Belələrinə T.Köçərlinin 1972-ci ildə nəşr olunmuş «Tarixi saxtalaşdıranlar əleyhinə» kitabını nümunə

göstərmək olar. Müəllif kitabında M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və digərləri haqqında həqarətlə yazmış, onların əsərlərini, ayrı-ayrı jurnallarda dərc olunmuş məqalələrini sovet hakimiyyətinə böhtan kimi qələmə vermişdi.

Eyni fikirlər müəlliflər kollektivi tərəfindən 1978-ci ildə nəşr olunmuş *«Azərbaycan tarixi və mədəniyyətinin burjua saxtalaşdırıcılarının əleyhinə»,* 1987-ci ildə nəşr olunmuş «*Sovet Azərbaycanı: əfsanə və həqiqət»* kitablarında inkişaf etdirilmiş, müəlliflər burjua alimləri adı altında F.Kazımzadənin, T.Svyatoxovskinin, B.Meysnerin və b. əsərlərindəki faktları canfəşanlıqla təkzib etmişlər. F.Kazımzadənin *«Zaqafqaziyada mübarizə (1917-1921-ci illər)* (1951), B.Meysnerin *«Sovet İttifaqı və xalqların özünütəyini hüququ»* (1962), T.Svyatoxovskinin *«Hümmət» partiyası. Rusiya Azərbaycanında sosializm və milli məsələ»* (1978), *«Rusiya Azərbaycanı (1905-1920)»* (1985) kitabları tarixin saxtalaşdırılması hesab edilmişdi. Halbuki, qeyd olunan müəlliflər əsaslandırmışlar ki, «Qırmızı ordu Zaqafqaziya respublikalarını işğal etmişdir», «Azərbaycan sosialist inqilabına hazır olmamış, Azərbaycan xalqı ona can atmamışdır». Təəccüb doğuran orasıdır ki, sovetpərəst müəlliflər bu fikirlərin dolayısı ilə bolşeviklərin özləri tərəfindən etirafına da məhəl qoymamışlar. Məs: H.Sultanov AK (b) P-nin II qurul tayındakı (16-23 oktyabr 1920-ci il) çıxışında demişdi: «Hakimiy yətin devrilməsində mən özüm şəxsən iştirak etmişəm. Mən çox yaxşı başa düşürdüm ki, arxamızda MK-dan olan hörmətli yoldaşlar deyil, Yalamada yerləşən qırmızı süngülər dayanır…biz Sovet hakimiyyətini hazır şəkildə aldıq, bizə onu qabda gətirdilər».

Sovet hakimiyyətini bizə qabda xonça kimi təqdim edənlər əvəzində respublikanın sərvətlərini qardaşlıq yardımı adı altında mərkəzə daşıdılar. 1920-ci ilin mayında Sovet Rusiyasına 15 milyon pud, iyunda isə 21,2 milyon pud neft və neft məhsulları göndərildi.

Azərbaycan SSR-in 20-30-cu illər tarixinə fərqli münasibət bəsləyən tarixçilər də olub. C.Həsənli, İ.Musayev,

X.Məmmədov, K. Şükürov, N.Nəsibzadə, X.İbrahimli, F.İbrahimli, A.Balayev, M.Qasımlı və başqalarının tədqiqatları sovet tarixçilərinin əsərlə rindən fərqlənir.

Azərbaycan xalqının milli-azadlıq hərəkatından bəhs edərkən «...biz Sovet hakimiyyətini hazır şəkildə aldıq, bizə onu qabda gətirdilər» deyənlərin məntiqinə əsaslanaraq «Müstəqil Sovet Azərbaycanı» şüarının mahiyyətinə, onun Azərbaycana nə verdi yinə aydınlıq gətirilməlidir. Bu şüarın saxtalığını başa düşən N.Nərimanov V.İ.Leninə yazırdı ki, «üç respublikada birinci olaraq Sover Rusiyasının qoynuna atılmış Azərbaycan... həm ərazisini, həm də müstəqilliyini itirir». Azərbaycan XI ordunun işğalından sonra 29.338,2 kv. km. ərazisini Ermənistan və Gürcüstana hədiyyə etmişdir. Bu ərazilərdən İrəvan (qalan hissəsi) (3.100, 2 kv. km), Zəngəzur (çox hissəsi) (5.115, 4 kv. km), Qazax (2.980, 3 kv.km), Dərələyəz (1.583, 8 kv.km) Ermənistana, Borçalı (bir hissəsi) (5.161,4 kv.km.), Sıqnax (6.832, 6 kv. km) və bir sıra başqa ərazilər (4.564, 6 kv. km.) Gürcüstana verirlmişdir.

«Müstəqil Sovet Azərbaycanı» şüarının saxtalığını dolayısı ilə İ.Stalin də təsdiq edirdi: «...biz qabaqcadan Bakıda üsyan qalxacağına ümid edirdik. Lakin şübhəsiz, bunun şansı yoxdur. Ona görə də, Azərbaycan hüdudlarına soxulmaq gərəkdir...Mənə elə gəlir ki, gələcək (nəzərdə tutulan) müstəqillik ciddi praktik əhəmiyyət daşımadan yalnız bəyanat kimi ola bilər».

Bəhs olunan dövrün mühüm məsələlərindən biri də, sovet hakimiyyəti əleyhinə baş verən üsyanlar, bu üsyanların iştirakçılarına tutulan divanlardan bəhs edən əsərlərdir. Şübhəsiz ki, Azərbaycanda sovet hakimiyyətinə qarşı Gəncədə (25-31 may 1920), Qarabağda (5-15 iyun 1920), Zaqatalada (9-20 iyun 1920) və digər bölgələrdə baş vermiş üsyanlar milli-azadlıq hərəkatının ilk qaranquşları idi və təbii ki, «yeni hökumət» onları müxtəlif vasitələrlə yatır mışdı.

Araşdırmalar göstərir ki, bolşeviklər hakimiyyəti ələ alarkən verdikləri sözə əməl etməmiş, siyasi rəqiblərinə qarşı

tolerantlıq göstərməmişlər. Akademik Z.Bünyadovun «Qırmızı terror» kitabında yazdığı kimi, «...hakimiyyəti səssiz-səmirsiz, demək olar ki, müftə əlinə keçirən bolşeviklər siyasi rəqiblərinə demirəm, adi azərbaycanlı fəhlə və kəndlilərə insafsızcasına münasibət göstər məsəydilər, əlbəttə, xalqımızın hörmətini qazana bilərdilər. Lakin hakimiyyəti ələ alan kimi, bolşeviklər bandit Dzerjinskinin qırmızı terror bayrağını qaldıraraq soyğunçuluq, qarət və xalqı qəsdən məhv etməklə məşğul oldular. Neft mədənlərində işləyən minlərcə azərbaycanlı fəhlələri casusluq adı ilə kimini sürgün edir, kimini də İrana qovur, əvəzində Serebrovski kimilər, Krımdan qovulmuş Vrangel ordusunda xidmət edən zabit və əsgərlər Bakıya gəti rildi....hər hansı bir etiraz da əlüstü dayandırıldı: əksinqilabçı, antisovet, antikolxoz, antipartiya və min cür başqa «anti» lər adı ilə yüzlərcə və minlərcə kəndli zəhmətkeş güllələnir və ya sürgün edilirdi». Elə Azərbaycan İnqilab Komitəsinin «Şamxor qəzasında banditizmə qarşı mübarizə üçün müvəqqəti fövqəladə üçlüyün yaradılması haqqında» 1921-ci il 16 may tarixli 365 saylı qərarı, 1921-ci il yanvarın 25-də XI ordunun «xüsusi şöbəsi» nin üçlüyünün qərarı ilə Qarabəy Qarabəyov, Cəmil Lənbəranski, Məmməd Həsənov başda olmaqla 155 nəfər «İttihad» partiyasının üzvünün müxtəlif müddətlərdə sürgün edilməsi qeyd edilənlərə nümunədir.

Sovet hakimiyyətinə qarşı baş verən üsyanlar haqqında obyektiv məlumatlar N.Nəsibzadənin, Q.Muxtarlının, M.Cəfərlinin, İ.Umudlunun və b. əsər və məqalələrində verilmişdir. «Ekspress» qəzetinin 01 fevral 2001-ci il tarixli 3-cü sayında Gəncə piyada alayının komandanı Cahangir Kazımbəyovun 1943-cü ildə Berlində yazdığı «Gəncə üsyanından xatirələr» məqaləsi dərc olunmuşdu. Məqalə üsyan haqqında obyektivliyi ilə maraq doğurur.

İ.Umudlunun «Millət» qəzetinin 10 iyun 2000-ci il tarixli sayında dərc olunmuş «Baş tutmayan qiyam» məqaləsində qiyam iştirakçısı olan 10 nəfər azərbaycanlı zabitin- İsrafil Vəkilov, Cümşüd Tağıyev, Nadir Tağıyev, Məmməd Mirzəyev,

İsfəndiyar Balabəyov, Yaqub Naibov, Müseyib Qasımov, Mehralı Hüseynov, Qafar Nağıyev, Həsən Ələkbərovun taleyi haqqında məlumat verilir.

XX əsrdə Azərbaycan xalqının milli-azadlıq hərəkatı tarixini öyrənmək baxımından 20-30-cu illərdə Azərbaycan SSR-də rəhbər vəzifələrdə olmuş şəxslərin fəaliyyətinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə şəxsiyyətlərdən biri də *Nəriman Nərimanovdur.*

1920-ci il may ayının 16-da Bakıya gələn N.Nərimanovun fəaliyyəti ayrı-ayrı dövrlərdə müxtəlif aspektlərdən təhlil olunmuş, rus siyasi xadimləri tərəfindən ona millətçi damğası vurulmuşdu. Azərbaycanda isə N.Nərimanov satqın, rus bolşeviki, xalqlar dostluğunun «carçısı» kimi qiymətləndirilmiş, onun haqqında bir-birini təkzib edən əsərlər yazılmışdır. 1956-cı ildə N.Nərimanova bəraət verildikdən sonra o, yenidən kommunist kimi təbliğ olunmuş, 80-ci illərin sonunda yenidən ona ikili münasibət formalaşmağa başla mışdı. Ümummilli lider Heydər Əliyev müsahibələrinin birində demişdi: «N.Nərimanovun 100 illiyi 1970-ci ildə tamam olsa da, yubileyi 1972-ci ildə keçirdik. Bu yubileyi keçirmək üçün iki il mübarizə aparmaq lazım gəldi. Çünki N.Nərimanova «millətçi» damğası vurulmuşdu. Millətçi ruhlu ermənilər belə bir rəy yaradırdılar ki, guya o yubileyi keçirilməyə layiq şəxsiyyət deyil»**.**

N.Nərimanova aid yazılmış əsərləri 2 qrupa bölmək olar. Birinci qrupa N.Nərimanovun həyat və fəaliyyətinə müsbət yanaşan, 2-ci qrupa isə onun fəaliyyətinə tənqidi yanaşan əsərlər daxildir. M.Qazıyev, T.Köçərli, V.Ağasiyev, D.Quliyev, B.Qəhrəmanov və başqalarının əsərləri birinci, A.Balayev, V.Məcidov, E.Məmmədova və digər müəlliflərin əsərləri isə 2-ci qrupa daxildir.

Son tədqiqatlardan məlum olur ki, 1920-1925-ci illərdə partiyadaxili mübarizədə rus-erməni qrupuna və onların əlaltılarına qarşı mübarizə aparan N.Nərimanov Stalin, Kirov, Orconikidze, Şaumyan tərəfindən təzyiqlərə məruz qalmış, 30-cu illərdə onun tərəfdarları repressiyanın qurbanı olmuşlar.

N.Nərimanovun «Ucqarlarda inqilabımızın tarixinə dair» məruzəsi, onun V.İ.Leninə məktubları göstərir ki, bolşeviklərin söz və əməllərinin bir-birinə düz gəlməməsi səbəbli onun kommunist ideologiyasına inamı azalmış, nəhayət özü də bu inamın qurbanı olmuş, Moskvaya «fəxri sürgünə» göndərilmişdi.

N.Nərimanovun baxışlarındakı ziddiyyətləri başa düşən M.S.Ordubadi yazırdı ki, «…o kommunizm məsələsində bir çox mürəkkəb və qarmaqarışıq fikirlər ortaya atırdı… Onun nəzəriy yəsində kommunizm ilə islamiyyəti barışdırmaq fikri mühüm yer tuturdu».

Tarixçi alim Musa Qasımov 1998-ci ildə nəşr etdirdiyi «Xarici dövlətlər və Azərbaycan» kitabında N.Nərimanovun 1920-1922-ci illərdəki fəaliyyətinə münasibət bildirərək qeyd etmişdir ki, «o və onun bolşevik dostları Azərbaycanın xoşbəxtliyini Rusiya ilə birgə olmaqda görmüşlər».

*«Nəriman Nərimanovun siyasi fəaliyyəti (1920-1921-ci illər)»* adlı namizədlik dissertasiysında F.Əhmədova (Bakı, 2000) əvvəlki elmi-tədqiqat işlərindəki fikirləri ümumiləşdirərək doğru nəticəyə gəlmişdir ki, N.Nərimanov zəmanəsinin gerçəkliyidir. Onu dövründən, mühitindən qoparmaq tarixi, elmi və siyasi yanlışlıqdır».

Ümumiyyətlə, N.Nərimanova ikili münasibət bütün tədqiqat işlərində bu və ya digər dərəcədə özünü biruzə verir. Hesab edirik ki, son iyirmi ildə yazılan əsərlər, müdafiə olunan dissertasiyalar da gələcəkdə bu cür tənqidlərə məruz qalacaqdır. Müasir mərhələdə Azərbaycanın müstəqillik qarantını Avropada axtaranlar da N.Nərimanov kimi tənqid və təhlil ediləcəklər. Hər halda tarix ən yaxşı hakimdir.

N.Nərimanovdan fərqli olaraq Azərbaycana 20-ci illərdə rəhbərlik etmiş digər rəhbərlər haqqında çox az yazılsa da, bunlarda da ikili yanaşmanın şahidi oluruq. Məsələn, M.S.İsgəndərov *«S.M.Kirov haqqında»* (1965) kitabında onu müsbət cəhətdən xarakterizə etdiyi halda, Z.Bünyadov «Elm» qəzetindəki (16 mart 1991) məqaləsində Kirovun Azərbaycanda törətdiyi cinayətlərdən söz açmışdır.

Göründüyü kimi, hər iki halda sözü zaman demişdi: 1965-ci il; 1991-ci il.

Azərbaycanın 20-30-cu illər tarixində Naxçıvan MSSR-in yaranması və Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili mühüm yer tutur. Bu məsələlərə aid C.Quliyev, Q.Mədətov, T.Köçərli, X.Vəzirov, A.Nadirov, Y.Yusifov, Y.Qasımov və başqa tarixçilər kitab və məqalələr yazmışlar. Onların əsas məzmununu Lenin milli siyasətinin təntənəsi təşkil etdiyi halda, H.Baykaranın 1970-ci ildə Türkiyədə nəşr olunan *«Naxçıvan»*, İ.Musayevin *«1917-1921-ci illərdə Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət» məqalə lərində,* M.B.Əliyevin 1993-cü ildə nəşr edilmiş *«Qanlı günlərimiz»* kitabında Naxçıvan MSSR-in yaranmasına fərqli münasibət bəslənilmişdir.

Eyni fikirləri DQMV-nin təşkili və vilayətin sonrakı illərdəki inkişafından bəhs edən əsər və məqalələr haqqında da söyləmək olar. Belələrinə R.Əliyev, İ.Əliyev, İ.Müslümov, K.Mehdiyev, R.İmanov, İ.Mosesova, E.Sarkisov və başqalarının əsərlərini gös tərmək olar. Bu əsərlərdə də DQMV-nin yaranması (əslində təşkili) Lenin milli siyasətinin təntənəsi hesab olunmuş, bölgədə baş verən hadisələr sovet tarixşünaslığı prinsiplərinə uyğun şəkildə işıqlandırılmışdır.

Azərbaycanda həyata keçirilən zorakı kollektivləşdirmə, sosialist sənayeləşdirilməsi və mədəni inqilab tarixçilərin diqqətindən yayınmamış, tarixçilərdən X. Əlimirzəyev, Y.A.Tokarjevski, X.Əliyev, A.Məmmədov, A.Atakişiyev, B. Qurbanov, S.Şərifov, A.Şirinova, M.Mirhadiyev, D.Qüdrətov, L.Əskərova və b. qeyd edilən məsələlərə dair məqalə və kitablar yazmışlar. Nəşr olunan kitab və məqalələrdə kollektivləşdirmə, sənayeləşdirmə və mədəni inqilabın həyata keçirilməsi xüsusiyyətləri, fəhlə sinfinin bu işdə rolu, yeni sənaye və kənd təsərrüfatı obyektlərinin yaranması kommunist partiyasının Azərbaycan xalqına qayğısı kimi qiymətləndirilmişdir. Lakin elə əsərlər də vardır ki, onlarda kənd təsərrüfatının zorakılıqla kollektivləşdirilməsi zamanı baş verən əyintilər, kollektivləşdirmə əleyhinə baş verən üsyanlar, KP-nın səhv siyasi xətti öz əksini tap-

mış, sosialistcəsinə sənayeləşmə və elliklə kollektivləşməyə keçilməsinin əsil günahkarının Stalin və onun yaratdığı sistem olduğu qeyd olunmuşdu. Bu fikir rus alimlərindən B.Xandrosun «Yunost» jurnalının 1990-cı il 12-ci sayında dərc olunan «Ölüm səhifələri» (1932-ci ildə Ukraynada kütləvi aclıq haqqında) və L.Kopelyuşinin «İzvestiə» qəzetində dərc olunan «Aclıq» (1933-cü ilin dəhşətli aclığı haqqında) məqalələrində də ifadə olunmuşdu. Məqalələrdə 1930 - 1933 - cü illərdə qazax əhalisinin 1,7 milyon nəfərinin aclıq dan və xəstəlikdən ölməsi, aşırı repressiya tədbirlərindən yaxa qurtarmaq üçün 1 milyondan artıq əhalinin Özbəkistana, Qırğı zıstana, RSFSR-ə və xarici ölkələrə köçməsi, 1932-1933-cü illərdə Ukraynada, Volqaboyunda və Rusiyanın digər bölgələrində baş verən kütləvi aclıqlar, kəndlərin boşalması və baş verən üsyanlar haqqındakı faktiki materiallar diqqəti çəkir.

Oxşar hadisələr Azərbaycanda da baş vermişdi. Kolxozlara daxil olmaq istəməyən kəndlilər təqiblərə məruz qalmış, sovet hakimiyyətinin düşmənləri elan olunaraq həbs edilmişlər. Bu baxımdan kollektivləşdirmə dövründə baş verən əyintilərə dair C.Həsənovun «Kollektivləşmə və tarixi həqiqət» məqaləsində, 1991-ci ildə nəşr olunmuş «*Ağ ləkə» lərin qara kölgəsi*» kitabındakı faktlar sovet hakimiyyətinin yeritdiyi siyasətin iç üzünü açır.

«Yuxarıdan inqilab» yolu ilə Azərbaycan şəraitində həyata keçirilən sürətli kollektivləşmə, kooperasiya tədbirlərinin rüsvayçı şəkildə təhrif edilməsi kəndlilərdə öz əməyinə inam ruhunu öldürmüşdü. Bu səbəbdən də, kommunist rejiminə qarşı mübarizə əksər hallarda ideoloji mübarizədən silahlı üsyana çevrilmiş, 1923-cü ilə qədər Azərbaycanda sovet Rusiyasına qarşı 53, 1941-ci ilə qədər 200-ə qədər irili-xırdalı üsyan, silahlı çıxış olmuşdu. Bu üsyanlar haqqında M.Ə.Rəsulzadə yazmışdı: *«Bütün milli müəssisələr bağlanılır, milli ordu dağıdılır, ziyalılar öldürülür…sinfi mübarizə alovlanır, ictimai nifrət qızışdırılır, qardaş qardaşa qarşı təhrik edilir, bir sözlə, məmləkət sovetləşirdi. Bütün bunlarla bərabər, milli müqavimət davam edirdi və*

*Azərbaycanın hər tərəfində qanlı hadisələr olurdu».* Ümumilikdə, bu silahlı üsyanlar haqqında Z.Bünyadovun, C.Həsənlinin, N.Yaqublunun, H.İsaxanlının, X.İbrahimlinin, M.Oruclunun, İ.Umudlunun, Ş. Nəzirlinin kitab və məqalələ rindən məlumat almaq olar**.**

Azərbaycanda sovet rejiminə qarşı milli müqavimət hərəkatının əsas formalarından biri də *qaçaqçılıq* hərəkatı olmuşdu. Lerikdə Şahsevən Əskər oğlu, Astarada Fəttah Rəsulov və Hüseyn Ramazanov, Qarabağda Gülmalı xan, Goranboyda qaçaq Musa, Nəbiağalıda Məmmədqasım Pirməmməd oğlu, Rüstəm və Təhməz Ramazan oğlanları, Qandal Nağı, Dəli Alı, Şəki-Zaqatala bölgə sində Molla Mustafa Şeyxzadə, polkovnik Bəhram bəy Nəbibəyov, qaxlı Sadıq bəy Balacayev, lahıclı qaçaq Cümşüd bu hərəkatın başçıları olmuşlar. Bundan başqa, Naxçıvanın Keçili kəndində, Xızı dairəsinin Ağdərə kəndində, Ağdamda, Gəncə dairəsinin Bitdili kəndində, Ağdaşın Piraza kəndində, Göyçayın Mollakənd kən dində qaçaqlar fəaliyyət göstərmişlər.

20-30-cu illərdə həyata keçirilən mədəni quruculuq tədbirlərinə dair xeyli kitab və məqalə yazılmışdır. Bu əsərlərdə qrafikanın dəyişməsi, ali məktəb quruculuğu, mədəniyyətin ayrı-ayrı sahələrinin inkişafına dair maraqlı faktlar vardır. Mədəni quruculuq sahəsindəki nailiyyətlər bu sahənin görkəmli tədqiqat çısı T.H.Musayevanın əsər və məqalələrində, xüsusi ilə 1979- cu ildə nəşr olunmuş və Dövlət mükafatına layiq görülmüş «Revolöüiə i narodnaə obrazovaniə» (Baku,1979) kitabında öz əksini tapmışdır.

30-cu illərin II yarısı və 40-cı illərdə bir sıra məsələlər istisna olunmaqla bəhs etdiyimiz problemlə bağlı diqqəti cəlb edən araşdırmalar aparılmamışdır. 40-cı illərin sonlarından başlayaraq 1917-1920-ci illər hadisələrinə diqqətin artdığının şahidi oluruq.

Müharibədən sonrakı dövrdə yazılan monoqrafiyalarda da ayrı-ayrı milli respublikaların xarici siyasətləri, müharibə edən ölkələrin Qafqaza münasibəti məsələlərinə toxunulmuşdur.

Azərbaycan alimləri də öz əsərlərində haqqında bəhs olunan problemdən bu və ya digər dərəcədə bəhs etmişlər. Lakin bu əsərlərin əsas nöqsanı ondan ibarətdir ki, müəlliflər bütün diqqəti sovet hakimyyətinin qurulmasının zəruriliyinə yönəltmişlər. 70-80-ci illərdə yazılmış bir çox əsərlər isə uğurlu olmayıb, antimilli mövqedə işlənmişdir.

30-cu illərin repressiyasına dair çox sayda kitab və məqalə yazılmışdır. Bunlarda iki istiqamət özünü göstərir. *Birinci* istiqamət Sov.İKP XX qurultayından sonra hakim olan xəttdən ibarətdir. Bu əsərlərdə bütün faciələrin günahı kommunist rejimi, Stalin hesab olunur.

*İkinci* istiqamət isə 1988-ci ildən başlayır. Bu dövrdə yazılan kitab və məqalələrdə repressiya dövründə baş verən faciələrin səbəbləri, subyektiv amillərin rolu cəmləşmişdi. Bu baxımdan Z.Bünyadovun «*Qırmızı terror*» kitabı xüsusi yer tutur. 1993-cü ildə çap olunan bu kitab arxiv materialları ilə zəngindir. Müəllifin hesablamalarına görə 1936-1937-ci illərdə təxminən 70-80 min Azərbaycan ziyalısı məhv edilmişdi. «Xalq düşmənləri» şahidsiz, müdafiəçisiz dindirilmiş, 15-20 dəqiqədə güllələnməyə məhkum edilmişlər.

Kitabın «Qadınlarımız - qurbanlarımız» başlıqlı hissəsində 1937-ci ildə güllələnmiş Mədinə Qiyasbəyli, 1938-ci ildə güllələnmiş Xədicə Qayıbova, 1939-cu ildə 5 il azadlıqdan məhrum edilmiş və 1943-cü ilin may ayında Sibirin Marinsk həbs düşərgəsində itkin düşmüş Gülarə Qədirbəyova haqqında, «Elm qırğını: Faciə» başlıqlı bölümündə repressiyaya uğramış 23 elm xadiminin, o cüm lədən Hənəfi Zeynallı, Bəkir Çobanzadə, Böyükağa Talıblı, Məmməd Cuvarlinski, Tağı Şahbazi, Yusif Vəzirov (Çəmən zəminli), həmçinin saxta ittihamlarla güllələnmiş səhnə ustaları Abbas Mirzə Şərifzadə və Ülvi Rəcəb, din xadimi Qazi Mir Məmmədkərim Ağa, 1938-ci ildə günahsız məhkum olunmuş Gəncə Toxuculuq kombinatının baş mexaniki Firuz Ələskər oğlu Suleymanov və kapitan Nəbi Murad oğlu Saniyev başda olmaqla məhkum olunmuş 33 nəfər azərbaycanlı zabit haqqında məlumatlar verilmişdir.

Repressiyaya uğramış insanlar haqqında C.Həsənlinin *«Ağ ləkə» lərin qara kölgəsi»* kitabında zəngin faktlar vardır. Müəllif kitabında Stalin - Bağırov qrupunun Azərbaycanda həyata keçirdiyi cinayətlərin kökünü açmağa cəhd göstərmişdi. H.Cavid, M.Müşfiq haqqında faktların əksəriyyəti tədqiqata ilk dəfə cəlb olumuşdur. Müəllifin şəhadətinə görə, 1937-1938-ci illərdə Azərbaycanda 40 min adam məsuliyyətə cəlb edilmiş və ümumilikdə, 30-40 və 50-ci illərdə 70 mindən artıq adam repressiyaya məruz qalmışdır.

Repressiya dövrünün acı nəticələri haqqında M.Katiblinin «Kommunist» qəzetində (11.VI.1988) çap olunmuş «30-cu illərin faciəsi», N.Barskinin «Kommunist» qəzetində çap olunan «Xəzərdə ölüm adası» (17.XII.1989), Z.Rüfətoğlunun «Səhər» qəzetində dərc olunmuş (13.IX.1990) «Repressiya edilmiş gerb», N.Kazımoğlunun «Tarix» qəzetində (21.X11999) dərc olunan «Arxiv sənədləri şahidlik edir», E.İsmayılovun «Mərkəz» qəzetində dərc olunan «Terror kompaniyası» (15.IV.2000), S.Musayevin «Ədə biyyat və incəsənət» qəzetində çap olunmuş «Böhranın qurbanı: şəxsiyyətə pərəstiş dövrünün qurbanlarından biri Azərbaycan KP MK-nın keçmiş katibi Ə.Xanbudaqov» məqalələri, N. Kazım oğlunun 1992-ci ildə nəşr olunmuş «*Getsin gəlməsin»* kitabında heyrətedici faktlar vardır. Ədəbiyyatın təhlilindən məlum olur ki, ümumilikdə, 1927-1928-ci illərdə 7, 9 milyon nəfər həbsxanalarda və acından ölmüş, 2 milyon adam Sovet İttifaqından qaçaraq canını qurtarmışdır.

Azərbaycan tarixinin ən ağrılı və şərəfli səhifələrindən birini respublikanın İkinci Dünya müharibəsində iştirakı problemi təşkil edir. Müharibə illərində Azərbaycandan ordu sıralarına 678.950 nəfər kişi cinsindən olanlar səfərbərliyə alınmış, 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata gəlmişdi. Azər baycanın II Dünya müharibəsində iştirakına dair Q.Mədətov, M.Abbasov, Ə.Bağırzadə, T.Novruzov, M.Alıcanov, Ə.Zeynalov, M.Əmrahov və başqa tarixçilər sanballı əsərlər yazmışlar.

Azərbaycan xalqı 1941-1945-ci illərdə sovet rejimi daxilində milli müstəqillik uğrunda mübarizəsini davam etdirmişdir. İ.Umudlunun «Ayna» qəzetinin 01.02.1997-ci il tarixli sayında dərc olunmuş «Azərbaycanda dissidentlik: belə bir şey olubmu?» adlı məqaləsində göstərilir ki, 1942-ci ildə 8 nəfərdən ibarət «Gizli millətçi gənclər qruplaşmasının» üstü açılmış və qrupun 3 üzvü güllələnməyə, 5 üzvü isə 10 il həbs cəzasına məhkum olunmuşdur.

Maraqlı faktlardan biri də, «Ədalət» qəzetinin 02.09.2000-ci il tarixli sayında çap olunmuşdu. Qəzetdəki «Ruslar Həzi Aslanovu gözümün qabağında güllələdilər» başlıqlı yazı - müsahibədə müharibə veteranı, müharibə dövründə H.Aslanovun yavəri olmuş Əliyev Adil Əli oğlu bildirir ki, Baqramyan Həzi Aslanova qısqanclıqla yanaşırdı. H.Aslanovun igidliyi, şəxsi keyfiyyətləri onu narahat etdiyindən Baqramyanın göstərişi ilə onun əkskəşfiyyatının polkovniki Solovyov Pyotr Vasilyeviç arxadan atəşlə Həzi Aslanovu qətlə yetirmişdi.

Müharibədən sonrakı illər Azərbaycan xalqının həyatında keşməkeşli dövr olmuşdu. Bu dövrün ən ağrılı səhifəsini azərbaycanlıların Ermənistan SSR ərazisindən – tarixi etnik torpaqlardan deportasiyası, totalitar rejimin güclənməsi, M.B.Bağırov və onun əlaltılarının xalqa qarşı qənim kəsilməsi təşkil edir.

Müharibədən sonrakı illərdə fəhlə sinfinin fəaliyyətinə, şəhərlərin salınmasına, kənd təsərrüfatının vəziyyətinə, mədəniyyətin ayrı-ayrı sahələrinin inkişafına dair materiallara A.Hüseynovun, A.Abbasovun, S.Səlimzadənin, Y.Qasımovun, Ə.Ənnağıyevin, B.Qurbanovun, A.Eldarovun, F.Əhmədşinanın, Z.Quliyevanın, M.Mehdizadənin, A.Xələfovun və b. əsərlərində rast gəlirik.

Tarixçiləri, bütövlükdə Azərbaycan ziyalılarını narahat edən problemlərdən biri də *deportasiya* problemidir. 50-60-cı illərdə o qədər də «aktual olmayan», «diqqətdən kənarda» qalan deportasiya məsələlərinə dair tarixçilərdən B.Nəcəfov, N.Məhərrəmov, M.Qasımlı, İ.Vəliyev, K.Muxtarov, F.Hüseynov, İ.Məmmədov, S.Əsədov və b. kitab və məqalələr

yazmışlar. Bunların içərisində B.Nəcəfovun «*Deportasiya*», İ.Umudlunun 1999-cu ildə çapdan çıxmış «*Sovet dövründə Azərbaycanda dissident fikir cərəyanı» kitabları,* M.Mirhadiyevin «Kommunist» qəzetindəki (22.09.1988) «Alimin şöhrəti və faciəsi» adlı məqaləsi xüsusi maraq kəsb edir.

50-ci illərlə müqayisədə 60-80-ci illərin tarixşünaslığı özünün mövzusu, xarakterik xüsusiyyətləri, cəmiyyətdəki hadisələrə münasibəti baxımından seçilir. Azərbaycanın 1985-1991-ci illər dövrü elmi ədəbiyyatda müxtəlif bölmələrlə verilsə də, əsas diqqət milli müstəqillik ideyasının güclənməsinə yönəldilmişdi. Xüsusi ilə «Dağlıq Qarabağ problemi» nin meydana atılması, münaqişənin kəskinləşməsi, separatçılıq meyllərinin güclənməsi, demokratik hərəkatın boğulması cəhdləri, milli - azadlıq hərəkatının genişlənməsi, sovet imperiyasının süqutu və Azərbaycan Respublikasının Azadlıq Bəyannaməsinin qəbulu və sair məsələlər bu dövrün tarixşünaslığında aparıcı yer tutur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öyrənilməsi üçün ən mühüm yolgöstəricilərdən biri Ümummilli lider H.Əliyevin bu problemin həllinə dair dəyərli müddəaları, xarici ölkələrə səfəri zamanı etdiyi məruzələr, nitq və çıxışlarının toplandığı kitablar mühüm əhəmiyyət kəsb edir.

Erməni silahlı dəstələrinin azərbaycanlıları qətlə yetirməsi, deportasiya və qaçqınlıqla əlaqədar faktlar V.Arzumanlı və N.Mustafanın «*Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlar»* (Bakı, Qartal, 1998) kitabında geniş yer almışdı.

Tarix elmləri doktoru, professor Ə.Həsənovun *«Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)»* (Bakı, Qanun,1998), *«Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997)»* (Bakı, Azərbaycan Universiteti, 1997), *«Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996)»* (Bakı, Azərnəşr, 1998) adlı kitablarında Azərbaycan Respublikası-ABŞ münasibətləri və Dağlıq Qarabağ münaqişəsində Amerika diplomatiyasının mövqeyi şərh edilmişdir.

V. Abdullayevin *«Azərbaycan yeni diplomatiya məkanında»* kitabında (Bakı, Azərnəşr, 2000) «Dağlıq Qarabağ problemi» nin həlli uğrunda Azərbaycan Respublikası prezidenti İlham Əliyevin fəaliyyəti işıqlandırılmışdır. Bu sahədə T.Qaffarovun «*Azərbaycan tarixi» (1920-1991*) **(**1999), «*Azərbaycanın ən yeni tarixi*» (2006) kitabları diqqəti cəlb edir. X.Məmmədovun, Ə.Elçibəyin, A.Mansurzadənin kitabları hadisələrin araşdırılmasında istiqamətverici rola malikdir. Bu dövrdə nəşr olunan mətbuat vasitələrində də milli-demokratik və milli-azadlıq hərəkatının istiqamətlərinə dair materiallar dərc olunmuşdur.

Azərbaycan tarixinin milli müstəqillik uğrunda mübarizə dövrü kimi xarakterizə olunan 1988-1991-ci il dövrü ilə əlaqədar müraciət edilən mövzulardan biri də 20 yanvar faciəsidir. Mövzuya aid T.Köçərli, M.İbrahimov, R.Zeynalov, A.Balayev, T.Əsədullayev, M.İsmayıl, N.Hacıyev və b. kitablar və məqalələr yazmışlar**.** Bü mövzuya dair A.Balayevin, R.Mirzənin, Q.Kəngərlinin, İ.Vəliyevin və b. kitabları nəşr olunmuşdur. Bunların içərisində Aydın Balayev və Rasim Mirzənin 2000-ci ildə nəşr olunan *«20 yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990-2000)»* adlı kitabı faktiki materialların çoxluğu, hadisələrə obyektiv qiymət verilməsi baxımında digərlərindən fərqlənir.

Azərbaycan XXI əsrə qədəm qoymuşdur. Yeni əsrin ilk onilliyi tamam olmaqdadır. Bu on ildə Azərbaycan xalqı dövlət müstəqilliyini möhkəmləndirmək yolunda önəmli addımlar atmış, istər siyasi, istər iqtisadi, istərsə də mənəvi sahədə bir sıra nailiy yətlər qazanmışdır. Həyatın ayrı-ayrı sahələrində əldə olunan nailiyyətlər xalqın tarixinin, xüsusi ilə milli-azadlıq hərəkatı tarixinin yenidən işlənməsinə imkan yaratmışdır. Bu sahədə əldə olunan uğurlar sırasına tarix elmləri doktoru, professor Musa Qasımlının 2006-cı ildə İstanbulda nəşr olunan *«Azərbaycan türklərinin milli mücadilə tarixi.1920-1945»* monoqrafiyası daxil edilməlidir. Kitabda AXC-nin süqutu, Azərbaycanın sovetləşmə sindən başlayaraq 1920-1923-cü illərdə

Azərbaycanda baş verən hadisələr, antisovet çıxışları, «Müsavat», «İttihad» və digər partiya üzvlərinə qarşı həyata keçirilən terror əməliyyatları, həbslər, Azərbaycandan kənara mühacirət etmiş şəxslərin Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi, 1930-cu il antisovet üsyanları, müharibə ərəfəsində və müharibə illərində Azərbaycan siyasi mühacirətinin fəaliyyəti arxiv materialları əsasında şərh edilmişdir. Kitabda bundan əvvəl sovet dönəmində Azərbaycan türkləri haqqında söylənilmiş rəsmi və qeyri-rəsmi bütün fikirlər faktların dili ilə alt-üst edilmişdir. Diqqəti çəkən odur ki, müəllif gizli sənədləri üzə çıxarmış, onlardakı faktlar tədqiqata ilk dəfə cəlb edilmişdir.

Beləliklə, göründüyü kimi, «XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı» mövzusu geniş olmaqla bərabər, hərtərəfli araşdırmaya ehtiyac duyulan problemlərdən olsa da, bu vaxtadək tələbələr üçün ümumiləşdirilmiş vəsait hazırlanmamışdır. Ali məktəb tələbələri üçün dərslik kimi nəzərdə tutulmuş «XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı» kitabı bu sahədə ilk təşəbbüsdür və təbii ki, nöqsanlardan xali deyildir.

İrad və təkliflər üçün əvvəlcədən minnətdarlığımızı bildiririk.

# I FƏSİL

## XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanın ictimai-siyasi və iqtisadi vəziyyəti. Milli-demokratik fikir

### 1.1. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda iqtisadi vəziyyət

XIX əsrin sonları - XX əsrin əvvəllərində Rusiya kapitalist istehsal münasibətlərinə cəlb olunmaqda idi.

Azərbaycan iqtisadiyatında da irəliyə doğru addımlar hiss olunur, sənayenin bir sıra sahələrində yeniliklər tətbiq edilirdi. Qəzaların təsərrüfat cəhətdən ixtisaslaşması, kənd təsərrüfatı məhsulları istehsalının genişlənməsi, əmtəə istehsalının kapitalist əmtəə istehsalına çevrilməsi prosesi dərinləşirdi.

XX əsrin əvvəllərində Bakı müstəsna olmaqla Azərbaycanda sənaye zəif inkişaf edirdi. Əsasən kənd təsərrüfatı xammallarının emalı ilə məşğul olan xırda müəssisələrin - şərab çəkən, sabun bişirən, gön aşılayan, yağ əridən zavodların, dəyirmanların və s. sayı artırdı. Lakin neft sənayesi nəzərə alınmazsa, XX əsrin əvvəllərində Azərbaycan sənayesi az məhsul verirdi. Neft ixracı əsasən Nobel qardaşları, Rofşild və s. kimi şirkətlərin əllərində cəmləşmişdi.

1901-1903- cü illər böhranı neft istehsalı və emalı ilə məşğul olan şirkətlərin vəziyyətinə də təsir etmişdi. Məsələn, 1902-ci ildə 167 şirkətdən ancaq 136-sı neft çıxarılmasını davam etdirirdi. 1901-ci il yanvarın 1-nə Bakıda 78 zavod vardır ki, bunlardan 51-i ağ neft, 18-i ağ neft yağ, 2-si benzin, 1-i benzin-yağ, 1-i sabun-yağ, 2-si qudron zavodu idi.

Neft daşınması və ixracına gəldikdə isə bu sahədə ixtisar müşahidə olunurdu. 1900-cü ildə Bakıdan 443 milyon pud, 1902-ci ildə 513 milyon pud, 1903-ci ildə 494 milyon pud neft aparılmışdı.

XIX əsrin sonları - XX əsrin əvvəllərində artıq neft sənayesində ilk inhisar birlikləri meydana çıxmağa başlayır. Onlardan «Bakı ağ neft zavodçularının ittifaqı»nı (1893-1897), «Nobel qardaşlarının korserni» ni (1901-1920), «Oyl» trestini (1912-1916), «Poyal-Datç Şell» (1912-1920) və «Rusiya neft birliyi» konsernini, «Qazma işləri sahibkarları» sindikatlarını (1906), «Gəmi sahibkarları» sindikatını göstərmək olar.

Neft sənayesində istehsalın təmərgüzləşməsi və kapitalın mərkəzləşməsi, neft sənayesinin bu sahəsində inhisarçı birləşmələrin meydana çıxması bank kapitalının neft sənayesinə nüfuzuna yol açdı. Banklar böyük qüvvəyə malik inhisarlara çevrilirdilər. Maliyyə kapitalı meydana çıxırdı. Bakıda fəaliyyət göstərən Britaniya şirkətləri 1828-1903-cü illərdə Bakı neft rayonu müəssisələrinə 47 milyon manat pul qoymuşdular. 1902-ci ildə Bakıda 39,4 milyon manat kapitalı olan 11 ingilis müəssisəsi var idi.

Amerikanın «Standart Oyl» tresti də Bakı neftinə maraq göstərirdi. Bu trestin Batumda təsis etdiyi böyük ticarət bürosu İtaliyaya göndərmək üçün ağ neft tədarük etmək barədə Rotşiltlə müqavilə bağlamışdı.

Bakl gəmi sahibləri içərisində birləşmək meylləri hiss olunurdu. Onlar «Maye yanacaq gəmiləri ittifaqı» adı altında birləşmişdilər. 1904-cü ilin əvvəllərində onun tərkibində 134 gəmi var idi.

Bakı neftində rus kapitalını Kokorev, Sivayev, Benkendorf, qərb kapitalını Nobel, Rotşild, Simens, Vişau və başqaları, Azərbaycan türk kapitalını Tağıyev, Nağıyev, Muxtarov və başqaları təmsil edirdilər. XX əsrin əvvəllərində 167 neft sənaye müəssisəsindən 49-u, yaxud 29,3% - i Azərbaycan kapitalistlərinin əlində idi. 1900-cu ildə Bakı vilayətində fəaliyyət göstərən 204 neft sənayesi müəssisəsi 115 kapitalist sahibkarın əlində cəmləşmişdi. Onların arasında Azərbaycan kapitalistləri ümumi kapitalın 18%-ə sahib idilər.

Başqa sənaye sahələrində də vəziyyət dəyişirdi. Azərbaycanın rayonlarında istehsal edilən mis, duz, kobalt və başqa xammalların siyahısına ipək, balıq, kürü kimi məhsullar da əlavə olunmuşdu.

Bakı təkcə neft mərkəzi kimi yox, həm də Bakı - Batum dəniz yolu tranzit mərkəzi kimi də iqtisadi həyatda əhəmiyyətli rol oynamağa başlamışdı.

XIX əsrin 80-ci illərinin əvvəllərində ticarət müəssisələrinin sayı artırdı. 1881-ci ildə Bakı şəhərində 1.445, 1890-cı ildə 1.711, 1900-cü ildə isə 2.669 ticarət müəssisəsi vardı. 1887-ci ildə bank və ticarət müəssisələri arasında 3.703 ticarət sazişi bağlandığı halda, 1895-ci ildə 7.118 ticarət sazişi bağlanmışdı.

Topdan satış müəssisələrinin sayında artım nəzərə çarpırdı. 1892-ci ildə Bakıda topdan neft satışı ilə 19 ticarət müəssisəsi məşğul olurdusa, 1897-ci ildə onların sayı 49-a çatmışdı. Tacirlərin tərkibində də dəyişiklik baş vermişdi. 1897-ci ildə Bakıda qeydə alınan 7.348 tacirin 192 nəfəri komissiyonçu, 957 nəfəri yeməkxana, meyxana, kozino sahibləri, 5.436 nəfəri isə əsl tacir idi.

Sənaye müəssisələrinin artması, ticarətin genişlənməsi milli kapital sahiblərinin gəlirinin artmasına təsir göstərirdi. Milli Azərbaycan kapitalistlərinin əsas nümayəndələri olan Hacı Zeynalabdin Tağıyevin və Musa Nağıyevin illik gəliri 16 milyon, Şəmsi Əsədullayevin gəliri 2,5 milyon, İ.Hacınskinin, A.Rzayevin və H.Dada şovun hər birinin illik gəliri 2 milyon manat idi. Göründüyü kimi, milli Azərbaycan burjuaziyası yetişirdi.



**Ş.Əsədullayev**

Bakıda neft sənayesinin inkişaf etməsi Azərbaycanın qəzalarında müxtəlif sənaye sahələrinin yaranmasına təkan verdi. Nuxada *ipəkçilik,* Naxçıvanda *duz* sənayesi, Gədəbəy və Daşkəsəndə *mis, kobalt* çıxarılması, Xəzərdə və Kür sahillərində *bağçılıq* inkişaf etməyə başladı.

1865-1882-ci illərdə Gədəbəy mis mədənlərindən 15,5 milyon pud mis külçəsi əldə edilmişdi. 1895-ci ildə təkcə bir ərazidən 887, 5 min pud duz çıxarılmışdı.

XX əsrin əvvəllərində Azərbaycanda pam bıq və digər bitkilərin əkin sahələri genişləndirilir, su çəkən stansiyalar qurulurdu.

Kənd əhalisi başlıca olaraq *əkinçiliklə* məşğul olur, əsasən buğda, arpa və çəltik, az miqdarda qarğıdalı, çovdar, kartof, lifli və yağlı bitkilər becərirdi.

*Pambıqçılıq* sürətlə inkişaf edirdi. 1903-cü ildə Göyçay qəzasında 2.945 desyatın, Cavad qəzasında 1.450 desyatın sahədə pambıq əkilmişdi. Həmin ildə Göyçay gəzasında 44.071 pud, Cavad qəzasında 13.685 pud pambıq məhsulu götürülmüşdü.

1904-cü ildə Ağdaşda toplanan Qafqaz pambıqçılarının birinci qurultayı Azərbaycanda pambıqçılığın inkişafında əhəmiyyətli rol oynadı.

Kənd təsərrüfatının mühüm sahələrindən biri *tütünçülük* idi. 1891-ci ildə Bakıda illik istehsalı 660,1 min manat olan dörd tütün fabriki, Gəncədə 3 tütün fabriki işləyirdi. 1899-cu ildə tütün fabriklərinin məhsul istehsalı 1,2 milyon manata çatmışdı. Şamaxıda, Nuxada yerləşən fabriklər tənbəki istehsal edirdilər.

Tütün fabriklərinin sayının və məhsul istehsalının artması ilə əlaqədar 1903-cü ildə tütün sahələrinin həcmi 485 desyatinə çatdırılmışdı.

*İpəkçilikdə* birinci yeri Qarabağ tuturdu. İpək baramasının mexaniki şəkildə qurudulması ilk dəfə Şuşada tətbiq edilmişdi. İpəkçilikdə Ordubad da mühüm rol oynayırdı. İlk dəfə olaraq Ordubadda buxarla işləyən maşınla ipək parça toxunmuşdu. 1886-cı ildə fabrikdə 4 ipək toxuyan maşın var idi ki, onlarda 300 pud ipək istehsal edilmişdi.

Zaqatala ipək fabrikində də maşınlardan istifadə olunurdu. 1886-cı ildə Zaqatala fabrikində 86 dəzgah və 142 sapeşmə maşını var idi. Ümumiyyətlə, Cənubi Qafqazdan xarici ölkələrə ixrac edilən ipəyin 90%-ni Azərbaycan verirdi.

İpək istehsalında Nuxa birinci yer tuturdu. 1861-ci ildə 1.200 pud əla növlü ipək emal edilmişdi. 1862-ci ildə London yarmarkasında Azərbaycanın xam ipəyi və ipək baraması medala layiq görülmüşdü.

İpəkçiliyin inkişafına 1902-ci ildə Gəncədə toplanmış ipəkçilərin qurultayı təkan verdi. Qurultay ipəkçiliyin inkişafı üçün tut plantasiyalarının genişləndirilməsini, sağlam ipək qurdu yetişdirilməsini vacib saydı.

İpəkçiliyin inkişafında 1900-cü ildə Göyçayda və Kürdəmirdə təşkil olunan baramaçılıq məktəbləri də əhəmiyyətli rol oynadı.

Bəhs olunan dövrdə *balıqçılıq* özünəməxsus yer tuturdu. Azərbaycan balığı və kürüsü keyfiyyətinə və dadına görə dünyada tanınırdı. Tağıyev, Mantaşev, Mayılov, Lianozov və başqaları balıq sənayesinin böyük bir qismini əllərinə almışdılar. 1898-1900-cü illər arasında 2. 418.7 milyon pud balıq istehsal edilmişdi.

Balıqçığın inkişafı ilə konserv sənayesi, dəniz nəqliyyatı, gəmi təmiri tərsanələrinin inkişafına yol açıldı. 1900-cü ildə Bakıda artıq 9 gəmi tərsanəsi var idi.

Azərbaycanın kənd təsərrüfatında *bağçılıq və üzümçülük* mühüm rol oynayırdı. Şamaxı, Göyçay, Kürdəmir, Şuşa, Naxçıvan, Ordubad və Azərbaycanın başqa qəzalarında dadlı üzümlər yetişdirilirdi. 1897-ci ildə Cənubi Qafqazda istehsal olunan şərabın 25%-i Azərbaycanın payına düşürdü. Gəncədə, Yelenendorf (indiki Göygöl rayonu) alman koloniyasında istehsal edilən konyak XIX London yarmarkasında qızıl medala layiq görülmüşdü.

Bostan məhsulları-tərəvəz, qarpız, qovun və başqa bitkilər istehsalı artırdı. Kartof sahələri də genişlənirdi.

XIX əsrin sonu- XX əsrin əvvəllərində Azərbaycan Zaqafqaziyanın iri *maldarlıq* rayonlarından biri idi. Maldarlıq təsərrüfatında başlıca yeri qoyunçuluq tuturdu. 1900-cü ildə Bakı quberniyasında 1.017.917 baş, 1903-cü ildə isə 1.527.332 baş mal-qara var idi. Yelizavetpol quberniyasında 1903-cü ildə 3 milyon başdan çox mal-qara saxlanılırdı.

Çar Rusiyası öz müəssisələrini xammalla təmin etmək üçün Cənubi Qafqazda daxili şosse və dəmir yolları çəkmişdi. Təkcə

1890-cı ildə Bakı stansiyalarından Rusiyaya 55 milyon pud müxtəlif mallar daşınmışdı.

Neft Rusiyaya dəmir yolu və dəniz vasitəsi ilə daşınırdı. Bakı-Batumi dəmir yolu Qərb ilə Şərq ölkələri arasında tranzit yolu rolu oynadığından Bakı limanının həcmi genişləndirilmişdi. Bu səbəbdən də, Qərbi Avropaya, Amerikaya, İrana, Əfqanıstana və Türkmənistana tranzit yüklərin daşınması üçün Bakıda ticarət müəssisələri bürosu yaradılmışdı.

1899-cu ildə Xəzərdə 945 yelkənli gəmi üzürdü. Bunların 133-ü buxarla işləyirdi. Xəzər dənizi Rusiya imperiyasının gəmiçilik mərkəzi rolunu oynayırdı. Qara dəniz, Aralıq dənizi və Baltik dənizində olan yük gəmilərinin 40%-i Xəzərdə yerləşirdi.

Daxili ticarət də inkişaf edirdi. Bu sahədə «Həftə bazar» ları" əhəmiyyətli rol oynayırdı. Sonralar bu cür bazarlar yarmarkalara, daha sonra isə topdan və pərakəndə satış bazarlarına, ixracatla məşğul olan tacirlərin mühüm məntəqələrinə çevrilirdilər. «Həftə bazarları» həm də sosial xidmətlər göstərirdi.

Beləliklə, Azərbaycanda kapitalist istehsal münasibətləri inkişaf edir, muzdlu əmək tətbiq edilir, kəndlilərin təbəqələşməsi prosesi sürətlənirdi. Azərbaycan əhalisinin tərkibi dəyişir, şəhər əhalisi artır, şəhərlər təşəkkül edirdi. Şamaxı, Bakı, Quba, Gəncə, Nuxa, İrəvan, Şuşa kimi şəhərlərdə daha çox əhali toplaşırdı.

Bakının əhalisi  sürətlə artırdı. 1820-ci ildə Bakıda 2.500 nəfər yaşayırdısa, 1905-ci ildə bu rəqəm 206.000, 1917-ci ildə isə 231.100 nəfər çatmışdı.

1860-cı ildə Azərbaycan əhalisinin 12,2 %-i şəhərlərdə yaşayırdı. 1897-ci ildə Bakı quberniyası əhalisinin 20%-i şəhərdə cəmləşmişdi. Təkcə 11 il ərzində - 1886-1897-ci illərdə Gəncənin əhalisi 63 % , Lənkəranın əhalisi 107 % , Zaqatalanın əhalisi 147 % artmışdı.

Göründüyü kimi, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda milli burjuaziyanın yaranması üçün şərait yetişirdi. Un və çəltik təmizləyən zavodlar Ağabala Quliyev, Zülfüqarovlar, Səttar Kərimov və başqalarına məxsus idi.



***H.Z.Tağıyev***

Səlimxanov neft sənayesində ən böyük kapitalist sayılırdı. Bakıda ilk toxuculuq fabrikini *H.Z.Tağıyev* inşa etdirmişdi. Dəniz və çay nəqliyyatında Dadaşovlar, Hüseynovlar, Aşurov, Manafov, Zeynalov, ipəkçilik sənayesində Nuxada Hacı Kərim, Hacı Vahab oğlu, İbrahim Əkbər oğlu, Hacı Abdulkərim oğlu, Hacı Məmməd Rəhim oğlu, balıq sənayesində Tağıyev, Sultanov, Əhməd Mustafa oğlu, Ağa Mustafa oğlu və başqaları daha üstün idilər.

Şübhəsiz ki, yeni yaranan müəssisələrdə insanlar işləməli idi. Yeni müəssisələrin işçiləri isə əsasən fəhlə sinfi idi. 1901-ci ildə Azərbaycan neft sənayesində 26.637 nəfər fəhlə işləyirdi. Neft quyularının qazılmasında 5.409 nəfər, neft təmizləyən zavodlarda 3.865 nəfər çalışırdı. Bundan başqa, gəmi təmiri tərsanələrində, «Nobel», «Qafqaz Merkuri», «Xəzər» şirkətlərində, zavod və fabriklərdə, Bakı və onun ətrafındakı kimya müəssisələrində, Naxcıvan duz mədənlərində minlərlə fəhlə calısırdi.

Fəhlələrin bir hissəsini Cənubi Azərbaycandan gəlmələr təşkil edirdi. Mirzə Bala Məmmədzadə qeyd edirdi ki, 1917-ci ildə Bakıda 15.000-dən çox İran təbəəsi olan işçi çalışırdı.

Azərbaycan burjuaziyasının və fəhlələrinin tərkibi çoxmillətli idi. Təkcə Bakıda yaşayan fəhlələrin tərkibində 30 millətin nümayəndəsi var idi. Bu da Bakı neftinə dünya kapitalistlərinin böyük marağı və rus imperiyasının digər bölgələrindən buraya iş dalınca fəhlə axını ilə əlaqədar idi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda mütərəqqi demokratik fikirli və milli şüurlu ziyalılar dəstəsi

təşəkkül tapırdı. Millətin taleyini düşünən ziyalılar çarizmin milli və müstəmləkə zülmünü tənqid atəşinə tutmaqla yanaşı, xalqı maarifə, mədəniyyətə, elmə çağırırdılar. M. F. Axundov, H. B. Zərdabi, C. Məmmədquluzadə, M.Ə. Sabir, S.Ə. Şirvani, N. Nərimanov, Ə. Haqverdiyev, N.B. Vəzirov, M. Ə. Rəsulzadə, Ə. Topçubaşov, Ə. Hüseynzadə, Ə. Ağayev (Ağa oğlu) və başqaları belələrindən idi.

### 1.2. XIX əsrin sonu -XX əsrin əvvəllərində Azərbaycanda ictimai - siyasi vəziyyət

XIX əsrin ortalarında Rusiya Azərbaycan torpaqlarını iki hissəyə bölməyə nail oldu. Şimali Azərbaycan uzun müddət Rusiya işğalı ilə razılaşmayaraq ona müqavimət göstərdi.

Rusiya Azərbaycan ərazisinə «xammal mənbəyi»" kimi baxırdı. Tələsik aparılan islahatlar əhəmiyyətli nəticə vermirdi. Uzun durğunluqdan sonra 70-ci illərin əvvəllərində «neft inqilabı»" baş verdi. Şimali Azərbaycanda kapitalist münasibətləri inkişaf etməyə başladı, cəmiyyətdə sosial struktur dəyişiklikləri baş verdi. Bütün bunlar isə milli ideoloji fikir və baxışlarda irəliləyişə zəmin yaratdı.

XIX əsrin ortalarından başlayaraq Avropa və ənənəvi islam mədəniyyətinin qarşılıqlı əlaqəsi və təsirinin genişlənməsi milli ziyalıların formalaşmasını sürətləndirdi. 40-cı illərdə Avropa intelektual sərvətlərinin ötürücüsü rolunu oynayan *birinci nəsil* formalaşdısa, 1870-ci illərə yaxın isə millətin yüksəlişinə can atan, yeni sosial münasibətlərin yaradılmasına və köhnənin dağıdılmasına çalışan *ikinci nəsil* formalaşdı.

70-ci illərdə formalaşan ikinci nəslin nümayəndələri arasında milli maarifçilər: *M.Axundov, H. Zərdabi* və b. mühüm yer tuturdu.

**Axundzadə (Axundov) Mirzə Fətəli Məhəmmədtağı oğlu (12.07.1812 Şəki - 10.03. 1878.Tiflis)** Şərqdə milli - azadlıq ideyalarının ilk təbliğatçılarından olmuşdu. Molla xanada


**M.F.Axundzadə**

oxuyan Fətəli Axundzadə atalığı Axund Hacı Ələskərdən, gəncəli Molla Hüseyn Pişnamazzadədən, şair Mirzə Şəfi Vazehdən xüsusi dərs almış, ərəb və fars dillərini, xəttatlığı öyrənmişdi. 1833-cü ildə Nuxa qəza məktəbinə daxil olan Fətəli bir il orada oxuduqdan sonra Axund Ələskərin təşəbbüsü ilə Tiflisə köçmüşdü. Sonralar Qafqaz canişinliyi Baş idarəsinin dəftərxanasında mülki işlər üzrə baş tərcüməçinin köməkçisi, 1858-ci ildə canişinliyin Baş Siyasi idarəsinin tərcüməçisi təyin olunmuşdu. M.F.Axundzadə dövlət işləri ilə yanaşı bədii yaradıcılıqla məşğul olmuş, 1850-1855-ci ilərdə 6 məşhur komediyasını, 1857-ci ildə «Aldanmış kəvakib» pyesini yazmışdı. Ədibin «Puşkinin ölümünə Şərq poeması», «Zakirə məktub» ları, «Yeni əlifba haqqında mənzumə» si və b. şeirləri yüksək bədii səviyyəsi ilə seçilir. «Kəmalüddövlə məktubları» nda ədib islam ölkələrində tərəqqi yolunda buxova çevrilən fanatizmin köklərini açmışdı. O, məktublarının birində «Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri öyrənmək, xalqımızın azadlığı, rifahı və sərvətinin arması üçün islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir» deyə yazırdı. Məqsədinə nail olmaqda daha çox maarifçiliyə üstünlük verən ədib cəmiyyəti dəyişmək, yeni bir dünya yaratmaq məsələsində mütərəqqi ideyaların təbliğini birinci şərt hesab edirdi.

M.F.Axundzadə maarifçilik məramnaməsində müsəlman xalqlarının müasir dövrdə inkişafı üçün əlifbanın dəyişdirilməsini başlanğıc sayaraq yazırdı ki, «...bütün işlərin əsası bilikdir, bilik isə əlifbanın asan olmasından ibarətdir». Böyük ədib əlifbanın dəyişdirilməsinə din bayrağı altında xalqların dövlətçilik ənənələrini dağıdan, mədəniyyətini məhv edən ərəb istilasının təzahürü saydığı mənəvi əsarətdən xilas olmaq vasitəsi kimi baxırdı. Böyük mütəfəkkir minillik səltənətimizin dağıdılmasından, vətənimizin xarabazara çevrilməsindən, xüsusilə öz əlifbasını zorla qəbul etdirdiklərindən ürək ağrısı ilə bəhs edərək baş verən müsibətləri əlifba ilə bağla-

yırdı. M .F. Axundov əsərləri ilə Azərbaycan cəmiyyətinə yeni istiqamət vermiş, milli mədəniyyətin inkişafına böyük təsir göstərmişdi. Bu səbəbdən də XIX əsr «Mirzə Fətəli əsri» kimi qiymətləndirilir.

Şəxsiyyəti və yaradıcılığı son zamanlar mübahisə obyektinə çevrilən Axundov milli özünüdərketmə şüurunun ziddiyyətlərini özündə cəmləşdirmişdi. O, bir tərəfdən antiottman əhval-ruhiyyədən xali deyildisə, digər tərəfdən doğma dilin ədəbi dirçəlişinə verdiyi töhvəyə görə türk xalqlarının milli özünüdərkinin formalaşdırılmasında mühüm rol oynamışdı.

M.F.Axundov azadlığa nail olmağın yollarına münasibət bildirərək yazırdı «... zülmü aradan qaldırmaq üçün heç də zalıma müraciət etmək lazım deyildir, bəlkə əksinə, məzluma demək lazımdır ki, ...bəs nə üçün zülmə qatlaşırsan... Adamların damarlarına təzə və isti qan dağıtmaq və onları hərəkətə gətirmək lazımdır, göz qabağında olan bu əsas kökündən, dibindən qoparılmalıdır».

Böyük mütəfəkkir Azərbaycan xalqının azadlığa çıxacağına, yadellilərin ölkədən qovulacağına inanaraq yazırdı: «...Yaxın gələcəkdə vətənimiz yadların ardınca gedənlərin mənhus vücudundan təmizlənəcəkdir! Yurdumuz yenidən gülüstana çevriləcəkdir».

M.F.Axundov Azərbaycan xalqının sosial-iqtisadi, mədəni-mənəvi təşəkkülünü «millət» kimi dəyərləndirirdi. «Kəşkül» qəzeti bu təşəkküldən «türk milləti» deyərək bəhs edirdi.

**H.Zərdabi** həyatını xalqının oyanması işinə sərf etmişdi. Həsən bəy 1875-ci ildə ilk türk mətbuatının - «Əkinçi» nin əsasını qoy muşdu. Avropa nümunəli ilk azərbaycanlı jurnalist olan H. Zərdabi Azərbaycan xeyriyyə cəmiyyətinin və teatrının banisidir.

1877-ci ildə «Əkinçi» qəzeti bağlananda onun işi əvvəllər «Ziya» (1879-



**H.Zərdabi**

1881), «Qaf qazın ziyası» (1881-1894), «Kəşkül» (1884-1891) ədəbi jurnalı, sonralar isə «Şərqi-Rus», «Həyat», «İrşad», «Molla Nəsrəddin», «Füzyüzat» tərəfindən davam etdirildi. H. Zərdabi belə hesab edirdi ki, millətimiz dünyanın qabaqcıl maarif və mədəniyyətinə yiyələnməsə ömürlük əsarətə düşə bilər.

H.Zərdabinin milli dirçəliş ideyaları hökumət dairələrini narahat etməyə başlamış, o hökumət məmurlarının qara siyahısına düşmüş, etibarsız adama çevrilmişdi. 1877-ci ildə «Əkinçi» bağlanır, iki il sonra Həsən bəy Zərdabi Bakı realnı məktəbindən müəllim likdən azad edilir, Bakını tərk etməyə məcbur olur. Zərdab kəndinə köçən Həsən bəy 16 ildən sonra Bakıya qayıdır. «Kaspi» qəzetində əməkdaşlıq edən Həsən bəy 1891-ci ildə Bakı Şəhər Dumasının məktəb komissiyasının üzvü seçilir. 1906-cı ildə Qafqaz müsəlman müəllimlərinin birinci qurultayı H.Zərdabinin sədrliyi ilə keçir.

H.Zərdabinin təbliğ etdiyi ideyalar sayəsində milli dirçəliş, siyasi müstəqillik və dövlətçilik ideyaları formalaşdı. Sözsüz ki, bütün ideyaların nəticəsi idi ki, 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti quruldu.

XIX əsrin sonları dünya müsəlmanları və türk xalqları arasında siyasi-milli prosesin dərinləşməsi, millətlərin meydana gəlməsi, bir sıra cərəyan və hərəkatların yaranması ilə səciyyəvidir. Yusif Axcura oğlunun 1928-ci ildə İstanbulda çapdan çıxan «Türk fikri, türk hərəkatı, türk ocaqları» əsərində yazdığı kimi, nəsil tayfa hadisələrinin milli təfəkkür səviyyəsinə yüksəlməsi Şərqdə deyil, Qərbdə başlanmışdı. O, yazırdı: «Millət» anlayışı Avropada meydana gəlmiş, Avropa ilə sıx əlaqədə olan tayfalar tərəfindən mənimsənilmişdi. Bu çoxluq türk tayfalarına - osmanlılar adlanan qərb türklərinə, Krım türklərinə, Volqa sahillərində yerləşən şimal türklərinə, habelə Qafqazdakı azəri türklərinə aiddir».

Beləliklə, XIX əsrin sonlarına yaxın türklərin 4 qrupunda milli təfəkkürün yaranması və yayılmasının şahidi oluruq.

Bu dövrdəki gerilik, tənəzzül, islahatların uğursuzluğu Orta Şərq ölkələrində dinə və islamçılığa , millətçiliyə - türk

birliyinə dayanmağı şərtləndirirdi. Məhz bu və ya digər səbəblərdən bir sıra ideologiya paralel gedirdi. İslamçılığın, həm də türklüyün baniləri bildirirdilər ki, islamın yaşaması üçün ona itaət edən millətlərin özünüdərk etməsi vacibdir. Digər tərəfdən, islama itaət edənlərin birliyi yaradılmalıdır.



**C.Əfqani**

XIX əsr islam modernizminin başçısı **Şeyx Cəmaləddin əl-Əfqani (1836-1897)** olmuşdu. Əfqaniyə görə müsəlmanların dirçəlişi islama və Qurana söykənməliydi. Əfqani islamın müddəalarına radikal yanaşmırdı. O, müasir Avropa elmi və parlament idarə üsulu da daxil olmaqla siyasi sistemi ilə Quran müddəaları arasında çox böyük uyğunluq görürdü. Bununla belə, Əfqani Avropa həyat tərzinin kor-koranə yamsılanması əleyhinə çıxır, belə hesab edirdi ki, Quranın müddaları vasitəsilə hətta gələcəyi belə müəyyənləşdirmək olar.

Azad fikirliliyi zəruri sayan Şeyx Cəmaləddin islamın o dövrdə tənəzzülünün səbəblərini araşdırmışdı. O, əfqan müsəlmanlarını ehkamdan uzaqlaşmağa, təriqət parçalanmasına son qoymağa, Qərbin elmi-texniki nailiyyətlərini mənimsəməyə çağırmışdı.

Əfqani müstəmləkə zülmünə qarşı mübarizədə *millətçilikdən* bir silah kimi istifadə olunmasının əleyhinə idi. O, bütün müsəlmanların bir hakimiyyət altında birliyinə inanırdı, kökə qayıdışı mühüm vasitə kimi qiymətləndirirdi. Əfqani Hindistanda fars dilində nəşr edilən «Cəmaliyyə məqalələri məcmuəsi»ndə, xüsusilə də «Nəslin (millətin) birliyinin fəlsəfəsi» adlı məqaləsində yazırdı ki, *millətdən kənarda xoşbəxtlik, dinsiz isə millət yoxdur.*

C.Əfqani deyirdi ki, islam birliyinə təkcə milli birlik kmi deyil, imperializmə qarşı mübarizədə siyasi birlik, müttəfiqlik kimi yanaşılmalıdı. O, yazırdı ki, tərəqqinin, müstəqilliyin birinci və başlıca şərti xalqın elmə yiyələnməsidir. Böyük mütəfəkkir bildirirdi ki, «Dünya elm üstündə bərqərar

olur…Elm bir nəfərin gücünü on nəfərə, min və on min nəfərə bərabər edər».

C.Əfqani Şərq tarixində ilk dəfə milli inkişaf ideyasını irəli sürmüşdü. O, «Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti» adlı əsərində yazırdı ki, hər kəs öz millətinin tərəqqisinə nail olmaq istəyirsə, birinci növbədə özünü tanımalıdır, soyuna-kökünə bağlanmalıdır, dilinə, dininə sarınmalıdır.

C.Əfqani *dini* milli vəhdətin ikinci mühüm vasitəsi hesab edirdi. «İslam elmi dindir, cihad və mübarizə dinidir, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək dinidir, içrət dini və zilləti qəbul etməmək dinidir, məsuliyyət dinidir» - deyirdi.

Ş.C.Əfqaninin ideyaları Azərbaycan və bütövlükdə Şərqin müsəlman xalqlarının milli - azadlıq hərəkatının sistemli ideologiyasına çevrilmişdi. Əfqani yaradıcılığını təhlil edən Ə.Hüseyn zadə türk xalqlarının istiqlal mübarizəsinin ideologiyasını ««*Türkləşmək, islamlaşmaq və müasirləşmək*» formasında sistem ləşdirmişdi.

Azərbaycan milli-azadlıq hərəkatının ideoloqları *islamlaşmaq* deyərkən heç də hər hansı din nümayəndəsinin islamlaşdırılmasını deyil, islam dininin xürafatdan təmizləməsini və Quranın elmi təməl üzərində inkişafını nəzərdə tuturdular. Şərq ölkələrində genişlənən milli-azadlıq hərəkatını boğmağa cəhd edənlər və islam xalqlarının müstəqillik uğrunda mübarizəsini istəməyənlər **panislamist** doktrinasını ortaya atdılar.

**Panislamizm (yunanca pan- bütün və islam sözlərindən yaranmışdı)** anttislam mövqeyində duran rəsmi və ideoloji qüvvələrin ittihadi- islam (islam birliyi) *dini-siyasi cərəyanına qarşı mürtəce baxışlar sistemi və ona verdikləri addır.* Panislamizm ilk dəfə Mərkəzi Asiyada yaranmışdı. Mərkəzi Asiyada bu ideologiyaya rəhbərlik edən Kokand xanı Xudayar xan Osmanlı sultanını Əfqanıstanı işğal edən ingilislər və Orta Asiyanı tutan ruslarla mübarizəyə çağırmışdı. Göründüyü kimi, bu hərəkat Avropa və rus müstəmləkəçiliyinə qarşı xəlifənin başçılığı ilə müsəlman xalqlarının birlikdə mübarizə aparmasını

istəyirdi. O dövrdə xəlifə funksiyasını Osmanlı sultanı daşıdığı üçün bu siyasi hərəkata da Osmanlı dövləti başçılıq etməli idi. İslamçılığın bütün məsələlərinə mürtəce mövqedən yanaşanlar panislamizm anlayı- şından müsəlman xalqlarının milli-siyasi oyanışına, dövlətçilik ənənələrinin dirçəlişinə mane olmaq vasitəsi kimi istifadə etməyə başladılar. Çünki, *panislamizm* siyasəti müstəmləkəyə çevrilmiş islam xalqlarının müstəqillik uğrunda mübarizəsini birləşdirməyi, ölkəsinə sahib olmağı nəzərdə tuturdu.

XIX əsrin sonunda siyasətə və elmə daxil olan panislamizm cərəyanı bir zamanlar sovet elmində zərərli mürtəce cərəyan elan olunmuş, panislamizm siyasi damğası ilə minlərlə adam həbs olunmuş, güllələnmiş, müxtəlif məhrumiyyətlərə məruz qalmışlar. Sovetlər birliyinin çökməsinin son anlarında M.Qorbaçov «İslam fundamentalizmi» ideyasını ortaya atmış, lakin məqsədinə nail olmamışdı.



**İ.Qaspiralı**

«XIX əsrin ən böyük islahatçısı» olub «türk dünyasını oyandıran» **İsmayıl bəy Qaspıralının** (1851-1914) müsəlman türk əhalisinin oyanışında xüsusi yeri vardır. «Dildə, fikirdə, işdə birlik» şüarını fəaliyyət proqramı kimi irəli sürən Qaspiralı türkçülüyü mədəniyyət sahəsi ilə məhdudlaşdırır, türk xalqlarının birliyini ruh, din və mədəniyyət ümumiliyi əsasında həyata keçirilməsini mümkün hesab edirdi. O, rus dilində nəşr olunan *«Rusiyada müsəlmanlar»* əsərində yazırdı: «Asiya və Avropanın böyük hissəsində türk-tatar adlanan böyük bir millət məskunlaşmışdır. Bu millət hissələrə parçalanmışdır və buna görə də zəifdir; digər millətlərlə müqayisədə o, elm, maarif, sərvət və mədəniyyət sahəsində geridə qalmışdır.

Əgər belə davam edərsə, təbii ki, o məhv olacaq, digər millətlər tərəfindən unudulacaqdır». Göründüyü kimi, İsmayıl bəyin

fikirləri ilə «dildə bilik» ideyasını irəli sürən Ş. C. Əfqaninin fikirləri üst-üstə düşür. Onların hər ikisində *dil birliyi* əsasdır.

İsmayıl bəy Krım və İdilboyu tatarları arasında, həmçinin Türküstana, Şimali Qafqaza, Azərbaycana, İrana, Çinə və Hindistana yayılan və «Cədidçilik» adlanan islahat hərəkatının genişlənməsində fəal iştirak etmiş, onun fəaliyyətində «Tərcüman"» qəzeti mühüm rol oynamışdı.

«Tərcüman» ın səhifələrində milli şüur, müxtəlif dinli və dilli xalqların birgə yaşamalarına, onların arasındakı iqtisadi və mədəni münasibətlərə, qadın hüquqlarına, azadlıq, müstəqillik uğrunda mübarizə aparan müsəlman ölkələri haqqında yazılara rast gəlirik. Krımda «Gənc tatarlar» təşkilatının yaranmasında fəal iştirak edən Qaspiralı Krım tatarlarını müxtariyyət tələb etməyə çağırırdı.

XIX-XX əsrin hüdudlarında Azərbaycanda türkçülük ideologiyası yayılırdı. Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə və başqaları bu ideyanın yayılmasında fəal iştirak etmişlər. Onlar türkçülük hərəkatının İ.Qaspiralı, Zəki Validi Toğan, Y.Axçura, Ziya Goyalp və başqa liderləri ilə birlikdə ***pantürkizm*** ideyasını yaymaqla türk xalqlarını əsarətdən qurtarmağa, onların dirçəlişinə çalışmışlar. Çünki, rus imperiyasının işğal etdiyi, əsarətdə saxladığı torpaqların 90 %-i türk torpaqları və türklər idi. Bu ideologiyada başqa xalqın torpağının işğalı, kimsənin əsarət altına alınması nəzərdə tutulmurdu.

**Pantürkizm -** antitürk dövlətlərin türkçülüyün mahiyyətini təhrif edən mürtəce ideya-siyasi baxışlar sistemi və ona verilən addır. XIX əsrin əvvəllərində türkçülük ideya-siyasi baxışlarının türk xalqları içərisində yayılması və özünə yeni tərəfdarlar toplaması ilə əlaqədar Qərbin və Rusiyanın hakim dairələrində pantürkizm doktrinası hazırlandı. Pantürkizmi rəhbər tutan dairələrdə türkçülüyə qarşı ideya-siyasi mübarizə başlandı. Qərbin hakim dairələri bu ideyadan türk xalqlarının birliyinə qarşı istifadə etdilər. Sovetlər dönəmində repressiya zamanı «pantürkist» ittihamlardan Azərbaycan xalqının ziyalılarını-Hüseyn Cavid, Mikayıl Müşfiq, Salman Mümtaz, Yusif Vəzir

Çəmənzəminli, Əhməd Cavad, Tağı Şahbazi, Bəkir Çobanzadə və digərlərini məhv etmək üçün istifadə olundu. Azərbaycan SSR-in dövlət və hakimiyyət strukturlarında yuva salmış erməni millətçiləri də Azərbaycan ziyalılarını məhv etmək üçün «pantürkist» damğasından geniş istifadə etmişlər.

Azərbaycan ziyalılarının *3-cü nəsli* XIX əsrin axırında həqiqi siyasi fəaliyyətə başlamışdı.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanın ictimai-siyasi həyatında l i b e r a l i z m ideya cərəyanı və hərəkatı da müəyyən rol oynayırdı. Bu cərəyanın tərəfdarları *Konstitusiyalı quruluş* yaradılmasını tələb edirdilər.

Azərbaycan liberallarının özəyini Bakı dumasındakı müsəlman tacir və sənayeçilər təşkil edirdi. Onların əsas tribunası H. Z. Tağıyevin sahiblik etdiyi və Ə. Topçubaşovun baş redaktoru olduğu «Kaspi» qəzeti idi. Qəzetdə pantürkist yazılarla yanaşı panislamist baxışlara da rast gəlirik.

Bəhs olunan dövrdə Şimali Azərbaycanda marksist ideyalar da yayılırdı. Bu işi əsasən qeyri-azərbaycanlılar həyata keçirirdilər. Bakıda gizli fəhlə dərnəkləri yaranırdı. 1901-ci ildə (yazda) sosial-demokrat dərnəklərinin fəaliyyətini əlaqələndirmək üçün Bakıda təşkilatın mərkəzi yaradılır, bir qədər sonra təşkilat RSDFP-nin Bakı Komitəsi adlandırılır və onun tərkibinə L.Qalperin, Y.Qolokova, A.Yenukidze, Ketsxoveli, B.Kununyanst, İ.Krasin, M.Məlikyan, A.Eyzenberq, Ə.Axundov və M.Məmmədyarov və b. daxil olurlar. 1901-ci ildə Bakıda artıq 15 belə dərnək fəaliyyət göstərirdi.

RSDFP-nin Bakı Komitəsinin yaradılması ilə Azərbaycanda fəhlə hərəkatında dərnəkçilik dövrünə son qoyuldu, sosial-demokrat hərəkatı qüvvətləndi. Bu işdə Bakı «İskra»-nəşriyyat-texniki qrupu, gizli «Nina mətbəsi», BK-nin təbliğatçılıq fəaliyyəti böyük rol oynadı.

Bu dövrdə yaranan təşkilatlar arasında 1902-ci ildə əsası M.Ə.Rəsulzadə tərəfindən qoyulan «*Müsəlman gənclik təşkilatı*»

xüsusi yer tutur. Azərbaycanda Rusiya müstəmləkəçiliyinə qarşı mübarizə aparan bu təşkilatın «Hümmət» adlı jurnalı da var idi. Təşkilat az sonra «Müsəlman demokratik «Müsavat» cəmiyyəti adı altında gizli fəaliyyətə başlamışdı.

1904-cü ilin sonlarında «Müsavat» cəmiyyətinin” əsasında RSDFP BK-nin nəzdində «Müsəlman sosial demokrat «Hümmət» təşkilatı yaradıldı. Onun əsasını Mirhəsən Mövsumov, Məmməd Həsən Hacınski, M.Əli Rəsulzadə qoymuşdu. N.Nərimanov, S.M.Əfəndiyev, M.Əzizbəyov və başqaları 1905-ci ildə bu qrupa daxil olmuşdular. Qrupu RSDFP BK-də S.M.Əfəndiyev təmsil edirdi.

XX əsrin əvvələrində Azərbycanda digər millətlərin də müxtəlif təmayüllü təşkilat və partiyalarının özəkləri və bir sıra cəmiyyətləri fəaliyyət göstərirdi. Belələrinə «Böyük Ermənistan»” xülyasına düşən ermənilərin «Daşnaqsütyun» (ittifaq) partiyasını, onun «Qırmızı xaç», «Vahimə təşkilatı» nı, «Beynəlxalq orqan» və s. komitələrini, sosial-demokrat «Hnçaq» (Zəng) partiyasının Bakıda və rayonlardakı şöbələrini göstərmək olar. Onlar «Droşak» (Bayraq), «Hncaq» (Zəng) kimi antitürk mətbuat orqanlarını çap edirdilər. Bakıda «Erməni insansevər cəmiyyəti» fəaliyyət göstərirdi.

1904-cü ildə Bakıda Lev və İlya Şendrikov qardaşları tərəfindən «Balaxanı və Bibi Heybət fəhlələrinin təşkilatı», Gəncədə bir sıra millətçi təmayüllü burjua partiyaları və təşkilatları - «Müdafiə», «Difai», «Qeyrət», «Türk sosialist federalistlərinin inqilabi komitəsi» - yarandı. Gəncə tədricən Azərbaycan milli hərəkatının mərkəzinə çevrilməyə başladı.

XX əsrin əvvəllərində Azərbaycanda dövrü nəşrlər çoxaldı. Əsrin ilk milli qəzeti- Məmmədağa Şaxtaxtinskinin nəşrinə icazə aldığı «Şərqi-Rus» qəzeti 1903-1905-ci illərdə Tiflisdə nəşr olundu.

Göründüyü kimi, XIX əsrin sonu-XX əsrin əvvəlllərində Azərbaycanda ictimai-siyasi şərait hadisələrlə zəngin olmuş, çoxsaylı partiyalar, təşkilatlar və cəmiyyətlər yaranmışdı.

Başlanmış milli-demokratik hərəkatın düzgün axara düşməsində Ə. Hüseynzadə, Ə.Ağayev, Ü. Hacıbəyov və başqaları mühüm rol oynamışlar.

## 1.3. Milli - demokratik və inqilabi fikrin nümayəndələri (Ə.Hüseynzadə, Ə.Ağayev, Ü.Hacıbəyov, M.Hadi, Ə.Cavad)

Azərbaycanda, həmçinin müsəlman və türk aləmində inqilabi-demokratik fik rin inkişafında xidmətləri olan şəxslər sırasında **Əli bəy Hüseynzadənin** xüsusi yeri vardır. İctimai xadim, rəssam və jurnalist Ə. Hüseynzadə 1864-cü ildə Salyanda dünyaya göz açmışdı. 1885-ci ildə Tiflis gimnaziyasını bitirən Ə. Hüseynzadə əvvəlcə Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsində, sonra isə İstanbul ali hərbi məktəbində təhsil almışdı. 1889-cu ilin may ayında Türkiyədə «İttihad və tərəqqi» partiyasının yaradılmasında iştirak edən Əli bəy 90-ci illərdə «Osmanlı cəmiyyəti» ndə fəaliyyət göstərmiş, 1897-ci ildə hərbi-hakim yüzbaşı sifəti ilə Osmanlı-Yunan müharibə sində iştirak etmişdi.


**Ə.Hüseynzadə**

Bir müddət İtaliyada qalan Ə.Hüseynzadə XX əsrin əvvəllərində Azərbay cana qayıdır və 1905-ci ilin iyulunda H.Z. Tağıyevin yardımı ilə açılan «Həyat» qəzetini Ə. Ağayevlə birlikdə nəşr etdirir. «Kaspi» qəzetində redaktorluq edən Ə.Hüseynzadə 1906-cı ilin noyabrından 1907-ci ilin sonlarınadək dərc olunan «Füyüzat» da müdir və baş redaktor işləyir. 1910-cu ildə yenidən İstanbula qayıdan Əli bəy 1911-ci ildə «Türk yurdu», 1912-ci ildə isə «Türk ocağı» cəmiyyətinin yaranmasında iştirak etmişdi. 1917-ci il hadisələri zamanı Bakıda olan Əli bəy «Müsavat» partiyasının dirçəldilməsində fəallıq göstərir.

Ə. Hüseynzadənin dünyagörüşünə babası Şeyx Əhməd Səlyani, dostu M. F. Axundov və oxuduğu universitetlər təsir etmişdi. Onun siyasi, inqilabi demokratik fikirləri və ideyaları «Siyasi fərasət» kimi iri həcmli əsərində, «Məktəbi-məxsusi», «Türklər kimdir və kimlərdən ibarətdir», «Bizə hansı elmlər lazımdır», «Yazımız, dilimiz, birinci ilimiz» və s. məqalələrində əks olun muşdu.

Mədəni və siyasi türkçülük hərəkatının Azərbaycanda yayıcısı olan Əli bəy mədəniyyət çərçivəsindən, pantürkizm çərçivəsindən kənara çıxan ilk azərbaycanlı olmuşdu. Ə.Hüseynzadə vaxtı ilə Atatürkün özünün mənəvi atası adlandırdığı Ziya Göyalp, Ə. Ağayev, Y.Axcura, İ.Qaspiralı və başqaları ilə birlikdə türkçülüyün bir ideya və siyasi cərəyan kimi yayılmasında və inkişafında böyük rol oynamışdı. Əli bəy Hüseynzadə yazırdı: «Qafqaz türkləri türklərin ən hürriyyətpərvərləridir. Bu məmləkətdə heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz. Heç bir cəbr və təzyiq, heç bir cəfa və əziyyət, heç bir zülm və sitəm hürriyyət odunu söndürə bilməz. Qafqaz hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır». Bu rollardan ən böyüyü «Qafqaz və Azərbaycan türklərinə» aiddir. Onun «Məktəbi-məxsusi» məqaləsini oxuduqca anlayırsan ki, o yalnız pantürkizm tərəfdarı deyil, həm də turançıdır. Y.Axcura «Türkçülük» əsərində yazırdı ki, Əli bəy turançılığı israrla müdafiə edirdi. Onun turançılığı 1908-ci ildən sonra İstanbulda digər «turançıları», başlıcası isə Ziya Göyalpı yaratmışdı. Başqa sözlə, «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» ideyasını əsaslandıranlardan olmuş Ə.Hüseynzadə Atatürkün fikir babası olan Ziya Göyalpın fikir babası idi.

Türkçülük ideya cərəyanı və hərə katında, Azərbaycanın ictimai-siyasi fikir tari xində **Əhməd bəy Ağayevin (Ağaoğlu)** xüsusi yeri vardır.



**Ə.Ağaoğlu**

Rusiyada və Qərbi Avropada şərqşünas alim, publisist, ideoloq kimi tanınan Əhməd bəy 1869-cu ildə Şuşada anadan olmuşdu. Ərəb və fars dillərini öyrənən Əhməd bəy 1885-ci ildə I Tiflis gimnaziyasında orta təhsilini başa vurmuş, Peterburq Texnoloji Universitetinə daxil olmuş, lakin gözləri ağrıdığı üçün təhsilini davam etdirə bilməmişdi. 1888-ci ilin əvvəlində təhsil almaq üçün Parisə gedən Əhməd bəy 1894-cü ilədək «Kollec de Frans» və siyasi biliklər məktəbində oxumuş, Parisdə hüquq məktəbini, həm də Sarbonna Universitetində texnologiya fakültəsini bitirmişdi. Latın, fransız, ingilis, alman və rus dillərini öyrənən Ə.Ağayev 1892-ci ildə şərqşünasların Londonda keçirilən konfransında «Şiə məzhəbinin qaynaqları»" mövzusunda məruzə etmişdi.

1894-cü ildə Qarabağa qayıdan Əhməd bəy yolüstü İstanbulda Ə. Hüseynzadə ilə tanış olur, «Gənc fikirlər» təşkilatı ilə əlaqə yaradır.

Azərbaycanda Bakı qubernatorluğunda dəftərxana məmuru işləyən Əhməd bəy Şuşada və Bakıda fransız dili müəllimi işləyir, «Qafqaz», «Kaspi» qəzetləri ilə əməkdaşlıq edir, «Məşriq» adlı qəzet buraxmağa cəhd göstərir.

Ə. Ağayev 1905-ci ildə Bakıda «Difai» partiyasını yaradır. Partiyanın məqsədi ermənilərin bədxah niyyətlərindən qorunmaq və onlara qarşı mübarizə aparmaq idi.

1909-cu ilin sonunda Ə.Ağayev yenidən İstanbula köçür. 1911-ci ildə «Türk yurdu», «Tərcümani-həqiqət» qəzetlərinə redaktorluq edir. 1918-ci ildə Azərbaycana türk qoşunlarının siyasi müşaviri kimi qayıdan Ə.Ağayev Gəncədə «Türk sözü» qəzetini nəşr etdirir, Şuşadan parlamentə üzv seçilir. 1919-cu ilin əvvəlində Versal Sülh konfransına yollanan Ağayev «Gənc türklər» təşkilatına mənsub olması bəhanəsi ilə İstanbulda ingilislər tərəfindən həbs olunur, 70 nəfərlə bərabər Malta adasına sürgün edilir. 3 illik sürgündən sonra İstanbula gələn Əhməd bəy Türkiyə Respublikası yarandıqdan sonra Ankaraya köçür və Atatürkün yaxın adamlarından biri olur. Ə.Ağayev sürgündən sonra (1921)

N.Nərimanova məktubla müraciət edərək Azərbaycana qayıtmağa icazə istəsə də, onun məktubu cavabsız qalır.

XIX əsrin sonunda islamşünas və publisist kimi yetişən Ə.Ağayev 90-cı illərdən başlayaraq «millət nədir?» sualına cavab axtarır, milli məsələnin izahında dini ön sıraya çəkir. «İslama görə və islam aləmində qadın"» kitabçasında «qadın" məsələsini islamın tərəqqi və tənəzzül məsələləri» kimi qiymətləndirən Əhməd bəyin Qafqaz türklərinin problemlərinə marağı çoxalır. Həyat və fəaliyyətinin, mübarizə yolunun ayrı-ayrı mərhələlərində müxtəlif ideya və siyasi cərəyanlara meyl edən Əhməd bəy 1905-1907-ci illər inqilabı zamanı sosial-demokratiyaya yaxınlaşmış, irtica və sonrakı illərdə isə liberalizm mövqeyinə keçmişdi. Ə.Ağayev 1939-cu ildə vəfat etmişdir.

Azərbaycanın mütərəqqi ziyalıları içərisində özünə məxsusi yeri olan xadimlərdən biri də **Üzeyir Hacıbəyovdur.**



**Ü.Hacıbəyov**

Ü. Hacıbəyov 1885-ci ildə Ağcabədidə anadan olmuşdu. Gənclik illərini Şuşada keçirən balaca Üzeyir burada rus-tatar məktəbini bitirmiş, 1889-1904-cü illərdə Qori seminariyasında təhsil almışdı. «Həqiqət», «Tərəqqi» mətbuat orqanlarında «filankəs» imzası ilə məqa lələr yazan Üzeyir bəy bir müddət həmin qəzetlərə redaktorluq etmişdi.

Ü.Hacıbəyov xalqımızı özünü tanımağa, cəsarətli olmağa, yeni həyat uğrunda mübarizəyə səsləmişdi. O, 1906- cı ildə 21 yaşında «İrşad» qəzetində «Mərəzlərimizdən biri» sərlövhəli məqaləsində mübtəla olduğumuz ümumi milli xəstəliklərdən çox böyük və dərin təfəkkürlə söz açaraq yazırdı: «Bizim öz qüdrətimizə etimadımız yoxdur. Varmışsa da, itibdir. Təəssüf ki, bizim cürətsizliyimiz və acizliyimizə mübtəla olduğumuz hər bir iş müqabilində əl-ayağımızı bağlayıb bizi hərəkətsiz buraxır. Cürətsizlikdən başqa bir də ümumiyyət etibari ilə digər bir sifət dəxi müşahidə olunur. Bu da acizlikdir. Balaca bir müsibət və bədbəxtliyə düçar olanda

biz özümüzü bilmərrə itiririk. Əslinə baxsaq, bu da bizim cürətsizliyimizdən doğan bir sifətdir…

…Acizlik və cürətsizlik göstərməkdə mübarizə edib basılmaq əfsəldir» … Aciz qalıb məqsədimizdən sərfi-nəzər etsək mütləq başqalarına möhtac olacağıq. Möhtaclıq da tənəzzülə yardım edən bir bədbəxtlikdir». Göründüyü kimi, böyük ədib xalqı öz azadlığını əldə etmək üçün mübarizəyə səsləyir, bu məqsədə nail olmaq üçün bütün yaxşı keyfiyyətlərin xalqda olduğunu vurğulayırdı.

İstedadını doğma xalqının milli və sosial siyasi azadlığı, tərəqqisi uğrunda mübarizəyə həsr etmiş Ü.Hacıbəyov milli istiqlalın təcəssümü olan AXC-nin qurulmasını sevinclə qarşılamış, bütün qüvvəsini milli dövlətçiliyin təşəkkülünə və inkişafına həsr etmişdi. ADR-in platformasını qəbul edən Üzeyir bəy 1919-cu il yanvarın 16-dan 1920-ci il aprelin 27-dək «Azərbaycan» qəzetinin redaktoru olmuş, birpərdəli «Azərbaycan» baletini, «Milli Azərbaycan marşı» və «Azərbaycan» marşını bəstələmişdi.

M.Ə.Rəsulzadə ilə Ü.Hacıbəyovun ilk dəfə harada və nə vaxt tanış olmaları barədə dəqiq məlumat yoxdur. Məlum olan budur ki, Üzeyir bəy Bakıya gələn vaxt M.Ə.Rəsulzadə Bakının siyasi dairələrində, xüsusilə gənclər arasında sosial-demokrat «Hümmət» qrupunun fəal üzvü kimi tanınırdı. Onun bilavasitə iştirakı ilə «Hümmət» qəzeti nəşr olunurdu. Güman edilir ki, «Şərqi-rus» u oxuyan Üzeyir bəy Rəsulzadənin məktub və şeirləri ilə tanış olmuşdu. Bakıya gəldikdən sonra demokratik ruhlu ziyalılarla görüşən Ü.Hacıbəyov mətbuatda çıxış etməyə başlamış, elə bu səbəbdən də AXC-nin ideoloqlarından birinə çevrilmişdi.

Ü. Hacıbəyov millət, milli dövlət və milli dil məsələlərinə xüsusi diqqət yetirmişdi. O, milli-demokratik fikir, milli-azadlıq hərəkatını təkcə siyasi partiyaların, təşkilatların və cəmiyyətlərin fəaliyyəti ilə məhdudlaşdırmırdı. Elm, məktəb, mətbuat, ədəbiyyat, incəsənət vasitəsi ilə xalqı istiqlal mücadiləsinə həvəsləndirirdi. Ü.Hacıbəyov AXC-nin «…yaxın gələcəkdə

türklüyün ümidgahı, islamlığın pənahı və aləmi mədəniyyətin möhtəşəm bir üzvü olacağına inanırdı.

Üzeyir bəy Sovetlər dövründə musiqi ilə məşğul olmuş, 1948-ci ildə vəfat etmişdi.

Azərbaycanın istiqlal mübarizəsində ilk istiqlal şairi kimi **Məhəmməd Hadinin** yeri ayrıcadır.



**M.Hadı**

**Hadı Məhəmməd, Əbdülsəlimzadə Ağaməhəmməd Hacı Ədülsəlim oğlu (1879, Şamaxı - may 1920, Gəncə)** Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndəsidir. 1886-1898-ci illərdə Şamaxı məhəllə məktəbində və mədrəsədə təhsil alan Hadı 1902-ci ildə Kürdəmirə köçmüş və 1902-1906-cı illərdə müəllimlik etmişdi. 1906-cı ilin aprelində keçmiş müəllimi və qohumu Mustafa Lütfi İsmayılzadənin dəvətilə Həştərxana gedən Hadı «Darül-ədəb» məktəbində müəllim, «Bürhani tərəqqi» qəzetində mühərrir işləmişdi. Həmin ilin oktyabr ayında Bakıya dönən Hadı «Füyüzat» jurnalında (1906-1907), «Təzə həyat» (1907-1908), «İttifaq» (1908-1909), «Tərəqqi» (1908-1909), «Həqiqət» (1909-1910) qəzetələrində əməkdaşlıq etmişdir.

Hadı 1911-1914-cü illərdə İstanbulda yaşamış, görkəmli türk şairləri Tofiq Fikrət və Rza Tofiqlə tanış olmuş, müxtəlif qəzet və jurnallarda şeir və məqalələr dərc etdirmiş, istibdad əleyhinə şeirlərinə görə Salənik (Salonik) şəhərinə (Yunanıstan) sürgün olunmuşdu.

1914-cü ildə yenidən Bakıya dönən Hadı «İqbal» qəzetinin redaksiyasında işləmiş, «Eşqi-möhtəşəm, yaxud Əflatun sevgisi» (1914), «Şüküfeyi-hikmət» (1914) kitablarını nəşr etdirmişdi.

Məhəmməd Hadı «Dikaya diviziya» nın baş axundu kimi, Birinci Dünya müharibəsində iştirak etmiş, Karpatda, Qalisiyada, Polşada, habelə Peterburqda olmuşdu. Ordudan tərxis olunduqdan sonra Gəncədə və Bakıda yaşamışdı.

Hadının dünyagörüşü ziddiyyətli olmuş, burjua və sosialist ideyaları arasında tərəddüd etmişdi. Onun şeirlərinin ruhunu azadlıq, səadət və hüquq bərabərliyi arzuları təşkil edir. Hadı İran və Türkiyə inqilablarına xeyli əsər həsr etmiş, Səttarxan və digər fədailərin şərəfinə nəğmələr qoşmuşdu.1918-1920-ci illərdə Hadı ən çox AXC orqanı olan «Azərbaycan» qəzetində çap olunmuşdu.

«İnsan əsrari hikmət və təbiətin köküdür, tilsimli dünyanın açarıdır» tezisini irəli sürən Hadi inanırdı ki, irtica bir gün məhv olacaq, Azərbaycan azadlığa qovuşacaqdır.

M.Hadının əsərlərində hüquq bərabərliyi ideyası üstünlük təşkil edir. Bu hüquq bərabərliyi sənədinə imza qoyanlar içərisində millətin imzasını görməyən Hadi vətən xainlərini damğalayır:

Bir nişan almaqlıq üçün satmayın bu milləti
Millətin, milliyyətin heç yoxmu sizdə qeyrəti? - deyirdi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra M. Hadı ümidsizliyə qapılır. Həmin illərdə onu şeir kitabları satan görmüşlər. Nəhayət, o da FK-nın zindanına salınır. Minlərlə azərbaycanlı kimi M. Hadının taleyindən də xəbər çıxmamışdı.

İstibdada, cəhalətə, sosial ədalətsizliyə qarşı mübarizədə «pantürkist» damğası alan, ölümdən qoxmayaraq ancaq xalqının azadlığını düşünən və mücadilə tariximizdə öz ədəbi əsərləri ilə iz qoyan **Hüseyn Cavidi** unutmağa heç bir azərbaycanlının mənəvi haqqı yoxdur.


**H.Cavid**

**Hüseyn Abdulla oğlu Rasizadə-Hüseyn Cavid (24.10.1882 - 5.12.1941)** Naxçıvanda dünyaya göz açmış, ibtidai təhsilini mollaxanada, orta təhsilini M.T.Sidqinin «Məktəbi-tərbiyə» adlı yeni üsullu məktəbində almışdı. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olan Hüseyn Cavid Təbrizin

Talibiyyə mədrəsəsində təhsilini davam etdirmişdi. 1909-cu ildə İstanbul universitetinin ədəbiyyat şöbəsini bitirən Cavid Naxçıvanda, Gəncədə, Tiflisdə, nəhayət 1915-ci ildən Bakıda müəllimlik etmişdi.

H.Cavid XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindəndir. Onun 1912-ci ildə nəşr olunan «Sən nəsən, kimsən deyən ariflərə» poemasında işıqlı, azad gələcək ideyası aparıcı yer tutur. «Öksüz Ənvər», «Çoban türküsü», «Kiçik sərsəri», «Dün və bu gün», «Qadın», «Görmədim», «Vərəmli qız» və digər şeirlərində quruluşun ədalətsizliyi, əməkçi insanların faciəli həyatı təsvir olunmuşdu. Daha çox dram əsərləri yazan ədib 1914-cü ildə «Şeyx Sənan», 1917-ci ildə «Şeyda», 1918-ci ildə «Haqqını sən mübarizə ilə ala bilərsən» əsərlərini yazmışdı. Sosial ziddiyyətlərə, istismarçılara qarşı mübarizəyə üstünlük verən Cavid əsərlərinin əsas qayəsini ədalətsiz, istismarçı ictimai quruluşun tənqidi təşkil edir. Cavid Azərbaycanın xoşbəxt gələcəyinə inanırdı və «Azər» də *«Lazımsa cəhalətlə güləşmək, Bir çarə var: ancaq yeniləşmək»* - deyə açıqca söyləyirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra yeni həyatın tərənnümünə şeirlər həsr edən ədib 1926-cı ildə müalicə üçün Almaniyaya gedir və 7 ay Berlində yaşayır. Berlin həyatı Cavidin yaradıcılığına güclü təsir edir. «Nil yağışı» əsərində müstəmləkə zülmünü qamçılayır.

H.Cavid 20-30-cu illərdə bir neçə tarixi dram əsəri yazır. Onun «Peyğəmbər» (1922), «Səyavuş» (1933), «Xəyyam» (1935) tarixi dramları tarixə, tarixi şəxsiyyətlərə baxışının dönüş dövrü kimi qiymətləndirilməlidir.

H.Cavid azadlıq aşiqi idi. Onun poeziyası yüksək sənətkarlığı, dərin emosionallığı və səmimiyyəti ilə seçilir. H. Cavid yaradıcılığı Azərbaycan xalqının mücadilə tarixində ona görə mühüm yerlərdən birini tutur ki, o sözün həqiqi mənasında heç bir sapmalara yol verməyən həqiqi millətsevər olmuşdu. Yolunun üstündəkiləri kimliyindən və nəçiliyindən asılı olmayaraq qurban verən kommunist rejimi üçün Cavid təhlükəli

düşmən idi. Ona görə də, o zindanlarda çürüməli, onun məsləkdaşları pərən-pərən salınmalı idi ki, bir-birilərini görməsinlər. Birdən nə isə ola bilərdi... Ona böhtanlar atdılar, adını ləkələməyə çalışdılar. Azərbaycan K(b) P XII qurultayında M.C.Bağırov H.Cavidin ünvanına böhtan dolu iftiralar söyləyərək: «Türkiyədəki müsavatçılar H.Cavidi Azərbaycanın milliyyətçi yazarı kimi dəyərləndirirlər. O öz işlərini yenidən gözdən keçir məli, «Müsavat» məfkurəsi və «Müsavat» ünsürləri ilə mübarizə edilməlidir»-demişdi. L.Beriya da sovet yazarlarının ədəbi əsərlərində milliyyətçi üslubun yer aldığını bildirmişdi.

1934 - cü ilin iyun ayının ortalarında keçirilən Azərbaycan Yazıçılar Birliyinin birinci qurultayında M.C.Bağırov M.Müşfiq, M.Rəfili və digər yazarları şiddətli tənqid etmiş, onları Azərbaycan K(b) P MK və BK ətrafında birləşməyə dəvət etmişdi. Tənqid olunanlar içərisində H. Cavid də var idi.

H.Cavid ona qarşı aparılan kampaniyanın çirkinliyi barədə 1936 - cı il oktyabr ayının 3 - də M.C.Bağırova məktub yazır. Buna cavab olaraq M.C. Bağırov Cavidi dəvət edərək onun dinlənil məsini və MK Burosuna məlumat verilməsini H.Rəhmanov və R.Axundova tapşırır. Ancaq bunların heç bir nəicəsi olmur. Əksinə, böhtan kampaniyası bir az da qızışır, hətta qansızlar qəzetlərdə ona ünvanlanan şeirlər çap etdirirlər. «Ədəbiyyat» qəzetinin 1937-ci il 16 may tarixli sayında Cavidə unvanlanmış şeirdə deyilirdi:

Adına millətçilər dedi: «Böyük sənətkar»
Gəlin düz araşdıraq sənin sənətinmi var?
Azərbaycan şairi olsa da murdar adın
Soltanların, şahların sinisini yaladın
O murdar arzuların torpaqlara gömüldü,
Sənin yaratdıqların özündən əvvəl öldü.

Bü şeiri ədibə ünvanlayanlar dərk etmirdilər ki, *Böyük Azərbaycanlı* «Hüseyn Cavid Azərbaycan sənətkarı olmaqla bərabər, dünya qarşısında böyük bir regionun - Yaxın və Orta Şərqin təmsilçisi idi. Bu xalqların tarixini, psixologiyasını, ruhunu, fəlsəfəsini ifadə edirdi. …Bu gün biz Cavid haqqında düşünəndə … onu da düşünürük ki, Azərbaycan xalqının faciələrlə dolu həyatını duyan, dərk edən, onu azad, müstəqil görmək istəyən ədib özü faciələrlə dolu bir həyat yaşadı». O, 1941-ci ildə 59 yaşında, İrkutskidə, Tayşet vilayətinin Şevçenko kəndində dünyasını dəyişmişdi. Cavidin ölümü haqqında 59 № li akt tərtib olunmuş, 59 saylı qəbirdə dəfn olunmuşdur. 1982-ci ildə - şairin 100 illik yubileyi ərəfəsində cənazəsinin qalıqları ümummilli lider H.Əliyevin böyük səyi nəticəsində İrkutsk vilayətindən Naxçıvana gətirilmiş, ev-muzeyinin yaxınlığında dəfn olunmuşdur. Adına Naxçıvanda kənd, respublikamızın şəhər və rayonlarında küçə, məktəb, mədəni-maarif ocaqları vardır.



**Əhməd Cavad**

Azərbaycanın azadlıq mübarizəsində **Əhməd Cavadın** öz yeri vardır.

**Axundzadə Cavad Məhəmməd Əli oğlu (05.05.1892-12.10.1937**) Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdu. İlk təhsilini evdə alan Cavad türk, ərəb, fars dillərini və Şərq ədəbiyyatını öyrənmiş, 1912-ci ildə Gəncə gimnaziyasını bitirmiş, müxtəlif illərdə Quba və Bakıda müəllimlik etmişdi. Ə.Cavad Gəncənin ədəbi və ictimai-siyasi həyatında yaxından iştirak etmişdi. Onun inqilabaqədərki yaradıcılığında mücərrəd romantizm əsas yer tutur «Xortdan», «Yaralı quş», «Dan ulduzu», «Yazıq», «Axşamdır» şeirləri buna misal ola bilər. Sovet dövründə yazdığı «Biz qardaş deyilikmi», «Kür», «Pambıq dastanı», «Moskva», «Bayram» şeirlərində isə yeni həyat, vətənpərvərlik, xalqlar dostluğu tərənnüm olunur.

Ə.Cavad türk dünyasında tanınan Azərbaycan şairidir. Onun ürəyi qardaş Türkiyə ilə həmişə birgə vurmuşdu. İstər

Balkan müharibələri, istərsə də Birinci Dünya savaşı illərində Ə.Cavad Türkiyə üçün, ümumilikdə isə türkçülük üçün narahat olmuş, Balkan müharibəsində türk xalqına köməyə gələn Qafqaz könüllüləri sırasında Trakiya cəbhəsində Abdulla Şaiqlə birlikdə vuruşmuş, 1914-cü ildə Türkiyənin Şərq hissəsini işğal etmiş rus ordusunun və onların havadarlıq etdiyi ermənilərin Qars və Ərzurum vilayətində törətdikləri soyqırımı qırğınının qurbanı olan yerli türk əhalisinə yardım göstərən «Azərbaycan xeyriyyə cəmiyəti»nin işində yaxından iştirak etmişdi.

«Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına» -

deyən Ə.Cavad ömrünün sonuna qədər Azərbaycanın azadlıq mübarizəsinə sadiq qalmışdı. ADR süqut edən zaman Ə.Cavad nə qırğından, nə həbsdən, nə də soyuq zindandan qorxmayaraq

Çoxdandır ayrı düşdüm
Üç boyalı bayraqdan –

deyərək xalqın qara günlərinin ortağı olmuşdu.

Ə.Cavad 1919- cu ildə yazdığı «Azərbaycan bayrağına» adlı şeirində

Türküstan yelləri öpüb alnını,
Söyləyir dərdini mana, bayrağım!
Üç rəngin əksini quzğun dənizdən,
Ərməğan yollasın, yara bayrağım! - deyirdi

H. Baykara yazır ki, bir gün Ə.Cavadla qeyri-leqal milli-azadlıq komitəsinin rəhbəri doktor Dadaş Həsənzadə və komitənin liderlərindən biri olan Rahim bəy Vəkilli ilə rastlaşdıq. Uzun danışıqlardan sonra mən (H. Baykara- M.Ə.) qeyri-leqal komitənin görkəmli nümayəndələrinin bir hissəsinin müvəqqəti olaraq Azərbaycandan çıxıb getməsini təklif etdim.

Onların hər üçü mənim bu təklifimə qarşı çıxdılar və dedilər: «Mən gedim xarici ölkəyə, sən get, o getsin, çox yaxşı, bəs bu bədbəxt və talesiz günləri millətlə kim bölüşsün?».

Əhməd Cavad şeirlərinin ruhuna milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış, xalqın yaddaşına qayıdış kimi hisslər hakim olmuşdu. AXC-nin himnini yazan Ə.Cavad ömrünün sonuna kimi milli istiqlal ideyalarına sadiq qalmışdı. Azərbaycan xalqının ağır günlərini onunla birlikdə yaşayan Ə.Cavad 1925-ci ildə yazdığı «Göygöl» şeirinə görə həbs olunmuşdu. 1920-1927-ci illərdə üç dəfə həbs olunan şair 1936-1937-ci illərin repressiyasının qubanı olmuş, ailəsi həbs edilmiş, həyat yoldaşı 8 il sürgündə qalmışdı.

Ə.Cavad bilirdi ki, Azərbaycan xalqı onu unutmayacaq, onun ideyaları yaşayacaqdır. Elə bu səbəbdən də yazırdı:

Mən bir aşığam ki, çaldığım saz
Dumanlı dağlara səs salacaqdır.
Ağlatdığım teldə inləyən avaz
Elin xatirində çox qalacaqdır.

Elə bu səbədən də,

Anlatayım nəsiyəm:
«Bən çiynənən bir ölkənin
Haqq bağıran səsiyəm -

deyən Ə.Cavad ömrünün sonunadək öz ideyalarına sadiq qalmışdı.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağayev, Ü.Hacıbəyov, M.Hadı, Ə.Cavad kimi liderləri vardır. Onlar bir əsr bundan əvvəl Azərbaycan istiqlalına inanmış və bu ideal uğrunda mübarizə aparmışlar. Əli Yusif onların bu ideyasının çin olacağına inanır və yazırdı:

Çox dolaşdım əski Şərqin ölü, hissiz yurdunu

Sübh olmuşdu, fəqət bir oyanan görmədim.
Anlamazdı kimsə onun o şübhəli dərdini,
Ağlamazdı ona kimsə, qəlbi yanıq görmədim.
Dedilər ki, öksüz Şərqin xəzan görmüş bağında
Yeni başdan qızıl güllər, yasəmənlər açacaq,
Bu qaranlıq gecələrin issiz, tutqun çağında,
Almas yıldız doğacaq da, urfa yıldız saçacaq.
Dedilər ki, Azərbaycan türklərinin elində
Əski atəş yeni başdan alovlanmış, coşmuşdur.
Əvət, əvət. Bir gün Şərqə Kəbə olan bu ölkədə
Yenə onu təqdis ilə ziyarətgah edəcək
Bütün Turan, Oğuz nəsli. Hətta bütün Şərq də bəlkə,
Yenə onu təqdis ilə ziyarətgah edəcək.

# II F Ə S İ L

## Birinci Dünya müharibəsi ərəfəsi və dövründə Azərbaycanda milli-demokratik hərəkat

### 2.1.1905-1907-ci illər Rusiya inqilabı və Azərbaycan

Məlum olduğu kimi, 1901-1902-ci illərdə dünya inqilabı hərəkatının mərkəzi Rusiyaya keçir. Əsrin əvvəllərində başlanan dünya iqtisadi böhranı Rusiyaya da öz təsirin göstərmiş, iqtisadi böhran nəticəsində 300-dən artıq zavod və fabrik bağlanmış, 100 minə qədər adam işsiz qalmışdı.

İqtisadi böhran illərində Azərbaycanda da tətil hərəkatı genişlənir. 1901-ci ilin yanvarında Bakıda tütün fabriki fəhlələri, martda Sabunçuda mexaniki emalatxana fəhlələri tətil etdilər. 1902-ci ilin aprelində Bakının mərkəzində, Balaxanı və Sabunçuda nümayişlər keçirildi. Gəncədə dəmiryolçular arasında həyəcanlar başladı. Genişlənən fəhlə hərəkatının qarşısını almaq üçün haki miyyət kütləvi həbslər keçirməyə məcbur oldu.

Kütləvi tətillərin keçirildiyi dövrdə Azərbaycanın qəzalarında da çıxışlar başlandı. Bakı, Lənkəran, Şuşa, Gəncə, Nuxa, Şamaxı qəzalarında kəndlilərin çıxışları daha qabarıq idi. Gəncə, Qazax, Cavanşir, Zaqatala qəzalarındakı kəndli çıxışlarında kəndlilər vergi verməkdən və mükələfiyyətlər daşımaqdan imtina edirdilər.

Ümumilikdə, 1900-1904-cü illərdə Azərbaycanda 100-dən çox kəndi əhatə edən 15-dən çox kəndli çıxışı olmuşdu.

Bakı fəhlələrinin dekabr tətili ilin ən böyük inqilabi çıxışlarından biri oldu. Tətil həmin ilin dekabr ayının 30-da Bakı neft sənayeçiləri ilə fəhlələr arasında kollektiv müqavilənin imzalanması ilə başa çatdı. Fəhlələr bir sıra güzəştlər əldə etdilər. «Mazut konstitusiyası"» adlanan bu müştərək müqavilə Bakı

fəhlələrinin neft sənayeçiləri üzərində qələbəsi idi. 1904-cü il dekabr tətilinin ən böyük əhəmiyyəti ondan ibarət idi ki, bu qələbə digər ölkələrin rəhbərləri üçün dərs oldu.

Rus çarizmi ölkədəki acınacaqlı vəziyyətdən çıxış yolu axtarmaq əvəzinə Qərb dövlətləri ilə birlikdə Çini talan etmək və bölüşdürmək istəyirdi. Çin torpaqlarından pay ala bilməyən Yaponiya özünə müttəfiqlər axtarmağa başlamışdı. Belə müttəfiq isə İngiltərə oldu.

Koreyanın bölüşdürülməsi üstündə 1904-cü il yanvarın 26-da rus-yapon müharibəsi başlandı. Yaponiya 1904-cü il yanvarın 26-da Port-Arturda yerləşən rus donanmasına hücum edərək bir neçə gəmini batırdı. Ruslar Lyaodun, Şahe və Mükdendə olan döyüşlərdə məğlubiyyətə uğrayaraq, Uzaq Şərqdən geri çəkilməyə başladılar. Çar II Nikolay isə vəziyyətdən çıxış yolu kimi islahatlar keçirməklə xalqı inandırmağa çalışırdı.

Rusiyada inqilab 1905-ci ilin 9 yanvar bazar günündə fəhlələrin gülləboran edilməsi ilə başladı. Hadisə belə baş verdi. 1905-ci il yanvarın 8-də Peterburqda 150.000 işçi üsyana başladı. Üsyan başqa şəhərlərə də yayılırdı. Bu zaman ortaya keşiş Qapon adlı bir şəxs çıxır və fəhlələrə çara ərizə verməyi təklif edir.

Fəhlələr ərizələrində yazırdılar: *«Ey padşahımız, biz işçilər balalarımız, işçi arvadlarımız və qoca ana-atamızla birlikdə sənə pənah gətiririk. Biz dilənçi kökündəyik. Bizimlə pis rəftar edirlər. Əlimizdən gəlməyən, gücümüz çatmayan işləri gördürürlər. Bununla kifayətlənməyərək hər gün bizi söyür və təhqir edirlər. Artıq səbrimiz tükənmişdir. Çünki hər gün və hər saat vəziyyətimiz daha da pisləşir, bizi əsl mənada dilənçiliyə, hüquqsuzluğa və qaranlıq cəhalətə doğru sürükləyirlər. Ey padşahımız, artıq güc və taqətimiz tükəndi, səbrimiz bitdi, boğuluruq. Artıq elə bir vəziyyətə gəldik ki, bizim üçün ölüm, dözülməsi mümkün olmayan əzablardan yüngüldür…».*

Ərizədə, həmçinin amnistiya, söz, mətbuat, yığıncaq azadlığı, kilsənin dövlətdən ayrılması, iş saatının 8 saata endirilməsi, əmək haqqının ödənilməsi, torpaqların tədricən kəndlilərə paylanması, Müəssislər Məclisinin toplanması və digər tələblər öz əksini tapmışdı.

Ərizənin mətnindən göründüyü kimi, fəhlələr çardan onlara diqqətin artırılmasını xahiş edirdilər. Ancaq... fəhlələr güllələboran edildi, yüzlərlə adam öldürüldü və yaralandı.

Beləliklə, ölkənin hər yerini üsyan bürüdü.

1905-ci il sentyabr ayının 19-da Moskvada mətbuatda və nəşriyyatda işləyən fəhlələr, oktyabrın 7-də Moskva-Kazan dəmir yolu fəhlələri, oktyabrın 8-də Rusiyanın bütün dəmiryolçuları, fabriklər, zavodlar, poçt və teleqraf, məktəblər tətil etdilər. 1905-ci ilin dekabrında Peterburqda fəhlə və tələbələrlə hökumət qüvvələri arasında barrikada döyüşləri başladı.

Rusiyada tətil edən bütün işçilərin sayı 1.700.000 nəfər idi. Tətillərdə bütün təbəqələrdən insanlar iştirak edirdi. 1905-ci il oktyabrın 13-də Peterburqda, sonra isə Moskvada ilk «fəhlə soveti» yaradıldı. Vəziyyətin kəskinləşdiyini hiss edən çar qraf Vittenin tövsiyyəsi ilə oktyabrın 17- də «*Azadlıq manifesti*» verdi.

«Manifest» məhkum xalqlara, o cümlədən türklərə, ukraynalılara, belaruslara, gürcülərə, yəhudilərə heç bir yenilik vəd etmirdi. 1899-cu il qanununa əsasən türklərin dövlət idarələrində çalışmasının qadağan edilməsi yenə də manifestdə olduğu kimi qalmışdı. Həmin qanuna əsasən başqa millətlərin dövlət idarələrində çalışması qadağan olunduğu kimi, Sibirdə yaşayan bir neçə xalq; Arxangelsk vilayətindəki eskimoslar, Stavropol vilayətindəki köçərilər, kalmıklar, qırğızlar, Kazan və türküstan xalqı, azərbaycanlılar və Qafqazda yaşayan müsəlmanlar, yəhudilər də hərbi xidmətə aparılmırdılar.

Başqa sözlə, rus çarının türk xalqına qarşı apardığı siyasətdə ayrıseçkilik əsas yer tuturdu.

1905-ci il qanlı bazar günü hadisələri Bakıda geniş əks-səda yaratdı. Yanvar ayında Bakıda və Bakı quberniyasının ərazisində 25 müəssisənin fəhlələri tətil etdi. Gədəbəy mis mədənlərinin, Ləki zəy zavodunun, Nuxa və Şuşa ipək emalı fabriklərinin fəhlələri tətilə qoşuldular. Gəncə dəmiryol fəhlələri tətilə başladılar. Tətil tezliklə Bakı, Hacıqabul, Kürdəmir, Yevlax, Ağstafa və digər əsas dəmiryol stansiyalarını əhatə etdi. 1905-ci il iyun-iyul aylarında Bakı və qəzalardakı sənaye müəssisələrinin 75 %-ni tətil bürüdü. Bəzi yerlərdə hətta tətil komitələri yaradıldı. Təbii ki, hökumət bu tətilləri zor gücünə yatırmağa üstünlük verdi. Minlərlə adam Bakıdan sürgün edildi.

1905-1907-ci illər inqilabı dövründə Azərbaycanda milli-azadlıq hərəkatının tərkib hissələrindən biri də kəndli hərəkatı idi. Kəndlilər qolçomaq mülklərini dağıdır, mülkədarların torpaqlarını tuturdular. Bu cür kəndli çıxışları Gəncə quberniyasında, Cavad və Qazax qəzalarında, Zaqatala dairəsində daha güclü idi. Şamaxıda, Qubada, Lənkəranda, Göyçayda, Ağdaşda və digər yerlərdə kəndlilər bəylərə, mülkədarlara qarşı daha inadla mübarizə aparırdılar. Bir sıra bölgələrdə kəndlilərlə bəylərin silahlı dəstələri arasında toqquşmalar baş vermiş, ölən və yaralananlar olmuşdu.

İnqilab dövründə Azərbaycanda qaçaqçılıq hərəkatı genişlənmişdi. Bu hərəkatın rəhbərləri Qaçaq Kərəm, Dəli Alı, Məşədi Yusif, Məşədi Qədir, Qandal Nağı, Qaçaq Zahid, Qaçaq Məmməd və b. rus çar rejiminə və yerli zülmkarlara qarşı mübarizə aparmışlar. Onların bəziləri dağlarda, bəziləri kəndlərdə, bəziləri də şəhərlərdə həyatlarını təhlükə altına qoyaraq rus məmurlarına və onların dəstələrinə qarşı vuruşmuşlar. Əhali qaçaqları ərzaq və digər vasitələrlə təmin edirdi. Göyçay və Şamaxı qəzalarında qaçaq Zahidin, Zaqatala dairəsində Yusifin, Gəncə və Qazaxda Qandal Nağının və Həsən Ləzgi oğlunun dəstələri xalqın rəğbətini qazanmışdılar.

1905-1907-ci illər inqilabı dövründə Azərbaycan milli hərəkatı rus imperiyasından ana dilində məktəb və mətbuat yaratmaq, müsəlmanlara xristianlarla bərabər hüquq verilməsi

tələbi ilə çıxış edirdilər. Bu isə bərabərhüquqluluq iddiası olub özünüdərkin yüksək səviyyəsi idi.

1905-1907-ci illər hadisələri göstərdi ki, Azərbaycanda demokratik və milli-azadlıq hərəkatı yüksələn xətlə inkişaf edir. M.Ə.Rəsulzadənin təbirincə desək, *«…azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduğunu hiss etməyə başladılar».*

1905-1907-ci illər inqilabı məğlub oldu, kütlələr öz məqsədlərinə çatmadı. Ancaq onun dərsləri böyük oldu. İnqilab milyonlarla zəhmətkeşi kütləvi siyasi mübarizəyə cəlb etdi, mövcud quruluşu sarsıtdı.

Xalq kütlələrini sakitləşdirmək, mübarizənin istiqamətini dəyişdirmək məqsədilə çar 1905-ci il fevralın 18-də Dövlət Duması layihəsinin hazırlanması haqqında bəyanat verdi. Lakin Duma haqqında çarın vədlərinin aldadıcı olması Dumalara seçkilərdə özünü göstərdi. Birinci və ikinci Dumaya Qafqaz müsəlmanları 36 deputat göndərdikləri halda, üçüncü Dumaya 10 millət vəkili, dördüncü Dumaya isə cəmi bir millət vəkili göndərdilər. Yaxud, birinci Dumada türklərin 46 nümayəndəsi olduğu halda, dördüncü Dumada cəmi 7 deputat qalmışdı.

Azərbaycanın «millət xadimləri» nin səyi ilə 1905-ci il martın 5-də Bakı şəhər dumasından daxili işlər naziri Bulıginin qəbuluna nümayəndə heyəti göndərilməsi müzakirə edildi. H. Z. Tağıyevin evində keçirilən yığıncaqda islahatlar keçirilməsi haqqında Rusiya hökumətinə ərizə göndərilməsi qərara alındı.

Ərizə sadəcə tələbələrdən ibarət olmayıb ümumi milli haqq istəyi şəklində hazırlanır. Layihənin hazırlanmasında Fərrux bəy Vəzirov, Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayev böyük rol oynayırlar. Layihədə seçkilərdə müsəlmanlara məhdudiyyət qoyulmaması, orta və ali təhsilli müsəlmanların arzu etdikləri sənəti seçmələrinə, pedaqoji sahədə çalışan müsəlman tələbələrinin dövlət təqaüdündən istifadə edə bilmələrinə icazə verilməsi, ana dilində təhsil və başqa məsələlər öz əksini tapır.

Ərizədə, həmçinin Qafqaz müsəlmanlarına şəxsiyyət və ərazi toxunulmazlığı, fikir, söz, mətbuat azadlığı verilməsi və bunlara qarşı qoyulmuş qadağaların ləvğ edilməsi tələb olunurdu.

1905-ci ilin baharında və yay aylarında Bakıda başlanan milli hərəkat Azərbaycanın digər bölgələrinə də yayılırdı. Qoyulmuş məhdudiyyətlərə baxmayaraq türklər bələdiyyələrə seçilirdilər. Əlimərdan bəyTopçubaşov, Adilxan Ziyadxanov, Ələkbər bəy Rəfibəyov, Ələkbər bəy Xasməmmədov, Cahangir xan Xoyskinin təşkil etdiyi yığıncaqlarda müsəlmanların yerli idarələrə seçilməsindəki məhdudiyyətlərin aradan qaldırılması tələb olunurdu.

Azərbaycan mətbuatında da xalqı oyanışa, birliyə çağıran yazılar dərc olunurdu. Belə yazılara Ə.Hüseynzadənin nəşr etdirdiyi «Həyat»" qəzetində, Ə. Ağayevin «Kaspi"» qəzetindəki məqalələrində rast gəlirik. Artıq türklər yuxarı instansiyalara adamlar göndərir, öz hüquqlarını tələb edirdilər. Bu Qafqaz müsəlmanlarının açıq milli-azadlıq mübarizəsi idi.

İnqilab illərində Azərbaycanda müxtəlif partiyaların yerli komitələri, həmçinin digər qruplar da fəaliyyət göstərirdi. Onlardan bəziləri mütləqiyyət quruluşunu müdafiə edir, milli qırğın törətməyə cəhd göstərirdilər.

1906-1917-ci illərdə Rusiyada ali nümayəndəli qanunvericilik təsisatı olan Dövlət Dumaları fəaliyyət göstərmişdi.

**Birinci Dövlət Duması (1906, 27 aprel-8 iyul)** 1906-cı ilin aprelin 27-də çağrılmış və cəmi bir sessiyası keçirilmişdi. Dövlət Dumasına 524 nümayəndə seçilməli idi. Dumaya seçkilər 1906-cı ilin fevral-mart aylarında baş tutmuşdu. Birinci Dövlət Dumasına seçkilər Yelizavetpol quberniyasında mayın 16-da, Bakı quberniyasında isə mayın 31-də keçirilmişdi. Seçkilər müxtəlif vaxtlarda keçirildiyindən Duma natamam tərkibdə fəaliyyətə başlamışdı. Birinci Dövlət Dumasına seçilmiş 478



**M.Əliyev Ə.Muradxanov İ.Ziyadxanov Ə.Haqverdiyev Ə.Topçubaşov**

deputatdan 179-u kadet, 63-ü muxtariyyatçı, 16-sı oktyabryat, 105-i bitərəf, 18-i sosialist-demokrat idi. Dumaya bütün Cənubi Qafqazdan 5 azərbaycanlı deputat seçilmişdi. Dumanın sədri S.A.Muramorsevə H.Z.Tağıyev təbrik teleqramı göndərmişdi. Dumada Bakı və Yelizavetpol quberniyalarını, həmçinin Bakı şəhərini Əliyev Məmməd Tağı oğlu, Əsədulla bəy Muradxanov, Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Əbülfətxan oğlu Ziyadxanov, Əbdürəhimbəy Haqverdiyev təmsil edirdi. Bunların 3-ü Xalq Azadlıq Partiyasını, 1-i, sonuncusu müsəlman qrupunu təmsil edirdi.

Azərbacandan olan deputatlar müsəlman fraksiyasına daxil olmuşdular. Onların sayı 36 nəfər idi. Say etibarı ilə onlar Ukrayna və Polşadan olan deputat qrupundan çox idilər. Müsəlman fraksiyası 1906-cı il iyunun 21-də təşkil olunmuş, 7 nəfərdən ibarət büro seçilmişdi. Büroya Azərbaycandan Ə.Topçubaşov və İ.Ziyadxanov daxil olmuşdular. Ə.Topçubaşov büronun sədri seçilmişdi. Ə.Topçubaşov aqrar komissiyasnın müzakirələrində iştirak etmişdi.

Mövcud olduğu 72 gündə azərbaycanlı deputatlar tərəfindən Birinci Dumaya 391 sorğu verilmişdi ki, onların 123-ü təcili idi.

İnqilabi çıxışlı millət vəkilləri çoxluq təşkil etdiyinə görə çar 1906 -cı ilin iyulunda I Dövlət Dumasını buraxdı. Duma buraxılan kimi deputatlardan bir qrupu, o cümlədən Ə.Topçubaşov və İ.Ziyadxanov kadetlər partiyasının Dumanın buraxılması haqqında etirazına qoşularaq Vıborq müraciətnaməsini imzaladılar. Çar bundan qəzəblənərək müraciətnaməni imzalayan deputatların deputat olmaq hüququnu alaraq hər birini 3 ay azadlıqdan məhrum etdi.

**İkinci Dövlət Dumasına (1907, 20 fevral-2 iyun)** seçkilər 1907-ci ilin yanvar-fevral aylarında keçirildi. Dumaya seçilən 518 deputatın 104-ü trudovikləri, 98-i kadetləri, 76-sı millilәri, 65-i sosial-demokratları təmsil edirdilər. II Duma 1907-ci ilin fevral ayının 20-də açıldı. Dumaya kadet partiyasından olan

Qolovin sədr seçildi. II Dövlət Duması 103 gün işlədi. 1907- ci il iyunun 3-də qovuldu və yeni seçki qanunu elan edildi.

II Dumaya Azərbaycandan F.Xoyski, X.Xasməmədov, İ.Tağıyev, M.Şaxtaxtinski, M.Mahmudov, Z.Zeynalov deputat seçilmişdilər. Onlar Dumanın işində fəal iştirak etmişdilər.







**F.Xoyski X.Xasməmmədov M.Şaxtaxtinski M.Mahmudov Z.Zeynalov**

F.Xoyski və X.Xasməmədov Dumanın müsəlman fraksiyasının büro üzvü seçilmişdi. Deputatlar haqqında qısa xarakteristikaya nəzər salaq:

*1.Fətəli xan Xoyski* - 31 yaşlı - Moskva Dövlət Universitetinin huquq fakültəsini bitirmişdi. O, Yekaterinodarda əyalət məhkəməsinin prokuroru işləmişdi. 2-ci şöbənin, 6 duma komissiyasının üzvü seçilmişdi. Xalq Azadlıq partiyasını təmsil edirdi.

*2. Xasməmmədov Xəlil bəy Hacıbaba oğlu* - 34 yaşlı - mülkədardır. Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdi. Yekaterinadorda əyalət məhkəməsinin yoldaşlıq prokuroru işləmişdi. 11-ci şöbənin, 5 komissiyanın üzvü olmuşdu. Xalq Azadlıq partiyasından idi.

*3.Tağıyev İsmayıl Hacı Zeynalabdin oğlu* - 42 yaşlı - H.Z.Tağıyevin oğlu idi. Bakı realnı məktəbində oxumuşdu, Kommersantdır. 9-cu şöbənin üzvü olmuşdu. Bitərəf idi.

*4. Şaxtaxtinski Məmmədağa Məmmədtağı Sultan oğlu* - 56 yaşlı - Sarbon şəhərində (Fransa) mühazirə dinləmiş, Leypsik Universitetinin fəlsəfə fakültəsini bitirmişdi. «Şərqi-rus» qəzetinin naşiri, şərq dilləri müəllimi idi. Ərzaq və aqrar

komissiyanın üzvü seçilmişdi. Xalq Azadlıq partiyasını təmsil edirdi.

*5.Mahmudov Mustafa Hacı Musa oğlu* - 29 yaşlı - kəndli. Kürdəmirdə anadan olmuşdu. Qori müəllimlər seminariyasını bitirmiş, müəllim, direktor muavini işləmişdi. 9-cu şöbənin, 4 komissiyanın üzvü seçilmişdi. Xalq Azadlıq partiyasından idi.

*6.Zeynalov Zeynal Eynal oğlu* - 30 yaşlı - kəndli ailəsindən çıxmışdı. İbtidai təhsilli idi. «Xəzər - Qara dəniz cəmiyyəti» ndə mexanik işləmişdi. Müsəlman fraksiyasının sədri, 2-ci şöbənin, 3 komissiyanın üzvü seçilmişdi. Əmək qrupuna mənsub idi.

II Dövlət Dumasının da ömrü uzun olmadı. Çar 1907-ci il iyun ayının 3-də Dumanı buraxarkən bildirmişdi ki, «Rus dövlətini möhkəmləndirmək məqsədi ilə yaradılmış Dövlət Duması öz ruhu etibarilə rus Duması olmalıdır. … Dövlət vətəndaşlığının kifayət qədər inkişaf etmədiyi ucqarlarda Dövlət Dumasına seçkilər müvəqqəti olaraq dayandırılır». Göründüyü kimi, çar ölkənin türk və müsəlman əhalisini qeyri-yetkin elan edir, onların seçki hüququnu məhdudlaşdırırdı.



**Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov**
**2-ci Dövlət Dumasının deputatları arasında**

**Üçüncü Dövlət Dumasında (21 noyabr 1907-1912-ci il 9 iyun)** deputatların sayı 442- yə endirilmişdi.

III Dumaya seçkilərə dair yeni qanuna görə əvvəllər Cənubi Qafqazdan seçilmiş 28 deputat əvəzinə (Birinci Dumada onların sayı 36 nəfər idi) 10 deputat seçilməli idi. Əgər əvvəllər Bakı, Yelizavetpol və İrəvan quberniyalarının hərəsindən 3 nümayəndə seçilirdisə, indi hamısından bir yerdə ancaq 2, Tiflisdən 4 əvəzinə 1 deputat seçilməsi müəyyənləşdirilmişdi. III Duma 1907-ci il noyabr ayının 21-də açıldı. Dumaya sədr əvvəlcə N.A.Xomyakov seçil mişdi, sonra isə sədr yerini A.İ.Quçkov və M.V.Rodzyanko tut dular. Dumada 8 komissiya təşkil edilmişdi. . Oktyabristlər və onları qoruyanlar 154, ifrat sağ, mötədil sağ və millilər 97, kadetlər 54 nəfər mandata sahib olmuşdular.

Dumanın tərkibinin 45,5%-ni zədəganlar, 10 %-ni ruhanilər, 12%-ni tacirlər və fəxri vətəndaşlar, 11%-ni meşşanlar və b. təşkil edirdilər.

Dumada partiyalar aşağıdakı kimi təmisil olunmuşdu:

monarxistlər -137 nəfər

oktyabristlər -132 nəfər

kadetlər və onlara qoşulanlar -118 nəfər

trudoviklər - 14 nəfər

sosial-demokratlar -18 nəfər

Bitərəflər - 27 nəfər.

Dumada azərbaycanlıları X.Xasməm mədov (XAP), erməniləri İ.Saqatelyan (Daşnak styun), rusları Timoşkin (sağ fraksiyaçı) təmsil edirdi.



**X.Xasməmmədov**

X.Xasməmmədov bir neçə komissiyanın üzvü seçilmişdi. O, hüquqşunas olduğu üçün əksər müzakirələrdə iştirak etmişdi.

1912-ci ilin iyun ayının 9 - da Duma fəaliyyətini dayandırmışdı.

**IV Dövlət Dumasına** seçkilər 1912-ci il sentyabr-oktyabr aylarında keçirildi. Müsəman, rus və erməni əhalisindən 3 deputat - müsəlmanları *M.Y.Cəfərov*, erməniləri M.İ.Papacanov, rusları isə İ.Skobelov təmsil edirdi. IV Dövlət Duması 1912-ci il noyabr ayının 15-də açılmış, Dumanın sədri oktyabrist-kadetlər partiyasından olan Rodzyanko seçilmişdi.

Azərbaycanlı deputat **Məmməd Yusif Hacıbala oğlu Cəfərov** Bakıda anadan olmuşdu. O, Aleksandrov gimnaziyasında oxumuş, 1912-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdi. Müsəlman fraksiyasının üzvü idi.

M.Y.Cəfərov Dumada rus imperiyasının antitürk, antimü səlman siyasətinə müqavimət göstərmişdi.



**M.Y.Cəfərov**

1912-ci ilin oktyabr ayının 9-da müsəlman fraksiyası özünün rəsmi təsis yığıncağını keçirmişdi. K.B.Tevkelov fraksiyanın sədri, İ. Axmyalov katibi seçilmişlər. Dumada Azərbay can nümayəndələri fəallıq göstərmiş, onlar ana dilində təhsil, məhkəmə işlərinin ana dilində aparılması, hüquq bərabərliyi, aqrar məsələlərə dair təkliflər irəli sürmüşlər.

Bakı qlavası Bıq, Ceyhun Hacıbəyli, M.Ə.Rəsulzadə Dumanı təbrik etmişlər.

## 2.2. Qafqazda milli münasibətlərin kəskinləşməsi. Erməni-Azər baycan münaqişəsi

1905-1907-ci illər inqilabı dövründə çarizm öz hökmranlığını saxlamaq üçün bir sıra tədbirlər həyata keçirirdi. Belə süni tədbirlərdən biri də müxtəlif millətlər arasında ədavət salmaq idi. M.Ə. Rəsulzadə çarizmin siyasətini tənqid edərək yazırdı: «Rusiya məmləkətində hökm sürən istibdadın ən qədim və köhnə üsullarından biri budur ki, istibdad özünə tabe olan millətləri bir növ ilə yağılaşdırıb və tutuşdurub və belə müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salırdı”».

Bu üsulla hərəkət etmək üçün əlverişli şərait olan bölgələrdən biri Zaqafqaziya idi. Burada çarizmin əli ilə yaradılmış erməni-azərbaycanlı ziddiyyəti mövcud idi. Çarizm XIX əsrin I yarısından ermənilləri Azərbaycan torpaqlarına köçürməklə ziddiyətlərin əsasını qoymuşdu.

Rusiya imperiyasının tarixi sübut edir ki, o, öz müstəmləkələrini qoruyub saxlamaq, imperiyanın hüdudlarını genişləndirmək üçün ermənilərdən istifadə etmişdi. Ancaq bu siyasətdə heç də ermənilərin istəyi yox, Rusiyanın mənafeyi əsas tutulmuşdu. İstər I Pyotrun, istər çar Aleksandrın, istərsə də Sovet imperiyasının vaxtında belə olmuşdu. Azərbaycan xalqının tarixində qara ləkə olan 1813, 1828, 1922-ci il müqavilələri buna əyani misaldır.

1828-ci il Türkmənçay müqaviləsinə görə İrandan, sonra isə Türkiyədən İrəvan xanlığının ərazisinə, Qarabağ və Azərbaycan ərazisinin başqa vilayətlərinə erməni əhalisinin kütləvi köçürülməsi başlandı. Bunun nəticəsində yerlərdə demokrafik dəyişikliklər baş verdi. Məsələn: İrəvan xanlığının yerində yaranan «erməni vilayəti» ndə azərbaycanlıların xüsusi çəkisi 1828-ci ildə 73,8 faiz təşkil edirdisə, 1834-1835-ci illərdə bu faiz 46,2-yə enmişdi. Müqavilədən sonra Naxçıvan əyalətində 2.791 azərbaycanlı ailəsi və 434 erməni ailəsi var idisə, sonradan köçürülənlərin hesabına erməni ailələrinin sayı 2.719-a çatmışdı. 1832-ci il kameral sayımına görə Qarabağ əyalətində azərbaycanlılar 64,8 %, ermənilər isə 34, 8 % təşkil edirdi.

Ermənilərin köçürülməsi ideyasının müəllifi A.S.Qriboyedov «Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq və (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz … dəfələrlə götür-qoy etmişik» deyə yazırdı. Qriboyedov özü də etiraf edirdi ki, «onlar üçün (ermənilərin - M.Ə.) yeni olan ölkəyə nabələd olmağı faciə ilə qurtara bilər».

Ermənilərin köçürülməsi ilə əlaqədar N.N.Şavrov yazırdı ki, «Biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin

deyil, bizə yad olan xalqların... yerləşdirilməsindən başladıq... müharibədən sonrakı iki il ərzində, 1828-1830-cu ilə kimi Zaqafqaziyaya İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında... yerləşdirmişik. Yerləşmək üçün onlara 200 min desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının dağlıq hissəsi (indiki Qarabağ-M.Ə.) və Cöyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırıldı. Qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200 mini ötüb keçdi».

Göründüyü kimi, XX əsrin başlanğıcında Zaqafqaziyada yaşayan 1,3 milyon ermənininin bir milyondan çoxu N.N.Şavrovun sözləri ilə desək, diyarın köklü sakinləri olmayıb ruslar tərəfindən məskunlaşdırılmışdı. Deməli, münaqişə üçün şərait hələ XIX əsrin ortalarında yaradılmışdı.

Qərbin hakim dairələri tərəfindən qızışdırılan erməni separatçıları Türkiyənin Zeytun, Sasun,Van vilayətlərində qanlı faciələr və qırğınlar törətmiş, məqsədlərinə nail ola bilmədiklərindən mübarizənin mərkəzini Qafqaza keçirmişdilər.

1887-ci ildə yaradılmış Hnçaq /Zəng/**,** 1890-cı ildə Tiflisdə təsis edilmiş «Daşnaqsütyun"» partiyası erməniləri «Böyük Ermənistan» yaratmağa ruhlandırırdı.

1905-1906-cı illərdəki erməni-müsəlman qırğını zamanı ilk toqquşma Bakıda baş vermişdi. Buna başlanğıc üçün səbəb Ağarza adlı bir azərbaycanlının fevralın 2-də Bakının Quba



**Hınçaq könüllülərindən bir qrup.**

meydanı adlanan yerdə daşnaklar tərəfindən, fevralın 6-da isə digər azərbaycanlının istintaqa aparılarkən erməni əsgəri tərəfindən öldürülməsi oldu. Polis və ordunun etinasızlığı nəticəsində Bakıda 3 gün qırğın və qarət baş vermişdi. M. S. Ordubadi «Qanlı illər»" əsərində bu hadisədən bəhs edərək yazlrdı: «...süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış ixtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb yaxıldı. Görəsən, o partlayıcı maddə həqiqətən də bomba imiş? Bəli, bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı». Bununla da, təxminən iki il davam edən erməni-azərbaycanlı qırğını başladı.

Bakıdan sonra 1905-ci ilin may-iyun aylarında erməni-müsəlman qırğını İrəvan, Naxçıvan, Şuşa, Cəbrayıl və Qaryagini əhatə etdi. 1905-ci ilin yayında Bakıda, Gəncədə, Şuşada,

Zaqafqaziyanın digər yerlərində erməni-müsəlman qırğınına çar hökuməti tərəfindən yenidən rəvac verildi.

1905-ci ilin sentyabrın axırlarında Qazax şəhəri yandırıldı. Noyabrda Gəncədə və Tiflisdə də erməni-müsəlman qırğını törədildi.

Bəs kim idi bu faciənin arxasında duran və onu törədən? Böyük Cəfər Cabbarlı «1905-ci ildə» əsərində faciənin səbəbkarını «**İşıqları söndürün, atan kazaklardır**» - deyə ifadə etmişdi. Başqa sözlə, böyük rus şairi Aleksandr Blokun təbirincə desək, Rusiyanı Allah ona görə yaratmışdı ki, dünya xalqları, ölkələri necə yaşamamaq lazım gəldiyini baxıb görsünlər.

1905-ci ildə Bakıda başlanan milli qırğın müsəlmanların doğma yerlərindən qovulması ilə müşayət olunurdu. Bu qətllər və qarətlər planlı olub, hər iki tərəfdən ölənlər və yaralananlar var idi. Fevralın 6-dan 10-a kimi davam edən qırğında hər iki tərəfdən- azərbaycanlılardan və ermənilərdən mindən çox adam öldürülmüşdü. Lakin ermənilərin planı baş tutmadı, məğlub oldular.

Ermənilər Bakıdakı məğlubiyyətin əvəzini Naxçıvanda çıxmaq istədilər. Naxçıvandakı hadisələrə qubernatorluq məhəl qoymadı. Nəticədə adamlar öldürüldü, evlər, mağazalar yandırıldı, mal-qara qarət olundu.

Ən dəhşətli hadisə Cəhri kəndində baş verdi. Kazaklarla birləşən erməni quldurları kəndi xarabazara çevirdilər.

1905-ci il iyun ayının 16-da daşnaklar Cəbrayılda və Zəngəzurda qətllər törətdilər. İyun ayının 9-da ermənilər azərbaycanlılar yaşayan Təkiyə kəndinə hücum etdilər. Müsəlmanlar silahsız olduğu üçün kəndi boşaldaraq arvad-uşaqlarını götürüb dağlara qaçdılar. Ermənilər Axund Məhəmməd Əli Mirzə Əbdül Hüseyn Qazızadənin imarətinə od vurmuş, 200 –dək quran və müqəddəs kitabları yandırmışlar. Eçmədzinin 9 məşhur azərbaycanlı kəndi dağıdılmışdı.

1905-ci il hadisələri içərisində Şuşa hadisələri daha faciəli idi. Ermənilər Şuşa döyüşünə xüsusi hazırlıq görmüşdülər. 1905 -ci il avqustun 8-də Cənubi Azərbaycandan gəlmiş 17 fəhlənin

qətli ilə döyüşlər başlandı. Tiflisdən köməyə gələn ermənilər, həmçinin rus ordusunda qulluq edən ermənilər azərbaycanlıları atəşə tutdular. Azərbaycanlılar erməni daşnaqlarına layiqli cavab verdilər. Avqustun 16-dan 21-dək davam edən Şuşa qırğınında Azərbaycan türkləri qələbə çaldılar. Lakin avqust məğlubiyyəti ermənilərə dərs olmadı. Onlar Gülablıda, Malıbəylidə, Kolanıda və digər kəndlərdə qırğın törətməyə cəhd etsələr də, layiqli cavab aldılar. Döyüşdə 200-dən çox erməni öldürüldü.

1906-ci il iyun ayının 29-da ermənilər Qafan rayonunun mədən bazarını dağıtdıqdan sonra Karxana kəndinə hücum edirlər. Qana susamış ermənilər gizli sığınacaqda daldalanan 30-dək qadını qətlə yetirdikdən sonra, elə həmin gün Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini dağıtmış, Qatar kəndinə hücum etmişlər. Onlar 750 tüstüdən ibarət 3.500 nəfər əhalisi olan Qatar kəndini dağıtdıqdan sonra Oğçu, Sabadin, Aralık, Pirdavan və Atqız kəndlərini qarət etmişdilər.



**Daşnaq dəstələri Azərbaycan kəndinə hücuma keçərkən.**

Saqqarasuda erməni millətçiləri bəşəriiyyət tarixində dəhşəti ilə seçilən faciə törədirlər. M. S. Ordubadi yazır:

«Saqqarasuda sığınacaq etmiş camaat qırılıb, qaçıb qurtardıqdan sonra Molla Həsən Əfəndinin başında yanında bir çox övrət Quran əlində ermənilərin qabağına çıxıb, Quran xatiri üçün rəhm istəyib ağlasalar da, Quranı, bəlkə İncili mübarəkdə tanımayan qansızlar hamısını vəhşiliklə öldürdülər"». M.S.Ordubadi avqust ayının 18-də olan hadisələri və dəhşətləri öz gözləri ilə görmüş bir qadının dili ilə belə təsvir edir: «Ayın 18-də sübh zamanı namazından sonra camaatın sığınaq etdiyi meşəyə girdik. Bir az getdikdən sonra 25 yaşlarında bir qadın və bir cavan oğlan cənazəsi görünür. Bələdçinin rəvayətinə görə ər və arvad imiş, bir yerdə doğranmışlar. Buradan keçəcək dəstə Molla Həsən Əfəndinin şahadətgahına yaxınlaşır. Onun bədəni, canamazı və s. müqəddəs əşyaları yandırılmışdı. Həsən Əfəndinin qətl yerindən bir az şimala doğru bir palaz parçası göründü. Bu, camaatın hamısını ağlatdı. Zira palazı kənara çəkən kimi 15 nəfər üzlərində çiçək, yəni abilə əlaməti sönməmiş körpə cocuqların kəsilmiş başları və bir para bir-birinə qarışmış bədənləri görünürdü. Cənub səmtdə həddən artıq arvad-uşaq bədənləri tökülmüşdü».

Bu əsil soyqırım, ermənilik idi. Böyük ədib M.S.Ordubadi bu vəhşiliklərin səbəbini 1) erməni «Daşnaksütyun» komitəsinin müstəbid idarə üsulunu yaratmasında; 2) məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığında: 3) müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarında; nəhayət, 4) ermənilərin avtonomiya- idarə muxtariyyatı həvəsində olmalarında görürdü.

Beləliklə, rus imperiyasının polisi və ordusunun gözü qarşısında terror baş alıb gedirdi. Dövlət isə əhalinin müdafiəsinə əhəmiyyət vermirdi. Ona görə də, Azərbaycan ziyalıları, milli-demokratik və milli-azadlıq hərəkatının öndərləri xalqın ruhundakı qorxunu çıxarmaq, məğlubiyyət hissinin kök salmasına yol verməmək üçün hakimiyyətə müraciət etməyi vacib sayırdı.

Münaqişənin dərinləşdiyini və getdikcə kəskin xarakter aldığını görən çar hökuməti müəyyən tədbirlər fikirləşməyə başladı. 1906-cı ilin fevralın 20-də Tiflisdə Qafqaz canişini Vorontsov-Daşkovun başçılığı ilə erməni-müsəlman sülh məclisi açıldı. Məc lisdə canişinin nümayəndəsi, Tiflis, İrəvan, Gəncə qubernatorları, Krım sultanı, erməni-müsəlman nümayəndələri - Əhməd bəy Ağayev, Kərbalayi İbrahim oğlu Vəkilov, Q.Qarabəyov, Ə.Xasməmmədov, Ədilxan Ziyadxanov, Məmməd bəy Şahmalıyev və b. var idi.

Məclisdə bir neçə məsələ, o cümlədən ermənilərin Qafqazda terrorçu əməlləri müzakirə edildi. Lakin Tiflis məclisi münaqişənin qarşısını ala bilmədi.

1905-1906-cı il hadisələri azərbaycanlıları müəyyən qədər ayıltdı. Milli oyanış sürətləndi. Milli qırğın siyasi cəhətdən ifşa olunmağa başladı.

### 2.3. Şimali Azərbaycanda ictimai hərəkatların, siyasi partiyaların və təşkilatların təşəkkülü. Milli-demo kratik hərəkatın genişlənməsi

XX əsrin əvvəllərində Azərbaycanda demokratik ideyalar formalaşırdı. İlk sosial-demokrat dərnəkləri yaranırdı. 1901-ci ildən RSDFP-nin Bakı Komitəsi fəaliyyətə başlamışdı. Lakin bu təşkilatlara dili, yerli adət-ənənələri bilməyən, əsasən kənardan gəlmiş qeyri-azərbaycanlılar (əsasən rus dilli fəhlələr) daxil olduğundan onların təsiri Bakıdan kənara yayıla bilmirdi. Belə bir şəraitdə M.Ə.Rəsulzadə 1902-ci ildə Bakıda **«Müsəlman gənclik təşkilatı»**”nın əsasını qoydu. Sonralar bu təşkilat «Müsəlman demokratik «Müsavat» cəmiyyəti» adı ilə gizli fəaliyyət göstərmiş və onun bir qolu da İranda yaradılmışdı. Həmin cəmiyyətin bir qrup müsəlman sosialistləri M. Mövsümov, M.Ə.Rəsulzadə, M.H. Hacınski və başqaları 1904-cü ilin oktyabrında müsəlman sosial-demokrat təşkilatı olan «**Hümmət**» i yaratdılar. Təşkilat «El bir olsa dağ oynadar yerindən» devizi ilə «Hümmət» adlı qəzeti buraxdı.

«Hümmət» çilər 1906-cı ildə II Dövlət Dumasında keçirilən sekçilərdə fəal iştirak etdilər. Onlar qəzet səhifələrində xalqı maariflənməyə, mədəni yüksəlişə çağırırdılar. «Hümmət» azərbaycanlılardan başqa Dağıstandan gəlmiş fəhlələri, Volqaboyu tatarlarını da öz ətrafında birləşdirirdi. «Hümmət» RSDFP-nin Bakı Komitəsi ilə əlaqəyə girmişdi. Bir qrup erməni sosial-demokratları ilə birgə iki dildə gündəlik buraxılan «Dəvət-Qoç» (Çağırış) mətbu orqanını nəşr etməyə başlamışdı. 1906-1907-ci illərdə leqal «Təkamül» ” və qeyri-leqal «Yoldaş» (1907-1908) qəzeti nəşr olundu.

«Hümmət» in yerlərdə şöbələri var idi. 1905-ci ilin sonunda Tiflis şöbəsinin ətrafında 100-dən çox üzv toplanmışdı. Onlardan A.Yüzbaşov, Ə.Bayramov, Ə.N.Qarayev, M.Mirheydərzadə və başqaları daha fəal idilər. Şöbənin möhürü var idi. Sonralar İ.Əbilov, Ə.Şeyxülislamov, S.Ağamalıoğlu və başqaları da Tiflis şöbəsinə daxil olmuşdular.

1905-1907-ci illərdə Rusiya inqilabının məğlubiyyəti ilə əlaqədar irticanın hücuma keçməsi səbəbli 1907-ci ilin iyununda N.Nərimanov, S.M.Əfəndiyev, B.M.Sərdarov həbs edildi. M.Ə. Rə sulzadə, İ.M.Əbilov, D.X.Bünyadzadənin İrana mühacirəti nəticə sində «Hümmət» in siyasi fəaliyyəti xeyli zəiflədi.

Azərbaycan ziyalıları vəziyyətə uyğun olaraq mütləqiyyətə qarşı ümumxalq mübarizəsini təşkil etmək üçün kütləvi-siyasi işi genişləndirdilər. Bu işdə 1906-cı ilin martında yaradılan «Nicat», «Səadət» mədəni-maarif ocaqları, C.Məmmədquluzadənin təsis etdiyi «Molla Nəsrəddin» jurnalı mühüm rol oynadı. Jurnalın ətrafında Ə.Əzimzadə, Ə.Haqverdiyev, Ə.Qəmgusar, Ə.Nəzmi, Ö.Nemanzadə, M. S.Ordubadi və b. birləşmişdi. 1905-ci ilin yazında Gəncədə «**Difai**» (dəfn edən) partiyası yaradıldı.

Özünü «Qafqaz müsəlman müdafiə komitəsi» adlandıran «Difai» partiyasının proqramında yazılırdı: «Əsas məqsəd Qafqazda yaşayan bütün xalqlar arasında səmimi qardaşlıq və birlik yaratmaqdır».

Partiya erməni terroruna qarşı gərgin mübarizə aparacağını, həmçinin yerli satqınları cəzalandıracağını bəyan etmişdi. Nəticədə, partiya tərəfindən Şuşada azərbaycanlıların qırğınında ermənilərə kömək edən Qolaşarov, Gəncə qubernatorunun müavini Kerşinski, Şuşada rus hərbi məhkəmələrinin prokuroru Lunyakin, Gəncənin polis rəisi Bannikov, Tərtərin polis rəisi Telikinski məhv edildilər. Siyasi mövqeyində demokratik olan partiyanın əhali arasında nüfuzu böyük idi. Partiyada tacirlər, kəndlilər, tələbələr, vəkillər, qismən həkimlər üstünlük təşkil edirdilər. Xan və bəylər üçün partiyanın qapıları bağlı idi.

«Difai» partiyası aqrar məsələnin həlli məqsədilə mülkədar torpaqlarının əvəzsiz olaraq kəndlilərə paylanmasını nəzərdə tuturdu. Partiyanın Mərkəzi Komitəsi Bakıda yerləşirdi. Onun Şuşada, Ağdamda, Bərdədə, Tərtərdə, Yelizavetpolda komitələri fəaliyyət göstərirdi. İlhamvericisi doktor Əhməd bəy Ağayev idi.

«Difai» təşkilatının aqibəti faciəli oldu. Cavanşir qəzasının pristavı İsmayıl bəy Qəhrəmanbəyovun verdiyi danos əsasında Qazı Molla Məhəmməd Axund Pişnamazzadə, Ə.Rəfibəyov, Ələsgər bəy Xasməmmədov həbs olundular. Əhməd bəy Ağayev isə 1908- ci ildə mühacirət etməyə məcbur oldu.

1905-ci ildə Gəncədə Şəfi bəy Rüstəmbəyov tərəfindən «**Qeyrət**» təşkilatı yaradıldı. Partiyaya Ə.Rəfibəyov, Ə.Xasməmmədov və A. Quliyev rəhbərlik edirdilər. Q.Fəttahov, M.H.İsmayılzadə, N.M.Həmzəyev, M.Xəlilov da təşkilata üzv idilər.

Təşkilat əvvəlcə özünü «Türk sosial-federativ inqilabi komitəsi» adlandıraraq eyni adda vərəqələr buraxmışdı. Vərəqələrdə Azərbaycan xalqına qarşı törədilən soyqırımlarla əlaqədar bütün qüvvələr milli qırğın təşkilatçılarına qarşı mübarizəyə çağırılırdı.

Məlum olduğu kimi, Balkan müharibələrinin başlanması ilə əlaqədar Rusiya-Türkiyə münasibətləri kəskinləşmişdi. Azərbaycanın sosial-federalistləri fəaliyyəti genişləndirərək,

Rusiya tərkibində muxtariyyat ideyalarının təbliğini gücləndirməyə başladılar. Lakin başlanmış repressiyalar «Qeyrət» in bəzi üzvlərinin həbsi ilə nəticələndi, təşkilatın fəaliyyəti dayandırıldı. 1912-ci ilədək fəaliyyət göstərən partiya haqqında tarixi ədəbiyyatda ətraflı məlumat yoxdur.

Bəhs olunan dövrdə fəaliyyət göstərən təşkilatlar içərisində «Müsəlman xeyriyyə cəmiyyəti» və «Qarabağ birlik məclisi» də xeyli nüfuza malik idi.

«**Müsəlman xeyriyyə cəmiyyəti**» Bakıda yaradılmışdır. Cəmiyyətin komitələri Şuşada fəaliyyət göstərirdi.

«**Qarabağ birlik məclisi**»nin sədri Kərim bəy Mehmandarov idi. Yaradılmasının təşəbbüsçüləri Qarabağın şəhər tacirləri və ziyalıları, qolçomaq tacirlər və zəngin adamlar idi. Bu partiya «**Hidayət**» adlı müsəlman xeyriyyə cəmiyyətinin qanadı altında yara dılmışdı. 400 gəncdən ibarət döyüş drujinası var idi. Təşkilatın proqramında əsas məqsəd kimi hökumət idarələrinin baykot edilməsi, aqrar məsələ, partiya tələblərinə tabe olmayanların cəzalandırılması məsələləri əks olunmuşdu. Bu təşkilatın da məqsədi ermənilərlə toqquşmanın qarşısını almaq idi. 1907-ci ilin sentyabr ayının sonunda partiya fəaliyyətini dayandırır. 1908-ci ilin aprelində Şuşa komitəsinin binası yandırılır. Komitə üzvləri sürgün olunur.

1907-ci ilin may ayında korpus topoqrafı, polkovnik İbrahim Vəkilov Tiflisdə «**Müdafiə**» partiyasını yaradır. Partiya «Difai» nin proqramını qəbul etmişdi. «Müdafiə» kəndlilərin məişət və mədəniyyətinrə qayğı göstərilməsi, onların mülkədarlara verdikləri bəhrə vergisindən azad olunması, mövcud dövlət quruluşunun devrilməsi vəzifələrini qarşısına məqsəd qoymuşdu. Partiyanın əsas diqqəti daşnaqların azərbaycanlılara qarşı törətdikləri soyqırımla əlaqədar çarizmin Azərbaycanın qərb qəzalarında yerləşdiyi kazak hissələrinin boykot edilməsinə yönəlmişdi. Partiyanın mərkəzi Vladiqafqazda yerləşirdi. Partiya fəaliyyətini 1909-cu ildə dayandırmışdı.

Göründüyü kimi, əsrin əvvəlində yaradılan partiyalar, təşkilatlar və cəmiyyətlər kütlələr arasında kütləvi siyasi iş aparır

və bu proseslərin başında Azərbaycan ziyalıları dururdular. Onlar Rusiyanın ümumdövlət işlərinə qoşulur və ilk dəfə olaraq bütün Rusiya müsəlmanlarını birləşdirən ilk siyasi təşkilat-Rusiya Müsəlmanlar İttifaqının yaradılması zərurətini anlayılar. Nəhayət, «… 1905-ci il aprelin 8-də Peterburqda Rəşid Əfəndiyevin evində Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Alim Əfəndi Maqsud və Binyamin əfəndi Ədhəm toplanırlar». Toplantının məqsədi bütün Rusiya müsəlmanları üçün müştərək siyasi bir heyət qurmaq məsələsinin həlli yolarını tapmaq olur”. Bir neçə gündən sonra Krımdan gələn İsmayıl bəy Qaspiralı da bu fikrə həmrəy olduğunu bildirir.

1905-ci il avqust ayının 15-də Nijni-Novqorodda yarmarka zamanı **Rusiya müsəlmanlarının birinci qurultayı** keçirilir. Qurultayda 150-dək nümayəndə iştirak edirdi. Hökumətin rəsmi razılığı olmadan keçirilən qurultaya Qafqaz, Krım, Kazan, Türküstan, Sibir və b. yerlərdən 15 nümayəndə gəlmişdi. İsmayıl bəy Qaspiralı qurultayın sədri, Əlimərdan bəy Topçubaşov, Rəşid İbrahimov və Əbülsüqut Axmatov isə onun müavinləri seçilirlər. Qurultayda müzakirə edilən əsas məsələlərdən biri siyasi və mədəni sahədə bütün Rusiya müsəlmanlarını birləşdirməyə qabil müsəlman siyasi partiyasının yaradılması məsələsi olur. Müzaki rələrdən sonra «İttifaqi-müslimin» in (Ümumrusiya Müsəlmanları İttifaqı) yaradılması qərara alınır. Qurultayın qəbul etdiyi qətnamədə bütün Rusiya müsəlmanlarının vahid hərəkat çərçivəsində birləşdirilməsi, bütün millətlərin nümayəndələrinin bərabər surətdə təmsil olunması əsasında Rusiyada konstitusiyalı monarxiyanın qurulması, müsəlman və rus əhalisinin hüquqi cəhətdən bərabərliyi, müsəlmanlara qarşı ayrı seçkilik salan bütün qanunların və idarəetmə metodlarının ləğv edilməsi, müsəlmanların tərəqqisi və s. müddəalar əksini tapmışdı.

Uzun müzakirədən sonra gələcək qurultayın toplanmasına və «Rusiya Müsəlmanları İttifaqı”» nın proqram layihəsinin hazırlanmasına qərar verilir. Beləliklə, qurultayın çağırılması və

yeri haqqında mübahisələr olsa da, hər halda «İttifaqın”» təsis qurultayı baş tutmuş və əsas addım atılmışdı.

«Rusiya Müsəlmanları İttifaqı».

1. Vahid dövlət çərçivəsində bütün Rusiya müsəlmanlarının birləşdirilməsi;

2. Bütün millətlərin nümayəndələrinin bərabər surətdə təmsil olunması əsasında konstitusiyalı monarxiyanın qurulması;

3. Müsəlman və rus əhalisinin hüquqi cəhətdən bərabərliyi, müsəlmanlara qarşı bütün ayrıseçkilik salan qanunların, idarəetmə metodlarının ləvğ edilməsi;

4. Müsəlmanların mədəni və maarif tərəqqisi haqqında qərar qəbul edir.

**Rusiya müsəlmanlarının ikinci qurultayı-** 1906-cı ilin yanvar ayının 13-23-də Peterburqda gizli şəraitdə, əvvəlcə Murtuza əfəndi Vahabın evində verilən ziyafətdə rəsmi icazə olmadan keçirilir. Qurultayda 100-ə yaxın nümayəndə iştirak etmişdi. Azərbaycan müsəlmanlarının nümayəndələri- Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli və Əsədulla Axundov qurultayın işində fəal iştirak etmişlər. Qurultayda «İttifaqın» proqram və nizamnamə layihələri, 1-ci Dövlət Dumasına seçkilərdə taktikası müzakirə olunmuş, 23 bənddən ibarət nizamnamə və müvəqqəti proqram layihəsi qəbul edilmiş, növbəti qurultaya qədər çatışmazlıqların aradan qaldırılması tövsiyyə olunmuşdu. Qurul- tayda Duma seçkilərində kadetlərlə birlikdə hərəkət etmək qərara alınmışdı.

II qurultay yanvar ayının 22- də Peterburqda Həsən Əfəndi Həbibullahın evində qurban bayramı münasibətilə 200 nəfərə yaxın adamın iştirakı ilə toplaşan yığıncaqda işini davam etmişdi. Yığıncağa Ə. Topçubaşov sədrlik etmişdi.

**Rusiya müsəlmanlarının üçüncü qurultayı-** 1906-cı il avqustun 15-21-də Nijni - Novqorodda, Oka çayında «Qustav Struve» gəmisində toplanmışdı. Ə.Topçubaşovun sədrlik etdiyi qurultayda 800 nümayəndə, həmçinin müsəlman qəzetlərinin naşirləri iştirak etmişlər. Qurultayda hər biri 156 nəfərdən ibarət

iki komissiya (təhsil və dini işlər üzrə) yaradılmışdı. Komissiya sədrlərinin məruzələri əsasında 33 maddəlik «Məktəb islahatı» və 13 maddədən ibarət dini siyasətin təkmilləşdirilməsi haqqında qərar qəbul edilmişdi.

Qurultayın işində ən əhəmiyyətli hadisə «İttifaqi müslimin» in Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanan 11 bölmə və 79 maddədən ibarət proqramının qəbul edilməsi olur. Proqramın siyasi hissəsi kadet partiyası proqramına uyğun olsa da, bir sıra tələblər də nəzərdə tutulmuşdu. Proqramda konstitusiyalı monarxiya ideyası irəli sürülürdü.

Qurultayda Cənubi Qafqazda milli münaqişələrə son qoyulması haqqında qətnamə qəbul olunur. İttifaqın Dövlət Dumasında müsəlman fraksiyasının fəaliyyətinə rəhbərlik edəcək 15 nəfərdən ibarət Mərkəzi Komitə və onun nəzdində 3 nəfərlik daimi buro seçilir. Qurultayda Ə.Topçubaşov MK-nın və büronun üzvü seçilmişdi..

İ.Qaspiralı və Yusif Akçura qurultaya rəhbərlik edə bilmə sələr də, qurultayın işinə yüksək qiymət vermişlər Y. Akçura yazırdı: «İştirakçıların hamısı eyni siyasi görüşlü deyildi, bir-birinə tamamilə əks siyasi və iqtisadi fikir sahibləri idilər. Ancaq onları bir-birinə bağlayan iki tel mövcuddur «eyni dindən və türk olmaları». Xülasə, bu toplantı, mitinq və qurultay, bəlkə Rusi yadakı müsəlmanların dini, milli müşavirə məclisləri, «siyasi ümmətləri», fransız anlamı ilə qarşılığını söyləsək milli parlamentləri» idi.

«İttifaqın» III qurultayında Ə.Topçubaşov demişdi: «Ey möminlər, ey qardaşlar, bu gün o qədər məmnun oldum ki, bu məmnuniyyətimi sizə heç bir dillə tərif edə bilmərəm. Mən bu günü heç vaxt xatirimdən çıxartmayacam. Bu günün, bundan sonra Ümumrusiya müsəlmanları üçün milli bayram günü olacağı şübhəsizdir. Biz türk balaları, əslimiz bir, nəslimiz bir, dinimiz birdir».

Qurultay, **15 avqust** gününün bütün Rusiya müsəlmanları arasında bayram edilməsini qərarlaşdırır. **Rusiya**

**müsəlmanlarının IV qurultayının 1907-ci il avqustun 10-da yenə Nijni - Novqorodda keçirilməsi** qərara alınır.

«Rusiya müsəlmanları ittifaqının» yaradılması, üç qurultayın keçirilməsi, nizamnamə və proqramın qəbul edilməsi, xüsusilə burjua ziyalılarının və nümayəndələrinin bu prosesdə iştirakı gələcək milli-azadlıq hərəkatının gedişinə öz müsbət təsirini göstərdi.

Bəhs etdiyimiz dövrdə Azərbaycan qadınları da ictimai-siyasi fəaliyyətə qoşulmuşdular. 1906-cı il avqust ayının 22- də təsdiq olunmuş Nizamnamə əsasında fəaliyyətə başlayan «**Nicat**» cəmiy yətinin sıralarında P. Qasımova, X.Əlibəyova, Ə.Əfəndiyeva, S.Axundova, H.Axundova, S.Əbdürrəhman, S.Vəzirova, Ə.Tere kulova, X.Əmircanova, P.Hacıbababəyova, Qərib-Sultan Xanlarova, A.Hacı Qasımova və başqaları var idi.

Cəmiyyətin «Nicat» qəzeti İsa bəy Aşurbəylinin redaktorluğu ilə nəşr olunurdu.

O zaman Bakıda «Naşi dni» (Bizim günlər) başlıqlı vərəqələr buraxan «**Əşşəms**» müsəlman partiyası, müxtəlif intibahnamələr buraxan «**Türk sosial-inqilabçı ittifaqı komitəsi**»" və «**Türk sosial-federalist inqilabi komitələri**», **«Konstitusiyalı demokrat partiyası**», «**Xalq azadlığı»** partiyası, **«Qafqaz ordusu rabitəçilərinin ittifaqı**» da fəaliyyət göstərirdi.

1906-cı ilin iyunundan Bakıda «**Anarxiya**» cəmiyyəti fəaliyyətə başlayır. Onunla yanaşı Bakıda «**Anarxist-kommunist»lərin Bakı federasiyası, «Bakı Krasnaya Sotnya»sı, «Terror qrupu**» da fəaliyyətdə idi .

Göründüyü kimi, əsrin birinci on illiyində Bakıda və Bakı quberniyasında çoxsaylı müxtəlif nizamnamələri olan müxtəif məqsədli partiyalar, təşkilatlar və cəmiyyətlər fəaliyyət göstərirdi. Polis departamentinin xüsusi şöbəsinin qeydiyyatına görə 1909-cu il yanvarın 1-dən iyulun 1-nə qədər olan dövrdə Bakıda yuxarıda qeyd olunanlardan başqa «**Rusiya SDFP**», «**Sosialist inqilabçılar partiyası», «Dəmiryol ittifaqı», «Daşnaksütyun», «Hnçaq», «Er-**

**məni sosial-demokrat fəhlə təşkilatı» və «Hümmət»**” təşkilatları fəaliyyətdə olmuşdu.

Adları qeyd olunan partiyalarla yanaşı «*Kapitala ölüm!», «Anarxist kommunistlər», «Balaxanı Bakı anarxist-kommunistlər» qrupu, «Zemlə i Volə» anarxist-kommunistlər qrupu, «Ujas» anarxist-kommunistlər partiyası* və bir sıra digər quldur dəstələri də mövcud idi.

Ümumiyyətlə, bəhs olunan dövrdə yaranan və fəaliyyət göstərən partiyalar, təşkilatlar və cəmiyyətlər Azərbaycanda nüfuzlu bir siyasi partiyanın meydana gəlməsi üçün şərait yaratmışdı. Belə partiyalardan biri «Müsavat» partiyası oldu.

Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan





**«Müsavat» partiyasının yaradıcıları –**
***M.Əli Rəsulzadə Abbasqulu Kazımzadə Tağı Nağıyev***

**«Müsavat**» partiyası 1911-ci ildə Bakıda keçmiş «Hümmət» çilərdən M. Əli Rəsulzadə, Tağı Nağıyev, Abbasqulu Kazimzadə, Kərbalayı Vəli Mikayılzadə və Qulam Rza Şərifzadə tərəfindən tam gizli təşkil edilmişdi. Onun Zaqafqaziyanın hər yerində, Dağıstanda, İranda və Azərbaycanda yerli təşkilatları yaradılmışdı.

«Müsavat»ın proqram bəyannaməsi islami mahiyyətdə idi. Həmin proqram səkkiz maddədən ibarət idi. Ən mühümlərinə aşağıdakıları göstərmək olar:

- müstəqilliyə nail olmuş müsəlman ölkələrinin müs təqilliyinin qorunmasına, müstəqilliyini itirmiş müsəlman ölkələrinə müstəqillik əldə etməkdə kömək etmək;

- millət və məzhəb fərqi olmadan bütün müsəlman xalqlarının birləşdirilməsi;

- müsəlman birliyinə və irəliləyişinə yardım edəcək partiyalarla əlaqə saxlamaq;

«Müsavat» partiyasının şüarı belə idi: *«Türkləşmək, İslamlaşmaq, Müasirləşmək»*. Partiya öz proqramında ictimai, dini, aqrar, fəhlə, maarif məsələlərinə xüsusi fəsillər ayırmış, dövlət quruculuğu, hər bir muxtar qurumun və vətəndaşların hüquqları, maliyyə və iqtisadi siyasət, məhkəmə işləri haqqında yeridəcəyi siyasi xətt geniş izah olunmuşdu.

1913-cü ildə M.Ə.Rəsulzadə Azərbaycana qayıdaraq «Müsavat» a üzv olur və tezliklə onun rəhbərinə çevrilir. 1914-cü ilin oktyabrından müəyyən vaxtlarda «İqbal»" qəzetinin baş redaktoru olan M.Ə.Rəsulzadə 1915-ci ilin oktyabr ayından «Açıq söz»" gündəlik qəzetini nəşr etməyə başlayır.

Fevral burjua inqilabından sonra «Müsavat» açıq fəaliyyətə keçir. Rusiyada monarxiya üsul-idarəsi devrildikdən az sonra Gəncədə Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında türk federalist partiyası olan «**Türk ədəmi-mərkəziyyət firqəsi**"» yaradılır. Bu partiya bir növ «Difai"» nin davamı idi. Əgər 1905-ci ildə onlar Rusiyanı federativ şəkildə qurmaq və Zaqafqaziyaya muxtariyyat verilməsini düşünürdülərsə, 1917-ci ildə Azərbaycana muxtariyyat verilməsini tələb edirdilər.

1917-ci ilin iyun ayının ikinci yarısında «Müsəlman demokratik «Müsavat» partiyası ilə «Türk ədəmi-mərkəziyyət firqəsi» **«Müsavat»** adı altında birləşdi. Onun şöbələri nəinki Azərbaycanda, həmçinin Həştərxan, Stavropol, Moskva, Kiyev, Xarkov, Tiflis, İrəvan, Daşkənd, Aşqabad, Təbriz, Rəşt və İstanbulda da təşkil edildi.

1917-ci ilin oktyabrın 26-da «İsmailiyə» binasında «Müsavat» ın birinci qurultayı keçirildi və Oktyabrın 30-dək davam etdi. Həmin ilin sentyabr-oktyabr aylarında bir neçə nömrəsi çıxan həftəlik ictimai-siyasi «Müsavat» qəzeti qurultaya hazırlığı və onun gedişini işıqlandırmışdı.

ADR-nın yaranmasında «Müsavat»" partiyası həlledici rol oynamışdı.

### 2.4. 1905 - 1911-ci illərdə Cənubi Azəbaycanda milli-demokratik hərəkat

XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra Azərbaycanın cənub torpaqları İranın hakimiyyəti altına düşdü. İrana qatıldıqdan sonra ölkənin 4 əyalətindən birini təşkil edən Azərbaycan əyalətinin ərazisinə ilk vaxtlarda cənubda Həmədan, cənubi Şərqdə Zəncan və Qəzvin mahalları daxil idi. Sonralar inzibati sərhədlər daraldıldı. 1906-cı ildə qəbul olunmuş seçki nizamnaməsində bu əyalətə Təbriz, Urmiya, Xoy, Deyləmqan, Maku, Marağa, Binab, Miyandoab, Sovucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşkin, Astara, Xalxal, Sərab, Miyanə və Sainqala mahalları daxil edilmişdi. Son inzibati bölgüyə görə (1984) Cənubi Azərbaycan adlandırdığımız əraziyə 142.350,7 kv.km sahəni tutan (ölkə ərazisinin 9 %-i) Şərqi Azərbaycan (mərkəzi Təbriz), Qərbi Azərbaycan (Urmiya) və Zəncan (Zəncan) ostanları daxildir.

XX əsrin əvvəllərində azərbaycanlılar ölkədə farslardan sonra sayca ikinci yerdə dururdu. Cənubi Azərbaycanda 2 milyona qədər azərbaycanlı yaşayırdı. Onlardan 1 milyonu kənd əhalisi, 0,5 miyonu şəhər, 0,5 miyonu isə köçəri idi. Hazırda İranda azərbaycanlıların sayı təxminən 30 milyondan çoxdur. Bu əhalinin, 30-35%-ni təşkil edir.

Cənubi Azərbaycanda demokratik fikrin yayılmasına, milli şüurun oyanmasına və milli-azadlıq mübarizəsinin yüksəlməsinə 1904-cü il dekabrın 13-də Bakı və onun Balaxanı, Sabunçu, Bibiheybət rayonlarında başlanan və dekabrın 31-də qələbə ilə nəticələnən fəhlə tətilləri, həmçinin Rusiyada baş verən 1905-1907-ci il hadisələri də güclü təsir etdi.

«Məşrutə inqilabı»" ərəfəsində və gedişində İranın başqa rayonlarına nisbətən Cənubi Azərbaycanda sosial vəziyyət daha gərgin idi. Xalq ədalətli quruluş yaradılmasını tələb edirdi.

Hərəkatın hərəkətverici qüvvələrini sənətkarlar, yenicə meydana gələn fəhlələr, tacirlər, alverçi təbəqələri, xırda ruhanilər və kəndlilərin qabaqcıl dəstələri təşkil edirdi.

1906-cı il avqustun 5-də şahın Konstitusiya verilməsi barədə fərmanının elan olunması, 1906-cı il sentyabrın 9-da məclisə seçkilər keçirilməsi haqqında Əsasnamə imzalanması kütlələri bir az da ruhlandırdı. Sentyabrın 20-də müsbət cavab alan Təbriz üsyançıları siyasi mərkəzlər yaratmağa başladılar. Artıq 1906-cı ilin noyabr-dekabr aylarında «Azərbaycan əyalət əncuməni»" adlanan təşkilatlar əksər əyalətlərdə yaradılmışdı.

1906-cı il oktyabr ayının 20-dən noyabrın 5-ə kimi Azərbaycanda keçirilən seçkilərdə qələbə qazanmış Azərbaycan nümayəndələri 1907-ci ilin fevral ayının 8-də Tehrana gəldilər və əyalət əncumənin saraya verdiyi tələblərin məclisdə müzakirəsinə və həyata keçirilməsinə razılıq aldılar. Həmçinin, «Konstitusiyaya əlavələr» "in qəbul edilməsini tələb etdilər.

1907-ci ilin oktyabrında şah tərəfindən məhdud burjua azadlıqlarını nəzərdə tutan «Konstitusiyaya əlavələr»" qəbul edildi. Bu sənəd inqilab cərgəsinin sinfi qüvvələrinin təbəqələşməsini sürətləndirdi. İrtica xalqa qarşı hücuma hazırlaşmağa başladı. Ölkədə xüsusi irtica qüvvələri («Fetovvat» «Səadət», «İslamiyyə») təşkil edildi. 1908-ci il iyun ayının 23-də hökumət çevrilişi keçirildi. Xalq döyüşə hazırlığa başladı. Mərkəz Tehrandan Təbrizə köçdü.



**Səttarxan**

İrticaçılar Əmirxiz məhəlləsi istisna olmaqla Təbrizin Şimali-Şərq hissəsini tutdular. Bu məhəlləni Səttarxanın dəstəsi, Xiyabani məhəlləsini isə Bağırxanın dəstəsi müdafiə edirdi.

Təbrizin müqaviməti irticanı narahat etdiyindən 1908-ci ilin avqustunda buraya 40 minlik qüvvə göndərildi. Sentyabrın 25-də Təbriz üzərinə iki günlük hücum başladı. Lakin irtica qüvvələri heç nə edə bilmədilər və oktyabrın 12-də şəhəri tərk

etdilər. Səttarxan öz silahdaşları Bağırxan, Hüseynxan Bağban, «gizli mərkəz» in başçıları Əli Müsyö, Hacı Əli Davafuruş və b. Tehranın müdafiəsini təşkil etdilər.

1909-cu ilin fevralına qədər Cənubi Azərbaycanın bütün qərb vilayətləri (Makudan başqa) inqilabçıların əlinə keçdi. Ancaq Məhəmmədəli şah qüvvələri topladı. 1909-cu ilin yanvarın axırlarında Təbriz şəhəri yenidən mühasirəyə alındı, fevral-mart aylarında Təbriz üzərinə əksinqilabi hücum başladı, lakin uğur qazanılmadı. Aprelin 14-də Marağa şəhərinin qubernatoru olmuş Səməd xanın qoşunları Təbrizə hücum etdilər. Çar Rusiyası xarici konsulluqları və təbəqələri müdafiə etmək və ərzaq daşınması bəhanəsi ilə 1909-cu ilin aprelin 29-da öz qoşunlarını Təbrizə yeritdi. Bununla da Təbriz üsyanı yatırıldı.

Təbriz üsyanı Rəşt və İsfahanda üsyanların uğurla başa çatmasına, üsyançıların Tehrana yürüşünə, eyni zamanda Məhəmmədəli şahın hökmranlığının devrilməsinə (16 iyul 1909) və Konstitusiyanın bərpasına səbəb oldu.

Fədailəri tərkisilah etmək məqsədilə rəsmi dairələr tərəfindən Səttarxan və Bağırxan 1909-ci il martın 11-də Tehrana dəvət olundular. Tərkisilah haqqında fədai başçıları ilə əldə olunmuş razılığa baxmayaraq, Atabək parkında Səttarxan və onun ətrafındakı mücahidlərə və onlara qoşulanlara basqın edildi. Səttarxan Yeprem adlı erməni tərəfindən yaralandı. Mücahidlərdən 18 nəfər həlak oldu, 40 nəfər yaralandı. Səttarxan və Bağırxana qayıtmağa icazə verilmədi. Bu xəyanət xalqı hiddətləndirsə də, çar qoşunları Cənubi Azərbaycanda əhalinin fəal çıxışına imkan vermədi. Dekabrın 28-də Təbriz fədailərinin müqaviməti qırıldı. İrtica hücuma keçdi.



**Bağırxan**

Səttarxanı yaralayan Yeprem kim idi?. Əsl adı **David Yantes** olan erməni Yeprem İran Məşrutə inqilabını öz yolundan sapdıran saxta və qondarma inqilabçılardan idi. İran tarixçisi H.M.Zavoş yazır ki, «... saxta və qondarma»

inqilabçılıq xəttinin ... nümayəndələri Tehrana hücüm etmiş və onu ələ keçirdikdən sonra «Məşrutə rəhbərləri» sifəti ilə hakimiyyətə yiyələnmişlər. Həmin vəzifələrin bölüşdürülməsində Yeprem xana Tehran polis idarəsinin başçılığı düşmüşdü».

İranda Yeprem adı ilə tanınan *David Yantes Əsirberqiyan* 1868-ci ildə Gəncənin Barsil kəndində anadan olmuşdu. 1877-ci ildə 20 nəfərlik dəstə ilə Türkiyəyə gəlib oradakı ermənilərə qoşulmaq istəyərkən ruslar tərəfindən tutulmuş və Sibirə sürgün edilmişdi. Üç il sürgündə qaldıqdan sonra qaçaraq Yaponiyaya keçən Yeprem 1898-ci ildə Təbrizə, oradan Səlmasa gəlmişdi. Lakin tutulmaqdan qorxduğu üçün Anahid adlı bir erməni qadını ilə Qarabağın Ağağan kəndinə qaçmış və orada evlənmişlər.

Yeprem tezliklə «Daşnaqsütyun» partiyasına üzv seçilir və partiyanın tapşırığı ilə gah Qarabağda, gah da Tiflisdə olaraq tapşırıqları icra edir və 1901- ci ildə İrana gələrək Təbrizdə yerləşir.

Yeprem ilk əvvəl Qəzvin-Rəşt yolsaldırma şirkətində işə başlayır. Lakin əsas məqsədi İranda «Daşnaqsütyun» partiyasının şöbələrini yaratmaq olduğundan Turqum adlı bir erməni ilə birləşərək kərpiçbişirmə sexi alır və 1903-1918- ci illərdə partiyanın şöbələrini yaradır. Tezliklə tanınmış şəxsiyyətə çevrilən Yeprem «azadixahlıq» maskasına bürünərək Gilanın tanınmış şəxsiyyətləri ilə - sonralar Atabək parkında mücahidlərə sui-qəsdin təşkilatçısı, mason Əbdülhüseyn xan Sərdar Mohi və Mirzə Kərimxan Rəşti ilə tanış olur. «Daşnaqsütyun» partiyasının tapşırığı ilə Ənzəli, Rəşt, Qəzvin və Tehranda iş aparan Yeprem daşnaqlarla birləşərək Tehranın Atabək parkında Səttarxanın dəstəsinə qarşı faciə törədirlər. Yeprem polis rəisi vəzifəsində olarkən M.Ə.Rəsulzadənin, Heydərxan Əmoğlunun və Yarməhəmməd Girmaşahinin sürgünə göndərilməsinin təşkilatçılarından biri olur.

Səttarxan 1914-cü il noyabrın 9-da vəfat etmişdi. Bir gün sonra M.Ə.Rəsulzadənin «İqbal» qəzetində «Səttarxan» sərlövhəli məqalə - nekroloqu dərc olunmuşdu. M.Ə.Rəsulzadə

Səttarxanın tarixi rolunu qeyd edərək buraxılmış səhvləri də xalqdan gizlətməmişdi. O yazmışdı: «Son zamanlar Səttarxan unudulmuşdu. Artıq adı dillərdə dastan deyildi. Səttarxan hər nə qədər cismən indi ölmüşdüsə də, Təbriz meydani-hürriyyətində qazandığı şöhrətini 1910-cu ildə Tehranın Atabək parkında öldürmüşdü». Böyük öndər Atabək parkında baş verənlərə aydınlıq gətirərək yazırdı: «Səttarxanın öz səyi və himmətiylə vücuduna çatışmış olduğu məşrutiyyət hökuməti artan nüfuzunu payidar etmək istəmişdi. Binaən - əleyh əllərində silah olaraq küçələri gəzən mücahidlərin tərksilah edilməsinə qərar vermişdi. Gözlənilməli idi ki, bu qərarı hər kəsdən əvvəl Səttarxan qəbul eləsin. Heyhat! Xan Tehran intriqaçılarının damində (tələsində) idi. Hökumətin bu məşru tələbindən boyun qaçırtdı. Mücahidlər Atabək parkına doldular. Hökumətə qarşı durdular. Nəticə parkın hücumla alınması və Səttarxanın da ayağından yaralanması kimi fəci bir hala müncər oldu. Yaralandığından sonra özü ilə döyüşənlərə Səttarxan özünün bu səhvindən mütəəssir olduğunu söyləyirdi:

-Ax, bu məlunlar başıma nələr gətirdilər? - deyə intriqaçılara lənətlər oxuyurdu».

Göründüyü kimi, Atabək parkında baş verən hadisələr Səttarxanın səhvindən törəmiş, nəticədə mücahidlər böyük itkilərə məruz qalmışlar.

Səttarxanı yaralayan Yepremin çirkin həyatına isə Əbdülbaqixan Çardoli adlı bir şəxsin gülləsi son qoymuşdu. O, 1912-ci il mayın 18-də Həmədan ilə Qor arasında yerləşən Çardoli vilayətinin Şorca kəndində kəndin qalasına etdiyi hücumda tüfəngini Yepremə yönəlmişdi. Yepremin meyidi may ayının 23-də Tehrana gətirilmiş və orada basdırılmışdı.

1905-1911-ci illər inqilabının yatırılmasından sonra çar Rusiyası və İngiltərə İranın, o cümlədən Cənubi Azərbaycanın əsarəti və istismarını qüvvətləndirdi.

Səttarxan hərəkatına Şimali Azərbaycanın ziyalıları ilə yanaşı milli burjuaziyanın numayəndələri də maddi və mənəvi kömək göstərmişlər. Hacı Zeynalabdin Tağıyev Tehranda və

Təbrizdə açılan məktəblərin tikintisinə pulla yardım etmiş, kitablar və dərs ləvazimatı göndərmişdi. Kəlkəttədə çıxan «Həblül- mətin» qəzeti onun vəsaiti ilə nəşr olunur və İranda yayılırdı. Hacı Təbriz inqilabının taleyinə də biganə qalmamışdı. Qısa müddət Bakıda yaşayan (iyun 1908-iyul 1909) İran vətəndaşı doktor Rəhimzadənin köməyi ilə Təbrizə bir milyon 200 min manatlıq silah göndərmişdi. Çar Rusiyasının rəsmi sənədlərində Hacı Zeynalabdin Tağıyevdən başqa milli burjuaziyanın digər nümayəndələri Musa Nağıyevin, Murtuza Muxtarovun, habelə Teymurxanşuradan N.Mütəllibovun da adları çəkilir. Onların bir qismi İranın Bakıdakı konsulu Mirzə Kərim xanla sıx əlaqə saxlayırdılar. Konsulluq Təbriz inqilabçılarına döyüş ləvazimatı, pul və könüllülər göndərilməsini təşkil edirdi. 1909-cu il avqustun 19-da Qafqaz canişini çar hökumətinin xarici işlər naziri İzvolskiyə göndərdiyi teleqramda yazırdı ki,: «İranın Bakı konsulu Mirzə Kərim xan inqilabçılara yardım göstərir…O, hələ Yelizavetpolda konsul müavini vəzifəsi daşıdığı zaman silah almaq, onları İrana göndərmək işini təşkil edirdi. Bakıya konsul təyin edildikdən sonra daha geniş fəaliyyət göstərir….O silah sandıqları üzərində və silah doldurduğu tabutlar üzərində belə yazır: «Bakıda vəfat etmiş müsəlmanın Kərbəlada müqəddəs yerlərdə basdırılmaq üçün cəsədi». Mirzə Kərim xan Qafqazın müxtəlif şəhərlərində olan konsul məmurlarını da bu işə cəlb etməyə çalışır».

Bakıda və Tiflisdə inqilabçılara xüsusi yardım komitələri təşkil olunmuşdu. Bakı yardım komitəsinə M.Əzizbəyov və Mehmandarov daxil idilər. Tiflis komitəsinə isə N.Nərimanov başçılıq edirdi. Onların fəal köməyi ilə Təbrizə xeyli silah və pul göndərilmişdi. 1909-cu ildə Vorontsov-Daşkovun Stolipinə verdiyi məlumat göstərir ki, çar hökuməti bütün bunları narahatlıqla qarşılayırdı. Bu səbəbdən də, Bakı qubernatorunun sentyabrın 27-də şəhər polis idarəsinə verdiyi əmrdə deyilirdi: Son vaxtlar Rusiyadan Azərbaycana (Cənubi Azərbaycana) qaçaq silah aparılması xeyli artmışdır. Tulanın hökumət zavodundan külli miqdarda tüfəng, patron gətirilərək Nijni-

Novqorod yarmarkasında gizli satılır, qaçaq ticarət malı kimi Volqa çayı ilə Həştərxana, oradan da, dəniz vasitəsilə Bakıya gətirilir. Silah Bakıdan iki yolla- furqonla Şuşaya, oradan Culfaya və Təbrizə aparılır. Həştərxandan gəmi vasitəsilə Bakıya gətirilən mallar üzərində ciddi nəzarət qoyulması sizdən xahiş olunur».

Məlumdur ki, nəzarətin gücləndirilməsinin nəticəsi kimi N.Nərimanov həbs olunaraq Həştərxana sürgün edildi.

## 2.5. Birinci dünya müharibəsi ərəfəsində və illərində türk vilayətlərində milli hərəkat

1905- ci il yanvarın 9-da Petroqradda baş verən qanlı hadisələr qısa zamanda Rusiyada, çarizmin milli müstəmləkələrində, o cümlədən Orta Asiyada, Qazaxıstanda, Sibirdə, Volqa sahili rayonlarında da inqilabi fırtınanın baş qaldırmasına, milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu.

1905-ci il inqilabından sonra Rusiyada başlanan inqilabi hərəkat milli ucqarların bütün bölgələrinə sirayət etdi. Bu bölgələrin qabaqcıl ziyalıları hürriyyət və maarif yoluna cəlb olundular. Bakıda, Daşkənddə, Səmərqənddə, Kazanda, Alma-Atada, Həştərxanda, türk dünyasının digər bölgələrində milli və dini məsələlərə dair kitablar, kitabçalar, publisistik yazılar dərc olunmağa başladı.

Birinci rus inqilabı Orta Asiyada, Qazaxıstanda, Tatarıstanda baş verən inqilabi hərəkata, milli və dini oyanışa təsir etdi. Hürriyyət abı-havası imperiyanın sərt qanunlarını xeyli yumşaltdı, ölkədə söz, mətbuat azadlığına zəmin yaranmasına səbəb oldu. Qazax, özbək, türkmən, tatar yazıçıları və publisistləri ana dilində mətbuat orqanları yaratmağa imkan tapdılar. Çox keçmədi ki, Bakıda «Həyat», «Füyüzat», «Tərəqqi», «Təkamül», «İrşad», «İqbal» və digər mətbuat orqanları nəşrə başladılar. Daşkənddə 10 adda, Səmərqənddə 5 adda, Alma-Atada 6 adda, Kazanda 9 adda mətbuat orqanları nəşr olundu. İnqilab havası partiyaların, cəmiyyətlərin,

dərnəklərin fəaliyyəti üçün şərait yaratdı. Başqa sözlə, inqilab türk xalqları arasında milli oyanışa güclü təkan verdi. Daşkənddə, Buxarada, Xivədə, Həştərxanda yerli bəy və xanlarla yanaşı, çar üsul-idarəsinə qarşı mübarizə gücləndi.

Çar Rusiyasının milli müstəmləkələri olan türk vilayətlərində üç ictimai-siyasi cərəyan mövcud idi: *mürtəce mühafizəkarlar, millətçi liberallar və inqilabçı millətçilər***.** Bu üç siyasi cərəyan ümumi şəkildə Özbəkistan, Türkmənistan, Qazaxıstan, Tacikistan və digər turk dilli xalqların ictimai-siyasi hərəkatının xətlərini müəyyənləşdirir.

*Mühafizəkarlar* başlıca olaraq din xadimlərindən ibarət idi. Mollalar, seyidlər, üləmaların bir hissəsi mütləqiyyətə qulluq edərək demokratik hərəkatı boğmağa çalışırdılar. Milli hərəkata münasibətdə din xadimləri ilə çarizmin mövqeyi mahiyyət etibarı ilə bir-birindən fərqlənmirdi. Bütün bunlarla bərabər, islam dininin hər hansı bir formada təbliği çarizmin yerlərdəki dayaqlarını laxladırdı.

*Türk liberalları* ilk anlar rus liberalları ilə birlikdə fəaliyyət göstərir, prinsipial məsələlərdə eyni mövqedən çıxış edirdilər. Lakin rus liberallarının mövqeyində imperiya iddiaları aydın hiss olun duğu zaman türk liberalları ilə onlar arasında parçalanma yarandı. Rus liberalları türk vilayətlərinin muxtariyyatını tanımaq istəmirdilər. Sonralar türk liberalları türk millətçi partiyalarına qoşularaq birgə fəaliyyət göstərməyə başladılar.

İctimai-siyasi hərəkatın *inqilabçı millətçilər* qolunu gənclər təşkil edirdilər. Onlar rus inqilabçıları ilə birlikdə çarizmi devirmək uğrunda mübarizə yolunu tutmuşdular.

Güclü iqtisadi potensiala malik Orta Asiya və Qazaxıstan burjuaziyası türk milli hərəkatının inkişafında mühüm rol oyna mışdı. Qazaxıstanda «Səhra», «Ulfat», «Serke», «Ural», «Səhra həyatı», Türkmənistanda «Aşxabadskiy vestnik obcəvleniy», «Törk menskaə tuzesnaə», «Turkmenskaə vedomost», «Şxabad», və s. qəzetlər nəşrə başladı. Bu qəzet və jurnalların nəşrində burjuaziya fəal iştirak edirdi.

Özbəkistan, Qazaxıstan, Türkmənistan, həmçinin Azərbaycan burjuaziyası yerli şəhər özünüidarəsində də fəal iştirak edirdi. Çar hakimiyyəti xristian olmayanlara məhdudiyyət qoymaq üçün tədbirlər görməyə başlamışdı. Xüsusi ilə 1907-ci il 3 iyun çevrilişindən sonra Stolıpinin irticaçı millətçi siyasəti ilə qeyri-xristianlara qarşı kəskin mübarizə aparılmağa başlandı. Kazan, Orenburq, Daşkənd, Həştərxan, Omsk, Semipalatinski, Petro pavlovski, Krasnovodski, Buxa ra, Xivə, Səmərqənd, Ürgənc, Aşqabad, Mərv və başqa şəhər dumalarında xristianlara üstünlük verildi, müsəlmanların sayı kəskin dərəcədə azaldıldı.

Birinci rus inqilabı türk vilayətlərində milli-demokratik fikrin inkişafına təkan verdi. 1904-cü ildə «Müsəlman demokratik cəmiyyətinin» əsasında RSDFP-nin Bakı, 1905-ci ildə Daşkənd, Həştərxan, Səmərqənd, Aşqabad inqilab komitələri yaradıldı. 1905-1912-ci illərdə Qazaxıstanın 20-dən çox şəhərində, Volqa boyu rayonlarında, Ural mədənlərində bu cür komitələr təşkil edildi. Aşqabadda, Səmərqənddə, Kazanda, Həştərxanda da bu cür təşkilatlar fəaliyyətə başladı. H.Baykaranın qeyd etdiyi kimi, Azərbaycandakı «Hümmət» ilk türk siyasi təşkilatı olub Orta Asiyanın, Həştərxanın və habelə Qazaxıstanın müsəlman-islam təşkilatları ilə əlaqə saxlamağa cəhd edirdi. Xüsusi ilə İranla, Orta Asiya ölkələri ilə əlaqələr genişlənirdi. «Hümmət» və «Aşqabad» təşkilatlarının rəhbərliyi və təşəbbüsü ilə Bakıda və Aşqabadda İran sosial-demokratlarının «Ədalət» və «Mücahid» təşkilatları fəaliyyət göstərirdi. Bu təşkilatların yaranmasında Azərbaycan və Türkmə nistan milli-azadlıq hərəkatının qabaqcıl nümayəndələri iştirak edirdilər.

Birinci rus inqilabı məğlub edildikdən sonra Rusiyanın bütün milli müstəmləkələrində, xüsusi ilə türk dilli müsəlman ölkələrində ictimai hərəkat kəskin xarakter aldı, türk vilayətlərində milli münaqişələr daha da gücləndi. Rus-yapon müharibəsində Rusi yanın biabırcasına məğlubiyyəti, Stolıpinin həyata keçirdiyi siyasətin iflasa uğraması ölkədə milli münaqişələrin kəskinləşməsinə səbəb oldu. 1907-1910-cu illərdə

Qazaxıstanda, Özbəkistanda, Volqaboyu rayonlarında sinfi mübarizə, milli-azadlıq hərəkatı geniş vüsət aldı. 1909-1910-cu illərdə Kazanda, Həştərxanda, Səmərqənddə, Buxarada, Xivədə, Daşkənddə və Krasnovodskidə milli toqquşmalar baş verdi. Taciklərlə türkmənlər, qazaxlarla ruslar, ermənilərlə azərbaycanlılar arasında milli zəmində münaqişələr gücləndi. Çarizmin bir çox hallarda müstəmləkələrdə, xüsusən də türk vilayətlərində yeritdiyi milli, dini ayrı-seçkilik, hədə qorxular silahlı toqquşmalara səbəb oldu. Artıq 1912-ci ilin may ayında, həmin ilin yay və payız aylarında Orta Asiyanın şəhər və kəndlərində, dəmir yol qovşaqlarında 16 toqquşma qeydə alınmışdı. 1914-cü ildə Kazanda, 1915-ci ilin yazında Daşkənddə, Krasnovodskidə, 1916-cı ildə Orta Asiyanın əksər şəhərlərində milli toqquşmalar baş verdi.

Birinci Dünya müharibəsinin başlanması dünyanın hər yerində, o cümlədən çarizmin milli müstəmləkələrində milli oyanışa təkan verdi. Ayrı-ayrı imperialist dövlətlərinin türk vilayətlərinin milli sərvətlərinə malik olmaq marağı getdikcə aydın hiss olunmağa başladı. Almaniya Bakı neftinə, İngiltərə, Amerika, Türkiyə Qafqaza və Orta Asiyaya, Fransanın Qafqaza və Qara dəniz bölgələrinə olan marağı bu ölkələr arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb odu. Müharibədə Rusiyanın müttəfiqi kimi çıxış edən İngiltərə Bakı neftini ələ keçirməyə və Amerikanın dünya bazarındakı nüfuzunun zəiflədilməsinə cəhd edirdi.

Müharibədə Türkiyənin də regional məqsədləri var idi. Müharibə başlanandan üç ay sonra Rusiyanın Qara dənizdə yerləşən donanmasına hücum etməklə Osmanlı dövləti savaşa qoşuldu. T.Svyatoxovskinin qeyd etdiyi kimi, Osmanlı dövləti müharibə başlayarkən iki «ideoloji təməl»i izləyirdi. *Birinci təməl* panislamizmin gerçəkləşməsi uğrunda mübarizə idi. Ona görə də, onlar savaşa qoşularkən müharibənin «bir cihad olduğunu elan etmiş və bütün dünya müsəlmanlarını cihada qoşulmağa çağırmışlar». *İkinci təməl* isə turançılıq ideyalarının həyata keçirilməsi idi.

Rusiya ilə Türkiyə arasında müharibə Azərbaycanda, Orta Asiyada, qismən Qazaxıstanda güclü əks-səda doğurdu. Müharibə türk vilayətlərində islamçılıq ideyalarının güclənməsinə təkan verdi. Rusiya əleyhinə etiraz çıxışları başlandı. Bakıda, Aşqabadda, Buxarada yaşayan milli burjuaziyanın nümayəndələri antirus təbliğatı üçün vəsait ayırdılar. Rusiya imperializmini ifşa edən kitab və kitabçalar, yazılar dərc olunmağa başladı. Bu səbəbdən də, Türkmənistanda, Özbəkistanda, habelə Volqaboyu rayonlarında bir çox qəzetlərin nəşri dayandırıldı. Belə bir şəraitdə «Difai» partiyası üzvləri öz aralarında ilk müstəqil Qafqaz müsəlman dövləti yaratmaq məsələsini ortaya atdılar. Fətəli xan Xoyskinin qardaşı oğlu Aslan Xoyski 1915-ci ilin fevralında gizli şəkildə sərhəddi keçərək Ənvər Paşanın Ərzurumdakı qərargahına getdi. Bu səfərin məqsədi Bakı, Yelizavetpol, İrəvan quberniyaları ilə Terek və Dağıstanı əhatə edəcək bir respublikanın qurulması üçün Osmanlı dövləti başçılarının razılığını almaq idi. Ənvər Paşaya təqdim olunan layihəyə görə Azərbaycanın Osmanlı dövləti ilə birləşdirilməsindən daha çox müstəqil dövlət kimi qurulması prinsipi əsas götürülürdü. Sarıqamış məğlubiyyətindən sonra Ənvər Paşa Aslan Xoyskinin təqdim etdiyi layihəni qəbul etdi. Bünün əvəzində A.Xoyski osmanlılar Cənubi Azərbaycandan kömək alan kimi Dağıstan və Qafqaz müsəlmanlarını da ayağa qaldırmağa söz verdi. Danışıq zamanı, həmçinin Daşkənddə, Həştərxanda, Volqa sahili boyu rayonlarda milli-azadlıq hərəkatının geniş vüsət aldığı diqqətə çatdırılaraq Orta Asiya və Volqa boyu müsəlmanlarının da bu işə cəlb olunacağı vəd edildi. Lakin müharibənin gedişi, ölkədə əhalinin iqtisadi-sosial vəziyyəti, mütləqiyyətin milli ucqarlara və xüsusi ilə müsəlman ölkələrinə güclü təzyiqi bu məsələnin reallaşmasına imkan vermədi.

1914-1915-ci illərdə rusların laz və avarlara divan tutması, Daşkənddə, Səmərqənddə, Xocəntdə, Mərvdə, Aşqabadda, Həştərxanda, Krasnovodskidə, Qurevdə və Cərcoda törədilən milli nifaqlar müsəlmanlar arasında narazılığa səbəb oldu.

Rusiya Dövlət Dumasındakı çıxışında millət vəkili M.Y.Cəfərov da ordunun bu hərəkətinə görə hökuməti günahlandırdı. Dumadakı çıxışında o, demişdi: «…Bu siyasət Qafqazda, ordu hissələrinin keçdiyi yerlərdə, rus olmayan millətlərə qarşı açıq təhrikçilik şəklində özünü göstərir. Müharibə gurultusunun arxasında yardımsız, sülhsevər müsəlman xalqının başına qorxunc əməllər gətiril məkdədir. Onların həyat və əmlakı üçün heç bir təminat yoxdur. Müsəlman üçün zülm, talan və cinayət adi gündəlik işlər olmuşdur. Kişilərin elliklə sərhəd xaricinə atılması, müdafiəsiz qalan qadınlara təcavüz, dağıdılmış, tərk edilmiş kəndlər, ac, yalavac, yaralı möhtac insanlar-bölgədəki müsəlmanların vəziyyəti belədir».

M.Y.Cəfərovun ittihamedici çıxışı, «İttihadi müslimin» yığıncağında edilən çıxışlar, Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının 900 nəfərdən ibarət nümayəndələri adından irəli sürülən ittihamlar mütləqiyyəti daha çevik siyasət yeritməyə təhrik etdi. Müsəlmanlar əleyhinə Daşkənddə, Səmərqənddə, Buxarada, Xivədə, Ürgəncdə, Mərvdə, Həştərxanda və Cərcoda təxribatlar törədildi.

Azərbaycanda olduğu kimi, Orta Asiyada da Türkiyəyə rəğbət bəsləyənlərin sayı artmaqda idi. Əhali cəbhədən əsir kimi gətirilmiş türk əsgərlərinə yardım etməyə can atırdı. Tiflis Quberniya jandarm idarəsinin 22 mart 1914-cü il tarixli məlumatında Qafqaz müsəlmanları arasında Türkiyə donanmasına ianə toplandığı qeyd edilmişdi. Müsəlman qadın xeyriyyə cəmiyyətinin üzvü Sona xanım Hacıyevanın verdiyi məlumatdan aydın olur ki, o,Bakıda xəstə türk əsirlərinə kömək göstərmək barədə elanları oxuduqdan sonra «Müsəlman xeyriyyə cəmiyyəti» nin sədri İsmayıl bəy Səfər əliyevlə birlikdə dəfələrlə şəhər xəstəxanalarında olmuş, xəstələrə müxtəlif yardımlar göstərmişlər. Türk əsirləri Nargin adasına aparıldıqdan sonra da o, həftədə bir dəfə həbs düşərgəsinə getmiş, əsirlərə maddi yardım göstərmişdi. Azərbaycanın, Orta Asiyanın, Dağıstanın və Həştərxanın imkanlı şəxsləri öz türk qardaşlarına maddi və mənəvi dəstək olmaqla kifayətlənmir,

hətta öz həyatlarını təhlükə qarşısında qoyaraq, böyük xərclər hesabına əsirlərin qaçırılmasına çalışırdılar. 1915-ci il fevralın 18 və 20-də xəstə əsirlərin yerini dəyişmək adı ilə 14 nəfər türk əsgəri Orta Asiyaya aparılmış və orada onlara köməklik edilmişdi. 1915-ci ilin iyul ayında 8 nəfər türk zabiti əsirlikdən qaçırılmışdı. Nargin adasının hərbi düşərgəsinin komendantı polkovnik Poltoratskinin Bakı şəhəri jandarm idarəsi rəisinin adına verdiyi məlumatda qaçırılan türk əsgərlərinin kapitanlar Süleyl İzzət, Fəraqət, Tursun, Şükrü Şaban bəy, poruçik Osman Nüri Abdulla, podporuçik Yusif Ziya, Hüseyn Hilmi, Fikrət Şakir və Yusif İbrahim olduğu aydın olur.

Milliyyətcə erməni olan A.B.Akopovun Qafqaz canişinliyinə göndərdiyi məlumatda əsrlərin qaçırılmasının yolları, bu işin təşkilində xidmətləri olan müsəlmanların adı və soyadı göstərilmişdi. Onun fikrincə türk əsgərləri bilərəkdən əsir düşür, bu yolla rus bazalarının yerini öyrənməyə çalışırlar. Akopov türk əsirlərinin qaçıraılaraq Bakının «İsmailiyə» mehmanxanasında yerləşdirilməsi və bu işin təşkili olunmasında böyük xidmətləri olan şəxslər barədə də məlumat vermişdi. Əsirlərin bir hissəsi Puta, Sanqaçal və Ələt yaxınlığında saxlanılmışdı. Bir hissəsi isə İran fəhlələri adı ilə İrana yola salınmışdı. Akopovun yazdığına görə, Ağabala Quliyev bu işə xeyli vəsait sərf etmiş və xidmətlərinə görə Türkiyənin «Aypara» ordeni ilə təltif olunmuşdu.

Əhali arasında türklərə rəğbətin artması, əsirlər arasında aparılan işlər rus siyasi və hərbi dairələrində ciddi narahatlığa səbəb olmuşdu. Bakıda və Tiflisdə olduğu kimi, Daşkənddə və Həştərxanda rus dilində nəşr olunan yazılarda yerli əhalinin, xüsusi ilə türk dilli xalqlar içərisində türklərə olan rəğbətin müxtəlif formaları şərh olunurdu. «Qurultay», «İoldız», «Beznen tauş» (Naş qolos), «Koyaş» (Günəş) və b. qəzetlərindəki yazılarda döyüş mey danlarında rusların əldə etdikləri qələbələr, türklərin itki vermələri və geri çəkilmələri haqqında verilən xəbərlərdə kədər hiss olunurdu. Daşkəndin, Səmərqəndin, Ürgəncin məscidlərində tanrının türk xalqına qü-

vvət verməsi üçün dualar oxunurdu. 1915-ci ilin noyabr ayının əvvəllərində Qafqaz canişinliyinə göndərilmiş məlumatların birində yazılmışdı ki, «... Yerli müsəlmanların əhval ruhiyyəsi daimi və birbaşa olaraq türk cəbhəsindəki vəziyyətlə bağlıdır. Türklər hücum edir, müsəlmanların əhval ruhiyyəsi hiss olunacaq dərəcədə yüksəlir, geri çəkilmə aşağı düşür. Sən demə, istər yüksək təbəqə, istərsə də aşağı təbəqə olsun, müsəlmanların əksəriyyəti türklərin tərəfindədir... Müsəlman mənbələrinə görə indi onların diqqəti Balkan hadisələrinə yönəlmişdir. Onlar almanlarla türklərin birləşəcəyi anı həsrətlə gözləyirlər, çünki o zaman türklər öz cəbhələrində hücuma keçəcəklər. Türklərin uğur qazanacaqları təqdirində müsəlmanların üsyanı istisna olunmur».

Çar hökuməti, onun yerlərdəki canişinləri türklərə rəğbət bəsləyənlərin cəzalandırılmasından da belə çəkinmirdi. Bu işdə erməni millətçiləri arasında ruslara böyük sədaqətlə xidmət edənlər «fərqlənirdi». İ.Sərkisyan, Aşot Balayan, Tiqran Poqosiyan, Süren Nalbandiyan və başqaları müntəzəm olaraq Azərbaycan, Dağıstan, Həştərxan, Krasnovodski və Orta Asiyanın digər iri şəhərləri ilə olan gizli əlaqələr, Türkiyəyə toplanan ianələr, türk əsirlərinə göstərilən yardımlar barədə məlumatlar verirdilər. Mütləqiyyətin yerli məmurları yerlərdə axtarışlar aparır, məsuliyyətə cəlb edilmək üçün müxtəlif təxribatlar törədirdilər. Bakıda Türkiyə konsulluğuna verilmiş ianənin təşkil olunmasında xüsusi xidməti olan K.A.Aslanov Həştərxana sürgün olunmuşdu. Nargin adasından türk əsirlərinin qaçırılmasında iştirak edən 30-dan çox azərbaycanlı, tatar, özbək, qazax cinayət məsuliyyətinə cəlb edilmişdi.

Türkiyədə mühacirətdə olan Ə.Hüseynzadə, Ə.Ağayev baş verən hadisələrdən narahat olaraq «Gənc türklər» hərəkatının liderləri ilə birlikdə ABŞ prezidenti Vilsona Rusiya müsəlmanlarının ağır həyatından bəhs edən müraciəti imzalamışlar.

Müharibə illərində Türkiyə dövləti Ə.Hüseynzadəni xüsusi tapşırıqla Bakıya göndərmişdi. Ona «Azərbaycanın yeni bir

dövlət halında qurulması məsələsini müzakirə etmək və bu barədə müəyyən tədbirlər görmək tapşırılmışdı».

Müharibə Azərbaycanda «Müsavat», Daşkənddə «Şuravi İslamiya», Səmərqənddə «İttifaq», Yeddisuda qırğızların «Bukra», «Şuro i-Ulama», Qazaxıstanda «Alaş», «İttifaqi müslimin» və s. təşkilatların fəaliyyətinin genişlənməsinə imkan yaratdı. Bu partiyalar və təşkilatlar arasında öz aralarında müxtəlif məsələlərdə fikir ayrılıqları olsa da, milli-azadlıq hərəkatının bir çox məqamlarında birgə çıxış edirdilər. Onlar müharibəni işğal kimi qiymətləndirir, onun dərhal dayandırılmasını tələb edirdilər.

Birinci Dünya müharibəsi illərində burjua partiyalarının fəaliyyəti əsasən mətbuatda dərc olunan siyasi publisistik, ədəbi-bədii yazılarda özünü göstərirdi. 1914-1918-ci illərdə Türkmənistanda «Çıqiri», «Çatma», «Şalaş», «Boqatıe», «Bednəki», «Tumarlı», Qazaxıstanda «Step», «Aykap», «Ulfat», «Serke» «Kazaxıstan», «Eşim qalası», «Uakat», «Şora» və b. qəzetlər dövrün ziddiyyətdlərindən, müharibənin türk xalqlarına gətirdiyi min cür bəlalardan bəhs edir, xalqı mütləqiyyətin eybəcər qanunlarına, yerli məmurların özbaşınalığına qarşı mübarizəyə çağırırdı.

Müharibə Rusiyanın milli ucqarlarına, türkmən aullarına, qazaxların şəhər və kəndlərinə aclıq və fəlakət gətirdi. Əhalinin əmlakı, mal-qarası, maddi vəsaiti müharibənin xeyrinə müsadirə edildi. 1915-ci ildə Krasnovodski qəzasında əhalidən 6.872 at, 12.805 dəvə, 1.187.627 manat pul alınmışdı. 1916-cı ildə Türkmənistanda ərzağın, sənaye mallarının qiyməti 300 - 400 faiz artmışdı. 1917-ci ildə Zakaspi vilayətində kəndlilərinin 15,9 faizi torpaq sahəsini itirmişdi. Kəndlilərin mal-qarası 35,6 faiz azalmışdı. Kəndlilər torpağı becərə bilmədiyindən torpaq sahəsinin 61 faizini icarəyə vermişdilər. Qazax kəndlilərindən 1915- ci ildə 20.518 min pud, 1916-cı ildə 14.900 min pud, 1917-ci ildə isə 7.845 min pud pambıq alınmışdı. Turqay vilayətində əkin sahələri 57 min desyatin azalmışdı. Akmolinski vilayətlərində çörəyin qiyməti 3-4 dəfə artmışdı.

Müharibə, aparılan hərbi səfərbərlik fəhlə sinfinin milli tərkibinin dəyişməsinə səbəb oldu. Milli tərkibin dəyişməsi ilə sinfi və milli münasibətlərdə də dəyişikliklər baş verdi. Müharibə milli-azadlıq hərəkatının yüksəlməsinə təkan verdi.

### 2.6. Gənc türklər hərəkatı

XVIII əsrdə başlayan və XIX əsrdə başa çatan maarifçilik zəminində bir sıra ölkələrin həyatında xeyli dəyişikliklər baş verdi. Ölkələrarası ticarət əlaqələri genişləndi. Bu baxımdan Osmanlı imperiyasının çoxmillətli ictimai quruluşu, mövcud tələblərə cavab verməyən siyasi-intellektual səviyyəsi bəhs olunan dövrdə Qərbin yüksələn qüvvələri qaşısında geriləməkdə idi. Vəziyyətdən çıxış yolunu axtaran ziyalılar dəyişikliklərin vasib olduğunu hiss edirdilər. Beləliklə, XX əsrin əvvəllərində Türkiyənin siyasi həyatına istiqamət verəcək yeni bir ziyalı nəsli ortaya çıxırdı. Bunlar «konstitusiyalı» rejim qurmaq istəyən kiçik rütbəli zabitlər, gənclər, hərbi-mülki bürokratlar idilər.

Osmanlı cəmiyyətində formalaşan fikirlər müxalif qrupların yaranmasına şərait yaratdı. Onların yaratdıqları ilk birlik «Fədailər», ilk siyasi təşkilat isə «Osmanlılar» cəmiyyəti oldu.

1865-ci ildə yaranan «Osmanlılar» cəmiyyətinin 6 nəfər üzvündən biri də Namiq Kamal idi. Yeni cəmiyyətdən xəbər tutan hökumət cəmiyyətin liderlərini - Namiq Kamal, Əbülziya Tefik, Ziya Raşa və Əli Sufvini həbs edərək İstanbuldan kənara sürgün etdilər. Bu zaman əvvələrdə əlaqədə olduqları Misir valisi İbrahim paşanın oğullarından biri Fazil Mustafa paşa müxalifətçiləri Parisə dəvət etdi. Ölkədən kənarda yaşayan müxalifətçilər 1867-ci ildə özlərinə «Gənc türklər» adını verdilər və nəşr etdirdikləri qəzetlərlə mübarizəni davam etdirməyə başladılar.

1873-cü ildə «Gənc türklər» in bir qismi əfv edildi, bir qismi isə müxtəlif yollarla İstanbula qayıtdılar.

1876-cı il mayın 12-də yenilikçi osmanlı bürokratiyasının tanınmış xadimləri Midhət Paşa Məclisi-Vükəlaya, Mütərcim Rüşdi paşa isə Baş vəzirliyi gətirildi. Mayın 30-da Sultan Əbdüləziz taxtdan salındı və V Murad taxta çıxdı.

Midhət paşa konstitusiyanın hazırlanması üçün komissiya yaratdı. «Vətən- yaxud Silistre» adlı əsərlərindəki fikirləri üstündə əvvəllər Maqosa sürgün edilən Namiq Kamal da komissiyaya dəvət olundu. Dekabrın sonunda «Qanın-i Əsas» ın mətni hazır oldu. 23 dekabr 1876-cı ildə ilk osmanlı Konstitusiyası elan olundu. Konstitusiyaya görə iki palatalı parlament yaradılsa da, parlamentin ömrü az oldu. Midhət paşanı sürgünə göndərən II Əbülhəmid 1877-1878-ci illər rus-türk müharibəsi ilə əlaqədar Məclisi günahlandırdı və 1878-ci il fevralın 14-də Məclis buraxıldı. Kostutusiyanın ləğvindən narazı qalan müxalifətçi ziyalılar onun yenidən bərpasına nail olmaq məqsəilə öz siyasi fəaliyyətlərini davam etdirdilər.

1889-cu ilin mayında İbrahim Temo, çərkəz Mehmed Rəşid, Abdullah Səadət və İshaq Sükuti «Osmanlı İttihad və Tərəqqi» cəmiyyətini qurdular. **«İttihad və Tərəqqi»** («Yeni osmanlılar» və ya «Gənc türklər») türk ziyalılarının siyasi təşkilatı olub əsası 1889-cu ildə İstanbulda hərbi tibb məktəbinin tələbələri tərəfindən qoyulmuşdu. Təsisçilərindən biri də Ə.Hüseynzadə idi. Əsas məqsədləri bir sıra başqa məsələlərlə yanaşı 1876-cı il Konsti- tusiyasının bərpası idi. «Gənc türklər» Parisdə özlərinin xarici mərkəzlərini yaratmış, «Məşvərət» qəzetini nəşr etməyə başlamışdılar. Osmanlı imperiyasında idarəçilik sistemini dəyişmək tərəfdarı olan Mustafa Kamal da «İttihad və Tərəqqi»çilərlə yanaşı, əvvəlcə Şamda (Dəməşq), sonra isə Salonikdə (Saloniki) «Vətən və Hürriyyət» cəmiyyəti yaratmışdı. Bu cəmiyyət sonralar «İttihad və Tərəqqi» ilə birləşmiş, nəticədə 1907-ci ilin sonundan etibarən «İttihad və Tərəqqi» türklərin vahid təşkilatına çevrilmişdi.

1908-ci ilin əvvəllərində Makedoniyadakı üçüncü orduda mübariz ruh artmağa başladı. Gənc zabitlər hərəkətə keçməyin vaxtı çatdığını hiss edirdilər. İyul ayının 3-4-də Ənvər bəy və Rəşnəli Niyazi məsləhətləşdikdən sonra Rəşnəli Niyazi vəziyyəti Padşah dəftərxanasına, Rumeli Ümumi Müfəttişliyinə və Manastr vilayətinə bildirdi. Fərariləri yola gətirmək üçün Manastra gedən Şəmsi paşa öldürüldü. Artıq üsyan başlanmışdı. Tezliklə Ədir nədəki ikinci qoşunları da üsyan bürüdü. Sultan hərəkatın qarşısını almağa cəhd etsə də, Salonik və Manastrdakı

ordular padşaha qarşı çıxdılar. İyulun 20-də Manastrdakı mülki əhali üsyan qaldırdı. Kosovo vilayətində də üsyan baş verdi. İyul ayının 23-də Manastrda Konstitusiyalı monarxiya elan edildi. Həmin gün padşah Konstitusiyanın təkrar fəaliyyətə başlaması haqqında fərman verdi.

«İttihad və Tərəqqi» cəmiyyəti dövləti idarə etməyə hazır deyildi. Artıq cəmiyyət iki yol ayrıcında qalmışdı: vətənpərvər dərnək olaraq qalmaq, ya da seçkilərdə iştirak etmək. Sonucda ikinci yol seçildi. Ancaq seçkilərdən sonra da vəziyyət sabitləşmədi. 1908-ci ildə Avstriyanın Bosniya və Hersoqovinanı ilhaq etməsi, oktyabrın 5-də Bolqarıstanın öz müstəqilliyini elan etməsi, bir gün sonra Kritin Yunanıstana ilhaq edilməsi ölkədə radikal cərəyanların qüvvə toplanmasını dayandırdı. İttihadçılar 1909-cu il fevralın 13-də Hüseyn Hilmi paşanı Baş nazirliyə gətirdilər. Lakin cəmiyyətin ölkədəki nüfuzu getdikcə aşağı düşürdü. 1909-cu il aprelin 7-də müxalifət ziyalılarından biri olan Həsən Fəhmi bəyin öldürülməsi ilə şayə yayıldı ki, bu hadisəni cəmiyyət törətmişdi. Belə olan təqdirdə aprelin 12-də «İttihad və Tərəqqi» intibahnamə yayaraq siyasi partiyaya çevrildiyini bildirdi.

1909-1911-ci illərdə «İttihad və Tərəqqi» yavaş-yavaş ölkədə yeganə hakim siyasi partiya halına düşdü. Konstitusiyadakı dəyişikliklərdən sonra seçkilərə getdi və Məclisə yenidən hakim oldu.

Nəhayət, ittihadçılar İstanbula köçə bildilər. Lakin mərkəzin Salonikdən İstanbula gəlməsi vəziyyəti yaxşılaşdıra bilmədi. 1912-ci ilin iyul ayının 21-də Qazi Əhməd Muxtar paşanın başçılığı altında yeni hökumətin təşkili ilə əlaqədar «İttihad və Tərəqqi» iqtidardan uzaqlaşdırıldı.

1912-ci ilin oktyabrında Osmanlı dövləti yenidən müharibə ilə üz-üzə qaldı və oktyabrın 18-də müharibə başladı. Qazi Əhməd Muxtar paşadan sonra yaradılan Kamil paşanın hökuməti bacarıqsız olduğundan vəziyyət kəskinləşməyə başladı. Balkan dövlətlərinin orduları İstanbulun yaxınlığına çatmışdılar. Siyasətə qoşulmuş zabitlərin çoxu döyüşə getməkdən imtina edirdi. Belə bir şəraitdə ittihadçılar 1913-cü il yanvarın 23-də dövlət aparatına hücum edərək nazir Nazim paşanı öldürdülər, Kamil paşanı istefa

verməyə məcbur etdilər. Mahmud Şövkət paşa hakimyyətə gətirildi. Ancaq o, 1912-ci ildə yaradılan «Xilaskar Zabitan» qrupu tərəfindən öldürüldü və nəticədə yenidən iqtidar Tələt, Ənvər və Camal paşanın əlinə keçdi. 1918-ci ilə qədər «Gənc türklər» hakimiyyətdə oldular.

«Gənc türklər» idarəetməyə hazır olmadıqlarını başa düşürdülər. Onlar belə hesab edirdilər ki, parlamentli bir rejim yaratsalar Qərb dövlətləri onlara hər cür köməklik edəcək, çətinlikləri aradan qaldıracaqlar. Lakin Qərb dövlətlərinin Bosniya və Hersoqovinanın Avstriya-Macarıstan tərəfindən ilhaqını, Bolqarıstanın müstəqil liyini müdafiə etməsi ittihadçıları yuxudan oyatdı.

1911-ci ildə başlayan Trablis müharibəsi, onun ardınca Balkan müharibələri Osmanlı dövlətini siyasi sınağa çəkdi.



**Tələt paşa**

Artıq Balkan torpaqları uğrunda vuruşan mütəfiqlər üz-üzə qalmışdı. Vəziyyətdən isti fadə edən Osmanlı dövləti Ədirnəni geri aldı. İkinci Balkan müharibəsinin sonunda imza lanan müqaviləyə görə Meric çayı Türkiyə ilə Bolqarıstan arasında sərhəd qəbul edildi. 1913-cü ilin ortalarında Avropa Türkiyəsinin çox böyük qismi əldən verildi.

«İttihad və Tərəqqi» dövründə Osmanlı dövləti Almaniya ilə ittifaqa girsə də, İngiltərə və Fransa ilə yaxınlaşmaq cəhdi baş tutmadı. Birinci Dünya müharibəsinin başlanması isə yeni geosiyasi şərait yaratdı.

Hakimiyyəti idarə etmək baxımından təcrübəli olmayan «Gənc türklər» bir sıra islahatların keçirilməsinə nail oldular. Türkiyədə iş yerlərinin milliləşdirilməsi, yazışmaların türkcə aparılması, türklərin şirkətlərdə işlə təmin olunması mühüm əhəmiyyət kəsb edirdi. İqtisadi təhsil önə çəkildi. Almaniyaya təhsil almaq üçün tələbə göndərildi, magistr və texniki işçi hazırlayan kurslar açıldı.

Ziraət Bankı yenidən təşkil edildi. Yeni qurulan

fabriklərdə çalışan işçilərin türk vətəndaşı olması məcburi sayıldı. Hökumətə əsgərlikdən azad edilmiş bütün vətəndaşlardan kənd təsərrüfatı işlərində xidmətçi kimi istifadə etmək hüququ verildi. Almaniya və Avstriya-Macarıstandan gətirilən 6 nəfər professorun İstanbul Universitetində iqtisadiyyatdan dərs aparmasına imkan yaradıldı. Bütün bunlar iqtisadi dəyişikliklər edilməsinə, milli burjuaziyanın yaranmasına şərait yaratdı.

«Gənc türklər» qadın və ailə hüququ sahəsində islahatlar keçirdilər. 1914-cü ildə Qadın Universiteti açıldı. Qadınlar əvvəllər yalnız şəfqət bacısı və müəllimlik peşələrinə yiyələnirdilərsə, indi digər ixtisaslara da yiyələnmək imkanı əldə etdilər.

1917-ci ildə qəbul olunan «Ailə hüququ qərarnaməsi» nə görə şəriət məhkəmələri ədliyyə nazirliyinin tabeliyinə keçdi.

Ordunun genişləndirilməsi və yenidən qurulması sahəsində vacib addımlar atıldı. Donanmada islahatlar aparıldı. Ordunun silah və ərzaq təchizatı yaxşılaşdırıldı.

Dil sahəsində islahatlar aparıldı. «*Türkləşmək, İslamlaşmaq, Müasirləşmək*» şüarı təbliğ olunmağa başladı. Milli kitabxana, arxiv, musiqi və coğrafiya institutları yaradıldı. Təqvimdə dəyişiklik edilərək qəməri ayı yerinə günəş ayı, geyimdə «invəriyyə» adı verilən baş geyimi qəbul edildi.

Beləliklə, «Gənc türklər» iqtidarda olduğu illərdə dövlətçilik sahəsində toplanan təcrübə respublika dövrü inqilablarında istifadə olundu.

Birinci Dünya müharibəsi Türkiyə imperiyası üçün yaxşı sonluqla bitmədi. Mudros (1918-ci il 30 oktyabr) və Sevr (1920-ci il, 10 avqust) sülh müqavilələrinə əsasən Türkiyənin Suriya, Livan, Fələstin və İraq vilayətləri İngiltərənin və Fransanın idarə çiliyinə verildi. Bir çox əzəli torpaqlar Fransa, Yunanıstan, İtaliya, daşnaq Ermə nistanı arasında bölüşdürüldü. Dardanel və Bosfor



**M.K.Atatürk**

boğazları bütün ölkələr üçün açıq elan olundu. Türkiyə öz müstəqilliyini itirmək qarşısında qaldı. Lakin türk xalqı istiqlal uğrunda mübarizəyə qalxdı. Mustafa Kamal Paşanın rəhbərliyi ilə inqilabi demokratik və milli-azadlıq hərəkatı genişləndi. Türkiyənin apardığı milli müstəqillik uğrunda mübarizə qalib gəldi. 1923-cü il iyulun 24-də Lozanna sülh müqaviləsi ilə Türkiyə dövlətinin istiqlaliyyəti beynəlxalq miqyasda tanındı. 1923-cü il oktyabrın 29-da Türkiyə Respublika elan edildi və Mustafa Kamal Paşa onun ilk prezidenti oldu. 1934 - cü ildə Böyük Millət Məclisi Mustafa Kamal Paşaya xüsusi qanunla **Atatürk** adı verdi.

# III F Ə S İ L

## 1917-1920-ci illərdə Azərbaycanda milli-demokratik hərəkat. Azərbaycan Xalq Cümhuriyyəti

### 3.1. Azərbaycan milli-demokratik hərəkatı Rusiyada fevral inqilabından sonra

1917-ci il martın 6 - da Müvəqqəti hökumət xalqa müraciət edərək demokratik dəyişikliklər keçirəcəyini vəd etdi və təsis yığıncaqları keçirməyi, idarəetmə qaydasını müəyyənləşdirməyi, yeni konstitusiya qəbul etməyi vacib saydı. Martın 9-da (22) Qafqaz canişinliyi ləğv edildi. Zaqafqaziyanı idarə etmək üçün xüsusi Zaqafqaziya komitəsi (OZAKOM) təşkil edildi. Həmin təşkilata Xarlamov (kadet) sədr, Çxengeli (menşevik), Abaşidze (sosial federalist), M.Y. Cəfərov (bitərəf), M.İ.Papacanov (kadet) daxil oldular. M.Y.Cəfərov, M.İ.Papacanov, A.İ.Çxengeli martın 15-də Bakıya, martın 18-də isə Tiflisə gəldilər.

Xüsusi Zaqafqaziya komitəsi ancaq mülki işlər idarəçiliyi səlahiyyətlərinə malik idi. Onun qanunvericilik hüququ olmadı ğından Zaqafqaziyadakı hadisələrə nəzarət etmək gücündə deyidi. Digər tərəfdən, müstəqillik ideyaları, siyasi hərəkatlar canlanmışdı.

1917-ci il martın 17-də Müvəqqəti hökumətin yerli hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı (İTİK). Bu komitə ilə yanaşı Bakı şəhər Duması da fəaliyyətini davam etdirirdi. Azərbaycanın şəhərlərində və qəza mərkəzlərində İTİK-ləri yaradılmışdı.

Lakin OZAKOM özünə tərəfdar toplaya bilmədi və hakimiyyəti yerli fəhlə və əsgər deputatları sovetlərinə, müxtəlif milli komitələrə və təşkilatlara verdi.

Fevral hadisələrindən sonra «Müsavat» gizli fəaliyyətdən açıq işə keçdi, yeni siyasi partiyalar (Gəncədə federalistlər, İrəvanda «İrşad milli partiyası») meydana gəldi. Lakin bu üç partiyadan heç biri fevral inqilabından sonrakı günlərdə milli-demokratik hərəkata rəhbərlik etmək iqtidarında deyildi. Buna görə də, Azərbaycan ictimaiyyətinin müxtəlif nümayəndələri qüvvələri birləşdirmək məqsədilə komitələr, cəmiyyətlər yaratmağa cəhd edirdilər. Belələrindən birisi, kütlə arasında nisbətən çox nüfuzu olan Bakı müsəlmanları ictimai təşkilatı olan Müvəqqəti Komitə oldu. Martın 29-da yaradılan bu komitəyə sədr M.H. Hacınski, onun müavini isə M.Ə.Rəsulzadə seçildi. Komitə Ümumqafqaz müsəlmanlarının qurultayının çağırılması və keçirilməsində həlledici rol oynadı.

**Qafqaz müsəlmanları qurultayı** 1917-ci ilin aprelin 15-20-də Bakıda keçirildi. Qurultayda Azərbaycanın bütün siyasi qüv vələri təmsil olunmuşdu. Dini təşkilatlardan və bolşevik partiya sından N.Nərimanov və M.Əzizbəyov qurultayda iştirak edirdi. Əsas problem - ölkənin siyasi quruluşu haqqında M.Ə. Rəsulzadə məruzə etdi. Məruzəçi hər bir milli qrupa öz müqəddəratını təyin etmək hüququ verilməsini xüsusi vurğuladı. Uzun sürən müzakirələrdən sonra qurultay yekdilliklə qərara aldı: «Rusiyada dövlət quru- luşu, əsasən müsəlmanların marağını təmin edən federativ ərazi əsasında demokratik respublika olmalıdır».

Qurultay nümayəndələrinin diqqətində duran məsələlərdən biri də millətlərarası münasibət problemi idi. Qurultayı açan A.M.Topçubaşov bəyan etmişdi ki, «Rusiyada yaşayan qeyri-rus xalqlarına qarşı köhnə Rusiyanın siyasəti ayrı-seçkilik siyasəti olub, xalqları bir-birinə qarşı qoyub. Ermənilərlə azərbaycanlılar arasındakı toqquşma da bu vəhşi siyasətin nəticəsidir. Əgər azərbaycanlılar başqa Qafqaz xalqları ilə həqiqi dəyişiklik yolu ilə getmək istəyirlərsə, onda onlar Müəssislər Məclisinə bir halda, ümumi ide yalar uğrunda birlikdə getməlidirlər».

Qurultayda təhsil problemi də müzakirə olundu. İctimai-siyasi və mədəni vəzifələrdən, xüsusilə ilk növbədə məktəb işi üçün maliyyə vəsaiti toplamaqdan ötrü milli fond yaradıldı. İlk olaraq H.Z.Tağıyev fonda 50 min manat pul verdi. Qurultayda iki azərbaycanlı qadının Ş.Əfəndizadə və S.Talışxanovanın çıxışı nümayəndələr tərəfindən alqışlarla qarşılandı. Lakin Bakı qazısı Ağamir Məmməd Kərimin qadınların kişilər qarşısında üzüaçıq çıxış etməsinə qarşı çıxması narazılğa səbəb oldu. M. Ə. Rəsulzadənin təklifi ilə qurultay qadın məsələsi haqqında qətnamə qəbul etdi.

Qurultayın milli ordu quruculuğu haqqında qərarı müstəqilliyə doğru praktik addım idi.

Qurultayın qəbul etdiyi qərarlar Azərbaycan milli-demokratik hərəkatının zəfər yürüşü idi. Qurultay göstərdi ki, Azərbaycan xalqının milli-demokratik hərəkatı hər cür millətçilikdən, mühafizəkarlıqdan uzaq olub, mütərəqqi demokratik xarakter daşıyır. Birinci Ümumrusiya müsəlmanları qurultayı bu həqiqəti təsdiq etdi.

**Birinci Ümumrusiya müsəlmanları qurultayı** 1-11 may 1917-ci ildə Moskvada Ş.Əsədullayevin xərci ilə tikilən və müsəlmanlara hədiyyə edilən binada keçirildi. Qurultaya 600 nümayəndə dəvət edildiyi halda, 900 nümayəndə iştirak edirdi.

Qurultayın mayın 1-də və 2-də keçirilən iclasları daha çox rəsmi-təntənəli xarakter daşımışdı. Mayın 3-dəki iclasda Əhməd Salikov Rusiyanın gələcək siyasi quruluşu barəsində məruzə ilə çıxış etmişdi. Əhməd Salikov məruzəsində Rusiyanın unitar bir dövlət kimi qorunub saxlanması, milli azlıqlara, o cümlədən say etibarı ilə ruslardan sonra ikinci yeri tutan türklərə də yalnız mədəni muxtariyyət verilməsi təklifini irəli sürmüşdü. Əhməd Salikovun fikirləri Azərbaycan nümayəndəsi M.Ə.Rəsulzadənin kəskin etirazı ilə qarşılanmışdı.

Fevral inqilabından sonra vəziyyətin dərin elmi-siyasi təhlilini verən M.Ə.Rəsulzadə Rusiyanın vahid unitar dövlət kimi qorunması ideyasının tərəfdarlarına qəti etirazını bildirərək

qurultayda demişdi: «Şübhəsizdir ki, Rusiya Xalq Cümhuriyyəti üsulu ilə idarə olunmalıdır. Amma Kamçatkadan Qara dənizə, Arxangelskdən İran sərhədlərinə qədər eninə və boyuna uzanan, dünyanın altıda birini qapsayan və əhalisi 170 milyonu aşan bir məmləkət və böyük bir çeşidli millətdən meydana gələn bir dövlət bir mərkəzdən idarə oluna bilərmi? Bir məmləkət ki, uzunlamasına azından bir ay, genişlənməsinə azından 7 gün dəmiryol səfərinə ehtiyac var, bir məmləkət ki, günəş bir tərəfdən çıxıb, o biri tərəfdə batarkən təkrar sabah olur, belə bir məmləkət bir nöqtədən idarə oluna bilərmi? Əlbəttə yox .

… Rusiya ədəmi-mərkəziyyət üsulu ilə idarə olunmalıdır»

Daha sonra M.Ə.Rəsulzadə fikirlərinə aydınlıq gətirərək demişdi: «Mən ədəmi mərkəziyyəti muxtariyyətlərdən təşəkkül edən bir federasion şəklində təsəvvür edirəm. Bu muxtariyyətləri milli-məhəlli prinsip içərisində faydalı sayıram. Rusiya elə bir bina olmalıdır ki, orada hər millətin özünəməxsus bir odası olsun». Məmməd Əminin fikrincə, bu odanın-otağın bütün ixtiyarı onun sahibində olmalı, otaq sahibi öz mənzilində hürr və müstəqil, hakimi-mütləq kimi yaşamalıdır. Başqa sözlə desək, Azərbaycan demokratiyasının lideri konfederativ əsaslı dövlətə üstünlük verirdi.

Məmməd Əminin nitqindən sonra unitaristlər dönə-dönə çıxış etsələr də, bu məsələ ilə bağlı qurultayın gedişində dönüş yarada bilməmişlər. Müzakirələr 3 gün davam etmiş, natiqlərdən 14-ü unitar dövlət, 18-i milli-məhəlli prinsiplər əsasında qurulmuş federasiya tipinə üstünlük vermişlər. Qurultayın rəyasət heyətinə göndərilən 200 yazılı qeyddən 150-sində milli-məhəlli muxtariyyət, 34-də federasiya, yalnız 16-da unitar dövlət tipi qeyd olunmuşdu.

Qurultayın mayın 6-da Əlimərdan bəy Topçubaşovun sədrliyi ilə keçən iclasında Rusiya müsəlmanlarının qövm və qəbilələrinin quruluşu haqqında (məruzəçi Zəki Bəlidi), dini idarələr haqqında (məruzəçi Seyid Girey Alkin), dini təşkilatlar haqqında (məruzəçi Hacı Kəşşaf Tərcümani) məsələlər müzakirə

olunmuşdu. Əlimərdan bəyin sədrliyi ilə mayın 7-də keçirilən gündüz və axşam iclaslarında Rəsulzadə, Topçubaşov və doktor Orucov qurultayda çıxış edərək siyasi baxımdan düzgün əsaslandırılmış qərarlar qəbul edilməsinə kömək göstərmiş, qurultayın türkçülük, milliyyətçilik istiqamətini müəyyənləşdirmişlər.

Mayın 7-də Rusiyanın gələcək quruluşu ilə əlaqədar M.Ə.Rəsulzadə ilə Əhməd Salikovun təklifləri səsə qoyulmuşdu. M.Ə.Rəsulzadənin təklifinin leyhinə 446, əleyhinə isə 271 nəfər səs verilmiş və beləliklə də, bu qurultay böyük əksəriyyətlə Rusiyanı demokratik-federativ dövlət kimi görmək istədiyini bildirmişdi.

«Məmləkətin idarə şəkli» barəsində qəbul olunan qətnamədə deyilirdi: «1. Müsəlman millətlərin mənfəətlərini gerçəkləşdirmək üçün ən uyğun rejim milli ittifaq və torpaq muxtariyyətinə əsaslanan və bəlli torpaqları olmayan millətlərə milli-mədəni muxtariyyət təmin edən xalq cümhuriyyətidir; 2. Rusiyada yaşayan müsəlman millətlərin bütün dini və mədəni işlərini qanunlar əsasında idarə etmək və müsəlman birliyini qorumaq üçün onların özləri ilə bağlı qanunlar çıxarmaq haqqına sahib Umumrusiya Müsəlmanları mərkəzi təşkilatı qurulur».

Qurultayda maarif məsələsi ilə bağlı qəbul olunan 24 mad-dəlik qətnamənin müvafiq maddələrində «1. Maarif və mədəniyyət işlərinin hər xalqın öz ixtiyarında olması; 2. İbtidai məktəblərdə maarif dili olaraq qəbilənin öz ana dilindən istifadə edilməsi, orta məktəblərdə ümumi türk dilinin işlənməsinin məcburi, ali məktəblərdə tədris dilinin türk-tatar qəbilələr üçün ortaq dilin türk dili olması; 3. ibtidai təhsilin məcburi və pulsuz olması; 4. İbtidai məktəblərin vahid tipdə olması, onların dini və dünyəvi məktəblərə ayrılması; 5. Rus dilinin ancaq xarici dil kimi keçilməsi» və s. qeyd olunmuşdu.

Qurultayın Abdulla Xocayevin sədrliyi ilə keçən 8 may tarixli iclasında Azərbaycan nümayəndəsi doktor Orucov

Rusiya-Türkiyə münasibətləri tarixindən, Birinci Pyotrun dünyanı nüfuz dairələrinə bölmək və İstanbula yiyələnmək barəsindəki vəsiyyətindən və mövcud Müvəqqəti hökumətin də əslində həmin siyasətin davamçısı olmasından danışmışdı. Həmin iclasda Əlimərdan bəy Topçubaşov Qafqazda, xüsusən də Bakıda, İrəvanda, Qarsda və s. bölgələrdə ruslarla ermənilərin işbirliyi sayəsində kütləvi müsəlman qırğınlarının hazırlanması barəsində həyəcanlı məlumat vermişdi. Qurultay regionda yaranmış qorxulu vəziyyətlə Müvəqqəti hökuməti daha yaxından tanış etmək və təcili tədbirlər görülməsinə nail olmaq üçün dərhal Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Peterburqa nümayəndə heyəti göndərilməsi barəsində yekdilliklə qərar qəbul etmişdi. Həmin heyətin tərkibinə polkovnik Hacı Murad, Mirzə Əsədullayev, Səlim Girey Canturin, Xeyrənsə xanım Axunova və Peterburqdakı işçi və əsgər deputatları sovetinin üzvü Sultanbəy Məmliyev daxil edilmişdi. Nümayəndə heyəti mayın 9-da gecə Peterburqa yola düşmüşdü.

Rusiya müsəlmanlarının qurultayında atılan ən mühüm addımlardan biri də Milli Şuranın yaradılması olmuşdu. Milli Şuranın tərkibi 30 nəfərdən ibarət nəzərdə tutulurdu. Bunların 7 nəfəri Türküstan, Buxara və Xivəni, 5 nəfəri Qafqazı, 2 nəfəri Krımı, 5 nəfəri Qazaxıstanı, 1 nəfəri Litva tatarlarını, 10 nəfəri iç Rusiya və Sibir müsəlmanlarını təmsil etməli idi. Bu üzvlər təyin olunmur, müvafiq regionlarda seçilirdi. Milli Şura Müəssislər Məclisi toplanana qədər müsəlmanların siyasi sahədə birgə hərəkətlərini təmin etməyi, məhəlli təşkilatların yaradılmasını və onların fəaliyyətinin əlaqələndirilməsini və s. vəzifələri də öz üzərinə götürürdü. Qurultayın sonuncu günü daxili Rusiya və Sibir tatarları Milli Şuraya öz nümayəndələrini seçdilər. Türküstan və Qazaxıstan müvəqqəti nümayəndələr təyin etdi. Mayın 11-də qurultayın təntənəli bağlanışı oldu. Mayın 12-də Moskva müsəlmanları qurultay iştirakçılarının şərəfinə ziyafət verdilər.

Rusiya türk müsəlmanlarının 11 gün davam edən qurultayı bir sıra prinsipial, siyasi baxımdan əhəmiyyətli qərarlar qəbul etdi. Ən vacibi o, idi ki, türkçülüyün dövlət şüurunun səviyyəsi barəsində aydın təsəvvür yarandı. Lakin fikir və əməli birlik yalnız elitar səviyyədə qaldı. Yalnız dilləri, zahiri görünüşləri deyil, həm də fikirləri, düşüncələri, siyasi baxış və əqidələri də bir-birindən fərqlənən müxtəlif türk boylarının nümayəndələrinin ağır gündə bir araya toplaşmaları müstəsna dərəcədə faydalı addım idi. Rusiyada türkçülük hərəkatının tanınmış tədqiqatçılarından olan doktor Nadir Dövlətin qeyd etdiyi kimi, «bu qurultayın əhəmiyyəti bütün türk boylarının çeşidli görüşdəki vəkillərinin fikirlərini ilk dəfə olaraq bir-birinin önündə açıq ifadə etmələri» oldu. Qurultay həmin dövrdəki türk-müsəlman siyasi hərəkatının kiçik modeli idi. Qurultayın ən mühüm ibrət dərsi türk birliyi qurmağın zəruriliyi fikri oldu. Lakin tezliklə ölkədə elə vəziyyət yarandı ki, hərə təkbaşına xilas yolları aramağa başladı. Nəticədə Bakıda və Daşkənddə keçirilməsi nəzərdə tutulan müsəlman konqresləri baş tutmadı.

Qafqaz və Qazaxıstan türkləri avqust ayında Kazanda keçirilən İkinci Ümumrusiya müsəlmanlarının qurultayında iştirak etmədilər və bunun ardınca hər bir türk boyu ayrı-ayrılıqda çarizmdən daha qorxunc və qəsbkar olan imperializmə qarşı mübarizəyə başladı.

1917-ci ilin yayı və payızında Azərbaycanda siyasi həyat dəyişməyə başladı. İyunda «Müsavat» la «Türk federalistlər partiyası» yaxınlaşdı. Sentyabrda «İttihad”» partiyası yarandı. Yeni siyasi partiyaların yaranmasına baxmayaraq, yenə də «Müsavat”» partiyasının Azərbaycanın siyasi həyatındakı rolu getdikcə artmağa başladı.

Kütlələr arasında «Müsavat» ın mövqeyi Bakı sovetinə 22 oktyabrda keçirilən seçkilərin yekununda özünü göstərdi. Seçkilərdə «Müsavat» - 9.617 səs, bolşeviklər 3.823 səs, eserlər - 6.305 səs, menşeviklər - 687 səs, «Daşnakstyun» - 5.288 səs qazandı.

## 3.2. Rusiyada Oktyabr çevrilişi və Azərbaycan

Petroqradda bolşeviklərin hakimiyyəti ələ alması xəbəri Bakıya gəlib çatdıqdan sonra 1917-ci il oktyabrın 27-də Bakı fəhlə və əsgər deputatları sovetinin geniş yığıncağı keçirildi və bu yığıncaqda üç siyasi partiya - eserlər, menşeviklər və daşnaqlar adından elan olundu ki, ölkədə bütün hakimiyyət Müəssislər Məclisinə verilməlidir.

Petroqradda bolşeviklərin əldə etdikləri qələbə Bakı bolşeviklərini ruhlandırırdı. Onlar öz qüvvələrini birləşdirməyə başladılar. Mədən-zavod komitələri üzvləri tərəfindən müdafiə olunan bolşeviklər oktyabrın 31-də sovetin yeni iclasını çağırdılar və onların təzyiqi nəticəsində konfrans özünü yerli inqilabi orqan elan etdi. Konfransda iştirak edən müsavatçılar bolşeviklərin təkliflərini qəbul etməsələr də, münaqişənin aradan qaldırılması məqsədilə bolşevikləri müdafiə etməyə məcbur oldular və öz bəyanatlarını konfransa təqdim etdilər.

Bolşeviklər «Müsavat» partiyasından əlavə Xəzər ticarət donanmasının da köməyini ala bildilər. Beləliklə, noyabrın 2-də Sovet Bakıdakı siyasi hakimiyyət kimi hamı tərəfindən tanındı. Sovet *«Fəhlə və əsgər deputatları soveti»* adlandırıldı. Lakin bu real hakimiyyət deyildi. Bakı soveti qarşısına qoyulan vəzifələrin heç birini həll edə bilmədi.

«Müsavat» la Bakı soveti arasında münasibətlər getdikcə kəskinləşirdi. 1917-ci il noyabr ayının 8-12- də Bakıda Qafqaz Müsəlmanları Milli Komitəsinin konfransı keçirildi. «Müsavat» ın rəhbərliyi altında keçirilən konransda Milli Təşəbbüs Məclisinin çağrılması qərara alındı.

RSFSR XKS-ə tabe olmaq istəməyən Gürcüstan Sosial Demokrat Partiyasının, menşeviklərin, «Müsavat"» ın," «Daşnaqsütyun»" və sağ eserlərin nümayəndələri 1917-ci ilin noyabrın 11-də Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina edirlər və «müstəqil Zaqafqaziya hökuməti"» yaratmaq haqqında qərar

çıxardılar. Noyabrın 15-də Zaqafqaziya komitəsi yaradıldı. Onun tərkibinə Gürcüstandan J.Terkopu (sədr) və A.Çxengeli, Azərbaycandan F.Xoyski, M.Cəfərov, X.Məlikaslanov, ermənilərdən T.Ter-Qazariyan, X.Korçokiyan, A.Aqağan, sağ eserlərdən D.Dolski və b. daxil oldular. Rusiya tərəfindən təhlükəni nəzərə alan Zaqafqaziya komissarlığı ittifaq bağlamaq məqsədilə Şimali Qazqazdakı ağ qvardiyaçı hərəkatının rəhbərliyi ilə əlaqə yaratdı.

1917-ci ilin noyabrın 26-da bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da Müəssislər Məclisinə seçkilər keçirildi. Seçkilərin nəticələri əhalinin əhval-ruhiyyəsinə uyğun idi. Milli Məclisə seçkilərdə menşeviklər - 661.934, Müsavat - 615.816, daşnaq - 558.400, müsəlman sosialistlər bloku - 159.700, eserlər - 117.522, bolşeviklər - 95.581, Hümət - 84.748, İttihad - 66.504 səs aldılar.

Noyabrın 28-də Tiflisdə Qafqaz, Cənubi Rusiya və Ukrayna Antibolşevik Qüvvələrinin Hərəkatı Birliyi yaradılmasına aid müşavirə keçirildi. Dekabrın 6-da Zaqafqaziya komitəsinin iclasında Bakıda və Dağıstanda vəziyyət müzakirə edilərək bolşeviklərə qarşı qəti tədbirlər görülməsi barədə qərar qəbul edildi.

1917-ci ilin dekabrın 5-də Zaqafqaziya komissarlığı Ərzincanda barışıq haqqında saziş imzaladı.

Bolşeviklərlə müsavatçılar arasında münasibətlərin gərginləşdiyi şəraitdə - 1917-ci ilin dekabr ayının 12-13-də dəyişilmiş seçki qaydası əsasında Bakı Sovetinə seçkilər keçirildi. Bolşeviklər 51 səs, müsavatçılar 21 səs aldılar. 41 səs almış daşnaklar, 38 səs almış sol eserlər və 28 səs almış sağ eserlər müsavatçılardan irəli keçdilər. Nəticədə, yeni icrayə komitəsinə 6 nəfər bolşevik, 5 nəfər daşnak, 4 nəfər sol eser, 3 nəfər sağ eser, 2 nəfər müsavat nümayəndəsi daxil oldu.

1917-ci il dekabrın 18-də V.Lenin - S.Şaumyanı Zaqafqaziya işləri üzrə komissar təyin etdi. Çaparidze isə Bakı

Sovetinin sədri oldu. Belə şəraitdə müsavatçılar öz fəaliyyət mərkəzlərini Bakıdan Gəncəyə köçürdülər.

### 3.3. 1918-ci ilin mart hadisələri və onun nəticələri

Dünya xalqları içərisində öz nəfsləri ilə seçilən, gözü doymayan ermənilərin iştəhası həmişə böyük olmuş, yaranmış tarixi şəraitdən istifadə etməyə səy göstərmişlər. F.Kərimzadə *«Güney uğrunda mübarizə (1917-1921)»*" kitabında yazırdı ki, bütün ermənilərin katalikosu V Kevorq 1914-cü il avqustun 5-də Qafqaz canişininə məktub göndərərək ondan erməni məsələsini yaddan çıxarmamağı xahiş etmişdi. Çar II Nikolay isə bildirmişdir ki, erməniləri ən parlaq gələcək gözləyir.

Rusiya imperatoru 1914-cü il noyabrın 21-də Fransanın Rusiyadakı səfiri M.Polsoloqla görüşündə erməni məsələləsini nəzərə alacağını, onlar üçün müstəqil dövlət yaradacağını bildirmişdi.

II Nikolay 1914-cü ilin noyabrında Tiflisdə olarkən daşnaqlardan S.Artunyan və A.Xatisiyanın başçılıq etdiyi nümayəndə heyəti onun qəbulunda olmuş və «Türkiyə Almaniyanın köməyi ilə Rusiyaya əl qaldırmağa cəsarət etdiyi indiki vaxtda ermənilərin bir nəfər kimi ayağa qalxdıqlarını və həyatlarını, əmlaklarını böyük taxt-tacın yolunda qurban verməyə hazır oluqlarını» bildirmişlər.

A.Xatisyan «Ermənistan ermənilər üçündür» şüarını irəli sürmüşdü. Bu şüarı həyata keçirmək üçün onun başçılığı ilə «Erməni milli bürosu» yaradılmış, «könüllülər» adlanan dəstələr təşkil edilmişdi. 1914-cü ilin sonunda «könüllülər»in sayı 3 minə çatmışdı. Bu dəstələrin təşkilində Andronik Ozonsiyan (Ozanyan) mühüm rol oynamışdı.

Çoxsaylı bəd əməllərin sahibi olan Andronik 1865-ci ildə Türkiyənin Şonin-Qarahasar şəhərində anadan olmuşdu. Gəncliyində erməni quldur dəstələrinə qoşularaq dinc türk əhalisinə basqınlar edən Andronik 1895-ci ildə Sevastopola getmiş, bir müddət orada fəhlə işləmiş, sonra Tiflisə gəlmişdi.

Tiflisdə yaşayarkən «Daşnaqsütyun» partiyasına daxil olan Andronik Birinci Dünya müharibəsi başlanan kimi İrəvan quberniyasında erməni könüllü dəstələri təşkil edərək Türkiyənin üzərinə hücum etmişdi. 1914 -1915-ci illərdə Cənubi Azərbaycanın Dilman və Səlmas əyalətlərində azərbaycanlılara qarşı soyqırımı törədərək oradan Türkiyə ərazisinə keçən Andronik Anadoluda da türklərə qarşı soyqırımı təşkil etmişdi.

1918-ci ilin payızında türk ordusunun Bakını xilas etməsindən sonra general Andronik İran ərazisinə keçmiş, 1920-ci ildə oradan Bolqarıstana, sonra isə ABŞ-dakı erməni icmasının dəvəti ilə Kaliforniya ştatına getmişdi.

Ermənilərin xislətini yaxşı bilən rus siyasətçiləri erməni dəstələrinin yaradılmasından, onların torpaq iddialarından narahat olmuşlar. 1915-ci ilin aprelin 5 - də general Yudeniç Qafqaz canişininə yazırdı ki, ermənilərin işğal etdikləri torpaqları müharibədən sonra onlardan geri almaq və ya tutulanların onlara məxsus olmadığını sübuta yetirmək çətin olacaqdır.

1917-ci ilin fevral inqilabından sonra imperiyanın hüdudlarında yaranan ikihakimiyyətlilik və hərcmərclikdən istifadə edən ermənilər millətlərin ög müqəddəratını təyin etmə hüququ adı altında Türkiyənin, onun vilayətlərinin, Şimali və Cənubi Azərbaycanın bəzi ərazilərinin hesabına «Böyük Ermənistan"» yaradılması işinə girişdilər. Milli azlıqların hüquqlarına dair onların tələbləri tezliklə Şimali Azərbaycanın Naxçıvan, Zəngəzur, Qarabağ bölgələrinə qarşı ərazi iddialarına gətirib çıxardı.

Tarixi hüquqları ilə yanaşı «etnoqrafiq hüquq» dan dəm vuran ermənilərin Naxçıvan, habelə Zəngəzur mahalına iddialarının heç bir əsası yox idi. Paris sülh konfransına təqdim edilən «Azərbaycan əhalisinin etnik tərkibi haqqında» kitabçada və ensiklopedik sorğularda göstərilir ki, Naxçıvan qəzasında azərbaycanlılar 54,5 faiz, ermənilər 45,5 faiz , Zəngəzurda müvafiq olaraq 52 və 46, Şərur-Dərələzdə 72 və 27, Ordubadda

90,2 və 9,8 faiz idi. Yaxud , 1914-cü il məlumatına görə Zəngəzur qəzasında azərbaycanlılar 52 faiz, başqa sözlə, azəbaycanlılar 10.031 tüstü, ermənilər isə 9.400 tüstü təşkil edirdi.

Artıq 1917-ci ildə keçirilən toplantılarda ermənilərin gürcülər və azərbaycanlılara qarşı ərazi iddiası açıq səslənməyə başladı. Onlar Tiflisdəki kəndli qurultayında elatlar haqqında məsələ qaldırdılar, Qafqazın inzibati ərazisinin yenidən bölünməsi təklifi ilə çıxış etdilər. Yelizavetpol quberniyası hesabına Qarabağ və Zəngəzurun da qatıldığı Qanzaq quberniyası yaradılmasını ortaya atdılar.

1917- ci ilin payızında Tiflisdə keçirilən «Ümummilli erməni konfransı» ndan sonra erməni-azərbaycanlı münasibətləri xeyli kəskinləşdi. Bolşeviklərin millətlərin hüquq bərabərliyinə dair aldadıcı siyasəti, V.İ.Leninin S.Şaumyanı Qafqaza fövqəladə komissar təyin etməsi ilə erməni planlarının reallaşmasına şərait yarandı.

Ermənilər əldə olunmuş sazişə əməl etməyərək Azərbaycan torpaqlarında terror və zorakılıqlara başladılar. 1917-ci ilin sonu, 1918-ci ilin martınadək ermənilər tərəfindən İrəvan quberniyasında 197 kənd talan edildi. Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd qismən dağıdıldı. Ümumilikdə, Azərbaycanda 60 yaşayış məskəni tamamilə məhv edilmiş, 388-i qismən zərər çəkmiş, 5.140 təsərrüfat viran qoyulmuşdu.

Türk ordusunun sirlərini ingilis kəşfiyyatına satdığına görə qulağı kəsilən, sonra İrəvana qaçan Andronik erməniləri başına toplayaraq Azərbaycan kəndlərinə basqın edir, insanları qətlə yetirirdi. Andronikin dəstəsi onlarca Azərbaycan kəndini məhv etmişdi. 50-100 adamı bir xəndəyə dolduraraq diri-diri basdırırdılar. Oxçü şəhərindəki məsciddə 150 nəfəri süngü ilə qətlə yetirmişdilər.

Azərbaycanlılara qarşı növbəti məqsədyönlü soyqırımı 1918-ci ilin 30-31 mart və aprelin 1-də törədildi. Uzun illər boyu vətəndaş müharibəsi kimi qiyəmtləndirilən mart hadisələri həm də ermənipərəst Bakı sovetinin sonu oldu.

Məlum olduğu kimi, 1918-ci ilin əvvəllərində Bakı ilə Tiflis arasında dəmir yolunun qapanması nəticəsində Qafqaz cəbhəsinə yollanan Qərb və İran cəbhəsindən gələn bir neçə min silahlı erməni əsgərləri Bakıya toplaşmışdı. Bu vaxt daşnaq partiyasının da Bakıda minə yaxın silahlı adamı var idi. «Müsavat» ın isə silahı olmadığına görə Bakı və ətraf kəndlərin əhalisi silahsız qalmışdı. Üstəlik H.Z.Tağıyevin milli ordu quruculuğunda iştirakı zamanı şəhid olmuş oğlu Məhəmməd Tağıyevin cənazəsini Lənkərandan Bakıya gətirən «Evelina» gəmisi ilə Bakıya gəlmiş 18 nəfər Azərbaycan milli ordu hərbiçiləri bolşevik-daşnaq ordusu tərəfindən zorakılıqla tərksilah edildi. Bakı sovetinin bu addımı bir daha göstərdi ki, onlar silahlı münaqişə üçün bəhanə axtarırlar. M.Ə.Rəsulzadə bu münasibətlə yazırdı ki, «Mart hadisələrində" «Müsavat"»ı günahlandırırlar. Bu əsassızdır. Müharibə elan etmək üçün heç olmasa fiziki qüvvə olmalıdır. Bu isə yox idi. Başqaları deyirlər ki, mart hadisələrinə səbəb Azərbaycanın muxtariyyat istəməsi idi. Bu azca həqiqətə uyğundur. Doğrudur, əgər biz azadlığın başını düşmənlərimiz qarşısında əysəydik, bəlkə də bu hadisələr olmazdı. Ancaq biz bunu edə bilməz dik Bizim düş- mənlərimiz deyir lər ki, mux- tariyyat bəzi şəxs- lərin şəxsi marağı üçün idi, Azərbaycan xal- qının istəyi deyildi. Ancaq onlar bilir lər ki, xalq «Müsa vat"»ın arxasınca gedir"».



**Bakı mart hadisələri günlərində. 1918-ci il.**

Daşnaq partiyası və erməni Milli şurası öz mənfur siyasətini həyata keçirmək üçün məqam gözləyirdi. 1918-ci ilin martın 29-da Lənkərana getmək istəyən paroxodun saxlanması və tərksilah edilməsi milli qırğın üçün bəhanə oldu.

Martın 30-da şəhərin müxtəlif rayonlarında kortəbii mitinqlər başladı. Qızıl Ordu dəstələrinin provakasiya xarakterli gülləboranı Bakı Kommunasının bolşevik-daşnaq rəhbərliyinə imkan verdi ki, azərbaycanlı əhaliyə qarşı hücuma başlasınlar. 1918-ci ilin martın 30-31-də bəhanədən istifadə edərək erməni dəstələri azərbay canlıların yaşadığı kvartallara hücuma keçdilər. Qızıl Ordu qərərgahının rəisi S.Avetisyan, dəstə rəhbəri Amazasp və Kozarev azərbaycanlılara xüsusi ilə şiddətli divan tutdular. Martın 31-də atəş xüsusilə geniş vüsət aldı. Döyüşlərin ən qanlı nöqtəsi Qoşa Qala qapısı və İsmailiyə binaları ətrafı oldu. Ermənilər Bakının cənub kəndlərinə də hücum etdilər, lakin onlar geri oturdularaq Mərdəkan, Bülbülə, Binə və Qala kəndlərinə buraxılmadılar. 30 mindən çox əhali öldürüldü. Sonralar Şaumyan boynuna almışdı ki, vətəndaş müharibəsi nəticəsində müsəlman əhalisi zərər çəkmişdi.

Azərbaycanlıların kütləvi şəkildə öldürülməsi ətraf bölgələrdə də baş vermişdi. Qubaya Amazaspın rəhbərliyi altında böyük qoşun hissələri yollanmışdı. Onlar şəhərə daxil olaraq 2.000 kişi və qadını, uşağı öldürmüşdülər. O, qubalılar qarşısında çıxış edərək demişdi: «Mən erməni xalqının qəhrəmanıyam. Mən buraya cəza dəstələri ilə gəlmişəm ki, iki həftə bundan qabaq burada öldürülən ermənilərin qisasını alım. Mən bura qayda-qanun yaratmaq və sovet haki miyyətini qurmaq üçün gəlməmişəm. Mən Xəzər dənizinin sahil lərindən Şahdağına qədər bütün müsəlmanları məhv etmək, onların yaşayış yerlərini yerlə yeksan etmək əmri ilə gəlmişəm».

Amazaspın dəstəsi şəhərdə oğurluqla da məşğul olmuşdu. Təxminən 4 milyon manat pul, 4,5 milyon manatlıq qızıl əşyaları,
2,5 milyon manatlıq müxtəlif mallar qarət edilmişdi. Şaumyanın həbsi zamanı onun binasından 80 milyon manat pul və qızıl

şeylər tapılmışdı. Sözsüz ki, bunların içərisində Amazaspın qarət etdiyi pullar da var idi.

Qubaya qədər Amazaspın köməyi ilə Avetisov və Petrov Cümə məscidi də daxil olmaqla Şamaxını dağıtmış, Lənkəran, Salyan, Kürdəmir əhalisinə divan tutmuşdu.

1918-ci ilin mart adisələri düşünülmüş bir olay idi. Bu işin başında bolşeviklər partiyasının Qafqaz komitəsi və erməni «Daşnaqsütyun» partiyası dururdu.

1902-ci ildə anadan olmuş və neft sənayeçilərinin birinin oğlu olan Əsəd bəy 1929-cu ildə Almaniyanın Ştutqart şəhərində alman dilində çap etdirdiyi «Şərqdə neft və qan» əsərində yazırdı: «Erməni sərkərdələ rindən olan Lalay (Şaumyan) 1917-ci il də and içmişdi ki, müsəlmanlardan inti qam alacaq. KP-nın rəhbərlərinin əksəriy yəti ermənilərdən ol duğu üçün daşnaq larla həmrəy idi.



**Mart soyqırımı. 1918 - ci il.**

Əsəd bəy daha sonra yazır: «Xan qalası ətrafı müharibə meydanına çevrilmişdi. Bu müsəlman-erməni döyüşündə 14 nəfər neft mühəndisi öldürülmüşdü. 30 min nəfərin meyidi Bakı şəhərinin küçə və meydanlarını örtmüşdü.

Yüzlərlə müsəlman uşağı dəhşətli surətdə vəhşicəsinə öldürüldü. Soyqırımdan altı saat sonra barışıq üçün müsəlman başçılarından on iki nəfər (onların altısı ruhani idi) əllərində ağ bayraq düşmən düşərgəsinə tərəf getdilər. Lakin onların hamısı öldürüldü. Üçüncü günün tamamında Bakı xiyabanlarından qan axırdı, hər yer meyidlərlə dolu idi».

Əsəd bəy xatirələrində öz evlərini də təsvir edir: «Bizim evə də hücum etdilər. Mən evimizin zirzəmisindən həyətdəki mənzə-

rəyə baxırdım. Ermənilər 10 yaşı tamam olmayan 2 uşağı ələ keçirib havada fırladaraq şəmşir ilə şişə çəkdilər. Hər şeylərini əldən vermiş bir dəstə müsəlman ağ kəfən geyib silahsız, özlərini ermənilərin qəmə və qılınclarına sipər etdilər.

Ermənilər uşaqlarına xəncər vermişdilər ki, onlar müsəlman məhbuslarının başlarını kəssinlər».

Mart hadisələrini yoxlayan komissiya üzvlərindən biri, xristian Qülqenin hazırladığı sənəddə yazılmışdı: «Müsəlmanların sakin olduqları məhəllələrə girib əhalini öldürmüşdülər, şəmşirlə parçalamışdılar. Süngülərlə dəlik-deşik



**İsmailiyə binasının ermənilər tərəfindən yandırılması. Bakı. 1918-ci il**

etmişdilər. Evlərə od vurub uşaqları bu oda ataraq diri-diri yandırmışdılar. 3-4 günlük südəmər uşaqları isə süngüyə taxmışdılar. Hadisənin sonunda 57 müsəlman meyidi müşahidə olundu ki, bunların qulaqları, burunları qoparılmış, qarınları yırtılmış, əzaları kəsilmişdir. Öldürmədikləri qadınları saçları ilə bir-birinə bağlayaraq tüfəng qundaqları ilə döyürdülər».

Qülqe divarlara söykədilən çılpaq qadınların, itlərin gətirdiyi uşaq meyidlərinin fotoşəklini də çəkmişdi.

İstanbulda nəşr olunan «Yeni Qafqasya» dərgisinin 1923-cü il 31 mart tarixli 13-cü sayında «Mart faciəsi» başlıqlı yazıda bildirilirdi ki, «…3 gün ərzində 15.000 müsəlman öldürülmüş, «İsmailiyə» sarayı, «Açıq söz», «Kaspi» mətbəsinə od vurulmuşdu. Bakının ən böyük cümə məscidi top mərmiləri ilə dəlik-deşik edilmişdi…»

Şaumyan özü də etiraf etmişdi ki, onlar yaranmış məqamdan istifadə edərək azərbaycanlıların fiziki cəhətdən məhvinə çalışmışlar. O demişdi ki, «Biz atlı dəstələrimizin silahlı basqınından istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik, bizim 6 min nəfərədək silahlılarımız vardı. «Daşnaqsütyun» un 3-4 minədək milli hissələri … bizim sərəncamımızda idi. Sonuncuların iştirakı səbəbli vətəndaş müharibəsi milli qırğın



**Bakı Mart soyqırımı günlərində. 1918-ci il**

xarakteri aldı, ancaq bundan qaçmaq mümkün deyildi. Biz buna şüurlu surətdə getdik. Əgər onlar Bakını ələ keçirsəydilər, şəhər Azərbaycanın paytaxtı elan olunacaqdı».

Azərbaycanlı bolşevik S.M. Əfəndiyev bu hadisə ilə əlaqədar yazırdı ki, daşnaqlar təkcə müsavatçıları yox, bütün müsəlmanları məhv edirdilər. Sovetin başında duran Şaumyan, Canaridze və başqaları daşnaqların əlaltıları idi.

Bolşevik qəzeti «Naş qolos»" hadisələri təhlil edərək göstərirdi ki, bu milli qırğındır. «Hümmət"» qəzeti hadisələri xarakterizə edərək yazırdı: «Biz özümüzü aldatmamışıq və aldatmırıq. Biz yaxşı bilirik ki, … əvvəlcə siyasi mübarizə xarakteri daşıyırdısa, sonda milli rəng aldı»".

N. Nərimanov Şaumyana məktubda qeyd edirdi ki, «... bu hadisə Sovet hakimiyyətini ləkələdi. Əgər qısa vaxta bu kölgə, ləkə təmizlənməsə, bolşevik iddiası və Sovet hökuməti möhkəmlənməyəcək. Silahla ələ alınan hakimiyyəti uzun müddət saxlamaq olmaz…».

Bu faktlar mart qırğınının xarakterini və erməniliyin iç üzünü göstərir. Azərbaycanda mart-aprel hadisələrini törədən bolşevik-daşnaq qruplaşmasının məqsədi Bakı quberniyasında qələbə çaldıqdan sonra Gəncəni ələ keçirmək, bütövlükdə Azərbaycanı işğal etmək idi. Lakin 1918-ci ilin martında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, milli dövlətçiliyin bərpası düşmənlərin planını alt-üst etdi.

Mart hadisələrinə M.Ə.Rəsulzadə obyektiv qiymət vermişdi. 1919-cu il martın 31-də «Azərbaycan» qəzetində o yazırdı: «Martda tökülən qanlar türklərdəki milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürə bilmədi. … Qanlar içində boğdurulmaq istənilən Azərbaycan fikri bu kərə müstəqil bir hökumət şəkli ilə təcəlli etdi!

Bakı bir qan və bir fitnə ocağı deyil, paytaxtımız oldu».

«Yaddaş gününün elan olunması barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarı» nda göstərilir ki, Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı nəticəsində Bakıda, Şamaxıda, Qubada, Müğanda, Lənkəranda

ermənilər 50 mindən artıq azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, yüz minlərlə silahsız və günahsız əhalini didərgin salmışlar. Təkcə Bakıda 30 minə yaxın soydaşımız qanına qəltan edilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 minədək adam, o cümlədən 1.653 qadın, 965 uşaq öldürülmüş, Quba qəzasında 122 müsəlman kəndi yerlə-yeksan edilmişdir. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 müsəlman kəndi vəhşicəsinə dağıdılmış, əhalinin xeyli hissəsi qılıncdan keçirilmişdir. İrəvan qəzasında 88 kənd dağıdılmış, 1.920 ev yandırılmış, 131.970 nəfər öldürülmüşdür. Törədilmiş faciələrin nəticəsi idi ki, İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 373.582 nəfər əvəzinə 1922- ci ildə cəmi 70 min nəfər olmuşdu.

Qırğın Cənubi Azərbaycan ərazisində də davam etmişdi. Cənubi Azərbaycanın Qərb hissəsində xristian hökuməti yaratmaq istəyən ermənilər Urmiya, Səlmas və Köhnəşəhərdə 130 mindən artıq yerli müsəlman əhalini son dərəcə acınacaqlı və faciəli şəkildə qırıb tökdülər. Həmin ərəfədə «general» Andronik başda olmaqla 8 min silahlı erməni Arazdan keçərək Xoy şəhərinə hücum edib qırğın törətdilər.

Urmiyada qırılanların əksəriyyətini günahsız arvad-uşaq, hətta südəmər körpələr təşkil edirdi. Səməd Sərdarniya «Arazın hər iki tayında müsəlmanların soyqırımı» (Bakı, Elm, 2006) kitabında yazır ki, Urmiyanın çətin və ağır günlərində əhaliyə nə Tehrandan, nə də Təbrizdən heç bir kömək gəlmədi. Təbrizdə oturan Azərbaycan hakimi və vəliəhd Məhəmməd Həsən Mirzə



**Erməni terrorçuları tərəfindən qətlə yetirilən türk uşaqldarı**

gənc və təcrübəsiz olmaqla yanaşı əyyaşlıqla məşğul olurdu. Əmisi qoşun başçısı olsa da, gününün çoxunu kart oynamaqla keçirirdi. Urmiyadakı hadisələrdən bəhs edən «Təcəddüd» qəzeti özünün 17 fevral - 2 mart 1918-ci il tarixli nömrələrində dərc olunmuş məqalələrində yazırdı ki, Ürmiyadan gələn bir müsafir yolda 300-dən artıq vətəndaşın meyidini görmüşdü. Üç günlük Ürmiya qırğını 1918-ci il hadisələrinin dəhşətli səhifələrini təşkil edir. Ürmiyadakı qırğınlar 1918-ci il martın 19-dan sonra da davam etdirilmişdi.

Güney Azərbaycanın Qərb hissəsində məskunlaşmış kürdlərdən olan İsmayıl ağa Smitqonun xristianların silahlı dəstələrinin rəhbəri Marşimanı öldürməsindən sonra xristianların diqqəti Səlmasa yönəldi. Əhali əvvəllər yaxşı müqavimət göstərsə də, heç bir yardım gəlmədiyindən müqavimət zəiflədi. Bu arada Petros ağanın ordusu da Səlmasa qayıtdı. Belə olduqda Xoy və Səlmasın hakimi Xoya çəkildi. Ermənilər 1918-ci il aprelin 13-də Xoy şəhərinə daxil olurlar. Əhali qarət edilir. Səlmas ələ keçirildikdən sonra Osmanlı qüvvələrinin bu bölgədə yerləşməsi haqqında xəbərlər alan Petros ordunun bir hissəsini şəhərdə qoyub ətraf kəndlərə çəkilərək hazırlaşmağa başlayır. Bu fürsətdən istifadə edən müsəlmanlar 1918-ci il aprelin 19-da gecə hücuma keçib Səlması ələ keçirdilər. On gün ərzində şəhər ermənilərin hücumunun qarşısını aldı. Nəhayət, Petrosun ordusunun Urmiyadan Səlmasa daxil olması vəziyyəti dəyişdi. Aprelin 23-də vəziyyət daha da ağırlaşdı. Üç gün soyqırım aparıldı. Aprelin 25-də vəhşilər 40 min müsəlman əsiri bir yerə toplayaraq bazardan keçirib Həftvan və Qalasər kəndəlrinə aparıldılar. Əsirlər lüt-üryan bir həftə burada saxlanıldıqdan sonra müxtəlif bölgələrə yola salındılar. Onların çoxu yollarda qırıldı. Digər tərəfdən, Xoya gələn yolda pusqu qurmuş Smitqo da hər kəsi soyur və öldürürdü. Sonda Osmanlı əsgərlərinin gəlişi sağ qalmış əhalini qırğından xilas etdi. 1918-ci il iyun ayının 26-da Xoy şəhəri erməni işğalı və talanından azad edilərkən şəhər əhalisinin üçdə biri ermənilər tərəfindən qətlə

yetirildi. Səlmasdan Xoy şəhərinə pənah gətirən 40 min məcburi köçkündən, cəmi 10 min nəfərə qədəri sağ qalmışdı.

Qars vilayətindən də həyəcanlı xəbərlər daxil olmuşdu. Yunan qaçqınları məlumat verirdilər ki, «türk ordusunun hücumlarından geri çəkilən erməni hərbi hissələri və silahlı qaçqınlar öz yollarındakı bütün müsəlman kəndlərini dağıdır, yandırır, vəhşiliklər törədirlər. Qadınları tamam soyundurur, yolun kənarına qoyurlar ki, yoldan keçən süngülərində südəmər körpə olan «qalib erməni döyüşçülərini» görsünlər. Yunanlar deyirlər ki, dəli olmuş qadınların, köməksiz qocaların çığırtısına insan əsəbləri davam gətirmir. Tam olmayan məlumata görə general Areşev və kapitan Movsesyanın vəhşilikləri nəticəsində Qars vilayətində 82 müsəlman kəndi məhv edilmişdi».

Göründüyü kimi, 20-ci əsrin sonlarında müstəqilliyini yenidən əldə etmiş xalqımızın mübarizə tarixində keşməkeşli səhifələr çox olmuşdu. Təəssüf ki, yaşadığımız ictimai quruluşun «sosialist gerçəkliyinin " müqəddəs qadağaları» bizə öz mücadilə yolumuza aydın nəzər salmağa uzun onilliklər boyu imkan verməmişdi. Azərbaycan müstəqilliyini elan etdikdən sonra uzun illər gizli saxlanılan, saxtalaşdırılan və təhrif edilən dövr və hadisələrinin obyektiv mənzərəsini yaratmaq imkanı yarandı. Belə hadisələrdən biri də, artıq öz siyasi və hüquqi qiymətini almış və hər il ildönümü qeyd olunan «Azərbaycanlıların soyqırımı" günü» dür. «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlardan deportasiyası haqqında» və «Azərbaycanlıların soy qırımı haqqında» fərmanlar, 31 martın azərbaycanlıların soyqırımı günü elan edilməsi ilə əsil həqiqət dünya ictimaiyyətinə çatdırıldı, soyqırımı aparıldığı, Ermənistan ərazisinin qədim Azərbaycan torpaqları olduğu rəsmiləşdirildi, xalqımızın tarixinə «ağ ləkələr» kimi düşmüş səhifələr işıqlanmağa, qaranlıq mətləblər aşkarlanmağa başladı. Ona görə də, *«qarşımızda duran əsas vəzifələrdən biri də son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə*

*nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır”».*

Azərbaycan xalqı XX yüzilliyn sonunda növbəti erməni soyqırımına məruz qaldı. Ölkənin hər bir vətəndaşı istər keçən əsrdə, istərsə də indi baş verən faciələri unutmamalı, tarixin dərslərindən nəticə çıxarmalıdır.

### 3.4. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun ilk addımları

Azərbaycan milli-demokratik hərəkatının yekunu olan Azərbaycan Cümhuriyyətinin Azərbaycan xalqının tarixi müqəddəratındakı yeri və əhəmiyyəti böyükdür.

Azərbaycan dövlət qurumunun təqribən üç minillik tarixi var. Manna çarlğı (e.ə.IX- VII əsrlər), Atropatena dövləti (e.ə.IV-e. II), Qafqaz Albaniyası dövləti (e.ə IV əsr- e VIII əsri), Şirvanşahlar dövləti (IX-XV əsrlər), Eldənizlər dövləti (X əsr-XIII əsrin əvvəli). XIII-XV əsrlərdə Azərbaycan güclü dövlət qurumlarınun- Elxanilərin, Qaraqoyunluların və Ağqoyunluların paytaxt vilayəti idi. Azərbaycan görkəmli dövlət xadimi Şah İsmayıl Xətai tərəfindən əsası qoyulan Səfəvilər dövlətinin beşiyi olmuşdu.

Azərbaycan XVIII əsrin 30-40-cı illərində Nadir şahın basqınına məruz qaldı. Onun ölümündən sonra Azərbaycanda 15-ə qədər yarımasılı xanlıqlar meydana gəldi. Fətəli xan Quba, Bakı və Şamaxı xanlıqlarını birləşdirərək çox iri Şimali-Şərqi Azərbaycan dövlət qurumu yaratmağa nail olmuşdu. Doğrudur, «bəzi tarixçilər» onun ruspərəst olduğunu iddia etsələr də, İran sərhəddində güclü Azərbaycan dövləti Rusiya imperiyasının xeyrinə deyildi. Belə olmasaydı Fətəli xan öz qoşunlarını Ərdəbilə göndərəndə Yekaterina onları geri çağırmaq göstərişi verməzdi.

Fətəli xanın vəfatından və Şimali-Şərqi Azərbaycan parçalandıqdan sonra 1789-cu ildə burada Cavad xan başda olmaqla Gəncə və Qarabağ xanlığı fərqlənməyə başladı.

Güclü xanlıqlar Rusiyanı qane etmirdi. Xanlıqları itaətə gətirib özünə tabe etmək istəyən Rusiya 1804-cü ildə knyaz Sisianovun komandanlığı ilə Azərbaycana qoşun göndərdi. Gəncə şəhər-qalası ələ keçirildi, Cavad xan qəhrəmancasına həlak oldu. Qarabağ xanlığı, sonra isə digər xanlıqlar bir-birinin ardınca Rusiyaya ilhaq edildikcə diyarda inzibati quruluş dəyişdirilir, tarixi adlar tədricən qeyb olur, onların yerində Yelizavetpol, Kaspi və sairə peyda olurdu.

Xəzər dənizi ilə Qara dəniz arasında Böyük Qafqaz silsiləsindən cənubda yerləşən bütün ərazi Rusiya baxımından Zaqafqaziya adlanmağa başladı. Buna müvafiq olaraq Azərbaycan torpaqlarına sırf coğrafi istilah olan «Şərqi Zaqafqaziya» deyilir. Azərbaycan oykonimi (diyarın adı) tədricə aradan çıxır, əsasən Cənubi Azərbaycan barəsində işlənirdi. Ona görə də, onların üstündən qərəzcəsinə qara xətt çəkmədən «Azərbaycan oykonimini» və «azərbaycanlılar etnonimini» yaşatmaq üçün bütün çətinliklərə sinə gərən, hətta həyatını təhlükə qarşısında qoyan və 1918-ci ilin mayın 28-də Azərbaycan dövlət qurumunu dirçəldərək onu məhz «Azərbaycan Cümhuriyyəti» adlandıranlar əsl xalq təəssübkeşləri adlandırılmağa layiqdirlər.

Azərbaycan oykoniminə münasibətdə M.Ə.Rəsulzadə yazırdı: «Ah, Azərbaycan, biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər məruzlara rast gəldik, nə qədər töhmətlərə məruz qaldıq». O daha sonra yazırdı: «Xalqın düşüncəsində «Azərbaycan» məfhumu coğrafi bir mənada ziyadə fikir və əməl şəklində təzahür deyil» ”.

Deməli, 1918-ci ildə yaradılmış Azərbaycan Cümhuriyyəti göydən düşmə deyildi. Həm də, bu dövlət qurumu qədim və orta əsrlərdə olan bütün dövlət qurumlarından prinsipcə fərqlənirdi. Azərbaycan Cümhuriyyətinin ilhamçısı və yaradıcısı M.Ə.Rəsul-

zadə yazırdı: «Azərbaycan Cümhuriyyəti aləmi-islamda bir türk hökumətidir». O, qeyd edirdi ki, türk mənşəli bütün dövlətlər başlıca olaraq dini təməl üzərində qərar tutduqları halda, Azərbaycan Respublikası müasir milli mədəni müstəqillik təməlinə, türk milli-demokratik dövlət zamininə əsaslanır və bu baxımdan respublikamız ilk türk dövlətidir.

Ümummilli lider H.Əliyev demişdi: «Mən Azərbaycanın həyat qabiliyyətinə inanıram. Öz təbiətinə və potensial sərvətlərinə bənzərsiz olan bu diyar yerin təkində fəvvarələr və alovlar saxladığı kimi, öz vətəndaşlarının qəlblərinin ən dərin guşələrində də elə bir yaradıcılıq ruhu yaşadır ki, bu yaradıcılıq ruhu türk xalqının azad inkişafı şəraitində …dünyaya orijinal bir mədəniyyət nümunəsi bəxş edəcəkdir».

Bütün müsəlman Şərq aləmindən fərqli olaraq məhz Azərbaycanda belə bir müasir dövlətin hansı amillərin hesabına yarandığına nəzər salaq.

XIX əsrdə, xüsusən XX əsrin ilk iki onilliyində azərbaycanlıların bir millət kimi tam formalaşması yeni dövlət qurumunun yaranmasına imkan verdi. XIX əsrin II yarısından Azərbaycanda kapitalist istehsal münasibətlərinin yaranması ilə bölgənin iqtisadi mənzərəsi dəyişdi. Bu ilk növbədə Bakıya aid idi. O zamanlar (XIX əsrin II yarısı) az tanınan şəhər neft sənayesinin inkişafı nəticəsində tezliklə məşhurlaşdı, böyüdü. «Bakı şəhəri əhəmiyyətsiz bir şəhər kimi .... dönüb Rusiyada 112 min əhalisi olan birinci dərəcəli səna-ye mərkəzinə çevrildi». Bir çox sənaye sahələrinə malik olan «Bakı neft vahəsində» neftdən əlavə, zəngin balıq vətəgələri, mis əritmə zavodları, ipək fabrikləri var idi. Nəqliyyat xarici ölkələrə və Rusiyaya yol açmışdı. Təsərüffatda dirçəliş baş verirdi. Azərbaycanda həm daxili, həm də xarici ticarət son dərəcə geniş miqyas almışdı.

Sosial strukturda da dəyişikliklər baş verirdi. Yeni siniflər – burjuaziya və ploletariat formalaşırdı. Azərbaycan milli burjuaziyası (H. Z. Tağıyev, Musa Nağıyev, Əsədullayev qardaşları, Murtuza Muxtarov və b.) Rusiyanın bütün

müsəlman xalqları arasında ən iri və maliyyə cəhətdən ən güclü burjuaziya idi. Bunu müsbət hal kimi qiymətləndirən M.Ə.Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» əsərində yazırdı ki, «Azərbaycan şəhərləri böyüdü. Aralarında münasibət və mübadilə artdı. Xanlıqlar zamanındakı xüsusiyyətlər rəf oldu. Məmləkətdə iqtisadiyyat və ticarət inkişaf etdi, təkamül yoluna girdi».

M.Ə.Rəsulzadə «Əsrimizin Səyavuşu» əsərində Azərbaycan xalqının mədəni dirçəlişində İran, Türkiyə və Rusiyanın rolunu müqayisəli şəkildə qiymətləndirərək yazırdı: «Rus istilasının yaxşılığı bu oldu ki, azərbaycanlılar özlərini bir vücud, xüsusən kültür toxumlarını daşıyan bir cəmiyyət, yəni rusların ayrı bir millət olduqlarını hiss etməyə başladılar».

Rusiyanın tərkibində olduğu dövrdə baş verən müsbət dəyişikliklərlə yanaşı, mənfi hallar da olmuşdu. Mənfi hal öz ifadəsini başlıca olaraq Rusiya, İran, hətta uzaq Almaniyanın müstəmləkə siyasətində tapırdı. Məsələn, qraf Paskeviç tərəfindən İrana göndərilən Lazarev 40 min ermənininin Zaqafqaziyaya köçürülməsinə nail olmuşdu. Onlardan 18 mini Qarabağda yerləşdirilmişdi. A.S.Qriboyedov bu münasibətlə yazırdı ki, «ermənilər əksərən Azərbaycan torpaqlarında yerləşdirilmişlər. Köçkünlər özləri darısqal yaşayır və müsəlmanların yerini darısqal edirlər, müsəlmanlar əməlli-başlı şikayətlənirlər».

Çar hökumətinin Azərbaycana mütəşəkkil surətdə əhali köçürməsinə və digər xalqların nümayəndələrinin sərbəst axınla gəlməsinə şərait yaratmasına baxmayaraq azərbaycanlılar say tərkibinə görə Zaqafqaziyada üstünlük təşkil edirdilər. 1897-ci ildə aparılmış birinci Ümumrusiya əhalinin siyahıyaalma nəticələrinə görə Zaqafqaziya əhalisinin 29,2%-ni azərbaycanlılar, 27,1%-ni gürcülər, 21,9%-ni ermənilər, 4,5%-ni ruslar, 17,3%-ni digər millətlər təşkil edirdi.

Mütləqiyyət ikibaşlı siyasət yeridirdi. Bütün bunlara baxmayaraq, XIX əsrin ortalarından etibarən Azərbaycanda

şərq, islam ziyalılarından fərqlənən, Avropa tərbiyəsi görmüş yeni milli ziyalılar yetişməyə başladı. Məhz onların fəaliyyəti nəticəsi olaraq Fevral inqilabının qələbəsindən sonra Azərbaycan milli hərəkatı özünün yeni mərhələsinə qədəm qoydu.

«Müsavat» oktyabr inqilabını xoş niyyətlə qarşıladı. Partiyanın 7 noyabr tarixli qətnaməsində hökumətin demokratik olması bildirilirdi. Bakı Sovetinin geniş iclasında «Müsavat»ın həmin qətnaməsi sürəkli alqışlarla qarşılanmışdı. 12 noyabrda «Müsavat» ın köməkliyi ilə Bakı Soveti Müvəqqəti Komitənin buraxılması haqda qərar qəbul etdi.

1917-ci il noyabrın 9-12- də Bakıda «Müsavat» ın rəhbərliyi ilə Zaqafqaziya müsəlman milli komitəsinin milli təsis yığıncağı keçirildi. Yığıncaq millətin taleyini həll etmək üçün bütün canlı qüvvələrin birləşdirilməsini, Rusiya federasiyasında yeni muxtar vahidin yaradılmasını tələb etdi. Həmin vaxt S.Şaumyan öz mövqeyini möhkəmləndirirdi. Qeyd edildiyi kimi, XKS-nin 16 dekabr 1917-ci il tarixli iclasında İ. Stalinin təklifi ilə S.Şaumyan Qafqazın fövqəladə komissarı təyin edilmişdi.

Lakin Bakı sovetinin hakimiyyəti şəhər kənarından uzağa getmirdi. Zaqafqaziyanın qalan hissəsini 11 noyabr 1917-ci il tarixdə OZAKOM-un əvəzində yaradılmış Zaqafqaziya komis sarlığı idarə edirdi. Zaqafqaziya hökumətinə E. Qeqeçkori rəhbərlik edirdi. Hökumətə Azərbaycandan 3 nümayəndə - F.X. Xoyski, M.Y. Cəfərov, X.Xasməmmədov daxil idi.

1918-ci il fevral ayının 23-də Tiflisdə Zaqafqaziya Seymi işə başladı. Onun tərkibinə Zaqafqaziyadan Ümumrusiya Təsis yığıncağına seçilmiş deputatlar daxil oldular. Azərbaycan fraksiyasına birləşən 44 deputat əsasən «Müsavat», «İttihad», «Hümmət» və sosialist blokunu təmsil edirdilər. Azərbaycan fraksiyasının lideri M.Ə. Rəsulzadə idi.

Hadisələrin gedişi göstərirdi ki, Bakı soveti ilə «Müsavat» arasında konflikt getdikgə ciddi xarakter alırdı. Bakı sovetinin rəhbərliyi başa düşürdü ki, «Müsavat» getdikcə güclü siyasi

qüvvəyə çevrilir. Təkcə «Müsavat» yox, xalq kütləri də Azərbaycana muxtariyyət tələb edirdi. Bunu mərkəz də hiss edirdi. PK (b) P MK Şaumyana və Çaparidzeyə 19 mart 1918-ci il tarixli məktubunda bildirilirdi ki, «Əgər müsəlmanlar muxtariyyət tələb edirlərsə, onu vermək lazımdır». Ancaq Şaumyan açıq-aşkar bunun əleyhidarı idi. Azərbaycan xalqının qanunu və haqlı tələbi Şaumyanı qane etmirdi. Təəccüblü orasıdır ki, Şaumyan Azərbaycanın muxtariyyatına qarşı barışmaz mövqe tutsa da, cibində Türkiyə ərazisindən Ermənistana muxtariyyat verilməsi haqda Leninin 29 dekabr 1917-ci il tarixli dekretini gəzdirirdi.

Mart hadisələrindən sonra azərbaycanlıların ümidi Zaqafqaziya seyminə qaldı. 2 apreldə Seymə Bakı hadisələri haqda məlumat verildi. Müsəlman sosialist blokunun sədri Z. Məmmədbəyov tələb etdi ki, Bakıda azərbaycanlılara qarşı törədilən qanunsuzluq və vəhşilik barəsində tədbir görülsün. M.Ə.Rəsulzadə bildirdi ki, Seym Azərbaycana kömək eməyəcəyi halda baykot ediləcəkdi. Ancaq canlarında türk qorxusu olan gürcü və erməni fraksiyası Azərbaycana kömək etməkdən imtina etdi.

Gələcək hakimiyyətin təkcə azərbaycanlılardan ibarət olmamasını, həmçinin beynəlmiləl və erməni hissələrinin Bakıda qalmasını istəyən Seymin «Daşnaqsütyun» fraksiyasının nümayəndələri bildirdilər ki, Bakı hadisələrinin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürürlər. Azərbaycan fraksiyası təklifi müzakirə edərək qərara aldı ki, «Bakıda və Şərqi Zaqafqaziyada bütün hakimiyyət azərbaycanlılara məxsus olmalıdır, əgər biz bu hakimiyyəti müvəqqəti itirsək, onu bütövlükdə və sonadək itirmiş oluruq».

1918-ci il aprelin 22- də Zaqafqaziya müstəqil federativ respublika elan edildi. Aprelin 26-da isə Çxengelinin rəhbərliyi altında yeni hökumət təşkil edildi. Zaqafqaziyanın yeni hökumətinə Azərbaycanın 5 nəfər nümayəndəsi - F.X.Xoyski (ədliyyə naziri), H.Məlikaslanov (yollar naziri), N.Yusifbəyov

(maarif naziri), M.H. Hacınski (ticarət və sənaye naziri), İ.Heydərov (dövlət nəzarətçisi) daxil edildilər.

Zaqafqaziyanın müstəqilliyinin elan olunması xəbəri Moskvada və Bakıda hakimiyyəti ələ almış bolşeviklərin və daşnaqların narahatlığına səbəb oldu. Onlar milli qüvvələri məhv etmək, öz hakimiyyətlərini bütün Azərbaycana yaymaq məqsədilə işğal olunmuş Bakı quberniyasında proletariat diktaturasını möhkəm ləndirmək üçün *aprelin 24-də Bakı Xalq Komissarları Sovetini* yaratdılar.

Müstəqilliyin elan edilməsi və yeni hökumətin təşkili xarici və daxili vəziyyəti yaxşılaşdırmadı. Hökumət daxili idarəetmədə aciz idi, vahid hakimiyyət yox idi. Ölkədə anarxiya başlamışdı. Millətlərarası düşmənçilik İrəvan quberniyasında ən yüksək nöqtəyə çatmışdı. Irəvan quberniyasında azərbaycanlılar erməni hərbi hissələri tərəfindən kütləvi qırğına məruz qalmışdilar. Xarici siyasət sahəsində də Zaqafqaziya xalqları nümayəndələri arasında birlik yox idi. Əlbəttə, bu ondan irəli gəlirdi ki, azərbaycanlılar onların mart hadisələrində Bakı soveti ilə əlbir olduğunu bilirdi. Seymin tərəfdarları isə azərbaycanlıları türklərlə dostluqda günahlandırırdı.

Zaqafqaziya seyminin nümayəndələri arasında fikir və məqsəd birliyi olmadığı kimi, müttəfiqlər Almaniya və Tükiyə arasında da məqsəd ayrılığı mövcud idi. Türkiyənin Qafqazda nüfuzunun artması ilə Almaniya razılaşmaq istəmirdi. Bu məqsədlə gürcülərdən istifadə ön plana çəkilmişdi. Ermənilərdən də istifadə gündəmdə idi. Batum konfransının gedişində Gəncə Milli Şurasından Seymə gəlmiş nümayəndələr məlumat verərək bildirirdilər ki, bolşevik-daşnaq qüvvələri dəmir yolu xətti boyunca hücuma hazırlaşırlar. Türkiyədən yardım almaq məqsədilə M.Cəfərov, N. Yusifbəyli və X.Xasməmmədov Batuma və İstanbula ezam olundular. Elə bu vaxt ingilis qoşunlarının Bakı istiqamətində hərəkəti haqqında da məlumat daxil oldu. Mayın 14-də yuxarıda qeyd edilənlərin qarşısını almaq üçün Xəlil bəy Xasməmmədov Zaqafqaziya Seyminin nümayəndə heyətinə nota təqdim etsə də, gürcü və erməni

nümayəndələri notada irəli sürülən təklifləri qəbul etmədilər. Beləliklə, Almaniya və Türkiyənin münasibətləri kəskinləşdi. Elə həmin gün gürcü Milli Şurası gizli iclas keçirərək general Otto fon Lotov vasitəsi ilə Almaniyanın qəyyumluğuna keçmək istədiyini bildirdi. Bu bir növ əvvəllər əldə edilmiş razılığın ört-basdır edilməsi məqsədi daşıyırdı.

Belə bir şəraitdə gürcülər mayın 25-də Zaqafqaziyanın tərkibindən çıxıb müstəqillik elan etdilər. Mayın 26-da Seymin sonuncu iclasında menşevik Sereteli seymin buraxıldığını bildirdi. Mayın 27-də keçmiş Seymin müsəlman fraksiyasının iclası Milli Şuranın Rəyasət heyətini seçdi. M. Ə. Rəsulzadə və F. X. Xoyski Milli Şuranın tərkibinə seçildilər. Mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurası (24 nəfər lehinə, 2 nəfər bitərəf qalmaqla)-aşağıdakı tərkibdə: Həsənbəy Ağayev, Mustafa Mahmudov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mirhidayət Seyidov, Nərimanbəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əliəsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Hidayət bəy Məlikaslanov, Rəhim bəy Vəkilov, Məhəmməd bəy Şaxtaxtinski, Firudin bəy Köçərli, Camal bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlikyeqanov, Hacı Molla Axundzadə-Azərbaycanın müstəqilliyi haqqında Bəyannaməni imzaladılar**.** Müsəlman Milli Şurasının elan etdiyi bəyannamədə rus qoşunları getdikdən və Zaqafqaziya Federativ Respublikası parçalandıqdan sonrakı durum, Rusiya və osmanlı imperiyası arasındakı müharibənin dayandırılması ilə əlaqədar Azərbaycanın siyasi vəziyyəti təhlil edilir, xalqı ağır vəziyyətdən çıxarmaq üçün öz dövlətini yaratmaq tələb olunurdu.

Bəyannamədə deyilirdi:

Xalq səsverməsi yolu ilə seçilən Azərbaycan müsəlman Milli Şurası bu gündən bütün xalqa bəyan edir:

1. Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir. O, Zaqafqaziyanın Cənub və Şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur;

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik cümhuriyyətdir;

3. Azərbaycan Demokratik Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaqdır;

4. Azərbaycan Demokratik Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir;

5. Azərbaycan Demokratik Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq;

6. Məclisi - Müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçilən Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır.

Həmin gün, mayın 28-də aşağıdakı tərkibdə **Müvəqqəti hökumət** təşkil olundu:

**F. Xoyski-**Nazirlər Şurasının sədri və Daxılı İşlər naziri

Xosrov Sultanov - Hərbi nazir

Məmməd Həsən Hacınski - Xarici işlər naziri

Nəsib bəy Yusifbəyli - Maliyyə və sənaye naziri

Xəlil bəy Xasməmmədov-Ədliyyə naziri

Məmməd Yusif Cəfərov - Ticarət və sənaye naziri

Əkbər Ağa Şeyxülislamzadə - Nəqliyyat, poçt və teleqraf naziri

Cəmo bəy Hacınski - Dövlət nəzarəti

Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətin 5 kabineti fəaliyyət göstərmişdi. Onların tərkibi aşağıdakı kimi olmuşdu:

**I kabinə: 28. 05. 1918-17. 06. 1918**

1.Nazirlər Şurasının sədri və daxili işlər naziri-F.Xoyski (bitərəf)

2.Hərbi nazir - X.Sultanov (Müsavat)

3.Xarici işlər naziri - M.H.Hacinski (Müsavat)

4.Maliyyə və xalq maarif naziri- N.Yusifbəyli (Müsavat)

5.Ədliyyə naziri - X.Xasməmmədov (Müsavat)

6.Ticarət və sənaye naziri - Y.Cəfərov (bitərəf, sonra - müsavat)

7.Əkinçilik və əmək naziri - Ə.Şeyxülislamzadə (Hümmət)

8.Yollar, poçt və teleqraf naziri- X .Məlikaslanov (bitərəf)

9.Dövlət Müfəttişi - C.Hacınski (sosialist)

**II kabinə: 17. 06. 1918 - 07. 12. 1918**

1.Nazirlər Şurasının sədri və ədliyyə naziri - F.Xoyski (bitrəf)

2.Xarici işlər naziri - M.H.Hacınski (Müsavat)

3. Xalq maarifi və dini etiqad naziri - N.Yusifbəyli (Müsavat)

4. Daxili işlər naziri - B.Cavanşir (bitərəf)

5.Əkinçilik naziri - X.Sultanov (Müsavat)

6.Səhiyyə və sosial təminat naziri - X.Rəfibəyli (bitərəf)

7.Yollar naziri - X.Məlikaslanov (bitərəf)

8.Ticarət və sənaye naziri - A.Aşurov (bitərəf)

9.Maliyyə naziri - Ə.Əmircanov (bitərəf)

10.Portfelsiz nazir - Ə.M.Topçubaşov (bitərəf)

11.Portfelsiz nazir - M.Rəfibəyov (Müsavat)

12.Portfelsiz nazir - X.Xasməmmədov (Müsavat)

**06. 10. 1918-ci il tarixli kabinetdaxili dəyişikliklərdən sonra**

1.Nazirlər Şurasının sədri - F.Xoyski (bitərəf)

**2.** Ticarət, sənaye və daxili işlər naziri - B.Cavanşir (bitərəf)

3.Xarici işlər naziri - Ə.M.Topçubaşov (bitərəf)

4.Maliyyə naziri - M.Hacınski (Müsavat)

5.Xalq maarifi naziri - N.Yusifbəyli (Müsavat)

6.Yollar naziri - X.Xasməmmədov (bitərəf)

7.Əkinçilik naziri - X.Sultanov (Müsavat)

8.Xalq səhiyyə naziri - X.Rəfibəyli (bitərəf)

9.Poçt - teleqraf naziri - A.Aşurov (bitərəf)

10.Sosial təminat və dini etiqad naziri - M.Rəfiyev (Müsavat)

11.Hərbi işlər üzrə müvəkkil - İ.Ziyatxan (bitərəf)

12.Dövlət müfəttişi - Ə.Əmircan (bitərəf)

**III kabinə: 26. 12. 1918 - 14. 03. 1919**

1. Nazirlər Şurasının sədri və xarici işlər naziri - F.Xoyski (bitərəf)

2.Daxili işlər naziri - X.Xasməmmədov (Müsavat)

3.Maliyyə naziri - İ.Protasov (Slavyan- Rus cəmiyyəti)

4.Yollar naziri - X.Məlikaslanov (bitərəf)

5.Ədliyyə naziri - T.Makinski (?)

6.Maarif və dini etiqad naziri - N.Yusifbəyli (Müsavat)

7.Poçt-teleqraf və əmək naziri - A.Səfikürdski (sosialist)

8.Hərbi nazir - S.Mehmandarov (bitərəf)

9.Sosial təminat naziri - R.Xoyski (bitərəf)

10.Xalq səhiyyəsi naziri - Y.Gindes (Slavyan - Rus cəmiyyəti)

11.Ticarət və sənaye naziri - M.Əsədullayev (bitərəf)

12.Dövlət müfəttişi - M.H.Hacınski (16.01.1919-cu il tarixdən Ə.Həsənov)

13.Ərzaq naziri - K.Lizqar (Slavyan - Rus cəmiyyəti)

14.Əkinçilik naziri - X.Sultanov (Müsavat)

**IV kabinə: 14. 03. 1919 - 22. 12. 1919**

1.Nazirlər Şurasının sədri və daxili işlər naziri- N.Yusifbəyli (Müsavat)

2.Maliyyə naziri - Ə.Həsənov (bitərəf)

3.Ticarət və sənaye naziri - A.Əminov (bitərəf)

4.Xarici işlər naziri - M.Y Cəfərov (Müsavat)

5.Yollar naziri - X.Məlikaslanov (bitərəf)

6.Poçt-teleqraf naziri - C.Hacınski (sosialist)

7. Hərbi nazir - S.Mehmandarov (bitərəf)

8. Sosial təminat naziri - V.Klenevski (Slavyan-Rus cəmiyyəti)

9.Səhiyyə naziri - A.Dostakov (?)
10.Maarif və dini etiqad naziri - R.Kaplanov (Əhrar)
11.Əkinçilik naziri - A.Qardaşov (Əhrar)
12.Portfelsiz nazir - X.Amaspür (Daşnaqsütyun)
13.Dövlət müfəttişi - N.Nərimanbəyli (Müsavat)
14.Ədliyyə və əmək naziri - A.Səfifkürdski (sosialist)
15.Sonralar daxili işlər naziri - X.Xasməmmədov (Müsavat)

**V kabinə: 24. 12. 1919 - 01. 04. 1920**

1.Nazirlər Şurasının sədri -N.Yusifbəyli (Müsavat)
2.Xarici işlər naziri - F.Xoyski (bitərəf)
3.Hərbi nazir - S.Mehmandarov (bitərəf)
4.Daxili işlər naziri - M.H.Hacınski (18.02.1920-ci ildən sonra M.Vəkilov) (birincisi əvvəl müsavat, sonra kommunist, M.Vəkilov - Müsavat)
5.Ədliyyə naziri - X.Xasməmmədov (Müsavat)
6.Maliyyə naziri - R.Kaplanov (Əhrar)
7.Maarif və dini etiqad naziri - H.Şaxtaxtinski (05.03.1920-ci ildən sonra N.Şahsuvarov, hər ikisi - İttihad)
8.Əmək və əkinçilik naziri - Ə.Pepinov (sosialist)
9.Yollar naziri, eyni zamanda ticarət, sənaye və ərzaq üzrə müvəqqəti nazir - X.Məlikaslanov (18.02.1920-ci ildən sonra ticarət, sənaye və ərzaq naziri - M.H.Hacınski)
10.Poçt-teleqraf naziri - C.Hacınski (sosialist)
11.İctimai təminat və səhiyyə naziri - M.Rəfiyev (Müsavat)
12.Dövlət müfəttişi - H.Məmmədbəyov (İttihad).

Mayın 30-da F. Xoyski radioteleqraf vasitəsilə Azərbaycan Demokratik Cümhuriyyətinin yarandığını xarici dövlət başçılarına – İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Tokio şəhərlərinə bildirildi: «Xarici İşlər Nazirliyinə, Gürcüstanın çıxması ilə Zaqafqaziya Federativ Respublikasının parçalanması nəticəsində Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətini elan

etmiş, tərkibinə Şərqi və Cənubi Zaqafqaziya daxil olan Azərbaycan Respublikasını qurmuşdur. Siz zati alilərdən xahiş olunur k, bu barədə öz hökumətinizə məlumat verəsiniz. Mənim hökumətimin müvəqqəti yeri Gəncə şəhəridir». **F. Xoyski. Azərbaycan Respublikasının Nazirlər Şurasının sədri.**

Transqafqaz hökumətinin başladığı Batum danışıqları iyunun 4-də hər üç respublika ilə «Sülh və Dostluq” haqqında» müqavilələrin imzalanması ilə nəticələndi. Osmanlı hökuməti ilə bağlanmış müqavilə Azərbaycan hökumətinin dövlətlərarası ilk müqaviləsi idi. Müqavilənin IV bəndinə əsasən «İmperator Osmanlı hökuməti Azərbaycan hökumətinə qayda-qanun, ölkənin təhlükəsizliyinin təmin olunmasına ehtiyac duyduğu təqdirdə hərbi qüvvə ilə kömək etməyi öhdəsinə götürür”dü».

16 iyunda Respublika hökuməti Tiflisdən Gəncəyə köçdü. Bu vaxt Gəncədə Türkiyə hərbi məsləhətçiləri (300 nəfər) var idi. Onlara Nuru paşa rəhbərlik edirdi. Hərbiçilər Azərbaycan Respublikasının xahişi ilə gəlmişdilər.

Azərbaycanın müstəqilliyinin əleyhinə olan dövlətlər Nuru paşanı öz tərəflərinə çəkə bildilər. Nuru paşa Milli Şuranın buraxılmasını və onun hüquqlarının özünün təşkil edəcəyi hökumətə verilməsini tələb etdi.

Azərbaycan burjuaziyasının bəzi dairələri Milli Şura əleyhinə fəal kampaniyaya başladılar. İş o yerə çatdı ki, Azərbaycanın Türkiyəyə birləşdirilməsi haqqında şayələr dolaşmağa başladı. Milli Şura iyunun 17-də bu məsələni müzakirə etmək üçün yığıldı. Uzun müzakirələrdən sonra Milli Şura Müvəqqəti hökumətin hüquq və vəzifələri və Azərbaycan Milli Şurasının buraxılması haqqında iki qətnamə qəbul etdi. Milli Şurada M.Ə. Rəsulzadə yekun nitqi söylədi.



**AXC-nin dövlət bayrağı**
**Gəncə. 1918-ci il 24 iyun**

İyun hadisələri Azərbaycanın siyasi həyatına güclü təsir etdi. İyunun 17-də F.Xoyski nin rəhbərlik

etdiyi ikinci hökumət kabinəsi təşkil edildi. Höku- mətin Azərbaycan xal- qına 17 iyun 1918-ci il tarixli müraciətində bildirilirdi ki, ən yaxın vəzifələrdən biri hökumət idarələrini, məhkəmələri və məktəbləri milliləşdirməkdir. Hökumətin 24 iyun 1918-ci il tarixli qərarı ilə rəngi qırmızı, aypara və 8 guşəli ulduzun qırmızı fonda təsviri olan Azərbaycan Respublikasının bayrağı təsdiq olundu. Sentyabr ayında bu bayraq üç rəngli bayraqla əvəz edildi. Göy, qırmızı və yaşıl rəngli bayraqda, ağ rəngli aypara və 8 guşəli ulduz təsvir olunmuşdu.



**AXC-nin bayrağı.1918-ci il sentyabr**

Böyük ədib C.Cabbarlı Azərbaycan bayrağını belə tərənnüm etmişdi:

Buraxınız seyr edəlim, düşünəyim, oxşayayım,
Şu sevimli, üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadını üzərinə kölgə salan!
Nə imiş bu, aman Allah! Od yurdunun bayrağı!

Göy yarpaqlar, al çiçəklər, yaşıl otlar topası
Xayır, xayır, çiçək solur, otlar yerdə tapdanır.

Fəqət bizim bayrağımız ucaları həm seviyor,
Yıldızlardan, hilaldan da yüksəklərdə hərləniyor.

Kölgəsində ay çəkilib, bir gözəli qucmada,
Qucaşaraq sevdiyiylə yüksəklərə uçmada.
Şu görünüş bir ananın şəfqətinə oxşayır,
Düşündükcə zövqlərimi, vicdanımı oxşayır.

Bu ay, yıldız, boyaların qurultayı nə demək.
Bizcə böylə söyləmək:
Bu göy boya göy moqoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı,
Yaşıl boya islamlığın sarsılmayan inamı,
Ürəklərə dolmalı,
Şu al boya azadlığın təməddudun fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz guşəli şu yıldız da səkkiz hərfli
«Od yurdu»
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi
Səhərlərə uçmuşdur.

Şu hilalda türk bilgisi, düzgün sevgi nişanı,
Allah, əməllərin edib şu bayrağı intiğal.
Ürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir bayraq Turan üstə açılsın.



**Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin binası**
**(indiki Azərbaycan Dövlət Neft Şirkətinin binası)**

İlk addım olaraq 1918-ci il iyun ayının 27- də Azərbaycan dili dövlət dili elan olundu. Bakıda ali əkinçilik məktəbinin yaradılması haqqında qərar qəbul edildi. Bakıda, Şəkidə, Gəncədə və Şuşada müəllimlər seminariyası açıldı. Salyanda, Qusarda, Zaqatalada müəllim hazırlayan kurslar təşkil edildi.

Avqustun 11-də Azərbaycanın müsəlman dinindən olan 1894 -1899-cu ildə anadan olmuş vətəndaşlar hərbi xidmətə çağrıldı. Sentyabrın 1-də hərbi nazirlik yaradıldı. Əlbəttə, qısa müddətdə ordu yaratmaq çox çətin idi, ona görə də bu sahədə Türkiyə ordusununköməyindən istifadə olundu.

Bu dövrdə Bakıda vəziyyət mürəkkəb idi. Türkiyənin müdafiə etdiyi Azərbaycan hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını güzəştə getmək fikrində idi. Bakı haqqında planlarını almanlar Sovet Rusiyası ilə həyata keçirmək istəyirdilər. Bu məqsədlə də gizli danışıqlar aparırdılar. Elə bu səbəbdən də, Bakının azad edilməsi xeyli yubandı. Nəhayət, bütün cəhdlərə baxmayaraq iyulun axırında Bakı Komitəsi yıxıldı. Denstervil başda olmaqla avqust ayının əvvəllərində Bakıya daxil olan ingilislər şəhəri «İslam ordusunun» hücumundan müdafiə edə bilmədi. Nəhayət, 3 ay davam edən alman-rus danışıqları avqust ayının 27-də başa çatdı. Berlində bağ lanmış sazişin 14-cü maddəsində göstərilirdi ki, Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım göstərməyəcəkdir. «Rusiya-Bakı vilayətində neft çıxarılmanın bütün imkanlarını Almaniyaya verə cəkdir». 27 avqust sazişi ilə bağlı Azərbaycan nümayəndə heyəti Almaniya səfirliyinə etiraz notası verdi və surəti digər dövlətlərə də göndərildi.

1918-ci ilin sentyabrında Bakının azad edilməsi zərurəti meydana çıxdı. Azərbaycan Respublikası Osmanlı dövlətindən yardım istədi və sentyabrın ortalarında Bakı azad edildi.

Bakının azad edilməsi Tələt paşanın Berlin danışıqlarına müsbət təsir etdi. Sentyabrın 23-də Almaniya - Osmanlı protokolu imzalandı. Almaniya 27 avqust sazişindən imtina etdi.

Almaniya Azərbaycan Respublikasını tanıdığını və Rusiyanın da onu tanımasına təsir edəcəyini, Türkiyə isə Rusiya tərəfindən Azərbaycanın müstəqilliyini tanıdıqdan sonra Brest sülhü üzrə müəyyən edilmiş sərhədlərə öz qoşunlarını çəkəcəyini öhdəyə götürdü.

1918-ci ilin payızında alman-türk bloku məğlub oldu. Oktyabrın 30-da Mudros barışığı imzalandı. Barışığa görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli idi. Transqafqaz dəmir yolu mütəffiqlərin nəzarətinə verildi. Noyabrın 4-də Ə. Topçubaşov barışığın Azərbaycana aid maddələrinə dair Türkiyə xarici işlər nazirliyinə nota verdi.


**A.Səfikürdski**

1918-ci il noyabrın 17-də müttəfiq qoşunları Bakıya daxil oldu. Bundan bir az əvvəl Azərbaycan hökuməti ABŞ prezidenti Vilsona, öz fəaliyyətini bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciət qəbul etmişdi. Bakıda vəziyyətlə tanış olan Tomson bildirdi ki, onun komandanlığı Azərbaycan hökumətinə və baş nazirə hörmət bəsləyir.

Mürəkkəb siyasi vəziyyətdə 5 aylıq tənəffüsdən sonra noyabrın 16-da Bakıda Milli Şura toplandı. 1918-ci il noyabrın 19-da Milli Şura «Azərbaycan parlamentinin yaranması haqqında qanun» qəbul etdi. Parlamentdə 120 deputat yeri müəyyən edildi: 80-Azərbaycan türkü, 21-erməni, 10-rus, 1-alman, 1-yəhudi, 1-gürcü və 1 polyak, 5 həmkarlar təşkilatı nümayəndəsi. Rus Milli Şurasını işə cəlb etmək üçün Azərbaycan Milli Şurası möhkəm mövqe tutaraq 1918-ci il noyabrın 24-də elan etdi ki, «Müstəqillik aktı haqqında» 28 may 1918-ci il tarixdə qanun qəbul edilməsinə baxmayaraq Rus Milli Şurasını Azərbaycanın Müstəqilliyini tanımağa tələsdirmir. Başqa sözlə,

1. Azərbaycanın siyasi vəziyyəti və quruluşuna son olaraq Ümumdünya Sülh konfransı tərəfindən icazə verilə bilər;

2. O zamana qədər Azərbaycanda idarə sistemi saxlanılır.

3. Əgər Ümumdünya Sülh Konfransınadək Rusiyanın öz müqəddəratını təyin etmiş xalqların nümayəndələrinin iştirakı ilə Ümumrusiya Müəssislər Məclisi toplanarsa Azərbaycan orada öz müqəddəratını təyin etmək prinsipi ilə iştirak edəcək .

Lakin Rus Milli Şurası Azərbaycanı Rusiyanın mülkiyyəti sayaraq Azərbaycan parlamentinə öz nümayəndələrini göndərməkdən imtina etdi və Azərbaycan hökumətindən Kolcakın Ufa hökumətini tanımasını istədi.

Azərbaycan parlamenti ətrafında baş verən hadisələr Tomsonu inandırdı ki, Azərbaycan hökuməti ciddi siyasi qüvvədir. Bu səbəbdən də, onun inzibati idarəsi ilə Azərbaycan hökuməti arasında yaxınlaşma başladı.

Dekabrın 26-da yeni yaradılmış kabinə iki gündən sonra - ayın 28-də Paris sülh konfransına gedəcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etdi. Nümayəndə heyətinin rəhbəri Ə.Topçubaşov təyin edildi. Bu zaman İstanbulda olan Ə. Topçubaşov İngiltərə, ABŞ, İtaliya, İsveç, İran, Hollandiya, Rusiya, Ukrayna və Ermənistan hərbi və diplomatik nümayəndələri ilə görüşlər keçirirdi.

1919-cu il mayın 2-də Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi Versal konfransının «Dördlər Şurası»nın iclasında müzakirə edildi. Parisdə olan Azərbaycan nümayəndə heyəti may ayında çoxsaylı görüşlər keçirdi. Mayın 28-də Azərbaycan nümayəndə heyətini Vilson qəbul etdi. Ona Azərbaycan Respublikasının Memorandumu təqdim edildi.

Versaldakı Azərbaycan nümayəndə heyətinin qarşılaşdığı çətinliklərdən biri də «Böyük Ermənistan» iddialarına qarşı mübarizə aparmaq oldu. Çünki ermənilər sülh konfransı qarşısına həlli mümkün olmayan məsələlər qoymuşdular. Onlar öz ərazilərini Türkiyə, Azərbaycan və Gürcüstan ərazisi hesabına genişləndirmək istəyirdilər.

İngilis qoşunları Bakıya daxil olduqdan 3 ay sonra İngiltərə hökuməti qoşunları Transqafqazdan çıxarmağı qərara aldı. İyunun 28-də Böyük Britaniya hökuməti qoşunların

çıxarılması haqqında Paris sülh konfransına məlumat verdi. İngilis qoşunlarının İtaliya ordusu ilə əvəz olunması haqqında qərar qəbul olunsa da, İtaliyadakı hökumət dəyişikliyi (F. Nitti) buna imkan vermədi.

Avropa dövlətləri ilə yanaşı Qafqaz mandatına namizədlərdən biri də ABŞ idi. Onun Qara dəniz boğazlarında, İstanbul və Qafqazda marağı var idi. Bu məqsədlə iyul ayının 5-də ilk addımlar atıldı. Konfransın «Onlar şurası» Amerikanın təqdimatı əsasında polkovnik V. Haskeli Ermənistana ali komissar təyin etdi.

Ermənilər yenidən ABŞ vasitəsilə ərazi iddialarına başladılar. Lakin aparılan danışıqların nəticəsi olaraq Haskel Qarabağın və Zəngəzurun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdi. O, təklif etdi ki, İrəvan quberniyasının cənub hissəsində - Naxçıvan və Şərur-Dərələzdə ABŞ general-qubernatorluğu tərəfindən idarə olunan neytral zona yaradılsın.

Oktyabrın 24-də Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradıldığı elan edildi. Edmurd Delli qubernator təyin edildi. Lakin əhalinin etirazları ilə qarşılaşan qubernatorluq fəaliyyətə başlaya bilmədi.

Nəhayət, müttəfiqlər arasında aparılan danışıqlar nəticəsində Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması reallaşdı. Böyük Britaniyanın təşəbbüsü ilə 1920-ci ilin yanvarın 10-da Parisdə Sülh konfransının Ali Şurasının sessiyası çağırıldı. Böyük Britaniyanın xarici işlər naziri lord Kerzonun təklifi ilə qərar qəbul edildi: «*Müttəfiqlər və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində tanıyırlar»*.

Azərbaycanın müstəqilliyinin Paris sülh konfransı tərəfindən tanınması tarixi hadisə idi. Bundan sonra Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. ABŞ, Fransa, İngiltərə və İtaliya ilə Azərbaycanın iqtisadi əlaqələri genişləndi.

İmzalanmış müqaviləyə əsasən İran Azərbaycan Respublikasını de-yure tanıdı. Tehranda Azərbaycan səfirliyi, Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Ənzəlidə, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. Müxtəlif ölkələrdə diplomatik nümayəndəliklər təsis edildi.

Aprel işğalına qədər artıq Azərbaycan beynəlxalq əlaqələr sisteminə daxil oldu.

### 3.5.Azərbaycan dövlətçiliyinin təşəkkülü və möhkəmlənməsi. Azərbaycan parlamenti

Azərbaycan hökumətinin milli müstəqilliyin qorunub saxlanması yolundakı ən önəmli hərəkətlərindən biri də Denikinə qarşı mübarizə məsələsi idi. Denikinin hücumu ilə əlaqədar iyunun 13-də respublikada hərbi vəziyyət elan edildi. Iyunun 27-də Gürcüstan və Azərbaycan arasında Denikinə qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş imzalandı. Ermənistan isə sazişə qoşulmayaraq Denikinlə müqavilə bağlayıb Qarabağ və Dilican tərəfə qoşun yeritdi. Vəziyyəti bu cür görən ADR həmin istiqamətlərdə qoşun yerləşdirdi.

Azərbaycan respublikası qarşısında duran mühüm məsə lələrdən biri də Ermənistanla normal münasibətlər yaratmaq idi. Maraqlıdır ki, 1918-ci ilin mayında Ermənistan müstəqillik elan edəndə, hətta onun paytaxtı yox idi. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İrəvanı Ermənistana güzəştə getdi. Lakin Ermənistan respublikası ilk gündən yenidən ərazi iddialarına başladı. 1918-ci ilin yayında Andronik Zəngəzura basqın etdi. O, azərbaycanlı əhaliyə ultimatum göndərdi ki, «Ya Ermənistan Respublikasına tabe olsunlar, ya da Zəngəzurdan köçsünlər». Andronikin bandası kəndləri yandırır, dinc əhalini vəhşicəsinə öldürürdü. Mixaylovun Fövqəladə Komissiyyasının məlumatına görə, 1918-ci ilin yay və payızında Zəngəzurda 115 kənd dağıdılmış və məhv edilmişdi. Bu kəndlərdə 7.729 azərbaycanlı, o cümlədən 3.267 kişi, 2.276 qadın və 2.196 uşaq öldürülmüşdü. 50 min azərbaycanlı Zəngəzuru tərk etmişdi.

Gorusu tutan Andronik orada Azərbaycan əleyhinə mərkəz yaratmışdı. Andronikin dəstəsi 3 dəfə Zabur dairəsini keçib Şuşanı tutmaq istəmişdi. Daşnaqlar Şuşanı «Kiçik Ermənistan» ın paytaxtı etmək istəyirdi.

Nəhayət, 1919-cu ilin avqustunda Azərbaycan hökuməti ilə Dağlıq Qarabağ erməniləri arasında saziş əldə edildi. Azərbaycanın həmin ərazidə suverenliyi təsdiq edildi. 1919-cu il noyabrın 23- də Tiflisdə Azərbaycan və Ermənistan arasında saziş imzalandı. Sazişə görə hər iki tərəf arasında hərbi toqquşma dayandırılır, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi nəzərdə tutulurdu. Sazişə görə, Ermənistan Zəngəzurdan qoşunu çıxarmalı idi. Həm də qərara gəldilər ki, Azərbaycan-erməni konfransı çağırılsın.

1919-cu il dekabrın 14-də Bakıda belə konfrans çağırıldı və müsbət nəticə verdi. Lakin erməni ordusu sazişi pozdu.

1919-cu ilin yay və payızında bir sıra qərarlar - 21 iyulda «Azərbaycan Respublikası Milli Məclisinə seçkilər haqqında Əsasnamə», 11 avqustda «Azərbaycan vətəndaşlığı haqqında qanun», 30 oktyabrda «Mətbuat haqqında Əsasnamə» və s. qəbul edildi. Baki Dövlət Universiteti təsis edildi.

Azərbaycan dövlətçtliyinin möhkəmləndirilməsi yolunda atılan Ən mühüm addımlardan biri də Azərbaycan parlamentinin yaradılması oldu.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti işə başladı. Parlamentdə müsavatçılar, hümmətçilər, əhrarçılar, sosialistlər, slavyan-rus cəmiyyətləri nümayəndələri, daşnaqlar, azlıqda qalanlar və başqaları təmsil olunmuşdular.

Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə böyük təbrik nitqi söylədi. Ə.Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildilər. Parlamentin rəhbərliyi seçildikdən sonra müvəqqəti hökumətin başçısı F.Xoyski çıxış etdi. O, bu tarixi günə qiymət verərək nitqinə aşağıdakı sözlərlə başladı: «Bu gün öylə böyük və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görə bilməzdik». O, müvəqqəti

hökumətin fəaliyyəti dövründə görülmüş işlərdən bəhs edib, bütün hökumətin istefasını qəbul etməyi xahiş etdi.

Fətəli xan nitqini aşağıdakı sözlərlə bitirdi. «Hökumətin fəaliyyətində nə qədər qüsur və nöqsan olmuşsa da, yol göstərən işıqlı yıldızı bu olmuşdu: Millətin hüququ, istiqlalı və xeyiri!».

Parlament istefanı qəbul edərək yeni hökumətin təşkilini yenidən F.Xoyskiyə tapşırdı.

Parlament dövrün mühüm məsələlərindən olan Paris sülh konfransına nümayəndəlik göndərilməsini həll etdi. Əlimərdan bəy Topçubaşovun başçılıq edəcəyi nümayəndə heyətinə parlamentdə təmsil edilən bütün partiyaların və bitərəflərin nümayəndələri daxil oldu.

## 3.6. Azərbaycan ordusu

Azərbaycan imperiyanın Şərq ölkələri ilə həmsərhəd idi və Azərbaycanı onlarla maddi-mənəvi tellər bağlayırdı. Burada mərkəzdənqaçma meylləri güclü olduğundan çarizm onlara etibar etmir və yerli müsəlman əhali orduya çağırılmırdı. Bu səbəbdən də, qonşu erməni və gürcülərdən fərqli olaraq Azərbaycanda zabit kadrları və əsgərlər çatışmırdı. Azərbaycan ərazisində əhəmiyyətli cəbhəxana da yox idi.

Cəbhəni tərk etmiş rus qoşunlarının yerini tutan erməni və qismən gürcü hərbi hissələri Osmanlı qoşunlarının təsiri altında geri çəkilərkən Azərbaycan əhalisindən qisas alırdılar. Milli müdafiə dəstələrinin yaradılmasının qarşısı alınırdı. Nəticədə, 1918-ci ilin mart soyqırımında azərbaycanlılar əliyalın qaldılar.



**Ə.Şıxlinski**

Məlumdur ki, 1917-ci ilin mayında toplanmış Qafqaz müsəlmanları qurultayı bir sıra qərarlarla yanaşı, müsəlman alayları yaratmaq haqqında da qərar qəbul etdi. Artıq noyabr ayında Zaqafqaziya komissarlığı milli hərbi komissarlıq yaradılması haqqında qərar verdi. Ilin sonunda artıq 3 korpus-piyada diviziyası,

süvari briqadası və ərazi polkları var idi. Azərbaycan korpusunu təşkil etmək general Ə. Şıxlınskiyə tapşırılmışdı.

Bildiyimiz kimi, ADR-in yaranma sından az sonra Bakı Soveti qoşunları Gəncə üzərinə hücuma hazırlaşırdı. Azərbaycan isə 600 nəfərlik hərbi hissəyə malik idi. Yaranmış vəziyyətdə kömək edəcək yeganə qüvvə Türkiyə idi. Bu səbəbdən də, Seymin müsəlman fraksiyası Şərq Cəbhəsi ko mandanı Vəhib paşadan kömək istədi. Vəhib paşa dəfələrlə Zaqafqaziya qoşunlarına komandanlıq edən Odişelidze və general Prijevalskidən müsəlman əhaliyə qarşı cinayətlərə son qoyulmasını xahiş etsə də, nəticə olmamışdı.

May ayında Türkiyənin hərbi naziri Ənvər paşa öz qardaşı Nuru Paşaya Gəncəyə hərəkət etmək barədə əmr verdi. Ayın sonunda o, Azərbaycana təlimatçılar heyəti ilə birlikdə gəldi və hərbi quruculuq sahəsindəki işlər onu qane etmədi. İyun ayında Azərbaycanda hərbi vəziyyət elan edildi. Müsəlman korpusu «*Əlahiddə Azərbaycan korpusu*» adlandırıldı. Qısa müddətli kurslar açıldı. Hərbi mükəlləfiyyət haqqında fərman verildi. Bütün bunlara baxmayaraq, Xoyski Türkiyədən bir diviziya həcmində real yardım istədi. Bağlanmış müqavilənin IV bəndinə əsasən Osmanlı dövləti yardım etməyi öhdəsinə götürdü. Köməyə göndərilən V Qafqaz diviziyası almanların müqaviməti üzündən Gəncəyə bir az gec gəldi. Diviziyanın komandiri Mürsəl paşa idi. Sonra Karpat cəbhəsindən göürülmüş XV Çanaqqala diviziyası (komandiri - Nazim bəy) Gəncəyə yetişdi. Hərbi hissələr Qafqaz İslam Ordusu adı altında birləşdilər. Ordu Nuru paşanın komandanlğı altında GÖYÇAY ətra fında döyüşə girdi.

Göyçay döyüşündən sonra Bakı soveti silahlı qüvvələri geri çəkilməyə başladılar. Kürdəmir cəbhəsinə göndərilən 1.500 nəfərlik Biçeraxovun komandası altında olan polklar da cəbhəni saxlaya bilmədi. Şaumyanın xahişinə görə Ukrayna cəbhəsindən Petrovun komandası altında bir eskadron süvari, bir bölük dənizçi və topxanadan ibarət qoşun, Həştərxandan 8 yelkənli

gəmi ilə hərbi ləvazimat göndərildi, lakin bu qüvvələr də Qafqaz İslam Ordusunun qarşısını ala bilmədi.

İyulun sonunda Şaumyan istefa verdi. Bakıdakı «Sentrokaspi diktaturası» Ənzəlidən Denstervilin başçılığı ilə 1,5 min əsgər və zabit dəvət etdi. Bu da *Qafqaz İslam Ordusunun* qarşısında dayana bilmədi. Sentyabrın 15-də, Qurban bayramı günlərində Azərbaycan hissələri Bakıya daxil oldu. Bakı uğrunda döyüşlərdə 1.000-dən çox türk əsgər və zabiti, 5 mindən artıq yerli əhali şəhid oldu.

Lakin Türkiyə dünya müharibəsində məğlub olduğundan Mudros barışığına əsasən qoşunlar bir həftə ərzində Bakıdan, bir ay ərzində isə Qafqazdan geri çəkilməli oldu. Müttəfiq qoşunları noyabrın 17-də Bakıya daxil oldular.

Bakını «rus şəhəri» hesab edən Tomson, Biçeraxov və daşnaq dəstələri işğal rejimi yaratdılar. Tomson özünü Bakının general-qubernatoru elan etdi. Biçeraxov isə özünün «Qafqaz-Xəzər hökuməti» ni yaratdı. Noyabrın 22-də Tomsonun tələbi ilə Azərbaycan korpusunun qərargahı Gəncəyə köçürüldü. S. Mehmandarov hərbi nazir, Ə.Şıxlınski müavin təyin edildi. İntendant mühəndis, növbətçi general, general-kvartir meyster, artilleriya, hərbi-təlim, topoqrafiya və nəzarət şöbələrin dən ibarət ordu yenidən təşkil olundu.


**S.Mehmandarov**

1919-cu il üçün nəzərdə tutulmuş dövlət büdcəsindən ordu üçün 3.994 milyon manat ayrıldı. Əlbəttə, bu azlıq təşkil edirdi.

Oktyabrda Azərbaycan Milli ordusu polkovnik Cavad Şıxlınskinin komandanlığı altında Zəngəzurda erməni milli hissə lərinə qarşı hərbi əməliyyata başladı. Ermənilərin Dığ kəndi rayo nundakı istehkamları mühasirəyə alındı. İngilislərin işə qarışması ilə hücum dayandırıldı. Noyabrın 23-də erməni hissələri Zəngəzuru tərk etdilər.

Bundan bir qədər əvvəl, iyul ayında Azərbaycan Ordusu Muğan düzü və Lənkəran qəzasında da erməni qüvvələrinə qarşı vuruşmuşdu. General Səlimovun başçılığı ilə 14 min nəfərlik iki alay polkovnik İlyaseviçin hərbi dəstələrini ləvğ etmişdi. Muğan və Lənkəran Azərbaycana qaytarılmışdı. Qənimət kimi ələ keçirilmiş 24 top və plemyot milli orduya verilmişdi.

1919-cu ilin sonlarına doğru Azərbaycan ordusunda iki piyada və bir süvari diviziya var idi. Birinci piyada diviziyası Gəncədə (rəsi C.Şıxlinski idi), ikinci piyada diviziyası isə Bakıda yerləşirdi.

Süvari diviziyanın qərargahı Gəncədə yerləşirdi. Diviziyanın rəisi general-mayor Teymur Novruzov idi. Gəncədə, həmçinin 1 və 2 artilleriya briqadaları yerləşdirilmişdi, yüngül toplara malik xüsusi divizion formalaşdırılmışdı. Yaranmaqda olan hərbi hissələri zabit kadrlarla təmin etmək üçün Gəncədəki hərbi məktəb Bakıya köçürülmüşdü. Şuşada hərbi feldşer məktəbi, hərbi dəmir yolu məktəbi təsis edilmişdi.

1920-ci ildə ordunun şəxsi heyətinin sayının 40 minə çatdırılması planlaşdırılmışdı. Lakin ordunun silahı az idi. Azər baycan hökuməti Fransa, Polşa, İngiltərə nümayəndələrinə müraciət etsə də, silah almaq baş tutmamışdı. İtaliya isə Azərbaycana avtomobil, aeroplan, projektor, odeyal və yataq dəstələri satmışdı.

1920-ci ilin əvvəllərində milli ordunun 3 zirehli qatarı, 4 hərbi təyyarəsi, 6 zirehli avtomobili, 2 hərbi gəmisi var idi.

1920-ci ilin əvvəllərində - Novruz bayramı ərəfəsində ermənilər Xan kəndinə hücum etdilər. 16 zabit, xeyli əsgər şəhid oldu. Qarnizon rəisi general Qacar tezliklə müdafiəni təşkil edərək erməni dəstələrini Xan kəndindən kənara atdı. Lakin ermənilər Əsgəranı ələ keçirə bildilər. Qarabağ süvari alayı, Cavanşir piyada alayı, artilleriya batareyası mühasirəyə alındı.

Əsgəranı geri almaq üçün general Həbib Səlimovun komandanlığı altında hərbi hissələr Qarabağa göndərildi, döyüşlərin gedişində erməni hərbi dəstələrinin başçısı Dəli Qacar

öldürüldü. Keşişkənd uğrunda döyüşlərdə Azərbaycan ordusu qələbə çaldı.

Qarabağ qiyamı yatırıldıqdan sonra ermənilər Dilican və Zəngəzura qoşun yeritdirlər. Bu hadisələrin parlamentdə müzakirəsində Ə.Qarayev Qızıl Ordunun dəvət edilməsini təklif etdi. Komandanlıq Antanta ölkələrinin xəbərdarlıq notasına əhəmiyyət verməyərək Samur çayı istiqamətindəki qoşun hissələrini də Azərbaycanın qərbinə yeritdi. Ermənistan hökuməti aprelin 26-da barışıq təklif etdi.

Nəhayət, 72 minlik XI Qızıl Ordunun zirehli qatarlar qrupu aprelin 26-dan 27-ə keçən gecə Azərbaycan sərhəddini keçib Bakı üzərinə hücum etdi. Azərbaycan Ordusunun kiçik dəstələri Qızıl Ordunun qarşısını ala bilmədi.

### 3.7. İstiqlalımızın qənimləri. ADR - in süqutu

Azərbaycanın milli dirçəlişi və müstəqil dövlət qurumunun yaranması tarixi hadisə idi. ADR dövründə xal  qımız dinclik tapdı, erməni hüücumlarının qarşısı alındı.

Lakin Müstəqil Azərbaycan Cümhuriyyətinin dirçəlişi düşmənlərimizin sakitliyini pozmuşdu. Rusiya Azərbaycanın müstəqilliyini tanımaq istəmirdi. Hər cür fitnəkarlıq, təxribat baş qaldırmışdı. Mərkəz (Moskva) - Stalin və Mikoyan, Kirov və Orconikidzenin vasitəsilə planlar hazırlayırdı. Bu planda əsas yeri Azərbaycanı Türkiyədən uzaqlaşdırmaq, azərbaycanlı bolşevikləri öz tərəfinə çəkmək, milli şüuru tam yetişməyən kütlələri ələ almaq xüsusi yer tuturdu. Bunun üçün onlar dəridən qabıqdan çıxır, «Müsavat» ın simasında düşmən obrazı yaratmağa çalışırdılar.

Yeni yaradılmış Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərdən qorxuya düşən Orconikidze 1918-ci il oktyabrın 12-də V.İ.Leninə göndərdiyi teleqramda yazırdı: «Azərbaycan Respublikasının hökuməti başda Xan Xoyski olmaqla yalnız mülkədarlardan ibarətdir. Türkiyə sultanının bütün ən pis

qaydalarını bərpa etməli olan Türkiyə rejimi tatarların hökumətə və türklərə qarşı üsyanına səbəb olmuşdur».

Teleqramdakı eyhamlar aydın idi. Türk hərbi hissələrinin Azərbaycan xalqının köməyinə gəlməsi, daşnaq hissələrinin ərazimizdən qovulması mərkəzi və onun Azərbaycandakı emissarlarını narahat etməyə bilməzdi. Yeni hökumətin Moskvadakı züytutanları, o cümlədən mətbuat orqanları təxribat xarakterli yazılar dərc edir, türkləri əhalinin gözündən salmağa cəhd göstərirdilər. Stalinin nəzarəti altında çıxan «*Jizni naüionalğnostey*» qəzeti bu sahədə daha fəal idi. Stalin özü də Qafqazın işğalına rəvac verirdi. O, 1918-ci il 31 avqust tarixli məktubunda yazırdı: «Cənub və Xəzər uğrunda mübarizə gedir. Bakı, Türküstan, Şimali Qafqaz bizim olacaq».



**İstiqlalımızın qənimləri S.M.Kirov və S.Orconikidze**

Müsavat hökumətinin düşmənləri 1918-ci ilin dekabrında fəhlə konfransının qərarı ilə bir qrup fəhləni ümumi siyasi tətilə qaldırmağa müvəffəq oldular. Qazax, Gəncə və Lənkəranda bir qrup kəndli «Müsavat”» a qarşı çıxdı. Bu hadisədən ilhamlanan Mikoyan Kirov vasitəsi ilə mərkəzə xəbər çatdırdı.

Azərbaycanın istiqlalını görmək istəməyənlərin önündə Mikoyan gedirdi. O, N. Nərimanova qarşı nəzakətli davranaraq özünü üzdə dost kimi göstərir, həqiqətdə isə çirkin niyyətini həyata keçirmək üçün fürsət gözləyirdi. Mikoyan və Kirov 1918-ci ilin dekabrında Bakıda yaradılmış mərkəzi fəhlə konfransının işinin fəallaşdırılmasına hər vasitə ilə yardım göstərirdilər. Mikoyan hiyləgərliklə həmin konfransı «bir növ deputatlar soveti» adlandırırdı.

1919-cu ilin mayın əvvəlində Mikoyanın rəhbərliyi ilə keçirilən Ümumbakı partiya konfransı «Müstəqil Sovet Azərbaycanı» şüarını Azərbaycan kommunist təşkilatlarının

növbəti vəzifəsi kimi qəbul etdi. 1919-cu il mayın 22-də Mikoyan RK (b) P MK-ya və Leninə yazırdı: «Bakı təşkilatı ölkə komitəsi ilə birlikdə Azərbaycanda hakimiyyətin ələ alınmasını partiyanın növbəti vəzifəsi kimi qarşıya qoyur. Bunun üçün geniş siyasi və hərbi hazırlıq görürük. Artıq Azərbaycanın müxtəlif guşələrində dayaq bazalarımız vardır. Burada bizim yoldaşlar çalışır və rəhbərlik edirlər»".

Azərbaycan Cümhuriyyətinin düşmənləri olan Mikoyan-Kirov-Orconikidze üçlüyü bir an da olsa, fitnəkar hərəkətlərini dayandırmırdılar. Məsələn, Kirov 1919-cu il iyulun əvvəllərində RK (b) P MK-ya göndərdiyi məktubunda yazırdı: «Məlumat üçün bildirirəm ki, mən bu müddətdə, yəni Bakı ilə əlaqə yaradılandan bəri oraya bərabər hissələrlə 4 milyon manat pul göndərmişəm. Amma qorxuram ki, bu pulun iki həftə bundan əvvəl göndərilən axırıncı milyon manatı muğanlıların əlinə keçsin. Çünki burada dünən məlum oldu ki, Muğanda çevriliş əmələ gəlmişdir"». 4 milyon manatın qanuni hökuməti yıxmaq üçün sərf ediləcəyi məlumdur. Təəccüblü odur ki, Kirov yoldaş" «bu dəfə əzabkeş erməniləri yaddan çıxarmışdı», onlara vəsait göndərməmişdi.

Bununla iş bitmirdi. Mərkəz Azərbaycana silah göndərir, silahlar qiyamçı əhval-ruhiyyəli adamlara paylanırdı. Türküstan cəbhəsindən Bakıya gizli olaraq 8 min nəfər üçün silah və hərbi sursat, Həştərxandan isə 1.600 tüfəng, 17 pulemyot göndərilmişdi. Artıq 1920-ci ilin yanvarında Kirov MK-ya bildirirdi ki, «Bakılı yol daşlar» güclü surətdə silahlanmaqla məşğuldurlar və işin müvəffəqiyyətlə qurtaracağına ümid bəsləyərək çıxışa hazırlaşırlar».

1920-ci ilin martında Qızıl Ordu hissələri Dərbəndə toplaşaraq üsyana hazırlaşanda Lenin Orconikidzeyə göndərdiyi 17 mart tarixli teleqramda tələb edirdi ki, «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin. Qüvvələr yeridilməsi haqqında baş komandanlıqla razılaşın».

Ümumiyyətlə, S.M.Kirov, Mikoyan və Q.Orconikidze Azərbaycanın müstəqilliyinə qarşı çıxaraq Azərbaycan Respub likasının paytaxtını Gəncəyə köçürmək, Bakını Ümumrusiya mərkəzi kimi RSFSR-ə tabe etmək təklifini irəli sürmüşdü. Bakı partiya təşki latının bir qrup rəhbər işçisi - Sarkis Danilyan, Mikoyan, Mirzoyan, S.Tutin, M.Kaxiani, V. Yeqorov və başqaları N.Nərimanova qarşı çıxırdılar.

Qeyd edildiyi kimi, RSFSR Azərbaycan Demokratik Respub likasını tanımaqdan imtina etmişdi və Dərbənd rayonunda Qızıl Ordu hissələrini cəmləşdirməyə başlamışdı. Bununla əlaqədar Fətəli xan Xoyski aprelin 15-də Çiçerinə göndərdiyi sonuncu notası ilə bu rayonda Ordu hissələrinin cəmləşməsinin səbəbini öyrənmək istəsə də, nota cavabsız qalmışdı.

Y.Kvantalioninin başçılığı ilə AK (b) P nümayəndələri aprel ayında Petrovsk şəhərinə gedərək gələcək silahlı üsyanla XI Ordunun hərəkətini uyğunlaşdırmaq barədə Orconikidze ilə danışmış, silahlı üsyanın başlanmasından 24 saat sonra XI Ordunun Azərbaycan sərhəddini keçməsi qərarlaşdırılmışdı.

Aprel ayının 26-dan 27-ə keçən gecə başda «III İnternasional"» olmaqla zirehli qatarlar qrupu Samur çayını keçib, cənuba doğru irəliləməyə başladı. Sərhəd qüvvələrindən ibarət Azərbaycan ordusu müqavimət göstərə bilmədi. Hərbi nazirin müavini, general Şıxlınski isə dəmir yolunun partladılması əmrini ləvğ etdi. Saat 12-də Azərbaycan K(b) P MK, RK (b) P Qafqaz diyar komitəsinin Bakı bürosu və fəhlə konfransı adından Azərbaycan parlamentinə hakimiyyətin təhvili haqqında ultimatum verildi. M.Ə.Rəsulzadə və Ş.Rüstəmbəyovun kəskin etirazına baxmayaraq parlamentin əksəriyəti hakimiyyətin bolşeviklərə verilməsini qərara aldılar. Bu tarixi iclasda iştirak etmiş M. Ə. Rəsulzadənin yazdığına görə hakimiyyəti ələ alan bolşeviklər aşağıdakı şərtlərə əməl edəcəklərini bildirmişdilər:

1. Rus ordusu Bakıya girmədən dəmir yolu ilə birbaşa Türkiyənin köməyinə gedəcək;

2. Azərbaycanın istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və anneksiyadan (məhrumiyyətdən, ilhaqdan, köləlikdən) qorunacaq;

3. Azərbaycan ordusu olduğu kimi qalıb buraxılmayacaq;

4. Azərbaycan siyasi partiyaları hürriyyət və sərbəstliyini mühafizə edəcək;

5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç bir kəs siyasi cinayətdə ittiham edilməyəcək;

6. Azad şəraitdə toplanacaq Azərbaycan şuraları hökumətin idarə şəklini təyin edəcək;

1920-ci il aprel ayının 27-də axşam saat 11-də Azərbaycan parlamenti hakimiyyətin təhvil verilməsi haqqında qərar qəbul etdi.

Beləliklə, 23 ay davam edən ADR hökumətinin fəaliyyəti dayandırıldı.

Bolşeviklər sürətlə ölkəyə soxuldular. Azərbaycan zirehli qatarları geri çəkilməyə başladılar. Onların bəzisi, xüsusən poruçik Kavtaradzenin rəisi olduğu qatar topları nasaz olduğu üçün atəş aça bilmədilər. Diqqəti çəkən o idi ki, Bakıya daxil olan əsgərlər müxtəlif zümrələrdən olub ac-yalavac idi, üst-başları tökülmüşdü. Onlar öncə hərbi anbarları dağıtdılar. İtaliyadan alınmış 35.000 dəst hərbi geyim zəbt olundu, silah və sursat qarət edildi. Bakının Bayıl hissəsində yerləşən 6-cı Göyçay polkunun batalyonlarından biri bu hadisədən xəbər tutan kimi, hərbi geyimləri əsgərlərə paylamaq istəsələr də, hərbi və dəniz işləri üzrə komissar təyin olunmuş Çingiz İldırımın göstərişi ilə geyimlər «Qızıl Ordu»ya verildi. Qırmızı ordu müqavimətə rast gəlmədən Gürcüstana doğru irəliləməyə başladı.

ADR-nın tarixdə öz yeri var. Bu respublika Azərbaycan xalqının azad xalqlar sırasında yer tutmağa layiq olduğunu təsdiq etdi. Ən başlıcası isə, M.Ə. Rəsulzadənin dediyi kimi, xalq milli azadlığın nə olduğunu bildi, milli istiqlal daddı.

Bu gün hər bir azərbaycanlı xalqımızın ölümsüz lideri, siyasi və ictimai xadim, alim, publisist, insanlara hürriyyət,

millətlərə istiqlal, son nəfəsində 3 dəfə «Azərbaycan» deyərək gözlərini yuman M.Ə.Rəsulzadəni hörmətlə yad edir.

ADR-in elan edilməsi, onun iki illik hakimiyyəti dövrü bir sıra səciyyəvi cəhətlərinə görə milli tariximiz üçün əhəmiyyətlidir.

*Birincisi,* ADR-i yaradan şəxslər Azərbaycan millətinin şərəfini xilas etdilər. Yuxarıda qeyd olunduğu kimi, mövcud şəraitin tələbinə görə milli liderlərimiz ya müstəqilliyi elan edib milli dövlət yaratmalı, ya da kiminsə müstəmləkəsinə çevrilməli idilər. İkinci halda Azərbaycan torpaqları bölüşdürüləcək, Azərbaycan adlı məmləkət xəritədən silinəcəkdi.

*İkincisi,* milli dövlət kimi yaradılmış ADR qısa vaxtda dövlət rəmzlərini, parlamentini, ordusunu və pul vahidini yaratdı.

*Üçüncüsü,* ADR yeni yaranmış milli respublikalar içərisində ən demokratik respublika idi. Azərbaycan respublikasında bütün xalqlar və bütün siyasi partiyalar parlamentdə təmsil olunmuşdu.

*Dördüncü,* Azərbaycan Cümhuriyyəti ənənəvi tarixi milli ərazilərimizə sahib durdu. Onun mübahisəsiz ərazisi 97. 297. 67 kv. km., mübahisəli əraziləri ilə birlikdə 113. 895, 97 kv. km idi.

*Beşincisi,* ən çətin dövrdə yaranmasına və mövcud olmasına baxmayaraq Azərbaycan Cümhuriyyəti varlığı dövründə milli sərvətlərə sahib durdu.

*Altıncısı,* Azərbaycan Cümhuriyyətinin elan edilməsi ilə ADR beynəlxalq hüququn subyektinə çevrildi.

### 3.8. Azərbaycan Cümhuriyyətinin qurucuları (M.Ə.Rəsulzadə, F.Xoyski, N.Yusifbəyli, Ə. Topçubaşov və b.)

**M.Ə.Rəsulzadə (1884-1955).** Görkəmli ədib, siyasi və ictimai xadim Məmməd Əmin Ağa oğlu Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdu. Əvvəl rus-müsəlman, sonra isə Bakı texniki məktəbində təhsil almışdı. İlk ədəbi əsəri olan «Müxəmməs» şeri «Şərqi-rus» qəzetində çap olunmuşdu. M.Ə.Rəsulzadə 1904-cü ildə əsası qoyulan

müsəlman sosial-demokrat təşkilatı «Hümmət»in banilə rindən biridir. 1904-1905-ci illərdə «Hümmət», sonra isə «Təkamül» və «Yoldaş» ı (1906 - 1907) nəşr etmişdi. Onun, həmçinin «Həyat», «İrşad» qəzetində və «Füyüzat» jurnalında məqalələri çap olunmuşdu.

1908-ci il dekabrın 5-də «Qaranlıqda işıqlar» dram əsəri tamaşaya qoyulmuşdu.


**M.Ə.Rəsulzadə**

1909-cu ildə Səttarxanın rəhbərliyi altında gedən milli-azadlıq mübarizəsinə kömək üçün Cənubi Azərbaycana gedən M.Ə.Rəsulzadə Tehranda bir qrup Avropa təhsili görmüş iranlı ilə birlikdə 1910-cu ildə İran Demokrat Partiyasının əsasını qoymuş və «İrane nou» (Yeni İran) qəzetinin redaktoru işləmişdi.

1910-cu ildə İranda mürtəce «Etidaliyyun» (Mötədillər) partiyasının təşkili ilə əlaqədar fars dilində «Tənqidi-firqeyi-e fidaliyyün» əsəri, 1911-ci ildə Ərdəbildə farsca «Səadəti-bəşər» kitabı nəşr olunmuşdu.

M.Ə.Rəsulzadə 1911-ci ildə çar qoşunlarının İrana daxil olması səbəbli İstanbula getmiş, «Türk yurdu» jurnalının təsisində iştirak etmiş (1911), jurnalda bir neçə məqaləsi çap olunmuşdu.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilən əfvdən sonra Rəsulzadə Azərbaycana qayıdır, «Müsavat» partiyasına daxil olur və onun rəhbərlərindən birinə çevrilir.

Məmməd Əmin 1914-cü ildə M. Qorkinin «Ana» romanından bir hissəni Azərbaycan dilinə tərcümə edir. Həmçinin, 1914-cü ildən çıxmağa başlayan «Dirilik» jurnalında «Milli-dirilik» adlı silsilə məqalələrlə çıxış edir.

M.Ə.Rəsulzadə öz yazılarında müsəlman, türk, tatar anlayışları yerinə «Azərbaycan» və «azərbaycanlı» anlayışlarını işlədirdi. O, hələ 1911-ci ildə İstanbulda «Türk yurdu»”

jurnalında çap etdirdiyi «İran türkləri» məqaləsində Qafqazın tərkibində Azərbaycanın mövcud olduğunu qeyd etmişdi. Böyük ədib yazırdı ki, «… milli istiqlal məfkurəsi milli mənliyini dərk etmiş, mədəniyyətcə inkişaf etmiş millətlərdən doğar».

M.Rəsulzadə 1915-ci ilin avqustun 2-dən «Açıq söz» qəzetini nəşr etdirməyə başlamışdı.

1917-ci ilin aprelində Bakıda Qafqaz, may ayında isə Moskvada Rusiya müsəlmanlarının qurultayı çağırılır. Qurultaylar Rəsulzadənin təklifi ilə Rusiyanı federativ şəkildə qurmaq haqqında qərar qəbul edir.

Məlumdur ki, 1917-ci ilin iyununda «Müsavat» partiyası ilə N. Yusifbəylinin (1881-1920) yaratdığı «Türk ədəmi-mərkəziyyət» partiyası birləşdi. Partiyanın Bakıda keçirilən I qurultayında Rəsulzadə MK sədri seçildi.

M.Ə.Rəsulzadənin «Azərbaycan ideyası və Azərbaycana muxtariyyat» şüarı İranda hay-küyə səbəb olmuşdu. Başda Məlikişüara Bahar olmaqla paniranistlər «İran» qəzetində Rəsulzadəyə etiraz etmişdilər. Rəsulzadə isə «Açıq söz»” qəzetində bir neçə məqalə ilə onlara cavab vermişdi.

1918-ci il mayın 26-da daxili çəkişmələrin nəticəsi olaraq Zaqafqaziya Seymi buraxıldı. Mayın 27-də Azərbaycan Milli Şurası yarandı. Rəsulzadə sədr seçildi. Mayın 28-də isə Azərbaycanın istiqlaliyyəti elan olundu. Bitərəf F. Xoyskinin başçılığı ilə ADR-in ilk hökuməti təşkil olundu. ADR türk dilli xalqlar arasında, həmçinin bütün islam aləmində yeganə respublika üsul-idarəsi idi.

BDU-nun yaranmasında Rəsulzadənin böyük xidmətləri olmuşdu. O, tarix-filologiya fakültəsində «Osmanlı ədəbiyyatı tarixi» ndən dərs demişdi. 20-ci ilin əvvəllərində «Azərbaycanın təşkilində «Müsavat» adlı kitabı işıq üzü görmüşdü.

M.Ə.Rəsulzadə 1920-ci il avqustun 17-də Lahıcda həbsə alınmışdı. İ. Stalin 1905-ci ildə onu ölümdən qurtaran Rəsulzadəni həbs dən buraxdırmış, onu özü ilə Moskvaya aparmış, PSFSR Millətlər Komissarlığında mətbuat müvəkkili

vəzifəsinə təyin etmişdi. 1922-ci ilin payızında Skandinaviya ölkələrinə ezamiyyətə göndərilən Rəsulzadə geri qayıtmamışdı.

1923-cü ildə M.Ə.Rəsulzadənin «Əsrimizin Səyavuşu», «Azərbaycan Respublikasının keçmişi. Təşəkkülü və indiki vəziyyət» adlı kitabları nəşr edilmişdi. Həmin ildən onun redaktorluğu ilə «Yeni Qafqasya» jurnalı nəşr olunmağa başlamışdı.

M.Ə.Rəsulzadənin redaktorluğu ilə 1928-1931-ci illərdə «Azəri türkü», 1929-1930- cu illərdə həftəlik «Bildiriş» qəzeti nəşr olunmuş, 1930-cu ildə onun Parisdə fransızca «Azərbaycan və istiqlaliyyət», rusca «Qafqaz problemi ilə əlaqədar pantürkizm» kitabları işıq üzü görmüş, 1932-1934-cü illərdə onun redaktorluğu ilə Berlində «İstiqlal» qəzeti, 1934-1938-ci illərdə «Qurtuluş» jurnalı çap olunmuşdu. 1933-ci ildə Berlində M.Ə.Rəsulzadənin «Azərbaycan respublikası haqqında bəzi qeydlər» kitabı nəşr edilmişdi.

M.Ə.Rəsulzadə 1938-ci ildə Polşa hökumətində məsləhətçi işləyir. 1940-cı ildə Rumıniyada yaşayır. İkinci Dünya müharibəsi illərində Berlində Azərbaycanın müstəqilliyinin tanınması sahəsində əməli işlər görür. 1947-ci ildə Ankaraya köçən Rəsulzadənin «Azərbaycanın kültür kələnəkləri» (1947), «Çağdaş Azərbaycan ədəbiyyatı» (1950), «Çağdaş Azərbaycan tarixi» (1951), «Azərbaycan şairi Nizami» (1951) kitablaı çap olunur.

M.Ə.Rəsulzadə Bakını çox sevirdi. O yazırdı: «Bakı Azərbaycanın Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa Azərbaycanın həyatına qəsd etmişdir». Bakısız Azərbaycanı təsəvvür etməyən böyük ədib yazırdı: «Bakı tarixində halən də bir türk şəhəri və müsəlman bələdəsidir (şəhəridir). İstiqbalən də öylə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir…

Türkiyə üçün İstanbul, Almaniya üçün Berlin, Rusiya üçün Moskva nə isə, Azərbaycan üçün isə Bakı … da odur». Ancaq zaman, bədniyyətli insanlar böyük öndərin doğma vətəndə

ölümünə imkan vermədilər. M.Ə.Rəsulzadə 1955-ci il martın 6-da Ankarada vəfat etmişdir. Ailəsi Qazaxıstana sürgün edilmişdi.

Tehranda nəşr olunan «Keyhani-Həvayi» qəzeti M.Ə.Rəsulzadə haqqında yazmışdı: «Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyəti kimi tərif ediblər. Məlumatı çox, istiqlalda (nəticə çıxarmaqda) qüdrətli, hövsələli və hər məsələdən intiqad edəndə (danışanda) insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə də yalan danışmamışdır. Həmişə sabitqədəm olmuş və heç vaxt acıqlanmaz idi, heç vaxt mübaliğə etməz idi. Xalq məfkurələrini aydınlaşdırmaqda, yəni ruznaməçilik yaratmaqda və başqa xidmət lərdə, o cümlədən məşrutə inqilabına etdiyi yardımla yaddan çıxan bir şey deyildir».

Tarixi şəxsiyyətləri məddahlar, yaltaqlar deyil, xalq, zaman, Tanrı yaşadır. İstiqlal məfkurəmizin və milli dövlətçiliyimizin fədaisi M.Ə.Rəsulzadənin məzarı önünə gələn, gəncəli mühacir şair Kərim Yayçı aşağıdakı sətirləri yazmışdı:

Yaşatmazdı qəlblərdə ümidsizlik və məlal,
Onun məfkurəsiydi Haqq, Müsavat, İstiqlal!
Sar köksünə Ankara yurdumun ziynətini,
Günü gəlincə istər səndən əmanətini.
Şükranını sünarkən bir gün hörmətlə sənə,
O gəmiklər gedəcək, gedəcək o vətənə!
Saxla qoynunda onu vermə yabanı ələ,
Bir hədiyyə olacaq yurdumdakı heykələ!

**Fətəli xan Xoyski (1875-1920).** Fətəli xan İsgəndər oğlu Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdu. Atası rus ordusunun general-leytenantı idi. F. Xoyskinin əsli-nəsli Cənubi Azərbaycanın Xoy şəhərin dəndir. Ulu babası Xoy xanı Cəfərqulu xan İran şahı



**Fətəli xan Xoyski**

Fətəli xanla müharibədə məğlub olduqdan sonra 20 minlik qoşunla Eçmədzinə (3 kilsə) sığınmışdı. O, 1803-1806-cı illər rus-İran müharibələri dövründə rus qoşunlarına qoşulmuşdu. I Aleksandr tərəfindən bahalı brilyantlarla bəzədilmiş qızıl medal və lələklə təltif edilmişdi. 1807-ci ildə Şəki xanı təyin edilən Cəfərqulu xana general-leytenant rütbəsi verilmişdi.

Cəfərqulu xan 1810-cu ildə vəfat etmişdi. Ondan sonra oğlu İsmayıl Şəki xanı olmuşdu. 1819-cu ildə İsmayıl xan ölmüş, Şəki xanlığı ləvğ olunmuş və Rusiyanın tərkibinə qatılmışdı.

Fətəli xan Xoyski Gəncə klassik gimnaziyasını, 1901-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdi. Gəncə, Suxum, Batum və Kutais dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmiş, 1907-ci ildə Yekaterinador dairə məhkəməsinə prokuror təyin edilmişdi. Yelizavetpol quberniyasından II Dövlət Dumasına deputat seçilmişdi. O, kadet partiyasının üzvü olsa da, müsəlman fraksiyasına daxil idi.

Müxtəlif illərdə Bakı və Gəncə dairə məhkəmələrində işkəsmək üzrə andçı - müvəkkil vəzifəsini icra edən Fətəli xan 1917-ci il fevral inqilabından sonra martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcariyyə Komitəsinin üzvü seçilmişdi. Apreldə çağırılan Qafqaz müsəlmanlarının qurultayının iştirakçısı olmuşdu.

Fətəli xan Xoyski 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının ədliyyə naziri olmuşdu. O, ADR-nin üç hökumətinə başçılıq etmişdi. BDU-nun yaranmasının təşəbbüsçüsü olmuş, onun dövründə Gəncənin adı özünə qaytarılmış, Qaryağin Cəbrayıl adlandırılmış, pul və poçt markaları buraxılmış, ana dilində məktəb və seminariyalar açılmışdı. F. Xoyski N. Yusifbəylinin 1919-cu il dekabrın 23-də təşkil etdiyi V hökumət kabinəsində xarici işlər naziri vəzifəsini icra etmişdi. Azərbaycanın beynəlxalq aləmdə tanınmasında F. Xoyskinin xidmətləri böyük olub. O, dəfələrlə Çiçerinlə məktublaşaraq Azərbaycanın müstəqilliyini qorumuşdu.

XI Ordu Bakıya yaxınlaşdıqdan sonra Fətəli xan öz ailəsi ilə Tiflisə getmişdi. 1920-ci il iyunun 19-da Tiflisdə *Ərzurumlu iki terrorçu Aram Erkanyan və Mişaq Qriqoryan adlı erməni qatillərinin* gülləsi ilə öldürülmüşdü. M.F.Axundovun qəbri yanında dəfn olunmuşdu.

Fətəli xanın ailəsinin taleyi də faciəli olmuşdu. Atası İsgəndər bəyin 5 övladı olmuşdu. Rus ordusunun general leytenantı, Yelizavetpol quberniyası dumasının deputatı İsgəndər İsmayıl oğlu Xoyski beş uşaqdan ikisini-böyük oğlu Cahangiri və qızı Tutubəyimi Gəncədə dəfn etmişdi. Qalan uşaqların taleyi isə faciəli olmuşdu. Fətəli Tiflisdə erməni qatili tərəfindən öldürülmüş, kiçik oğlu Rüstəm 1939-cu ildə Moskvada vəfat etmiş, Novodeviçye qəbristanlığında torpağa tapşırılmışdı. Gəncə şəhər general qubernatorunun müavini olan Hüseynqulu xan isə 1955-ci ildə İstanbulda vəfat etmişdi. Onun Cavad xanın nəslindən olan həyat yoldaşı Əbülfət xanın qızı Şirinbəyim 1957-ci ildə İstambulda dünyasını dəyişmişdi. Onların kiçik oğlu Ziyad xan Xoylu isə Nyu-Yorka getmişdi. Nəvəsi Cəfər də orada yaşayır.

**Nəsib bəy Yusifbəyli (1881-1920).** Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə dünyaya göz açmışdı. Orta təhsilini Gəncə klassik gimnaziyasında almış, 1920-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdu. Universitetdə tələbələr tərəfindən yaradılan «Azərbaycan həmyerlilər təşkilatı» nın başçılarından biri olub.



**Nəsib bəy Yusifbəyli**

Çar hökuməti 1907-ci ildə Odessa Universitetini müvəqqəti olaraq bağlayanda N.Yusifbəyli Krımın Baxçasaray şəhərinə köçmüş, İsmayıl bəy Qaspiralının (1852-1914) redaktor olduğu «Tərcüman”» qəzetində çıxış etməyə başlamışdı. O, İsmayıl bəyin qızı Şəfiqə Sultan xanım Qaspirali (1886 - 1975) ilə ailə həyatı qurmuşdu.

Nəsib bəy XX əsr Azərbaycan-Krım ədəbi-mədəni əlaqələrin əsasını qoyanlardan biridir.

N. Yusifbəyli yoxsulluq üzündən ali məktəbin IV kursundan çıxmışdı. 1908-ci ildə bir müddət İstanbulda yaşamış, orada «Türk dərnəyi» adlı cəmiyyətin banilərindən biri olmuşdu. 1909-cu ildə Türkiyədən Gəncəyə qayıtmışdı.

1912-ci ildə Axundovun anadan olmasının 100 illiyini qeyd edən ziyalılar içərisində Nəsib bəy də olmuşdu. O, həmçinin «Molla Nəsrəddin» in fəaliyyətinə yüksək qiymət verirdi. «Azərbaycan ədəbiyyatı tarixi» əsərini də o vaxtlar başa çatdırmışdı.

1917-ci ilin mart ayında Nəsib bəyin rəhbərliyi altında yaradılmış «Türk-ədəmi-mərkəziyyət» partiyası Gəncədə fəaliyyətə başlayır. Bu partiya Rusiyanı federativ şəkildə qurmaq və Azərbaycana muxtariyyat verilməsi uğrunda mübarizə aparırdı.

1917-ci ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayında Nəsib bəy çıxış etmiş, Azərbaycana muxtariyyat verilməsini tələb etmişdi. O, həmçinin 1917-ci ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında iştirak etmişdi.

1917-ci ilin iyun ayında M.Ə.Rəsulzadənin lider olduğu «Müsəlman demokratik «Müsavat»" partiyası» ilə N.Yusifbəylinin rəhbəri olduğu «Türk-ədəmi-mərkəziyyət» partiyası birləşərək «Müsavat» adını almışdı.

N. Yusifbəyli Zaqafqaziya seyminin üzvü, 1918-ci il aprelin 26-da yaranmış müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətinin maarif naziri olmuşdu. O, Xoyskinin I, II və III kabinələrində də maarif naziri vəzifələrini tutmuşdu.

1919-cu il aprelin 14-dən 1920-ci il aprelin 1-dək Nazirlər Şurasının sədri olmuşdu.

N. Yusifbəyli 1920-ci il mayın əvvəllərində Kürdəmir qəzasında Yevlaxın Qaraxunlu kəndindən olan quldur Əşrəfin yaxın adamları tərəfindən qətlə yetirilmişdi.

**Əlimərdan bəy Topçubaşov (1862-1934).** İstedadlı alim, siyasi və ictimai xadim Əlimərdan bəy Topçubaşov 1862-ci il mayın 4-də Tiflisdə anadan olmuşdu. Uşaq ikən atasını itirən Əlimərdan bəy I Tiflis gimnaziyasında orta təhsilini başa vurduqdan sonra Peterburq universitetinin hüquq fakültəsinə daxil olmuş, 1888-ci ildə təhsilini fərqlənmə diplomu ilə bitirmişdi. Ona xiristianlığı qəbul etmək şərti ilə professor vəzifəsi təklif etsələr də, o razılaş mamış, Bakıya gəlmiş, H.Zərdabinin qızı Pəri xanımla ailə həyatı qurmuşdu. 1898-ci ildə H.Z.Tağıyevin (1823-1924) vəsaiti ilə nəşr edilən «Kaspi» qəzetində məqalələri çap olunmuşdu. M.F.Axundov haqqında «İlk Azərbaycan dramaturqu» məqaləsini yazmış, F.Köçərlinin «Azərbaycan ədəbiyyatı» kitabına rəyi çap olunmuşdu (1903).



**Ə.Topçubaşov**

Ə.Topçubaşovun təşəbbüsü və rəhbərliyi altında 1905-ci il avqustun 15-də Nijni-Novqorodda yarmarka zamanı, Ümumrusiya müsəlmanlarının I qurultayı açılmışdı. Qurultayda 150 nəfər nümayəndə iştirak etmişdi.

1906-cı il yanvarın 13-dən 23-dək Peterburqda gizli olaraq çağırılmış II Ümumrusiya müsəlman qurultayı «İttifaqın» Əlimərdan bəy tərəfindən hazırlanmış 23 maddəlik yeni Nizamnaməsini qəbul etmişdi.

Əlimərdan bəy 1906-cı il aprelin 27-də Peterburqda açılan I Dövlət Dumasına Bakı quberniyasından üzv seçilmişdi. III Ümumrusiya müsəlman qurultayı da Topçubaşovun sədrliyi ilə 1906-cı ilin 16-21 avqustunda Nijni-Novqorodda keçirilmişdi. O, çar hökuməti tərəfindən təqib edilmiş, adı «Qara kitab» a daxil olmuşdu.

1918-ci il mayın 28 də ADR elan olunanda o, Xoyskinin II kabinəsində xarici işlər naziri vəzifəsinə təyin olunmuş və həmin ayda Gəncədən Türkiyəyə göndərilmişdi. 1918-ci ilin noyabr ayında İstanbulda «Azərbaycanın təşəkkülü» adlı kitabı çapdan

çıxmışdı. Bu kitab Azərbaycan torpağı haqqında XX əsrdə azərbaycanlı müəllif tərəfindən yazılmış ilk əsərdir.

Ə.Topçubaşov 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinə sədr seçilmişdi. Lakin o, Bakıda olmadığı üçün bu vəzifəni onun müavini doktor Həsən bəy Ağayev icra etmişdi.

Ə.Topçubaşov İstanbulda ikən 1919-cu ildə açılacaq Versal sülh konfransında iştirak etmək üçün Parisə yola düşən ADR nümayəndə heyətinin rəhbəri seçilmiş, 3 aydan sonra, 1919-cu ilin martında çox çətinliklə Parisə gəlmişdi.

Ə.Topçubaşovun Parisdə böyük elmi arxivi qalmışdı. O, 1934-cü il noyabrın 8-də Parisin Sen-Deni rayonunda vəfat etmişdi.

**Ağa Ağakərim oğlu Əminov (1887-1921)** 1887-ci ildə Bakı şəhərində anadan olmuşdu. O, Bakı gimnaziyasını başa vurduqdan sonra, Peterburq Dağ-Mədən Mühəndisliyi İnstitutuna daxil olmuşdu. 1911-ci ildə təhsilini başa vuran A.Əminov Bakıya qayıtmış, Sabunçu-Suraxanı neft mədənlərində mühəndis vəzifələrində işləmişdi. İlk azərbaycanlı mühəndis olan Ağa sonralar Londonda təkmilləşdirmə kurslarında olmuşdu.


**Ağa Əminov**

1911-ci ildə yaradılmış «Müsavat» partiyasının üzvü olan Ağa Əminov 1912-ci ildən siyasi fəaliyyətə başlamışdı. O, Bakıda çağrılan Qafqaz müsəlmanlarının qurultayında iştirak etmiş, «Müsavat»ın birinci qurultayının (26-31.10.1917) fəal iştirakçısı olmuşdu. Bu qurultaydan sonra M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi «Müsavat» ın meydana atdığı «Azər baycana muxtariyyat» şüarı altında Bakıda və qəzalarda geniş xalq hərəkatı başlamışdı.

A.Əminov 1918-ci il dekabrın 7-də açılan Azərbaycan parlamentinə üzv seçilmişdi. O, Azərbaycan Respub likası Nazirlər Şurasının sərdri N.Yusifbəylinin təşkil etdiyi birinci kabinədə ticarət və sənaye naziri vəzifəsini icra etmişdi. Onun

nazir olduğu dövrdə Bakıda şüşə zavodunun inşasına başlanmışdı.

Ağa Əminovun fəal iştirakı ilə 1919-cu ilin mayında «Müsəlman əməkçi ziyalıları ittifaqı» yaranmışdı. O, Bakı Universitetinin yaradılmasında fəal iştirak etmişdi. 1919-cu ilin dekabrında N.Yusifbəyli istefaya getdikdən sonra o da vəzifəsindən getmişdi.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra A.Əminov «Azneft» Birliyində işləmişdi.

A.Əminov 1921-ci ildə ağır xəstəlikdən Bakıda vəfat etmiş, şəhərin Çəmbərəkənd qəbristanlığında dəfn olunmuşdu.


**X.Rəfibəyov**

**Xudadat bəy Rəfibəyov (1878-1920)** 1878-ci ildə Gəncə şəhərində anadan olmuşdu. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra Xarkov Universitetinin tibb fakültəsinə daxil olmuşdu. 1903-cü ildə təhsilini başa vuran Xudadat bəy ilk azərbaycanlı cərrah kimi vətənə qayıdır, onun fəal iştirakı ilə 1906-cı ildə Gəncədə dahi Nizaminin məqbərəsini bərpa etmək üçün xüsusi bir cəmiyyət yaranır. Həmin illərdə fəaliyyət göstərən «Aktyorlar cəmiyyətinin» rəhbərlərindən biri olan Rəfibəyov şəhərin ictimai həyatında fəal iştirak edir.

1914-cü ildə Gəncədə ilk tibb cəmiyyəti yaradılır. Onun banisi X.Rəfibəyov, katibi isə Həsən bəy Ağayev olmuşdu. Cəmiyyət əhaliyə əsasən pulsuz xidmət göstərirdi.

1917-ci ilin fevralında Rusiyada baş verən inqilabdan sonra X.Rəfibəyov həmin ilin martında Gəncədə yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdi. Xudadat bəy Nazirlər şurasının sədri F.Xoyskinin iyunun 17-də Gəncədə təşkil etdiyi ikinci hökumət kabinəsində səhiyyə və sosial təminat naziri vəzifəsini tutmuş, 1918-ci il sentyabrın 15-də hökumət Bakıya köçdükdən sonra vəzifəsinin icrasını davam etdirmişdi. Nazirliyin tərkibində 5 şöbə var idi.

Nazirliyin göstərişi ilə dövlət hesabına pulsuz xəstəxanalar açılmış, yeni tibb ocaqlarının tikin tisinə başlanmışdı. Dərman və tibb alətlərinin saxlanması üçün xüsusi anbar, ekspertiza aparmaq üçün xüsusi laboratoriya təşkil olunmuşdu. Gəncə yaxınlığındakı Zurnabad kəndində taun əleyhinə məntəqə açılmışdı.

1918-ci il dekabrın ortalarında F.Xoyskinin kabineti istefaya çıxan zaman X.Rəfibəyov da vəzifəsini tərk etmişdi.

1919-cu ilin mayında X.Rəfibəyov Gəncə quberniyasının general-qubernatoru təyin edilmişdi. O, 1920-ci il aprelin 30-da Gəncə quberniyasında müqavimət göstərmədən hakimiyyəti yeni yaranmış inqilab komitəsinə təhvil vermişdi.

1920-ci il mayın axırında Gəncə şəhərində keçmiş nizami Azərbaycan ordusunun 3-cü Gəncə piyada alayının komandiri, podpolkovnik Cahangir Kazımbəyovun başçılığı ilə üsyan baş vermişdi. Xudadatbəy Rəfibəyovun bu üsyanla heç bir əlaqəsi olmadığı halda, o həmin dövrdə qarışıqlıq zamanı həlak olmuşdu.

**Həmid bəy Ağa Xəlil oğlu Şaxtaxtinski (1880-1943)** 1880-ci ildə Naxçıvan qəzasının Şaxtaxtı kəndində anadan olmuşdu. Orta təhsilini Naxçıvan gimnaziyasında başa vurduqdan sonra o, İrəvan müəllimlər seminariyasında oxumuş, orada «Müsəlman xeyriyyə cəmiyyəti"»nin üzvü seçilmişdi. Sonra H.Şaxtaxtinski Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdu. O, universitetdə X. Rəfibəyov tərəfindən yaradılmış «Azərbaycan həmyerlilər təşkilatı"» nın başçılarından və fəal üzvlərindən biri olmuşdu.



**H.Şaxtaxtinski**

H.Şaxtaxtinski 1912-ci ildə təhsilini başa vurub Gəncəyə qayıdır. Gəncə dairə məhkəməsində andçı müvəkkilin köməkçisi vəzifəsində iki ilə yaxın işlədikdən sonra Bakıya köçərək burada dairə məhkəməsində eyni vəzifədə çalışır. H.Şaxtaxtinski bitərəf F.Xoyskinin təşkil etdiyi ikinci və

üçüncü kabinədə maarif nazirinin muavini vəzifəsini icra etmişdi. O, 1918-ci il dekabrın 7-də təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmiş, nazirlər şurasının sədri N.Yusifbəylinin təşkil etdiyi ikinci hökumət kabinəsində də nazirin müavini vəzifəsini tutmuşdu. H.Şaxtaxtinski bəhs olunan dövrdə Azərbaycan Respublikasının şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasının və digər mütərəqqi tədbirlərin həyata keçirilməsinin təşkilatçılarından olmuşdu. H.Şaxtaxtinski N.Yusifbəylinin 1919-cu il dekabrın 22-də təşkil etdiyi ikinci hökumət kabinəsində maarif və dini etiqad naziri təyin olunmuşdu. 1920-ci il martın 5-də istefaya çıxmışdı. 1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra H.Şaxtaxtinski pedaqoji işə qayıtmış, Bakı Dövlət Universitetində dərs demişdi. 1930-cu ildə ona professor adı verilmişdi. Şaxtaxtinski universitetdə dərs deməklə yanaşı, 1926-cı ildə oranın tibb fakültəsini də bitirmişdi.

Həmid bəy Şaxtaxtinski Stalin repressiyasının qurbanlarındandır. O, 1941-ci ildə həbs edilmişdi. 1943-cü ilin fevral ayının 3-də Arxangelsk vilayətində həlak olmuşdu.

**Məmməd Yusif Hacıbala oğlu Cəfərov (1885-1938)** 1885-ci ildə Bakı şəhərində anadan olmuşdu. O, görkəmli pedaqoq, jurnalist Əli İsgəndər Cəfərzadənin (1875-1941) kiçik qardaşıdır. M.Y.Cəfərov orta təhsilini Bakıda almış, sonra Moskva Univer sitetinin hüquq fakültəsini bitirmidi. O, Moskvada oxuyan azər baycanlı tələbələrin təşkil etdiyi «Azərbaycan etnoqrafik konsert gecələri» nin və «Azərbaycan həmyerlilər təşkilatı»nın əsas rəhbər lərindən biri olmuşdu.


**M.Y. Cəfərov**

1912-ci ildə MDU-nu fərqlənmə diplomu ilə bitirən M.Y.Cəfərov «Nigahın şəriət üzrə pozulması haqqında rəy» mövzusunda hüquq elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdi. O, həmin il Peterburqda açılan IV Dövlət Dumasına Bakı, Gəncə və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən deputat seçil-

mişdi. Məmməd Yusif  Cəfərov kadet partiyasına qoşulmuşdu.

1917-ci ilin martında Müvəqqəti hökumətin göstərişi ilə M.Y.Cəfərov da daxil olmaqla Dövlət Dumasının beş nəfər üzvündən ibarət xüsusi Zaqafqaziya Komitəsi yaradılmışdı. O, 1917-ci il noyabrın 15-dən Zaqafqaziya komissar lığında sənaye və ticarət komissarı idi.

M.Y.Cəfərov 1918-ci il mayın 28-də elan olunan ADR-in birinci hökümət kabinəsində sənaye və ticarət naziri olmuşdu. Hökumət kabinəsi istefa verdikdən sonra Azərbaycan Respub likasının Gürcüstan hökuməti yanında diplomatik nümayəndəsi vəzifəsini icra etməyə başlamışdı.

M.Y.Cəfərov N.Yusifbəylinin təşkil etdiyi kabinədə xarici işlər naziri vəzifəsini tutmuş, ADR-in beynəlxalq aləmdə tanınmasında xidmətləri böyük olmuşdu. Onun rəhbərliyi altında arxiv materialları əsasında Məmməd Ağaoğlu (1896-1949) və Hüseyn Mirzə Camalovun (1884-1674) «Zaqafqaziyada rus siyasətinə aid sənədlər» kitabı çap olunmuşdu.

M.Y.Cəfərov 1919-cu ildə «Müsavat» partiyasının sıralarına daxil olmuşdu.

1919-cu ilin dekabrın ortalarında Yusifbəylinin kabinəsi istefaya çıxdığı üçün M.Y.Cəfərov da vəzifəsindən istefa vermişdi. O, 1920-ci ildə parlamentin sədr müavini vəzifəsindən azad olunan Həsən bəy Ağayevin yerinə seçilmiş, parlamentin sədri Ə.M.Topçubaşov Bakıda olmadığı üçün M.Y.Cəfərov onun vəzifəsini 1920 ci il aprelin 27-dək icra etmişdi.

Sovet dövründə M.Y.Cəfərov «Azərbaycan pambıqçılıq tresti»ndə və «Azərbaycan şərabçılıq tresti» ndə hüquq məsləhətçisi vəzifəsində işləmişdi.

M.Y.Cəfərov 1938-ci il mayın 15-də Bakıda vəfat etmiş və Şağan kəndində dəfn olunmuşdu.

**Cəmo bəy Süleyman oğlu Hacınski (1888-1942)** 1888-ci il iyunun 14-də Qubada doğulmuşdu. O, görkəmli siyasi və ictimai xadim Mehdi bəy Hacınskinin kiçik qardaşıdır. Bakıda gimnaziya bitirən Cəmo



**C.S.Hacınski**

bəy 1907-ci ildə Bakıda nəşr olunan «Kaspi» qəzetində müxbir kimi əmək fəaliyyətinə başlamışdı. Həmin dövrdə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olan C.Hacınski 1914-cü ildə təhsilini başa vuraraq 1915-ci ilin dekabrından 1917-ci ilin aprelinədək Batum vilayətində və Dənizkənarı rayonda dünya müharibəsi dövründə zərərçəkənlərə kömək məqsədilə müsəlman qaçqın komitəsinin müvəkkili vəzifəsində işləmişdi.

1917-ci ilin aprelində C.Hacınski Müvəqqəti hökumətin Zaqafqaziya Komitəsinin müvəkkili təyin olunmuş və iyul ayınadək bu vəzifədə çalışmışdı. İyul ayında Zaqafqaziya kəndli deputatları icraiyyə komitəsinin sədrinin müavini seçilən C.Hacınski nümayəndə kimi Rusiya Məclisi-Müəssisanına yeni seçkilər üzrə Zaqafqaziya mərkəzi komissiyasının sədri vəzifəsinə göndərilmişdi.

1918-ci ilin fevralında C.Hacınski Zaqafqazia Seyminə üzv seçilmişdi. ADR-in birinci hökumət kabinəsində dövlət nəzarətçisi vəzifəsini icra edən C.Hacınski həmin ilin iyulun 17-də kabinə istefaya çıxdığı üçün vəzifəsindən getmişdi.

Cəmo bəy N.Yusifbəylinin təşkil etdiyi birinci və ikinci kabinələrdə poçt və teleqraf naziri təyin olunmuş, 1920-ci il martın 30-da bütün kabinə ilə birlikdə istefa vermişdi.

C.Hacınski 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinə üzv seçilmişdi.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra C.Hacınski ədliyyə komissarlığında inzibati-maliyyə şöbəsinin rəisi təyin olunmuşdu. O, 1922-ci il aprelin 21-də əsassız ittiham olunaraq həbs olunmuş, 3 il həbsdə yatdıqdan sonra Arxangelskdəki konslager Solovkiyə göndərilmişdi. 3 il burada saxlanılan Hacınski 1928-ci ilin iyul ayında azad edilmiş, Bakıya qayıtmışdı. C.Hacınski həmin ilin iyulundan respublika kənd təsərrüfatı kooperasiyası ittifaqında «Köybirliyi» plan şöbəsinin katibi və sonra müdiri olmuşdu. 1933-cü il noyabrın 1-dən «Azərittifaq» sistemində işləyən C.Hacınski 1934-cü il noyabrın 6-da sənaye kooperasiyasında baş məsləhətçi vəzifəsinə keçmişdi. C.Hacınskinin tutuduğu vəzifə 1937-ci ilin yanvarın 7-

də ləğv olunmuş, işdən çıxarılmış, 1938-ci il noyabrın 24-də yenidən həbs olunmuşdu.

Cəmo bəy Hacınski 1942-ci ildə Vyatka konslagerində həlak olmuşdu.



**Ə.Pepinov**

**Əhməd bəy Ömər oğlu Pepinov (1893-1938)** 1893-cü ildə Gürcüstanın Axalkalaki mahalının Bolazur kəndində anadan olmuşdu. O, Ömər Faiq Nemanzadənin (1872-1938) bacısı oğludur. Əhməd bəy Tiflis gimna ziyasında təhsil almış, Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuş və eyni zamanda iqtisadiyyat fakültəsində də oxumuşdu. Ə.Pepinov da Moskvada oxuyan azərbaycanlı tələbələirin təşkil etdiyi «Azərbaycan etno qrafik konsert gecələri» nin və «Azərbaycan həmyerlilər təşkilatı»nın əsas rəhbərlərindən biri olmuşdu. 1918-ci ildə təhsilini başa vuraraq Bakıya qayıdan Ə.Pepinov Zaqaf qaziyada baş verən hadisələrdə yaxından iştirak edir, fevralın 28-də Zaqafqaziya Seymi tərəfindən təsdiq olunmuş müsəlman fraksiyasında «Müsəlman sosialist bloku» na daxil olur.

Ə.Pepinov 1918-ci ilin yayında Həsən bəy Ağayevin qızı, sonralar ilk azərbaycanlı qadın musiqişünas olmuş X.Ağayeva ilə evlənmişdi.

Ə.Pepinov N.Yüsifbəylinin təşkil etdiyi ikinci kabinədə əmək və torpaq naziri vəzifəsini tutmuşdu. Azərbaycan universitetinin təşkilində onun müəyyən xidmətləri olmuşdu.

Məlum olduğu kimi, 1920-ci martın 30-da N.Yusifbəyli hökuməti istefa verir. Əhməd Pepinov da başqaları kimi, vəzifəsini tərk edir. O, həmin il aprelin əvvələrində Azərbaycan ordusu hissələri bu zaman Dağlıq Qarabağda olduğu üçün Samur çayı körpüsünün şimal tərəfində dayanmış XI Qızıl Ordunun Bakı üzərinə gözlənilən yürüşünü ləngitmək məqsədilə Azərbaycan parlamentinin üzvü Rəhim bəy Vəkilovla birlikdə

Sovet Rusiyası hökuməti ilə danışıqlar aparmaq üçün Qroznu şəhərinə gedir.

Ə.Pepinov 1920-ci ilin aprelində baş verən hadisələrdən sonra Bakıya qayıdır. Respublikada mədəni-maarif və nəşriyyat işinə rəhbərlik edir. «Maarif və mədəniyyət», «Bakinskiy raboçiy» qəzeti və digər mətbuat orqanlarında xeyli məqalələri çap olunur. Həmin illərdə təqiblərə məruz qalan Ə.Pepinov 1930-cu ildə Ulyanovsk şəhərinə köçmüş və orada yaşamışdı. 1934-cü ildən o, Alma-Atada Qazaxıstan maarif nazirinin müavini vəzifəsində işləmişdi. Əhmədbəy Pepinov 1938-ci ildə Stalin repressiyası nəticəsində həlak olmuşdu.

# IV FƏSİL

## 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı

### 4.1. Heydər Xan Əmoğlu hərəkatı

Heydər Xan Əmoğlu 1880-ci idə Urmiya şəhərində anadan olmuşdur. Onun atası əczaçı həkim Əli Əkbər Əfşari Gümrüyə köçməli olduğundan ibtidai və orta məktəbi İrəvanda bitirən H.Əmoğlu Tiflis Politexnik İnstitutunda oxuyarkən sosial-demokrat hərəkatında iştirak edir. Bir müddət Bakıda elektrik mühəndisi işləyir. H.Əmoğlu alman, fransız, rus, fars, gürcü və italyan dillərini öyrənmişdi. 1902-ci ildə ali məktəbi başa vuran Əmoğlu Avropaya getmiş, 1904-cü ildə Tehrana qayı daraq orada Sosial-Demokrat Partiyasının özəyini yaratmış, Səttarxa-nın Əncümən həraka tında iştirak etmişdi.

Müzəffərəddin şahın ölümündən sonra onun yerinə keçən Məhəmmədəli şah ilk olaraq inqilabçıları aradan götürmək üçün planlar hazırlamağa başlayır. Tehran İnqilab Komitəsi baş verəcək faciələrin qarşısını almaq məqsədilə Mücazat Komitəsi yaradır və onun başçısı **Heydər Əmoğlu** təyin edilir. 1907-ci ildə baş nazir Atabək Əzəm də qətlə yetirilir. Qətli yerinə yetirən azadixah Abbas ağa sonra da özünə qəsd edir.



**H.Əmoğlu**

Heydər Xan Əmoğlu Səttarxan həraka tında iştirak etmiş, 1909-cu ildə Səttarxan və Bağırxanla birlikdə Tehrana getmişdi. Onla-rın başına gələn hadisələrdən sonra gizli fəaliyyətə keçən Əmoğlu İrana gələn M.Ə.Rəsulzadə ilə tanış olmuş, «İrane Nou» adlı qəzetin nəşrinə başlamışdı. İngilislər və ruslar tərəfindən təqib olunduğunu hiss edən Əmoğlu Parisə getmək məcburiyyətində qalır. Bir müddət sonra o, yenidən İrana qayıdır və

Gilanda üsyan bayrağını qaldırmış üsyançılara qoşulur. Bu zaman Gilanda Məncil adllı bir təşkilat yaranmışdı. Məncil hərəkatının başında **Mirzə Kiçik Xan** dururdu və onlar ingilislərə və ruslara qarşı mübarizə aparırdılar. Mirzə Kiçik xana Hacı Əhməd Kəsmayi, Rəsul Gəncəyi, Halo Qurban və qardaşı köməklik edirdilər. Heydər Əmoğlu isə Ehsanullah xan ilə Mirzə Kiçik xan arasındakı narazılığı hiss etdiyi üçün onları barışdırmağa çalışır. Bu məqsədlə 1922-ci il may ayının 6-da Fomen qəsəbəsində çağılan yığıncaqda Ehsanullah xanın yaratdığı **Milli Nicat Komitəsi** ləğv edilir və yeni «**İnqilab Komitəsi**» yaradılır. Kiçik xan sədr, qalanlar isə üzv seçilirlər.

İranda baş verənlər ingilisləri və rusları çox narahat edirdi. Digər tərəfdən ingilislər keçiriləcək çevrilişi gözdən yayındırmaq üçün şayə yayaraq bildirmişdilər ki, rus ordu hissələri Tehranı işğal edəcəkdir. Nəhayət, 1921-ci il fevralın 21-də Rza xan rus kazak hissələrindən ibarət 2.500 nəfərlik dəstəni Tehrana gətirir və çevrilişi həyata keçirir.

Rza xan kimi idi? O rus kazaklarının komandiri Liyaxovun alayına sıravi hərbiçi kimi daxil olmuş, ingilislərin köməyi ilə hərbi təhsil görmədən rütbə almış, yenə qə ingilislərin köməyi ilə yeni yaradılan Tabatabayi Seyid Ziyəddin hökümətində hərbi nazir vəzifəsini tutmuşdu. Rza xan nazir olan kimi, əlinin altında olan rus kazaklarını Gilana, Heydər Əmoğlunun üstünə göndərir. Əmoğ lunun yaxınlarını, Mirzə Kiçik xanı ələ alaraq Əmoğluya tələ hazırlamağa başlayır.

Əhvalat belə baş verir. Mirzə Kiçik xan «İnqilab Komitəsi» nin Cəngələdə iclasının keçiriləcəyi haqqında məlumat yayır. Heydər Əmoğlu və digər üzvlər görüş yerinə gəlir və Kiçik xanı gözləməyə başlayırlar. Bu zaman bina atəşə tutulur. Heydər Əmoğlu, Halo Qurban və Halo Kərim pəncərədən atılaraq meşəyə qaça bilirlər. Meşədə yoldaşlarını itirən Əmoğlu yaralı halda Rəşt yaxınlığındakı Pəsixan qəsəbəsinin körpüsünə kimi gedib çıxır. Orada Mirzə Kiçik xan tərəfindən tutulur. Bir müddət həbsdə qaldıqdan sonra Müəyyənül Rəaya adlı bir xain tərəfindən öldürülür.

Kiçik xan ona vəd edilən Gilan valiliynə təyin olunmur. O, yoldaşlarına etdiyi xəyanətin qurbanı olur. Halo Qurban Rza xana xəbər göndərərək ona xidmət etmək istədiyini bildirir. Məqsədi yaxın dostu Sərxoşun qisasını almaq olur. Mirzə Kiçik xan da eyni təkliflə Rza xana müraciət edir. Lakin Rza xan onun təklifini rədd edir. Rza xan Halo Qurbana «Sərhəng» albay (polkovnik) rütbəsi verərək Kiçik xanın üstünə yeriməsini tələb edir. Halo Qurban Rəşt və Ənzəlidə olan Kiçik xanın dəstələrinin üstünə yeriyir. Çəngələyə qaçan dəstəsinin Halo Qurban tərəfindən darmadağın edilməsini görən Kiçik xan Talış dağlarına üz tutur. Onun donmuş meyidini dağda tapırlar, başını kəsib Tehrana yollayırlar. Rza xanın casusları bir müddətdən sonra Halo Qurbanı da qətlə yetirirlər. Beləliklə, Əmoğlu hərəkatı öz qardaşlarının əli ilə yatırılır. Azərbaycan daha bir fədakar oğlunu itirir.

## 4.2. 1920 - ci il Təbriz üsyanının sosial-iqtisadi və siyasi zəmini

Cənubi Azərbaycanda daha geniş kütlələri əhatə edən və dərin inqiabi xarakter daşıyan 1905-1911-ci illərin İran burjua inqilabı ölkədə feodal quruluşuna və quruluşun təcəssümü olan Qacarlar sülaləsinə zərbə vurdu. İnqilab İrana konstitusiya versə də, zəhmətkeş xalqın həyatında gözə çarpacaq bir dəyişiklik yarada bilmədi. Əldə edilmiş müvəffəqiyyətlərdən mülkədarlar, ruhanilər və burjuaziya (başlıca olaraq bunların yuxarı təbəqələri) bəhrələndi. Geniş kütlə-orta təbəqələr, xüsusilə fəhlə və kəndlilər əvvəllərdə olduğu kimi, yenə də demokratik hüquqlar əldə etmədilər. İranda farslardan başqa digər xalq və milli azlıqlar öz milli hüquqlarınadan məhrum idilər.

Bəhs edilən dövrdə bütün İranda olduğu kimi, Cənubi Azərbaycanda da əhalinin böyük əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olurdu. Kənd təsərrüfatında taxılçılıq, bağçılıq, ipəkçilik, texniki bitkilərdən pambıqçılıq, nisbətən az miqdarda tütünçülük, tərəvəz və bostançılıq geniş yayılmışdı. Maldarlıqla köçəri və yarımköçəri həyat tərzi keçirən tayfalar (şahsevən və b.) məşğul olurdular.

XIX əsrin ikinci yarısında, xüsusilə əsrin sonlarında İranın dünya bazarına geniş şəkildə cəlb olunması nəticəsində bütün ölkədə, o cümlədən Cənubi Azərbaycanda ticarət əkinçiliyi və ticarət maldarlığı genişləndikcə xarici ölkələrə ixrac edilən əkinçilik və maldarlıq məhsullarının miqdarı çoxalırdı. Cənubi Azərbaycandan ixrac edilən pambıq, qurudulmuş meyvə (o cümlədən kişmiş, püstə, badam, fındıq), gön-dəri məmulatları əsasən Rusiya bazarlarına aparılırdı. Kənd təsərüffatının əsas sahələrində əmtəə istehsalının artması və ölkənin dünya bazarına cəlb olunması Cənubi Azərbaycanda natural təsərrüfatın zəifləməsinə, kəndlilər içərisində təbəqələşmənin artmasına və onların istehsal vasitələrindən getdikcə daha çox məhrum olmasına gətirib çıxardı. Nəticədə aqrar münasibətlərdə, o dövrün əsas istehsal vasitəsi olan torpaq üzərindəki feodal torpaq mülkiyyətində müəyyən dəyişikliklər baş verdi. Bu dəyişikliklərin əsasını torpaq üzərində xüsusi mülkiyyət təşkil edirdi.

Cənubi Azərbaycanda xüsusi şəxslərin mülkiyyəti olub əkinçilik üçün yararlı torpaqların 66%-ni təşkil edən **ərbabi və ya mülk**, dövlətə məxsus olan və əkilən torpaqların və otlaqların 4%-ni təşkil edən **xalisə**, dini idarələrə, mədrəsələrə və s. məxsus olub əkilən torapaqların 10%-ni təşkil edən **vəqf**, xırda mülkədar və ayrı-ayrı kəndlilərə məxsus olub əkinə yararlı torpaqların 3,5%-ni təşkil edən **xırdamalik,** ayrı-ayrı qəbilələrə məxsus **ilati,** nəhayət, keçmiş icma torpaqları kimi torpaq mülkiyyəti formaları mövcud idi.

Bundan əlavə torpaq sahibliyinin qarışıq forması - «s**ayxanpayı**» da mövcud idi. İstifadə üçün yararlı torpaqların 1,5%-ni təşkil edən sayxanpayı kəndlilərin mülkiyyəti olmasa da, onların istifadəsində idi.

Cənubi Azərbaycanın kənd əhalisi əsasən rəiyyətlərdən-torpaqsız yardar - kəndlilərdən və azsaylı torpaq sahiblərindən - xırdamaliklərdən ibarət idi. Mülkədarlar heç bir cəza görmədiyindən kəndlilərlə istədikləri kimi rəftar edirdilər. Bəzən

onlar kəndliləri yerlərindən qovur, onların əmlakını - ev, bağ və s. öz əllərinə keçi rirdilər.

İstehsal texnikası çox aşağı səviyyədə idi. Kəndlilər torpaqları ən sadə alətlərlə becərirdilər. Bu səbəbdən də, kənd təsərrüfatında məhsuldarlıq çox aşağı səviyyədə idi. Kəndlilər torpaq sahibinə məhsulun müəyyən hissəsini ödəməklə yanaşı, bir çox feodal mükəlləfiyyətlərini də daşımalı olurdular.

Cənubi Azərbaycan XX əsrin əvvəllərində İran dövlətindəki inzibati bölgüyə əsasən dörd əyalətdən birini təşkil edirdi. Əyalət öz növbəsində vilayətlərə, vilayətlər isə mahal və bölüklərə bölünürdü. Əyalətin mərkəzi Təbriz şəhəri şah Canişininin-vəliəhdin iqamətgahı, İran dövlətinin bir növ ikinci paytaxtı hesab olunurdu. Əyalət mərkəzdən göndərilən vali və digər yüksək rütbəli məmurlar tərəfindən idarə olunurdu. Vəliəhd və hökumət bəzən hətta bu hakimləri ildə iki dəfə dəyişirdi.

Cənubi Azərbaycana şahın canışini təyin edilən vəliəhd, vali (general-qubernator) və İran hökumətinin digər nümayəndələri azərbaycanlıları çapıb talayırdılar. İran hökumətinin yerli idarələrə təyin etdiyi fars məmurları Azərbaycan xalqının milli və digər hüquqlarına da qəsd edirdilər.

Ölkədə hökm sürən rüşvətxorluq və qanunsuzluq zəhmətkeş kütlələrin narazılığına səbəb olurdu. Kəndlilər və şəhər yoxsulları feodalların və milli zülmə qarşı çıxırdılar.

Cənubi Azərbaycanda şəhər əhalisinin də vəziyyəti yaxşı deyildi. Xırda əmtəə istehsalı ocaqlarında, azsaylı sadə kooperativlərdə və manufakturalarda çox az adam işləyirdi. Əhalinin əsas hissəsi xalçaçılıq, dulusçuluq, qab-qacaq istehsalı ilə məşğul idi.

Ölkədə siyasi şərait getdikcə gərginləşirdi. Antifeodal və antiimperialist əhaval-ruhiyyə güclənirdi. Bunlar geniş xalq kütlə lərinin feodal zülmünə, İran istismarçıları və xarici imperialistlər əleyhinə açıq çıxışlarına çevrilməkdə idi. Rusiyada, Bakı və başqa şəhərlərdə mövsümi işlərdə çalışan, inqilabi

məktəb keçən və vaxtaşırı vətənə qayıdan kəsbkar fəhlələrin özləri ilə gətirdikləri inqilabi ideyalar da buna kömək edirdi.

## 4.3. Üsyanın başlanması, İctimai İdarə Heyətinin yaranması

1920-ci il aprelin 7-nə qovuşan gecə ADP rəhbərliyi silahlı üsyan planını hazırladı. Həmin gecə 1905-1911-ci illər inqilabı dövründə İranda, xüsusilə Təbrizdə gərgin fəaliyyət göstərmiş bir sıra partiyaların - «İctimaiyyun-Amiyyun», «Mücahid» partiyalarının və sonradan «Ədalət» partiyasının Təbriz təşkilatına üzv olmuş köhnə mücahidlərin bir dəstəsi və başqaları demokratlara qoşuldular. Onlar həm üsyanda, həm də üsyan rəhbərliyinin həyata keçirdiyi sonrakı tədbirlərdə, həmçinin üsyanın düşmənlərinə qarşı mübarizədə əldə silah iştirak etmişdilər.

Polisin hədələrinə və təqibinə baxmayaraq aprelin 7-də demokratlar 50-60 nəfərlik silahlı dəstə vasitəsilə bir gün əvvəl şəhər kələntərinə (polis idarəsi rəisinə) verdikləri tələbləri əmirmülkə bildirdilər və öz yoldaşlarının azad edilməsinə nail oldular.

Xiyabaninin özünün dediyi kimi, səkkiz aylıq ciddi hazırlıqdan sonra həyata keçirilmiş bu üsyanın başlanması ilə Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Beləliklə, aprelin 7-də silahlı çıxışa keçməklə hərəkat silahlı üsyan xarakteri aldı.

Üsyanın ilk günü Təbriz bazarı bağlandı, tacirlər, sənətkarlar və əhalinin digər nümayəndələri demokratların tələbləri ilə həmrəy olduqlarını bildirdilər. Polis və jandarm dəstələri üsyançılara qoşuldular. İran ordusunun Azərbaycandakı rəisi Sərdar İntizar Müzəffər Ələm də Xiyabaninin yanına gələrək rəsmən öz xidmətini təklif etdi.

Müəllimlər üsyana qoşulduğundan məktəblərdə dərslər dayandırıldı.

Üsyana rəhbərlik üçün İctimai İdarə Heyəti (İİH) təşkil olundu. ADP-nın fəal üzvlərindən (Mirzə Tağıxan Rəfət, Zeynalabdin Qiyami və b.) ibarət bu heyətə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. İİH-nın rəhbərliyi ilə üsyançılar iki gün

müddətində demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Aprelin 9-a gecə ikən Byullinq, onu müşayət edən şəxslər və onunla birlikdə Təbrizə daxil olmuş polis dəstəsi şəhəri tərk etməyə məcbur oldular.

Beləliklə, silahlı üsyan qan tökülmədən qələbə çaldı.

Təbrizdə üsyan qalib gəldikdən və bütün şəhər üsyançıların əlinə keçdikdən sonra İİH əhaliyə fars və fransız dillərində bəyanatla müraciət etdi (19 həməl). Bəyanatda bütün Azərbaycan əyalətində ümumi asayiş yaratmaq, hökumət nümayəndələrinin konstitusiyaya zidd olan siyasətinə son qoymaq və konstitusiyanı sözdən işə keçirmək üsyanın əsas məqsədləri hesab olunurdu. Başqa sözlə, bəyanatda Azərbaycan demokratlarının qanun-qayda yaradılması, şəxsiyyət və xüsusi əmlakin toxunulmazlığının təyin olunması, məhdud da olsa, bir sıra demokratik hüquqlar verilməsi və s. haqqında başlıca tələblərini özündə əks etdirən, lakin həyata keçiril mədiyi üçün praktiki əhəmiyyətini itirmiş konstitusiyasının bərpa olunması tələbi qarşıya qoyulurdu.

Bəyannamədə əks olunmasa da, üsyanın əsas hədəflərindən biri İranda ağalıq edən ingilis imperialistləri, onların ölkədəki qəsbkarlıq siyasəti idi. Aprelin 7-də Xiyabaninin Təbriz əhalisi qarşısında söylədiyi sözlər də hərəkatın antiimperialist mahiyyətini göstərirdi. «Bu gün bütün dünya camaatına rəsmi bildiririk ki, biz Vüsüqüddövlə və ingilis talançı sazişini (1919-cu il sazişi) bağlamış hökumət əleyhinə üsyan etmişik və... Azərbaycanın adını Azadistana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik».

Xiyabani 24 maydakı nitqində bütün idarələrdən rəsmi sənədlərdə əyalətin adının «Azadistan» yazılmasını, həmçinin Tehranla danışıqlarda dövlətin Azadistanı rəsmən tanımasını tələb etmişdi.

Azərbaycan əyalətinin adının dəyişdirilməsi İranda və xaricdə müxtəlif rəylər doğurmuşdu. Bəzi İran müəllifləri hesab edirlər ki, Azərbaycan «Azadistan məmləkəti» adlandırılmış və

bundan məqsəd əyaləti İrandan ayırmaq olmuşdu. Digər müəlliflər iddia edirlər ki, Azərbaycan əyalətinin adının dəyişdirilməsi onu Şimali Azərbaycandan fərqlənmək və bəzi yanlış fikirlərə əsas verməmək niyyətindən irəli gəlmişdi.

Qərb tarixçiləri Təbriz üsyanı, hərəkatın başçısı Xiyabanini separatçı adlandırmaqla yanaşı, üsyan rəhbərlərini Sovet Azərbaycanına qarşı qoymağa, Xiyabanini antisovetçi kimi göstərməyə çalışmış və «Azadistan» adının verilməsini məhz Azərbaycan SSR-nin yaranması ilə bağlamağa cəhd etmişlər.

İİH öz fəaliyyətinə Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları Təbrizdən qovmaqla başladı. Valı müavini Əminülmülk, maliyyə işləri başçısı Tərcümanüddövlə, ədliyyə idarəsində çalışan məmurlar və başqaları Təbrizdən getməyə məc- bur edildilər. Kənar edilmiş dövlət məmurlarının yerinə ADP-nin tanınmış üzlərindən təyin olundu. Cavanlar təşkilatı «Azadistan"» jurnalının nəşrinə başladı.

İran hökuməti üsyan xəbərini alan kimi Təbrizdə mərkəzi hökuməti təmsil edən dövlət məmurlarına göstəriş verdi ki, hərəkat üsyançılar tərəfindən tərksilah edilməyən kazak dəstələri vasitəsilə yatırılsın. İlk zərbəni şahzadə Eynüddövlə vasitəsilə həyata keçirmək planlaşdırıldı.

Azərbaycan əyalətinə vali göndərilən və Təbrizə gəlməyə cəsarət etməyən Eynüddövlə Tehrandan verilən göstərişə əsasən Miyanadan çıxaraq Təbrizə tərəf hərəkət etdi. Eynüddövlə öz gəlişi haqqında yoldan Xiyabaniyə xəbər göndərdi, İİH ADP-nin mübariz üzvlərindən sayılan Mötəmedüttüccarı onunla danışığa göndərdi. Təbrizin yaxın kəndlərindən olan Hacıağadakı danışıqlar zamanı Mötəmedüttücar İİH-nin 8 maddədən ibarət tələblərini Eynüddövləyə təqdim etdi. Bu tələblərə görə Şahzadə özü ilə Təbrizə heç bir silahlı qüvvə gətirməməli, Tehrandan göndərilmiş məmurlar kənar edilməli və onların yerinə İİH-nin təyin etdiyi (edəcəyi) şəxslər rəsmən

tanınmalı,Tehrandan əyalət üçün pul vəsaiti ayrılmalı və Eynüddövlə gələcəkdə demokratların razılığı olmadan heç bir iş görməməli idi. Eynüddövlə zahirən bütün şərt və təəhhüdləri qəbul edərək aprelin 20-də (30 fərvərdin) Təbrizə daxil oldu. Üsyan rəhbərləri Eynüddövləni qarşılamasalar da, onun öz dəstəsi ilə birlikdə yerləşdiyi binanı - Ala Qapını nəzarət altında saxladılar.

Eynüddövlə üsyanı yatırtmaq haqqında dərhal bir sıra tədbirlər görməyə başladı, ilk növbədə Tehrandan külli miqdarda pul tələb etdi. O, baş nazir Vüsuqüddövlənin gizli tapşırıqla Təbrizə göndərdiyi Hüseynağa Fişəngçinin vasitəsilə üsyana başlamaqla ADP-dən uzaqlaşmış Mirzə Əli Heyət, Soltanzadə, doktoq Zeynalabdin xan, Əhməd Kəsrəvi və başqalarından ibarət «Tənqidiyyun» (Tənqidçilər) adlanan qrupun demokratlara qarşı qiyamını təşkil etməyə çalışdı. Adları çəkilən şəxslərə böyük miqdarda pul vəd edilmiş, həmçinin, bildirilmişdi ki, Eynüddövlənin ətrafındakı dəstə, o cümlədən onunla Təbrizə daxil olmuş Qaradağ tayfa başçılarından Məhəmmədhüseyn xan Sərdar Əşairi də onlara kömək edəcəkdi.

Təbriz üsyanından təşvişə düşmüş ingilis imperialistləri də üsyanın yatırılması planın hazırlanmasında iştirak edirdilər. İngiltərə səfirliyinin siyasi idarə rəisi Miçer Edmond Təbrizə göndərilmişdi. Miçer Edmond da «Tənqidiyyun» qrupu üzvləri, o cümlədən Əhməd Kəsvəri ilə görüşərək onları üsyançılara qarşı sövq etmişdi.

Mayın 10-da (20 ordibehşət) həmin planı həyata keçirməyə çalışan şəxslər Eynüddövlənin evindən çıxdıqları vaxt həbs edildilər. Onların bir qismi Tehrana (Təliyyə), başqaları Kürdüstana (Sultanzadə, doktor Zeynalabdin və Əliəkbər Həriri) sürgün edildi. Fişəngçi, Sərdar Əşair və b. Təbriz həbsxanasında saxlandılar. Onların bir qismi sonra Tehrana sürgün edildi. Qalanları, o cümlədən Əhməd Kəsrəvi bir neçə gün gizləndikdən sonra Tehrana qaçdılar.

M.Edmondun müxalif qrupları təhrik etməsi planı baş tut-

madıqda, əlacsız olaraq Xiyabani ilə danışığa girdi. Danışıqlar zamanı Xiyabani Azərbaycanı (Azadistanı) İrandan ayırmaq fikri olmadığını, mövcud konstitusiyasını həyata keçirmək və bütün İranın vəziyyətini islah etmək məqsədi daşıdığını söylədi. O, danışığın sonunda zərurət olmadan Azərbaycanda saxlanan hind sipahiləri dəstəsinin Təbrizdən çıxarılmasını tələb etdi. Bu danışıqdan sonra hind sipahiləri Təbrizdən çıxarılaraq Zəncan yolu ilə Azərbaycandan kənar edildilər. Xiyabani ilə söhbətdən istədiyi nəticəni əldə edə bilməyən M. Edmond Tehrana qayıtmağa məcbur oldu. Bununla da, İran dövlətinin və ingilislərin Təbriz üsyançılarına qarşı qurduğu plan baş tutmadı.

Dövlət idarələri mərkəzi hökumət nümayəndələrindən təmamilə təmizləndi və Azərbaycanda hakimiyyət Xiyabaninin əlinə keçdi.

## 4.4. Milli hökumətin yaradılması və fəaliyyəti. Ş. M. Xiyabani

1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında Milli Hökumət (MH) yaratmağı qərara aldı.

Yerli İcariyyə orqanı olan MH demokratik respublika qaydalarına əsaslanırdı. Xiyabaninin sədrlik etdiyi MH-nın tərkibinə ADP-nin üzvlərindən 20 nəfər daxil oldu. MH-nın üzvləri əsasən ticarət burjuaziyasına (Badamçı, Nağı Gəncəyi və b) və ya bir qismi Xiyabani kimi ticarət burjuaziyası ilə bağlı olan ziyalı təbəqəsinə mənsub idi. MH-nin üzvləri içərisində orta və xırda mülkədarların (Haşim Neysari, Mahud Əmin, Seyidülmühəqqin), ziyalıların (Mirzə Tağıxan Rəfət, İsmayıl Əmir Xızı, Əbülqasim Fiyuzat, Məhəmmədhüseyn Səfvət), qulluqçuların (Nurullaxan Yekani, Nüsrətulla Neysari) nümayəndələri də var idi. MH-in tərkibinə hərəkata təsadüfi və şəxsi mənafeləri xatirinə qoşulmuş ticarət burjuaziyasının bəzi nümayəndələri də daxil idi.

MH-in sosial tərkibinin rəngarəng olması gələcəkdə onun fəaliyyətinin pozulmasına səbəb oldu.

MH sədri Xiyabani seçilmişdi, maliyyə nazirliyi də bilavasitə onun nəzarəti altında idi. Maarifçilik işlərinə rəislik Əbülqasim Fiyuzata, vəqf idarəsi - Məhəmmədhüseyn Səfvətə, qoşun rəisliyi Müzəffər Ələm Sərdara həvalə edilmişdi.

**MH sədri Şeyx Məhəmməd Xiyabani (1879/80-1920)** cavan yaşında İran Məşrutə inqilabında iştirak edən böyük ruhani alim və müctəhidlərdən biri idi. İran Sosial-Demokrat (İctima- iyyun-Amiyyun) partiyasının rəhbəri Əli Müsyö Məşrutə inqilabı dövründə onu Azərbaycan əyalət əncuməninin başçısı təyin etmişdi. Onun ictimai fəaliyyəti və nüfuzu İranın mürtəce dairə lərini qorxuya salırdı. İranın Xarici İşlər Naziri Həsən Vüsuq üddövlə Xiyabaniyə sui-qəsd hazırlatmışdı. Bu qəsddən xəbərdar olan Şeyx gizli surətdə Tehrandan çıxmış və Xorasan yolu ilə Aşqabada, oradan Mahaç-Qalaya getmişdi.



**Ş.M.Xiyabani**

Xiyabani Birinci Dünya müharibəsi ərəfəsində Təbrizə qayıdır və burada Məşrutə inqilabının ənənələri uğrunda siyasi mübarizəyə qoşulur. O, Müzəffərəddin şah tərəfindən imzalanmış Konstitusiyanın əməldə həyata keçirilməsi üçün azadlıq və milli istiqlaliyyət hərəkatının ideoloji əsaslarını hazırlayır.

Xiyabani bir neçə il Təbriz şəhərində geniş təşkilati və təbliğati fəaliyyət göstərir və 1920-ci ilin aprelindən Təbriz üsyanına rəhbərlik edərək siyasi hakimiyyəti ələ alır. Altı ay müddətində Azərbaycanda hakimiyyət Xiyabani və onun tərəfdarlarının əlində qalır.

Xiyabani 20-ci əsrin birinci rübündə Azərbaycan və bütün İranda xalq hərəkatı ideologiyasını demokratik prinsiplər əsasında inkişaf etdirməkdə mühüm rol oynamışdı.

Şeyx Məhəmməd Xiyabani «Nə etməli» məqaləsində özünü Məşrutə tərəfdarı adlandıran və əslində məşvərət üsulunu tapda layan hakimiyyəti ifşa etmişdi. O, mübarizlik və cəsarət mək

təbinin əsasını qoymuşdu. «Qorxu və cəsarət» adlı məqaləsində yazırdı: «Qorxuram sözü, onu deyən adamın öz vicdanı qarşısında biabırcasına etdiyi etirafdır. Qorxuram sözü rəzalətin ən alçaq dərəcəsini və onu deyən adamın ruh düşgünlüyünü andıran bir formul və ifadədən ibarətdir. Qorxu insanın təbiətində mövcud olan ən çirkin bir hiss və uğursuz bir həyacandır. Qorxu adamı mərdlik şərəfindən və alicənablıqdan məhrum edir. Qorxaq bir millət isə çox çəkmədən başqa bir qəddarın əlində girifdar olar. Qorxu insanın qul olmasının başlıca səbəblərindəndir. Qorxu təməddünün, yeniliyin qabağında duran ən böyük maneədir. İnsan dünyaya bir dəfə gəlib, mütləq ölməlidir, ancaq burada necə yaşamaq və necə ölmək qarşıda durur».

*Maddi igidlikdən* bəhs edən şeyx yazırdı ki, təhlükə və xətər qarşısında soyuqqanlılıqdan ibarətdir ki, onun ən yüksəyi ölümə qarşı etinasız olmaqdır, çünki ən böyük təhlükə ölümdür və heç kəs ölümlə iki dəfə qarşı-qarşıya gəlməyəcəkdir. Maddi igidlik elə bir həqiqətdir ki, onu mənimsəmək mümkündür. Hər bir adam adi təhlükəyə rast gəldikdə həyacanlanır, öz aramlığını itirir.

Xiyabaniya görə *mənəvi igidlik* öz etiraslarına hakim olmaq və onları özünə tabe edə bilməkdən ibarətdir. Bacarıqlı şəxslər öz nəfslərinə üstün gələ bilirlər… Belə şəxslər məğlubedilməzdirlər. Buna görə də, mənəvi igidliyin vaxtı vardır…

*Qoçaq bir sərkərdənin qələbə çalmasına, nailiyyətlər əldə etməsinə səbəb ancaq xalqların qoçaqlığı olmuşdur. Qoçaq xalqlar bəşəriyyətin dincliyini təmin etməli, demokratiyanın inkişafı və təkamülü uğrunda igidlik göstərməli və qorxmamalıdırlar»* Xiyabani deyirdi: «Azərbaycan demokratiyası öz müqəddaratını öz əlində saxlamalı, həmişə sayıq olmalıdır. Elə çıraq yandırmaq lazımdır ki, ixtiyarı öz əlimizdə olsun. Azərbaycana hakimiyyət edən Milli hökumət bütün İran üçün nümunədir. İranın azadlığı Azərbaycanın azadlığının ayrılmaz hissəsidir. Bizim istədiyimiz

Milli hökumət elə bir hökumətdən ibarət olsun ki, xalqı pak, doğruçu nümayəndələr təmsil etsinlər.

...Biz aşağı sinifləri öz ictimai hüquqları ilə tanış etməliyik, onları elm və bilik silahı ilə silahlandırmalıyıq ki, öz azadlıqarını müdafiə etmək üçün möhkəm dayansınlar. *Elmsiz bir millət zülm altında əzilər, öz istiqlalını itirər».* Böyük şeyxin fikirləri bu gün üçün də aktualdır.

MH partiya proqramından çıxış edərək Cənubi Azərbaycanda kənd təsərrüfatı, maarif, maliyyə, ədliyyə və s. sahələrdə islahatlar və başqa tədbirlər həyata keçirməyə başladı. Milli hökumət ilk növbədə Təbriz əhalisinin həyat şəratini yaxşılaşdırmaq məqsədilə hökm sürən qanunsuzluq və özbaşnalığa son qoydu, çoxişlənən malların qiymətini aşağı saldı, sabit qiymət müəyyən etdi, xırda tacir, sənətkar və kəndlilərin vəziyyətini nəzərə alaraq Təbrizlə ətraf kəndlər arasında mal mübadiləsinin yaxşılaşması üçün tədbirlər gördü. Vergi sistemi və torpaq mülkiyyəti sahəsində islahat keçirmək üçün layihə hazırlandı. Layihəyə görə kəndli mülkədarlardan torpağı yalnız satın ala bilərdi. Bunun üçün kəndliyə müəyyən edilmiş vaxtda ödəmək şərti ilə bankdan borc pul verilməsi nəzərdə tutulurdu. Komissiya vəqf torpaqlarının həmin yolla kəndlilər tərəfindən satın alınmasını nəzərdə tuturdu.

Göründüyü kimi, Milli hökumət kəndliləri üsyan ətrafında birləşdirmək, hərəkatı daha mütəşəkkil etmək üçün mühüm məsələ olan torpaq məsələsini məhdud şəkildə də olsa həll edə bilmişdi.

### 4.5. Üsyanın yatırılması və hərəkatın məğlubiyyət səbəbləri

Təbriz üsyanı bütün İranda böyük xalq həyəcanlarına və milli intibaha səbəb olduğundan qoxuya düşən İranın hakim dairələri üsyanı yatırmaq və Xiyabanini aradan qaldırmaq qərarına gəldilər.

1920 - ci ilin sentyabr ayının ilk günlərində Hidayət Müxbirüssəltənə Təbrizə daxil oldu. Müxbirüssəltənənin Cənubi Azər baycana göndərilməsi ərəfəsində Əmir Ərşəd, Nəsrullah

Yurdçu və başqalarının feodal bandaları İran hökuməti və ingilislərin təhriki ilə yenidən üsyançılara qarşı fəaliyyətə başladılar. Əmir Ərşəd Əhərə hücum etmiş, orada Seyfülmülkün başçılığı altında olan demokratik qüvvələri mühasirəyə almışdı. Demokratik qüvvələr Əhərin müdafiəsinə qalxdılar. MH Təbrizdən Haşim Neysarinin, Urmi yadan isə Ağazadənin başçılığı altında onlara kömək göndərdi. Göndərilən qüvvələrin Əmir Ərşədin dəstəsi ilə şiddətli döyüşə girmələrinə baxmayaraq, Əhərdəki hissələrlə birləşə bilmədilər və Bilvərdi kəndində mühasirəyə düşdülər. Əmir Ərşədin qüvvələri Sərənd və Xurmalı tərəfindən Təbrizə yönəldilər. Onun kəşfiy yatçıları Təbriz yaxınlığında olan Kəklikbalağa yetişdilər. MH təcili surətdə Zeynalabdin Qiyaminin başçılığı ilə iki top, bir neçə pulemyot və s. digər hərbi ləvazimatla təchiz olunmuş 200 nəfərlik qüvvəni Əhərdə və onun yaxınlığında mühasirəyə düşmüş demo kratlara köməyə göndərdi. Qaradağ əhalisi də ümumi hərəkata qoşularaq böyük fədakarlıqla Seyfülmülkün başçılığı altında Əhərin mühasirəsini yardılar və müdafiədən hücuma keçdilər. Hərbi ləvazimata böyük ehtiyacı olan bu qüvvələr Qiyamının hissələri ilə birləşərək, üç tərəfdən Əmir Ərşədin qüvvələri üzərinə hücuma keçdilər. Əmir Ərşəd Uxariyə çəkildi. Bu vaxt Neysarinin qüvvələri də mühasirədən çıxaraq Əhərə gəldi. Əhər daxilində Əmir Ərşədlə əlbir olan irticaçılardan Mirzə Əhməd Müctəhid, Mirzə İsmayıl Həkimbaşı, Mir Kazım, Haşım və başqaları ələ keçirilərək, Kəley bərə sürgün edildi.

ADR-in silahlı müqavimətinə baxmayaraq əksinqilab sentyabrın 12-də Ala Qapını ələ keçirdi. Sentyabrın 14-də «Təcəddüd» qəzetinin binası dağıdıldı. Üsyançılara amansız divan tutuldu. Xiyabani qəhrəmancasına həlak oldu. Şeyxin faciəli ölümündən xəbər tutan «Azadistan» jurnalının baş redaktoru Mirzə Tağı Rəfət intihar etdi. Şeyxin 300 nəfərdən artıq tərəfdaşı tutulub həbs edildi.

Beləliklə, Təbriz üsyanı yatırıldı. Üsyan məğlub olsa da, bu hərəkat Cənubi Azərbaycan türklərinin İranda xaricilərin ağalığına, irtica özbaşınalığına qarşı mübarizəsində parlaq səhifə təşkil edir.

Təbriz üsyanı İran türklərinin - azərbaycanlıların öz milli varlığı uğrunda mübarizəsinin şanlı səhifəsidir. Xiyabani isə mübarizənin bayraqdarı olaraq azərbaycanlıların qürur və dəyanət rəmzinə çevrilmişdi.

### 4.6. Məhəmməd Taqi Xan Peysan hərəkatı

Məhəmməd Taqi Xan Peysan 1887-ci ildə Təbrizdə doğulmuşdu. Birinci Dünya müharibəsində yaralanan Məhəmməd Taqi müalicə olunmaq üçün Almaniyaya getmiş,müalcə olunduqdan sonra alman ordusuna daxil olaraq hərbi biliklərə yiyələnmiş, 1920-ci ildə Tehrana qayıtmışdı. Rza şah onu Şeyx Məhəmməd Xiyabaninin Azadistan dövlətini məhv etmək üçün göndərmək istəsə də o, bununla razılaşmamışdı. Xorasan vilayətinin hərbi komandirliyini qəbul edən Məhəmməd Taqi orada qayda-qanun yaratmaq məqsədilə bir sıra işlər görmüşdü. Məhəmməd Taqinin işləri Xorasanın valisi Vüsuquddövlənin qardaşı Əhməd Qəvəmüssəltənəni və ingilisləri narahat etməyə başlamışdı.

Vali ilə Məhəmmədin arasında ilk münaqişə siyasi dustaqların taleyi ilə əlaqədar yaranır. Qəvəmüssəltənə siyasi dustaqların xalqın qarşısında güllələnməsini, Məhəmməd Taqi isə azad buraxılmasını istəyirdi. Lakin baş verən bir hadisə Məhəmməd Taqiyə qisas almaq imkanı yaratdı. Belə ki, 1921-ci ilin may ayında Tehrandan Məhəmməd Taqiyə fərman gəldi ki, Qəvəmüssəltənəni Tehrana yollasın. Fürsəti fövtə verməyən Məhəmməd Taqi onu tutub nəzarət altında Tehrana yolladı. Ona məxsus əmlak, pul və digər şeylər dövlət adına müsadirə edildi. Beləliklə, azadixahların qarşısında meydan açıldı.

Məhəmməd Taqi Xan 1920-ci ildə Xorasanda üsyan bayrağını qaldırdı və 1921-ci ilin aprel ayında müstəqilliyini elan etdi. Milli ordu yaradıldı, onları «Fədai» adlandırdı. Qısa müddətli hərbi kurslar təşkil edildi. Məşhəddə xəstəxanalar və

yetimxanalar açıldı. Kəndlilərin dövlətə olan borcları bağışlandı, torpaqsızlara torpaq verildi.

Lakin bu zaman mərkəzdə vəziyyət dəyişmişdi. Qəvəmüs-səltənə həbsdən azad olunmuş və baş nazirliyə təyin edilmişdi. O, şahla əl-ələ verərək Məhəmməd Taqinin hərəkatını yatırmaq və Taqiyə divan tutmaq haqqında plan hazırlayırdı. Məhəmməd Taqinin islahatları ingilislərin mənafeyinə toxunduğundan onlar casusları Beylini Tehrana yollayaraq Taqini ələ almağa çalışırdılar. Ancaq istəklərinə nail olmadıqda din adamlarına pul verərək onun haqqında şayələr yaymağa başladılar. Bundan da nəticə hasil olmadıqda onun üstünə 4.000 nəfərlik ordu göndərildi. İlk vaxlar Məhəmməd Taqinin qüvvələri ingilislərin və Rza şahın qüvvə lərinə qarşı uğurla döyüşdü. Məhəmməd Taqi xanın məqsədi Cəfərabad təpələrinə sarı getmək və oradakı döyüşlərdə iştirak etmək idi. Ancaq o, da Səttarxan və Bağırxan kimi xəyanətlə üzləşdi və qətlə yetirildi.

# V FƏSİL

## Azərbaycan 1920 -1941-ci illərdə

### 5.1. Azərbaycanda sovet rejiminin bərqərar olması

1920-ci il aprelin 27-dən 28 - nə keçən gecə bolşeviklər Azərbaycan Xalq Cümhuriy yətini devirdilər və hakimiyyəti ələ keçirdilər. 27 aprel 1920 - ci il tarixdə N. Nəri manov, M.Hüseynov, Q.Musabəyov, H.Sul tanov, Ə.Qarayev, D.Bünyadzadə, C. İldırım XI ordu dəmiryolu savaşı xəttinin əsgəri komissarı İ.K. Dudinə «Bakının ələ keçirilməsi münasibətilə təbrik məktubu» göndərdilər. Məktubun içərəsinə brilyant da qoyulmuşdu. 1920-ci il aprelin 28-də Müvəqqəti İnqilab Komitəsi Azərbaycan SSR Xalq Komissaları Sovetinin tərkibini aşağıdakı kimi təsdiq etdi:



**N.Nərimanov**

N.N.Nərimanov-XKS-nin sədri və xalq xarici işlər komissarı

C.İldırım - Xalq Hərbi Dəniz Komissarı

H.H.Sultanov - Xalq Daxili İşlər Komissarı

Ə.H.Qarayev - Xalq əmək və ədliyyə komissarı

Q.M.Musabəyov - Xalq əkinçilik, ticarət, sənaye və ərzaq komissarı

M.D.Hüseynov - Xalq maliyyə komissarı

D.X.Bünyadzadə - Xalq maarif və dövlət nəzarəti komissarı

J.Kərimov-Xalq poçt, teleqraf və yollar komissarı

A.Ə.Əlimova - Xalq səhiyyə və himayə komissarı

Azərbaycan sovet hökumətinin ilk kabinetinin tərkibi sonralar dəfələrlə dəyişmiş, onun səlahiyyətləri Mərkəzin istəyi ilə gah azaldılmış, gah da artırılmışdı.

1920-1945- ci illərdə Azərbaycan K (b) MK katibi vəzi fəsini V.İ Naneyşvili (23 iyul 1920- 8 sentyabr 1920), E.D.Statsova (9-15 sentyabr 1920), V.E.Dumbadze (15 sentyabr -24 oktyabr 1920), G.N.Kaminski (24 oktyabr 1920- 24 iyun 1921), S.M.Kirov (24 iyun 1921- 20 yanvar 1926) tutmuşlar. A.Qarayev (4 dekabr 1925-29 dekabr 1929), R.A.Axundov (4 dekabr 1925- 21 yanvar 1926; 24 dekabr 1929- 15 iyul 1930, 18 avqust 1930) Azərbaycan MK katibləri, N.F. Gikalo (11 iyul 1929- 4 avqust 1930), V.İ. Polonski ( 18 avqust 1930- 6 fevral 1933), R. G. Ruben ( 6 fevral -10 dekabr 1931) və M.C.Bağırov ( 10 dekabr 1933-18 aprel 1953) Azərbaycan MK birinci katibləri vəzifəsində işləmişlər.

Azərbaycan hökumətinə N.Nərimanov (aprel 1920- mart 1922), Q.Musabəyov (aprel 1922-mart 1930), D.Bünyadzadə (mart 1930- oktyabr 1932), M.C.Bağırov (oktyabr 1932- dekabr 1933), H.Rəhmanov (dekabr 1933-oktyabr 1937), T.Quliyev (noyabr 1937- fevral 1954) rəhbərlik etmişlər.



**XI Qızıl Ordunun Bakıya yürüşü**

Sovetlərin hakimiyyəti 1920-ci ilin may ayının birinci yarısında demək olar ki, bütün Azərbaycanda quruldu. Bir sıra partiyalar yeni hökumətə xeyirxah münasibətlərini bil dirdilər, hətta hökumətin tərki binə də daxil oldular. Ancaq bolşeviklər apreldə hakimiyyəti təhvil alarkən verdikləri sözü tutmadılar. XI Qızıl Ordu nun xüsusi şöbəsi, fövqəladə komissiya «Müsavat» partiya sının, digər siyasi cərəyanların və qrupların üzvlərini təqib etməyə başladılar. Partiyalarla bağlanmış sazişə əməl edilmədi, onların üzvlərinin həyatının və əmlaklarının qorunmasına dair

öhdəliklər yerinə yetirilmədi. Bu məsələnin faciəli olduğunu N.Nərimanov 1921-ci il mayın 8-də çağırılan Birinci Azərbaycan Sovetlər qurultayında etiraf etmişdi.

Azərbaycan Cümhuriyyətinin liderləri, görkəmli nümayəndələri, ictimai təşkilatların, siyasi partiyaların rəhbərləri, hərbiçilər həbs edildilər. Onların bir çoxu Nargin adasında güllələndi, Slovetks adalarına, Suzdala, Novqoroda və b. yerlərə həbs düşərgələrinə göndərildilər. Əlbəttə, bütün bunlar Azərbaycan İnqilab Komitəsinin icazəsi olmadan rus şovinistləri və erməni daşnaqlarının başçılıq etdiyi XI Qızıl Ordunun xüsusi şöbəsi tərəfindən həyata keçirilirdi. Daşnaq terrorçuları 1920-1921-ci illərdə F.Xoyskini və H.Ağayevi Tiflisdə, Behbudağa Cavanşiri Malta adasında qətlə yetirdilər. General Süleyman Sulkeviç, hökumət üzvləri X.Rəf bəyov, İ.Ziyadxanov, alim və pedaqoq F.Köçərli, professor Zimin və başqaları həlak oldular. Azərbaycan hökumətinin başçılarından biri N.Yusifbəyli quldurlar tərəfindən Kürdəmirdə öldürüldü. M.Ə.Rəsul zadə isə bir zamanlar (1907- ci ildə) ölümdən xilas etdiyi İ.Stalin tərəfindən həbsdən azad edildi və Moskvaya işə dəvət olundu. Sonralar M.Ə.Rəsulzadə Türkiyəyə gedə bildi. ADR-in və Azər baycan ziyalılarının bir çox görkəmli xadimləri Ə.M.Topçubaşov, Ə.Ağayev, A.Şeyxulislamov, C.Hacıbəyli, M.B.Məmmədzadə, Mus tafa Vəkilov, Mirzə Əsədullayev, Əbdüləli bəy Əmircan və başqaları mühacirətdə olduqları üçün faciədən uzaqda qaldılar, lakin vətəndən kənarda dünyalarını dəyişdilər.

Sovet hakimiyyətini ələ keçirən bolşeviklər kütləvi həbslərə başladı. XI Ordunun xüsusi şöbəsinin rəisi Pankratov bütün idarə, müəssisə və təşkilatlara müraciət edərək 1920- ci il 27 aprel tarixinədək işçilərin harada, hansı vəzifədə çalışmaları, mayın 21-dən saat 2 - dən gec olmayaraq işçilərin şəxsi işlərinin Fövqəladə Komissiyaya təhvil verilməsini, hər ayın əvvəlində şəxsi heyətdə olan dəyişiklər haqqında məlumatların vaxtında çatdırılmasını qəti şəkildə tələb etdi. Tələb olunan məlumatları verməyənlərin ciddi cəzalandırıla cağı bildirilirdi. 1920 - ci ilin aprelindən həmin ilin sentyabrınadək Azərbaycan xüsusi xidmət orqanları 1.308

nəfəri nəzarət altına aldılar. İş o yerə çatdı ki, N.Nərimanov 1920-ci il mayın 27-də «Kifayət qədər əsas olmadan tutulub saxlanılanların hamısını həbsdən buraxmaq üçün xüsusi komissiyanın yaradılması haqqında» dekret imzaladı. İyun ayının 12- də isə N.Nərimanov həbs yerlərində olan fəhlə, kəndli və əsgərlərin geniş şəkildə amnistiyası haqqında dekret verdi. Avqustun 12-də imzalanan əmrə görə idarə müdiriyyətinin icazəsi olmadan qulluqçuların xidməti hərəkətlərinə görə Fəhlə Kəndli orqanları tərəfindən həbs olunması qadağan olundu. 1920-ci il noyabrın 6-da «özlərinin şüursuzluğu və siyasi yetkinliyinin çatışmazlığı ucbatından istər ümumi, istərsə də siyasi xarakterli cinayətlər törətmiş bütün şəxslər» barəsində amnistiya tətbiq olundu.

Bütün bunlar göstərir ki, sovet hakimiyyəti yeni quruluşdan narazı olanları, milli müstəqilik uğrunda mübarizə aparanları, siyasi təşkilatların və cərəyanların liderlərini, ziyalıları təqib etmiş, onlar saxta ittihamlarla günahlandırılmış




**Azərbaycan İctimai Şura (Cümhuriyyəti) hökumətinin ilk tərkibi. 1920-ci il**

və cəzalandırılmışlar.

Azərbaycandakı siyasi durum getdikcə dərinləşirdi. Azərbaycan SSR XTŞ-nın sədri N.İ.Soloyovun Leninə göndərdiyi «Çevrilişdən sonrakı iki ayda (1920-ci il may-iyun) Azərbaycanda bizim siyasətimiz» adlı məktubunda Azərbaycandakı vəziyyətdən bəhs edərək bildirirdi ki, Azərbaycan İnqilab Komitəsinin azərbay canlılardan olması müsbət faktdır, lakin inqiab komitəsinin başının üstündə AK (b) P MK durmur və burada rəhbər rol erməni və gürcü qruplaşmasındadır. Bu qrup MK vasitəsilə kütləvi həbslər keçirir, ziyalıları məhv edirlər … Ermənistan Respublikası yaranarkən onun hüdudlarındakı 250 müsəlman kəndinin hamısı məhv edilmişdi». Solovyovun məktubu sovet Rusiyasının daşnaq Ermənistanla birlikdə Azərbaycanda həyata keçirilən siyasətinin iç üzünü açır.

Vəziyyət Birinci Ümumazərbaycan sovetlər qurultayında müzakirə olunmuş və qurultayın qərarına əsasən N.Nərimanov 1921-ci il mayın 26-da «Azərbaycanın sovetləşməsi dövründə (1920-ci il aprelin 28- dən 1921-ci ilin mayın 26-dək) Azərbay canın hüdudlarından kənara sürgün edilmiş istər mülki, istərsə də hərbi idarələrdə çalışan bütün şəxslərin RSFSR-in həbs düşərgələrindən, həbsxanalarından və həbs yerlərindən azad» olunması və qaytarılması haqqında məktubla V.İ.Leninə müraciət etmişdi.

Bolşevik siyasəti Azərbaycanda aclığa səbəb oldu. Cümhuriyyət dövründə Bakıda çörəyin qiyməti 25, ətin qiyməti 20, südün qiyməti 10 qəpik idisə, 1921- ci ilin aprelində bu qiymətlər müvafiq olaraq 1.000, 3.000, 700 rubladək yüksəlmişdi. Qiymətlər durmadan artırdı. 1921- ci ilin payızına qədər çörəyin qiyməti 6.500, yağın qiyməti 2.500 rubladək yüksəldi. Xalq yeməyə həsrət qalmışdı.

Azərbaycan Fövqəladə Komissiyasının 1921- ci ilin yanvar ayının 1- nə olan məlumatında Qubadlıda 1921- ci ilin iyun ayında hər gün 20-25 nəfər insanın öldüyü qeyd olunurdu. Azərbaycan FK-nın 1923- cü ilin yanvar ayında Azərbaycan K(b) P MK katibi S.M.Kirova göndərdiyi 77 saylı məktubunda

işçi və kəndlilərin durumunun oduqca acınacaqlı olduğu bildirilirdi.

Hadisələrin gedişi Ermənistanda və Gürcüstanda sovet hakimiyyətinin qurulmasından sonra qismən öz məcrasına düşdü. Qafqazda ictimai-siyasi vəziyyət dəyişdi.

Azərbaycan bolşeviklər tərəfindən işğal olunsa da, öz müstəqilliyini saxlamaq üçün müxtəlif yollardan istifadə olunurdu. Lakin RSFSR hökuməti mütəmadi olaraq Qafqaz respublikalarının suverenliyini pozur, baş verən münaqişələri özü «tənzimləməyə» çalışırdı. Nəhayət, Gürcüstanda sovet hakimiyyətinin qurulma sından sonra Azərbaycanla münasibətlər «qaydaya düşdü».

Azərbaycanın iqtisadiyyatı mərkəzdən göndərilən xüsusi mandatlılar tərəfindən idarə olunurdu. A.R.Serebrovski, N.Barinov xalq təsərrüfatının ayrı-ayrı sahələrinə rəhbər təyin edilmişdilər. Təbii ki, onların köməkçiləri və silahdaşları əksər hallarda başqa millətlərin, xüsusən ermənilərin nümayəndələri olurdular. Bakı partiya, həmkarlar və digər ictimai təşkilatlarda ermənilərin təsiri böyük idi. Yaranmış qeyri - sağlam mühit qarşılıqlı etimadı zəiflətdiyindən Moskvan öz təsirini partiya vasitəsilə həyata keçirməyə çalışırdı.

Mərkəz emissarlarının qeyri-normal fəaliyyətinin acı nəticələr verəcəyini əvvəlcədən hiss edən N.Nərimanov dəfələrlə Q.K.Orconikidzenin və onun silahdaşlarının düzgün olmayan hərəkətləri haqqında RK (b) P MK-ya, şəxsən Leninə məlumat vermişdi. Q.Orconikidzeni «Stalinin yanındakı general-qubernator» adlandıran N.Nərimanov onun açıq müstəmləkə siyasətini pislə yirdi. O, Azərbaycanı RSFSR ilə birləşdirmək istəyən Orconi kidzedən fərqli olaraq respublikanın müstəqilliyinin qorunub saxlanmasına çalışırdı. N.Nərimanov «...partiya günbəgün, saatba saat parçalanır. Hazırda Zaqafqaziyada bizim hakimiyyətimiz yal nız süngü gücünə yaşayır..» deyə mərkəzə gileylənirdi.

Azərbaycan, onun ürəyi olan Bakı haqqında formalaşan mənfi fikirlərin ən dəhşətlisi Bakını Azərbaycandan ayırmaq

təşəbbüsü, onu Rusiya imperiyasının ərazisi elan olunması cəhdləri idi. Bu sahədə Stalinin X qurultayda söylədiyi fikirlər də önəmli rol oynamışdı. Stalin Azərbaycan nümayəndə heyətinə xitabən demişdi: «Bakı Azərbaycanın nəhrindən böyüməmişdir, yuxarıdan Nobel, Rotşild, Vişau və başqalarının səyi ilə qurulmuşdur. Azərbaycanın özünə gəldikdə isə o, ən geridə qalmış patiarxal-feodal münasibətlər ölkəsidir. Buna görə də, Azərbaycanı mən kapitalizm mərhələsini keçməmiş ucqarlar qrupuna aid edirəm və bu ucqarları sovet təsərrüfatı çərçivəsinə daxil etməyin özünəməxsus metod larını onlara tətbiq etmək lazımdır».

Əslində bu siyasətin kökündə daşnaq-erməni xülyası dayanırdı. Daşnaqlar mərkəzdə nüfuzlu vəzifələri tutan həmvətənlərinin və dindaşlarının köməyi ilə Azərbaycan ərazisini ələ keçirmək istəyirdilər. Bakının və mədən rayonlarının rəsmi sənədlərdə «Rusiyanın ərazisi» kimi göstərilməsi də bu siyasətin tərkib hissəsi idi.

1920-ci illərdə Bakı partiya təşkilatında və Bakı Soveti İcraiyyə Komitəsində rəhbər vəzifələri ələ keçirən daşnaqlar XI ordunun xüsusi şöbəsində olan millətçi şovinistlərin dəstəyi ilə azərbaycanlı əhalini təqib etməyə başlamışdı. Qanunsuzluq, soyğun çuluq baş alıb gedirdi. «İnqilabi hakimiyyət» bayrağı altında partiya adından görünməmiş biabırçılıqlar törədilirdi.

Nəhayət, ümumi kommunist siyasətinin həyata keçirilməsində mövqelərin müxtəlif, hətta ziddiyyətli olması milli tərkibcə müxtəlif olan partiya və sovet işçiləri arasında ixtilafa gətirib çıxartdı. Müstəqil, süveren dövlət kimi Azərbaycanın tanınması məsələsində də ciddi fikir ayrılıqları meydana çıxdı. Ən qorxulu cəhət o idi ki, RK (b) P MK Qafqaz Bürosu və AK (b) P MK üzvləri milli məqamları düzgün qymətləndirmir, tez-tez mübahisələr baş verir, Bakı təşkilatı ilə AK (b) P və onun rəhbər orqanları arasında da ixtilaflar kəskinləşirdi.

Rəhbər orqanlar arasındakı qeyri-normal siyasi iqlim ictimai təşkilatların işinə də təsir edirdi. Şovinistlər sözdə qayda-qanun yaradılmasına tərəfdar olduqlarını bildirir, əslində isə bu

təşkilatlarda rəhbərliyi ələ keçirməyə çalışırdılar. Buna 1920-ci il avqust-sentyabr aylarında Bakıda keçirilən həmkarlar ittifaqlarının birinci qurultayı bariz nümunədir. Qurultayda Bakı partiya təşkilatının antiazərbaycan özəyi L.İ.Mirzoyanı Azərbaycan Həmkarlar İttifaqları Şurasının sədri seçdi.

Beləliklə də, Azərbaycanın suverenliyi uğrunda aparılan mübarizə öz müsbət nəticəsini vermədi.

## 5.2. Antisovet üsyanları

27 aprel hadisələrindən sonra Azərbaycan xalqı bolşevik rejimi ilə razılaşmadı. Yeni-yeni gizli siyasi təşkilatlar yarandı. Ayrı-ayrı qəzetlərdə dərc olunan bəyannamələr sovet idarələrini qorxuya salmağa başladı.

Bolşevik rejiminə qarşı Azərbaycanda aparılan mübarizəni 4 mərhələ ilə xarakterizə etmək olar:

1-*ci mərhələ* - 1920-1923-cü illəri əhatə edir. Bu mərhələdə Azərbaycandakı müsavatçılar və ittihadçıların bölgədəki və Gürcüstandakı menşeviklər, Dağıstandakı antisovet qiyamçılarla əla qəyə girməsi və kütləvi üsyanların təşkil ilə xarakterizə olunur.

2-*ci mərhələ* - 1923-1926-cı illəri əhatə edir. Bu mərhələdə respublikadakı partiyalar, o cümlədən «Müsavat» partiyası siyasi taktikasını dəyişir. Daha çox müşahidəçiliyə üstünlük verilir.

3-*cü mərhələdə* - 1926-1931-ci illərdə ölkə daxilində antisovet üsyanlar genişlənir.

4-*cü mərhələ* 1931-1937-ci illəri əhatə edir. Bu mərhələdə aparılan mübarizədə mütəşəkkillik olmasa da, ziyalılar təbəqəsi formalaşır. Onların milli ideologiyanın daşıyıcılarına çevrilməsi hakimiyyəti qorxuya salır, repressiya güclənir.

Birinci mərhələdə - 1921-ci ilə qədər hərbiçilərdən 12 general, 27 polkovnik və polkovnik-leytenant, 46 kapitan, ştabskapitan, poruçik və podporuçik, 146 praporşik, 26 nəfər başqa işçilər güllələnmişdi. Ümumilikdə, 1920-ci ilin 28 aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda 4 min adam qırmızı terrorun qurbanı olur. M.Ə. Rəsulzadə yazırdı ki,

Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı Pankratov idi. Onun əməli fövqündə bir əmr yox idi.

Pankratov XI ordunun siyasi şöbəsinin rəisi idi. Ümumiyyətlə, bu dövrdə Azərbaycanda 3 əsas təşkilat fəaliyyət göstərirdi: 1) XI ordunun, Pankratovun başçılığı altında olan xüsusi siyasi şöbə (Osobıy otdel); 2) Azərbaycan Fövqəladə Komissiyası (ÇK); 3) XI ordunun inqilabı tribunalı.

Bolşeviklərin Azərbaycanı işğal etməsi Qərb dövlətlərini hiddətləndirdi. Bakı neftini ələ keçirmək istəyən Qərb dövlətləri Böyük Britaniyadan asılı olan «İran… Azərbaycan Federasiyası» yaratmaq istəyirdilər. İngiltərənin Bakı nümayəndəsi Stoks Zaqafqaziya və Orta Asiya müsəlmanlarından «sünni» Türkiyəyə düşmən ola biləcək müsəlman dövləti yaratmağı təklif edirdi.

Qafqazın işğalına Böyük Britaniya hökuməti etiraz etdi. Britaniya nümayəndələri müttəfiqlər və Cənubi Qafqaz təmsil çiləri ilə görüşdülər. Tiflisdəki ingilis baş konsulu Azərbaycanın durumunu bəzi dairələrdə müzakirə etdi. Bu baxımdan Batumdakı ingilis topçu birliyinin komandiri Lükenin 27 və 28 aprel 1920- ci il tarixli məktubları diqqət çəkir. Məktublarda deyilirdi ki,: « 27 aprel gündüz saat 14-00 –da 6.000 nəfərlik bolşevik ordusu Azərbaycan sərhədlərini keçib Xaçmaz stansiyasına qədər irəli ləyərək Azərbaycan hökumətinin Ermənistanla sərhəddə olan əsgəri birliklərini müdafiə məqsədilə geri çəkməsindən sonra Azərbaycan nümayəndəsi Tiflis Britaniya səfirliyinə müraciət edərək erməni əsgəri birliklərinin və gözlənən hücumların önünə keçilməsi təlimatı verildiyini və hücumlara qarşı mübarizəyə yardım edilməsini, müttəfiq ölkələrin təmsilçilərindən öz nümayəndələrindən istifadə edərək Gürcüstan və Ermənistan hökumətləri ilə iş birliyi quran əvvəlki yaxınlaşmaların yenidən həyata keçirilməsini xahiş etmişdi. Bolşeviklərin Bakını işğal etməsini görən gürcü hökuməti müdafiə gücünü atırmaq üçün ingilislərdən Batumu tutmalarını xahiş etdi. Bundan məqsəd Lukenin Xarici İşlər Nazirliyinə göndərdiyi 29 saylı məktubda göstərildiyi kimi, «…Bolşeviklərin

Şərqə doğru genişlənməsinin qarşısının alınması» idi. Qafqazın çoxmillətli olmasından istifadə edən qərbli dindaşlar xalqları bir-biri ilə vuruşdurmğa cəhd edir, öz agentlərini-erməni daşnaqlarını silahla təchiz edir, Rusiyaya qarşı yürüşə hazırlayırdılar. İran ərazisindən Bakıya hücum planı da işləmişdi.

N.Nərimanov Qərb dövlətlərinin, xüsusi ilə İngiltərənin fitnəkar hərəkətlərinə qarşı etirazını bildirərək Çiçerinə bəyanat göndərmişdi. İngiltərə hökuməti antisovet üsyanları üçün Azərbaycana agentlər, silahlı dəstələr göndərərək tatarların üsyanını təşkil etmək istəyirdi. Bakıda tutulan 13 nəfərlik Britaniya qulluqçusu da əks təbliğat aparmaqda günahlandırılmışdı. «İttihad» partiyası da Tiflisdəki «Azərbaycan qurtuluş komitəsi» ilə əlaqə saxlayırdı. İttihadçılar da üsyan üçün hazırlıq görürdülər.

Ölkədəki vəziyyəti təhlil edən M.Ə.Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» ndə yazırdı: «İstiqlaldan bir ay sonra artıq bütün Azərbaycan məmləkətin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdi…Xalq təhəmmül etmədi, üsyan etdi».

Azərbaycanın bolşeviklər tərəfindən işğalına qarşı müqavimət hərəkatı getdikcə güclənirdi. Mayın 18-də bolşeviklər ilk belə çıxışlardan birinin qarşısını ala bildilər.

1920-ci il mayın ortalarında **Bakıda** sovet hakimiyyəti əleyhinə üsyana ciddi hazırlıq aparılırdı.

Yeni hökumətə qarşı ilk qüvvətli üsyan **Qarabağda** başladı. Yerli əhali, xüsusən də daşnaq Ermənistanının nizami qoşunlarına qarşı mübarizə aparmış Cümhuriyyət ordusunun əsgər və zabitləri yeni rejimə qarşı nifrətini silahlı çıxışlarla ifadə edirdilər. Artıq Şuşada Qarabağ sakinlərindən 300 nəfərlik silahlı dəstə də formalaşmışdı.

Qarabağdakı üsyançılara özünü Qarabağ hakimi elan etmiş türk generalı Nuru paşa rəhbərlik edirdi. Üsyançılara Şəki, Cavan şir, Ağdam atlı dəstələri, Bakı alayı və 2 topçu dəstəsi kömək edirdilər.

Üsyanda Qarabağın din adamları da önəmli rol oynayırdılar. Aparılan dini təbliğatda bolşeviklər yezidlər, allahsızlar kimi təbliğ olunurdu. Şuşanın Boyəhmədli və Hindarx kəndləri üsyanın əsas nöqtələri idi. 1920 - ci ilin may ayında Şuşada türk zabiti Kazım bəyin liderliyi ilə sovetlərə qarşı üsyan başlanmışdı.

Cavanşir qəzası üsyançılarının Şuşadakı üsyan mərkəzi ilə sıx əlaqəsi vardı. Şuşada Qarabağ II bölgə ordularının keçmiş komandiri Zeynalov, onun köməkçisi Əli Fasyab Ağalarbəyov türk generalı Nuru paşanın rəhbərliyində olan yerli inqilab komitəsinin, Azərbaycan K (b) P Mərkəzi Komitəsinin və partiyanın digər nümayəndələrini həbs etdikdən sonra Xankəndi üzərindən Ağdam və Yevlaxda yerləşən 28- ci rus dəstələrinə hücum etdilər. Hücumda Qarabağ atlı alayı, Zaqatala və Cavanşir birlikləri, ayrıca topçu dəstələri iştirak edirdilər. Həbs edilənlər arasında FK-nın rəhbəri, sonralar 1923- cü ildə Xalq Ədliyyə Komissarı olmuş Bahadur bəy Vəlibəyov, Hüsü Hacıyev, FK-nın gizli əməliyyat şöbəsinin rəhbəri Kambay İbrahimbəyov da var idi. Bunlardan əlavə Bahadur Əhmədov, Azərbaycan K (b) P Bölgə Komitəsi gizli şöbəsi müdirinin köməkçisi Nəriman Abdullayev də tutuldular. Həbslər Şuşa Müsəlman toplusu tərəfindən həyata keçirilmişdi.

Gəncə hadisələrinin nəticələrini öyrənmək üçün Bərdədən Yevlax istiqamətində hərəkət edən Ehsan xan Naxçıvanski dəstəsindəki Şəki alayı ilə Qızıl Ordu hissələri arasında baş verən döyüşlər nəticəsində Ehsan xan və onu təqib edən bir qrup əsgər XI Ordu hissələri tərəfindən yaxalandı və onlar güllələndiər. Qızıl Ordunun mühasirəsini yaran 32 üsyançı döyüşə - döyüşə Bərdəyə girməyi müvəffəq oldu. Döyüşlər bir həftə boyunca davam etdi. Bu hadisə «32 – lər dastanı» kimi məşhurdur.

**Yevlax** nayihəsində Qızıl Ordu dəstələri Göytəpə uğrunda döyüşlərdə Boyəhmədli dəstələrinin lideri Baloğlan öldürüldü. Bundan sonra onun dəstələri geri çəkilməyə başladı. Zeynalovun rəhbərlik etdiyi dəstələr də Qızıl Ordunun qarşısında dayana bilmə dilər. Döyüşlər zamanı ələ keçirilən üsyançıların

başçılarından Cəmşid, Adil bəy və Xanlar bəy Sarıcalınskini Qızıl Ordu nüma yəndələri güllələndirlər.

Gəncə həbsxanasından qaçan və Gəncə üsyançılarının önündə gedən torpaq sahibi Kərim bəy Qarabəyov Qarabağa sığındıqdan sonra ətrafına adamlar toplayaraq Qızıl Ordu döyüş çülərinə qarşı mübarizə apamağa başladı. Ancaq məğlub olunca İrana qaçdı və burada Əlif Ərşat xanın ordusunda topçu dəstə lərinin komandiri təyin edildi.

Qarabağ üsyanının yatırılmasında 28- ci rus alayı böyük rol oynamışdı. Alayın komandiri komissar N.K.Sokolov idi. Bundan əlavə o, 20- ci alayaın komissarı, daha sonra isə 30- cu alayın komandiri təyin edilmişdi. N.K.Sokolovun xidmətlərini yüksək qiymətləndirən Ə.Qarayev və Xalq Fəhlə Komissarı köməkçisi İ.Sviridov 1923- cü il aprel ayının 27- də 3887 № li məktubla XI Qızıl Ordu əsgəri komissarı Sokolovun «Qızıl Bayraq» ordeni ilə təltif olunmasını xahiş etmiş, S.Ağamalıoğlu məsələni müsbət həll etmişdi.

Qarabağ üsyançılarının cəzalandırılmasında sovet əsgəri dəstələri arasında yer alan ermənilər də böyük fəaliyyət göstər mişdilər. Nəticədə çox sayda insan əsir alınmışdı. Azərbaycan İnqilab Komitəsinin 18 sentyabr 1920- ci il tarixli iclasında Xalq Daxili İşlər Komissarı müavini İ.Əbilov Qarabağdakı vəziyyətə dair çıxışında dolayısı ilə bunu təsdiq eimişdi.

1920 - ci ilin baharında Qarabağ və Zəngəzurda vəziyyət nəzarətə alındı. Ancaq kəndlərdəki inqilab komitələri torpaq sahibləri və nüfuzlu şəxslərin təsiri altında idi. Məlumatlarda bildirilirdi ki, kəndlilər sovet quruluşuna inanmırlar.

**Cavanşir** qəzasında həyata keçirilən kütləvi qarətlər əhalinin narazılığına səbəb oldu. Məsələn, bölgənin sayılan insanlarından olan Xanlar bəyin evindən çox sayda qiymətli əşyalar, qızıl və almaz müsadirə edilmiş, özü isə öldürülmüşdü. Bölgədəki mal-qaranın və atların alınması narazılığı bir az da artırmışdı. Narazılar Sultan bəyin ətrafında toplaşmağa başlamışdılar. Sultan bəy Sultanov 1921- ci ildə Qarabağda sovetlərə qarşı ciddi döyüşlər apararaq, qardaşı Nüsrət Paşa bəy

Sultanovun azad olunmasını tələb etmişdi. Üsyançılar Cavanşir qəzası hərbi komissarı Sautini öldürmüşdülər. 1921-ci ilin əvvəllərində Sultanov sovet dəstələrini bölgə xaricinə qovmağa müvəffəq oldu. İşğalçılara qarşı döyüşlərdə kəndlilər üsyançılara kömək edirdilər. M.C.Bağıırov da sonralar Qarabağ üsyanının rəhbərlərinin  Sultan bəy Sultanov, Bəhlul Əfəndi və Şeyx  Kazım Çələbinin olduğunu xatırlatmışdı.

Azərbaycan K (b) P MK Siyasi Bürosunun 1921- ci il 2 mart tarixli iclasında Qarabağ üsyanının yatırılması üçün Ə.Qarayevin rəhbərliyi altında Azərbaycan hissələrinin göndərilməsi qərara alındı. Hökumət Qarabağa qarşı göndərilən dəstələrin maliyyələş dirilməsi üçün xeyli vəsait ayırdı. Məsələn, N.Nərimanov Çkalova göndərdiyi 17 iyul 1921- ci il tarixli 11005 № li məktubu ilə Qarabağ üsyanının yatırmaq üçün göndərilən M.C.Bağırova 100 milyon pul ayrılmasını istəmişdi.

Üsyan yatırıldı. Üsyançılar cəzalandırıldılar. R. İsmayılovun rəhbərlik etdiyi Azərbaycan İnqilab  Tribunalı 27 fevral-10 aprel 1921- ci il tarixləri arasında həyata keçirilən toplantıda Qarabağla əlaqədar 11.454 məhkəmə işinə baxdı. Mühakimə  olunanların 867 nəfəri həbs olundu, 32 nəfər sərbəst buraxıldı. Həyata keçirilən tədbirlər nəticəsində Qarabağda «sakitlik» yarandı. Şuşa elinə qonşu Qubatlıda Əsədulla bəyin və digərlərinin müqaviməti qırıldı. Ancaq bəzi bölgələrdə sovetlərə qarşı döyüşlər sürməkdə idi.

İlk çıxışlardan biri **Tərtərdə** başlandı. 1920- ci il may ayının 21- də 282- ci alay öz yerini XI Qızıl Orduya verərək Şəki alayına məxsus atları götürmək istəyəndə əsgərlərin etirazı ilə qarşılaşan XI Qızıl Ordu dəstələri toplar və digər silahlarla Şəki alayını məğlubiyyətə uğratdılar. Eyni gün Tərtər əhalisi dəhşətli gün yaşadı. Polis birlikləri xalqı qovmağa başladı Tətər İnqilab Komitəsinin  üzvü K.Kərimovun 25 may tarixli teleqramında bildirilirdi ki, «Xalq düşmən münasibət bəsləyir… Xalqa sovet hökumətinin məqsədi haqqında məlumat verməkk lazımdır, əks təqdirdə fəlakət gözlənilməkdədir. Hər kəs qaçmışdır, sadəcə bir kişi qalmışdır». Mayın ortalarında Tərtər bəyləri əsəbləri

gərilmiş xalqı ayağa qaldırdı. Tərtərdə olan AXC atlı dəstələri və bəylərin ətrafında cəmləşmiş dəstələr döyüşə girdilər. Bölgəyə kömək üçün rus dəstələri göndərildi. Mayın 21-də Tərtərin yerli əhalisi buradakı 11-ci Qırmızı ordu bölmələrinə qarşı hücuma keçdi. 11-ci Qırmızı ordu hissələri 80 nəfərə qədər itki verdi. Tərtərdəki 11-ci Qırmızı ordu alayının komandiri Naumov öldürüldü. Üsyançılar qalib gəldilər. Müqavimətin qarşısını almaq üçün Gəncədən Qarabağa suvari bölmələri gətirildi. Ermənilər xəyanət edərək düşmən tərəfinə keçdi və üsyan amansızlıqla yatırıldı.

**Gəncədə** başlamış üsyan **(1920)** XI ordunun komandanlığını daha çox narahat edirdi. Üsyanın başlanmasına səbəb Azərbaycan diviziyasının (1.800 nəfər) komanda heyətinin XI ordu qərargahından göndərilmiş zabitlərlə əvəz edilməsi oldu. Şəhər komendantı Məhəmməd Mirzə Qacar vəzifəsindən azad edildi. Bu hadisələr Azərbaycan ordu hissələrində narazılığı artırdı. Podpolkovnik Cahangir Kazımbəyovun başçılığı ilə 3-cü atıcı alayı üsyana qalxdı. Azərbaycan döyüşçüləri şəhərin müsəlman əhalisi yaşayan hissə sində olan XI ordu hissəsini tərksilah edərək həbs etdilər.



**Gəncə üsyanının rəhbərlərindən biri - Cahangir Kazımbəyov**

Üsyan etmiş orduya ətraf kəndlərin əhalisi də qoşuldu. Onların sayı 10 min nəfərdən çox idi. Üsyançılar şəhərin ermənilər yaşayan hissəsini tuta bildilər.

Mayın 26-da üsyana rəhbərlik etmək üçün general Cavad bəy Şıxlinski, Məhəm məd Mirzə Qacar, Cahangir Kazımbəyov və başqalarının daxil olduğu hərbi Şura yaradıldı. Şəhərin müsəlmanlar yaşayan hissəsi bir həftə üsyançıların əlində qaldı. Onlar dəmiryol stansiyasını tutsalar da uzun müddət əldə saxlaya bilmədilər. Mayın 28-də üsyançılara qarşı yeni hərbi hissələr göndərildi. Döyüşlərdə sovetlərin 5 - ci atıcı, 6 – cı suvari polku, 7-ci əlahiddə hərbi hissəsi və dəstəsi, 57

topu, 2 zirehli maşını və bir neçə zirehli qatarı iştirak edirdi. Mayın 31-də şəhərə yeni hücum başladı. Ermənilər həmişəki kimi satqınlıq etdilər. Yadellilərə qarşı mübarizədə mindən çox vətənpərvər, habelə görkəmli alim F.Köçərli şəhid oldu. Gəncə üzrə fövqəladə komissar Həmid Sultanov xüsusi qəddarlıq göstərdi. Şəhər qarət edildi. Lakin bütün bunlar xalqın mübarizə əzmini qıra bilmədi.

Həm Gəncə üsyanının, həm də başqa bölgələrdəki üsyanın qarşısını almaq üçün 1920-ci il mayın 26-da XI Ordu komandanlığı 60 № li dekret, mayın 28-də Qafqaz cəbhəsi komandanı V.Gittis də xüsusi direktiv imzaladı.

Gəncə üsyanı zamanı XI Qızıl Ordudan 8.500, milli ordudan və mülki əhalidən 8.000-13.000-ə qədər adam həlak oldu. M.Ə.Rəsulzadə yazırdı: «Bu üsyan ibtida Gəncədə başladı. Çarizmin qəddar generalı, knyaz Sisiyanovla parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərdi».

Gəncə üsyanı amansızlıqla yatırıldı. Şəhər alındı. Bazarlar yandırıldı. Xalq şəhərdən qaçmağa başladı. Şəhərdə əhalinin sayı azaldı. Əgər 1920 - ci ildə Gəncənin əhalisi 80.000 nəfər idisə, 1921- ci ildə onların sayı 42.000 nəfərə enmişdi.

Üsyan yatırıldıqdan sonra həbslər başladı. Hadisələrin içində olmayanlar belə həbs olundular. 6 general, 6 polkovnik, 3 minbaşı,7 kapitan, onların arasında H.Şıxlinski, general Məmməd Mirzə Həsən Qacar öldürüldü. 76 əsgər və zabit həbs olunaraq Nargin adasına göndərildilər və orada güllələndilər. Bəziləri isə Türki yəyə qaçmağa imkan tapa bildilər.

Cahangir Kazımbəyovun tabeliyindəki dəstələr Qarabağ üs yançılarına qoşuldular. S.Mehmandarov və Ə.Şıxlinski həbs olun dular. Azərbaycan SSR XKS sədri N.Nərimanovun 7 iyul 1920 - ci il tarixli 5733 № li məktubu ilə S.Mehmandarov, 31 iyul 1920- ci il tarixli 427 № li məktubu ilə Ə.Şıxlinski Moskvaya, RSFSR Hərbi Nazirliyinin tabeliyinə göndərildilər. Sonradan onlara işləmək imkanı verildi.

Gəncədə həyata keçirilən vəhşilikləri bolşeviklərin özləri də etiraf etmişlər. 1923- cü ilin noyabr ayında keçirilən Azərbaycan III Sovetlər qurultayında Q.Musabəyov bildirmişdi ki, « Azərbaycan hökumətinin ilk günlərində müsavatçılar Gəncədə ayağa qalxdılar. Sonra bəzi qəzalarda özlərinin mərkəzlərini, kəndlərdə komi tələrini yaratdılar. Onlar əsasən köhnə bəylərə, məmurlara, ağalara güvənirdilər. Ancaq, bizim cəza qüvvələri onların başlarını kəsdi».

Gəncə üsyanının yatırılması əmrini V.İ.Lenin vermişdi. Orconikidzenin Bakıdan Moskvaya, V.İ.Leninə və Stalinə gön dərdiyi 31 may 1920- ci il tarixli teleqramda 25-26 may 1920- ci il tarixlərdə Yelivazavetpolda müsavatçıların üsyan təşkil etdiyi, 6 günlük şiddətli döyüşlər nəticəsində üsyançıların məhv edildiyi bildirilirdi. N.Nərimanov və M.Hüseynov da Gəncə üsyanının əski müsavatçılar və Denikin alayı tərəfindən törədildiyini, onların məhv edildiyini təsdiqlədilər.

Üsyanın yatırılmasının ardınca Gəncə şəhəri və qəzaların idarəsi Qəza İcraiyyə Komitəsinə verildi. Komitənin 10 üzvü var idi. İbrahim Əliyev sədr, Vəli Xuluflu, Andrey Tupikov, Mədət Osipov, Müseyib Əliyevköməkçilər təyin edilmişdilər.

Gəncə üsyanı yatırıldıqdan sonra burjuaziyanın aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirildi. İmkanlı ailələrin əmlakları əllərindən alındı, torpaqlar kəndlilər arasında paylandı. Bundan sonra Azərbaycan İnqilab Komitəsi «Bakı və Azərbaycan xalqına çağırış»la müraciət edərək «Müsavat» ın təbliğatına uymamağı, burjua ziyanın «ağ terroruna» « qızıl terrorla» cavab veriləcəyini bildirdi. Ancaq bunlar heç bir nəticə vermədi. N.Nərimanov və M.Hüseynovun imzasıyla «Bütün fəhlə və kəndilərə» adlı yeni bir çağırış dərc edildi. Bu çağırışda deyilirdi: «İngilis kapitalının pullu əsgərləri olanlar və müsavatçılar Tərtərdə sovet quruluşuna basqın etdilər. Bu kiçik döyüş Gəncə üsyanına səbəb oldu. Üsyanın yatırılmasında bizim istəyimizlə Rusiya Qızıl Ordusunun xidmətləri böyük olmuşdu. Üsyanın nəticələri nə olursa olsun, yatırılmasını Qızıl Orduya biz əmr vermişdik. Müzəffər Qızıl Ordu fəhlə kəndli

hökumətinin əmrinə sadiq qalaraq üsyanı yatırmışdı. Üsyançılar lazımı cəzanı almışlar».

Üsyanın yatırılmasında xidmətləri olan Qızıl Ordu Dəmiryolu stansiya rəisi və komissar Mixail Qriqoryeviç Yefremov, Qərargah rəisi İvan Petroviç Rıjkov Yefremov və Dudanov Xalq Daxili İşlər Komissarlığının 9 oktyabr 1920 - ci il tarixli qərarı ilə qızıl saatla mükafatlandırıldılar. H.Sultanovun «Qızıl Bayraq» ordeni ilə təltif olunması barədə Azərbaycan İnqilab Komitəsinə müraciət etdilər və Azərbaycan İnqilab Komitəsi 24 dekabr qərarı ilə bu istəyi yerinə yetirdi.

**Qəbələdə** bütün müsəlmanlar işğalçılar əleyhinə mühərizəyə qoşuldular. Bu çağırışa səs verənlər Şəkidən 50 verst cənub - şərqdə olan Xaçmaz kəndinə toplandılar. Xalq könüllüləri Şamaxı-Quba yolu ilə şimala doğru hərəkət edib Azərbaycanla Sovet Dağıstanının əlaqəsini kəsməyi planlaşdırmışdılar.

3.000 nəfərlik başqa bir silahlı dəstə Cavad qəzasında, Saat lıda yaradılmışdı. Dəstə onlara qarşı göndərilmiş 28-ci diviziyanın 2-ci süvari alayına hücum etmiş, toqquşmalar nəticəsində üsyançılar ağır tələfat vermişdilər.

1920-ci ilin yayında **Şəmkirin Müsgürlü kəndində** sovet rejimi əleyhinə üsyan baş verdi. Burada da yerli əhalidən silahlı dəstə təşkil olunmuşdu. Digər bölgələrdə olduğu kimi, XI ordu komandanlığı buradakı üsyanın da yatırılmasına böyük qüvvələr göndərdi. Payızda Şəmkirdə Namaz adlı kəndlinin rəhbərliyi altında daha bir üsyan alovlandı. Üsyançılar 500 nəfərlik dəstə ilə qəzanın böyük bir hissəsində sovet rejimini ləvğ etdilər. Qırmızı ordunun çoxsaylı hərbi qüvvələri bu üsyanı böyük qəddarlıq və amansızlıqla yatıraraq, yerli əhaliyə divan tutdu.

1920 - ci ilin aprel ayının sonunda **Qubada** çıxışlar hiss olunmaqda idi. Bunun səbəblərindən biri yerli əhali ilə davranışda yol verilən nöqsanlar, yerli hakimiyyət orqanlarının tərkibinin qeyri – milli əhalidən təşkil olunması idi. 1920 - ci ilin sonunda Quba İnqilab Komitəsinin tərkibi Lyaxovski, Ağabəyov, Avşalimov, və b. ibarət idi. Bu komitə bölgədəki

bəylərin, xanların və torpaq sahiblərinin əmlakını müsadirə etməyə başlamışdı. Bunun üçün Qubada olan 4-cü suvari alaya kömək üçün əlavə dəstələr çağırıldı. Mayın 22- də xalqın silahsızlaşdırılmasına başlandı. Hətta, xalqın əlində olan atlar belə alındı. Nəticədə xalq kütləvi etiraz çıxışlarına başladı. Onların başında Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin keçmiş deputatı Hacı bəy Həmdullah Əfəndi və Mayıl adlı birisi dururdu. Sonralar M.C.Bağırov da Quba üsyanında Həmdullah Əfəndinin liderlik etdiyini etiraf etmişdi. Quba FK-da işləyən Koqarov Həmdullah Əfəndinin evinə gələrək ailəsini və özünü həbs etmək istəmişdi. Sovet nümayəndələrinin Quranı yerə atması xalq tərəfindən etirazla qarşılanmış, onlar Əfəndinin özünün təslim olacağını bildirmişlər. Lakin Əfəndinin təslim olunma zamanı gəldikdə xalq silaha sarılaraq üsyana qalxmışdı.

Avqustun 23-də **Quba** qəzasının **Küzün** kəndinin əhalisi silahlı üsyan qaldırdı. Üsyanın qarşısını almaq üçün qəza komitəsi kəndə 4-cü süvari alayından 45 nəfərlik (30 nəfər süvari, 15 nəfər piyada) dəstə göndərdi. Lakin dəstə üsyanı yatıra bilmədi, dəstədən yalnız 6 nəfər xilas ola bildi. Küzün kəndinin üsyançıları avqustun 26-da Qubanın hərbi komissarının göndərdiyi bir taqım əsgər və pulemyotçularla ciddi döyüşə girdi. Kənd əhalisi də sovet qüv vələrinə ciddi müqavimət göstərdi. Avqustun 29-dakı döyüşdə 100 nəfərlik sovet qüvvələri xeyli itki verdilər.

Avqustun sonu-sentyabrın əvvəllərində üsyançıların silahlı dəstəsi xeyli pulemyot və beşaçılan tüfəng əldə etdilər. Sentyabrın 3-də səhər saat 7-də üsyançılar Dəvəçi-Xaçmaz üzərinə hücum etdilər. Onların qarşısına 7-ci süvari dəstəsi çıxarılsa da, üsyanı yatırmaq mümkün olmadı. Gərgin döyüşdən sonra sovet-bolşevik döyüş çüləri mövqelərini qoruyub saxlaya bildilər.

Sonralar Azərbaycan K (b) P –nin II qurultayında Orconi kidze Quba çıxışlarından bəhs edərkən yolverilməz səhvləri etiraf edərək bildirmişdi ki, «Qubada kəndlilər sovetlərə qarşı çıxdılar, … Çünki bizimkilər (sovetlər) səhv olaraq dindar olan

bir adamı həbs etməyə cəhd etmiş, gənclər isə Quranı yerə atmışlar».

Quba üsyançılarını məhv etmək üçün 1.000 nəfərlik əsgər göndərildi. Savaş vaxtı Şahlar bəyin dəstəsindən 16 nəfər yaxa landı və 50 tüfəng ələ keçirildi. Amma çıxışlar yatırılmadı. Quba çıxışlarında müsavatçılardan Hacı Mirzə Nan, Hacı Səfər Vəlioğlu, Ağabala Şərifoğlu, Qubad Hacıbabaoğlu, Gülbala Əli Gülüoğlu, Hacı Vəlibəy Bəyoğlu və başqaları da iştirak edirdi. Bölgəyə göndərilən yeni hərbi dəstələr çıxışları yatırmağa müvəffəq olsalar da, sovetlərə qarşı təpki səngimədi. Hökumət antisovet çıxışların qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirməyə məcbur oldu. 1921- ci iln yanvar ayında bölgədəki çıxışları yatırmaq məq sədilə Ə.Qarayev Qubaya gəldi.

Sovet hakimiyyətinə qarşı vuruşan üsyançı dəstələrdən biri də **Muğanda** formalaşmışdı. 1920-ci il avqustun sonundan başla-yaraq bu dəstə bölgənin bir çox kəndlərində sovet hakimiyyəti orqanlarını devirmişdi. Sovet qüvvələri Qaradonlu (indiki İmişli) ətrafında üsyançıları məhv etməyə cəhd göstərsə də, Qaradonlu ətrafındakı 7 kəndin əhalisinin də üsyançılara qoşulması vəziyyəti gərgin ləşdirdi. Kəndlilərin birləşmiş silahlı dəstəsinə Sarıxan rəhbərlik edirdi. Onun 4 minlik dəstəsi sentyabrın 21-də qəzanın daha bir neçə kəndini qırmızılardan təmizləmişdi. Qəza rəisi vəziyyəti və bölgədəki hərbi qüvvənin əsgər və komandirlərinin üsyançılara qarşı çıxış etmə diklərini nəzərə alaraq 11-ci ordu qüvvələrinin göndərilməsini tələb etmişdi.

Azərbaycanın cənubunda-Lənkəran-Astara bölgəsində də kütləvi antisovet üsyanları baş verdi.

**Lənkərandakı** üsyan əsasən bölgədə yaradılmış 7 böyük si-lahlı dəstə tərəfindən aparılırdı. Ən böyük dəstələrə Cümhuriy-yətin süqutundan sonra Azərbaycanda qalmış türk zabiti Yusif Camal bəy, Nəcəfqulu xan və Şahverən rəhbərlik edirdi. Silahılı dəstələrdə 6-10 minə yaxın üsyançı cəmləşmişdi. Nəcəfqulu xanın dəstəsi isə şimalda fəaliyyət göstərirdi Lənkəranın cənubunda fəaliyyət göstərən Yusif Camal bəyin dəstəsi

Lənkəranın Şahağac, Tən gərud, Səfidağ kəndələrini sovet rejimindən azad etmişdi.

Astarada genişlənən xalq üsyanıın əsas zərbə qüvvəsini Ramazanın dəstəsi təşkil edirdi. Astaranın Şüvə kəndində yaradılmış başqa bir üsyançı dəstəyə isə Qüdrət Mollaağa oğlu başçılıq edirdi.

Sentyabrın 20-də başlanmış xalq üsyanlarının qarşısını almaq üçün 11-ci ordu komandanlığı 248-ci və 249-cu atıcı alaylarını, «Ukrayna» və «Dostoynu» eskadron minadaşıyanlarını, «Roza Lüksemburq» kreyserini, «Prıtki minadaşıyanı» nı və əlavə nəqliyyat gəmisini bölgəyə göndərdi. Dəstələr qruplara bölünərək müxtəlif istiqamətlərdən üsyançıları sıxışdırmağa başladı. Üsyançılar sovet gəmilərindən açılan top atəşindən qorunmaq üçün heç bir vasitələri olmadığından geri çəkilməyə başladılar. 1920-ci il dekabrın 25-də Lənkəran və Astara bölgəsi yenidən sovet qüvvələrinin nəzarəti altına alındı.

1921-ci il yanvarın əvvəllərində **Lerik** ətrafında Şahverənin başçılığı ilə sovet işğalçılarına qarşı üsyan alovlandı. Şahverənin dəstəsi ilə sovet döyüşçüləri arasında yanvarın 9-dan 26-dək gedən döyüşlərdə əlahiddə sovet suvari diviziyonu 196 nəfər itgi verdi. 78 nəfər yaralandı, 75 nəfər döyüş qabiliyyətini itirdi.

1921-ci il avqustun sonlarında **Astara** ətrafında bir neçə dəstənin iştirakı ilə xalq üsyanı yenidən alovlandı. Astara ətrafında üsyanda Rəşid xanın, Hüseynəli xanın, Şahverənin, Ataxanın, Nəcəfqulu xanın və onun qardaşı Əhməd xanın dəstələri iştirak edirdilər. Üsyançılar kifayət qədər igidlik göstərsələr də, Bakıdan gətirilən əlavə qüvvələrin, xüsusən gəmi artilleriyasının köməyi ilə üsyançıların müqavimətini qırmaq mümkün oldu.

İşğala etiraz edən bölgələrdən biri də **Şamaxı** idi. Şamaxı bundan əvvəl də erməni soyqırımından əziyyət çəkmişdi. 1920-ci ildə burada Taman atlı dəstələri yerləşdirilmişdi. Bölgəyə gətirilən 4 - cü Azərbaycan sovet alayı xalqa ağır ver gilər qoymuş, əmlak və atlar əhalidən alınmışdı. Şamaxıda vəziyyət olduqca ağır idi. Şəhər dağıdılmışdı. Əsgəri hissələr müqa vimət göstərən kəndliləri zərərsizləşdirməyə başlamışdı.

Sovet işğalına qarşı ciddi müqavimət göstərən yerlərdən biri də **Göyçay** oldu. Silah zoru ilə hakimiyyəti ələ keçirən sovet dəstələri və Göyçay Qəza İnqilab Komitəsi bölgədəki mülk sahib lərinin əlindəki mal-qarasının 50 % - ni almışdı. Şəxsi torpaqların kəndlilər arasında paylanması da ciddi etirazlara gətirib çıxarmışdı.

Göyçaydakı çıxışlar Azərbaycan FK tərəfindən araş dırılmağa başlanmışdı. M.C.Bağırov Göyçay çıxışlarında türkiyəli Kamal Paşanın mühüm rol oynadığını bildirmişdi.

Digər bölgələrdə olduğu kimi, Göyçayda da çıxışlar yatırıldı. Amma bu, kütlələrin sovetlərə qarşı nifrətini azaltmadı. Əksinə, sonrakı illərdəki çıxışlar göstərdi ki, xalqın nifrəti soyumamışdı. 1921- ci ilin sonlarında Göyçay Qəzası bəylərindən Sultan, Məşədi Cəmil və Məhəmməd İbrahimoğlu ilə Fövqəladə Komissiyanın dəstələri arasında döyüşlər başladı. Digər bir qrupun başçısı olan Hüseyn Əfəndinin ətrafında xeyli adam toplandı. Ona qarşı əsgəri dəstələr göndərildi. Üsyançılar cəzalandırıldılar. Bu cəza dəstə sinin önündə erməni əsilli Bağdasarov gedirdi.

**Nuxada** başlanmış çıxışlara qarşı mübarizəyə sovet nüma yəndələri üsyana qatılmış şəxslərin əmlakını müsadirə etməklə başladı. Bununla kifayətlənməyən sovetlərin nümayəndələri varlıların evlərini əllərindən almağa başladılar. Nuxa Qəza İnqilab Komitəsi şəhərdə onlarca evi müsadirə etdi. Məmməd Ağa Qədim bəyov, Hacı Səlim oğlu, Mehdi Qulu Zülfüqarov, Məşədi Zül füqarov, Yaqub Səfər Əlioğlu, Mehdi Hüseynov, Süleyman Musta faoğlu, Həmzə Əsədullayev, Məşədi Əsədullah Qafarov, Azad Mustafayev və onlarca başqaları güllələndikdən sonra onların evləri, xalıları, heyvanları, dükanları, bir sözlə, kibrit qutularına qədər hər şeyləri müsadirə olundu.

Nuxada üsyan 1921- ci ilin baharında başladı. Üsyana səbəb Nuxa Qəza Milis rəisi Rüstəmovun 1921- ci il 26 may tarixli 63 № li raportunda göstərdiyi kimi, mayın 14-də Xaçmazda sovet əleyhinə çıxanların həbs edilməsi olmuşdu. Həbslər insanların sərt təpkisi ilə qarşılandı. Bir neçə milis

öldürüldü. Qaçmağı bacaranlar kəndi tərk edərək Vartaşen kəndinə (indiki Oğuz) sığındılar. Milislərə dəstək üçün 32 əsgər və bir topçu dəstə göndərildi. Milis dəstəsi rəisinin müavini Müseyib Əfəndiyev və başqalarının rəhbərliyi ilə dəstələr Xaçmaz kəndinə doğru hərəkət edirlər. Gecə vaxtı kəndə yaxınlaşan dəstələr kəndin ətrafında pusqu qururlar. Az sonra döyüş başlanır. Ancaq  döyüş uzun sürmür. Ciddi döyüşlər şəhər ətrafında olur. Yarımsaatlıq atışmada bir əsgər öldürülür. Kəndlilər və ətrafdakılar türk Hüseyn Əfəndinin başçılığında hücuma keçirlər. Güclü təzyiq nəticəsində sovet dəstələri Vartaşenə çəkilirlər. Üsyanı yatırmaq üçün Zaqataladan Ata karılovun rəhbərliyi ilə alay köməyə göndərilir. Döyüş lərdə türklərdən Şərif Əfəndi öldürülür. Geri çəkilmək məcburiyyətində qalan üsyançılar dağ kəndlərində, əsasən Filfilli kəndində topla nırlar.

Üsyanın yatırılmasına ermənilər də kömək etmişlər. Hüseyn Əfəndinin dəstələrinin məğlub edilməsində Armenak Lalazarovun böyük rolu olmuşdu. A.Lalazarov sonralar Əsədullah bəyin qohumlarını döydüyü üçün 4 il həbs cəzasına məhkum edilmişdi. Ancaq Brufens və Babayev Azərbaycan FK-nın şöbə rəisi Sul tanova yazdıqları 1923 - cü il 11 iyul tarixli məktubla A.Lalazarov sərbəst buraxılmışdı.

Nuxa üsyanı amansızcasına yatırıldı və üsyançılar cəzalandırıldıar. Onlardan bir qismi güllələndi, bir hissəsi həbs olundu, qalalnları isə sürgünə göndərildilər.

1920-ci il iyunun birinci yarısında **Zaqatala bölgəsində** sovet işğalına qarşı antisovet üsyanı baş verdi. Üsyan iyunun 6-da başladı. Üsyanda azsaylı xalqların qoşun dəstələri də iştirak edirdi. Zaqatala üsyanının rəhbəri Tala kəndinin imamı Hafiz əfəndi idi. İlk gün lərdə üsyançıların sayı 1.000 nəfərə çatırdı. Cümhuriyyət ordu sunun Zaqatalada yerləşən və sonradan sovet hakimiyyətinə tabe etdirilən taboru da üsyançıların tərəfinə keçmişdi. 1920-ci il iyunun 9-da, səhər saat 6-da bölgədəki üsyançı qüvvələr Zaqatalaya topla şaraq şəhər qalası və teleqrafı ələ keçirdilər. İnqilab komitəsi üzvləri və sovet işçiləri həbs

edildi. Qısa müddətdən sonra Qax şəhəri də sovet qüvvələrindən azad edildi.

1920-ci il iyunun 30-da 11-ci Qırmızı ordunun bölgədə yerləşdirilmiş 7-ci suvari diviziyasının 37, 39 və 40-cı süvari alayları ilə Qaxın Əlibəyli, Yuxarı Muxax kəndləri yaxınlığındakı yüksəklikdə, Qaraman və s. məntəqələr ətrafında üsyançılar arasında döyüş oldu. İyunun 11-də üsyançılar 39-cu süvari alayının Əmbərçay ətrafındakı zastavalarının əsgərlərini geri çəkilməyə məcbur etdilər.

İyunun 13-də Şəkinin Baş Göynük kəndində də üsyan qalxdı. Bölgədə təşəbbüs bütünlükdə üsyançıların əlinə keçdi. 11-ci ordunun 7-ci suvari diviziyasını xilas etmək üçün əlavə qüvvələr göndərildi. Çoxsaylı texnikaya malik olan ordu hissələri üsyan çıların müqavimətini qırmağa müvəffəq oldu. Zaqatala-Şəki şosse yolu və digər strateji məntəqələr yenidən onların əlinə keçdi. İyunun 18-də isə 11-ci Ordunun hissə və bölmələri Zaqatalaya daxil odular. Bölgə əhalisinə divan tutuldu.

1920-ci ilin yayında Qax və digər yerlərdə də üsyanlar qalxdı və XI ordu tərəfindən yatırıldı.

1922-ci ilin avqustunda və 1923-cü ilin oktyabrında Qubadlı qəzasında ruhanilərin başçılığı ilə xalq ayağa qalxdı. 1923-cü ilin fevralında Kürdəmir və Göyçay bölgələrində, 1923-cü ildə Qarabağda və Zəngəzuda sovet hakimiyyətinə qarşı üsyanlar baş verdi.

Ümumiyyətlə, 1920-1923-cü illərdə rus ordusunun istilaçılıq hərəkətlərinə qarşı 53 silahlı üsyan baş vermişdi. Baş vermiş üsyanların səbəbləri araşdırılarkən məlum olmuşdur ki, bütün çıxışların kökündə erməni, rus və gürcü hakim dairələrinin antiazərbaycan siyasəti durur. Bu əhalinin əmlakının müsadirə olunmasında, ərazi mübahisələrinin həllindəki ədalətsizlikdə özünü göstərirdi. Düşmənçilik toxumlarının səpilməsində Q.K.Orconikidze xüsusi rol oynamışdı.

N.Nərimanov vəziyyətin məcrasından çıxdığını hiss etdiyindən RK (b) P MK Qafqaz Bürosunun bəzi üzvlərinin və

özünün imzası ilə dəfələrlə Orconikidze və Çiçerinə məktub göndərərək ermənilərin Qazax rayonunda dəmir yolunu ələ keçirmək istəkləri barədə məlumat verərək bildirmişdi ki, İngiltərədən yardım alan daşnaq hökuməti Azərbaycana qarşı əməliyyatları genişləndirərək Culfa dəmir yolunu da ələ keçirməyə cəhd edir. Ermənilərin məqsədi isə İrandan ərzaq gətirmək və İngilis qoşunları ilə əlaqə yaratmaq idi. Daşnaqlar, həmçinin Qarabağda, Zəngəzurda və Qazaxda hücuma hazırlıq görür, hakimiyyəti ələ keçirir və yerli əhalini çaşdırmağa çalışırlar. Məktubda, həmçinin Qarabağda və Zəngəzurda sovet hakimiyyətinin elan edildiyi bildirilirdi. İyunun 22-də Leninin iştirakı ilə Siyasi Büroda «Qafqazda siyasət haq qında» məsələ müzakirə edilir. Müzakirələrdən aydın olur ki, səla hiyyətlilər Qafqazdakı məsələlərdən ya xəbərdar deyirlər, ya da gizli niyyyətlərini üzə çıxarmaq istəmirlər.

Üsyanların yatırılması, bəylərə və adağlara divan tutulması ilə iş başa çatmadı. Sovet yetgililəri antisovet ruhiyyəli adamları izləyir, onların həbsi üçün müxtəlif bəhanələr uydururdular. Q.Musabəyov sovetlər qurultayındakı nitqində müsavatçıların yeni quruluşu yıxmağa çalışdıqlarını və fəaliyyətlərini genişləndir diklərindən bəhs etmişdi. Ə.Qarayev də 1924 - cü ildə çağrılan VI qurultaydakı nitqində müsavatçıların onların siyasi varlıqları üçün təhlükə olduğunu bildirmişdi. Bolşeviklər öz varlıqlarını qorumaq üçün hər cür çirkinliyə əl atır, yenə də «yalançı terror qruplar aşkarlanırdı». Elə bunun nəticəsi idi ki, 1924 - cü il iyun ayının 1- də Azərbaycanda inqilaba qarşı fəaliyyət göstərən 3 terror dəstəsi «qeydə alınmışdı». Suraxanıda neft mədənlərində təşkil edilən yanğının da «Yanar ürək» adlı bir qrup tərəfindən həyata keçirildiyi «öyrənilmişdi». Lakin belə bir qrupun olmadığı və bunu sovet rəsmiləri tərəfindən uydurulduğu güman edilirdi. Bununla yanaşı, inqilaba qarşı olanlar barəsində təbliğat gücləndirilir və gizli işlər aparılırdı. M.Hüseynov 1925-ci ildə yazdığı «Azər baycanın müstəqilliyi idealı və «Müsavat» partiyası» adlı məqa ləsində yazırdı ki, «Müsavat» partiyası heç

bir zaman müstəqillik ideyasında olmamışdı». Uydurma itthamlarla həyata keçirilən həbslər barədəki məlumatlar insanlar arasında çaşqınlıq yaratdığından Ə.Qarayev 26 oktyabr 1924 - cü il tarixdə Azərbay can K (b) P Qəza Komitəsinə verdiyi məlumatda da sovetə qarşı olan partiyaların üzvlərinin bolşeviklər tərəfindən həbs olunması haqqında məlumatların yayılmasından narahat olduğunu bildir mişdi.

1925 - ci ildə SSRİ MİK - nin Tiflisdə təşkil etdiyi toplantı günlərində Kalinin, Rıkov və Çiçerin iki dəfə Bakıda olmuşlar. Onlar Kutaisi, İrəvan və Naxçıvana gedərək burada mitinqlər təşkil etmişlər. Rıkov Naxçıvanda olan zaman ona sovetlərin əməl lərindən bəhs edən 100 məktub verilmişdir. Məktublarda xalqa qarşı törədilən vəhşiliklər, qeyri –insani davranışlara dair faktlar yer almışdı. Onları əlində tutan Rıkov «Bunlar sovet rəzalət ləridir»- deyərək məktubları mitinq iştirakçılarına göstərmişdi.

Sovet quruluşunun ən çox təpki ilə qarşılaşan fəaliy yətlərindən biri də əvvəllərdə qeyd edildiyi kimi, Bakının Azər baycandan ayrılmasına dair fikirlərin yayılması olmuşdu. 20 - ci illərin ortalarında sovetlərin Bakını Azərbaycandan ayıraraq orada xüsusi bir sovet quruluşu quracağı, Azərbaycanın paytaxtının Gəncəyə köçürülməsi məsələsində ölkədə çox sayda şayələr dolaşırdı. Şayələr Avropa və Türkiyə mətbuatında da müzakirələrə yol açmışdı. Hətta 1925-ci ilin martında Azərbaycan SSR IV Sovetlər qurultayında, Bakı və onun ətrafının Azərbaycandan ayrılması hıqqında məlumata açıqlanma verilməsi barədə qərar qəbul edilmişdi.

Bakı soveti Azərbaycanda diktator kimi davranırdı. Sovet müvəkkillərinin 75 %-ni ruslar təşkil edirdi. Azərbaycan SSR büdcəsi 5 milyon rubl ikən Bakı Sovetinin illik büdcə xərcləri 20 milyon rubla yaxın idi.

Sovet quruluşuna qarşı mübarizədə ziyalılar və gənclər önəmli rol oynyırdılar. Mədəniyyət ocaqlarında işləyən və sovetə qarşı olan ziyalılar geniş kütləyə səslənərək, xüsusi ilə milliyyətçi

gənclərdə ruslara qarşı nifrət aşılamaq istəyirdilər. Bu sahədə müəllimlər daha fəal idilər.

Türk ədəbiyyatı müəllimi A. Musaxanlı kənd müəllimliyində işlədiyi dönəmləri xatırlayaraq yazırdı ki, «Almaniya bir vaxtlar Fransa işğalını yaşamışdı. Bəzilərinə görə, Almaniya bu basqıdan Bismarkın siyasi zəkası və uzaqgörən siyasəti nəticəsində xilas olmuşdu. Ancaq Almaniyanı Fransız zülmündən o yox, alman kənd lilərinin savadlanması qurtarmışdı». Müəllim A. Musaxanlı gənc tələbə və məsləkdaşlarına, gələcəyin müəllimliyinə çiyinlərində də bu vəzifənin də cavabdehliyinin olduğunu təbliğ edirdi.

Bakı Pedaqoji İnstitutu müəllimi Məhəmməd Şahsuvarov bildirirdi ki, «Rusları ruslaşmaq üçün öyrənməməliyik. Bu dili mədəniyyətləri tanımaq üçün öyrənməliyik».

Gənclər arasında bəzi təşkilatların yer aldığı məlum idi. Belə təşkilatlardan biri də «Gənc Azər» təşkilatı idi. Kəndli ailəsindən gələn 3 komsomol üzvü - Həsənağa Axundzadə, Həşim Aslanov və Əliağa Aslanov 1925-1926- cı ildə lisey təhsilini başa vurduqdan sonra Bakı Pedaqoji İnstitutunda təhsilə başlamışdılar. Hələ liseydə oxuyarkən millətçi kimi yetişmişdilər. Dərsdən sonra onlar bir yerə yığılar, sovetə qarşı müzakirələr edərdilər. Gənclər Azərbaycan neft sənayesinin ruslar üçün işlədiyini və Azərbaycanın Rusiyanın müstəmləkəsi olduğu qənaətində idilər. Əhməd Cavadın «Göy göl», «Dalğa» şeirlərini ağızlardan əzbər ləmişdilər. Belə duyğuların təsiri altında gənclər 1925- ci ildə öz təşkilatlarının qurmağı planlaşdırdılar.

Komsomolçu gənclər təşkilat yaratmazdan əvvəl «Müsavat» ın bəzi liderləri ilə görüşərək onların fikrini öyrənməyi məqsədə müvafiq hesab edirlər. Bu məqsədlə Həşim Aslanov və Əliağa Aslanov «Müsavat» ın gizli təşkilatının üzvü, Buzovna kənd kitabxanası müdiri Məhəmməd Əli Əlizadə ilə, Həsənağa Axundzadə isə Məsih Axundzadə ilə əlaqəyə girirlər. Bu görüşlərdən sonra təşkilat yaratmaq zərurəti ancaq 1927- ci ilin yazında qətiləşir. Qrup Həşim Aslanovun Mərdəkandakı

evində «Müsavat» partiyasının nəzarəti altında müsavatçı gənclərin «Gənc Azər» təşkilatının yaradaraq proqram və nizamnaməsini hazırlayırlar. Aparılan işlər sahəsində təşkilatın üzvlərinin sayı 12- ə çatmışdı. Ümumilikdə isə, təşkilatla daimi əlaqədə olan adamların sayı 42 nəfər idi. Bunun 19- u pedaqoji institutda tələbə, 7- si müəllim, 3- ü şagird idi. Üzvlər arasında məmur və digər işçilər də var idi. Digər bir partiya ilə əlaqəsi olan 13 komsomol üzvü də təşkilata daxil olmuşdu. Üzvlərin 33nəfəri kişi, 4 - ü qadın, 1 nəfəri gənc qız idi. Sosial tərkibinə görə əksəriyyəti kəndlilər və ziyalıların uşaqları təşkil edirdi. 1928 - ci il dekabr ayında və 1929 - cu ilin yanvar ayında təşkilatın 7 üzvü həbs edildi. Nəticədə təşkilat fəaliyyətini dayandırmalı oldu.

Sovetlər onlara qarşı çıxınlara ən sərt cəza növü - sürgünə göndərilmək tətbiq edirdi. Sürgün edilənlərin əmlakı müsadirə olunurdu. Məsələn, Quba qəzasından ölkədən kənara 7, yaşadığı yerdən (şəhərdən və ya kənddən – M.Ə.) kənara 3, Gəncə qəzasından ölkədən kənara 4, yaşadığı yerdən kənara 2, Lənkəran qəzasından ölkədən kənara 6, yaşadığı yerdən kənara 7, Ağdaş qəzasından ölkədən kənara 3, yaşadığı yerdən kənara 19 nəfər sürgün olunmuşdu. Ümumiyyətlə, ölkədən kənara 20, yaşadıqları yerdən kənara isə 31 nəfər bəy, xan və ağa sürgün edilmişdi. 1926 - cı il məlumatına görə, Azərbaycanda 45 böyük kapitalist, 1927- ci ilin əvvəlində daha 27 kapitalist sürgün edilmişdi. Sürgün yerinin ünvanı Ukrayna idi. Azərbaycan daxilində isə onlar əsasən Şamaxı, Nuxa və Qazax bölgələrinə sürgün edilirdilər. İlkin müəy yənləşdirməyə görə, Qazaxdan Şamaxıya 11, Naxçıvana 1 ailə, Naxçıvandan Şamaxıya 6, Gəncəyə bir ailə sürgün olunmuşdu. Ayrıca olaraq Lənkərandan Şama xıya və Nuxaya 5, Bakıya bir ailə sürgün edilmişdi. Ağdaş qəza sından Qazax və Şamaxıya 14 nəfər sürgün edilmiş, Qubadan və Nuxadan isə hər brindən 5 nəfər sürgünə məruz qalmışdı.

1928 - ci il 25 oktyabr tarixli bir raporta görə həyata keçirilən tədbirlər nəticəsində Melitopola 3, Astarxana 1,

Kurska 4, Mahaçkalaya 1, Kremenginə 2, Krivoyroka 3 bəy və xan sürgün olunmuşdu.

1929 - cu ilin yanvar - sentyabr aylarında müsavatçıların tutulması tədbirlərində 1.142 nəfər günahkar bilinmişdi. Onların 666 - sı Bakı, 237- si Lənkəran, 122- si Gəncə və 217- si digər yerlərdə fəaliyyət göstərənlər idi. Həmin tarixlərdə Solovetski həbs düşərgələrinə 500 müsavatçı sürgün edilmişdi. Ümumilikdə, Qafqazdan Urala 20.000, Qazaxıstana isə 5.000 nəfər sürgün olunmuşdu.

Müsavatçılarla yanaşı ittihadçılar da həbs olunurdular. Həbs olunan 474 ittihadçının 135- i Qarabağ, 115 - i Bakı, 60 - ı Gəncə, 60- ı Lənkəran, 17- si Zaqatala – Nuxa, 25- i Şirvandan və digər yerlərdən idi.

### 5.3. Azərbaycan siyasi mühacirəti

Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ alması ilə xalqımızın görkəmli şəxsiyyətlərinin-ictimai-siyasi xadimlərin, ədəbiyyat, mədəniyyət və elm xadimlərinin, sahibkarların qara günləri başladı. Bolşeviklər hakimiyyəti ələ keçirərkən verdikləri sözə əməl etmədilər. XI Qızıl Ordunun «Xüsusi siyasi şöbəsi» nin təqiblərindən yüzlərlə ziyalı Gürcüstana mühacirət etdi. Zaqafqaziya Respublikalarının konfransına getmiş Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Mustafa Vəkilov, Şəfi Rüstəm bəyov, Nağı Şeyxzamanlı vətənə qayıda bilmədilər. Onlar respublikanın ilk mühacirlər dəstəsini təşkil etdilər. Onların yaratdıqları «Azərbaycan Qurtuluş komitəsi» XI ordunun işğalını, Rusiyanın Azərbaycana qarşı təcavüzünü dünya ictimaiyyətinə çatdırmaq üçün etiraz bəyannaməsi ilə çıxış etdilər. Aprel işğalına qarşı xaricdə ilk rəmzi etiraz olan bu bəyannamədən bir ay sonra Fətəli xan Xoyski və Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildilər. Azərbaycan Cümhuriyyətinin sabiq daxili işlər naziri Behbud bəy Cavanşir 1921-ci ildə Almaniyaya gedərkən yolda yolüstü İstanbulda Əhməd bəy Ağayevin evində olur. Ermənilərin hədəfinə çevrilən Behbud bəy milliyyətcə rus olan arvadının təkidi ilə «Perepalas»

hotelinə köçərkən gecə - iyulun 19-da erməni daşnaqı tərəfindən öldürüldü.

Aprel işğalından sonra təqiblər üzündən ölkəni tərk edən mühacirlərin əsas hissəsini milli ordunun əsgər və zabitləri, nazirlər, parlament üzvləri, yüksək vəzifəli dövlət mə murları, siyasi partiya üzvləri, müstəqil əqidəyə malik ziyalılar, habelə sabiq mülkədarlar, sənaye və ticarət burjuaziyası təşkil edirdi. Siyasi mühacirlər əsasən İran, Türkiyə, Fransa, Almaniya və Polşada fəaliyyət göstərirdilər.

Azərbaycan mühacirlərinin bir qrupu xaricdə qalıb fəaliyyətlərini davam etdirmişlər. 1919-cu ildə parlament tərəfindən müəyyənləşdirilən və Paris sülh konfransına gedən Əimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərinin bir çoxu - Miryaqub Mehdiyev, Ceyhun Hacıbəyli, Məmməd Məhərrəmov, Əkbərağa Şeyxülislamov, Abas bəy Ataməliyev və b. Azərbaycanın işğalını beynəlxalq aləmə çatdırmaq üçün xeyli əmək sərf etmişlər. Ə.Topçubaşov 1920-ci ilin noyabrında Cenevrədə Millətlər Cəmiyyətində, 1922-ci ildə London, Genuya, 1923-cü ildə Lozanna konfranslarında çıxış etmiş, Azərbaycanın milli hüquqlarının pozulduğunu bəyan etmişdi.

Azərbaycan mühacirəti əsasən, Türkiyədə toplaşmışdı. Türkiyə onların ikinci vətəninə evrilmşdi. ADR-in təhlükəsizlik orqanına rəhbərlik etmiş Nağı Şeyxzamanlı yazırdı ki, bolşeviklər hakimiyyətə gəldikdən sonra onlar vətəni tərk etdilər, Türkiyədə yaşadılar, lakin özlərini vətənsiz hesab etmədilər.

Məmməd Əmin Rəsulzadənin Türkiyəyə gəlməsi ilə (1922) burada Azərbaycan mühacirətinin ilk siyasi təşkilatı - «Müsavat» Partiyasının Xarici Bürosu yaradıldı. Büro Azərbaycanda gizli fəaliyyətə başlayan «Müsavat» təşkilatı ilə əlaqə saxlayırdı.

Türkiyədə məskunlaşan Xosrov Paşa bəy oğlu Sultanov (1879-1947) orada formalaşmış mühacirət qrupunun üzvü kimi qaçqınlara yardım göstərirdi. Xəlil bəy Xasməmmədov ilk

vaxtlar mühacir təşkilatına rəhbərlik etmişdi. Azərbaycan zabitlərinin çoxu Ə. Ağaoğlunun köməyi ilə orduda xidmət göstərirdilər.



**X.Sultanov**

1924-cü ildə xarici büronun qərarı ilə Azərbaycan Gənclər Birliyi yaradılır. Azərbaycan mühacirlərinin təmsil oluna biləcəyi yeni siyasi təşkilat yaratmaq sahəsində fəal iş aparılırdı. Məqsəd bütün siyasi mühacirləri bir araya toplamaq idi. Bu məqsədlə 1924-cü ildə İstanbulda Azərbaycan Milli Mərkəzi yaradıldı. Elə həmin ildə Avropada ilk mühacir siyasi təşkilatı «Azərbaycan İstiqlal Komitəsi» fəaliyyətə başladı.

1930-cu illərin əvvəllərində SSRİ-dən olan Türkiyədəki siyasi mühacirlər Avropa ölkələri ilə əlaqələr yaratmağa başladılar. Lakin 30-cu illərin birinci yarısında Azərbaycan siyasi mühacirəti arasında kəskin ixtilaflar baş qaldırdı. Azərbaycan milli mərkəzi və «Müsavat» Partiyasının Xarıcı Bürosu daxilində qruplaşmalar yarandı. Səfi bəy Rüstəmbəyli və Mustafa Vəkilov Azərbaycan Milli Mərkəzinin, «Müsavat» ın Xarici Bürosunun fəaliyyətinin Türkiyə çərçivəsində məhdudlaşmasına görə M. Ə. Rəsulzadəni tənqid edir, Qərbyönlü siyasətin tərəfdarı kimi çıxış edirdilər. Parisdəki Azərbaycan mühacirlərinin bir qrupu (**Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli)** da ixtilaflara qoşuldular.

Paris qrupuna Ə.Topçubaşov rəhbərlik edirdi. Bu qrupa M.Y.Mehdiyev, Ə.Şeyxülislamov, Məhəmməd Məhərrəmov, C.Hacıbəyli daxil idi. İstanbul qrupuna isə M.Ə.Rəsulzadə rəhbərlik edirdi və həmin qrupa Ş.Rüstəmbəyli, Musa Rəfiyev və b daxil idi. Hətta onlar da bir-birini Azərbaycana xəyanətdə ittiham edirlər.



**Ə.Şeyxülislamov**

Mühacirlər ayrı-ayrılıqda öz milli təşkilatlarını qurmaqla yanaşı, bolşevizmə qarşı

beynəlxalq birlik də yaratdılar. «Qafqaz konfederasiyası Şurası» və «Prometey» adlı iki belə birlik yaradılmışdı. Bu təşkilatlar mühacirətdə milli-azadlıq ideologiyasının, dövlətçilik şüurunun formalaşdırılmasında əhəmiyyətli rol oynamışlar.

Xaricdəki Azərbaycan mühacirəti nümayəndələrinin fəaliy yəti sovetlər birliyinin rəhbərliyini, şəxsən Stalini narahat edirdi. 1922-ci ildə Türkiyədə M.Ə.Rəsulzadənin «Azərbaycan Cümhuriyyəti» əsəri nəşr olunanda İ. Stalin Azərbaycan KP rəhbərliyinə 16 sentyabr 1923-cü il tarixdə məktub göndərərək Musabəyova, Mirzəyana, Axundova, Kirova və Orxelaşviliyə məsləhət görür ki, Rəsulzadə əleyhinə cavab hazırlasınlar. Məktubda cavabın ümumi ruhunun hücum xarakterli olması, heç bir halda Rəsulzadənin özünü təmizə çıxarmasına və müdafiə olunmasına yol verilməməsi bildirilirdi. Məktubda M.Ə.Rəsulzadənin aşağıdakılara görə günahlandırılması vacib sayılırdı:

1. Dönüklükdə (o əvvəlcə bolşevik idi);

2. Türkiyə xalqının mənafeyinə xəyanətdə (o və onun partiyası-müsavatçılar-Türkiyə xalqına kömək edən Qızıl Ordunun Azərbaycana daxil olması əleyhinə çıxırdı);

3. Azərbaycan xalqının mənafeyinə xəyanətdə (o və onun partiyası Azərbaycan kəndlilərinin bəylərin zülmündən tam azad olunması əleyhinə çıxırdı);

4. Şərq xalqlarının mənafeyinə xəyanətdə (o və onun partiyası Şərq azadlıq hərəkatının dayağı və bayraqdarı olan sovet respublikalarının proletariatı əleyhinə müstəmləkə və asılı ölkələrin qəddar düşməni İngiltərə qarşısında buyruq bulayırdılar);

5. Müsavat ağalığı dövründə erməni-tatar qırğınının təşkilində (buradaca onu Azərbaycan Pruşkeviçi adlandırmalı);

6. Şamaxı talanının təşkilində (buradaca onu Azərbaycanın talançısı adlandırmalı). Birbaşa demək lazımdır ki, Rəsulzadə «Müsavat» dan sonra xalq mədəniyyəti tənəzzülə uğrayıb» qənaəti ilə Azərbaycan proletariatı və ziyalılarına yalan

söyləyir. (faktllar və rəqəmlər gətirməli, müqayisəli taktika seçməli).

Göründüyü kimi, Stalin Rəsulzadəni xəyanətkarlıqda təqsirləndirərək ona qarşı hücuma keçməyə çağırır. Rusiya XİK Çiçein də IV Ümumazərbaycan Sovetlər qurultayındakı çıxışında müsavatçılarınTürkiyədəki fəaliyyətindən narahatlığını bildirmişdi.

Azərbaycanın ruspərəst partiya və dövlət xadimləri - M.D.Hüseynov, Ə.N.Qarayev, D.Bünyadzadə, M.Quliyev, S.M.Əfəndiyev, tədqiqatçılardan A.Rayevski, Y.A.Ratqauzer, N.Prelin, S.Sef, A.Stek lov və b. mühacirlərin «ifşası» üçün kitabçalar yazır, çıxışlar edirdilər. Azərbaycan Fövqəladə Komissiyasının sədri M.C.Bağırov bir zamanlar üzv olduğu «Müsavat» partiyasının fəaliyyətini kəskin tənqid edirdi.

Zaman Azərbaycan mühacirətinin dəyərli üzvlərinin arasına da təfriqə saldı, «liderlik» xəstəliyi onlara da sirayət etdi. Çəkiş mələr onların sıralarını sarsıtmış, nəticədə parçalanma baş vermişdi. Onlar xarici ölkələrdə dünyalarını dəyidilər.

Azərbaycan mühacirətinin görkəmli nümayəndələrindən biri **Həsən bəy Məşədi Hüseyn oğlu Ağayev (1875-1920) idi.** Azərbaycan Xalq Cümhuriyyətinin banilərin dən və rəhbərlərindən biri olan Həsən bəy 1875-ci ildə Cəncədə anadan olmuş, Gəncədə klassik gimnaziyada təhsil aldıqdan sonra H.Z.Tağıyevin maddi yardımı ilə Moskva Universitetinin tibb fakültəsinə daxil olmuş və 1901-ci ildə universiteti bitirmişdir. Gəncədə həkimlk fəaliyyətinə başlayan Həsən bəy qəzet və jurnallarda məqalələrlə çıxış etmiş, 1906-cı ildə onun «Silk, sinif, firqə» kitabı çap olunmuşdu. Həmin kitabçaya görə təqiblərə məruz qalan H.Ağayev bir müddət İranda yaşamağa məcbur olmuşdu. Mühacirətdən qayıtdıqdan sonra Həsən bəy «Öjnıy Kafkaz» qəzetində redaktor işləmiş, 1914-cü ildə X.Rəfibəyli ilə birlikdə Gəncədə ilk cəmiyyət yaratmışdı.



**H.Ağayev**

1917 - ci il Rusiya Fevral burjua inqilabı digər Azərbaycan ziyalıları kimi H.Ağayevin həyatına da təsir etmişdi. O, N.Yusifbəylinin rəhbərliyi ilə Gəncədə yaradılan «Türk Ədəmi-Mərkəziyyət Partiyası» nın təşkilində iştirak etmişdi. H.Ağayev Qafqaz müsəlmanları qurultayının iştirakçısı olmuşdu.

Həsən bəy Ağayev Zaqafqaziya Seyminin də işində fəal iştirak etmiş, orada Müsəlman fraksiyasının üzvü olmuş, 1918-ci il mayın 27-də elan edilən Azərbaycan Milli Şurasının Rəyasət Heyətinin sədr müavini seçilmişdi. H.Ağayev İstiqlal Bəyannaməsini ilk imzalayanlardandır.

Həsən bəy Ağayev 1918-ci il dekabrın 7-də Bakıda açılan Azərbaycan Parlamentinin iclasında parlament sədrinin müavini seçilmişdi. Parlamentə sədr seçilmiş Ə.Topçubaşov Bakıda olmadığı üçün sədr vəzifəsini də H.Ağayev icra etmiş, onun təşəbbüsü ilə bir sıra qanunverici aktlar qəbul edilmişdi.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra H.Ağayev Tiflisə mühacirət etmiş, 1920-ci il iyulun 19-da muzdlu erməni qatili tərəfindən qətlə yetirilmişdi. Həsən bəy Ağayev Tiflisdə dəfn olunmuşdu.

**Vəzirov Yusif Mirbala oğlu (Çəmənzəminli Yusif Vəzir) (1887-1943)** Şuşada anadan olmuş, ibtidai təhsilini Şuşada, orta təhsilini isə Şuşa və Bakı realnı məktəblərində (1897-1909) almışdı. Kiyev Universitetinin hüquq fakültəsini bitirən Yusif Vəzir Saratov, Rovno, Buqaç şəhərlərinin məhkəmə orqanlarında çalışmışdı.


**Y.V.Çəmənzəminli**

Yusif Vəzir tələbəlik illərində çoşqun ədəbi yaradıcılıqla məşğul olmuş, bir-birinin ardınca hekayə kitablarını nəşr etdirmişdi. 1916-1917-ci illərdə «Açıq söz» qəzetində «Bizim studentlər», «Bizə ciddi mətbuat çoxdan lazım idi», «Hürriyət», «İki aləm», «Zəruri məsələlər» kimi aktual mövzularda məqalələri çap olunmuşdu. Yusif Vəzir «Müsavat» partiyasının Kiyevdə şöbəsini

yaradaraq ona rəhbərlik etmiş, 1917-ci ildə çap olunan «Azərbaycan muxtariyyatı» kitabında muxtar Azərbaycan ideyasını irəli sürmüşdü.

Y.V.Çəmənzəminli Krımda olarkən Azərbaycan Xalq Cümhu riyyətinin Kiyevdə səfiri təyin olunur. Lakin bolşeviklər Kiyevi ələ keçirdikləri üçün ora gedə bilmir. 1919-cu ilin yayında İstanbuldan keçərək Bakıya qayıdan Yusif Vəzir milli dövlət və quruculuq işlərinə qoşulur. Cümhuriyyətin səfiri təyin olunan Yusiy Vəzir yenidən İstanbula qayıdır. AXC yıxıldıqdan sonra İstanbulda səkkiz ay səfirlik fəaliyyətini davam etdirən Yusif bəyin «Azərbaycan Xalq Cümhuriyyətinin sabiq elçisi» imzası ilə «Azərbaycan ədəbiy yatına bir nəzər», «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabları çap olunur.

Y.V.Çəmənzəminli bəzi «Müsavat» çılarla ixtilafına» görə İstanbuldan Parisə gedir, Klişi şəhərindəki avtomobil zavoduna rəhbərlik edir. O, 1926-cı ilin aprel ayının 3-də vətənə qayıdır. Sonrakı 10 ildə onun «Studentlər», «Qızlar bulağı», «Qan içində» romanları və hekayələri nəşr edilir.

Yusif Vəzir 10-na yaxın Avropa və Şərq dillərini bilirdi. O da, digər ziyalılarımız kimi repressiyaya məruz qalır, Yazıçılar İtti faqından çıxarılır. 1940-cı il yanvarın 27-də Özbəkistan SSR-in Ürgənc şəhərindəki pedaqoji institutda müəllim işləyərkən həbs olunur və Bakıya gətirilir. 1940 - cı il fevralın 26-da Çəmən zəminli 1919 - cu ildə «Müsavat» hökumətinin səfiri işləyərkən ingilis-fransız və Türkiyə kəşfiyyat orqanları ilə əlaqədə olmaqda, 1927-ci ildə müsavatçıların yaratdıqları antisovet bloka keçməkdə, öz həmfikirləri arasında müntəzəm olaraq əksinqilabi görüşlər təbliğ etməkdə və 1931-ci ildə Azərbaycan əksinqilabçı-millətçi təşkilatının tərkibinə daxil olmaqda günahlandırılır. Lakin Y.Vəzir özünü günahkar hesab etmədiyini onun haqqında tərtib olunan qərarın altından həmin sözləri yazır.

1940-cı il iyulun 11-də keçirilən xüsusi müşavirə Yusif Mir-bala oğlu Vəzirovu 1940-cı il yanvarın 27-dən 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına məhkum edir.

Y.V.Çəmənzəminli 1943-cü il yanvarın 3-də Qorki vila yətinin Suxobezvodnoye kəndində vəfat etmişdi. Onun mənəvi repressiyası isə 1956-cı ilədək davam etmiş, 1956-cı il fevralın 28-də onun işi üzrə hökm ləğv edilmiş, iş xətm olunmuşdu.

**Mirzə Bala Məmmədzadə (1898 - 1959)** 1898-ci ildə Abşeronun Zirə kəndində anadan olmuşdu. Mirzə Bala «Rus-tatar» məktəbinə daxil olmuş və 1914-cü ildə oranı bitirmişdi. Ədəbi yaradıcılığa hələ məktəbdə oxuyarkən başlamışdı. «Rus - tatar» məktəbini bitirdikdən sonra Mirzə Bala 3-cü ali ibtidai məktəbi başa vurmuş, təhsilini Bakı texniki sənaye məktəbində rus dilində almışdı. Fevral inqilabından sonra siyasi fəaliyyətə qoşulan Məmmədzadə «Müsavat» partiyasının sıralarına daxil olmuş, həmin dövrdə «Açıq söz», «Bəsirət» və digər mətbu orqanlarda siyasi problemlərlə bağlı xeyli məqalə çap etdir mişdi.

1918-ci ildə M. B. Məmmədzadə Gürcüstanda yaşayır. Siya-si-ictimai fəaliy- yətini Tiflisdə davam etdirən ədib AXC elan olu-nandan sonra «Gənclər Yurdu» jurnalında redaktor kimi fəaliyyət göstərir. Həmin dövrdə M.B.Məmmədzadənin Tiflisdə «İki inqilab arasında» adlı risaləsi çap olunur. Kitabçada 1905 və 1917-ci illər inqilabları arasında olan dövrdə Azərbaycanda mətbuat, maarif, mədəniyyət, teatr, ruhani və qadın məsələləri tarixinə nəzər salınmışdı.



**M.B.Məmmədzadə**

M.B.Məmmədzadə 1918-ci il dekabrın 7-də açılan Azərbaycan parlamentində stenoqrafçı işləmişdi. 1919-cu ilin oktyabrında «Müsavat» partiyasının Bakı komitəsinə üzv seçilmişdi.

1920-ci il aprelin 27-də Azərbaycanın XI Qızıl Ordu tərəfindən işğalının səhərisi günü-aprelin 28-də Cəfər Cabbarlının evində «Müsavat» ın MK-nin sədri M.Ə.Rəsulzadənin rəhbərliyi ilə istilaçılara qarşı mübarizə aparmaq üçün gizli Müqavimət Komitəsi yaradılır. Komitəyə sədr Mirzə Bala Məmmədzadə, katib C.Cab barlı seçilir. Komitə

«İstiqlal» qəzetini nəşr etməyə başlayır. M.B.Məmmədzadə N.Nərimanovla, S.Ağamalıoğlu və b. ilə siyasi çəkişmələrdə olmuş, Azərbaycan torpaqlarının ermənilərə veril məsinə qarşı etiraz etmişdi.

M.B.Məmmədzadə sovetlər dönəmində Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi və orta məktəbdə müəllim işləyir, mətbuatla əlaqəsini kəsmir, «Yeni yıldız» jurnalında Azərbaycan tarixinə dair silsilə məqalələr çap etdirir. M.B.Məmmədzadə ana dilimizdə «Azərbaycan tarixi» anlayışının əsasını qoyanlardandır. 1922-ci ildə onun «Azərbaycan türk mətbuatı» adlı kitabı nəşr olunmuşdu.

Yerli hökumət orqanları «İstiqlal» qəzetinin nəşrindən və Müqavimət Komitəsinin üzvlərinin fəaliyyətindən əndişələndiyi üçün 1923-cü ilin iyulun axırlarında komitə üzvlərini həbs edir. Bu dəfəki həbsdən canını qurtaran M.Məmmədzadə 1924-cü ilin baharının sonuna kimi gizli yaşayır, may ayında İranın Ənzəli şəhərinə mühacirət edir. O, bir müddət Təbrizdə, sonra isə Sulduz şəhəri ətrafında şosse yolu çəkilişində mühəndis-texnik işləyir. Eyni zamanda o, İstanbulda M.Ə.Rəsulzadənin redaktorluğu altında nəşr olunan «Yeni Qafqasiya» jurnalına məqalələr göndərir. Nəhayət, o, 1927-ci ildə İstanbula köçür. Elə həmin ildə onun «Azərbaycan misaki millisi: 28 Mayıs İstiqlal Bəyannaməsinin təhlili», «Ermənilər və İran» adlı kitabları çap olunur. Otuzuncu illərin əvvəllərində o, İstanbul Universitetinin hüquq fakültəsini bitirir.

1931-ci il M.Ə.Rəsulzadə və M.B.Məmmədzadə üçün ağır il olur. Sovet İttifaqının tələbi və Türkiyə hökumətinin göstərişi ilə M.Ə.Rəsulzadə və onun silahdaşları İstanbulu tərk edərək bir müddət Varşavada yaşayırlar. 1932-ci ildə M.B.Məmmədzadə də Varşavaya köçür. 1936-cı ildə Varşavada keçirilən «Milli Azərbaycan «Müsavat» xalq firqəsi» nin üçüncü qurultayında M.B.Məmmədzadə yaxından iştirak edir.

İkinci Dünya müharibəsinin başlanması və Polşanın Hitler Almaniyası tərəfindən işğalından sonra M.B.Məmmədzadə yeni dən İstanbula köçür.

1949 - cu ildə M.B.Məmmədzadənin yaxından iştirakı ilə Ankarada «Azərbaycan Kültür Dərnəyi» nin əsası qoyulur. 1951-ci ildə həmin dərnək M.B. Məmmədzadənin «Azərbaycan tarixində türk Albaniyası» kitabını çap edir.

1954-cü idən M.B.Məmmədzadə Münhendə yerləşən SSRİ-ni öyrənən institutda çalışır və Azərbaycan dilində buraxılan siyasi jurnalın redaktoru olur, institut elmi şurasının sədri və sədr müavini vəzifələrini icra edir. Bu müddətdə M.B.Məmmədzadə SSRİ-dəki totalitar rejimə dair xeyli məqalə nəşr etdirir. Ümumiyyətlə, M.B.Məmmədzadənin iki mindən çox məqaləsi çap olunmuşdu. O, yazılarında Mirzə Bala, Nuhoğlu, A.Kut, M.M.Məmmədzadə, M.B.Daşdəmir və Əli Kutluk imzalarından istifadə etmişdi.

Mirzə Bala Məmmədzadə 1959-cu ildə martın 8-də İstanbulda ürək xəstəliyindən vəfat etmişdi.

**Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli (2.2.1891, Şuşa-22.10.1962, Paris)** 1891-ci ildə Şuşada anadan olmuşdu. İbtidai təhsilini Şuşa rus - tatar məktəbində aldıqdan sonra orta təhsilini Bakıda tamamlamışdı. 1908-ci ildə Üzeyir bəylə birlikdə Ə.Hüseyn zadənin müdiri olduğu «Səadət məktəbi» ndə müəllim işləmişdi.

C.Hacıbəyli 1901-ci ildə milyonçu-xeyriyyəçi Murtuza Muxtarovun vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuş, oradan Parisə gedərək Sarbonna Universite tində oxu-muşdu. 1916-cı ildə təhsilini başa vuran C.Hacıbəyli Bakıya qayıdaraq mühərrirliklə məşğul olmuş, çoxsaylı məqa lələr dərc etdirmişdi. AXC dövründə «Azərbaycan» qəze tinin redaktorlarından biri olmuş dur. Qəzet 1918-ci ilin noyab rından C.Hacıbəylinin redaktorluğu ilə Azərbaycan dilində çıxmışdı. O, Parisə gedən nümayəndə heyətinə daxil edilmişdi.



**C. Hacıbəyli**

C.Hacıbəylinin 1919-cu ildə Parisdə fransız dilində «İlk müsəlman respublikası Azərbaycan» kitabı çap olunmuş, həmin ildə «Pevyü de Monde müzülman» jurnalında çap olunan məqaləsində 1918-ci ildə daşnaqların Bakıda, Şamaxıda, Kürdəmirdə və Xaçmazda azərbaycanlı əhalini kütləvi şəkildə qırmasını kəskin ifşa etmişdi.

C.Hacıbəyli 1920-ci il aprel çevrilişindən sonra Vətənə dönə bilməmiş, ömrünü mühacirətdə başa vurmuşdu. Onun Parisdə nəşr olunmuş kitab və məqalələrində Azərbaycan məfkurəsi əsas yelərdən birini tutmuşdu.

C.Hacıbəyli Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin təşkil etdiyi «Azərbaycan Milli Birlik Məclisi» idarə heyətinin üzvü, Məclisin orqanı olan və nəşrini 1954-cü ildə dayandıran «Azərbaycan» jurnalının (Münxen) redaktoru olmuşdu.

C.Hacıbəyli Azərbaycan milli-azadlıq hərəkatının təəssübkeşlərindən biri idi.

### 5.4. Milli problemlərin bolşeviksayağı həlli. Naxçıvan MSSR-in yaradılması və Dağlıq Qarabağ Muxtar Vilayəti nin təşkili

Azərbaycana keçmişdən milli problem - ərazi problemləri qalmışdı. XX əsrin müxtəlif dövrlərində yenidən ortaya çıxan ərazi mübahisələri içərisində Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın adları tez-tez çəkilir. Regiondakı mübahisəli məsələlərin həllinə Zaqafqaziya respub likalarının rəhbərlərinin fərqli mövqelərdən yanaşmasından istifadə edən müxtəlif siniflərin, ictimai qüvvələrin və cəmiyyətlərin nümayəndələri bundan bəhrələnməyə cəhd göstərir, daşnaqlar isə antiazərbaycan əhval-ruhiyyəni qüvvətləndirir və müsəlmanların Türkiyə ilə birləşmək istəmələri haqqında şayələr yayırlar.

Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra antiazərbaycan qüvvələrinin fəallığı nisbətən artır. 1920-ci ilin noyabrın 30 - da AK (b) P MK Siyasi və Təşkilat bürolarının birlə şmiş iclası keçirilir. İclasda N.N.Nərimanov, Q.N.Kaminski, Y.D. Statsova, Q.K.Orconikidze,

M.B.Qasımov, Ə.N.Qarayev, S.A.Danelyan, M.D.Hüseynov, A.R.Serebrovski iştirak edirlər. İştirakçıların 50%-dən çoxunu digər millətlərin nümayəndələri təmsil edən bu iclasda sovet və inqilab komitəsi adından Ermənistan hökumətinə Bəyannamə hazırlanması və onun N.N.Nərimanov tərəfindən elan olunması qərara alınır. Bəyannamədə bidirilməli idi ki, Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur. N.Nərimanovun çıxışında və qərarda, Bakı Sovetinin elan etdiyi Bəyannamədə Naxçıvan haqqında məsələ qaldırılmamışdı. Lakin ertəsi gün qəzetlərdə dərc olunmuş Bəyannamədə «Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Azərbaycanının ayrılmaz hissəsidir» sözləri əlavə olunduğu aşkarlanır. Bununla da, Q.Orconikidze, S.Kirov və onların həmfikirləri xalqlar arasında münaqişələrin alovlanması üçün toxum səpmişdilər. Ancaq N.Nərimanov və silahdaşlarının cəsarəti və təkidi ilə Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1920-ci il dekabrın 2-də Aleksandropolda bağlanan sülh müqaviləsinə əsasən Ermənistan Naxçıvan, Şərur və Şaxtaxtıda səsvermə yolu ilə xüsusi idarəçiliyin işinə müdaxilə etməməsini öhdəsinə götürdü. 1920-ci il dekabrın 28-də Ermənistan SSR İnqilab Komitəsi bəyanatla çıxış edərək Naxçıvan əhalisinə öz müqəddəratını azad surətdə təyin etmək hüququ verildiyini bildirdi. Ancaq Azərbaycan öz torpaqlarının bütövlüyünə nail ola bilmədi. Zəngəzur qəzasının bir hissəsi Ermənistanın «əlinə keçdi».

Naxçıvan diyarı bəhs olunan dövrdə əksinqilabi qüvvələrin təpkisinə sinə gərməli oldu. Yalnız 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında bağlanan Moskva müqaviləsindən sonra erməni fitnələrinə son qoyuldu. Müqavilənin 3-cü bəndinə əsasən Naxçıvan vilayəti «Azərbaycanın qəyyumluğu altında o şərtlə muxtar ərazi olurdu ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir».

1921-ci il oktyabrın 13-də Moskva ilə Türkiyə arasında ***Qars müqaviləsi*** imzalandı. 20 maddədən və 3 əlavədən ibarət olan müqavilənin *birinci maddəsində* deyilirdi ki, 1921-ci il 16

mart tarixdə Sovet-Türkiyə arasında bağlanan müqavilədən başqa (Moskva müqaviləsi iə – M.Ə.) Zaqafqaziya ərazisində əvvəllər mövcud olan dövlətlərlə və Zaqafqaziyaya dair üçüncü dövlətlərlə bağlanan bütün müqavilələr ləğv edilərək qüvvədən düşmüş hesab edilir.

*2 və 3-cü maddələrdə* razılığa gələn tərəflər güc vasitəsi ilə tərəflərə məcbur edilən heç bir beynəlxalq müqavilə və sənədləri qəbul etmir, kapitulyasiya rejiminin qüvvədən düşdüyü elan edilirdi.

*4, 5 və 6-cı maddələrdə* hər iki tərəf arasındakı sərhəd və ərazi məsələlərinin qaydaya salınması şərh edilirdi. (Naxçıvan vilayəti Azərbaycan SSR himayəsində muxtariyyat təşkil edə bilərdi. Batumi şəhəri limanı ilə birlikdə Gürcüstan SSR-ə verilirdi)

*7 və 8-ci maddələrdə* hər iki tərəf sərhəd rayonlarında yaşayan əhalinin sərhəddi keçmələri və qarşı tərəfin yay və qış otlaqlarından istifadə etməsinə dair konvensiyalar bağlanması nəzərdə tutulurdu.

*9-cu maddədə* boğazlardan bütün xalqların ticarət gəmi lərinin sərbəst hərəkətinin təmin edilməsi məqsədilə, Türkiyənin müstəqilliyinə hörmət edilmək şərti ilə Qara dəniz dövlətləri nümayəndələrinin konfransının çağırılması nəzərdə tutulurdu.

*10-cü maddədə* razılığa gələn tərəflər öhdəsinə götürürdülər ki, öz ölkələri daxilində qarşı tərəflə mübarizə aparmaq məqsədi ilə yaradılmış təşkilat və qrupların fəaliyyətinə yol verilməyəcəkdir.

*11, 12 və 13-cü maddələrdə* razılığa gələn tərəflər qarşı tərəfin ərazisindəki vətəndaşların hüquq və vəzifələrinə olduqları ölkələrin qanunlarının nə dərəcədə tətbiq edilməsi, qarşı tərəflərin ərazisinə gedən vətəndaşlara daha münasib qaydalar tətbiq edilməsinə dair və qarşı tərəfin vətəndaşlarının yaşadığı ölkələrin tabeliyindən imtina etmək hüquqları haqqında sazişə gəlmələri nəzərdə tutulurdu.

*14, 15 və 16 - ci maddələr* hərbi əsirlərə, qaçqınlar və müharibə ilə əlaqədar cinayət edənlərin azad edilməsi və qaytarılması məsələlərinə şamil edilirdi.

*17, 18 və 19-cu maddələr* hər ölkə arasında dəmir yol, teleqraf və s. vasitələrin tezliklə işə salınmasına, iqtisadi, maliyyə və konsul konvensiyalarının bağlanmasına həsr edilmişdi.

*20-ci maddədə* onun təsdiq olunması, mübadilə yeri və hansı vaxtdan qüvvəyə minməsi şərtləri göstərilmişdi.

*3 əlavədə* isə sərhədlərin hansı ərazilərdən keçməsi dəqiqləşdirilmişdi.

**Müqaviləni Türkiyə tərəfindən:** Kazım Qarabəkir paşa, Vəli bəy, Muxtar bəy, Məndux Şövkət bəy; **Azərbaycan tərəfindən:** Behbud Şaxtaxtinski; **Gürcüstan tərəfindən:** Ş.Eliava, A.Svanidze**; Ermənistan tərəfindən:** A.Mravyan, P.Maninzyan; **RSFSR tərəfindən**: Y.Qaneski **imzalamışlar.**

Azərbaycan SSR tərkibində Naxçıvan SSR yaradılması tarixi zərurətdən irəli gəlirdi. Naxçıvanın coğrafi və geosiyasi mövqeyi, 1920-ci ildə diyarın əhalisinin 61%-nin azərbaycanlılardan ibarət olması, Naxçıvanı Azərbaycanla tarixi tellərin birləşdirdiyi, əhalinin əksəriyyətinin Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi hesab etməsi, nəhayət Naxçıvan diyarının Azərbaycan SSR ilə sıx iqtisadi, mədəni və siyasi əlaqələri bu zərurəti şərtləndirən səbəb lərdəndir. Bunları nəzərə alan Azərbaycan K (b) P MK və Azərbaycan hökuməti Naxçıvanın partiya, sovet və təsərrüfat orqanlaına daim kömək göstərir, diyarın kənd təsərrüfatının bərpası üçün vəsait ayırır, təcrübəli işçiləri Naxçıvana göndərirdi.

1921-ci ilin sonunda Naxçıvanda keçirilən seçkilərdən sonra, 1922-ci ilin yanvarın 25-də Naxçıvan SSR-in Birinci Sovetlər qurultayının çağırılması, Naxçıvan İnqilab Komitəsinin ləğv olunması, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradılması da bu zərurətdən irəli gəlirdi. Digər tərəfdən, Naxçıvan əhalisi Qars müqaviləsindən əvvəl və sonra da diyarın Azərbaycan SSR-ə birləşdirilməsi barədə dəfələrlə müraciət etmişdi. 1921-ci ilin əvvəlində keçirilən rəy sorğusunda da Naxçıvan əhalisi Azərbaycan SSR tərkibində qalmasına səs vermişdi.

Bütün bunlardan sonra Naxçıvan ölkə partiya komitəsinin strukturu AK (b) P-nin qəza sovetlərinin, qəza partiya komi tələrinin, AK (b) P-nin nahiyə komitələrinin strukturuna uyğunlaşdırıldı. Bu sahədə 1922-ci ilin may ayının 22-də müzakirə olunan Naxçıvan diyarı haqqında Əsasnamə və Naxçıvan SSR Konstitusiyasının layihəsi xüsusi rol oynadı. Əsasnamədə Naxçıvan diyarı Azərbaycan SSR-in qəyyumluğu altında muxtar respublika elan olunur və Naxçıvan Sovet Sosialist Respublikası adlandırılırdı.

Naxçıvan SSR Konstitusiyasının layihəsində diyarda vətəndaşlar dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq bərabərhüquqlu elan edilir, milli azlıqların hüquq bərabərliyinin məhdudlaşdırılması qanun pozğunluğu hesab olunurdu.

1923-cü il yanvarın 18-də Zaqafqaziya Ölkə Komitəsinin Rəyasət Heyəti Naxçıvanın Muxtar Respublikaya, Naxçıvan XKS və Naxçıvan MİK-nin Naxçıvan Diyar İcraiyyə Komitəsinə çevrilməsi haqqında qərar qəbul etdi. Azərbaycan K (b) P MK-nın qərarı ilə 1923-cü il yanvarın 21-də Naxçıvan MİK və Naxçıvan XKS ləğv olundu və Naxçıvan Diyar İcraiyyə Komitəsi yaradıldı.

Naxçıvan SSR-in Naxçıvan diyarına çevrilməsi və onun muxtar vahid hüququnda Azərbaycan SSR tərkibinə verilməsi bölgənin əhalisi tərəfindən bəyənildi. 1923-cü il fevralın 2-də çağrılan III Ümumazərbaycan Sovetlər qurultayı diyarın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdi. Bundan az sonra, iyunun 16-da Azərbaycan MİK-nin üçüncü sessiyasında Naxçıvan diyarının Azərbaycan SSR-in muxtar hissəsi kimi onun tərkibinə daxil olması haqqında Naxçıvan Sovetlər qurultayının vəsatəti təsdiq edildi.

1923-cü il dekabrın 11-də Azərbaycan K (b) P MK Naxçıvan diyarının Naxçıvan Muxtar Respublikasına çevrilməsi məsələsini müzakirə edərək Azərbaycan MİK-ə təklif etdi ki, Naxçıvan Muxtar Respublikasının yaradılması barədə məsələni Zaqafqaziya MİK qarşısında qaldırsın. Dekabrın 31-də

Azərbaycan MİK bu barədə qərar qəbul etdi və qərarın təsdiqi Zaqafqaziya MİK-dən xahiş olundu. Zaqafqaziya MİK Q.M. Musabəyovun məruzəsini və Azərbaycan SSR MİK-nin vəsatətini nəzərə alaraq Naxçıvan SSR-i Azərbaycan SSR tərkibində **Naxçıvan Muxtar Sovet Sosialist Respublikası** elan etdi.

Azərbaycan SSR MİK-nin layihəsinə əsasən Naxçıvan Respublikasının dövlət hakimiyyəti aparatı Azərbaycan SSR, Zaqafqaziya SFSR və SSRİ Konstitusiyasına uyğun olaraq, yerli sovetlərdən, onların qurultaylarından və icraiyyə komitələrindən, XKS və MİK-dən ibarət təşkil edilməli idi. Layihə 1924-cü il fevralın 4-də AK (b) P MK Rəyasət Heyətində müzakirə olundu. Düzəlişlərdən sonra Naxçıvan Muxtar Respublikası haqqında Əsasnamənin hazırlanması qərara alındı.

«Naxçıvan Respublikası haqqında Əsasnamə»nin layihəsi 1924-cü il fevralın 24-də AK (b) MK Rəyasət Heyətində müzakirə olunduqdan sonra həmin ilin aprelində yeni «Əsasnamə»ni Azərbaycan SSR MİK təsdiq etdi. «Əsasnamə»nin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan respublika kimi Azərbaycan SSR-in tərkibinə daxil olur. Bu maddə Azərbaycan SSR-in IV Sovetlər qurultayı tərəfindən (1925-ci 11 mart) Azərbaycan SSR Kons titusiyasına əlavə olundu.

Türkiyənin istiqlal savaşında fəal iştirak edən, Şərq cəbhəsinin komandanı kimi bir sıra əzəli türk torpaqlarının geri qaytarılmasında, daşnaqların sülh bağlamağa məcbur edilməsində və Naxçıvanın erməni daşnaqlarından təmizlənməsində əvəzsiz xidmətlər göstərənlərdən biri də **Kazım Qarabəkir paşa (1882-1948)** olmuşdur. «İstiqlal» ordeninə layiq görülən Kazım Qarabəkir paşa ali hərbi təhsil almış, Balkan (1912-1913) və Birinci Dünya (1914 -1918) müharibələrində iştirak etmişdi. O, Azərbaycanda



**Kazım Qarabəkir paşa**

baş verən hadisələrlə yaxından maraqlanmış, Qars konfransında (1921) Naxçıvanın ərazi bütövlüyünün qorunub saxlanmasında səmərəli diplomatik fəaliyyət göstərmişdi.

Kazım Qarabəkir paşa Naxçıvanın mədəni həyatında yaxından iştirak etmişdi. Onun rəhbərliyi ilə Naxçıvan şəhərində fəaliyyətini bərpa etmiş teatrda türk yazıçılarının əsərləri tamaşaya qoyulmuş, tədris müəssisələri işə başlamış, bölgədəki məktəblər üçün Türkiyədən çoxlu dərsliklər gətirilmişdi. Bir qrup gənc Türkiyə hərbi məktəblərinə oxumağa göndərilmişdi.

Türk xalqının istiqlal mübarizəsi başa çatdıqdan sonra ordudan tərxis olunan Kazım Qarabəkir paşa millət vəkili kimi fəaliyyət göstərmiş, 1946-cı ildə Türkiyə Böyük Millət Məclisinə başçılıq etmişdi.

Naxçıvan şəhərində Kazım Qarabəkir paşanın xatirəsinə Türkiyə Dəyanət İşləri Vəqfi tərəfindən məscid inşa edilmişdi. Məscidin 1999-cu il oktyabrın 13-də olan açılışında Heydər Əliyev iştirak etmişdi.

Azərbaycan tarixinin ən ağrılı-acılı səhifələrindən biri də **Dağlıq Qarabağ Muxtar Vilayətinin** təşkilidir.

Məlum olduğu kimi, müxtəlif vaxtlarda Azərbaycan ərazisinə köçürülmüş ermənilər milli azlıqlar arasında çoxluq təşkil etmiş, onların əksəriyyəti əzəli Azərbaycan ərazisi olan Qarabağın dağlıq hissəsində azərbaycanlılarla qonşuluqda yaşamışlar.

Lakin Sevet hakimiyyətinin ilk günlərindən daşnaqlar fitnəkarlıq etməyə başladılar. Azərbaycan hökuməti Qarabağdan və Zəngəzurdan qoşunların çıxarılması haqqında Ermənistan hökumətinə nota göndərsə də, əlverişli məqam tapan kimi daşnaq qoşunları Azərbaycan ərazisinə hücum edirdilər. Nəhayət, Qızıl Ordu Azərbaycana qoşun hissələrinə köməyə göndərildi. 1920 - ci il iyunun 19-da isə G.V.Çiçerinə xəbər verilirdi ki, Azərbaycan Qarabağa, Zəngəzura, Naxçıvana və Şərur-Dərələyiz qəzasına iddia edir. Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan olunub və adı çəkilən ərazilər özlərini Azərbaycan Sovet Respublikasının bir hissəsi hesab edir…

Azərbaycan heç bir halda Qarabağ və Zəngəzursuz keçinə bilməz».

K.Orconikidze ilk vaxtlar Ermənistana və Azərbaycana aid məsələlərin Moskvada hər iki tərəfin nümayəndələrinin iştirakı ilə həll edilməsini təklif edirdi. Lakin sonra onun fikri dəyişdi. Mərkəz isə məsələni Azərbaycanın iştirakı olmadan həll etdi. N.Nərimanov bu cür həll prosesinə dəfələrlə etiraz etsə də, nəticə ürəkaçan olmamışdı. Daşnaqlar vəziyyətdən istifadə edərək həm qərbin, həm də Moskvanın ikili siyasətindən yararlanmağa çalışdılar.

1920-ci ilin iyununda Azərbaycan KP MK-da iki buro-Siyasi büro və Təşkilat bürosü, habelə MK katibi vəzifəsi təsis edilir. MK Siyasi Bürosuna Nərimanov, Naneyşvili, M.D.Hüseynov, A Mikoyan, Lominidze, Təşkilat bürosuna Sarkis (Danielyan), K.Strua, D.Bünyadzadə, Ə.Qarayev seçildilər. V.İ.Naneyşvili MK katibi təsdiq olundu.

1920-ci il iyulun 10-da XI ordunun siyasi şöbəsinin nümayəndələri və Ermənistanda sovet hakimiyyəti qurulana qədər oradakı RSFSR-in səlahiyyətli nümayəndəsi olan B.V.Leqranın iştirakı ilə AK (b) P MK Bürosunun iclası keçirilir. Məruzəçi A.N.Karagözov ingilis hökumətinin ikili siyasət yeritdiyini təsdiqləyərək bildirir ki, Qarabağ kommunistləri «Qarabağın Azərbaycana birləşdirilməsini zəruri» sayırlar, erməni kəndləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər».

Elə həmin gün N.Nərimanov, RK (b) P Qafqaz Bürosunun üzvü V.Midivani, AK (b) P MK üzvləri A.İ.Mikoyan, V.Naneyşvili, XI ordu Hərbi İqilab Şurasının üzvləri Keşnik, Levandovski, Mixaylov RK (b) P MK-ya müraciət göndərərək Zəngəzur və Qarabağın Azərbaycana birləşdirilməsini vacib hesab edirlər.

İyulun 15-də AK(b)P MK N.Nərimanovun, Q.Orconikid-zenin, Y.Statsovanın, M.Hüseynovun, D.Bünyadzadənin, A.Mikoyanın və V.Leqranın iştirakı ilə Ermənistanla sülh məsələsini müzakirə edərək Qarabağ və Zəngəzurun

Azərbaycana birləşdirilməsi haqqında qərar qəbul edir. Lakn RSFSR-in Emənistana olan isti münasibəti nəticəsində 1920-ci il avqustun 10-da Yerevanda RSFSR ilə daşna hökuməti arasında bağlanmış müqavilədə Qarabağ, Zəngəzur və Naxçıvan mübahisəli vilayətlər elan olunur.

Beləliklə, siyasi qüvvələr arasında mübarizə qızışır. Yalnız Zaqafqaziyada sovet hakimiyyəti qurulduqdan sonra RK (b) P MK Qafqaz Bürosu 1921-ci ilin mayında Azərbaycan, Ermənistan və Gürcüstan arasında sərhədləri müəyyənləşdirmək üçün S.M. Kirovun sədrliyi ilə hər üç respublikanın nümayəndələrindən ibarət komissiya yaratmağı qərara alır.

Vəziyyətin qeyi-sabitliyindən istifadə edən daşnaqlar sərhədyanı rayonlara hücum edir, kəndləri talan edir, əhali arasında qırğınlar törədirdilər.

Qarabağ məsələsində iki fikir mövcud idi. Bunlardan *birincisi* Qarabağın Azərbaycanın tərkibində saxlanılması, *digəri* isə Qarabağın Emənistanın tərkibinə verilməsi və Dağlıq Qarabağda ermənilər arasında rəy sorğusu keçirilməsi.

1921-ci il iyulun 4-də RK (b) P MK Qafqaz bürosunun iclasında Qarabağ məsələsi müzakirə olundu. İclasda büro üzləri Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Oraxeleşvili, Fiqatner, MK üzvü Stalin, Azərbaycan Xarici İşlər Komissarı M.D.Hüseynov, Qafqaz komsomol bürosunun katibi Breytman, Gürcüstan KP MK üzvləri Sinsadze, Midivani və Sianidze iştirak edirdilər. İclasda Qarabağın Azərbaycanın tərkibində saxlanmasına Nərimanov, Maxaradze, Nazaretyan (3 səs); əleyhinə Orconikidze, Myasnikov, Kirov, Fqatner (4 səs) səs verdilər.

*İkinci məsələdə* - Qarabağın Ermənistanın tərkibinə verilməsi və Dağlıq Qarabağda rəy sorğusunun ermənilər arasında aparılması məsələsi səsə qoyulduqda **lehinə -** *Orconikidze, Myasnikov, Kirov, Fqatner, Nazaretyan (5 səs)*, **əleyhinə -** *Nərimanov, Maxaradze (2 səs)* **səs verdilər.** Nəticədə RK (b) P MK Qafqaz Bürosunun 1921-ci il iyulun 4-dəki plenumu Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil

edilməsi və rəy sorğusunun yalnız Dağlıq Qarabağda keçirilməsi haqqında qərar qəbul etdi.

Stalin Qarabağ məsələsində ikili mövqe tuturdu. Məsələnin plenumda müzakirəsində və səsvermədə Stalin iştirak etməsə də, erməni əhalisinin yığcam yaşadığı ərazilərin Ermənistana birləşdirilməsini zəruri hesab edirdi.

Problemin ciddiliyini, bu cür qərarların törədə biləcəyi fəsadları nəzərə alan N.Nərimanov məsələnin RK (b) P MK-da müzakirəsini zəruri hesab etdi. Onun qətiyyəti sayəsində 1921-ci il iyulun 5-də Qafqaz Bürosu Stalinin iştirakı ilə 4 iyul tarixli qərara yenidən baxdı və «Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla daimi əlaqəsini əsas tutaraq, Dağlıq Qarabağın Azərbaycan SSR-in hüdudlarında saxlanılması, onun tərkibinə daxil olan Şuşa şəhərinə inzibati mərkəz olmaqla geniş muxtariyyat verilməsi» haqqında qərar qəbul etdi.

1921-ci il iyulun 20-də AK (b) P MK-nın Siyasi və Təşkilat Bürosu Qarabağın Konstitusiyasını hazırlamaq üçün komissiya yaratmağı qərara aldı.

DQMV-nin yaradılması haqqında qərar Azərbaycanda birmənalı qarşılanmadı. Dağlıq Qarabağın muxtariyyatı haqqında məsələ 1922-ci ilin noyabrında AK (b) P MK-nın və Bakı Komitəsinin plenumunda müzakirə olundu. 1922-ci il dekabr ayının əvvəllərində RK (b) P MK-nın Rəyasət Heyəti S.M.Kirov başda olmaqla Azərbaycan SSR XKS yanında Dağlıq Qarabağın işləri üzrə Mərkəzi Komissiyanın və A.M.Karagözovun sədrliyi ildə Dağlıq Qarabağın işləri üzrə Komitənin tərkibini təsdiq etdi.

Dağlıq Qarabağın işləri üzrə komissiyanın və komitənin yaradılması ictimaiyyətdə müxtəlif rəylər doğurdu. Qarabağın iki hissəyə bölünməsinin süni olması haqqında fikirlər səslənməyə başladı.

*1923-cü il iyulun 7-də Azərbaycan SSR MİK «Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında» dekret verdi.* Qədim

Xankəndi həmin ilin avqust ayının 10-da Stepanakert adlandırıldı və bu ad 68 il sonra - 1991-ci ilin noyabrın 26-da ləğv edilərək əzəli adı bərpa olundu.

1923-cü il oktyabrın 8-də AK (b) P MK-nın Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili haqqında AK (b) P MK qərarının icra vəziyyətini müzakirə etdi. Həmin ilin noyabrın 7-də DQMV-nin Birinci Sovetlər qurultayı çağırıldı. Qurultayda 132 nümayəndə iştirak edirdi. Nümayəndələrin 116 nəfəri erməni, 16 nəfəri azərbaycanlı, 12 nəfəri qadın idi. Qurultayı Zaqafqaziya MİK adından H.H.Sultanov, Azərbaycan SSR XKS adından Ç.İ.İldırım və İ.İ.Dovlatov salamladılar. Qurultay 25 nəfərdən ibarət ilk DQMV MİK seçdi. Karagözov (sədr), M. Salyan, V.N.Bünyadov, S.V Manukyan, A.B. Ketikyan (katib), M. Arzanyan və b. ibarət Rəyasət Heyəti təsdiq edildi.

1924-cü il noyabrın 26-da «Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə» dərc olundu. Əsasnaməyə görə Şuşa qəzasıdan **Şuşa** şəhəri və Xankəndi, **115** kənd, Cavanşir qəzasından **52** kənd, Qaryagin qəzasından **30** kənd, Qubadlı qəzasından isə **Qaradərəsi** kəndi DQMV-nə verildi.

Beləliklə, imperiyanın hakim dairələri daha bir münaqişə ocağının əsasını qoydular.

## 5.5.Sovetlər əleyhinə üsyanlar

Respublikada formalaşan «sovet inzibati-amirlik sistemi» cəmiyyətin bü tün sahələrinə, o cümlədən sovetlərin fəaliyyətinə güclü təsir etdi. Hakimiyyət orqanlarının funksiyaları, konstitusiya hüquqları məhdudlaşdırılmağa başlandı.

Əlbəttə, inzibati - amirlik şəraitində seçkilərin demokratik prinsiplər əsasında keçirilməsi qeyri - mümkün idi. Belə ki, imtiyazlı, əsil zadəgan təbəqələrin nümayəndələri, dini məra simlərə əməl edən kəndli, ortabab və kasıblar qanunsuz olaraq seçki hüququndan məhrum edilir, onlara qarşı sərt davranılırdı. Bu səbəbdən də, 1929 - cu il seçkiləri sinfi ziddiyyətlər şəraitində

keçdi. Seçki hüququ əldə etmək istəyənlər seçki iclaslarını pozur, bəzən terrora əl atırdılar.

Rəsmi dairələr üsyançılara «bandit», «silahli quldur dəstəsi» adı verərək Fövqəladə üçlüklərin sərəncamına verirdilər. Məsələn, Naxçıvan MSSR üzrə üçlük (sədr İbrahim Tağıyev, üzvləri 41-ci Naxçıvan sərhəd dəstəsinin rəisi Nikişev və Azərbaycan DSİ-nin Naxçıvan Vilayət şöbəsinin rəisi Yaqubov) qısa müddətli iclaslarda bu cür məsələlərə baxmışdılar. İclaslarda Naxçıvan XKS sədri Vəlibəyov, Qəzənfər Musabəyov və Ağahüseyn Rəsulzadə iştirak etmişdilər.

Hadisələrin gedişi göstərdi ki, sinfi mübarizənin sərt qanunları iqtisadi və siyasi böhranı yaxınlaşdırır. Bütün ölkədə olduğu kimi, Azərbaycanda da qolçomaqlara qarşı mübarizə gücləndi. Qolçomaq ailə başçısı antisovet, antikommunist, əksinqilabçı kimi həbs olunur, güllələnir, yaxud sürgün edilirdi.

1930 - cu ilin fevralında qolçomaqlarla mübarizə məqsədi ilə daha bir sərt addım atıldı. SSRİ MİK və XKS - nin qəbul etdiyi «Qolçomaq təsərrüfatlarının özbaşına köçməsinin və onlar tərəfindən əmlakın satılmasının qadağan edilməsi haqqında» qərara görə özbaşına köçən və əmlakını satan qolçomaqların əmlakı dərhal müsadirə olunmalı idi. Əslində qolçomaqların bir sinif kimi ləğv edilməsi prosesində ortabablar da qolçomaq adı altında həbs olunur, taxıl tədarükü planını ödəməyən varlı kəndlilər haqqında inzibati aktlar tərtib olunurdu. Yarım il ərzində 4.662 varlı kəndli təsərrüfatı məhv edilmişdi. «Troyka» lar kəndə ayaq açmışdı. «Düşmənlər» in əksinqilabçı kimi cəzalandırılması və güllələnməsi, partiya sıralarından xaric edilməsi adi hal almışdı. 1934 - cü ildə Ağdaş rayonunda 540 kommunistdən 266 - sı partiyadan çıxarılmış, 340 kolxozçu anti-sovet ünsür kimi güllələnmişdi. Gəncənin Nərimanov dairəsində, Şirvanın Ucar dairəsndə, Şamxor dairəsinin Bitdili kəndində, Naxçıvan MSSR-də, Nuxa - Zaqatala dairəsində baş verən qiyamlar və kütləvi çıxışlar amansızlıqla yatırıldı. 1929 - 1935 - ci illərdə Azərbaycanda qolçomaqlar bir sinif kimi ləğv edildi.

20-30 - cu illərdə bütün ölkədə olduğu kimi, Azərbaycanda da partiyadaxili siyasi böhran gücləndi. Partiya üzvlərinin və üzvlüyə namizədlərin yoxlanılmasına başlandı. Təmizlənmə pərdəsi altında minlərlə ziyalı partiyadan uzaqlaşdırıldı. Azərbay can K (b) P sıralarında çəkişmə, qrupbazlıq, intriqalar gücləndi.

Azərbaycan partiya təşkilatının işindəki nöqsanların əsas səbəblərindən biri kadr siyasətindəki əyintilər idi. Sovet hökuməti Azərbaycanı ruslaşdırır, yerli kadrlar vəzifələrə buraxılmırdılar. Türklərin (azərbaycanlıların) ümumilikdə qeyri –millələrə görə nisbəti aşağıdakı kimi idi:

**1.** 1928-ci ildə *Azərbaycan Baş İqtisad Şurasında türklər* ümum işçilərin yüzdə 31-ni, 1931-ci ildə yüzdə 22-ni; *Sığorta idarəsində* - 1928-ci ildə ümum işçilərin yüzdə 31-ni, 1929-cu ildə yüzdə 12-ni, 1931-ci ildə yüzdə 14-nü; *Azərbaycan Petrol Komitəsində* - 1928-ci ildə ümumi işçilərin yüzdə 9-nu, 1929-cu ildə yüzdə 7-ni, 1931-ci ildə yüzdə 14-nü; *Dövlət Plan Komitəsində* 1928-ci ildə ümumi işçilərin yüzdə 67-ni, 1929-cu ildə yüzdə 7-ni, 1932-ci ildə yüzdə 5-ni təşkil edirdi. 1933-cü ilin dekabrınadək Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə mərkəz tərəfindən qeyri-millətlərdən olan kadrlar təyin olunmuşlar. Yalnız 1933-cü ilin dekabrında M.C. Bağırov birinci katib təyin edilmişdi.

Azərbaycan həmkarlar və komsomol təşkilatları da deformasiyaya uğramışdı.

1930 - cu ilin fevral ayında Naxçıvan MSSR - də sovet hakimiyyəti əleyhinə üsyan qalxdı. Bu üsyanda ən fəal üzvlər Keçili və Nahaçir dəstələrindən idi.

Nahacir dəstəsi Naxçıvan mahalında ordunun olmamasından istifadə edərək üsyana qonşu Sirab, Ərazin, Əbrəkinis kəndlərini də cəlb etmişdi. Keçili - Şahbuz üsyançı dəstələri də onlarla birləşmişdi. Bundan qorxuya düşən yerli hakimiyyət onların bir hissəsini həbs etmişdi.

Üçlüyün 1930-cu il 22 senyabrda çıxarılan qərarına görə Keçili kəndindən Məmmədəli Cəfərəli oğlu, Salam İsmayıl oğlu,

Şahsuvar Kərim oğlu, Eyvaz Kərim oğlu, Məmmədəli Məmədhüseyn oğlu, Müslüm Gülməli oğlu, Şahbuz kəndində Məmədhüseyn Mazan oğlu, Paşa Hüseynəli oğlu əmlakları müsadirə edilməklə güllələndilər. Ümumiyyətlə, üçlüyün 1930-cu il 22 və 23 sentyabr tarixli qərarı ilə Keçili kəndindən 10 nəfər, Kükü kəndindən 5 nəfər, Beçənək kəndindən 4 nəfər, Ərəfsə kəndindən 9 nəfər, Ləkətağ kəndindən 3 nəfər, Nahacir kəndindən 12 nəfər, Göynük kəndindən 6 nəfər, Dizə və Teyvaz kəndlərinin hər birindən bir nəfər güllələnmə cəzasına məhkum edilmişdilər.

Sovetə qarşı silahlı dəstələrin önündə **Muğan** bölgəsi gedirdi. Burada üsyançılar Saday bəyin ətrafında toplaşmışdılar. Bu səbəbdən də, üsyançıların ortadan qaldırılması üçün Gülməm mədovun rəhbərliyi altında dəstə bölgəyə göndərildi. Onun komandirliyində 150 nəfər var idi. Sovet dəstələri ilə Mustafalı kəndində 2 saat döyüş olmuşdu. Döyüşdə Saday bəyi tutmaq mümkün olmadığından sovet dəstələri onun ətrafında olanların ailəsindən 13 qadın və 28 uşağı həbs edirlər. Həbs olunanlar arasında Saday bəyin qayınatası, bacıları və uşaqları da var idi. Onlar Salyan həbsxanasına göndərilirlər. Dəstə martın 26-da Əlvənd və Mollakənd arasında qayıqlarla Kür çayını keçirlər. Həmin gün sovet dəstələri Muğanda Mustafa bəy və Həsən bəy Mustafaoğlunu üsyançı olduğu üçün həbs edirlər. Aprelin 2- də Saday bəyə qarşı hücumlarda 16 nəfər üsyançı əsir düşür. Saday bəylə əlaqəli olan üsyançılar aprel ayında Sabirabaddan Kürdəmirə keçirlər. Baş verən döyüşdə Saday bəy yaralanır və Qarış kəndi yaxınlığındakı meşələrə çəkilir. Üsyançılara son zərbəni vurmaq üçün əlavə dəstələr göndərilir. Çünki, sovetlərə məlumat vermişdilər ki, Saday bəyin dəstəsində 23 bəy, 1 xan, 2 molla, 5 seyid, 8 torpaq sahibi və 3 quldur yer almışdı. Bundan başqa Muğanda Duruşlu, Xırmandalı, Dadaşbəyli, Təzəkənd və Qarlı kəndlərində 5 üsyançı dəstə fəaliyyət göstərirdi. Məlumat dolaşırdı ki, üsyançılara Türkiyə və İrandan da köməklik göstərilir.

20-ci illərin sonunda fərdi kəndli təsərrüfatlarını birləş dirərək kollektiv təsərrüfatlar yaradılması, ümumilikdə Sovet hökümətinin həyata keçirdiyi aqrar siyasət Azərbaycanın bir sıra bölgələrində üsyan həddinə çatan müqavimət hərəkatı ilə müşayət olundu. Müqavimət hərəkatı yalnız sosial-iqtisadi xarakteri ilə deyil, həm də siyasi mahiyyəti ilə fərqlənirdi. Belə üsyanlardan biri də 1930-cu ilin aprel ayında **Şəkidə** baş vermişdi.

Bölgənin mərkəzi olan *Şəki* cənubda Yevlax və Zaqatalaya, asfalt yolla Gürcüstana qədər uzanırdı. Bölgə şimalda Dağıstan, Qərbdə Zaqatala və Gəncə, cənubda və şərqdə Şirvanla həmsərhəd idi. Bölgə dağlar və meşəliklərlə əhatə olunmuşdu. Nuxa eli keçmiş Göynük və Cəfərabad dairələrinin birləşməsindən yaran mışdı. Bu dairələrdə elin 30.403 nəfərlik əhalisinin 29.000 nəfərini türklər təşkil edirdi. Çox az bir qismi ləzgilər və başqalarından ibarət idi. 1926 - cı il qeydiyyatına görə Nuxa dairəsində 71.000 nəfər əhali yaşayırdı. 1930 - cu ildə əhalinin sayı 84.000 nəfərə çatmışdı. Əhalinin 90 % - ni türklər, 9 % - ni ləzgilər, udin və dağ yəhudiləri təşkil edirdi. Dairədə 26 kənd soveti vardı. Şəhər əhalisinin sayı 24 - 27.000 nəfər arasında idi. Kənd əhalisi əsasən arpa və buğda becərirdi. Həmçinin barama qurdu yetişdirilir, qoz və fındıq tədarük olunurdu. Kəndlərdə sənaye obyektləri olmadığından çəltikdən başqa heç bir məhsul ixrac olunmurdu.

Bölgənin sərhədlərinə Vartaşen (indiki Oğuz) və Qax daxil idi. Burada 21.186 nəfər yaşayırdı. 12 kənd soveti vardı. Ümumilikdə, bölgə əhalisinin əsas məşğuliyyətini ipəkçiliklə yanaşı qoz və fındıq tədarükü, ət və dəri məhsulları istehsalı, meyvəçilik, tütünçülük və heyvandarlıq təşkil edirdi.

1929 - cu il iyun ayının 19- da Azərbaycan SSR XKS-nin qərarına əsasən Zaqatala –Nuxa bölgə İcraiyyə Komitəsinin müraciəti nəzərə alınaraq Nuxa adı dəyişdirilib Şəki adlandırıl mışdı. Qərarı Azərbaycan MİK təsdiq etmişdi.

Üsyan ərəfəsində Şəkidə sosial-iqtisadi və mənəvi-psixoloji vəziyyət olduqca gərgin idi. Hakimiyyət nümayəndələri «düşmən

ünsürlərinə qarşı mübarizə» şüarı altında xalqın maddi və mənəvi həyatına müdaxilə edirdi. «Mübariz allahsızlar» cəmiyyəti tərəfindən törədilən qeyri-əxlaqi hərəkətlər də yerlərdə narazılıqla qarşılanırdı. Vergilərin ağırlığı nəticəsində Şəkidə sənətkarlıq demək olar ki, iflas həddinə çatmışdı. Hətta bir qrup dabbaq - Ələkbər Hacı Mustafa oğlu, İdris Hacı Salam oğlu, Hüseyn Salam oğlu, Rəsul Məhərrəm oğlu, İsmayıl Cəfər oğlu və digərləri kustar istehsala qarşı yeridilən siyasətdən, fəhlələrlə kəndlilər arasında yol verilən ayrı-seçkilikdən narazı olmaları barədə XKS-nin sədrinə ərizə yazmışdılar.

Şəki üsyanının başında Baş Şabalıd kənd sakini Molla Mustafa Məmməd oğlu Şeyxzadə dururdu. Molla Mustafa savadlı, poetik ilhama malik bir şəxs olmuşdu. Molla Mustafa ilə yanaşı polkovnik Bəhram bəy Nəbibəyov da üsyan rəhbəri kimi daha çox fərqlənmişdi.

Şəkidə dünyaya göz açan Bəhram bəy Nəbibəyov Sankt-Peterburqdakı Konstantin artilleriya məktəbinin məzunu idi. 1918-1920-ci illərdə Qarabağda ermənilərə qarşı döyüşmüşdü. Şəkidə üsyan başlanarkən B.Nəbibəyov Şəki hərbi komissarlığında səfərbərlik şöbəsinə rəhbərlik edirdi.

Üsyan rəhbərlərindən biri də Hüseyn Əsədulla oğlu idi. Onun babası Şəkinin İnçə kəndinin qazısı olmuşdu. Hüseyn bəyin atası bir müddət kənddə yaşadıqdan sonra şəhərə köçmüşdü.

Üsyan hərəkatında fərqlənən şəxslərdən biri də Əsədulla Sadıxov idi. Vaxtı ilə Hacı Zeynalabdin Tağıyevin yanında qulluq etmiş Ə.Sadıxov rus dilində təhsil almışdı. Göynük kənd koperativində mühasib işləyirdi.

Əslən Anadoludan olan İsmayıl Hacı əfəndi, Mustafa bəy Əlicanbəyov və vaxtilə Oxud kəndində baramaaçan müəssisə sahibi olmuş Kor Umar da üsyanın təşkilində fərqlənmişdilər.

Üsyan 1930-cu il aprelin 13-də başladı. Böyük əksəriyyəti suvarilərdən ibarət olan 200 nəfər üsyançı həmin gün Göynük (şimal-qərb) və Zəyzid-Bideyiz (cənub-şərq) istiqamətlərindən şəhərə hücum edib onu ələ keçirirlər. AK (b) P Nuxa Rayon

Komitəsinin birinci katibi Riza Babayevin Bakıya verdiyi məlumatda bidirilirdi ki, Nuxaya hücum edən üsyançıların sayı 500 nəfərdən artıq imiş. Şəhər üç gün üsyançıların əlində qalır. 1930-cu il aprelin 16 və 17-də Bakıdan gələn ordu hissələri üsyanı amansızlıqla yatırır. Üsyanın yatırılmasında 64-cü Qafqaz polku, 66-cı Qafqaz eskadronunun 9-cu polkunun bir rotası və 4-cü polkun rotası iştirak etmişlər.

Qoşun dinc əhaliyə də divan tutmuş, üsyanın baş verdiyi kəndlər yandırılmışdı. Aprelin 12-dən 17-dək 180 adam öldü rülmüş, 150 nəfər yaralanmış, kütləvi həbslər zamanı 865 nəfər tutulmuş, onlardan 226 nəfərinə üsyanda iştirak ittihamı irəli sürülmüşdü. Üsyanın yatırılmasında iştirak edən hökumət qüv vələrindən 73 nəfər həlak olmuş, 98 nəfər yaralanmışdı.

Üsyançıların bir hissəsi müqavimət göstərə bilmədikləri üçün dağlara çəkilmiş, qaçaqçılıqla məşğul olmuşlar. Nuxada qaçaqçılıq hərəkatı 10 ildən artıq davam etmişdi. Şəkinin Baş Zəyzid kənd sakini Abbas, Xudu İbrahim, Vartaşenin (indiki Oğuz rayonu) Muxas kəndindən olan Tapdıq, Şəkinin Bideyiz kəndindən olan Cəfər, Baş Göynük kənd sakinləri Yunus və Kərim dağlara çəkilərək öz ətraflarına yerli sakinləri toplamışlar. Qaçaqlar bir sıra kəndləri nəzarət altına almağa müvəffəq olmuşlar. Bu isə yuxarı dairələri «narahat» etdiyindən qəti tədbirlər görülməsini tələb etmişlər. L.Beriya Tiflisdən M.C.Bağırova göstəriş vermişdi ki, üsyançılara qarşı mübarizə üçün aşağı sovet fəallarından ibarət dəstələr yaradılmalı, onlar üsyançılardan və yerli əhalidən alınan silahlarla təchiz edilməlidirlər.

Yuxarıların göstərişi əsasında təşkil olunan dəstələr tezliklə qaçaqların nəzarəti altında olan Dəhnə kəndinə hücum edirlər. 1930-cu il aprelin 17-də Molla Sübhan Yusif oğlu, Hacı Məhəmməd Sadiq oğlu, Həbillah Mustafa oğlu, Hacı Hümmət Qasım oğlu, Məmmədhəsən Cəlil oğlu, Hacı İbrahim, Mustafa Salman oğlu kənddə güllələnirlər. İyirmi üç nəfər kənd sakini-Məhəmməd Mikayıl oğlu, Zülqədər Musa oğlu, Hüseyn Süleyman oğlu, Əli Hacı Qasım oğlu, Zəkəriyyə Kazım oğlu,

İskəndər Kazım oğlu, Hacı Quzu Sadiq oğlu, Mahmud Hacı Quzu oğlu, Məhəmməd Musa oğlu, Abdurahman Abdulla oğlu, Qaffar Süleyman oğlu, İsaq Löyman oğlu, Muxtar Məmməd oğlu, Yusif Məmməd oğlu, Əliəşrəf İbadulla oğlu, Camal İbadulla oğlu, Əyri İbadulla oğlu, Ziyad Cəlal oğlu, Hacı Yusif Kümçüzadə, Hamil Cəmaləddin oğlu, Nəsrullah Məmməd oğlu, Maqsud Qədir oğlu və Əziz Cəmil oğlu sürgünə göndərildilər.

Şəki qaçaqlarından Abbas cəsarəti və mərdliyi ilə kəndlilərin hörmətini qazanmışdı. Əvvəllər milis işçisi olmuş Abbas xalqa olan zülmün şahidi olmuş, yerli-yersiz donoslar əsasında qolçomaq və ya varlı adı ilə güllələnən həmyerlilərinin faciəsinə dözməmiş, nəhayət dayısı Hidayəti həbs etmək haqqında ona verilən göstəriş Abbasın səbr kasasını doldurmuşdu. O, dostu Xudu İbrahimlə qaçaqçılığa başlamışdı. Tanrıverdi Şərif, Əhməd Hümbət, Hayıl, Hidayət, Alı, Aslan, İsfəndiyar, Əşrəf, Kor Umar və Abdulla qaçaq Abbasın ən yaxın silahdaşları olmuşlar. Prokuror Aşot İşxanyan, DSİ-nin əməkdaşları Ter-Qriqoryan, Zaven Ayriyan, Ravel Şalomer, İvan Yeromin Qaçaq Abbası ələ keçirmək üçün plan hazırlayırlar. Ter-Qriqoryan və Suren Mıkırtıçyan ipək fabrikini yandırmaq və bunu törədənlərin qaçaqlar olduğunu yaymaqla qaçaqları xalqın gözündən salmağı planlaşdırırlar. Bu erməni fırıldağından xəbər tutan Abbas Şəkiyə gələrək fəhlələri bu niyyətdən xəbərdar edir və Sureni öldürür.

Qaçaq Abbasın fəaliyyətindən əndişələnən Dövlət Siyasi İdarəsi (DSİ) əslən Lənkərandan olan Əhmədi Zəyzid ətrafındakı meşəyə meşəbəyi təyin edir. Verilən tapşırığa görə, Əhməd tezliklə kənd əhalisi, o cümlədən Abbasın ailəsi ilə yaxınlaşmalı, ailənin sevimlisinə çevrilməli idi. Az müddət keçdikdən sonra Xub Əhməd adı ilə tanınan casus meşəbəyi Abbasın ailəsi ilə əlaqə yarada bilir. Qısa müddətdə Abbasın qardaşları Məmməd və İsrail həbs olunur və güllələnirlər, anası Mədinə, oğlanları Fərrux və Bəlyar, qızı Fizalə həbs edilirlər. Xub Əhməd əvvəlcədən siyasi idarə ilə razılaşdırılmaya əsasən şəhərə gələrək Abbasın ailəsini zaminə götürür, əvəzində isə Mə-

dinə anaya bildirir ki, bütün bunların müqabilində oğlanlarından birinin üzə çıxması vacibdir. Bu məlumat Abbasa çatdıqdan sonra o, Xub Əhmədə inanmadığını bildirir. Aradan az müddət keçdikdən sonra Əhməd Fizalə ilə evlənərək ailənin üzvünə çevrilir. Bundan sonra Abbas qardaşları Əhməd və Yusifin üzə çıxmasına razılıq verir. Lakin qardaşlar təyin olunan yerə gələn kimi həbs olunurlar. Əhməd bu işdə əli olmadığını məktub vasitəsilə Abbasa bildirsə də, Abbas bu işin onun tərəfindən törədildiyini anlayır. Ona görə də, növbəti görüşdə Abbas Xub Əhmədi güllələyir, Fizalədən olan iki uşağı isə uşaq evinə verirlər. Nəhayət, qaçaq Abbas da pusquya düşür. Pusquda duran dəstəyə rəhbərlik eən Badalyan və Vartanın dəstəsi ilə Abbasın dəstəsi arasında döyüş başlanır. Mühasirəyə düşən Abbasın silahdaşları vurulur, Abbas özü isə bir neçə yerdən yara almasına baxmayaraq axıra qədər vuruşur və son gülləsini özünə vurur. 1939-cu ildə zəyzidli Xudu İbrahim Abdulla oğlunun və bideyizli Cəfər Mirzə oğlunun dəstələri də ləğv edilir.

Nuxa-Zaqatala dairəsində qaçaqçılıq hərəkatının məşhur simaları sırasında Vartaşen (indiki Oğuz) rayonunun Muxas kəndindən olan Tapdıq Üzeyir oğlu Mikayılov, əslən Şəkinin Zəyzid kəndindən olan Məcid İsmayıl oğlu Mahmudov da vardı.

Bölgənin coğrafi mövqeyi üsyançıların işini asanlaşdırsa da, onlara qarşı mübarizə səngimirdi. Dağıstan və Gürcüstan sərhəd xətti və çətin keçilən dağ bölgələri üsyançıların sığınacaqlarına çevrilmişdi. Ən təhlükəli qruplar Car, Əliabad və Nuxada idi. Car və Əliabad eli köhnə Zaqatala dairəsinə bağlı olan Əliabad, Car və Muxaq dairələrini birləşdirirdi. Bunlarda yaşayan 31.000 nəfər əhalinin 21.000 nəfəri türk, 10.000 nəfəri avar, saxur və digər azsaylı xalqlara mənsub idi. Bölgədə İslam Qaraoğlu (keçmiş Əliabad və Muxaq dairəsində) və Əbdülməcid Babayevə (keçmiş Car dairəsi) bağlı dəstələr hazır vəziyyətdə idilər. Üsyançılar xalqdan dəstək görürdülər.

Dəstə bölgənin hörmətli və varlı insanları ilə əlaqə yaratmışdı. Digər bölgələrdə olduğu kimi, burada da üsyan yatırıldı.

Antisovet çıxışların güclü oldüğü bölgələrdən biri də **Şirvan** idi. Azərbaycan K (b) P MK – nın məlumatına görə, 1930 - cu ildə Ucar dairəsində bir kommunist öldürülmüş, Gəncə «Qızıl Ulduz» kollektiv təsərrüfatı atəşə tutulmuşdu. 1930 - cu illərdə Şamaxı, Mərəzə və Qarasu ellərində də bu cür hadisələr baş vermişdi. Baş verənlərin qarşısını almaq üçün bölgəyə 65 nəfərlik bir dəstə göndərilmişdi. «Troyka» tərəfindən 11 nəfər güllə lənmişdi. Öldürülənlərin 8- i torpaq sahibi, 2- si din adamı, bir nəfər isə sıravi kəndli idi. Avqustun 30 - da üsyançı dəstənin rəhbəri Muxtar Bəkiroğlu da həbs olunmuşdu.

1930 - cu ilin noyabr ayında **Qara Məryəm** kəndliləri sovetlərə qarşı üsyan qaldırdılar. Sovet dəstələri onlarla da amansız davrandı. 1931-ci ilin noyabr ayında keçirilən əməliyyat nəticəsində Göyçay, Zərdab, Ucar, Kürdəmir və digər bölgələrdə sovetlərə qarşı vuruşan Məhəmməd Həsən oğlu Xəlilovun rəhbərlik etdiyi üsyançı dəstələr ləğv edilmiş, üsyançıların bir hissəsi İrana qaça bilmişdi.

1930 - cu ildə **Qubada** 200-300 nəfərlik bir qrup sovetlərə qarşı çıxmış, mübarizə üçün dağlara çəkilmişlər. Onların rəhbərləri Hafiz Əfəndi olmuşdu.

1930 - cu ildə **Bakı** kəndlərindəki çıxışlar həmin dövrdə baş verən Naxçıvan, Qarabağ, Gəncədəki çıxışlardan daha etkili olmuşdu. Bakı kəndlərində 30- a yaxın üsyançı dəstə fəaliyyət göstərirdi. Əgər 1930- cu ilin aprelin 19-na Bakı ətrafında 7.919 dövlət təsərrüfatı vardısa, üsyançıların hücumları nəticəsində onların sayı 5.794 - ə enmişdi.

**Vərgədüzdə (Yardımlı)** 2 böyük üsyançı dəstə fəaliyyət göstərmişdi. Bərcan dəstəsinin başında Həsən İsaoğlu, Güdələr dəstəsinin başında Cankişi Murtuzoğlu dururdu. Bərcan dəstəsini aradan qaldırılması üçün üsyançı ailələrindən 42 nəfər, Güdələr dəstəsindən 5 nəfər gözaltına alındı. 1930 - cu il mart ayının 15- dən sonra Lənkəranla sərhəd bölgəsində 117 kişi, Zəngilandan 100 nəfər İrana qaçmışdı.

1930 - cu ilin yazında **Lənkəran** dairəsindəki torpaq sahib lərindən zorla 2.750 pud buğda müsadirə edilmişdi. Müsadirə olunmasına və digər zorakı hərəkətlərə qarşı xalq üsyana başladı. 69 torpaq sahibi, 38 din adamı, 10 müsavatçı və digərləri sovetlərə qarşı çıxış etdilər. Nəticədə 116 nəfər həbs olundu. Onların 48 nəfəri torpaq sahibi idi. Lakin üsyanlar səngimədi. 1933- cü ildə Lənkəranda sovetlərə qarşı çıxışların mərkəzi Gərmədük və Vərayül kəndləri oldu. Boladi qrupu da xeyli fəallaşmışdı. Xüsusi xidmət orqanları təbii ki, onları aradan qaldırdı.

**Astarada** vəziyyət getdikcə kəskinləşirdi. Orada 183 torpaq sahibi, 13 üsyançı dəstə, onları dəstəkləyən 23 nəfər, 5 qaçaq, 40 nəfər sovetə nifrət bəsləyən və 14 din adam vardı. Bundan başqa İranda olan Əhməd Rəsulovun dəstəsi ilə əlaqəli 12, Rəşit xanın dəstəsi ilə əlaqəsi olan 10, Xəlil bəyin dəstəsinə bağlı 12, Ağa Dadaş Cəmilovun dəstəsinə bağlı 6 nəfər fəaliyyət göstərirdi. 600 nəfərlik kiçik silahlı qrup sovetlərə qarşı mübarizə məqsədilə dağlara çəkilmişdi.

Astarada üsyançılara rəhbərlik edən Şahnamaz sovetləri qorxuya salmışdı. Şahnamaz Dadaşoğlu Astara bölgəsinin Kələnbi kəndinin varlılarından idi. Azərbaycan sovetləşəndə sovetlərə qarşı çıxan Hacı Şeyxə köməkçilik etmişdi. Eyni vaxtda Xəlil bəylə əlaqəli olan dəstələrə də rəhbərlik etmişdi. 5 il həbs cəzası alan Şahnamaz 1926- cı ildə azad olunduqdan sonra yenidən üsyançılara qoşulmuş, 1929 - cu ildə təkrar həbs olunaraq Sibirə sürgün edilmişdi. Sürgündən geri döndükdən sonra Qubanın kəndlərindən birinə sığınan Şahnamaz Mirzə Dadaşoğlu ilə əlaqə yaratmışdı. 1930 - cu ildə Şahnamaz Qarabağa qaçaraq Astaradakı üsyançılara rəhbərlik etməyə başlamışdı. Dəstənin ideoloji rəhbəri isə Xəlil bəy idi. Şahnamaz 1930-1931- ci illərdə sərhəddi keçərək İrandakı dəstələrlə də əlaqə yaratmışdı.

Şahnamazın bölgədəki hərəkətləri sovetləri narahat etdiyindən ona qarşı əməliyyat hazırlanmağa başladı. Həyata keçirilmiş əməliyyat nəticəsində üsyançılarla əlaqəsi olanlar həbs

olundular. Həbs olunanların 221- i səs hüququ əlindən alınmış torpaq sahibi, 71- i ortabab kəndli, 26 - sı yoxsul, 2 – si muzdlu işçi idi. Şahnamaz dəstəsinin aradan qaldırılması üçün 4.258 rubl vəsait ayrılmışdı. Əməliyyatın gedişində 250 baş iri və xırda buynuzlu heyvan əhalidən alınmış və Astara Ölkə Quruluş Komitəsinə təslim edilmişdi. Beləliklə, ölkədə sovet idarə sistemi yenidən qurul muşdu.

Sovetlərə qarşı üsyanınqalxdığı yerlərdən ən böyüyü **Gəncə** nayihəsi idi. 1930 - cu ildə Samuxda Məhəmməd Əli, Şamxorda (Şəmkirdə) Əbdül Əli Kuruluk, Alpantda Məhəmməd Qasım, Poyluda İsmayıl ağa İbrahimoğlu, Aşağı Alpantda Əli Rza ilə əlaqəsi olan dəstələr, Nərimankənd kənd soveti sədri Əbdül Həsənzadə, Azərbaycan MİK üzvü Tahirli və digərlərini bolşeviklər güllələmişdilər.

Gəncədə sovetə qarşı güclərin aradan qaldırılması məqsədilə 2 alay bölgəyə göndərilmiş, 1930- cu il sentyabr ayında 113 torpaq sahibi, 39 varlı, 147 ortabab və 2 dindar həbs olunmuşdu.

1930 - cu ilin noyabr ayında Azərbaycanda 19 terror əməli həyata keçirilir. Onların böyük bir qismi Qarabağ, Şirvan və Gəncə bölgələrində baş vermişdi. Terrorçuların əsas hədəfi kollektiv təsərrüfatlar, sovet idarə sistemində vəzifə tutanlar idi. Beriyanın raportunda bildirilirdi ki, oktyabr ayında Azərbaycanda 542 adamın birləşdiyi 77 üsyançı dəstə vardısa, noyabr ayında onların sayı 1240- a çatmışdı. Gəncə, Şamxor, Gədəbəy, Ağcakənd, Samux, Qasım İsmayıllı və Tovuzda 1.091 üsyançının birləşdiyi 41 dəstə fəaliyyət göstərirdi.

Digər bölgələrdə olduğu kimi, Gəncədə də üsyanlar amansızlıqla yatırıldı. Xeyli miqdarda silah və sursat ələ keçirildi. 1931- ci ilin yanvar – mart aylarına olan məlumata görə Gəncə bölgəsində 83.710 tüfəng, 1.619 tapanca, 2.127 ov tüfəngi, 109.789 güllə, 9 əl bombası, 30 dinamit ələ keçirilmiş, 652 üsyançı, 606 terror üzvü həbs olunmuşdu. Silahlarını təslim etmədiyi üçün 39 nəfər sovet fəalı, üsyana qalxmış 46 nəfər, müxtəlif fəaliyyətdə olan 193 nəfər kişi öldürülmüşdü. Qasım

İsmayıllıda Çaylı dəs təsinə mənsub Cuma Əli Məmmədoğlu, Hüseyn Dəmiroğlu, Yunus Cəfəroğlu, Hüseyn İsamiloğlu və başqaları həbs olun- muşdu.

Beləliklə, 1930 - cu illərin antisovet üsyanları da bolşe vikləşmənin ilk illərində olduğu kimi yatırılmış, minlərlə insan doğma yurd - yuvalarından didərgin salınmışlar.

### 5.6. Müstəqilliyin dayaqlarına - milli - mədəni dəyərlərə hücum

Azərbaycan xalqının milli süverenlik uğrunda mübarizəsini qısqanclıqla qarşılayan mərkəz «quldur-qaçaq dəstələrini» ləğv etdikdən sonra milli-mədəni irsə qarşı «total müharibə» elan etdi. İlk olaraq Azərbaycan SSR MİK və Azərbaycan SSR XKS 1928-ci il iyulun 21-də «Azərbaycanda yeni türk əlifbasının icbari və qəti olaraq tətbiq olunması haqqında» qərar qəbul etdi. 1929-cu il yanvarın 1-dən yeni əlifbaya keçilməsi rəsmən elan olundu. Azərbaycandan sonra Özbəkistan, Qazaxıstan və digər müttəfiq respublikalar, muxtar respublikalar və vilayətlər də yeni əlifbaya keçdilər.

Yeni əlifbaya keçid respublikada birmənalı qarşılanmadı. «Müsavat» və «İttihad» partiyalarının bir sıra nümayəndələri, din xadimləri, ziyalılar yeni əlifbanın tətbiqinə qarşı çıxdılar. «Gənc Azər» təşkilatı yeni əlifbanın tətbiqini boykot etdi. Bir sıra rayonlarda açıq çıxışlar baş verdi.

Yeni əlifbaya qarşı çıxanlar bildirirdilər ki, ərəb əlifbasından imtina edilməsi qədim mədəniyyətdən imtina edilməsi deməkdir. Əslində isə opponentlər geniş xalq kütləsinin ərəb əlifbasını bilməməsini, xalqın savadlanması üçün daha çevik qrafikanın tətbiqinin vacibliyini və bir sıra ölkələrin də yeni əlifbaya keçmələrini nəzərdən qaçırmışdılar.

Vahid şəklə salınmış *latın əlifbası Azərbaycanda 1932-ci ilin iyununda qəbul edildi.* Lakin müsəlman ölkələrində latın qrafikasına keçid hərəkatının güclənməsi mərkəzi razı sala bilməzdi. Odur ki, 30-cu illərin ortalarında Mərkəzin təkidi ilə heç bir lüzum olmadığı halda rus-kiril qrafikasına keçilməsi uğrunda «hərəkat» başladı. Mərkəz bir sıra xalqların rus dilini öyrənməyə

meyilli olmasından istifadə edərək ruslaşdırma siyasətinə üstünlük verdi. ÜİK (b) P və SSRİ XKS-nin «Qeyri-rus məktəblərində rus dilini icbari qaydada öyrənmək haqqında» xüsusi qərarı da bu məqsədə xidmət edirdi.

Bu qərardan az sonra *Azərbaycan SSR Ali Sovetinin sessiyası 1939-cu ilin iyulunda Latın əlifbasının kirillə əvəz edilməsi haqqında qanun qəbul etdi və qanın 1940-cı il yanvarın 1-də qüvvəyə mindi.*

20-ci illərin əvvəllərində Azərbaycanda savadsızlığın ləğvi, mədəni inqilab pərdəsi altında milli dəyərlərə, adət-ənənələrə qarşı mübarizə başlanmışdı. Ərəb əlifbasının dəyişdirilməsi xalqın 1300 illik mədəniyyətinə böyük zərbə vururdusa, 10 il sonra yenidən latından kirilə keçilməsi Azərbaycan ilə Türkiyə arasında mənəvi yaxınlaşmanın qarşısının alınmasına və ruslaşdırma siyasətinə xidmət edirdi. Ərəb və latın qrafikası ilə yazılmış istər dini, istərsə də digər kitabların ucdantutma yandırılması mənəviyyata vurulmuş od idi.

Qısa bir müddətdə Azərbaycanda iki dəfə əlifba dəyişikliyi hər hansı üstün cəhətlərinə baxmayaraq milli mədəniyyətimizdə yad təsirlərə yol açdı. Dərsliklər rus dilindən tərcümə edilərək məcburən məktəblərə verildi. Rus dilli ədəbiyyatın sayı artdı. Milli ayinlər də dəyişikliklərə məruz qaldı. Milli musiqi ətrafında yaranan diskussiyalar cəbhələnməyə gətirib çıxardı. Onsuz da az savadlı olan əhali qısa zaman kəsiyində qəbul edilmiş əlifba labirintindən xilas ola bilmədi.

Qadınların yeni cəmiyyət quruculuğuna cəlbi hamar olmadı. Onların partiya, sovet və təsərrüfat işlərinə cəlbi, xüsusi ilə, çadra məsələsi etirazlarla qarşılandı.

Bütün ölkədə olduğu kimi, Azərbaycanda da din xadimləri sıxışdırılmağa başlandı. İbadət yerləri kütləvi sürətdə dini idarələrin əlindən alınaraq kitabxanalara, klublara, idman meydançalarına çevrildi. Quran zərərli kitab kimi qadağan edildi. 1929-cu ildə Azərbaycan qəzalarındakı 120 məscid binası zəbt edilib məktəblərin istifadəsinə verildi.

1929-1937-ci illərdə Bakıda Bibiheybət məscidi, Əmircanda Şəmsi Əsədullayev məscidi, Ağ şəhərdə Şibayev

kilsəsi, müqəddəs Məryəm katolik kostyolu və bir sıra başqa ibadət ocaqları bağlandı.

## 5.7. Milli təhsilin təşkilində əyintilər

1920-ci il aprelin 28-də Bakıda, sonralar isə tədricən Azərbaycan qəza larında hakimiyyəti zorla zəbt edən bolşeviklər, bütün sahələrdə olduğu kimi maarif və təhsil sistemində də yeni sovet qaydaları adı altında antiazərbaycan maarif və mədəniyyət siyasəti yeritməyə başladılar. Milli təhsil ənənələri nəzərə alınmadan Sovet Rusiyasının ali təhsil sistemi Azərbaycanda həyata keçirilməyə, rus elmi-pedoqoji qüvvələri «qardaşlıq köməyi» adı altında təhsil ocaqlarında yerləşdirilməyə başlandı. Kifayət qədər «milli kadrların olmaması» bəhanə gətirilərək yeni yaradılmış ali məktəblərin tədris-pedaqoji və elmi heyəti tərkibinə digər millətlərin nümayəndələri-rus alimlərindən və «beynəl miləl tələbələrdən» - əsasən rus, erməni, yəhudi və digər millətlərdən olan «kollekiv heyət» cəlb olundu. 1921/1922-ci tədris ilinin əvvəlində Xarkov Tibb İnstitutundan professor S.N. Davidenkov, Moskva Hərbi Tibb Akademii yasından dosent F.N. İlyin, Krım Universi tetindən professor N.Q. Uşinski, Moskva Universitetindən professor M.A.Çlenov, Rostov-Don Universitetindən A.O.Kapitski, K.A.Orlov, A.İ.Şişkov, Xarkov Universite tindən professor K.N.Malinovski Bakı Universitetinə dəvət edildilər.



D.V.Qolubyatnikov

1921-ci ildə Bakı Politexnik İnstitutuna professorlardan L.S. Leybenzon, P.P. Lunin, Z.B.Yelyaşeviç, V.P. Smirnov-Loginov, P.Y. Rostovsev, A.Xarazov, İ.İ.Fiqurovski, V.D. Malenyuk, V. S. Uspenski, V.A.Udintsov; 1922 -ci ildə professorlardan İ.Q. Yesman, P.İ. Kuznetsov,



N.Y.Marr



V.V.Bartold

K.P.Pokrovski, D.İ.Qolovkin, M.V. Dovnar-Zapolski, K.S. Volner; 1923 - cü ildə professorlardan N.N. İovlev, S.N.Usatıy Bakı Politexnik İnstitutuna, rus musiqiçilərindən Q.Q.Şaroyeva, A.A.Aleksandrov, Y.A.Dobro xotov, professorlar dan M.P. Presman, İ.A.Aysberq, müəllimlərdən Y.N.Qorskaya, M.A.Kolotova, V.A.Nikolski, dirijor İ.İ.Çernya xovski, violençel çalan L.S. Rastropoviç, Belorusiya Dövlət Konservatoriyasının professoru M.S. Kelman və b. Azərbaycan Dövlət Konservatoriyasına dəvət olundular.

1924-cü ildə görkəmli rus alimlərindən akademik İ.M.Qupkin, İ.İ.Meşşaninov, V.V. Bartold, D.V.Qolubyatnikov, N.Y.Maar, professor N.N.Aşmarin, A.N.Samoyloviç, P.K.Juze Azərbaycanın ali məktəblərinə mühazirə oxumağa göndərilərək tədrisin və elmi işlərin təşkilində iştirak etdilər.

Bu səbəbdən də, bolşeviklərin rəhbərliyi ilə həyata keçirilən mədəni tədbirlər haqlı olaraq həm daxildə, həm də kommunist rejimindən narazı olub, xaricə mühacirətə getmiş maarifçi ziyalıların etirazına səbəb oldu.

1920-ci ilin aprel çevrilişindən sonra vətəni tərk edən mühacirlər 1921 -1922 - ci illərdə İstanbulda M.Ə.Rəsulzadənin başçılığı ilə «Yeni Azərbaycan mədəni-milli komitəsi» adlı təşkilat yaratdılar. Bu təşkilata işğaldan sonra Azərbaycan ali məktəb lərindən heç bir əsas olmadan siyasi baxışlarına görə xaric edilmiş varlı bəy, mülkədar və sahibkarların uşaqları, habelə ADR hökumətinin Qərbi Avropaya və Türkiyəyə ali təhsil almağa göndərdiyi tələbələr də qoşuldular. Onlar Rusiyanın Azərbaycanı işğal etməsi, onun siyasi, hüquqi və mədəni müstəqilliyini boğ ması, ölkənin sovet imperiyası əsarəti boyunduruğu altına salınması ilə razılaşmırdılar.

Sovet hökuməti də öz növbəsində bu hərəkata siyasi don geydirərək onları əksinqilabçı təşkilatın üzvləri kimi qələmə verir, təşkilat üzvlərini «pozuculuq işləri aparmaqda» ittiham edirdi.

20-ci illərin birinci yarısında ali məktəb tələbələri və müəllimlər arasında «sinfi düşmən axtarmaq» və onları müxtəlif bəhanələrlə ləkələyib sıradan çıxarmaq, hətta qismən məhv emək xətti nəticəsində onlarla günahsız ali məktəb müəllimləri «ifşa edil mişdilər».

1923-cü ildə Azərbaycan Xalq Maarif Komissarlığının dəvəti ilə türk dili və ədəbiyyatı sahəsində görkəmli pedaqoq və tədqiqatçı alim İsmayıl Hikmət Türkiyədən Bakıya gələrək Ali Pedaqoji İnstitutda dərs demişdi. O, Bakıda Türkiyə konsulluğu ilə guya sıx əməkdaşlıq etməkdə, konsulluğun tapşırıqlarını yerinə yetirməkdə və «antisovet fəaliyyət göstərməkdə» günahlandırı laraq Azərbaycanı təcili tərk etməyə məcbur edildi. Yaxud, vaxtı ilə «İttihad» partiyasının üzvü olan və 20-ci illərdə Ali Pedaqoji İnstitutda çalışan Mustafa Tofiq, Akifbəy, Abdulcəfər Əfəndiyev və b. «Türkiyə polis idarəsinin və türk ordusunun keçmiş zabitləri» olmaqda, «tələbələr içərisində pantürkizm ideyalarını yayan casuslar» kimi ittiham olunaraq həbs olundular.

30-cu illərdən başlayaraq başqa respublikalarda olduğu kimi, milli Azərbaycanda da ruslaşdırma siyasətini həyata keçirən Moskva bu regionlarda özünə möhkəm elmi və mənəvi dayaq yaratmaq məqsədilə rus dilinin məcburi öyrədilməsi xəttini həyata keçirməyə başladı. Bu dövrdə Azərbaycan partiya təşkilatları və respublika hökuməti orqanlarında əyləşən rəhbərlərin «yüksək beynəlmiləlçilik prinsiplərinə aludəçiliyi və sədaqəti» səbəbli Azərbaycan ali məktəblərində Moskvanın tələblərinin yerinə yetirilməsi və Azərbaycan ali məktəblərində qeyri - azərbaycanlı müəllimlərə - ruslara, ermənilərə, yəhudilərə və b. ehtiyac olmadığı halda kadr hazırlığında tələbə kontingentinin qəbulu zamanı qeyri - millətlərin nümayəndələrinin uşaqlarına geniş yer verilməsi nəticəsi idi ki, sonrakı illərdə respub likanın partiya və sovet təşkilatlarında bu qəbildən olan məzunların rəhbər işə keçmələri asanlaşdı və onların respublika xalq təsər rüfatını idarə etmələri ilə nəticələndi.

1920-1941-ci illərdə milli-mədəni dəyərlərin ləğvinə başlayan mərkəz ziyalıların fiziki və mənəvi repressiyasını davam etdirdi. Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacibəyli, Mirzə Bala Məmmədzadə, Almas İldırım, Əbdülvahab Yurdsevər, Kərim Odər, Əhməd Cəfəroğlu, Abbasqulu Kazımzadə, Məmmədəli Rəsuloğlu, Hüseyn Baykara, Məmmədsadiq Aran, Ümmülbanu (Banin) və başqaları Azərbaycanın işğalına qarşı mübarizəni davam etdirdilər.

Mühacirətdə olan A.İldırım, Kərim Yaycılı, Əli Vulkan, Teymur Atəşli və başqaları poeziya sahəsində, Ə.Ağaoğlu, Ümmül banu, C.Hacıbəyli, Səməd Ağaoğlu, Qurban Səid nəsr yaradıcılığı sahəsində kamil əsərlər yaratdılar. Ümmülbanunun «Nami» (1943), «Qafqaz günləri» (1945), ««Paris günləri» (1947), «Ernest Yunkerlə görüş» (1951), «Mən tiryəki seçdim» (1959), «Sonra» (1961), «Yad Fransa» (1968), «Son ümidin çağırışı» (1971), «İvan Buninin son höcəti» kimi bədii nəsr nümunələri, Səməd Ağaoğlunun «Strasburq xatirələri», «Hürriyyət», «Öyrətmən Qafur», «Böyük ailə», «Hücrədəki adam», «Qatırın ölümü», «Babamı xatırlarkən»" və «Babamın arkadaşları» əsərləri mühacirət ədəbiyyatının ən dəyərli nümunələrindəndir.

M.Ə.Rəsulzadənin «Azərbaycan Cümhuriyyəti», «İstiqlal məfkurəsi və gənclik», «Qafqaz türkləri», «İstilaçı sosializmin iflası və demokrasinin gələcəyi», «Çağdaş Azərbaycan ədəbiyyatı», M.B.Məmmədzadənin «Milli Azərbaycan hərəkatı», Hilal Münşinin «Azərbaycan Cümhuriyyəti», Ə.Cəfəroğlunun «Azəri ədəbiyyatında istiqlal mücadiləsi» və s. əsərlərində Azərbaycan xalqının milli-azadlıq mübarizəsi, milli müstəqillik ideyaları əsas yer tuturdu.

Azərbaycanda isə sovet ədəbiyyatının formalaşması və inkişafı ölkədəki ictimai-siyasi vəziyyətə uyğun davam edirdi. Ziyalılarımız, o cümlədən şairlər və yazıçılar yerli-yersiz təzyiqlərə məruz qalır, «ideya» azarına tutulanların qəzəbinə tuş gəlirdilər. M.Müşfiq, H.Cavid, Y.V.Çəmənzəminli, Əli Nəzmi,

C.Cabbarlı, və onlarla başqaları ədalətsiz tənqid olundular. M.Müşfiqin «Oxu tar» şeri belələrinə nümunədir.

Təbii ki, ədəbi cəbhə arasında yaranan qarşıdurma respublikanın ədəbi mühitinə mənfi təsir göstərirdi. Nəticədə, Y.Çəmənzəminli, H.Cavid, S.Hüseyn, S.Mümtaz, B.Çobanzadə, T.Şahbazi Simurq, Ə.Nəzmi, teatr xadimlərindən A.M.Şərifzadə, Ü.Rəcəb və onlarla digərləri 37 - ci illərin represssiyasının qurbanı oldular. Onlardan biri də Salman Mümtaz idi.


**SalmanMümtaz**

**Salman Məmmədemin oğlu Əsgərov (Mümtaz) (1884-1941)** 1884-cü ildə Şəkidə anadan olmuşdu. Ailə vəziyyəti ilə əlaqədar Aşqabadda məhəllə məktəbində oxuyan Salman Şərq ədəbiyyatını, ərəb, fars və urdu dillərini öyrənmişdi. Orta Asiya, Sibir, Zabaykalye və Qafqaz şəhərlərində ticarətlə məşğul olan S.Mümtaz 1908-ci ildən Azərbaycan mətbuatı ilə əlaqə yaratmış, «Molla Nəsrəddin», «Zənbur», «Kəlniyyət», «Tuti», «Qurtuluş» jurnallarında, «Səda», «Tərəqqi», «Günəş», «İqbal», «Yeni iqbal», «Açıq söz» qəzetlərində şer və felyetonları dərc edilmişdi.

Salman Mümtaz 1918-ci ildə Aşqabaddan Bakıya köçür, AXC-nin mədəni quruculuq işlərində yaxından iştirak edir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra şifahi xalq ədəbiyyatının və klassik irsin toplanması ilə məşğul olan S. Mümtaz 1920-1937-ci illər arasında 24 kitab, 70-dən çox məqalə çap etdirmiş, 100-dən çox Azərbaycan və Yaxın Şərq şairi haqqında tədqiqat aparmışdı.

Alimin «Azərbaycan ədəbiyyatı» başlığı adı altında çap olunmuş kitabları, çoxsaylı məqalələri, araşdırmaları Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində dəyərli qaynaqlardır. Salman Mümtaz milli baxışlarına görə təqib olunmuş, repressiyaya məruz qalmışdır.

Dəyərli Azərbaycan ziyalılarından biri də **T.Şahbazi** idi.

**Şahbazi Tağı Abbas oğlu; Simurq (1892-1938)** Bakıda anadan olmuşdu. Mollaxanada, «rus-müsəlman» məktəblərində oxuyan Tağı Şahbazi sonra Bakı şəhəri birinci realnı məktəbində orta təhsil almış, Xarkov Universitetinin tibb fakültəsini (1918) bitirmişdi. Xarkovda oxuyarkən tələbələrin gizli inqilabi dərnəklərində iştirak etmişdi. 1915-ci ildə Rusiya Sosial Demokrat Fəhlə (b) Partiyasının tələbə fraksiyasına daxil olan T.Şahbazi 1917-ci ildə Bakıya gələrək «Hümmət» təşkilatında çalışmış, qəzetin nəşrində fəal iştirak etmişdi. T.Şahbazi 1918-ci ildə Ukraynaya dönərək Xarkovda qəzet redaktoru olmuşdu. O, 1919-cu ildə Moskvada əvvəl Xalq Milli İşlər Komissarlığının Zaqafqaziya müsəlman şöbəsində katib, sonra Şərq Xalqları Kommunist Təşkilatları Mərkəzi bürosunda şöbə müdiri vəzifəsində çalışmışdı.


**Tağı Şahbazi**

Aprel işğalından sonra Bakıya qayıdan Tağı Şahbazi Azərbaycan Xalq Səhiyyə komissarının, xalq maarif komissarının müavini, Mərkəzi İcraiyyə Komitəsinin katibi, «Maarif və mədəniyyət» jurnalının redaktoru, Ali Pedaqoji İnstitutun direktoru, ADU-nun rektoru və s. məsul vəzifələrdə işləmişdi. 20-ci əsrin 10-cu illərindən bədii yaradıcılıqla məşğul olan Tağı Şahbazi Simurq bir-birinin ardınca hekayələr nəşr etdirmiş, bədii yaradıcılıqla yanaşı, dövri mətbuatda da müntəzəm çıxış etmiş, «İqbal», «Doğru söz», «Hümmət», «Maarif və mədəniyyət», «Şərq qadını» və s. qəzet və jurnallarda məqalələr dərc etdirmişdi.

Şahbazi 1937-ci il martın 4-də «Gizli milli-təmayülçülər qrupuna məxsusluğuna, əksinqilabi millətçi çıxışlarına görə» partiya sıralarından azad edilmiş, iyulun 11-də həbs olunmuşdu. 1938-ci il yanvarın 2-də güllələnməyə məhkum edilmiş, hökm yerinə yetirilmişdi. 1956-cı ildə ona bəraət verilmişdi.

20-30-cu illərin repressiyasına məruz qalanlar arasında teatr və kino xadimləri, musiqiçilər, incəsənət xadimləri də olmuşdur. **A.M.Şərifzadə, Ülvi Rəcəb** də belələrindəndir.



A.Şərifzadə

**Şərifzadə-Abbas Mirzə Mirzə Əbdül rəsul oğlu (1893-1938)** Şamaxı şəhərində müəllim ailəsində dünyaya göz açmışdı. Atası Seyid Əzim Şirvaninin «Üsuli-cədid» məktə bində dərs demiş, teatrla maraqlanmışdı. Şərifzadənin teatr aləminə yaxın olan əmisi Mirzə Məmmədtağı ilk dəfə onu səhnəyə həvəsləndirmişdi. 1895-ci ildə Şərifzadənin ailəsi Şamaxıdan Bakıya köçmüşdü. O, 1906-cı ildə ibtidai məktəbi bitirəndən sonra gimnaziyaya qəbul olunmuş, lakin xəs-tələndiyindən təhsilini yarımçıq buraxmışdı. Şərifzadə hələ mək-təbli ikən həvəskar teatr tamaşalarının işiraçkısı olmuş, 1908-ci ildən taleyini həmişəlik teatra bağlamış, səhnədə ilk dəfə J.B.Molyerin «Zorən təbib» tamaşasında lal qız rolunda çıxış etmişdi. Çox keçmədən o, H.Ərəblinski məktəbinin şagirdi və davamçısı kimi şöhrətlənmişdi.

1910-cu ildən «Səfa», «Nicat» xeyriyyə cəmiyyətlərinin teatr truppalarında çıxış edən Abbas Mirzə 1913-cü ildən Azərbaycanın rayonlarına, Orta Asiya, Şimali Qafqaz, Volqaboyu, İrana qastrol səfərinə çıxmışdı. Şərifzadə bacarıqlı rejissor kimi də tanınmışdı.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra o Azərbaycan Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Milli Akademik Dram teatrı) fəaliyyət göstərərək milli teatrın təşəkkülünə çalışmışdı. O, kino sənəti ilə də yaxından maraqlanmış, «Bayquş»” (1924, rej. Q.Kravçenko) filmində xan rolunu yaratmışdı. Sonralar o, kinoda rejissor kimi fəaliyyət göstərmiş, «Bismillah» (1925), «Hacı Qara» (1929), «Məhəbbət oyunu» (1934) bədii filimlərini və «Azərbaycana səyahət» (1926) sənədli filmini çəkmişdi. Şərifzadə 1928-ci ildə Azərbaycan

Dövlət Opera Teatrının baş rejissoru olmuş, «Əsli və Kərəm», «Aşıq Qərib» və «Şah İsmayıl» operalarını tamaşaya qoymuşdu.

30 illik səhnə fəaliyyəti ərzində Şərifzadə milli, eləcə də dünya klassiklərinin əsərlərində müxtəlif rollar oynamış, Cəfər Cabbarlının «Aydın» əsərində Aydın, «Od gəlini»ndə Elxan, «Oqtay Eloğlu» nda Oqtay, H.Cavidin «İblis» ində İblis, «Knyaz» da Knyaz, «Səyavuş» da Səyavuş, «Şeyx Sənan» da Şeyx Sənan, V.Şekspirin «Hamlet» ində Hamlet, «Otello» da Otello, «Maqbet» də Maqbet, A.Puşkinin «Dubrovski» sində Dubrovski, M.Qorkinin «Həyatın dibində» Baron və s. zəngin obrazlar qalareyası yarat mışdı.

A.M.Şərifzadə də minlərcə Azərbaycan ziyalısı kimi repres siyanın qurbanı olmuşdu. O, 1937-ci il dekabrın 4-də 3240 № li orderlə Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsinə əsasən evində həbs olunmuşdu. Axtarış zamanı onun evindən teatr qılıncı, iki teatr tapancası müsadirə edilmişdi.

A.M. Şərifzadənin həbsinə dair ittihamlar olduqca maraqlıdır. Belə ki, 1937-ci il iyunun 24-də uzun işgəncələrdən sonra Ruhulla Axundov ifadə verir ki, Azdramanın müdiri Əli Kərimov Abbas Mirzə Şərifovu və Mirzəağa Əliyevi antisovet təşkilata cəlb etmişdi. Oktyabrın 11-dəki dindirilmədə o, Bakıdakı antisovet təşkilatının üzvü kimi Dövlət Dumasının sabiq üzvü Məmməd Yusif Cəfərov, Yazıçılar İttifaqının üzvü Hüseyn Sadıq, şair Əhməd Cavad, yazıçı, «Müsavat»ın İstanbuldakı konsulu Yusif Vəzirov (Çəmənzəminli), məşhur dissident şair Hüseyn Cavid, bədii texnikumdan Rəfibəyov, Novruz Ağayev, Əbdürrəhim Əşrəfov, Oruc Orucov, İsabəy Aşurov, Yazıçılar İttifaqından Atababa Musaxanlı, bəstəkar Üzeyir Hacıbəyov, xalq artistləri Mirzəağa Əliyev və Abbas Mirzə Şərifzadənin adlarını «çəkir».

1937-ci ilin iyunun 23-26-da dindirilən Əli Kərimov isə müstəntiqin artist A.M Şərifovun əksinqilabı təşkilatın üzvü olması barədə sualına rədd cavabı vermişdi. Çox çəkmədən 1937-ci il oktyabrın 13-də Ə.Kərimov güllələnmişdi.

A.M.Şərifzadə 1937-ci il dekabrın 9-da XDİK DTİ-nin III şöbəsi 2-ci bölməsinin rəisi V.A.May tərəfindən dindirilməyə başlanmış, 1938-ci il yanvarın 9-da altıncı dəfə dindirilən A.Mirzə irəli sürülən ittihamları rədd etmişdi. Qəzet satan, təxribatçı Əli Həsən Abbas oğlu, Mahmudov Mahmud, Həsən Ərşadi onun üzünə durmuş, İran konsulluğu ilə əməkdaşlıqda ittiham etmişlər. Lakin sonralar məluim olmuşdur ki, bütün bunlar saxta ittihamlar imiş.

1938-ci il oktyabrın 19-da xüsusi üçlük Şərifov Abbas Mirzə Rəsul oğlunu əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum etmişdi.

Atasının taleyi ilə maraqlanan A.M.Şərifzadənin qızı Firəngizə 1955-ci ildə məlumat verilmişdi ki, atası 1941-ci ildə infarktdan vəfat etmişdi. Qəribə məntiqdir, 1938-ci ildə güllələnmiş adam 3 ildən sonra infarktdan vəfat etmişdi.

1955-ci il oktyabrın 19-da - 17 il sonra Abbas Mirzənin oğlu Qarataya bildirirlər ki, atasının hüquqları özünə qaytarılmış, bəraət verilmişdi.



**Ülvi Rəcəb**

**Ülvi Rəcəb Molla oğlu Şaşıqzadə** 1901-ci ildə Batumda anadan olmuşdu. Azərbaycan Dram Teatrının artisti işləyən Ülvi Rəcəb əksinqilabi burjua-millətçi təşkilatın üzvü kimi, 1937-ci il sentyabrın 15-də 1425 № li orderlə Azərbaycan SSR Cinayət Məcəlləsinin 72 və 73-cü maddələri ilə həbs edilmişdi.

İlk dindirilmədə Ü.Rəcəb ona qarşı irəli sürülən ittihamları rədd etsə də, 1937-ci ilin noyabrın 15-dəki dindirilmədə əksinqilbi burjua-millətçi təşkilatın üzvü olduğunu, sovet hakimiyyəti əleyhinə üsyan mövqeyində dayandığını, 1936-cı ildə AK(b) P MK katibi M.C.Bağırov əleyhinə hazırlanan sui-qəsd haqqında məlumatı olduğunu «etiraf edir».

1938-ci il yanvarın 2-də Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının bağlı iclasında Ü.Rəcəbin işinə baxılır. 20

dəqiqə çəkən iclasda ona ölüm hökmü kəsilir. Hökm həmin gün yerinə yetirilir.

1955-ci ildə bacıları Altun və Nevrestan qardaşları Ülvinin taleyi ilə bağlı SSRİ Baş Prokuroruna müraciət edirlər. Həmin ilin avqust ayında Azərbaycan Dövlət Dram Teatrının direktoru Adil İsgəndərov və xalq artistləri Mustafa Mərdanov, İsmayıl Dağıstanlı, Barat Şəkinskaya, Tağızadə və Mərziyyə Davudova onun haqqında Baş Hərbi prokurorluğa müsbət xasiyyətnamə göndərirlər.

1955-ci il noyabrın 19-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Ü.Rəcəb haqqında 1938-ci il 2 yanvar tarixli hökmü ləğv edir. Şaşıqzadə Ülvi Rəcəb Molla oğlu bəraət alır.

Azərbaycan incəsənəti-musiqi, kino, təsviri və dekorativ sənəti də 20-30-cu illərdə ağır dövrünü yaşamışdı.

Milli siyasətdə baş verən əyintilər nəticəsində respublikanın görkəmli partiya və dövlət xadimlərindən R.Axundov, D.Bünyadzadə, M. Hacıyev, Ç.İldırım, M.İsrafilbəyov (Qədirli), Ə.H. Qarayev, M. Quliyev, Q.Musabəyov, M.Nərimanov, H.Rəhmanov, H.Sultanov, S.M. Əfəndiyev, mədəniyyət və elm xadimlərindən H.Cavid, M.Müşfiq, B.Talıblı, V.Xuluflu, Y.V.Çəmənzəminli, Ə.Cavad, T.Şahbazi, M.Cuvarlinski, B.Çobanzadə, B.Həsənbəyov və b. məhv edildilər.

1937-ci ildə Azərbaycanda «xalq düşməni» kimi minlərlə adam güllələnmiş və ya Sibirə sürgün edilmişdi. 1937-ci ilin dekabrın sonuna kimi, təkcə Xəzər Gəmiçiliyi İdarəsindən 200 nəfər işçi, 19 gəmi kapitanı repressiyaya məruz qalmışdı. Xəzər gəmiçiliyinin rəisi İ.Menyaylov, onun müavini S.Savinix, siyasi şöbə rəisi H.Rəhmanov, Bakı limanının rəisi Hüseynov, gəmi təmiri zavodunun direktoru Şneyder, bir çox gəmilərin kapitanı həbs olunmuş və mühakimə edilmişlər.

M.C.Bağırovun göstərişi ilə Azərbaycan Fövqəladə Komissiyasının sabiq sədri N.Rzayev, maarif xalq komissarları M.Şahbazov və M.Cuvarlinski, kinofoto sənayesi idarəsinin rəisi Q.Sultanov, Azərbaycan DİK idarə rəisinin müavini

O.Nodev, Azərbaycan Fövqəladə Komissiyasının sabiq əməkdaşı İ.Şəmsov, ZSFSR XKS sədri Q.Musabəyov, Quba RİK-nin sabiq sədri M.Məmmədxanov, sabiq Azərbaycan SSR torpaq komissarı M.Hüseynov, ədliyyə komissarı A.Sultanova, torpaq komissarının sabiq müavini B.Qarin və başqaları həbs olunmuş və saxta ittihamlarla məhkum edilmişlər.

M.C.Bağırov və onun kampaniyasının saxtalaşdırılmış ittihamları nəticəsində bir məhkəmə prosesində 300 nəfərdən artıq partiya və sovet işçisi, o cümlədən 32 rayon partiya komitəsi katibi, 28 rayon icraiyyə komitəsi sədri, 18 xalq komissarı və onların müavinləri, 66 mühəndis, Qızıl Ordu və Hərbi Dəniz Donanmasının 88 komandiri və siyasi işçisi, 8 professor həbs edilmiş, onlar ya uzun müddətə azadlıqdan məhrum edilmiş, ya da güllələnmişlər.

Partiya və sovet kadrları sıradan çıxarıldıqdan sonra hədəf ziyalılar oldu. Ümumiyyətlə, 1937-1938-ci illərdə Azərbaycanda saxta itihamlarla 40 minə yaxın adam cinayət məsuliyyətinə cəlb edilmişdi. 1937-1940-cı illərdə orta hesabla hər il 12 min adam həbs edilmişdi. 30-40-cı və 50 - ci illərin əvvəllərində 70 mindən çox adam cəza tədbirlərinin qurbanı oldu ki, onların 29 mini ziyalıdır. Daha sonra kəndlə «hesab çürüdüldü».

Bütün bu halların törədicisi M.C.Bağırovun ətrafında cəm ləşmiş qeyri-millətlərin nümayəndələri, xüsusi ilə ermənilər idi. Acınacaqlı haldır ki, Bağırovun dövründə Azərbaycandakı 51 rayondan 31-də, o cümlədən Astara, Astraxanbazar, Zəngilan, Samux, Masallı, Lənkəran, Naxçıvan, Bakı və b. rayon və şəhər lərdə - XDİK-nin rayon bölməsinin başında ermənilər durmuşdu.

Göründüyü kimi, şəxsiyyətə pərəstiş, «Bağırovçuluq» rejimi on minlərlə yaradıcı ziyalının, partiya və sovet işçisinin məhvinə səbəb olmuşdu. Azərbaycan xalqı, onun qabaqcıl dəstəsi olan ziyalılar ölkənin müstəqilliyi uğrunda əzmlə mübarizə aparmış, bu yoldakı çətinliklərə sinə gərmiş, milli müstəqillik uğrunda canlarından keçmişlər. Bu proses müharibə illərində və ondan sonrakı yarıməsrdə də davam etmişdi.

# VI FƏSİL

## Azərbaycan İkinci Dünya müharibəsi illərində. Milli suverenlik uğrunda mubarizə

### 6.1. İkili yanaşmanın acı nəticəsi

Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı, o cümlədən cəbhənin neft və neft məhsulları ilə təmin edilməsində Azərbaycanın rolu məsələsi sovet tarixşünaslığında, müharibəyə dair memuarlarda birtərəfli işıqlandırılmışdır.

Qələbənin səbəbləri sadalanarkən arxa ilə cəbhənin birliyi, ordunun mənəvi səviyyəsi, sosialist sənayesi, sovet vətənpərvərliyi, partiyanın rolu ön plana çəkilsə də, burada əsas yer Rusiyaya verilmiş, «qardaş respublikalar» ın, o cümlədən Azərbaycanın rolu «unudulub». Ancaq İkinci Dünya müharibəsinin hadisələri göstərdi ki, bu müharibə texnika, motorlar müharibəsi olmuşdur. Minlərlə tank, təyyarə, sualtı və suüstü gəmilər neft məhsulları ilə işləmişdi. Bax, elə bu səbəbdən də, vermaxtın planında Qafqazın ələ keçirilməsi, neft rayonlarını tutmaq mühüm yer tuturdu.

Sovet tarixçiləri bu həqiqəti bilsələr də, nədənsə Azərbaycanın müharibədəki iştirakını, xüsusən cəbhənin yanacaqla təmin olunmasında Bakı neftçilərinin əməyini lazımınca qiymətləndirməmişlər. Çoxcildlik «SSRİ tarixi» ndə göstərilir ki, strateji mal olan neftin çıxarılmasında əsas rolu Ural, Sibir, Povoljye oynamışdır. Eyni fikirlər *«Mejdunarodnıe otnoşeniə posle vtoroy mirovoy voynı»* adlı ümumiləşdririci əsərdə də təsdiqini tapmışdır. Orada da qeyd edilir ki, Hitler strateqləri ikinci beşillik illərində yaradılan Ural və Sibir metallurgiya bazalarının əhəmiyyətini qiymətləndirə bilməmişlər.

Müharibə dövrü statistik külliyyatlarında, hökumət sənəd lərində, ümumiləşdirici əsərlərdə digər faktlarla da rastlaşırıq. Rəqəmlərə diqqət yetirək: Sovet-alman müharibəsi başlayanda neft çıxarılan rayonlarda neft hasilatı aşağıdakı kimi idi: Qafqaz

(Bakı), Qroznı, Maykop-87,1 %,Volqa-Ural-6%, Qazaxıstan və Orta Asiya-4,8 %, Uzaq Şərq 2,1%. Deməli, Qafqazda istehsal olunan neft 87,1 % idi. Onların içərisində isə Bakı ümumi neftin 71,0 % ni verirdi. 1941-ci ildə Azərbaycan neftçiləri qarşısında 23 milyon ton neft hasil etmək və orta sutkalıq hasilatın 63.014 tona çatdırılması vəzifəsi qoyulmuşdu. Azərbaycanın müharibə dövrü tarixinin görkəmli tədqiqatçısı, Azərbaycan MEA-nın müxbir üzvü, mərhum Q.Ə.Mədətov özünün «Azərbaycan Böyük Vətən müharibəsi illərində.1941-1945» kitabında yazır ki, 1941-1942-ci ildə «...Y.Məmmədəliyev, R.İsmayılov, V.Qutıyra və b. yüksək keyfiyyətli benzin və başqa neft məhsulları istehsalı üçün 17 mühüm texnoloji prosesi işlədilər və istehsalata tətbiq etdilər».

M.Abbasovun *«Baku v qodı Velikoy Oteçestvennoy voynı»* kitabında oxuyuruq ki, 1941-ci ildə 930 neft quyusu qazdılar, 752 quyunu istismara verdilər. Deməli, Bakı neft istehsalı, həmçinin cəbhənin neft və neft məhsulları ilə təminatında öndə gedirdi.

Tarixşünaslıqda rast gəlirik ki, müharibənin sonuna yaxın Bakıda neft istehsalı azalaraq 14,6 %-ə enmişdi. Bunun əsas səbəblərindən biri idi ki, DMK-nin qərarına əsasən 1941- ci ilin II yarısı və 1942-ci il ərzində bütün qazma kontorları Şərqə köçürülmüşdü. Neft avadanlıqlarının təxminən yarısı, mühəndis-texniki kadrlar «**İkinci Bakı**» rayonuna göndərilmişdi. Bu səbəbdən də, tarixi ədəbiyyatda «İkinci Bakı» nın rolu şişirdilir.

Ağır və fövqəladə şəraitə baxmayaraq 1941-ci ildə Bakıda 23,5 milyon ton neft çıxarılmışdı. Nəzərə alsaq ki, bu dövrdə ölkədə 33 milyon ton neft çıxarılırdı, onda Bakının payı aydın olar. 1941-ci ildə Bakı Ümumittifaq hasilatının 71,2%-ni vermişdi. 1941-ci il planına vaxtından əvvəl - 19 dekabrda əməl edən Azərbaycan neftçiləri neft çıxarılması planına 102%, neft emalı planına 122,8%, benzin istehsalı planına 118% əməl etmişlər.

1942-ci ildə Azərbaycan neftçiləri qarşısında ölkəyə 18,2 milyon ton neft verilməsi vəzifəsi qoyulmuşdu. Ancaq Bakı mədənlərinin real vəziyyəti baxımından bu plan qeyri-real idi. Buna baxmayaraq, Azərbaycan neftçiləri 15,7 milyon ton neft,

yaxud ümumittifaq hasilatının 71,7%-ni verdi. Ümumilikdə, 1942-ci ildə SSRİ-də 21,9 milyon ton neft çıxarılmışdı.

1942-ci ilin sonunda aviasiya benzininin həcmi azalır. Bu əlbəttə, mərkəzin respublika rəhbərliyinə ciddi təzyiq etməsi, vəziyyəti düzgün qiymətləndirməməsindən irəli gəlirdi. Bunun bariz nümunəsidir ki, L.Beriyanın Azərbaycan K (b) P MK-ya göndərdiyi teleqramda Bakı neft zavodlarının işi qeyri-qənaətbəxş hesab olunurdu.

1943-cü ildə Azərbaycan neftçiləri qarşısına 12,9 milyon ton neft çıxarılması vəzifəsi qoyulur. Bakı neftinin əhəmiyyətini nəzərə alan DMK 1943-cü il iyul ayının 1- də «Azərbaycan neft sənayesinə kömək haqqında» qərar qəbul edir. DMK öz ehtiyatlarından neft sənayesinin ehtiyacları üçün 150 avtomaşın və digər nəqliyyat növləri ayırır.

1943-cü ildə ölkədə çıxarılan 17,9 milyon ton neftin 12,7 milyon tonu Azərbaycanda hasil edilir. Bu ümumittifaq neftinin 71 %-ni təşkil edirdi. Ayrı-ayrı göstəricilər üzrə də Azərbaycan neftçiləri fərqlənirlər. Belə ki, Azərbaycan neft emalı sənayesi 1943-cü ildə aviasiya benzini istehsalı üzrə plana 134%, kerosin istehsalı üzrə 101,7%, dizel yanacağı istehsalı üzrə 139,6%, aviasiya yağı istehsalı üzrə 105,7%, donanma mazutu istehsalı üzrə 162% əməl edirlər.

İlk baxışda bu rəqəmlər adi statistik görüntü yaradır. Əslində isə, hər bir rəqəmin arxasında gərgin zəhmət, vətənpərvərlik ruhu dururdu.

Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq 1944-cü ildə də gərgin işləmiş və 1944-cü ildə ittifaqda çıxarılan 18,3 milyon ton neftin 11,8 milyon tonunu, yaxud 64,5% -ni Bakı neftçiləri vermişdi. 1945-ci ildə Bakı 11,9 milyon ton neft istehsal etdi. Bu ümumittifaq neftinin 59% -ni təşkil edirdi.

Ümumilikdə, 1941-1945-ci ilərdə SSRİ-də 110,6 milyon ton neft çıxarılmışdı. Onun 75,2 milyon tonu (68 %) Bakının payına düşürdü. İkinci Dünya müharibəsi dövründə (1939 -1945-ci illər) SSRİ-də 172 milyon ton neft çıxarılmışdı ki, ondan 118,9 milyon tonunu, yaxud 69% -ni Bakı vermişdi.

## 6.2. Döyüş meydanlarında

1941-ci il 22 iyun! Adamlar dinc əməklə məşğul olduğu zaman alman-faşist qoşunları qəflətən hücum etdilər. Öz ataları və qardaşları ilə birgə milyonlarla insan, əsasən də gənclər ölüm-dirim mübarizəsinə başladı.

Hərbi əməliyyatlar aparılması sahəsində iki illik təcrübəyə malik 5,5 milyonluq alman-faşist ordusu müharibə ərəfəsində Sovet İttifaqının sərhədlərində cəmləşdirilmişdi. Bu ordunun tərkibində 4.300 tank, 24.980 hərbi təyyarə, 190 döyüş gəmisi, 44.200 top vardı. Düşmənin şiddətli təzyiqi qarşısında müharibənin 6-cı günü Minsk əldən getdi. Bir aydan sonra artıq düşmən Leninqradın və Smolenskin, 3 aydan sonra Moskvanın həndəvərində idi. Bu vaxta qədər 3 milyon adam həlak olmuşdu. Silahlı qüvvələrdə artıq 11 milyon adam sıradan çıxmışdı. Bu, o, demək idi ki, əslində yeni ordu yaratmaq lazım gəlmişdi. Faşist orduları böyük bir ərazini ələ keçirmişdilər ki, həmin ərazidə sənaye məhsullarının üçdə biri istehsal edilirdi. Əsas ərzaq ehtiyatı orada idi.

Brest qalasının, Odessanın, Kiyevin, Smolenskinin, Tulanın, Sevastopolun, Qafqazın, Moskvanın, Leninqradın, Stalinqradın müdafiəsini, Xarkovun, Çernikovun, Dnepropetrovskinin, Kiyevin azad edilməsi uğrunda şiddətli döyüşləri, Dnepr sahillərinədək vuruşmaları, Donbasın, Taman yarımadasının, Ukraynanın, Belorusiyanın, Pribaltikanın azad edilməsini dünya heç zaman unutma yacaqdır. Nəhayət, Polşa, Rumıniya, Yunanıstan, Yuqoslaviya, Çexoslovakiya, Macarıstan, Avstriya xalqları azad edildi və faşist paytaxtı Berlin alındı.

Dünya yanğınının odlu-alovlu nəfəsi 60-dan çox ölkəni bürümüşdü. Yüz milyonlarla insan fəlakət və bədbəxtlik girdabına salınmışdı. Böyük müharibədə 50 milyondan artıq insanın həyatına son qoyuldu. Bu insanların hamısı gülədən həlak olmamışdılar. Onlar öldürülmüş, acından həlak olmuş, yaralardan keçinmiş, qaz kameralarında boğulmuş, bombalar altinda həlak olmuş, həbs düşərgələrinin sobalarında yandırılmışdır. Əsirlikdə işgəncələr verilmiş insanlar, aclıqdan, xəstəlikdən, məhrumiyyətlərdən,

nəhayət təhqirlərə dözməyərək həlak olmuş adamlar unudulmamalıdır. Nəhayət, bu gün yaşayan, əlil və şikəst olan ata və babalarımız hər cür qayğı ilə əhatə olunmalıdır. Onların döyüş yolu torpaqlarının 20%-dən çoxu işğal olunmuş Azərbaycan vətəndaşları üçün əsil vətənpərvərlik məktəbinə çevrilməlidir.

İkinci Dünya müharibəsində əldə olunmuş qələbədə nə Ali Baş Komandanın, nə də sıravi döyüşçünün rolunu azaltmadan qəti və birmənalı şəkildə deyə bilərik ki, qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqdır. Bu xalqların içərisində Azərbaycan xalqı şərəfli yerlərdən birini tutur.

Müharibə illərində Leninqrad, Moskva, Sevastopol, Odessa, Stalinqrad, Kiyev və digər şəhərlər uğrunda, Qafqazdakı şiddətli döyüşlərdə, Dnepr çayını döyüşə-döyüşə keçməkdə, Avropa ölkələrinin faşist işğalçılarından təmizlənməsində, partizan əməliyyatlarında, Berlin uğrundakı döyüşlərdə Azər baycan döyüşçüləri igidlik göstərmişlər.

Yalnız bir atıcı polkundan ibarət olan Brest qarnizonu dörd tərəfdən mühasirəyə alınmasına baxmayaraq, bir aydan çox faşistlərlə igidliklə vuruşmuş, öz döyüş bacarığı ilə düşməni heyran etmişdi. Qalanın müdafiəsində Azərbaycanın 44 nəfər gənci iştirak etmişdi. Onlardan *İ.Səfərov, A.İmanov, M.Məmmədov, M.İbrahimov, H.Haqverdiyev, M.Qədirov, Ə.Əliyev, D.Abdullayev* və başqaları xüsusi mərdlik göstərmişlər.

İşğalçıların planında Leninqradın zəbt edilməsi xüsusi yer tuturdu. Müharibənin ilk aylarında Leninqrad uğrunda işğalçılara qarşı mübarizədə igidlik və qəhrəmanliq nümunələri göstərdiyinə görə ölümündən sonra «Lenin» ordeni ilə təltif edilmiş 22 yaşlı qəhrəman təyyarəçi *Hüseynbala Əliyev* döyüşlərdə 4 düşmən təyyarəsini məhv etmişdi. 1941-ci il iyunun 13-də H.Əliyev növbəti uçuşdan qayıdarkən qəflətən buludlar arasından 3 faşist təyyarəsinin çıxdığını görür. Qeyri-bərabər döyüşdə iki faşist təyyarəsini vurub yerə təyyarəçi yaralarının çox olmasına baxmayaraq üçüncü təyyarənin üzərinə şığıyır və onu vurur. Döyüşdə 17 yara almış H.Əliyev öz təyyarəsini yerə salamat endirə bilir.

H.Əliyevin döyüşdüyü hissənin komandiri və komissarı qəhrəmanın atasına yazdığı məktubda Hüseynin cənazəsi önündə faşist əclaflarını amansız surətdə qıracaqlarına and içdiklərini, vətənə, xalqa son nəfəsinədək sadiq olan dostları ilə fəxr etdiklərini yazır və qəhrəmanın xatirəsini daim yaşadacaqlarını bidirirdilər.

Azərbaycan xalqının bu gənc qəhrəmanının obrazı xalq şairi Məmmər Rahimin «Leninqrad göylərində» poemasında, V.Kalinskayanın «İradə», İ.Pasinkanın «Əzəmətli Stalin şahini», D.Qlanın «Ölməz qəhrəman» əsərlərində, digər hekayə və oçerklərdə əbədiləşdirilmişdi.

İlk azərbaycanli təyyarəçi *Yusif Hüseyn oğlu Quliyev* də qəhrəmanlıq göstərmişdi. 1941-ci ilin yayında o, Leninqrada hücum edən 4 faşist təyyarəsi ilə təkbaşına döyüşə girib onlardan ikisini məhv etmiş, ikisini isə geri qaçmağa məcbur etmişdi.

Leninqrad uğrunda döyüşlərdə Şimal donanmasının snayperçisi *Məmmədəli Abbasovun* 1943-cü ildə şəxsi hesabında 166 öldürülmüş faşist var idi. «Bakinskiy raboçiy» qəzeti yazırdı ki, əsir alınmış alman zabiti istintaq zamanı demişdi ki, mahir snayper M.Abbasovun qəhrəmanlığı alman generalına da məlumdur. General M.Abbasovu öldürmək və ya əsir almaq üçün 8 usta avtomatçı ayırmış və onlara birinci dərəcəli xaç vəd etmişdi.

Leninqradın müdafiəsində Azərbaycanlı döyüşçülər – Bakı aeroklubunun yetişdirmələri *Hüseyn Bağırov, Yevgeni Sıqanqov, Asəf Səmədov, Aleksandr Şitov* və başqaları da iştirak etmişlər. Leninqrad uğrunda azərbaycanlı döyüşçülərin döyüş xidmətləri «Bakinskiy raboçiy» qəzetində dərc olunmuş məktubda belə xarakterizə olunurdu «…Leninqrad cəbhəsində iti gözlü, möhkəm biləkli, qəlbi qələbəyə inamla dolu onlarca Zaqafqaziyalı snayperlər vardır. Onlar bütün cəbhənin sevimlisi olub, azadlıq sevən Azərbaycan xalqının şərəfini yüksəldirlər».



**İsrafil Məmmədov**

Novqorod yaxınlığındaki Pustinka kəndi uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən *İsrafil Məhərrəm oğlu Məmmədovun* igidliyinə bütün ölkənin xalqları heyran qalmışdı. İ.Məmmədov özünün «PPD» avtomatı ilə 70 düşmən əsgər və zabitini, 6 nəfərlik dəstəsi ilə 2 batalyon alman avtomatçısını məhv etmişdi.

«*Krasnaə zvezda*» qəzeti müharibə cəbhələrində döyüş dostluğuna həsr etdiyi baş məqalədə yazırdı: «Əgər siz bilmək istəsəniz cəbhə dostluğu, döyüşdə qarşılıqlı yardım nədir, onda Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova və onun yoldaşlarına baxın».

1941-ci il dekabr ayının 11-də İsrafil Məmmədova *Sovet İttifaqı Qəhrəmanı* adı verildi.

Şair Matusovski İ.Məmmədovu belə tərənnüm etmişdi:

O rus dastanlarında, kobzarlar nəğməsində
Sədəfli saz ustadı aşıqların səsində,
Çox tərənnüm edilmiş yenilməz qəhrəmandı
O, qartal balasıdır, böyük bir pəhləvandı!
Sən də Məmmədov kimi alıb silahı ələ
Doğma əziz Vətəni qoru mərdanəliklə!

Moskva uğrunda azərbaycanlı döyüşçülər-topçu *M.Paşayev*, projektorçu *Əhmədov*, rabitəçi *M.Xəlilov, F.İbrahimov* və başqaları döyüş şücaəti göstərmişlər.

1942-ci ilin yayında alman-faşist ordusu Avropada 2-ci cəbhənin açılmamasından istifadə edərək ehtiyat qüvvələrini toplaya-toplaya irəliləyirdi. Artıq Stalinqrad, Volqaboyu rayonları və Zaqafqaziya təhlükə qarşısında idi.

Stalinqrad vuruşmalarında Oqnevin 16 nəfərlik gənclərdən ibarət topçu batareyasi 4 saat ərzində düşmənin 59 tanki ilə vuruşmuşdu. Batareyanın 7 nəfəri azərbaycanlı idi. Top nişançısı F.*Əhmədov, top sürücüsü Şahvəliyev, top nişançısı Baxışov, kəşfiyyatçı A.Vəliyev, doldurucu İ.Məmmədov* və başqaları döyüşdə qəhrəmancasına həlak olmuşlar.

Lənkəranlı *Baloğlan Abbasov* Stalinqrad döyüşlərində qəhrəmanlıq göstərmişdi. O, iki ay içərisində öz yoldaşları ilə 1.615 faşisti məhv etmiş, özü isə 106 hitlerçini öldürmüşdü.

P.Pavlenko «Baloğlan Abbasov» kitabında B.Abbasovun qəhərəmanlığından bəhs edərək: «Bir dəfə igidlik göstərib onunla kifayətlənən adam hələ qəhrəman adlana bilməz. Qəhrəman o adamdır ki, başqalarını da tərbiyə edə bilib, özü kimi qəhrəman eləsin.

Kim igidlik göstərərək 2 nəfəri, 3 nəfəri, 100 və 1000 nəfəri igidlik üçün ruhlandırırsa, xalqın həqiqi qəhrəmanı olar. Abbasov belə qəhrəmanlardandır» deyə yazmışdı.

Döyüş yoldaşları onun anasına göndərdiyi məktubda yazırdılar: «Biz mübariz dostumuz Baloğlanın cənazəsi qarşısında belə bir igid oğul yetirmiş Azərbaycan xalqına təşəkkür edirik. Baloğlan Abbasovun şərəfli silahı etibarlı bir snayperə veriləcəkdir. Faşistlərə qarşı B. Abbasov kimi sönməz kin bəsləyən onlarca yeni snayperlər qəhrəman Baloğlan Abbasovun yerini tutacaqlar. Döyüş meydanlarında vuruşarkən biz Baloğlanı heç zaman unutmayacağıq. O həmişə bizə nümunə olacaqdır, əclaf faşistlərə atdığımız hər bir güllə, hər bir mərmi onun intiqamını alacaqdır».

1Azərbaycan övladlarının igidliyinə dair minlərlə nümunə göstərmək olr. Məsələn, 941-ci il iyunun 29-da əsgər *İsmayilov* bir döyüşdə 11 düşmən əsgərini məhv etmişdi. 1942 - ci il oktyabrın 18-də istehkamçı *Musayev* faşistlərin arxasında iki dəmir yol körpüsünü partlatmışdı. 1944-cü il yanvarın 4-də qvardiya leytenantı *Bağırov* və onun 11 qəhrəman əsgəri 3 düşmən tankını və 400 faşist əsgərini məhv etmişdi. 1945-ci il yanvarın 20-də general-mayor Sızranovun və mayor Mahmudovun alayı Kustrin şəhəri və qalasına hücumda fərqlənmişlər. Leytenant *Məmməd Abdullayevin* topçu bölməsi düşmənin 25 döyüş nöqtəsini dağıtmış, 350-dən çox faşisti öldürmüş, 49-nu əsir almışdı. Bu





**Sara İbrahimova**

döyüşlərdə o özü şəxsən 24 faşisti məhv etmişdi. Cəsur şahin *Nuru Əliyev* 10 - dan çox faşist tankını, 26 avtomobilini, 5 zenit topunu, 2 zirehli maşınını, 190 əsgər və zabiti məhv etmişdi. Vətənpərvər şahinin sinəsini «Qırmızı bayraq» ordeni bəzəyirdi.

İlk azərbaycanlı təyyarəçi qız *Züleyxa Seyidməmmədova* 40-dan çox hava döyüşü keçirmişdi. Onun döyüş xidmətləri ikinci dərəcəli «Vətən müharibəsi» ordeni və medallarla qeyd edilmişdi.

Müharibə illərində kişilərlə çiyin-çiyinə vuruşan *Alfa Əli qızı Şirazi*, Azərbaycan xalqına şöhrət gətirən hərbi həkim *Sara Teymur qızı İbrahimova*, tibb bacısı Aliyyə Rüstəmbəyova və onlarla başqalarının xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

Döyüşçülərimiz Pribaltikadan tutmuş Qara dənizə kimi cəbhələr boyu irəliləyirdilər. *Mirzə Cəbiyev, Mehdi Quliyev, Qəzənfər Əkbərov, Xəlil Əkbərov, Adil Quliyev* və başqaları bu zəfər yürüşündə qəhrəmanlıq göstərmişlər. Mehdi Quliyev döyüşlərdə 300 faşist əsgər və zabitini məhv etmiş, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

1942-ci ilin yayında alman komandanlığı Qafqazı işğal etməyi çox mühüm siyasi və hərbi-strateji vəzifə hesab edirdi. Əsas məqsəd isə alman ordusunun yanacaqla təminatı sahəsindəki böhranı aradan qaldırmaq, digər tərəfdən isə mərkəzi vilayətləri Şimali Qafqazın və Azərbaycanın yanacağından məhrum etmək idi.

Alman komandanlığı Şimali Qafqazda öz təsirini artırmaq istəyirdi. İkinci Dünya müharibəsi illərində ABŞ prezidentləri Ruzvelt və Trümenin məsləhətçisi olmuş admiral Uilyam Leki xatirələrində yazır ki, «ABŞ belə güman edirdi ki, alman orduları SSRİ-nin Qərb rayonlarını və Qafqazı işğal etdikdən sonra Hitler Stalinə sülh təklif ilə müraciət edər…Çünki, Qafqazın neft mədənlərinin işğalı ilə bütünlükdə Avropanın işğalı reallaşa bilərdi. Lakin bu təhlükə baş vermədi. Almanlar 1941-1942-ci illərin qış kampaniyası dövründə Stalinqradda və Rostovda ağır məğlubiyyətlərə uğrayaraq geri çəkiləndə hamı rahat nəfəs aldı. Bununla da, nəinki Bakı və onun tükənməz nefti, eləcə də bütün Yaxın Şər-

qin zəngin neft mədənləri alman işğalçılarının əlinə keçmək təhlükəsindən xilas oldu».

Almanlar Qafqazı ələ keçirmək məqsədilə orada yaşayan xalqları və millətləri müxtəlif yollarla ələ almaq, onlar arasında münaqişə salmaq, müsəlman din xadimlərindən, əhali arasında nüfuzu olan insanlardan istifadə etməyi planlaşdırmışdı. Geringin «yaşıl qovluq» adlanan sənədləri arasında saxlanan və 1941-ci ilin iyununda hazırlanaraq faşist zabitlərinə göndərilən məktubda deyilirdi ki, «Baltik sahili ölkələrində … yaşayan almanlara arxalanmaq, litvalılar, latışlar və estonlarla ruslar arasındakı ziddiyyətlərdən Almaniyanın xeyrinə istifadə etmək lazımdır. Cənubda ukraynalılarla velikoruslar arasında baş verə biləcək ziddiyyətlərdən faydalanmalıyıq…». Bunlar, 1942-ci ilin yanvarında alman hərbi kəşfiyyatının admiralı F.V.Konarişin işlədiyi planda da öz əksini tapmışdı. Plana əsasən Qroznı, Maykop və digər neft rayonlarını tutmaq üçün desant salınması nəzərdə tutulurdu. «Atılmış desantçılar və casuslar antisovet elementlərlə əlaqəyə girməli idi. Alman sənədində deyilirdi ki, Rusiyanın digər yerlərindən fərqli olaraq Qafqazda adət və ənənələrə riayət edilməsi güclüdür. Yerli banditləri yaxşı silahlandırmaq, alman qoşunları ora daxil olana qədər mühüm obyektləri onların ixtiyarına vermək lazımdır ki, onları bizim üçün saxlasınlar. Nə vaxt ki, Qroznı, Malkobek və başqa rayonlar bizim əlimizdə olacaq, onda Bakını ələ keçirmək və Qafqazda işğalçı rejim yaratmaq mümkün olacaq. Dağlarda sakitlik yarandıqdan sonra bütün dağlıları məhv etmək lazımdır».

Qafqaz uğrunda döyüşlərdə yüksək döyüş məharəti göstərən azərbaycanlı əsgərlərdən biri də *Qafur Məmmədov* idi. 1942-ci ilin oktyabr ayında Tuapse yaxınlığında Rşada kəndi uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa və komandirini xilas etdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 31 mart tarixli fərmanı ilə Qafur Nəsir oğlu Məmmədova Sovet



**Qafur Məmmədov**

İttifaqı Qəhrəmanı adı verilmişdi. Bu hadisə «Kommunist» qəzetində dərc olunmuş məktubda gələcək nəsillər üçün yüksək vətənpərvərlik, mətanət, vətənə sədaqət nümunəsi kimi göstərilmişdi.

Qafqaz uğrunda döyüşlərdə istehkamçı və minatəmizləyən kimi tanınan və 1.543 minanı zərərsizləşdirən *Cəbrayıl Allahverdiyev*, 1000-dən çox minanı zərərsizləşdirən *Turac Rəşidov* fərqlənmişlər.

Qafqaz uğrunda döyüşlərdə qadınlar da igidliklə vuruşmuşlar. 416-cı diviziyada vuruşan tibb bacıları *B.Mircavadova, R.Əhmədova, Ş.Əsgərova və R.Gözəlova* yüksək mükafata layiq görülmüşlər.

Azərbaycan övladlarının döyüş qəhrəmanlığı cəbhə komandanlıqları tərəfindən yüksək qiymətləndirilmişdi. Şimali Qafqaz cəbhəsi komandanlığının və Hərbi şurasının Azərbaycan KP MK-ya göndərdiyi məktubda deyilirdi: «Azərbaycan əsgərləri düşmənlə vuruşarkən Azərbaycan xalqının qəhrəmanları olan məşhur sərkərdə Babək və Cavanşirin ləyaqətli övladı olduqlarını sübut etdilər. Təkcə Kuban uğrunda vuruşmalarda döyüş tapşırığını nümunəvi yerinə yetirdiklərinə görə 600 azərbaycanlı əsgər və zabit Sovet İttifaqının orden və medalları ilə təltif edilmişlər. Bu qəhrəmanların adı və göstərdikləri igidlik Azərbaycan tarixinə, Qafqaz uğrundakı vuruşmalar tarixinə qızıl hərflərlə yazılacaq, aşıqlar onlar haqqında mahnı və dastan qoşacaqlar».

Azərbaycanlı döyüşçülər Avropa xalqlarının faşist işğalından təmizlənməsində qəhrəmanlıq göstərmişlər. Rumıniyanın azad edilməsində *Gəray Əsədov* xüsusi qəhrəmanlıq göstərmişdi.

Azərbaycanlı döyüşçülər Fransada müqavimət hərəkatında iştirak etmişlər. Fransanın cənubunda, Rodes rayonunda ilk Azərbaycan polku formalaşmışdı. 1942-ci ilin yayında Rolşann Edlin şəhərində azərbaycanlı hərbi əsirlərdən gizli antifaşist təşkilatı yaranmışdı. Təşkilatın üzvləri Hadi Qiyasbəyov, İsmayıl Heydərov,



**Gəray Əsədov**

Hüseynrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev və başqaları idi. Polkun komandiri Hüseynrza Məmmədov idi. Bu polk Fransa şəhərlərinin faşistlərdən azad edilməsində iştirak etmişdi. Azərbaycanlı döyüşçülərin qəhrəmanlığını fransız hərbiçiləri də etiraf etmişlər. Məsələn, müharibə illərində Fransanın Rodes şəhərinin faşistlərdən azad edilməsi uğrunda həlak olan azərbaycanlı döyüşçülərin matəm mitinqində çıxış edən polkovnik Rişad öz duyğularını belə ifadə etmişdi: «Fransa azərbaycanlı hərbi əsirlərin igidliyini unutmayacaqdır. Övladlarımız, nəvə və nəticələrimiz də biləcəklər ki, uzaq azərbaycanlı dostlarımız da Fransanın faşizmdən azad edilməsi yolunda canlarını əsrgəməmişlər. Həlak olan qəhrəmanların surətləri əbədi olaraq qəlbimizdə yaşayacaqdır». Gənclərin və tələbələrin Moskvada keçirilən VI Ümumittifaq festivalında iştirak edən Mişel Leqan demişdi ki, 1944-cü ildə kapitan Hüseynrza Məmmədov başda olmaqla azərbaycanlı döyüşçülərin Rodes şəhərini işğalçılardan azad etməsini şəhərin hər bir sakini çox yaxşı xatırlayır. Fransa müqavimət hərəkatının iştirakçılarından olan *Əhmədiyyə Cəbrayılov, Nuru Abdullayevin* xatirəsi xalqımız tərəfindən daim yad edilir.

Azərbaycanlı hərbi əsirlər İtaliya müqavimət hərəkatında da iştirak etmişlər. *Nəsir Abdullayev, Məmməd Bağırov, Həmzə Əsgərov, Əli Babayev, Şahbaba Məcidov, Tahir İsayev, Həsən Kamalov* və başqaları Appenin yarımadasının müxtəlif regionlarında faşistlərə qarşı vuruşmuşlar.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən partizan dəstəsinin tərkibində 500 nəfər azərbaycanlı döyüşçü olmuşdu. Əsir düşərgəsindən qaçıb müqavimət hərəkatına qoşulan Ə.Baxışov və Ə.Əlimərdanov döyüşlərdə xüsusi ilə fərqlənmişlər. Ə.Əlimərdanov orden və medallarla təltif olunmuşdu. Uritski adına partizan dəstəsinin komandiri Hümmət Namazov, onun cəbhə dostları R.Əsgərov, Ə.Məhərrəmov, S.Bağırov, Q.İmanov, M.Tağıyev, T.Quliyev, M.Daşdəmirov, Ş.Vəliyev, M.Bayramov və başqaları qəhrəmanlıqla vuruşmuşlar. Uritski adına dəstə 1944-cü il avqustun 4-dən 1945-ci ilin yanvarın 31-dək faşistlərlə

25 dəfə döyüşə girmiş, 7 dəfə düşmən qarnizonuna basqın etmişlər… Onlar 246 hitlerçini öldürmüş, 187-ni yaralamış, 49-nu əsir almış, düşmənin 41 paravozunu və 85 avtomobilini qəzaya uğratmış, 5 neft buruğunu və 21 təyyarəsini yandırmış, 7 körpüsünü partlatmışlar. Qənimət olaraq 26 əl pulemyotu, 124 tüfəng, 37 avtomat, 36 tapança, 12.250 patron, 541 qumbara ələ keçirilmişdi.

Almaniyanın «Ştrans» düşərgəsində saxlanılan M.Hüseynzadə, S.İsmayılov, R.Ağazadə, M.Seyidov, M.Qulubəyov və başqalarının rəhbərliyi altında antifaşist təşkilatı yaradılmışdı. Hərbi əsirlər, hərbi hissələrdəki gizli antifaşist təşkilatlarının üzvləri qaçaraq partizanlara qoşulmuşlar. Belələrindən biri də *Mehdi Hüseynzadə* olmuşdu.

1918-ci ildə Bakıda anadan olan **Hüseynzadə Mehdi Hənifə oğlu** 1936-cı ildə rəssamlıq məktəbini bitirmişdi. Sonra Leninqradda (indiki Sankt-Peterburq) Xarici Dillər İnstitutunda təhsil alan Mehdi 1941-ci ildə ordu sıralarına çağırılmış, 1942-ci ildə Tiflisdə piyada hərbi məktəbini bitirmişdi. 1942-ci ilin yayında Stalinqrad ətrafında döyüşlərdə iştirak edən M.Hüseynzadə həmin ilin avqust ayında Kaliç şəhəri yaxınlığındakı döyüşdə ağır yaralanmış və əsir düşmüşdü. Ukrayna, Polşa, İtaliya və Yuqoslaviyada hərbi əsir düşərgələrində olan Mehdi Hüseynzadə Yuqoslaviya əsir düşərgəsində olan sovet əsirlərinin qaçmasına köməklik etmiş, yoldaşları ilə birlikdə Yuqoslaviya partizanlarına qoşulmuşdu. Faşist zabiti forması geyərək tez-tez almanların qərargahında olan Mehdi düşmən ordularının hərəkətlərinə dair kəşfiyyat materialları toplayır, qoşunların hərəkət planlarını öyrənərək partizanlara xəbər verir və onlara zərbələr endirirdilər. 1944-cü ilin payızında onun başçılıq etdiyi bir qrup partizanın Udine şəhərindəki faşist həbsxanasına hücumu nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsiri azad edilmişdi. M.Hüseynzadə 1944-cü il noyabr ayının 6-da düşmənlə qeyri-bərabər döyüşdə həlak olmuşdu.



**Mehdi Hüseynzadə**

Müharibədən sonra Moskvaya gələn İtaliya Kommunist Partiyasının Baş katibi Palmiro Tolyatti müharibə illərində İtaliyada «Mixaylo» adı ilə İtaliya müqavimət hərəkatı sıralarında bir azərbaycanlı gəncin misilsiz qəhrəmanlığı və şücaəti haqqında məlumatlar vermişdi. Bundan sonra İtaliya müqavimət hərəkatının iştirakçıları haqqınla materiallar toplamaq üçün İtaliyaya nümayəndə heyəti göndərilir. Nümayəndə heyətinin tərkibində yazıçı Həsən Seyidbəyli və İmran Qasımov da olmuşdu. İtaliya müqavimət hərəkatının rəhbərlərindən olan Karlos Lubinonun köməyi ilə alman və fransız dillərini sərbəst bilən, partizanların köməyi ilə alman-faşistlərə divan tutan M.Hüseynzadə

haqqında materiallar toplanır və SSRİ rəhbərliyinə təqdim olunur. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli fərmanı ilə Mehdi Hüseynzadə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. Hazırda Bakıda M.Hüseynzadənin adına küçə vardır. Bakı şəhərində, Bakıxanov küçəsində onun şərəfinə abidə ucaldılmış, «Azərbaycanfilm» kinostudiyası tərəfindən «Mixaylo» nun qəhrəmanlığından bəhs edən «Uzaq sahillərdə» filmi çəkilmişdi.

Aslan İbadov əsir düşərgəsindən 15 nəfərin qaçmasını təşkil etmiş, onlar «Çerniqov» partizan dəstəsinə qoşulmuşlar. A.İbadovun rəhbərlik etdiyi rota düşmənin körpüsünü, onlarla qatarını, avtomobilini, 500- ə yaxın əsgər və zabitini məhv etmişdi.

## 6.3.Azərbaycan diviziyaları

1941-ci ildə bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli diviziyalar təşkil olunmağa başlamışdı. Bu diviziyaların əsas heyətini azərbaycanlılar təşkil edirdi. Qafqaz uğrunda misilsiz qəhrəmanlıq göstərmiş 77-ci , 223-cü və 416-cı ,diviziyalar 44-cü və 58-ci orduların tərkibində vuruşmuşdu.

**77-ci atıcı diviziyası** Azərbaycanda sovet hakimiyyəti qurulandan az sonra yaradılmışdı. Məlum olduğu kimi, 11-ci ordu Bakıya daxil olandan əvvəl gizli şəkildə fəaliyyət göstərən 19-cü batalyonun əsas özəyi təşkil edilir, batalyonun dirçəldilməsi üçün razılıq alınır və tezliklə könüllülər hesabına tam komplektləşdirilir. 10 may 1920-ci ildə 19-cu batalyon genişləndirilərək, birinci Bakı fəhlə-kəndli atıcı polkuna çevrilir, sonra isə «26 Bakı komissarı adına polk» adlandırılır. Polkun komandiri Popov, komissarı ***Cəfər Mövsüm oğlu Babayev*** təyin olunur. 1920-ci il mayın 11-də Azərbaycan SSR Qızıl Ordusu və Donanması yaradılması haqqında İnqilab Komitəsinin dekreti dərc olunur. Elə həmin gün dərc olunmuş 193 №li əmrə görə birinci müstəqil Azərbaycan Sovet fəhlə-kəndli atıcı diviziyası yaradılır. Onun tərkibinə üç polkdan ibarət briqada, bir atlı batareyası, mühəndis, rabitə rotaları və briqadalar idarəsi daxil edilir. Diviziyanin rəisi S.S.Sevelev təyin olunur. Beləliklə, 77-ci

atıcı polk formalaşır. 1930-cu ildə diviziyaya S.Orconikidzenin adı verilmiş, 1935-ci ildə SSRİ MİK-nin qərarı ilə «Qırmızı Bayraq» ordeni ilə təltif edilmişdi.

Diviziyanın yaradılması, onun döyüş keyfiyyətlərinin artırılmasında diviziya komandiri C.Naxçıvanskinin və Y.Vəzirovun, komissar C.Əliyevin və başqalarının böyük xidmətləri olmuşdu.

77-ci diviziya 1941-ci ilin dekabrında Kerç-Feodesiya əməliyyatlarında, 1942-ci ilin avqustunda və sonra Qafqazın müdafiəsində fəal iştirak etmişdi. Diviziyanın əsgərləri Mozdok, Krasnodar şəhərlərinin azad edilməsində, faşistlərin Kuban torpağından qovulmasında, Novorossiysk yaxınlığındakı müdafiə döyüşlərində fərqlənmişlər. Novorossiysk uğrunda vuruşmalarda 77-ci atıcı diviziya düşmənin 5 piyada alayını, 8 mindən artıq canlı qüvvəsini, 18 tankını, 40 minə qədər top və minamyotunu, hərbi texnikasını məhv etmişdi. Diviziyanın 320 döyüşçüsü və komandiri göstərdiyi igidliyə görə orden və medallarla təltif olunmuşlar.

1943-cü ilin noyabr ayının əvvəllərində diviziya Dneprin sol sahili boyunca hücuma keçərək düşmənin 6-cı ordusunun hissələri ilə döyüşdə 50 faşist tankını, 18 artilleriya və minamyot batareyası sıradan çıxarır, çoxlu alman əsgəri və zabiti öldürülür və əsir alınır.

1944-cü ilin aprel ayının 13-də Simferopol faşistlərdən azad olunur. Simferopol uğrunda döyüşdə fərqləndiyi üçün Ali Baş Komandanlıq tərəfindən 77-ci diviziyaya təşəkkür edilir, mayın 24-də fəxri «Simferopol» adı verilir. 613 əsgər və zabit döyüş mükafatları ilə təltif olunur. Onların arasında Həsən Quliyev, Əli Qarayev, Əmir Quliyev, Xudu Mehdiyev, Abdul Rəcəbov, Həsən Abbasov, Əbil Seyidov, Yəhya Bağırov və başqaları da var idi.

Keçmiş 77-ci diviziya 1941-1945-ci illər müharibəsində 10.900 km. döyüş yolu keçmiş, yüzlərlə yaşayış məntəqəsini faşistlərdən azad etmişdi. Düşmənin 30.000 əsgər və zabiti, 938 topu, 859 pulemyotu, 383 minamyotu, 255 tankı, 2.344 avtomaşını məhv edilmiş, 15.000 faşist əsgəri əsir alınmışdı. Diviziyanın 11.237 əsgər və zabiti orden və medallarla təltif

olunmuş, 8 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Qafqaz uğrunda döyüşlər **223-cü diviziya** üçün sınaq olmuşdu. Qafqaz uğrunda müharibənin 3 ayı ərzində 223-cü diviziya 50 yaşayış məntəqəsini azad edərək minlərlə alman əsgər və zabitini məhv etmişdi. Diviziyanın polkları içərisində 1041-ci atıcı polk xüsusi ilə fəal olmuşdu. Polk döyüş rəşadətinə görə 44-cü ordunun hərbi şurasının, sonralar isə Azərbaycan SSR Baş Sovetinin Keçici Qırmızı Bayrağını almışdı.

223-cü diviziya 1942-ci il dekabrın 11-də Naursk qəsəbəsi ətrafında alman qoşünlarına qarşı döyüşdə, 1943-cü il yanvar ayının 3-də Mozdok şəhərinin işğalçılardan azad edilməsində xüsusi məharət göstərmişdi.

223-cü diviziya Pertopavlovsk yaşayış məntəqəsində alman diviziyasını darmadağın edərək 275 nəfəri əsir götürmüş, külli miqdarda silah və sursat ələ keçirmişdi. Diviziya 1943- cü ilin sentyabr-dekabr aylarında 400 km döyüş yolu keçmişdi. 380 əsgər və zabit orden və medallarla təltif olunmuşdu.

Sağsahil Ukraynasının azad edilməsində 223-cü diviziya fəal iştirak etmişdi. 1944-cü ilin əvvəlində Verbloyok ətrafında düşmənin əks hücumunun qarşısı alınarkən düşmənin 900 əsgər və zabiti məhv edilmiş, 10 top, 23 minamyot və 45 pulemyot atəş nöqtəsi dağıdılmışdı. 1944-cü ilin mart-aprel aylarında diviziya digər birləşmələrlə birlikdə Kirovoqrad və Kaxovka şəhərlərini azad edərkən 4.000 hitlerçini, xeyli texnikanı məhv etmişdi, 90- a yaxın kənd və qəsəbə azad edilmişdi.

223-cü diviziya Yassı-Kişinyov əməliyyatlarında da iştirak etmişdi. Diviziyanın 1041-ci alayı B. Mehdiyevin komandanlığı altında Saratov-Qalbena ətrafında döyüşdə 4 hitlerçi general və 2.500 hitlerçini məhv etmiş və əsir götürmüşdü.

1945-ci il avqustun 9-da SSRİ Yaponiyaya müharibə elan edəndə 223-cü Azərbaycan diviziyası Uzaq Şərqə göndərilmişdi. Göstərdikləri əsgəri rəşadətə görə Qara Sarıyev, Aslan Aslanov, Hacı Hacıyev, Niyaz Hüseynov, Hacı Rzayev, Ələkbər Səfərov və başqaları SSRİ Ali Sovetinin 1945-ci il sentyabrın 30-da təsis etdiyi «Yaponiya üzərində qələbəyə görə» medalı ilə təltif olunmuşlar.

Alman faşistləri ilə döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri 45 mindən çox alman faşistini məhv etmiş və 43.800 nəfər əsgər və zabiti əsir almışlar. Diviziyanın döyüşçüləri düşmənin 28 təyyarəsini, 113 tank və döyüş maşınını, 549 səhra topunu, 311 minaatan qurğusunu, 1.152 pulemyotunu, 25 mindən çox avtomaşınını məhv etmişdi. Yüksək döyüş məharətinə və igidliyinə görə 20 nəfər azərbaycanlı döyüşçüyə, o cümlədən A.Vəzirov, M.Vəliyev, A.Quliyev, M.Abdullayev, B.Mirzəyev, M.Cəbiyev, X.Məmmədov və başqalarına Sovet İttifaqı Qəhrəmanı adı verlmişdi.

**416-cı** diviziya müharibənin qızğın çağında təşkil olunmuşdu. Diviziya Qafqaz dağlarından Berlinədək döyüş yolu keçmişdi. 1943-cü ilin avqust ayının 30-da Rostov vilayətinin və Taqanroq şəhərinin azad edilməsindəki xidmətlərinə görə diviziyaya «Taqanroq» adı verilmişdi. Taqanroq ətrafında vuruşmalar zamanı düşmənin 10.000 nəfərə kimi əsgər və zabiti məhv edilmiş, ərzaqla dolu 150 maşın ələ keçirilmişdi.

416-cı diviziyanın döyüşçülərindən Ağaşirin Cəfərov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, İslam Səfərli üçüncü dərəcəli «Şərəf nişanı» ordeni ilə təltif olunmuşdu. Odessa uğrunda döyüşlərdə əskərlərdən Ç.Ələkbərov, A.Abuzərov və A.Paksitkin fərqlənmişlər. Diviziya qələbəyə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdu. Sonralar diviziyanın döyüşçüləri Dnepr çayının keçilməsində, Yassı-Kişinyov əməliy yatlarında mərdlik nümunələri göstərmişlər. Diviziyanın həyatında qadınlar da böyük rol oynamışlar. Bunlardan R.Babayeva, B.Mirca vadova, R.Qasımzadə, S.Şəfiyeva, R.Əhmədova və başqalarının qəhrəmanlığı xalqımız tərəfindən unudulmamışdı.

1945-ci il fevralın 1-də diviziya Ali Baş Komandanlığın əmri ilə Varta çayını keçərək Xammer şəhərini azad etmişdi.

Ümumiyyətlə, diviziya 1942-ci il sentyabrın 30-dan 1945-ci ilin mayın 2-dək olan dövrdə düşmənin 22.996 nəfər əsgər və zabitini məhv etmiş, 5.474 nəfəri əsir almış, onlarca tank və zirehli maşını, 195 topu, 31 minamyotu, 210 ağır və 842 yüngül pulem yotu, 4.997 tüfəngi, 683 avtomaşını, 21 zirehli maşını, 800 atəş nöqtəsini və 68 müxtəlif ərzaq, sursat və ləvazimatı sıradan

çıxarmışdı. Diviziya bu müddətdə 17 tank, 297 ədəd müxtəlif tipli top, 189 minamyot, 325 pulemyot, 1.067 yüngül pulemyot, 12.135 ədəd tüfəng, 18.990 avtomat, 818 avtomaşın, 164.873 mərmi, 38 zirehli maşın, 540 vaqon, 240 paravoz və s. texnikanı hərbi qənimət kimi ələ keçirmişdi.

416-cı diviziya Visladan Oderə qədər olan 600 km.-ə yaxın bir məsafəni döyüşə-döyüşə keçərək düşmənin külli miqdarda canlı qüvvəsini və ərzaq ehtiyaitını sıradan çıxarmışdı. 416-cı diviziyanın döyüşçüləri Reyxstaqa yürüşdə iştirak etmişlər. Beləliklə, Mozdokdan başlayan döyüş yolu Berlində başa çatmışdı.

416-cı diviziyanın döyüşçülərindən 8 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 11 nəfər «Lenin» ordeni, 358 nəfər əsgər və zabit «Qırmızı Əmək Bayrağı» ordeni, 3 nəfər 2-ci dərəcəli «Kutuzov» ordeni, 47 nəfər «Aleksandr Nevski» ordeni, 540 nəfər 1-ci dərəcəli «Vətən müharibəsi» ordeni, 1.756 nəfər 2-ci dərəcəli «Vətən müharibəsi» ordeni, 5.205 nəfər «Qızıl Ulduz» nişanı, 5.666 nəfər isə «İgidlik» və «Hərbi xidmətlərinə görə» medalı ilə təltif olunmuşdu. Ümumilikdə, diviziyanın əsgər və zabitlərindən 14.369 nəfər müxtəlif orden və medallara layiq görülmüşlər.

Müharibə dövründə 400 min azərbaycanlı döyüşçünün şücaət və qəhrəmanlığı orden və medallarla qeyd olunmuşdu. 121 nəfərə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir,. Həzi Aslanov bu ada iki dəfə layiq görülmüş, 34 nəfər «Şöhrət» ordeninin hər üç dərəcəsini almışdır.

## 6.4.Arxa cəbhədə

Düşmən təkcə döyüş meydanlarında məğlubiyyətə uğradılmadı. Qələbə arxada-metal, kömür, çörək, yanacaq, xammal uğrunda fədakar mübarizədə təmin edilirdi. Bakı və Volqaboyu nefti, Özbəkistan, Azərbaycan və Tacikistanın pambığı olmasaydı müharibənin qələbə ilə bitməsi sual altında qala bilərdi.

Müharibə başlanan kimi respublikamızın sənaye müəssisələrindən orduya çoxlu sayda fəhlələr səfərbərliyə alındı. Onların yerini gənclər, təcrübəsiz insanlar tutdular. Təkcə Bakı sənaye müəssisələrinə 70 minə qədər gənc işə daxil oldu. Onlar gündə 10-12 saat işləyir, planı artıqlaması ilə yerinə yetirirdilər.

Lvovu və Leninqradı müdafiə etmək çağırışına Azərbaycan fəhlələri əmək nailiyyətləri ilə cavab verdilər. Məsələn, Vorovski adına zavodda işləyən Həsənov Moskvanın müdafiəsi növbəsində dayanaraq cəbhə sifarişini yerinə yetirmək üçün 3 gün 3 gecə iş yerindən çəkilməmişdi. İstehsalatda işləyən 10.026 gəncin 5.019 nəfəri planı 100%, 2.441 nəfəri 200%, 550 nəfəri 300% yerinə yetirmişdi.

Müharibə illərində qara və əlvan metal toplantısı toplamaq üçün 218 ümumrespublika iməciliyi keçirilmiş və bu iməciliklərdə 319.191 adam iştirak etmişdi. Respublikamızda 255.584,8 ton əlvan və qara metal qırıntısı toplanılıb metallurgiya zavodlarına verilmişdi. Bu qırıntıların çəkisi orta hesabla 2.380 tanka və yaxud 3.400 ədəd orta kalibirli topa sərf olunan metala bərabər idi.

1945-ci ilin əvvəlində təkcə Bakı sənaye müəssisələrində və dəmir yol nəqliyyatında 1.257 gənclər briqadası işləyirdi.

Müharibə illərində sənaye sahələrində olduğu kimi kənd təsərrüfatında da fədakarlıq nümunələri göstərildi. Kolxoz və sovxozlarda gənclər briqadalarının sayı artmağa başladı. 1942-ci ildə kənd təsərrüfatında cəmi 1.230 gənclər briqadası olduğu halda, 1943-cü ildə bunların sayı 1.570-ə çatmışdı. 1942-ci ildə respublikada 1.230 manqa, 1943-cü ildə 2.825 manqa, 1945-ci ildə isə 3.165 manqa işləyirdi.

Azərbaycan xalqı öz şəxsi vəsaitini də əsirgəmədi. Müharibə illərində respublikanın şəhər və kənd zəhmətkeşləri müdafiə fonduna öz şəxsi vəsaitlərindən 295 milyon manatdan artıq pul, habelə 15,5 kiloqram qızıl əşyaları və təqribən bir ton gümüş əşyaları verdilər. Tank dəstələri və təyyarə eskadrilyaları yaratmaq üçün əhalidən 215 milyon manat pul toplandı. Respublika zəhmətkeşləri 1942-ci ildə 250 milyon manat müdafiə istiqrazına yazıldılar. 1941-1943-cü illərdə cəbhəyə əvəzsiz olaraq 160,1 min müxtəlif paltar, 125 vaqon isti paltar, 1,6 milyon müxtəlif əşyalar, 350 min bağlama göndərilmişdi.

Azərbaycan xalqı bu gün də öz keçmişi, xüsusi ilə müharibədəki iştirakı dövrü ilə fəxr edir. Ona görə yox ki, Azərbaycan övladları ön cəbhədə qəhrəmanlıq göstərmiş, arxa cəbhə zəhmətkeşləri ön cəbhəni ərzaq məhsulları, yanacaq və digər

məhsullarla, silah və sursatla təmin etmişdi. Ona görə ki, ümummilli lider H.Əliyevin dediyi kimi, müharibə illərində Azərbaycan xalqı göstərdi ki, bu ölkə müstəqil yaşamağa, dünya xalqları birliyində layiqli yer tutmağa hazırdır. Belə də oldu, müharibədəki qələbədən sonra Azərbaycan xalqı özünün siyasi, iqtisadi və mənəvi gücünü daha da artırdı, 1991-ci il oktyabr ayının 18-də müstəqilliyini elan etdi.

## 6.5. Milli-azadlıq hərəkatı

Müharibə illərində ölkənin gəncləri arasında azadfikirlilik artmağa başlayır. Müharibənin ilk illərində Daxili İşlər Nazirliyi ilk antisovet təşkilatını ləğv edir. Bü təşkilatın üzvləri İsgəndərli Süleyman Əli Abbas oğlu, Tağıyev Ələskər Səttar oğlu, Mustafayev Çingiz Seyfulla oğlu, Rzayev Məmmədhüseyn Həbib oğlu, Ağayev Hüseynağa Mirqasım oğlu, Məmmədov Ağa Ələskər Rza oğlu, Rzayev Saleh Əbdühüseyn oğlu, Mehdiyev Zaman Zeynal oğlu 1942-ci il sentyabr ayının 18-də həbs edilirlər. «**İldırım**» adlı təşkilatın üzvləri olan bu gənclər «antisovet fəaliyyətdə» təqsirləndirilərək müstəntiq Aruşanov və onun «həmfikirləri» tərəfindən istintaq edilirlər. Gənclərin həbs olunmasına dair arayışda göstərilirdi ki, onlar Türkiyəyə meylli olaraq Azərbaycanı SSRİ-dən ayırmağı qarşılarına məqsəd qoymuş, əksinqilabı vərəqələr yaymağa hazırlaşmışlar.

«İldırım» təşkilatının üzvlərinin İsgəndərov Süleyman tərəfindən tərtib edilmiş «And»ın mətnində yazılmışdı; «…Vətənin azadlığı uğrunda öz həyatımı, əmlakımı əsirgəməyəcəyəm. Mən ana vətənə And içirəm: yüksək idealın-millətimin şərəfi uğrunda, onun xoşbəxtliyi uğrunda, onun şərəfinə və namusuna toxunmağa cəhd edən düşmənlərə qarşı, son damla qanımadək vətən qəhrəmanlarının sırasında olacaq və lazım gələrsə öz həyatımı bu yüksək milli idealın həyata keçməsi işinə həsr edəcəyəm.

..Mən xain çıxaramsa, qoy məzarım qanqallıqlarla örtülü olsun»

Gənclər müstəntiqlər tərəfindən dindirilmələrdə öz «antisovet fəaliyyətlərini etiraf edirlər». Aruşanov iş üzrə on dəfə

«üzləşdirmə» aparır, nəhayət 1942-ci il oktyabrın 5-də o, yuxarıda adları çəkilən gənclərin istintaqı ilə əlaqədar həbs edilən Bağırov Həsən, Bağırov Şüca, Mirzəcamalov Tofiq, Rüstəmov Ramiz, Nəsibov Bəsti, Musayev Camal və Həbibzadə Şükür haqqında istintaq materiallarını işdən ayıraraq ayrıca baxılması haqqında qərar qəbul edir.

1942-ci ilin oktyabrın 14-də ittihamnamə tərtib olunur. İttihamnamədə Bakıda Türkiyəyə meylli olan və ali məktəb tələbələri arasında Sovet hökuməti əleyhinə fəal mübarizə aparmağı qarşısına məqsəd qoyan əksinqilabi millətçi təşkilat yarandığı, onun üzvlərinin sovet hökumətinə düşmən münasibət bəslədiyi və Azərbaycanı SSRİ-dən ayırmaqla, müstəqil milli dövlət yaratmaq istəkləri qeyd olunmuşdu.

1942-ci il oktyabrın 31-də saat 11-də 4438 saylı iş üzrə CM-nin 72 m. II h. əsasında ittiham edilənlər: 1922-ci ildə Bakıda anadan olmuş, Azərbaycan Sənaye İnstitutunun (ASİ) 2-ci kurs tələbəsi İsgəndərov (İsgəndərli) Süleyman Əli Abbas oğlunun, 1921-ci ildə Bakıda anadan olmuş, elektrik mantyoru Tağıyev Ələskər Səttar oğlunun, 1923-cü ildə Bakıda anadan olmuş, Bakı dəmiryolu texnikumunun tələbəsi Mustafayev Çingiz Seyfulla oğlunun, 1921-ci ildə Göyçayda anadan olmuş, ADU-nun 3-cü kurs tələbəsi Rzayev Məmmədhüseyn Həbib oğlunun, 1921-ci ildə Bakıda anadan olmuş, ASİ-nin tələbəsi Ağayev Hüseynağa Mirhaşım oğlunun, 1921-ci ildə Bakıda anadan olmuş, ADU-nun 4-cü kurs tələbəsi Məmmədov Ağa Ələskər Rza oğlunun, 1921-ci ildə anadan olmuş, ADU-nun 4-cü kurs tələbəsi Rzayev Saleh Əbdülhüseyn oğlunun, 1923-cü ildə Bakıda anadan olmuş, ASİ-nin 2-ci kurs tələbəsi Mehdiyev Zaman Zeynal oğlunun işlərinə baxılır.

Məhkəmə *İsgəndərov (İsgəndərli) Süleman Əli Abbas oğlunu, Tağıyev Ələskər Səttar oğlunu və Rzayev Məmmədhüseyn Həbib oğlunu* ***güllələnməyə****, Mustafayev Çingiz Seyfulla oğlunu, Ağayev Hüseynağa Mirhaşım oğlunu, Məmmədov Ağa Ələskər Rza oğlunu, Rzayev Saleh Əbdülhüseyn oğlunu, Mehdiyev Zaman Zeynal oğlunu* ***10 il müddətinə*** azadlıqdan məhrum etdi.

1959-cu il oktyabrın 11-də Zaqafqaziya hərbi dairəsinin prokuroru 4438 saylı işə yenidən baxır və iş üzrə qərar çıxarır. Qərarda adları yuxarıda qeyd olunan gənclərin istintaqının düzgün aparılmadığı və onların əsassız ittiham olunduğu göstərilir. 1959-cu il dekabrın 11-də SSRİ Baş Hərbi prokuroru iş haqqında etiraz yazaraq göstərir ki, İsgəndərov, Tağıyev və başqalarının ittihamı özlərinin etirafı üzərində qurulmuş, digər sübutlar əldə olunmamışdır.

1960-cı il yanvarın 5-də Zaqafqaziya hərbi dairəsinin hərbi tribunalı da 227 № li qərarı ilə müəyyən edir ki, ittihamlar gənclərin etirafı əsasında qurulmuş, müttəhimlərin ifadələri obyektiv materiallarla təsdiq edilməmişdir. Tribunal SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 avqust 1954-cü il tarixli fərmanını əsas tutaraq 1942-ci il 31 oktyabr tarixli hökmü ləğv edir.

Göründüyü kimi, Azərbaycan xalqının cəlladı olan Aruşanov və başqaları, «sapı özümüzdən olanlar» səkkiz gəncin həyatını saxta ittihamlarla məhv etmişlər.

Bununla iş bitmir. DTK yeni «antisovet təşkilatlar» axtarışını davam etdiri. Yeni təşkilat 4 ildən sonra «aşkara çıxarılır».

Hadisə belə baş verir. 1944-cü ilin may ayında Azərbaycan Yazıçılar İttifaqının sədri şair Səməd Vurğunun adına «Dönməzlər» imzası ilə məktub daxil olur. Məktubun müəllifləri S.Vurğuna böyük ehtiramlarını bildirməklə bərabər, Azərbaycan xalqının milli hüquqlarından istifadə edə bilməməsindən, təhsil almaq istəyən uşaqların imkanlarının olmamasından, ali məktəblərdə tədris edilən elmi kitabların dilimizə tərcümə edilməməsindən, cəbhədə ruslarla birlikdə çalışan azərbaycan lıların milli dövlət dilinə malik olmamalarından, ədəbiyyatımızın süniləşdirilməsindən və çərçivəyə salınmasından narahatlıqlarını ifadə edir, Azərbaycan xalqının istiqlaliyyəti uğrunda sona qədər mübarizə edəcəklərinə and içdiklərini bildirirlər. Məktubun sonunda böyük şairdən xahiş edirlər ki, onların fikirləri ilə həmrəy olarsa Azərbaycanın

şərəfinə «Vətən ulduzları» adlı bir şeir yazsın. Təbii ki, S.Vurğun bu məktubu üzə çıxara bilməzdi.

«Dönməzlər» in 11 may 1944-cü il tarixli məktubu məlum olmaan səbəblərdən 1948-ci ilin sentyabrında DTK-nin əmək daşlarının əlinə keçir. Ekspertlər müəyyən edirlər ki, məktubu APİ-nin aspirantı İsmixan Məmməd oğlu Rəhimov yazmışdır. Beləliklə, 1948-ci il sentyabr ayının 26-da İ.Rəhimov həbs olunur. İstintaq nəticəsində özlərinə «İldırım» adını götürmüş təşkilatın daha bir neçə üzvü həbs edilir. Nəhayət, APİ-nin aspirantı İsmixan Məmməd oğlu Rəhimov, ADU-nun aspirantları Gülhüseyn Hüseyn oğlu Abdullayev, Azər Abdulxalıq oğlu Ələsgərov, ADU-nun Şərq fakültəsinin V kurs tələbəsi Hacı Həbib oğlu Zeynalov, ASİ-nin V kurs tələbəsi Kamal Əlibaxış oğlu Əiyev, ASİ-nin tələbəsi Aydın Məcid oğlu Vahidov, APİ-nin aspirantı Musa Mirməmməd oğlu Abdullayev, AXTİ-nin tələbəsi Kamil Əbdülbağı oğlu Rzayevin istintaqı başa çatır və İttihamnamə tərtib olunur. 1949-cu il martın 21-22-də Muradovun sədrliyi, prokuror Ramazanov, vəkillər Hacıyev, Davidov və Həsənovun iştirakı ilə məhkəmə iclası keçirilir. Prokuror Ramazanov 5 il seçki hüquqları alınmaq və əmlakları 100 % müsadirə olunmaqla *İsmixan Rəhimova, Gülhüseyn Abdullayevə, Hacı Zeynalova* ***25 il, Kamal*** *Əliyevə, Aydın Vahidova, Azər Ələsgərova və Musa Abdullayevə* ***10 il*** azadlıqdan məhrum etmə cəzası istəyir. Məhkəmə bu istəyi təmin edir.

1953-cü il martın 27-də SSRİ Ali Sovetinin «Amnistiya haqqında» fərmanı dərc olunur. 1955-ci ilin əvvəllərində məhkumların qohumları şikayət ərizələri yazaraq onların əfv olunmalarını xahiş edirlər. 1955-ci il fevralın 14-də işi araşdıran Azərbaycan SSR-in xüsusi işlər üzrə prokurorunun müavini müttəhimlərin düzgün ittiham olunmaları barədə qərar çıxarır. Lakin qərarda, həmçinin qeyd edilir ki, «İldırım» adlı təşkilatın üzvləri heç bir praktiki iş apar madıqları üçün onların gəncliyi nəzərə alınaraq İ.Rəhimov, G. Abdullayev və H.Zeynalovun məhkumluğunun müddətnin 25 ildən 10 ilə, K.Əliyev,

A.Vahidov, A.Ələsgərov, M.Abdullayev, və K.Rzayevin cəzaları isə 5 ilə endirilir. 1945-ci ilin may ayında onlar həbs yerlərindən azad edilir və üzərlərindən məhkumluq götürülür.

1956-cı il iyulun 22-də SSRİ Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyası İsmixan Rəhimovun, Gülhüseyn Abdullayevin, Hacı Zeynalovun, Azər Ələsgərovun, Musa Abdullayevin, Kamal Əliyevin və Kamil Rzayevin işlərində cinayət tərkibi olmadığı üçün Azərbaycan SSR Ali Məhkəməsinin 1949-cu il 21-22 mart tarixli hökmünü və 1955-ci il 9 aprel tarixli qərarını ləğv edir, iş xətm olunur.

### 6.6. Azərbaycan mühacirəti müharibə illərində

Müharibə başlayanda M.Ə.Rəsulzadə və Hilal Münşi Berlində Milli Azərbaycan Komitəsi yaradırlar. Komitə Azər- baycan legionlarının formalaşdırılmasında mühüm rol oynayır.

Sənədlərlə tanışlıq göstərir ki, Almaniyada hərbi əsirlərdən istifadə əsasən 2 formada həyata keçirilirdi. Onların içərisində kömək etmək istəyənlər - «**Xivi**»-lər silahlandırılmışdı. «Xivi» lər kimlər idi? Bu söz almanca «xilsivillige» sözündən götürülmüşdür. 1943-cü ilin əvvəllərində onların sayı **400 minədək** idi. Onlar Şərq qoşunlarının hərbi «könüllüləri» hesab olunurdu. Bəzən onların tərkibinə işğal olunmuş ərazilərdən əsir götürülmüş mülki əhali də daxil edilirdi. Qoşunların harada yerləşməsindən asılı olaraq onlardan müxtəlif işlərdə-sürücü, sanitar, mətbəxt işçisi, silah və sursat daşıyan, minalayan, müdafiə zabiti, körpü, yol, aerodrom tikintisində, səngər qazılması işlərində istifadə olunurdu. «Xivi» lərin tərkibində tibb və təsərrüfat işlərini yerinə yetirən qadınlar da var idi. Polkovnik Qraytaq-Lorinqofenin hazırladığı «Əsasnamə 5000» ə görə «xivi» lər and içdikdən sonra hissədə alman əsgərinə bərabər tutulurdu. «Xivi» lər alman forması geyinirdilər.

Könüllülərdən ibarət ikinci böyük qrup isə döyüş hissələrində idi. Onlar Hitlerin sanksiyasına əsasən, Orta Asiya, Qafqaz millətindən olanlardan, Volqaboyu, Ural və Krım xalqlarından formalaşdırılmışdı.



Azərbaycan legionerlərindən
Şəkildəkilər:yuxarıda - solda mayor İsrafil bəy İsrafilbəyli
sağda A.Atamalıbəyov;
aşağıda - solda A.Babayev,
Sağda Balakişiyev

Alman tarixçisi İ.Hoff manın fikrinə görə müharibə illərində alman ordu sunda 90 batalyonformalaşdırılmışdı. Onlar dan 26-ı Türküstan (20,5 min nəfər), 15-i Azərbaycan (36,6 min nəfər), 13-ü gürcü (19 min nəfər), 12-i erməni (7 min nəfər), 9-u Şimali Qafqaz (15 min nəfər), 8-i Krım-tatarları (10 min nəfər), 7-si Volqa tatarları - Volqaboyu və Ural (12,5 min nəfər) batalyonu idi. 1942-ci ildə «A» ordu qrupunun fəaliyyət zonasında kalmık kavaler korpusu (5 min nəfər) formalaşdırılmışdı**.** Hərbi əsirlərdən təşkil olunan milli legionlar Şərq cəbhəsindən uzaqlara - Fransa, Belçika, Hollandiya, İtaliya və Balkan ölkələrinə göndərilərək milli əlamətlərə görə yerləşdirilirdi.

Vermaxtın döyüş hissələrinin tərkibində kadr batalyonları da təşkil edilmişdi. Onların 15 - i ehtiyat, tikinti və nəqliyyat batal yonu, 202 - si ayrıca rota idi. Rotaların 111-i Türküstan, 30-u gürcü, 22-i erməni, 21-i Azərbaycan, 15-i tatar və 3-ü Şimali Qafqaz xalqlarından təşkil edilmişdi. Beləliklə, əsas hissəsini sovet əsirləri təşkil edən türk və Qafqaz xalqlarından formalaşan hərbi hissə lərdəki adamların ümumi sayı 150 min nəfərə yaxın idi.

Məlum olduğu kimi, hərbi əsirlərin üzləşdiyi ilk qurum SD təşkilatı idi. Təşkilatda hərbi əsirlər kateqoriyalara bölünür və onların bir qismi «Şərqli işçi» adlandırılırdı və bu qrupu məhv edirdilər. Məhv edilənlər içərisində müsəlmanlar da var idi.

Onlar sünnət olduqlarından yəhudilərlə eyniləşdirilir və güllələnirdilər. Lakin sonralar sünnət haqqında məlumat verildikdən sonra qətl halları azaldı.

Sənədlərlə tanışlıq göstərir ki, türk-tatar əsirlərindən milli legionlar yaratmaq ideyası türk generalları Nuru paşa və general Əskilət tərəfindən irəli sürülmüşdü. İlk vaxtlar bu təklif Hitler tərəfindən qəbul edilməsə də, sonralar bu işə önəm verilməyə, mühacir liderlərdən istifadə edilməyə başlandı. Azərbaycanlılardan legi onlar yaradılmasında M.Ə.Rəsulzadə xüsusi fəallıq göstərdi. O sovet əsirləri, xüsusən azərbaycanlılar arasında iş aparır, onlardan legionlar yaradılmasına səy göstərirdi. Mühacir liderlərinin Almaniya hökuməti ilə danışıqlarının nəticəsiz olmasından narahat olan M.Ə.Rəsulzadə şimali qafqazlılar, gürcülər və azərbaycanlılar arasında müstəqillik uğrunda mübarizə ideyalarının yayılmasına önəm verirdi. Əlbəttə, bu ideya almanlar tərəfindən rəğbətlə qarşılanmırdı. Alman hökuməti fikirləşirdi ki, Sovet İttifaqının məğlubiyyətindən sonra keçmiş Rusiya imperiyasının böyük ərazisi başqa dövlətlərin yox, Almaniyanın təsiri altına düşməlidir. Məsələn, Berqman düşünürdü ki, yalnız Türküstanda Türkiyənin müttəfiqliyi ilə türk dövləti yaratmaq olar. Belə olduqda M.Ə.Rəsulzadə və Şimali Qafqazlı Səid Şamil Almaniyadan çıxıb getmək məcburiyyətində qaldılar. Lakin fon Medelin M.Ə.Rəsulzadəni saxlaması, sonda milli komissiyonların (komitələrin) təşkili ilə nəticələndi. Komitənin yaradılmasını azərbaycanlılar sevinclə qarşıladılar. Bu münasibətlə Ə.Düdənginski M.Ə.Rəsulzadəyə məktub da göndərmişdi. Lakin Hitleri heç bir milli komitə maraqlandırmadığından və M.Ə.Rəsulzadə ilə danışıqlar fayda vermə diyindən almanlar X.Xasməmmədov qrupu ilə danışığa başladılar. Bu qrupda Fuad Əmircan, Abas bəy Atamalıbəyov və Ə.Düdənginski fəaliyyət göstərirdi. Nəhayət, M.Ə.Rəsulzadə 1943-cü il avqustun 5-də Berlini tərk etdi. Ə.Düdənginskinin fəallığı ilə «Azərbaycan Milli Birlik Məclisi» yaradıldı. Onun tərkibinə Ə.Düdənginski, Abasqulu Abasov, Vəli Əkbərov, İslam Əliyev, Abas bəy Atamalıbəyov, Rəhim Babayev, Ceyhun

Hacıbəyli, Hacı Hacınski, Cahangir bəy Balakişiyev, Cahangir Kazımbəyov, Cəlil İsgəndərli, İsrafil bəy İsrafilov, Ənvər Qazıyev, Məcid Qarsalanlı (Musayev), Nüşi bəy Zülqədərov, Cabbar Məmmədov, Səbzəli Məmmədov, Fərman Məmmədov, Oruc Süleymanov, Zahid Xoyski, Fuad bəy Əmircan daxil oldular.

Hitlerin göstərişi ilə əsir düşmüş Qafqaz müsəlmanlarından «Aslan», «Dönməz», «Qorxmaz», «Vətən» və b. döyüş dəstələri təşkil edilmişdi. 1942 - ci ilin sonlarında Şərq cəbhəsində olan hər bir alman diviziyasının təkibində bir, yaxud iki şərq bölüyü, taburu vardı. Şərq xalqlarının çoxu standart nömrələr daşıyırdı: 601-621; 626-636; 632-650; 653-654; 661-669; 974 və s. Digər batalyonların isə orduda (510, 516, 517,561, 581,582), korpuslarda (406,412) və diviziyalarda (209, 229, 266, 281) öz nömrələri vardı. Alman komandanlığının məlumatına görə, 1943-cü ilin iyun ayına 78 şərq taburu, 1 alay və 122 ayrıca bölük yaradılmışdı ki, burada adamların sayı 80 min nəfər idi.

1941-ci ilin oktyabr-noyabrından başlayaraq 1942-ci ilin martında «Berqman» (Dağlı) Qafqaz taburu yaradılır. Taburdakı əsgərlərin ümumi sayı 1.200 nəfərə çatırdı. Onlardan 900 nəfəri qafqazlı, 300-ü isə alman idi. Taburun komandiri - rəhbəri vəzifəsinə Köniqsberq Universitetinin professoru, «Şərq məsələləri» üzrə nüfuzlu mütəxəssis sayılan ober-leytenant T.Oberlander təyin edilmişdi.

1942-ci ilin yanvarında 1-ci Türküstan «Legionu» formalaşdırıldı. Bu taburda müəyyən sayda azərbaycanlılar da var idi. Taburun yaradıcısı və birinci komandiri mayor A.Mayer-Mader idi. Tabur müxtəlif döyüşlərdə iştirak etmiş, M.Maderin ölümündən sonra alay zəifləmişdi.




**Legionerlərin fərqlənmə nişanları**

Türk və Qafqaz xalqlarına məxsus hərbi əsirlərin sayının artması səbəbli Şərq legionlarını formalaşdırma mərkəzi yaradılır. Diviziya formalaşdırıldıqdan sonra, 1943-cü ilin sentyabrında əvvəl Sloveniyaya, sonra İtaliyaya göndərilir.

İlk vaxtlar legionlara xaki rəngli alman hərbi forması və dərəcə nişanları vermək nəzərdə tutulurdu. Şərq legionlarında hərbi rütbələr 1942-ci il 2 iyun tarixli 1380 №li əmrə müvafiq verilirdi və daşınan vəzifələrə müvafiq olaraq 8 rütbə müəyyənləşdirilmişdi. Zabit vəzifəsini göstərən rütbələr paqonda nazik gümüşü xətlə verilirdi. Yaxalığın rəngi də müxtəlif idi. Açıq-göy-türküstanlılara, yaşıl qafqazlılara, moruğu gürcülərə, boz rəng isə ermənilərə aid idi. Azərbaycan legionlarının əsas bazaları Polşa və Almaniya ərazisində yerləşirdi. legio nlar sonralar Fransanın Rodes şəhərinə köçürüldülər.




**Legionerlərin qol sarğıları, medalı və rütbə nişanları**

1944-cü ildə Azər baycan legtonerlərindən Ə. Düdənginskinin, İ.İsrafilovun, R.Babayevin, T.Məmməd və Ə.Qazıyevin fəallığı ilə «Frtibat» Qərargahının Paris filialı yaradıldı. Fransa almanlardan azad olunduqdan sonra (1944) filial buraxıldı. Legionların bir hissəsi məhv edildi.

Lakin Azərbaycanın müstəqilliyinin tanınmasında Almaniya ilə yaranan fikir ayrılıqları səbəbli M.Ə.Rəsulzadənin Berlini tərk etməsindən sonra Almaniya silahlı qüvvələrinin Baş komandanlığı milli legionlar yaranmağa başlayır. Azərbaycan mühacirətinin nümayəndəsi Məmmədtuğay Seyidəliyev və hərbi əsirlərin nümayəndəsi Beydulla Babayev tərəfindən Polşa ərazisində Azərbaycan legionu təşkil olunur. 1943-cü ilin sonunda bu legion d Fransanın Rodes şəhərinə köçürülür.

1943-cü ilin noyabrın 6-9-da Berlində birinci Milli Azərbaycan Birliyinin qurultayı keçirilir. Qurultayı 1920-ci il Gəncə üsyanının başçılarından biri olmuş Cahangir Kazımbəyov açmış, Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginski məruzə etmişdi. Qurultay 5 maddədən ibarət qətnamə qəbul etmişdi. Qurultay mühacirlərin vahid təşkilatda birləşməsinə və birgə fəaliyyət göstərməsinə kömək etmişdi.

Bu dövrdə Münxendə gizli yaşayan M.Ə.Rəsulzadə «Azər baycan Demokratik Birliyi» təşkilatını yaradır və bu təşkilat hərbi əsirlərin müxtəlif ölkələrdə yerləşməsi ilə məşğul olur.

Müharibədən sonra Ə.Fətəlibəyli başda olmaqla yeni mühacirət dalğası yaranır. Onun 1943-cü ildə yaratdığı «Azərbaycan Milli Birlik Məclisi» adlı siyasi təşkilat müharibədən sonra Azərbaycan Milli Mərkəzinə və «Müsavat»ın xarici bürosuna müxalifətdə dayanır.

Milli Birlik Məclisi rus mühacirlərinin Visbaden konfransında (1951) iştirak etmiş, müştərək Bəyannamə imzalamışdı. Qafqaz, o cümlədən Azərbaycan, Türküstan və Şərqi Avropa siyasi mühacirləri Visbaden anlaşmasını beynəlxalq səviyyədə boykot etmək məqsədilə 1951-ci il noyabrın 30-da Münxendə konfrans çağıraraq qərar qəbul edirlər. Qərarı Azərbaycan Milli Mərkəzi adından Məhəmməd Kəngərli imzalayır. 1952-ci ilin

oktyabrında 4 rus, 5 qeyri rus mühacir təşkilatının nümayəndələri yenidən konfrans keçirərək Bolşevizm Əleyhidarlarının Əlaqələndirmə Mərkəzini yaradırlar. Mərkəzin yaradılması barədə razılaşmanı Milli Birlik Məclisi adındandan C.Hacıbəyli, Ə.Şeyxülislamov və polkovnik C.Kazımbəyov imzalayırlar. Lakin bütün bunlardan sonra, hətta yeni təşkilatların yaradılmasına baxmayaraq mühacirlər arasında ixtilaflar səngimir. 50-ci illərdə mühacirlərin bir hissəsi qətlə yetirilir. Qətlə yetirilənlər arasında Ə.Fətəlibəyli-Düdənginski də olmuşdu.

**Əbdürrəhman Əli oğlu Fətəlibəyli-Düdənginski** – 1908-ci ildə Naxçıvanın Şərur rayonunun Düdəngə kəndində anadan olub. Atası Əli bəy çar Rusiyası ordusunda zabit olub, 1910-cu ildə zəhərlənib öldürülüb.


**Ə.Fətəlibəyli**

Ə.Fətəlibəyli gənc yaşlarından hərbi xidmətə getmiş, 30-cu illərdə Moskvada Hərbi Akademiyada təhsil almışdı. 1937-ci ildə Bakıda Leyla xanım Qazıyeva ilə ailə həyatı qurmuşdu. Ə.Fətəlibəyli 1939-cu ildə Finlandiya müharibəsində iştirak etmiş və «Qırmızı Ulduz» ordeni ilə təltif olunmuşdu. 1940-cı ildə sovet qoşunları Pribaltikanı işğal edərkən o, Leninqrada yerləşən hərbi ştaba göndərilmiş və orada almanlara əsir düşmüşdür. Almaniyada həbsdə olarkən Ə.Fətəlibəyli əsirlər arasında işi aparır, legionların təşkilində fəallıq göstərir. İkinci Dünya müharibəsindən sonra Ə.Fətəlibəyli İtaliyada və Misirdə olmuş, sonra Türkiyəyə getmiş, nəhayət Almaniyada «Azadlıq» radiosunun Azərbaycan redaksiyasına başçılıq etmişdi. 1954-cü ildə Sovet İttifaqından göndərilmiş *muzdlu qatil Mikayıl İsmayılov tərəfindən qətlə yetirilmişdir.*

Azərbaycan siyasi mühacirlərinin içəri sində Fuad Əmircan da səmərəli fəaliyyət göstərmişdi. **Fuad Əbdüləli oğlu Əmircan**


**Fuad Əmircan**

1911- ci ildə Bakıda anadan olmuşdu. Atası Əbdüləli bəy Əmircan 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə maliyyə naziri işləmişdi. Fuad bəy 1923-cü ildə ailəsi ilə birlikdə Türkiyəyə getmişdi. İstanbulda Qalatasaray məktəbində ilk təhsilini alan Fuad bəy 1932-ci ildə Fransada Siyasi Elmlər İnstitutunda, sonradan isə Almaniyada hüquq təhsili alır. Təhsilini başa vurduqdan sonra bir müddət qəzetlərdə işləyən F.Əmircan 1941-ci ildən «Təsviri-Əfkar» qəzetinin hərbi müxbiri olaraq Almaniyaya gedir və burada Azərbaycan legio nerlərinin problemləri ilə maraqlanır. Almaniyada M.Ə.Rəsulzadə ilə tanış olan F.Əmircan 1943-cü ildə Berlində keçirilən Milli Azərbaycan Qurultayının iştirakçısı olur, Azərbaycan Milli Birlik Məclisinin sədr müavini seçilir.

İkinci Dünya müharibəsindən sonra F.Əmircan Türkiyənin Avropa Şurasının Parlamentində təmsilçisi təyin edilir, 1955-1961-ci illərdə Almaniyanın Bonn şəhərində Türkiyə səfirliyinin mətbuat atteşesi vəzifəsində işləyir.

1961-ci ildə Türkiyəyə qayıdan F.Əmircan Türkiyə Mətbuat İşləri Komitəsində direktor müavini işləyir, 70-ci illərdə «Amerikanın səsi» radiosunun Türkiyə şöbəsinin direktoru olur. Nəhayət, F.Əmircan 1993-cu ildə 70 il ayrı düşdüyü Azərbaycana gəlir. F.Əmircan 1995-ci ildə Bonn şəhərində vəfat etmişdi.

1950-ci illərin sonlarından başlayaraq, Azərbaycan müha cirətinin yaratdıqları siyasi və qeyri-siyasi təşkilatların əksəriyyəti öz fəaliyyətini dayandırır. «Müsavat» partiyası və Azərbaycan Milli Mərkəzi 1949-cu ilin fevralında M.Ə.Rəsulzadənin başçılığı ilə yaradılmış «Azərbaycan Kültür Dərnəyi» nin ətrafında birləşir. Ankarada fəaliyyət göstərən bu təşkilatlardan başqa, İstanbulda İldəniz Qurtulanın rəhbərlik etdiyi «Azərbaycan Gənclik Dərnəyi» və Əhməd Cəfər oğlunun yaratdığı «Azərbaycan Kültürünü Tanıtma Dərnəyi» də fəaliyyət göstərirdi.

Azərbaycan siyasi mühacirəti SSRİ-dən olan digər mühacir təşkilatlarla əlaqədə fəaliyyət göstərərək dünya birliyinin

diqqətini Azərbaycanın problemlərinə cəlb etməyə çalışırdı. Siyasi mühacirət Azərbaycan mədəniyyəti ilə əlaqədar tədqiqatlar aparır, mədəni əlaqələrin geniş lənməsinə çalışırdılar.

İkinci dünya savaşı, əsas etibarilə, 1941-1945-ci illər müharibəsi nəticəsində mühacir ömrü yaşamağa məcbur olan Azərbaycanın mühacirət ədəbiyyatının üçüncü mərhələsinin nümayəndələrini Süleyman Təkinər, Abay Dağlı, Əbdürrəhman Fətəlibəyli (Düdənginski), Alazan Baycan, Məhəmməd Kəngərli, Məcid Musazadə və başqaları müxtəlif ədəbi janrlarda əsərlər yazmışlar.



**Məcid Musazadə (Qarsalani) Legionerlərin nəşr etdiyi «Azərbaycan» qəzetinin baş redaktoru**

M.Ə.Rəsulzadənin «Stalinlə ixtilal xatirələri», M.S.Aranın «Hürriyyətə uçan türk», Sürəyya Ağa oğlunun «Bir ömür böylə keçdi», Ə.Yurdsevərin «Azərbaycan istiqlal savaşından xatirələr», Nağı Şeyx zamanlının «Azərbaycan istiqlal mücadiləsi xatirələri» və s. əsərlər nəşr olunmşdu. M.Ə.Rəsulzadənin «Azərbaycan kültür gələnəkləri», «Azərbaycan şairi Nizami», «Çağdaş Azərbaycan tarixi», Ə.Yurdsevərin «Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri», «Azərbaycan dram ədəbiyyatı», «Sabirin Azərbaycan ədəbiyyatındakı yeri», «Azərbaycan şairlərindən Vaqif və Vidadinin yaradıcılığı», «Azərbaycan istiqlal mücadiləsi tarixi», M.B.Məmmədzadənin «Qafqaz tarixində türk Albaniya», Kərim Odərin «Azərbaycan» və başqa ədəbi tənqidi və publisistik tədqiqatları bu dövrün məhsuludur.

Mühacirət ədəbiyyatının bu mərhələsinin görkəmli nümayəndələrindən biri olan Abay Dağlının «Fizuli», «Dədə Qorqud», «Cənc ata», «Sakarya qərargahı», «Malazgirddən Sakaryaya», «Sakaryada 22-ci gün», «Albay», «Natəvan», «Əsir ruhlar», «Okullar» və başqa pyesləri Türkiyə ədəbi-mədəni mühitində maraqla qarşılanmışdır.

## 6.7. Şəxsiyyətə pərəstiş və onun nəticələri

Müharibə illərində qismən səngiyən repressiya tədbirləri müha ribədən sonra yenidən «vüsət alır». Ölkənin HHQ Baş Komandanı, Baş Aviasiya Marşalı A.A.Novikov, müdafiə nazirinin müavini, artilleriya marşalı N.D.Yakovlev, HDD naziri, donanma admiralı N.Q.Kuznetsov, onun müavini, donanma admiralı L.M.Qaller, Baş HHD qərargahının rəisləri, admirallar V.A.Alafuzov və Q.A.Stepanov, mexanikləşdirilmiş korpusun komandiri, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant V.V.Kruyukov və onun arvadı müğənni L.Ruslanova repressiyanın qurbanı oldular. Sovet İttifaqı Qəhrəmanı Q.K. Jukov ordudan kənarlaşdırıldı, aviasiya marşalı S.A.Xudyakov təqib olunaraq 1945-ci il dekabrın 14-də həbs olundu. Yalnız 1954-cü ildə ölümündən sonra ona bəraət verildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1947-ci il 9 iyun tarixli «Dövlət sirli məzmunlu sənədlərin itirilməsi, dövlət sirrini yaymağa görə məsuliyyət haqqında» fərmanından sonra yenidən kütləvi təqiblər başladı.

1942-ci ildə SSRİ-də yaradılan «Yahudi Antifaşit Komitəsi» nin müharibə illərindəki səmərəli fəaliyyətinə baxmayaraq 1946-cı il oktyabrın 12 -də SSRİ DTK ÜİK (b) P MK-ya və SSRİ Nazirlər Sovetinə bu komitənin bəzi üzvlərinin fəaliyyətindəki millətçilik təzahürləri haqqında məktub göndərir. Partiyanın MK-nın xarici əlaqələr komitəsi də bu məsələni araşdırmağa başlayır.

1948-ci il martın 26-da SSRİ DTK yenidən yuxarıda qeyd olunan ünvanlara daha bir məktub göndərir. Məktubda YAK-ın bəzi rəhbərləri haqqında məlumatlar yer almışdı. Cəza orqanları komitənin üzvlərinə divan tutdlar. 1952-ci il mayın 8-dən iyunun 8-dək SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası «Yahudi Antifaşit Komitəsinin işi» üzrə işə baxdı. 15 nəfərdən 13 nəfəri - S.A.Lozovski, İ.S.Refer, İ.S.Yezefaviç, B.A.Smeloviç, L.M.Kviko, R.D. Markiş və b. Güllələnməyə məhkum edildi. Bu iş üzrə daha 110 adam mühakimə olundu. Onlardan 10 nəfərinə güllələnmə, 20 nəfərin hər birinə 25 il, 3 nəfərə 20 il, 11

nəfərə 15 il, 50 nəfərə 10 il, 2 nəfərə 8 il, 1 nəfərə 7 il, 2 nəfərə 5 il, cəmi 1258 il həbs cəzasına verildi.

Müharibədən sonra «Leninqrad işi» deyilən uydurma işlə əlaqədar yüzlərlə partiya, sovet, həmkarlar və komsomol işçisi repressiyaya məruz qaldı. 1951-1952-ci illərdə 50-dən çox adam həbs olundu. Ümumiyyətlə, «Leninqrad işi» ilə əlaqədar 2.000 nəfərə qədər işçi, o cümlədən 150 nəfər partiyavə sovet işçisi işdən çıxarıldı. Doğrudur, Stalinin ölümündən sonra cinayətkarlar V.S.Abakumov, A.Q.Leonov, V.İ.Komarov və M.T.Lixaçov güllələndilər, digərləri isə müxtəlif müddətdlərə azadlıqdan məhrum edildilər. Sonralar 30-40 və 50-ci llərdə repressiyaya məruz qalmış şəxslər haqqında bəraət qərarı çıxarıldı. Azərbaycan SSR üzrə bəraət alanların sayı 5.607 nəfər idi.



**Heydər Hüseynov**

Şəxsiyyətə pərəstiş dövrü repressiyasının qurbanlarından biri də **Heydər Nəcəf oğlu Hüseynov** oldu. O, 1940-1945-ci illərdə SSRİ Elmlər Akademiyasının Azər baycan filialının rəyasət heyəti sədrinin müavini, sonra sədri olmuşdu. Möhkəm iradəli bu insan müharibə illərində antifaşizm mövzusunda məqalələr yazmış, faşizmin irqçilik nəzəriyyəsinin antihumanist məqsəd lərini ifşa etmişdi. Onun «Faşizm elmin düşmənidir», «Faşzm hökmən darmadağın ediləcək», «Tarixi sənəd», «Qəhrəman Qızıl Ordu» və s. məqalələri faşizmin ifşasına həsr olunmuşdu. H.Hüseynov müdafiə fonduna vəsait toplanışında fəal iştirak etmiş, Stalin 1943-cü il 27 aprel teleqramı ilə ona təşəkkür etmişdi. H.Hüseynovun rəhbərlik etdiyi ictimai elmlər sahəsi müharibə illərində böyük nailiyyətlər qazanmışdı. Onun redaksi yası ilə Dillər İnstitutu rusca-azrbaycanca lüğətin IV cildinin tərtibini başa çatdırmış və bu iş 1948-ci ildə Dövlət mükafatına layiq görülmüşdü. H.Hüseynov mükafat aldığı pulu uşaq evinə vermişdi.

1943-1944-cü illərdə H.Hüseynovun redaksiyası ilə «Azərbaycan ədəbiyyatı tarixi» nin I və II cildləri çapdan çıx mışdı. İlk dəfə olaraq Azərbaycanca-rusca frazeloji lüğət, Azər baycan- rus –fars lüğəti çap olunmuşdu. 1945-ci ildə Tarix İnstitutu .Hüseynovun redaktorluğu ilə «Azərbaycan tarixinin qısa oçerki»ni buraxışdı.

Lakin H.Hüseynovun müharibə illərindəki xidmətləri lazımınca qiymətləndirilmədi. Belə ki, 1949-cu ildə onun «XIX əsr Azərbycanda ictimai və fəlsəfi fikir tarixindən» adlı kitabı çap olunur. Əsərdə Şamilin başçılığı altında aparılan mübarizənin təsviri M.C.Bağırovun xoşuna gəlmir. O, H.Hüseynovun kitabına qarşı «Müridizm və Şamilin hərəkatının xarakteri haqqında məsələyə dair» məqalə yazır (daha doğrusu yazdırır). M.C.Bağırov məqaləsində məsələləri yanlış izah edərək Şamili ingilis casusu adlandırır və H.Hüseynova iftiralar yağdırır.

H.Hüseynov M.C.Bağırovun göstərişi ilə bütün vəzifə lərdən azad edilir. Azərbaycan SSR EA-nın həqiqi üzvlüyündən çıxarılır. Stalin mükafatı geri alınır. Təhqir və tənqidlərə dözməyən alim sonda intihar edir.

İş təkcə bununla bitmir. ADR xalqa zidd rejim kimi təqdim edilir. «Kitabi Dədə-Qorqud» feodal-xan eposu adlandırılır. Şərqşünas-alim M.M.Kazımbəy «çarizmin sadiq qulu» olmaqda, yazıçı Mirzə İbrahimov, prof. A.O.Makovelski elmi-siyasi sayıqlığını itirməkdə ittiham olunurlar. Akademik M.A.Dadaşzadəyə «Türkiyə casusu» damğası vurulur. S.Vurğun AK (b) P-nin XIX qurultayında kəskin tənqid edilir. M.C.Bağırov «Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan» deyə onu hədələyir. Qurultayda bir çox ziyalıların ünvanına təhqiramiz sözlər söylənilir. İş o yerə çatır ki, böyük bəstəkar Ü. Hacıbəyov 63 yaşında kommunist partiyası sıralarına daxil olmaq üçün ərizə verməyə məcbur edilir. Bütün bunlar, Azərbaycan ziyalılarının müstəqillik uğrunda haqq səslərinin boğulması idi.

## 6.8.1945 - 1946-cı illərdə Cənubi Azərbaycanda milli - azadlıq hərəkatı

İkinci Dünya müharibəsi illərində və müharibədən sonra İranda milli-azadlıq hərəkatı qüvvətləndi. 1941-ci ilin avqust-sentyabr aylarında baş verən «Şəhrivər hadisələri» İran xalqının milli-azadlıq mübarizəsində yeni mərhələnin başlanğıcı üçün təkan oldu.

1941-ci il avqustun 25-də səhər Sovet ordu hissələri Sovet-İran müqaviləsinin VI maddəsinə əsasən İran sərhəddini keçib, Ərdəbil və Təbriz istiqamətində 40 km. irəlilədilər. Avqustun 26-da sovet ordu hissələri Təbriz və Ərdəbilə, 30-da Zəncana, 31-də Qəzvinə, ingilis qoşunları isə həmin vaxtda İranın cənub-şərqindən İrana daxil oldular.

Müharibə illərində İranda, o cümlədən Cənubi Azərbaycanda vəziyyət mürəkkəb olaraq qalırdı. Hakimiyyət uğrunda mübarizə gedirdi. II Dünya müharibəsinin axırlarınadək İran hökuməti 15 dəfə yenidən təşkil olunmuşdu.

1941-ci ildə İranda, o cümlədən Cənubi Azərbaycanda başlanmış hərəkat müharibə qurtardıqdan sonra yeni mərhələyə qədəm qoydu.

Müharibədən sonra İranda başlanan demokratik hərəkatın fərqləndirici xüsusiyyəti onda idi ki, keçmişlə müqayisədə demo kratik hərəkata həmkarlar ittifaqları, siyasi-mədəni təşkilatlar daha geniş cəlb olunmuşdular.

İran irticası, xüsusən Azərbaycana qaçmış mülkədar feodalların öz hökmranlığını bərpa etmək cəhdi demokratik hərəkatın yüksəlişinə təkan verdi. İrticaçıların silahlı quldur dəstələri 1945-ci ilin yayı-payızın əvvələrində kütləvi təqib və terrora başladılar. Buna cavab olaraq Cənubi Azərbaycanın hər yerində kortəbii özünümüdafiə dəstələri yaradılmağa başlandı. Belə bir vəziyyət ümumdemokratik hərəkata başçılıq etməyə qadir siyasi partiyanın olmasını gündəmə gətirdi. Bu səbəbdən də, 1945-ci il sentyabrın 3- də S.C.Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Demokratik Partiyasının yaranması və sentyabrın

7- də İXP-nın Azərbaycan təşkilatının ona birləşdirilməsi Azərbaycan zəhmətkeşləri tərə findən rəğbətlə qarşılandı.

1945-ci il oktyabrın 2-də ADP-nin birinci qurultayı çaırıldı. Noyabrda Cənubi Azərbaycanın bütün şəhərlərində Azərbaycan Xalq Konqresinə nümayəndələr seçilməsi üzrə kampaniya keçirildi. Noyabrın 20-21-də Təbrizdə keçirilmiş iclasda Xalq Konqresi özünü Müəssislər Məclisi elan etdi. Milli Məclisdə Heyət seçildi. MM qəbul edilmiş, İran şahı Məhəmməd Rza Pəhləvi, məclisin sədri Təbatəban və baş nazir İbrahim Həkimiyə göndə rilmiş Bəyannamədə Azərbaycana İran daxilində müxtariyyat verilməsi tələb olundu.

1945-ci il noyabrın 27-dən dekabrın 1-dək məclisə ümumi seçkilər keçirildi. Seçkilərdə ilk dəfə qadınlar da iştirak etdilər. Milli Məclisə 101 deputat seçildi.

Məclis dekabrın 12-də açıldı. Mili Məclis həmin gün Azərbaycanın Milli Hökumətinin yarandığını elan etdi. Azərbaycan hökumətinin təşkili MM tərəfindən ADP rəhbəri S.C.Pişəvəriyə tapşırıldı. 11 nəfərdən ibarət hökumətin tərkibi təsdiq edildi. Hökumət proqramı qəbul edildi. Şəmsi tarixi ilə 1324-cü il azər ayının 21-nə təsadüf etdiyi üçün həmin gün (12 dekabr) «**21 Azər**» hərəkatı adını aldı.

Hökumətin tərkibi aşağıdakı kimi idi :

**Baş nazir-Seyid Cəfər Pişəvəri**

Daxili işlər naziri-Dr. Salamullah Cavid

Xalq orduları naziri - Cəfər Kaviyan

Ziraət, kənd təsərrüfatı naziri-Dr. Məhtaş

Maarif naziri-Məhəmməd Biriya

Səhiyyə naziri-Dr. Örəngi

Maliyyə naziri-Qulam Rza İlhami

Ədliyyə naziri-Yusif Əzima

Poçt, telefon və teleqraf naziri - Kəbiri

Ticarət və iqtisad naziri-Rza Rəsuli

Baş nazir **Pişəvəri Seyid Cəfər Mir Cavad oğlu Cavadzadə, Xalxali (1892-1947)** İranın Xalxal mahalının Zaviyyə kəndində



**S.C.Pişəvəri**

anadan olmuşdu. İranda, xüsusi ilə Cənubi Azərbaycanda inqilabi hərəkatın görkəmli xadimlərindən olan Pişəvəri ilk təhsilini kənddə almış, 12 yaşında ailəsi ilə birlikdə Bakıya-Bülbülə kəndinə köçmüşdü. 1913-cü ildə Xırdalan kəndində məktəb açan Pişəvəri 1918-ci ildə «Ədalət» partiyasına daxil olmuş, N.Nərimanovla sıx əməkdaşlıq etmişdi. O, 1919-cu ildə İran «Ədalət» partiyası Mərkəzi Komitəsinin üzvü seçilmiş, partiyanın orqanı olan «Hürriyyət» qəzetinin məsul redaktoru təyin olunmuşdu. Bununla yanaşı, «Azərbaycan füqərası», «Zəhmət sədası», «Füqəra sədası», «Bakı fəhlə konfransının əxbarı» qəzetlərində məqalələrlə çıxış etmişdi.

1918-1920- ci illərdə İranın bir sıra şəhərlərində «Ədalət» partiyasının yerli təşkilatlarını yaradan Pişəvəri irtica və imperializm, müstəmləkəçilik və despotizm əleyhinə mübarizədə İran xalqının ittifaqının təmin olunmasını başlıca şərt hesab edirdi. 1920-ci ildən eyni zamanda «Yoldaş» jurnalının redaktoru olan Pişəvəri Gilan Respublikası hökumətinin sədri Kiçik xanla danışıqlar aparmaq üçün 1920-ci il mayın 23-də «Ədalət» partiyasının Rəştə göndərilən nümayəndə heyətinə başçılıq etmişdi. Həmin ilin iyun ayında İran Kommunist Partiyasının Ənzəlidə keçirilən I qurultayında partiyanın15 üzvündən biri seçilən Pişəvəri 1922-ci ildə İKP MK Cənub Bürosunun rəhbəri təyin edilərək 1923-cü ilədək İsfahanda çalışmışdı. 1930-cu ilin dekabrında həbs edilən Pişəvəri 1940-cı ildə azadlığa buraxılsa da, yenidən Kazana sürgün olunmuş, 1941-ci ilin sonlarında azadlığa buraxılmışdı.

1941-1945-ci illərdə Cənubi Azərbaycanda demokratik hərəkatın liderlərindən biri olmuş Pişəvəri Azərbaycan xalqının hüqlarının müdafiəçilərindən idi. 1943-1945-ci illərdə Tehranda «Ajir» qəzetini buraxmışdı. 1944-cü ildə İran Məclisinə seçilən Pişəvərinin mandatı məclisin mürtəce çoxluğu tərəfindən qəbul edilməmişdi.

Pişəvərinin rəhbərliyi ilə təşkil edilən Milli hökumət bir il yaşadı və 1946-cı il dekabrın 12-də süqut etdi.

Seyid Cəfər Pişəvəri «12 şəhrivər», «Qızıl səhifələr» adlı

bədii əsərlərin, bir sıra məqalələrin müəllifi olmuşdu. O, 1947-ci ildə Gəncədə avtomobil qəzası nəticəsində həlak olmuşdu.

S.C.Pişəvərinin rəhbəri olduğu Milli Hökumətin proqramında muxtariyyatı dünyaya tanıtmaq, şəhər əncümənlərinin təşkili və şəhərləri abadlaşdırmaq, jandarm və polis idarələrini yenidən təşkil etmək, maliyyə qanunlarını nəzərdən keçirmək, milli büdcə layihəsi hazırlamaq, milli xalq ordusu yaratmaq, mədəniyyət və maarif sahəsində əməli tədbirlər həyata keçirərək bütün məktəblərdə milli dilin qəbul edilməsinə nail olmaq, savadsızlığa qarşı mübarizə aparmaq, pulsuz və məcburi təhsili qaydaya salmaq, ticarət və iqtisadiyyat sahəsini inkişaf etdirmək üçün fabriklər və zavodlar tikmək, yolları təmir etmək, yeni yolların salınmasını, poçt, teleqraf və telefon kimi vasitələri genişləndirmək və müasir hala salmaq, kəndlilərlə mülkədarlar arasında razılıq əsasında kəndli-mülkədar məsələsini həll etmək, işsizliyin qarşısını almaq, kəndlilərə torpaq paylamaq, işçi və əməkçilərin məişətini qaydaya salmaq, səhiyyəni inkişaf etdirmək, işçilərin sığortalanması işini məcburi hala gətirmək üçün tədbirlər görmək kimi maddələr yer almışdı.

Proqramın həyata keçirilməsi üçün yerli orqanların təşkili zərurəti ortaya çıxdıqda, dərhal vilayət, mahal, bölük və bələdiyyə əncümənlərinə demokratiya əsasında gizli, müstəqim, ümumi və bərabər seçkilər keçirildi.

Kəndlilərə məxsus torpaqlar paylandı. 8 saatlıq iş günü müəyyən olundu. Sənaye, ticarət və maliyyə sahəsində tədbirlər hazırlandı. Pulsuz tibbi yardım göstərilməsi, məcburi sığorta olunması, şəxsi mülkiyyətin qorunması təmin edildi.

1944-cü il noyabrın 21-də Təbrizdə Azərbaycan dilində sovet məktəbi açıldı. 1945-ci il noyabrın 19-da «Sovet Azərbaycanı dostları» cəmiyyəti yaradıldı. Bu cəmiyyət 1943-cü ildə Təbrizdə fəaliyyətə başlayan «Sovet İttifaqının dostları» cəmiyyətinin müəyyən dərəcədə davamçısı oldu.

1946-cı ilin iyununda tibb, pedaqoji, kənd təsərrüfatı fakültələri olan Təbriz Universiteti, kəndlərdə 2.000, şəhərlərdə

500 ibtidai və orta məktəb fəaliyyətə başladı. 3.800 savadsızlığı ləğv etmə kursları yaradıldı. «Azərbaycan», «Azad millət», «Azər», «Urmiya», «Cövdət» qəzetləri, jurnallar nəşr edilməyə başlandı.

Sovet-İran əlaqələrində Azərbaycan SSR əhəmiyyətli rol oynadı. Bü işdə «Vətən yolu» qəzeti səmərəli fəaliyyət göstərdi. Milli hökumətin himni qəbul edildi. Himnin sözlərini Mirmehdi Etimad yazmış, musiqisini Cahangir Cahangirov bəstələmişdi.

1946-cı ildə Təbrizdə Azərbaycan Dövlət Dram Teatrının açılışı oldu. Açılışda teatrın direktoru S.Səbahi və Pişəvəri çıxış etdilər. Həmin ilin aprelində Cənubi Azərbaycan demokratik hökumətinin radiostansiyası işə başladı. Sentyabrın 2-də Dövlət Flarmoniyasının açılışı oldu. Flarmoniyaya Ə.Tudə başçılıq edirdi.

S.C.Pişəvərinin rəhbərlik etdiyi Milli hökumət 1946-cı il yanvarın 6 - da «Dil haqqında» qərar verdi. Azərbaycan dili Azərbaycanda dövlət dili elan olundu. Mədəniyyət sahəsində də bir sıra tədbirlər həyata keçirildi. Ümumilikdə, həyata keçirilən tədbirlər İranın ərazi bütövlüyünə zidd deyildi.

Lakin mürtəce qüvvələr bütün bunlarla razılaşmayaraq Milli hökuməti özləri üçün təhlükə hesab edirdilər. Pişəvəri dəfələrlə Bakıya gələrək M.Bağırovla görüşmüş, təhlükənin mövcudluğu haqqında ona məlumat vermiş, ancaq bir nəticə hasil olmamışdı.

İranın mürtəce qüvvələri hərəkata mənfi münasibət bəsləyirdilər. Tehran hökuməti bir tərəfdən Milli hökumətlə danışıqlar aparır, o biri tərəfdən danışıqları uzatmaqla vaxt qazanmaq istəyirdi. Lakin Milli hökumətin qeyri - ardıcıl, güzəştli mövqeyi nəticəsində 1945-ci ilin iyunun 3-də Tehran hökuməti Azərbaycan Demokratik qüvvələri ilə müqavilə bağladı və buradakı demokratik dəyişiklikləri İranın daxilində yerli özünüidarə hüququnda tanıdı. MM əyalət əncüməni kimi tanındı. Azərbaycan valisi təyin edilməsi Azərbaycan Əyalət əncüməninin təklifi üzrə İran hökuməti tərəfindən təyin edilməsi üçün razılığa gəlindi. Lakin sonralar məlum oldu ki, bütün

bunlar vaxt qazanmağa, demokratik hərəkatı boğmağa hazırlıq idi. Bu məqsədlə, silahlı dəstələr yaradılır, iqtisadi və təxribatçı terror xarakterli mübarizə aparılırdı. Tehran hökuməti, xüsusi ilə 1946-cı ilin yanvarından Tehran hökumətinə başçılıq edən irticanın ən qəddar liderlərindən biri, qatı siyasətçi və iri Gilan feodalı Qəvamüssəltənə var qüvvəsi ilə çalışırdı ki, burada beynəlxalq münaqişə ocağı yaratsın və müdaxiləyə yol açılsın.

İran irticası Milli hökuməti boğmaq üçün 1946-cı ilin payızında yeniplanlar hazırlamağa başladı. İran hökuməti ilə ABŞ arasındakı müqaviləyə əsasən silahalındı. 1946-cı il iyulun 29-da Kavaş İran Demokratik Partiyasının yarandığı elan edildi. İrticaçı qüvvələr birləşərək terrora başladılar. Oktyabrın ortalarından başlayaraq İran hökuməti müxtariyyatın ləğv edilməyəcəyi təqdirində ölkənin cənubunda yaşayan qaşqay tayfalarının fars əyalətinə də müxtariyyat verilməsini tələb edən etiraz çıxışlarına arxalanaraq Cənubi Azərbaycana hücuma keçdi.

Qəvamüssəltənə hökuməti Rza şah Pəhləvinin göstərişi ilə İranın XV məclisinə seçkilər zamanı «qanun-qaydanı təmin etmək» bəhanəsi ilə noyabrın 22-də hökumət qoşunlarının Cənubi Azərbaycana daxil olması haqqında əmr verdi. 50 minlik qoşun, 55 tank, 50 təyyarə, 174 top, 3 minə qədər ağır pulemyot və digər silahlarla silahlanmış qoşun hücuma keçdi. Hərbi əməliyyatlara Pəhləvi və ABŞ-ın İrandakı hərbi komissiyası rəhbərlik edirdi.

Azərbaycan istiqlalçılarının cəmi18 min qoşunu var idi. Dekabrın 13-də qoşun Təbrizə daxil oldu. Terror başlandı. İdarəetmə orqanları dağıdıldı. Qısa müddətdə 25-30 min nəfər öldü, minlərlə adam zindana salındı. 300 min adam sürgün olundu.

Cənubi Azərbaycanda milli hərəkat məğlub oldu. Milli hökumətin pis silahlanması, hökumət rəhbərliyində fikir ayrılıqlarının olması, əyalət əncümənlərində və ostanlarda şah qoşunlarına müqavimət göstərilməməsi və bu işdə Azərbaycan Demokrat Firqəsinin qətiyyətsizliyi, rəhbərliyin ölkəni tərk

etməsi və digər səbəblər hərəkatın məğlubiyyətinə səbəb oldu.

«21 Azər» hərəkatı və ona rəhbərlik etmiş Azərbaycan Demokrat Firqəsi haqqında həm İranda, həm də xaricdə müxtəlif rəylər səslənmişdi. Həmin rəyləri üç qrupa bölmək olar: a) milli hərəkatın baş vermə səbəblərini və onun mahiyyətini qimətləndirən rəylər; b) zəhmətkeşlərin inqilabi mübarizəsindən qorxan və İran Milli burjuaziyaının məfkurəsini əks etdirən rəylər; c) daxili irticaya, səltənət rejiminə və xarici qüvvələrin törətdiyi cinayətlərə bəraət qazandıran rəylər;

Fransada çıxan «Lemond» qəzeti Azərbaycanda baş verən hərəkatın Yaxın və Orta Şərqə göstərdiyi təsirə işarə edərək yazmışdı: «İran Azərbaycanında baş verən bu hərəkat Yaxın Şərqdə, xüsusilə İraqda çox dərin əkül əməl meydana gətirmişdi. İraqda çox şiddətli sonsor olmasına baxmayaraq, bu xəbər ildırım sürəti ilə yayılmışdı. Zülm və təzyiq altında yaşayan İraq xaqı da, bütün Yaxın Şərq əhalisi kimi Azərbaycan hərəkatını Orta Şərqə nicat verən bir hərəkat adlandırmışdır».

Fransanın dövlət və siyasi xadimlərindən biri olan Marsel Kaşen fikrini belə ifadə etmişdi: «Mən... Azərbaycanın əsil əhalisindən olan neçə nəfərlə görüşmək fürsəti əldə etdim. Onlar təkamül mərhələsinə çatmış bir təməddünə (mədəni inkişafa) sahib idilər və yeni siyasi həyati çox yaxşı bilirlər. Ona görə də əcaba, təbii deyilmi ki, onlar Tehran hökuməti tərəfindən cəbr ilə təhmil edilmiş feodal qəyyumiyətindən əzabda olsunlar. Əcaba, Azərbaycan Milli Məclisinin nəşr etdiyi proqramdan daha demokratik bir şey varmıdır».

İranın mətbuat vasitələri də Azərbaycan Milli hərəkatına yüksək qiymət vermişlər. Tehranda nəşr olunan «Nicati İran» qəzeti 1945-ci il dekabr tarixli 577-ci sayında Azərbaycanda başlanan hərəkatı izah edərək yazırdı: «Bəli, tarix təkrar olunur. Bizim azərbaycanlı qardaşlarımız üçüncü dəfədir ki, İranın demokratik azadlığı uğrunda ayağa qalxaraq, azadlıq və islahat düşmənlərinə qarşı Səttarxan və Xiyabaninin qəyur Milli mücahidlərinin işini davam etdirib, onlara atılan böhtanları aradan qaldırmağa başlamışlar».

Tehranda çıxan «Rəhbər» qəzetinin 1946-cı il 741-ci nömrəsində dərc edilmiş bir teleqrafda deyilirdi: «Mikran və Seyistanın mütərəqqi dairələrinin nöqteyi-nəzərincə Azərbaycan məsələsi bütün İran millətinin öz qanuni haqqını ələ gətirmək üçün tamamilə azadlıq mahiyyətində olan bir hərəkatdır. Əcnəbi nökərləri və mürtəcelər tərəfindən yayılan şaiyələrə, böhtanlara baxmayaraq, Mikran əhalisi və Seyistanın bütün zəhmətkeşləri bu Milli hərəkata ehtiram gözü ilə baxırlar».

İranın dövlət qəzetlərindən olan «Keyhan», Tehranda nəşr olunan «Fərman» qəzeti də hərəkatı yüksək qiymətləndirmişlər. «Keyhan» yazırdı: «İranın şimalında baş verən demoratik hərəkat ən böyük hadisələrdən biri sayılır… O, İranın bütün əyalətlərinə yayılaraq Şərq xalqları tarixinin böyük fəsillərindən birini açacaqdır».

«Fərman» qəzeti yazırdı: «…Biz Azərbaycan Demokrat Firqəsinin başçılarını vətənpərvər şəxslər kimi tanıyırıq. Biz belə əqidədəyik ki, Pişəvəri bu gün vətən haqqında hay-küy salan Seyid Ziyalardan və Vüsuqidövlələrdən İrana daha çox can yandıran şəxsiyyətdir. Siz Pişəvərinin bəzəksiz-düzəksiz həyat kitabının bütün səhifələrində, hətta, bir dənə də qara ləkə tapa bilməzsiniz. Azərbaycan xalqının istəyi haqq istəkdir».

İranın dövlət nümayənələri Milli hərəkatın əhəmiyyətini etiraf etməli olmuşlar. Baş nazirin siyasi müavini Müzəffər Firuz Azərbaycan nümayəndələri ilə Tehranda aparılan danışıqlarda Azərbaycan milli hərəkatına qiymət verərək demişdi: «Azərbaycan hərəkatı 20 illik diktaturanın faciələri nəticəsində meydana gəlmişdir ki, bu hərəkat İranın azadlığının inkişaf etməsi üçün, İranın mütərəqqi adamlarının əlində güclü silahdır».

Beləliklə, «21 Azər» hərəkatı təkcə Azərbaycan xalqının milli mübarizəsi deyildi. Bu hərəkat eyni zamanda bütün İranda baş verən ziddiyyətlərin məhsulu olub, İranda inqilabi mübarizəyə təkan verməklə bərabər, Yaxın və Orta Şərq xalqlarının mübarizəsinə təsir göstərmişdi.

# VII FƏSİL

## Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası

### 7.1. Tarixə nəzər

Azərbaycan xalqı keçdiyi mürəkkəb tarixi yolda bir sıra böhranlı və həlli çətin olan problemlərlə qarşılaşmışdır. Xalqımız onların əksəriyyətinin öhdəsindən şərəflə gələrək öz varlığını qorumuş, dünya tarixində özünə yer tutmağa nail olmuşdur. Bununla belə, XX əsrdə öz müstəqilliyini itirən, Rusiya tərəfindən müstəmləkə vəziyyətinə salınan Azərbaycan həlli çətin və mümkünsüz olan bir problemlə-erməni problemi ilə üz-üzə qalmışdır. Həmin vaxtda ermənilər özlərinin əsas havadarı olan Çar Rusiyasının, sovetlər dönəmində SSRİ-nin himayəsindən istifadə edərək Azərbaycanın ata-baba torpaqlarına qarşı iddialar irəli sürmüş, zaman-zaman öz istəklərinə doğru irəliləmişlər.

XIX əsrin əvvəllərində çar Rusiyasının Şərq siyasətində canlanma hiss olunmağa başlayır. Bu siyasətin əsas qayəsini Qafqaza, xüsusilə də Azərbaycana yiyələnmək təşkil edirdi. Bu istəklərinə nail olmaq üçün Rusiya ermənilərdən istifadə etməyə başladı. Ermənilər isə «tarixi vətənlərinin Qafqaz olması» barədə saxta dəlillərlə dünya ictimaiyyətini inandırmaq üçün bütün vasitələrdən istifadə etməyə başladı. Nəticədə, 1828-ci ildə Azərbaycanın Arazdan Şimalda yerləşən əraziləri Rusiya tərəfindən işğal edildi. İranla aparılan müharibədə Çar Rusiyasının qələbəsi İrəvan və Naxçıvan xanlıqları ərazisində Azərbaycan-Türk milli dövlət quruluşunun ləğvinə gətirib çıxardı. Çar hakimiyyəti orqanları xanlıqların inzibati ərazi bölgüsündə dərhal ciddi dəyişikliklər apardılar. 1828-ci il martın 21-də çar hökuməti xüsusi fərmanla «erməni vilayəti»ni təşkil etdi. Qeyd edilən dekretlə erməni vilayəti tərkibində İrəvan

vilayəti, Naxçıvan əyaləti və Ordubad dairəsi, onların tərkibində isə mahallar təşkil olundu. Tarixin sonrakı dövründə ermənilər bu siyasəti daim təzələyir və məqsədlərərinə doğru tədbirlər həyata keçirirdilər. Nəticədə, XX əsrin əvvəllərində artıq ermənilər Azərbaycan əraziləri hesabına xeyli torpaqları özününküləşdirmişdilər.

Fevral inqilabından sonra çar Rusiyasının dağılması və Birinci dünya müharibəsində Türkiyəyə qarşı Avropa dövlətlərinin işğalçılıq siyasəti ermənilərin əl-qolunu daha da açdı. Nəticədə Azərbaycan və Türkiyə əraziləri hesabına 1918-ci ildə Ararat Respublikası, 1920-ci ildə isə Ermənistan SSR təşkil edildi. Ararat Respublikasının mövcud olduğu müddətdə azərbaycanlıların kütləvi məhvinə başlandı. Qondarma dövlətlərini yaratmaqla kifayətlən məyən ermənilər Moskvanını əli ilə Zəngəzuru və Göyçəni Azərbaycandan zorla qopardılar, Dağlıq Qarabağın ermənilərə verilməsini tələb etdilər.

Ermənistan SSR ərazisində olan azərbaycanlılara qarşı təzyiqlər başlandı. 30-cu illərdə iri təsərrüfatların yaradılması bəhanəsi ilə azərbaycanlıların yaşadıqları kəndləri ermənilərin ixtiyarına verdilər. Bunun nəticəsində azərbaycanlılar torpaq paylarından məhrum edildilər, ermənilər isə əksinə, yararlı torpaqlara sahib oldular. Azərbaycanlılara məxsus yer adlarının dəyişdirilməsinə başlandı.

Ikinci Dünya müharibəsindən sonra ermənilərin Azərbaycana qarşı ərazi tələbləri yenidən baş qaldırdı.

Azərbaycan xalqının Ermənistandan və başqa daimi yaşadıqları ərazilərdən deportasiya edilməsinin qiyməti yalnız Azərbaycan müstəqllik qazandıqdan sonra verilməyə başlandı. Azərbaycan Respublikasının prezidenti H. Əliyev «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlardan kütləvi surətdə deportasiyası” haqqında» fərman verdikdən və bu işlə məşğul olacaq dövlət komissiyasının yaradılmasından sonra məsələnin hərtərəfli öyrənilməsinə ciddi fikir verilməyə başlanmışdı.

## 7.2. Ermənilər kimdir?

Azərbaycan dilində «Ermənistan» sözü 1921-ci ildə Sovet Rusiyasının İrəvan quberniyası ərazisində təşkil etdiyi dövlətin adıdır. Ondan əvvəl Ermənistan adı məlum deyildir. 1588-1728-ci illərə aid türk dilli mənbələrdə İrəvan şəhərinin adı ilə bu ölkə müvafiq olaraq «Rəvan əyaləti» və «İrəvan əyaləti» adlanırdı. Əyalətin əsasında yaranmış xanlıq və Rusiyanın bu xanlığın ərazisi əsasında təşkil etdiyi yeni siyasi qurum İrəvan quberniyası adlan- dırılmışdı.

Ermənistan sözünün kökünü Azərbaycan dilində erməni etnonimi təşkil edir. Lakin tarixən erməni etnonimi ermənilərin özünü adlandırması olan «hay»" etnonimi ilə üst-üstə düşmür. Erməni etnonimi haylar üçün heç vaxt özünüadlandırma olmamışdı.

E.ə VII əsr Urartu mənbələrində yazılır ki, Kiçik Asiyanın şərqində Fərat çayının yuxarı axarının hövzələrini əhatə edən ərazilər Arme adlanır. Arme toponiminin mənası və bu əyalətin sakinlərinin dil mənsubiyyəti məlum deyil.

İ.M.Dyakonova görə e.ə.XII -XI əsrlər arasında balkanlardan gəlmiş firiqlərin bir qolu olan ermənilərdən əvvəl əyalətdə əhali hürri və liviya dillərində danışırdılar. Armen toponimi haqda İ.M.Dyakonov yazır ki, bu adın əsli Or (0) M olmuşdu. Ona görə də, erməni tarixçisi Q.Kanansiyanın Balkanlardan gəlmə firiqlərin bir qolunun guya arim adlanması və erməni sözünün həmin arma sözündən yaranması fikrini İ.M.Dyakonov rədd edir.

Tədqiqatçılar hesab edirlər ki, balıkanlardan gəlmə firiq tayfalarının bir qolu olan indiki ermənilər Arme və Haysa əyalətlərinə gəlib məskunlaşmışlar.

Firiqlərin bir qolu, konkret mənada ermənilərin bir hissəsi idi. Sami dillərində danışan və Mesopotamiyanın şimalında yaşayan armeylər Arme əyalətində yaşayanlara əyalətin adı ilə «Armina"», hürri dilli urartular isə «Armini» deyirlər. Hər iki dildə bu söz əyalətin adıdır. Deməli, Armina, həm də bu əyalətin

köklü sakinlərinə, həm də eramızdan əvvəl XII-XI əsrlər arasında Balkan yarımadasından gəlmə friqlərin bir qoluna (etnik adı «hay»" olanların ulu əcdadına) verilmiş ümumi ad olduğuna görə, əlbəttə etnik mənsubiyyət bildirmir. İ.M.Dyakonov xüsusi olaraq bildirir ki, indi bütün dünya xalqlarında işlənən «erməni»" adı mənşəcə yalnız özünü «hay»" adlandıranlara şamil oluna bilən etnik ad deyil. Ona görə ki, qədimdə «Armina»" adı həm Parme əyalətinin, həm də əyalətdə yaşayanların adlarını ifadə edirdi. «Armini» adı coğrafi ədəbiyyatda Şərqi Anadoluda «Erməni» yaylası" adında işlənməkdədir.

Tədqiqatçılara görə, məhz armeylərdən «Armina»" adı qədim farslara keçmiş, sonradan Urartu dövlətinin adı kimi «Armini»" formasına düşmüşdü.

Diqqəti cəlb edən odur ki, qədim erməni mənbələrində «Armini»" ölkə adından yaranmış erməni etnonimi və «Armini"» ölkə adı yoxdur. Bu mənbələrdə ermənilərin ölkəsi hər yerdə Hayk adlanır. Səhv olaraq Rus və Avropa dillərinə Armenina kimi tərcümə olunub. Halbuki eramızdan əvvəl II əsrə kimi antik mənbələrdə «Armenina»" dedikdə yalnız Kiçik Asiyadakı Armeni nəzərdə tutulur. Armini adı indiki Ermənistan ərazisinə şamil edildikdən sonra Kiçik Asiyada həmin əyalət antik mənbələrdə «Kiçik armini»" adlandırılmışdı.

Göründüyü kimi, Azərbaycan dilində erməni anlayışı ermənilərin hay anlayışı qarşılığı olsa da, əslində bu antik adlar bir etnosun adı deyil, yəni tarixi baxımdan erməni anlayışı ilə hay anlayışı bütünlüklə üst-üstə düşmür. Arme əyalətində təkcə Balkanlardan gəlmə firiqlərin bir qolu olan hayların yaşadığını göstərən heç bir fakt məlum deyil. Yalnız Armen əyalətinin adı ilə sonralar yaranmış erməni adı, həm də haylara şamil olduğuna görə «Armina» "adı hayk adının qarşılığına çevrilmişdi.

Deyilənlərə görə, qədim yunan, fars, latın və ərəb mənbələrində olan ermən anlayışı konkret mənada özünü hay adlandıranlarla ümumi mənada Ərməniyyədə yaşayan türk

mənşəli adamları da özündə birləşdirirdi.

E.ə IX əsrdə Kiçik Asiyanın Şərqində, Van gölünün ətraf dağlıq ərazisində assur mənbələrində Urartu adlı dövlət yaranır. Hurrilər Şumercə Subir və Akkad mənbələrində Subar adlanırdılar. Mənası Suarası, çayarası deməkdir. Bu subarlar hələ e.ə XVI - əsrdə Mesopotamiyanın şimali qərbində «Mitani”» adlı dövlət yaratmışlar. Bu dövlətə son qoyulduqdan sonra onun əhalisi Kiçik Asiyaya getmiş, burada «Urartu”» dövlətini yaratmışlar. Urartu dili çeçen-İnquş dillərinə yaxınlıq təşkil edir. İlk zamanlarda dövlətin adı «Bianni”» kimi verilir. Urartu adı isə sonralar Assur mənbələrinə əsasən işlədilmişdir.

Ermənilərin erməni və hay adlarının hər ikisi Urartu mənbələrində adları çəkilən Arme və Haysa əyalətlərinin adlarından ibarətdir. Etnik ifadə deyil.

E.ə VII əsrdə Qara dənizin şimal sahili çöllərindən Kür-Araz ovalığına və indiki Ermənistan ərazisinə türk mənşəli kimmerlərin güclü axınları baş verir. Onların ardınca skiflər bu ərazilərə gəlirlər. Skiflər kimmerləri Kür-Araz ovalığında sıxışdıraraq Urartu sərhədlərinə qovurlar. Bu səbəbdən, kimmerlər e.ə 652-ci ildə Kiçik Asiyaya keçərək orada məskunlaşırlar. Digər hissəsi Manna ərazisinə keçir. Kiçik Asiyanın Şərqində Friqiya dövlətinə son qoyduqdan sonra kimmerlər onun ərazisində məskunlaşırlar.

Bu gün Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində özlərini aborogen kimi təqdim edən ermənilər nəinki qeyd etdiyimiz ərazisində aborogendirlər, əksinə onların hansı diyardan olması məlum deyil. Bu gün daşıdıqları «erməni»” adını başqasından mənimsəmişlər.

Neytral mənbələr ermənilərin nə Urartu, nə də Assuri dövlətlərinin varisləri olmasını təsdiq etmir. Bəs kimdir bu ermənilər? Onların dili, xarakteri haqqında nələr söylənilir?

Türk tədqiqatçısı M. Sədi Koçaş «Tarixdə ermənilər və türk erməni münasibətləri»” kitabında (Bakı, 1998) yazır ki, istər irq, istərsə də din cəhətdən yekcins olmayan ermənilərin tarixi uydurmalardan ibarət olub, tarixi mənbələrə

əsaslanmayan mifoloji bir tarixdir.

J. Deniker göstərir ki, «Ermənilər müxtəlif ünsürlərdən təşkil olunan qarışıq bir irqdir. Boyları 163-169 arasında, yastıbaşlı, 85-87 baş ölçüsündə, irqləri hindu, əfqan, aysor və türk irqlərindən yaranmışdır".

Robert Cais isə «Ermənilər Pamir yaylasından gələn ari tayfalar ilə Mesopotamiyadan şimala doğru köç edən sami irqinə mənsub tayfaların qarışığıdır. Kürdlərlə erməniləri bir-birindən ayırmaq mümkün deyildir, yaxın qohumdurlar»" demişdir.

U.S.Monroy yazır ki,: «Ermənilər irq etibarı ilə iranlı, kürd, bəluc və qaraçılarla qohumdurlar. Rəngləri ağdan zeytun rənginə qədər müxtəlifdir. Saqqalları şabalıdı, gözləri iri, qara və ya mavi, burunları ... gözə çarpan bir şəkildə çıxıntılıdır." ...«Cəsarət, qəhrəmanlıq, döyüşkənlik göstəricilərinin çatışmamazlığı, … erməni xalqının xarakteri üzərində də öz təsirini göstərmişdir"».

Erməni dili haqqında da maraqlı fikirlər vardır. Le Normand yazır ki, erməni dilinin ... qədim köklərə malik olmasına dair heç bir sübut yoxdur. De Morqan da «ermənilərin dilinin qədimliyini bildirən heç bir sənədin olmadığını "» deyir.

Vartanyan 1914 - cü ildə erməni dilində yazdığı «Erməni hərəkatının tarixi» "adlı əsərində göstərir ki, «...XIX yüzilliyin əvvəllərində ermənilər bir millət olaraq Avropada məlum deyildilər"».

Özlərinə xarici ölkələrdə dayaq axtaran ermənilər həmişə alət rolu oynamışlar. Əslində isə istər avropalılar, istərsə də ruslar onları pis əməl sahibi, xain kimi səciyyələndirmişlər.

Rus şairi A.S.Puşkin ermənilərə xitabən demişdir: «Sən köləsən. Sən qorxaqsan. Çünki sən ermənisən"».

Göründüyü kimi, bu gün haray salaraq daima soyqırıma məruz qaldıqlarını iddia edən ermənilərin soyu - kökü məlum deyildir və onlar yetkin millət kimi xarakterizə olunmurlar.

## 7.3. Çarizmin Qafqaz siyasətinin

**reallaşmasında ermənilərin rolu** XVI əsrdə mərkəzləşmiş rus dövlətinin yaranmağa başlaması ilə Rusiyanın xarici siyasətində dəyi şikliklər baş verir. Yeni ərazilərin işğalına başlanılır.

XVIII əsrdə I Pyoturun keçirdiyi islahatlar nəticəsində Rusiya güclü dövlətə çevrilir. Pyotr Xəzərsahili vilayətlərə hücumdan əvvəl buradakı vəziyyəti öyrənmək üçün xüsusi nümayəndələr göndərir, xüsusilə ermənilərin Qafqazda vəziyyətləri ilə maraqlanır, sonra o, Avropa ölkələrinə gedərək Türkiyəyə qarşı özünə müttəfiqlər tapmağa çalışır. Məqsədinə nai olmayan I Pyotr Şimal müharibəsində (1701-1721) qalib gəldikdən sonra Türkiyəyə qarşı müttəfiqlər axtarışını yenidn davam etdirir. O, Qafqaza yiyələnmək məqsədilə Türkiyənin daxilində olan ermənilərdən istifadə etmək üçün 2 mart 1711-ci ildə Senatdan tələb edir ki, İranla ticarət işlərinə daha çox erməni cəlb edilsin. Onların tələbləri yerinə yetirilsin.

I Pyotrla ermənilərin əlaqəsi 1699-cu ildə erməni din xadimlərindən olan İsrail Orinin müraciətindən sonra başlamışdı. Həmin ildə İsrail Ori sünni məliklərinin gizli yığıncağını keçirib onların adından I Pyotra erməniləri himayə etməyi xahiş edir. 1701-ci ildə Pyotr İsrail Orini qəbul edir və erməniləri bundan sonra himayə edəcəyinə zəmanət verir. Yuxarıda göstərilən fərmanın da verilməsində məhz bunlar əsas olmuşdu.

Pyotrun ermənilər haqqında siyasəti Rusiya çarları tərəfindən davam etdirilmişdi. Buna davam olaraq II Yekaterina ermənilərin hərtərəfli himayə edilməsi haqda 1768-ci ildə xüsusi fərman imzalanmışdı. Bir qədər sonra Movses Safaryan tərəfindən erməni dövlətinin necə yaranması haqqında proqram hazırlanıb Rusiya hakimiyyət orqanlarına təqdim edilmişdi. Artıq XVIII əsrin II yarısında Rusiya ilə Türkiyə arasında baş verən müharibələr zamanı Türkiyə ərazilərində ayrıca erməni dövləti yaratmaq planları hazırlanmışdı. Həmin layihələrin ilk variantının müəllifləri H.Hartunyan və

H.Lazaryan olmuşlar. Bu layihəyə görə, ilk olaraq Rusiya ərazisinin cənub hissələrində erməni icmaları yaradılması, ermənilərin Kaspi ətrafı rayonlarda, Həştərxanda, Mozdokda yeni ərazilərdə yerləşdirilməsi, onlara xüsusi imtiyazlar verilməsi nəzərdə tutulurdu.

XIX əsrin başlanğıcında Rusiya Zaqafqaziyaya aid planlarını gerçəkləşdirməyə başlayır. 1796-cı ildə Azərbaycana yeridilən rus qoşunları Rusiyada çar dəyişməsi nəticəsində dayandırılır.

1801-ci ildə I Aleksandr Rusiyada hakimiyyətə keçdikdən sonra Qafqazdakı rus qoşunlarının başçısı Konerqə 12 sentyabr 1810-ci il tarixli sərancamında ermənilərə qarşı diqqətli olmağı, onların köməyindən istifadə etməyi tövsiyyə edir.

İranın daxili çətinliklərindən istifadə edən Rusiya XIX əsrin əvvəlində Azərbaycana qarşı açıq müdaxiləyə başlayır. 1802-ci ildə rus qoşunları İrəvan xanı Məhəmməd xana qarşı vuruşan kənd erməni dəstələrindən istifadə edir. Bundan sonra Gəncə xanlığı üzərinə hücum başlanır. O zaman şəhərdə olan ermənilər rus qoşunlarının baş komandanı Sisianova gizli məktublar göndərərək ona öz köməkliklərini təklif edirlər. Ermənilərin xəyanəti nəticəsində Gəncənin müdafiəsi zamanı Cavadxan başda olmaqla xeyli itki verilir. Gəncə ruslar tərəfindən işğal edilir və ermənilərin ailələri burada yerləşdirilir.

1806-cı ildə Rusiyanın çağırışı və vədlərinə cavab olaraq 10.000 erməni ailəsi İrəvan üzərinə hücumda iştirak etmək üçün şəhərin yaxınlığındakı Eçmədzində (Üç kilsə) toplaşırlar. Ancaq Avropada baş verən siyasi dəyişmələr, Fransanın Türkiyə ilə yaxınlaşması ruslara bu əməliyyatı keçirməyə imkan verməyindən ermənilər müxtəlif istiqamətlərə dağılırlar.

Birinci İran-rus müharibəsinin sonunda bağlanmış müqaviləyə əsasən (Gülüstan müqaviləsinə – M.Ə.) Arazdan şimalda olan bir sıra ərazilər, o cümlədən ermənilərin nisbətən çoxluq təşkil etdiyi Qarabağ xanlığı da Rusiyanın himayəsinə keçdi. İngiltərənin və Türkiyənin bu müqaviləyə qarşı olması

Rusiyanın ermənilərı bu ərazilərə köçürməsinə imkan vermədi. Həm də, Napaleona qarşı bir cəbhədə duran Rusiya və İngiltərə bu məsələdə ciddi qarşıdurmaya yol verməк istəmədilər.

1826-cı il də Rusiya ilə İran arasında Zaqafqaziya uğrunda yenidən müharibə başlandı. Bu müharibə 1828-ci ildə İranın məğlubiyyəti ilə başa çatdı. Əslində o zaman İrandan asıllılığını itirmiş Azərbaycan ərazisindəki kiçik müstəqil feodal dövlətlər-xanlıqlar Rusiya tərəfindən işğal edilmişdi. İşğal edilmiş ərazilərin rəsmi olaraq Rusiyaya tabe edilməsi İranla müqavilə əsasında həyata keçirildi. Bu qələbədən sonra ermənilər bilavasitə Rusiyanın köməyinə arxalanaraq özlərinin müstəqlliyini qazanmaq üçün son dərəcə əlverişli imkan qazandılar. Ancaq öz dövlətlərini harada yaratmaq istəyi ermənilərə tam aydın deyildi.

Türkiyə əraziləri hesabına belə bir dövlətin yaradılması mümkün deyildi. Əgər bu dövlət Rusiyanın himayəsi əsasında yaranırdısa, bu Qərbi Avropa dövlətlərinin mənafeyinə zidd olardı. Zaqafqaziyada isə erməni dövlətinin yaradılması üçün nə ərazi zəmini, nə də əhali faktoru yox idi. Burada ermənilərin sayı 335 min nəfərə yaxın idi. Onlar da Zaqafqaziyanın bütün ərazisinə səpələnmişdi.

Çar Rusiyası belə olan halda ermənilərin planı əsasında hərəkət etməli oldu. Bu məqsədlə Türkmənçay müqaviləsinə 15-ci maddə daxil edildi. Orada nəzərdə tutulurdu ki, İranda yaşayan ermənilər Rusiyanın himayəsinə keçən Azərbaycan ərazilərinə köçürülsün. Eyni zamanda Türkiyə ərazisindən də Azərbaycan ərazilərinə ermənilərin kütləvi köçürülməsi başlandı.

1826-28-ci illərdə və sonrakı iki ildə-1828-ci ildən 1830-cu ilə kimi 40 min İran və 84 min 60 nəfər Türkiyə ermənisi Zaqafqaziyada, əsasən İrəvan quberniyasında və Yelizavetpolda yerləşdirildi.

1828-1854-cü illərdə ruslar iki dəfə Şərqi Anadoluya hücum edəndə oradakı ermənilər rusların tərəfini saxlamışlar. Ruslar isə hər iki gedişdə geri qayıdarkən özləri ilə 100 min nəfər

ermənini də Qafqaza gətirmiş, əsasən Azərbaycan ərazisində yerləşdirmişlər.

Ermənilərin kütləvi şəkildə Zaqafqaziyaya köçürülməsi nəticəsində burada əhalinin etnik tərkibinin ermənilərin xeyirinə dəyişməsi baş verdi. İrəvan xanlığı ərazisində onlar cuzi çoxluq təşkil etdiyindən çar Rusiyası burada dərhal «erməni əyaləti» adı ilə ilk inzibati vahidlik yaratdı.

## 7.4. Azərbaycan torpaqları hesabına Ermənistan SSR-nin yaradılması

1914-cü ildə başlanan Birinci Dünya müharibəsinə qoşulan hər bir dövlətin öz məqsədi vardı. İnkişafda olan Avropa ölkələri, xüsusilə Almaniya dünyanın siyasi bölgüsü ilə razılaşa bilmirdi. Xüsusilə də, onun maraqları Rusiya ilə toqquşurdu.

Rusiyanın başlıca planı Balkan yarımadasında öz mövqelərini möhkəmləndirməkdən, Yaxın Şərq istiqamətində yeni ərazilər tutmaqdan ibarət idi. Rusiya Osmanlı Türkiyəsinə qarşı daha qərəzli mövqedə idi. Türkiyənin Rusiyaya qarşı olan bir sıra Avropa dövlətləri ilə müttəfiqlik etməsi ziddiyyətləri bir az da artırmışdı. Digər tərəfdən isə Rusiya Türkiyənin parçalanmasını istəyirdi. Rusiya Türkiyə ərazisində erməni dövlətinin yaradılması planını hazırlamışdı.

Rusiyanın Osmanlı imperiyası torpaqlarını tutmaq cəhdləri böyük Avropa dövlətlərinin, ilk növbədə Almaniya və Avstriya-Macarıstanın müqaviməti ilə üzləşdi. Rusiya balkanlarda marağını qorumaq üçün buranın xristian əhalisinə böyük ümid bəslədiyi kimi, Türkiyəyə qarşı planlarını da həyata keçirmək üçün Türkiyə daxilində səpələnmiş ermənilərə ümid bəsləyir, ermənilərin arzularına uyğun olaraq süni erməni məsələsini ortaya qoyurdu. Erməni məsələsinin mahiyyəti bundan ibarət idi ki, guya türklər ən mədəni xalq olan ermənilərin tarixi ərazilərini işğal etmiş, onları dövlətçilikdən məhrum etmişlər.

Böyük ümidlərlə müharibəyə qoşulan Rusiya nəinki uduzdu, hətta müharibənin yaratdığı böhran burjua inqilabına səbəb oldu. 1917-ci ilin fevral inqilabı Rusiyada monarxiyanın məhvinə gətirib çıxardı. Bundan sonra Rusiyanın Dünya müharibəsində iştirakı əslində əhəmiyyətsiz bir xarakter aldı. Özünün siyasi quruluşunu itirən Rusiya eyni zamanda müstəmləkələrindəki xalqlar üzərindəki hökmranlığını da itirmiş oldu.

Monarxiyanı əvəz edən Müvəqqəti hökumət keçmiş Rusiya müstəmləkələrinə öz müqəddəratını təyin etmək hüququ veriləcəyi ilə çıxış etdi. Lakin 1917-ci ilin oktyabrın 26-da Rusiyada növbəti çevrilişi həyata keçirən bolşeviklərin V.İ. Lenin başda olmaqla hakimiyyətə sahib olmaları ilə bü vəd tarixə çevrildi.

1917-ci ilin noyabrın 2-də Leninin imzası ilə xalqların öz müqəddəratını təyin etmək" haqqında sənəd bəyan edildi. Bu sənədə görə, keçmişdə Rusiyanın müstəmləkəsi olan hər bir xalq öz yaşayış formasını müstəqil olaraq müəyyən edə bilərdi. Bu qanun eyni zamanda Zaqafqaziya xalqlarına da aid idi. Ancaq Zaqafqaziyada yaşayan müsəlman əhali çar Rusiyası dövründə olduğu kimi, yenə də azadlıqdan və öz müqəddəratını təyin etmək hüququndan məhrum idi. Müsəlman əhalidən fərqli olaraq ermənilərə xüsusi diqqət göstərilirdi. 1917-ci il dekabrın 29 -da Xalq Komissarlar Soveti «Türkiyə Ermənistanı»" haqqında dekret verməklə erməni məsələsində nəinki özünü çarizmin varisi kimi göstərdi, həm də ondan xeyli irəliyə gedərək Türkiyə əraziləri hesabına erməni dövlətinin yaradılmasını özlüyündə rəsmiləşdirmiş oldu.

1918-ci il Brest-Litovsk sülh müqaviləsinə görə «Türkiyə Ermənistanı"» deyilən ərazilər Türkiyənin tabeliyinə verildi. Göstərilən ərazidə erməni dövlətinin yaradılması baş tutmadı. Bununla belə, ermənilər artıq Zaqafqaziyada müəyyən ərazilərə sahib olmuşdu. Rusiya monarxiyası dağıldıqdan sonra azərbaycanlılar və gürcülərlə bərabər ermənilər də müəyyən

siyasi birliklərdə bir araya gələrək Zaqafqaziyanın şimal-qərb ərazilərində özlərinə ərazi yaratdılar.

1918-ci ildə artıq Zaqafqaziya seymində ermənilər də Azərbaycan və Gürcüstan kimi bərabərhüquqla təmsil olundular. Aprelin 22-də yaradılan Zaqafqaziya Federativ Respublikasının 1918-ci ilin 26 may tarixli axırıncı iclasında Sereteli seymin buraxıldığını və Gürcüstanın müstəqillik elan etməsini bildirdikdən sonra ermənilər də eyni cür hərəkət etdilər. 1918-ci ilin mayın 28-də erməni fraksiyasından olanlar Ararat Respublikasının yaradıldığını elan etdilər.

1918-ci ilin iyulun 4-də Türkiyə yeni yaranan Zaqafqaziya respublikaları ilə «sülh və dostluq" haqqında» müqavilə bağlamaqla Ararat Respublikasını rəsmi olaraq tanıdı. Ararat Respublikası tarixi erməni ərazisində deyil, Azərbaycanın tarixi ərazilərində - İrəvan quberniyası ərazisində yaradılmışdı. Bu erməni dövlətinin əhalisinin 90%-i kənardan gəlmə idi. Bunu erməni ziyalıları da etiraf edirdilər. 1988-ci ildə Parisdə nəşr olunun fransız ermənişünasının nəşr etdirdiyi «1918-ci il erməni faciəsi"» adlı əsərində yazılmışdı: «İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində yaradılıb qısa ömür (1918-1920) sürən erməni respublikası bütün tarix boyu mövcudiyyatı qeydə alınan yeganə müstəqil erməni dövləti idi»."

Artıq bir sıra kənar dövlətlərin hərbi yardımından bəhrələnən ermənilər azərbaycanlılara qarşı ağlagəlməz vəhşiliklər törətməyə başladılar. Andronikin başçılığı altında olan erməni başkəsənləri müsəlman əhalisinə qarşı daha amansız idilər. Ararat dövləti adı altında «Böyük Erməníst"an» yaratmaq xülyasına düşən daşnaqlar Paris sülh konfransının gedişində bu üzdəniraq dövlətin sərhədlərini tanıtmaq üçün azərbaycanlıları dədə-babadan onlara məxsus olan ərazilərdən qovmaq və vəhşicəsinə qırmaq yolu ilə həmin əraziləri boşaltmaq istəyirdilər.

1919-cu ilin aprelindən başlayaraq Ararat Respublikasının qoşunları Göyçə rayonunun Yeni Bəyazid qəzasının dinc

müsəlman əhalisinə qarşı hücuma keçdi. 60 min əhalisi olan 22 kənd dağıdıldı. Ümumilikdə, Bəyazid qəzasında 84 kənd viran qoyuldu.

Paris sülh konfransında iştirak edən erməni nümayəndələri konfransa müraciət edərək Türkiyənin Ərzurum, Van, Trabzon, Datir, Başir, Xartuq, Sivas, Rusiyanın Erivan, Qars, Naxçıvan, Batumi vilayətlərinin erməni dövləti kimi birləşdirilməsini istəmişlər. Hansı ki, bu vilayətlərin əhalisinin cəmi 10-13 faizi ermənilərdən ibarət idi. Sülh konfransı gələcəkdə Rusiya və Türkiyəyə qarşı ermənilərdən istifadə etmək məqsədi ilə ermənilərin təkliflərinə müsbət yanaşırdı.

1920-ci ilin aprel ayında XI rus ordusunun Azərbaycanı işğal etməsi ilə Rusiya özünə Zaqafqaziyada yenidən ərazilər qazanmış oldu. 1920-ci ilin may ayında Ermənistanda bolşeviklərin əli ilə üsyan qaldırıldı. 1920-ci ildə Ermənistan SSR yaradıldı. XX əsrin əvvəllərində heç bir əraziyə malik olmayan ermənilər indi 29 min kvadrat kilometr Azərbaycanın tarixi ərazilərini özününküləşdirib dövlətini yaratdı.

1918-20-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyətinin ərazisi olan Zəngəzur, Göyçə, Dərələyəz, Qaraqoyunlu mahalları və başqa ərazilər Moskvadakı erməni himayədarların əli ilə ermənilərə bağışlandı.

Azərbaycanın Qarabağ ərazisini özünə birləşdirmək istəyən ermənilər Qərbi Azərbaycanda - Ermənistanda yaşayan 200 minə yaxın azərbaycanlı əhalini respublikadan çıxarmaq planını hazırladılar. Lakin İkinci dünya müharibəsinin başlanması bu planın icrasını bir müddət ləngitdi.

### 7.5.1948-53-cü illərin deportasiyası

Azərbaycandan ərazi qopara bilməyən ermənilər Ermənistan ərazisindəki azərbaycanlıların çıxarılması və onların yerinə xarici ölkələrdə yaşayan ermənilərin gətirilməsi haqqında yeni planlar hazırladılar. 1943-cü ildə Tehran konfransı zamanı bu plan haqqında İ.Stalinə məlumat verilir. O, məsələni öyrənməyi tapşırır. 1945- ci ilin noyabrında Er-

mənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q.Arutyunov İ.Stalinə məktub yazaraq Qarabağın Ermənistan SSR-yə birləşdirilməsini təklif edir. Məktubda məsələnin müsbət həll olunacağı reallaşarsa Qarabağın keçmiş mərkəzi Şuşa şəhərinin bərpası haqqında hazırlanmış əlavə təkliflərin də Mərkəzi hökumətə təqdim olunacağı bildirilirdi. Stalin həmin məktubu Malinkova, o isə Azərbaycan Kommunist Parti yasının birinci kaitibi M.C.Bağırova göndərir. M.C.Bağırov məktuba cavabında bildirir ki, Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, *Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər* də onun özünə qaytarılsın. Belə bir şəraitdə məsələnin arzuolunmaz istiqamət ala biləcəyini başa düşən «Ulu rəhbər»” bu məsələnin gələcək inkişafına nöqtə qoyur. Müharibə qurtardıqdan sonra əvvəllər reallaşmayan planın həyata keçirilməsi üçün A.Mikoyan tərəfindən məsələ yenidən gündəmə gətirilir. Azərbaycan xalqının müharibədəki xidmətlərini və verdiyi qurbanları unudan Stalin Azərbaycan xalqına qarşı tarixi xəyanətə yol verərək 1947-ci ilin dekabrın 23-də «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında»” SSRİ Nazirlər Sovetinin qərarını imzalayır.

Mərkəzin qarşısında müti dayanan Azərbaycan SSR Nazirlər Soveti isə 1948-ci il 14 aprel tarixli qərarı ilə SSRİ Nazirlər Sovetinin qərarlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün respublikanın ayrı-ayrı təşkilatları qarşısında duran vəzifələri müəyyənləşdirir, Qubaya köçürüləcək 52 təsərrüfat və 232 adamın köçürmə vaxtını yazdan payıza keçirmək şərti ilə həmin ilin may ayının 13-də məsələ ilə əlaqədar əlavə qərar da qəbul edir. 1948-ci il mayın 18-də respublika Nazirlər Sovetinin sədri Teymur Quliyev Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-dəki nümayəndəsindən

tələb edir ki, razılaşdırmaq üçün Ermənistan SSR Nazirlər Sovetinə təqdim edilən bu məlumatı təxirə salmadan köçürülənlərə çatdırsın.

Köçürmə ilə əlaqədar tədbirlərin həyata keçirilməsinə yanvardan başlandı. 1948-ci il iyulun 9-da Respublika Nazirlər Sovetinin sədri Teymur Quliyev SSRİ Nazirlər Sovetinin sədrinin müavini Molotova məktub yazraq 1948-ci ildə Kür-Araz ovalığına köçürülməsi nəzərdə tutulmuş azərbaycanlı əhalini yerləşdirmək üçün yaşayış binalarının olmamasını, köçürülən əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz ovalığındakı iqlim şəraitinə çətin alışa biləcəyini nəzərə alaraq onların bir hissəsinin respublikanın başqa rayonlarında yerləşdirilməsinə icazə verməyi xahiş edir. Təəssüflər olsun ki, SSRİ Nazirlər Soveti bu məktuba müsbət cavab vermir.

Ermənistan SSR-dən köçürülənlərin ilk dəstəsi Azərbaycana 1948-ci il iyun ayının əvvəlində gəldi. 48 ailədən ibarət dəstə Jdanov rayonunda (indiki Beyləqan) yerləşdirildi. İyul ayının 29-da Goranboy rayonuna 98 ailə gəldi. 1948-cı il noyabrın 1-nə olan məlumata görə Ermənistan SSR-dən Azərbaycan SSR-ə 1.799 ailə, başqa sözlə, 10.584 nəfər köçürülmüşdü.

1948-ci ilin dekabrında Ermənistandan əlavə olaraq 120 ailə köçürülür. Köçürülmənin birinci ilində köçkünləri Azərbaycanın Kür-Araz ovalığında yerləşdirmək mümkün olmadığından Azərbaycanın nisbətən mülayim iqlimi olan ərazilərində yerləşdirilir.

1947-ci il 23 dekabr tarixli məlum qərara əsasən 1949-cu ildə Ermənistandan 40 min azərbaycanlı köçürülməli idi. Ancaq yerləşdirmədəki çətinliklər göstərdi ki, bu qədər əhalini yerləşdirmək asan deyil. Buna görə də, respublika hökuməti mərkəzdən xahiş etdi ki, 1949-cu ildə Ermənistan SSR-dən 12-15 min əhali köçürülsün. Ermənistanla razılaşmaya uyğun olaraq 1949-cu ildə 15.713 nəfər, yaxud 3.818 təsərrüfatın köçürülməsi

planlaşdırılır. Lakin bu razılaşma Moskva tərəfindən bəyənilmir.

1949-cu ildə Ermənistandan köçürülən azərbaycanlılar Zərdab, Əli Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir (indiki Tərtər), Səlyan, Sabirabad, Yevlax rayonlarında yerləşdirilirlər.

1950-ci ildə Azərbaycana 15 min əhalinin köçürülməsi planlaşdırılır. Lakin Azərbaycan hökuməti bu qədər insanın yerləşdirilməsini mümkün hesab etməyib 1951-ci ildə 10 min, 1952-ci ildə 20 min, 1953-cü ildə 20 min, 1954-ü ildə 15 min nəfərin köçürülməsini planlaşdırmağı Moskvadan xahiş edir.

Köçürməyə dair sənədlərdən aydın olur ki, 1950-ci il köçürmənin ən ağır ili olmuşdur. 1950-ci ildə köçürülənlər üçün 3.500 ev tikmək planlaşdırıldığı halda, fakitiki 470 ev tikilir. 1950-ci ildə köçürülənlər üçün ev tikmək və mal-qara almaq məqsədi ilə 19 milyon manat kreditin 13, 9 milyon manatı xərclənmişdi.

Nəticədə, 1947-53-cü illərdə Ermənistan SSR-dən köçürülən bir nəfər də Dağlıq Qarabağ ərazisinə buraxılmamış, əksinə daxili köçürmə yolu ilə 1949-cu ildə Dağlıq Qarabağdan 132 (549 nəfər) azərbaycanlı ailəsi Azərbaycan SSR-in Xanlar rayonuna (indiki Göygöl) köçürülmüşdü.

Köçürülən əhalinin ağır vəziyyətə düşməsi köçürülənlərin yenidən öz yurdlarına qayıtmasına səbəb oldu. Bundan həyəcanlanan ermənilər 1951-ci ilin may -iyun aylarında Ermənistan SSR Nazirlər Soveti yanında Baş Köçürmə İdarəsinə məktub və teleqram göndərmiş, geri qayıtma halları ilə əlaqədar böyük hay - küy kampaniyası qaldıraraq son ildə 400 ailənin geri qayıtdığını bildirmişlər.

Əvvəlki illərdə olduğu kimi, 1951-ci ildə də köçürmə Ermənistan SSR Nazirlər Sovetinin nzarətində olur. 1951-ci ilin oktyabrın 11-də Ermənistan hökuməti azərbaycanlı əhalinin köçürülməsi haqqında yeni qərar qəbul edir. Qərarda 1951-ci ilin 9 ayı ərzində 3.400 ev tikilib istifadəyə verilməli olduğu halda 2.231 ev tikildiyi göstərilir və bu işdə Azərbaycan təqsirləndirilir.

Həmin ildə 1.500 təsərrüfatın köçürülməsi planlaşdırılır. Plan 103% yerinə yetirilir.

1952-ci ildə köçürmənin səviyyəsi bir qədər zəifləyir, köçürmə planı 24% , köçürülənlərə ev tikmək planı isə 80% yerinə yetirilir.

Ermənistandan Azərbaycana köçürülənlərin sayı haqqında müxtəlif rəqəmlər vardır. Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliynin 1954-cü il oktyabrın 14-də Azərbaycan KP MK-ya, respublika Nazirlər Sovetinə yazdığı məktubda göstərilir ki, 1948-1953-cü illərdə Ermənistan SSR-dən respublikanın Kür-Araz ovalığına 11.914 təsərrüfat (53.000 nəfər) köçürülmüşdü.

Azərbaycana köçürülənlərin sayı ilə əlaqədar sənədlərdən aydın olur ki, həmin illərdə rəsmi köçürmə ilə yanaşı, köçürülən yerlərə getmək istəməyənlər, yaxud Ermənistanda yaradılmış dözülməz şəraitdən, təhqirlərdən canını qurtarıb Azərbaycana pənah gətirənlər də az olmamışdı. Onlar kütləvi surətdə Azərbaycanın müxtəlif rayonlarına, əsasən Ermənistanla sərhəd olan Gədəbəy, Tovuz, Şamxor, Zəngilan və s. rayonlara köçmüşlər. Ümumiyyətlə, köçürülənlərin sayı 150 minə yaxın olmuşdu.

Ermənistandakı təqiblərə dözməyib qaçanları Azərbaycanda gülərüzlə qarşılamamışlar. Respublika rəhbərliyi onları incitmiş, qayıtmaq istəyənlərə mane olmuş və onlar yalnız SSRİ Nazirlər Sovetinin qərarında nəzərdə tutulan Kür-Araz ovalığı rayonlarına getməyə məcbur edilmişlər.

Ermənistandan qovulan azərbaycanlıların evlərinə 1946-cı ildə İrandan 20.597 nəfər, Suriyadan 19.253 , Livandan 19.253 , Yunanıstandan 4.974, Bolqarıstandan 4.383, Rumıniyadan 1.738 nəfər erməni – cəmi 50 min nəfər gətirilib yerləşdirilmişdi. Sonrakı illərdə Sovet Ermənistanına ermənilərin qayıdışı azalır. 1947-cı ildə Suriyadan, Livandan, Fələstindən, İrandan, Misirdən, Yunanıs tandan, Fransadan, ABŞ-dan 39.401 nəfər, 1948-ci ildə 1.000 nəfər erməni gətirilib yerləşdirilmişdi.

Ümumilikdə, nəzərdə tutulan 208 min nəfərin əvəzinə yalnız 93.346 erməni Ermənistana gətirilmişdi.

Kür-Araz ovalığı rayonlarını işçi qüvvəsi ilə təmin etmək bəhanəsi altında İrəvanda yaşayan azərbaycanlılarla bərabər Azərbaycan dilində olan pedaqoji məktəb və onun 200 tələbəsi də Xanlar rayonuna, İrəvan Pedaqoji İnstitunun Azərbaycan bölməsi Bakıya köçürülüb Azərbaycan Pedaqoji İnstitutu ilə birləşdirildi.

Acınacaqlı odur ki, Ermənistanda azərbaycanlılar müxtəlif bəhanələrlə sıxışdırılıb, təhqir edilib və alçaldılıb qovulduqları bir vaxtda Azərbaycanda erməni millətindən olan şəxslərin respublika həyatının bütün sahələrində geniş əl-qol açmaları üçün hər cür şərait yaradılırdı.

II cahan müharibəsindən sonra erməni məsələsi nəinki gündəmdən düşür, əksinə bu məsələ hətta BMT-də qızğın müzarkirə olunur. Proseslərin gedişindən narazı olan ermənilər Türkiyənin üzərinə hücuma keçirlər. Uruqvayda yaşayan 8 min erməni adından Erməni Komitəsi BMT Baş Məclisinin sədrinə teleqram vuraraq xahiş edirlər ki, «Türkiyənin ərazisində yerləşən erməni rayonları Sovet Ermənistanına verilsin». Eyni məzmunlu teleqram 30 minlik Argentina erməniləri adından da BMT Baş Məclisinə göndərilir. ABŞ-dakı «Ermənistanın hüquqlarını Amerika müdafiə komitəsi» Təhlükəsizlik Şurasının diqqətini çəkmək üçün ABŞ-ın bir çox şəhərlərində mitinqlər keçirir.

1946-cı ilin may ayında ABŞ-dakı 16 erməni təşkilatı BMT Baş katibi Truqve Liyə məktub göndərərək Təhlükəsizlik Şurasının gündəliyinə erməni məsələsini salmağı və onların öz vətənlərinə qayıtmalarına imkan verilməsini xahiş edir. Məktubda bütün dünyadakı 4 milyon erməni adından tələb edilirdi ki, Qars, Ərdəhan, Ərzurum, Trabzon, Bitlis və Van Sovet Ermənistanına verilsin. Guya bu torpaqlar ABŞ Prezidenti Vilsonun 1918-ci il 8 yanvar tarixli «14 maddəsi» ilə Ermənistana verilmişdi. Məlumdur ki, Vilson bu sənədi o vaxt

Almaniyanın müttəfiqi olan Türkiyəyə qarşı Antantanın əlində alət olan ermənilərin fəaliyyətinə cavab olaraq imzalamışdı.

Kaliforniyadakı erməni arxiyepiskopu Kalfayan da Təhlükəsizlik Şurasına eyni məzmunlu məktubla müraciət etmişdi. Məktubda bildirilirdi: «Əgər indi də böyük dövlətlər … saxtakarlıqla Ermənistana xəyanət edərlərsə, bəşəriyyət ədalət haqqında danışa bilməz». Eyni məzmunlu məktubu Livan erməniləri də göndərmişdilər.

Şübhəsiz ki, burada I Pyotrun «…cürbəcür tədbirlər etmək ki, İran ölkəsi gündən-günə pulsuz və ticarətsiz qalsın. Xülasə, İranı həmişə tənəzzülə sövq edib, tabe halda saxlamaq lazımdır ki, Rusiya dövləti istədiyi vaxt onu zəhmətsiz öldürməyə qadir olsun. Amma, Türkiyə dövləti məhv olmadan İranın canını almağımız məsləhət deyildir» vəsiyyətini həyata keçirən Moskvanın əli var idi. Məqsəd isə, Türkiyəni parçalamaq, zəiflətmək, tarixi rəqibi aradan götürmək idi.

1953-cü ildə Stalin vəfat etdi. Əvvəlcə Beriya həbs edildi. Sonra M.C.Bağırovun məhkəməsi başlandı. Sumbatov-Topuridze, Atakişiyev, Markaryan, Qriqoryan, Borşev, Yemelyanov həbs edildilər və mühakimə olundular.

Bununla iş bitməmişdi. 60-cı illərdə Ermənistanla Azərbaycan arasında münasibətlər yenidən kəskinləşdi. Suslovun dəstəyi ilə Mikoyan yenidən Dağlıq Qarabağ məsələsini ortaya atdı. Bu məsələ Sov. İKP MK müşavirəsində müzakirə olundu. N.S.Xruşşov bunun arzuolunmaz nəticə verəcəyini dərk edərək ermənilərin tələbini rədd etdi.

1964-cü ilin əvvəlində Mikoyan yenidən Dağlıq Qarabağın Ermənistana verilməsini təklif etdi. Etibarlı mənbələrin məlumatına görə, Mikoyan Xruşşova bildirmişdi ki, əgər Dağlıq Qarabağ Ermənistana verilməsə oradakı ermənilər Ermənistana köçəcəklər. N.S.Xruşşov acıqlanaraq «Mən DQMB ermənilərinin bir sutka ərzində Ermənistana köçürülməsi üçün 12 min hərb maşını verməyə hazıram”» demişdi.

XX əsrin 70-ci illərində ermənilərin «səngiyən» ərazi iddiaları 80-ci illərin ortalarında yenidən baş qaldırdı və ermənilər öz

istəklərinə 1988-ci ildə tam nail oldular. 250 min azərbaycanlı Ermənistandan son nəfərə qədər **deportasiya** edildi.

### 7.6. XX əsrin sonunda ermənilərin Azərbaycandan ərazi iddiaları

1988-ci ilin fevralından daha kəskin xarakter alan «Qarabağ" problemi» o zamanlar deyildiyi kimi, heç də həmin regionun sosial-iqtisadi və mədəni inkişafının geri olması səbəbindən irəli gəlməmişdi. Həmin problemə millətlərarası münaqişə kimi baxanlar, digər tərəfdən Alma-Atada, Pribaltikada, Yakutiyada, Şimali Qafqazda, Özbəkistanda milli zəmində baş verən hadisələrlə eyniləşdirənlər də vardı. Əslində isə bu münaqişələr Qarabağ münaqişəsindən fərqli olaraq Rus imperiyasının həmin ərazilərdə yeritdiyi milli siyasətin nəticəsi idi.

Sovetlər ölkəsinin digər regionlarından fərqli olaraq, Moskva Qarabağda baş verən hadisələrə daha diqqətlə yanaşırdı. Burada yaşayan 140 min nəfər erməninin «sosial-iqtisadi və mədəni geriliyi»" demək olar ki, hər gün mərkəzi mətbuatda işıqlandırılırdı. Bununla da, Azərbaycan SSR-nin daxili işi ittifaq əhəmiyyətli işə çevrilirdi. Moskvanın ilk günlərdən erməniləri himayə etməsi yaranmış problemi daha da kəskinləşdirirdi. Dağlıq Qarabağda hadisələrin açıq şəkildə Ermənistan tərəfindən müdafiə edilməsi, burada Azərbaycan əhalisinə və hökumətinə qarşı keçirilən tədbirlərin bilavasitə İrəvan tərəfindən idarə edilməsi hadisələrə daha qorxulu istiqamət verirdi. Azərbaycanın partiya və dövlət orqanları isə Moskvanın təsirilə baş verən hadisələri gizlədir, bunu sadəcə olaraq bir qrup erməni ekstremistlərinin xuliqanlıq hərəkəti kimi qələmə verirdilər. Hətta, vilayətin respublikanın qanunlarına tabe olmaması, respublikanın iqtisadi və dövlət mənafelərinə qarşı çıxması kimi hallar qanun pozuntusu kimi qiymətləndirilir, tezliklə bunların Moskva tərəfindən nizama salınacağına ümid bəslənilirdi.

Dağlıq Qarabağda baş verən hadisələrin xalqdan gizlədilməsi Azərbaycan hökumətinin mövqelərini zəiflətdi, baş verən hadisələr qarşısında Azərbaycanın geri çəkilməsinə səbəb oldu. Azərbaycanın müdafiə mövqeyində durması, hadisələrin mərkəz tərəfindən dayandırılacağına ümid bəslənilməsi erməni daşnaqlarının «Krunq”» təşkilatını daha fəal hərəkət etməyə vadar etdi, onların azğın hərəkətlərinə imkan yaratdı.

Dağlıq Qarabağda Azərbaycan əleyhinə baş verən çıxışlar əslində heç bir milli zəminə, sosial-iqtisadi və mədəni geriliyə söykənmirdi. SSRİ daxilində, eləcə də xarici dövlətlərdə güclü təbliğat imkanlarına və vasitələrinə malik olan ermənilər hadisəyə milli don geydirməklə ictimaiyyətin diqqətini bu hadisəyə cəlb etmək, bununla da Azərbaycan əleyhinə hər cür böhtan və terrorlara haqq qazandırmağa nail oldular. Əslində Dağlıq Qarabağda ermənilərin fəallaşması Sovet dövlətinin daxilən zəifləməsindən, Sovet dövləti aparatında ermənilərin üstünlüyə malik olmasından irəli gəlirdi. Yaranmış vəziyyətdən istifadə edən ermənilər Azərbaycanın tarixi əraziləri olan Dağlıq Qarabağı hansı yolla olur-olsun, Ermənistana birləşdirmək mübarizəsinə qalxmışdılar.

1985-ci ildə SSRİ daxilində başlanan «yenidənqurma» dan istifadə edən ekstremist əhval-ruhiyyəli yuxarı erməni dairələri yenidən fəallaşaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini ortaya atdılar.

Vilayətdə erməni dili hakim dil idi. Ermənistanın Moskva havadarları və Ermənistan rəhbərləri başda Sov. İKP MK-nın baş katibi M.S.Qorbaçov olmaqla «1988-1995-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında”» qərar qəbul edilmişdi. Həmin qərarla vilayətdə yaşayan erməni əhalisinin sosial-iqtisadi şəraitini yaxşılaşdırmaq üçün 400 milyon manat vəsait ayrılmışdı. Ancaq nə fayda ki, məqsəd «Böyük Ermənistan”» yaratmaq olduğundan erməni təcavüzkarları bununla sakitləşmir, 1988-ci ilin fevralın 20-də Dağlıq Qarabağ Muxtar

Vilayəti Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası çağırılır, vilayətin Azərbaycandan ayrılması və Ermənistana birləşdirilməsi haqqında qərar çıxarılır. Qərarda deyilirdi: «Dağlıq Qarabağ erməni əhalisinin arzusunu nəzərə alaraq vilayətin növbədənkənar sessiyası DQMV-nin Azərbaycan SSR-nin tərkibindən Ermənistan SSR-nin tərkibinə keçməsi haqqında qərar qəbul edir. Eyni zamanda bu qərarı həyata keçirmək üçün SSRİ Ali Sovetinin qarşısında məsələ qaldırılır"».

Əlbəttə, həmin dövrdə Dağlıq Qarabağda müəyyən qüvvələr vardı ki, onlar vilayətin Azərbaycandan ayrılmasının arzuolunmaz nəticələr verəcəyini başa düşürdülər. 1988-ci il fevralın 22-də Xankəndində keçirilən partiya fəallarının yığıncağında da bu fikir bir daha səslənmişdi. Ancaq Kommunist partiyası öz nüfuzunu itirmək yolunda olduğundan, onun hadisələri yumşaltmaq səyi heç bir nəticə vermirdi. Bölgədə hadisələrin gedişinə «Krunk» " və «Qarabağ" komitələri» nəzarət edirdilər. Azərbaycanlıların yaşadıqları kəndlərə silahlı hücumlar təşkil edilir, Moskva isə əhalinin əmlakının talan olunmasına susurdu.

1988-ci il fevralın 24-də Ağdam şəhəri yaxınlığında açıq şəkildə iki nəfər azərbaycanlının ermənilər tərəfindən öldürülməsi dövlət tərəfindən araşdırılmadı. Cəzasız qalan ermənilər daha fitnəkar hərəkətlərə əl atmağa başladılar. Ermənistanın Qafan və Masis (Azərbaycanlıların yaşadıqları digər rayonlarda bu iş daha erkən başlamışdı) rayonlarında tarixən məskun olan on minlərlə azərbaycanlı yerlərindən vəhşicəsinə qovuldu. Moskva bu prosesə də göz yumdu. Ermənilər Sumqayıt hadisələrini təşkil etdilər. Bu hadisəsini əllərində bayraq edən ermənilər Azərbaycanda yaşa mağın qeyri-mümkünlüyünü bütün ictimaiyyətə, eləcə də dünyaya yaymağa başladılar. Bununla belə hadisələrə yaxından bələd olan xarici jurnalistlər hadisələrin haradan və kimlər tərəfindən idarə olunduğunu görürdülər. Fransız jurnalisti Aryel Kurun Ağdam yaxınlığında və Sumqayıtda baş verən hadisələr haqqında yazmışdı:

«Azərbaycanlılarla ermənilər arasındakı gərginlik Moskvaya imkan verir ki, buradakı mövqelərini hakim sifəti ilə saxlaya bilsin, özü də Qızıl ordu hissələrinin köməyi ilə. Bizim əlimizdə sübut vardır ki, Sumqayıt hadisəsini törədən azərbaycanlılar deyil».

Dağlıq Qarabağ Mutar Vilayəti Xalq Deputatları Sovetinin XX sessiyasının məlum qərarından sonra Azərbaycana, eyni zamanda Ermənistanda yaşayan azərbaycanlı əhaliyə qarşı açıq təcavüz başlandı. Ermənistan SSR-nin Göyçə, Dərələyəz (Yexeqnadzor, Əzizbəyov rayonu), Vedibasar (Masis, Ararat rayonu), Zəngəzur (Qafan, Sisyan, Meqri rayonu), Amasiya rayonu, İrəvan şəhəri və digər yerlərdə dinc əhali ən alçaq üsullarla öz yerlərindən çıxarılmağa başlandı.

1988-ci il iyun ayının 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə birləşdirilməsi məsələsini müzakirə edib bəyənmiş, məsələnin SSRİ Ali Soveti qarşısında qaldırılması haqqında qərar qəbul edilmişdi. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti «Dağlıq Qarabağ məsələsi"» ni xüsusi iclasda müzakirə edir və müzakirədə Azərbaycan və Ermənistandan olan xalq deputatları, görkəmli alimlər, yazıçılar iştirak edirlər.

Həmin iclasda ermənilərin tərəfdarları olan deputatlar Dağlıq Qarabağın Ermənistana verilməsinə səy etsələr də, məqsədlərinə buna nail ola bilmədilər. İclasda aydın oldu ki, Dağlıq Qarabağ vilayətində baş verən hadisələr uydurulmuş sosial-iqtisadi geriliyin və milli münasibətlərin pozulmasının nəticəsi deyil, Ermənistanın Azərbaycana qarşı açıq ərazi iddiasıdır və bu işin əsil təşkilatçıları Moskvada, İrəvanda və Stepanakertdə məskundurlar. Azərbaycan KP Dağlıq Qarabağ Muxtar Vilayəti Komitəsinin birinci katibi H.A.Poqosyan həmin iclasda öz çıxışını belə tamamlamışdı: «Bu iki millətin nümayəndələri arasında günbəgün minlərlə iqtisadi əlaqə həyata keçirilməlidir. İndi bunlar mümkün olmur. Və gəlin realist olaq. Tezliklə mümkün olmayacaq. Yaranmış şəraitdə yeganə düzgün

qərar Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılmasıdır"».

Çıxışın mətni ilə tanışlıq göstərir ki, burada bir-birinə zidd olan fikirlər yer almışdı. Qeyd edilirdi ki, vilayətin iqtisadi və sosial inkişafına 400 milyon manat ayrılıb. İldə 20 milyon manatdan istifadə etməklə 10 ildə bunun 200 milyonundan istifadə etmək olar. Əgər istehsal gücümüz yoxdursa həmin pullardan bizim yerimizə kim istifadə edəcək. Göründüyü kimi, natiq vilayətin istehsal potensialının aşağı olmasından narazıdır. Çıxışın bir yerində isə deyilir: «..son on illər ərzində yuxarı büdcələr vilayətin inkişafına hər il orta hesabla 91 milyon manat pul ayırmışdır. Vilayətin öz büdcəsi işə 4 milyon manatdır. Biz heç vaxt özgə pulla dolanmırıq. Əgər respublikada (Azərbacanda) adam başına 2 kq ət, 155 kq süd istehsal edilirdisə, vilayətdə müvafiq olaraq 67 kq, 320 kq məhsul istehsal olunur. Həm də, vilayət bir çox məhsulları respublikanın fonduna verir». İstər-istəməz bir sual meydana çıxır. Görəsən, istehsal potensialı olamayan bir vilayət bu cür üstün istehsala necə nail olmuşdur. Digər tərəfdən, vilayətin artıq məhsulları Azər baycan SSR-in ehtiyatlarına yox, bəs hara verilməli idi.

Çıxışdakı ədalətsiz, həm də qərəzli fikirlərdən biri də odur ki, «Qarabağın aran və dağlıq hissələrinin əlaqələrinə gəldikdə onlar arasında heç bir əlaqə yoxdur»" deyə israr olunur. Deməli, ermənilər uydurma dəlillərlə Qarabağı tarixi ərazilərdən ayırmağa cəhd edirdilər Lakin ermənilərin tələblərinin yerinə yetirilməsi açıq şəkildə bir sıra beynəlxalq aktların pozulmasına, SSRİ-nin dağılmasına səbəb olacağından SSRİ Ali Soveti bu tələbi yerinə yetirmədi.

«Böyük Ermənistan» yaratmaq niyyətində olan quldurlar Şaumyan kənd (hazırda Goranboy rayonuna birləşdirilib) və Xanlar rayonlarının (indiki Göygöl) ərazilərinə də göz dikmişdilər. Bu ərazilərdə qanlı cinayətlər törədilir, azərbaycanlıların yaşadıqları kəndlər dağıdılır, ermənilərin

yaşadıqları kəndlər isə himayəyə götürülərək onların rayonlarla əlaqəsinə imkan yadadılırdı. Ermənilər vilayət ərazisində olduğu kimi, burada da ancaq silahlı müharibə aparırdılar.

1989-cu ilin noyabrında Azərbaycan üçün mühüm strateji əhəmiyyət daşıyan Göygöl yolu ermənilər tərəfindən tutuldu. Yolun tutulması ilə onlarla azərbaycan kəndi ilə gediş-gəliş kəsildi. Ən başlıcası isə, bu yol Murov dağından keçməklə Kəlbəcərə gedirdi. Artıq tezliklə Ağdərə-Kəlbəcər yolu da ermənilər tərəfindən bağlanacaq və Kəlbəcər mühasirə vəziyyətinə düşəcəkdi. Göygöl yolu üzərində bir neçə kənd vardı ki, orada ermənilər yaşayırdı. Bun lardan ən böyüyü Ğaykənd idi. Bu kənd əslində erməni quldur larının cəbhəxanasına çevrilmişdi. Bu vəziyyətin yaranmasına səbəb kəndin diqqətdən kənarda qalması, əlverişli coğrafi mövqedə olması idi.

Qarabağda hadisələr başlayandan kəndə İrəvandan müntəzəm vertalyot uçuşları təşkil edilirdi. Stepanakert təyyarə limanı nəzarət altında olduğundan Dağlıq Qarabağ ərazisinə göndərilən quldurlar əvvəllər bu kəndə gəlir, sonra yerlərə paylanırdılar. 1989-cu ilin son aylarında Çaykənd ətrafında ermənilər 28 nəfər azər baycanlını qətlə yetirmişdilər. Ermənistan SSR Ali Sovetinin 1990-cı il yanvarın 9-da keçirilən sessiyasında Şaumyan kənd rayonunun Çaykəndlə birlikdə Dağlıq Qarabağ ərazisi kimi göstərilməsi və onların inkişafına dair büdcə təsdiq edilməsi hadisələrin daha da qızışmasına səbəb oldu.

Çaykənd sakinləri bu birləşməni təntənə ilə qeyd etdilər. Həmin bayram münasibətilə yanvarın 11-də Dağlıq Qarabağdan və İrəvandan bu rayona 400 yük maşını ilə böyük hissəsini hərbi sursat təşkil edən müxtəlif yüklər gətirilidi. Yüklərlə birlikdə hər birində 20 erməni qulduru olan 4 vertalyot da Çaykəndə gəlmişdi. Bütün bunlardan sonra, Azərbaycanın dövlət rəhbərləri hadisənin təhlükəli olduğunu dərk etdilər.

Baş verən hadisələr Sovet ordusu əsgərlərinin gözü qarşısında cərəyan edirdi. Dağlıq Qarabağ üzrə Xüsusi İdarə

Komitəsi və onun rəhbəri, Şuşa seçki dairəsindən SSRİ Xalq deputatı seçilmiş Arkadi Volski Moskva və İrəvanın mövqeyində olduğundan heç bir əməli tədbir görmürdü. Azərbaycan isə öz daxili imkanları səviyyəsində öz müdafiəsi qayğısına qalmır, gözləmə mövqeyi tuturdu. Volskinin mövqeyi Azərbaycanda xalq üçün aydın olsa da, hökumət dairələri qəti addım atmırdı. Azərbaycan xalqı anlayırdı ki, Volski Moskvanın bütün planlarının istiqamətvericisidir. Bu səbəbdən də, Azərbaycanda İttifaq dövlətinə qarşı inamsızlıq yaranırdı. Müxalifət qüvvələri İttifaq dövlətindən ayrılmaq tələbi ilə çıxış edirdilər. Moskva isə ikibaşlı oyun oynayır, Azərbaycana ermənilərin əli ilə dərs vermək üçün planlar hazırlayırdı. Belə planların tərkib hissələrindən biri kimi, 1990-cı il yanvarın 10-da Sov. İKP MK-nın Siyasi Bürosu «Dağlıq Qarabağda vəziyyəti normallaşdırmaq haqqında»" qərar qəbul etdi. Qərarda Dağlıq Qarabağ Xüsusi İdarə Komitəsi öz missiyasını «başa çatdırdığı üçün» onun işi dayandırılır, əvəzində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Respublika Təşkilat Komitəsinin yaradılması nəzərdə tutulurdu. Əslində belə bir qərar 1988-ci ildə olmalı idi ki, yaranan vəziyyətə müvafiq olaraq Azərbaycan müstəqil hərəkət edə bilsin. Artıq gec idi, erməni silahlı dəstələri yaradılmış və fəaliyyət göstərirdilər. Erməni silahlılarına qarşı münaqişə zonasındakı azərbaycanlılar tərkisilah edilmişdilər. Verilən qərar bir də ona görə gecikdirilmişdi ki, artıq Dağlıq Qarabağ mahiyyət etibarilə Azərbaycandan iqtisadi və siyasi cəhətdən Azərbaycandan ayrılmışdı. Burada hakimiyyəti «Böyük Ermənistan»" arzusu ilə yaşayanlar idarə edirdilər. Milli münasibətlər o dərəcədə gərginləşmişdi ki, iki xalq qarşı-qarşıya dayanmışdı.

Dağlıq Qarabağ üzrə Təşkilat Komitəsinə rəhbərlik Azərbaycan KP MK-nın ikinci katibi V. P.Polyaniçkoya həvalə edildi. Komitə əslində Volskinin işini başqa formada davam etdirirdi.

Ermənilər nəinki Dağlıq Qarabağ ərazisində, ondan kənarlarda da Azərbaycana qarşı təxribatlar törədirdilər. Belə təxribatlardan biri 1990-cı ilin yanvar ayının 10-da Ağdam rayonunda baş verdi. Rayondakı avtovağzal partladıldı.

## 7.7. XX əsrin 80-90- cı illərində Azərbaycanda milli-azadlıq mübarizəsinin güclənməsi

Qarabağ münaqişəsinin yaranması Azərbaycanı sonu görünməyən bəlaya düçar etsə də, azəri türklərində milli şüurun yenidən oyanmasına səbəb oldu. Azərbaycanın ərazi bütövlüyü uğrunda başlanan kortəbii hərəkat tez bir zamanda milli-azadlıq hərəkatına çevrildi.

Azərbaycanda gedən milli-azadlıq hərəkatı bir neçə mərhələdən keçmişdir.

Hərəkatın *birinci mərhələsi* 1988-1989-cu il iyul ayına qədərki dövrü əhatə edir. Bu mərhələ milli-azadlıq hərəkatının kortəbii halda başladığı və təşkilatlanmaya doğru getdiyi bir dövrdür.

Bəllidir ki, 1988-ci ilin fevral ayında DQMV-də erməni seperatçı qüvvələri gizli fəaliyyətdən açıq fəaliyyətə keçdi. Erməni seperatçıları Dağlıq Qarabağı Azərbaycan SSR-nin tərkibindən çıxarıb Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə qeyri-qanuni mitinqlər keçirməyə, imzalar toplamağa başladılar. Həm Dağlıq Qarabağda, həm də Ermənistanda antitürk əhval-ruhiyyə artdı. Azəri türklərinin Ermənistandan zor gücünə qovulması prosesi başladı. Artıq fevral ayının ikinci yarısında Ermənistandan 4 mindən çox azəri türkü qovuldu.

Moskvanın hadisələrə loyal münasibətindən istifadə edən «Qarabağ» və «Krunk» komitələri Ermənistanda və Dağlıq Qarabağda gedən hadisələri böyük ustalıqla idarə edir, ərazi iddialarına nail olmaq üçün hər cür cinayətə əl atırdılar.

Hadisələrin getdikcə kəskinləşməsi Bakıda kortəbii mitinqlərin keçirilməsinə səbəb oldu. Xalq rəhbərlikdən qəti tədbir görülməsini tələb etdi. Belə bir şəraitdə «Qarabağı" müdafiə məqsədi ilə» baş verən ayrı-ayrı mitinq və çıxışlarda

tədricən təşkilatlanma dövrünə qədəm qoyuldu. Artıq 1988-ci ilin yayından etibarən qeyri-formal qruplar fəaliyyət göstərməyə başladılar. Belələrinə «Varlıq»", «Çənlibel»", «Yurd»", «Gənc alımlər»" və başqa xırda qrupları göstərmək olar.

1988-ci ilin yayında «Bakı alimlər klub"u»nda Azərbaycan ziyalılarının nümayəndələri tərəfindən SSRİ-nin tərkibində suverenliyə nail olmaq şüarı irəli sürən Pribaltika respublikaları xalq cəbhələri tipində Azərbaycan Xalq Cəbhəsi (AXC) yaratmaq üçün təşəbbüs qrupu yaradıldı. Respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni problemlərinin həllində xalq kütlələrinin fəal iştirakını təmin etməyi qarşısına məqsəd qoymuş «Varlıq"» qrupu bu sahədə önəmli rol oynadı.

Azərbaycanda milli hərəkatın I mərhələsinin ən yüksək zirvəsi 17 noyabr - 5 dekabr günlərində baş verən **Meydan hərəkatı** oldu. Gəncədə, Şəkidə, Mingəçevirdə, digər şəhər və rayonlarda mitinq və nümayişlər keçirildi.

Dekabrın 5-də Azadlıq (keç.Lenin) meydanı rus əsgərlərinin dəyənəkləri ilə mitinqçilərdən təmizləndi. «Təmizlənmə əməliyyatı» nda 500 nəfər xəsarət aldı, bir nəfər şəhid oldu. Bu, Azərbaycan xalqının azadlıq yolunda verdiyi ilk şəhid idi. Meydan hərəkatı Azərbaycan milli-azadlıq hərəkatının liderlərinin yetişməsində əhəmiyyətli rol oynadı. Meydan hadisələrindən sonra respublikada nisbi sakitlik yarandı. Hərəkatın liderlərinin bir qrupu həbs olundu.

1989-cu il fevral-mart aylarında AXC- nin təşəbbüs qrupu ilə «Varlıq» qrupu arasında əldə olunan saziş nəticəsində AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzi (MTM) təşkil olundu. Sazişə əsasən AXC MTM-nin işçi orqanı olan Koordinasiya şurası (hər qrupda 5 nəfər olmaqla 10 nəfər) təsis olundu.

1989-cu il iyulun 16- da Bakıda yarımleqal şəraitdə AXC-nin təsis konfransı keçirildi. Konfrans 15 nəfərdən ibarət İdarə heyəti (İH) seçdi. Azərbaycan EA-nın Əlyazmaları İnstitutunun əməkdaşı Əbülfəz Əliyev AXC-yə sədr seçildi.

AXC-nin yaranması ilə Azərbaycanda mili-azadlıq hərəkatının kortəbii və təşkilatlanma mərhələsi olan I mərhələ başa çatdı. Bu dövrdən başlayaraq hərəkat AXC tərəfindən idarə olunmağa başladı və milli-azadlıq hərəkatı *ikinci mərhələyə (1989-cu il iyul 1990-cı il yanvar)* qədəm qoyaraq yüksələn xətlə inkişaf etdi.

İkinci mərhələni milli hərəkata rəhbərlik edən AXC-də radikal və liberal qanadların yaranması və onlar arasındakı kəskin mübarizə dövrü kimi də səciyyələndirmək olar. Bu mərhələ rus ordusu tərəfindən Bakıda törədilən 20 yanvar faciəsilə başa çatdı.

1989-cu il iyul ayının 29-da və avqustun 12-də Bakıda AXC tərəfindən təşkil olunmuş mitinqlər keçirildi. AXC bu mitinqlərdə DQMV XİK-nın ləvği, Azərbaycanın suverenliyi (İttifaq daxilində), iqtisadi müstəqilliyi, vətəndaşlıq haqqında qanunlar və başqa tələblərlə çıxış edirdi”. Respublika rəhbərliyinin mitinqçilərin tələblərin heç birinə cavab verməməsi bir günlük tətillə nəticələndi.

Sentyabrın 4-də AXC-nin təşkil etdiyi mitinqdə əvvəlki tələblər yenidən səsləndi. Tələblərə cavab verilməməsi səbəbli bir həftəlik ümummilli tətil başladı. Tətilə dəmiryolçuların qoşulması nəticəsində həm Cənubi, həm də Şimali Qafqazda dəmir yolu nəqliyyatı iflic vəziyyətinə düşdü.

Mitinq və tətil iştirakçılarının sayının durmadan artması, respublika iqtisadiyyatının zəifləməsi respublika rəhbərliyini - Ə.Vəzirovu güzəştə getməyə məcbur etdi. 1989 - cu il sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar X sessiyası işə başladı. Çox gərgin keçən sessiyada DQMV-də vəziyyət haqqında qərar qəbul edildi. Sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti suverenlik haqqında qanun qəbul etməyə məcbur oldu. Qanunda respublika mənafeyinin ittifaq mənafeyindən üstün tutulması və SSRİ-dən çıxmağa dair bənd əksini tapdı.

Xalqın tələbi ilə Azərbaycan SSR Nazirlər Soveti 1989-cu ilin oktyabrında AXC-ni rəsmi qeydiyyatdan keçirdi.

Azərbaycanda faktiki olaraq ikihakimiyyətlilik yaranmışdı. AXC-nin kütləvi hərəkata çevrilməsi, burada bütün tərəflərin təmsil olunması təbii olaraq fikir ayrılığına, ixtilaflara gətirib çıxarmalı idi. Buna görə də, AXC-nin daxilində parçalanma prosesi başlandı. Bununla yanaşı, xalq hərəkatından istifadə edib hakimiyyət başına keçmək istəyən mafioz qüvvələrin AXC-yə soxulması da radikal və liberal qanadların formalaşmasını sürətləndirdi.

Noyabr ayından başlanan hərəkat dekabrda AXC-nin İdarə heyətinin istefası ilə başa çatdı. AXC-də yenidən təşkilatlanma başlandı. Nəhayət, 1990- cı il yanvarın 6-7-də keçirilən konfransda liberallar radikallar üzərində qələbə çaldı.

Milli-azadlıq hərəkatının yüksəlməsi Moskvanı narahat etməyə bilməzdi. İmperiya milli-azadlıq hərəkatını boğmaq üçün 1989-cu ilin sonlarında geniş fəaliyyətə başladı. İlk əvvəl AXC daxilində baş verən böhrandan istifadə etməklə onu dağıtmağa və milli hərəkatı zəiflətməyə çalışdı. Buna nail olmadıqda imperiya güc vasitəsi ilə hərəkatı boğmaq qərarına gəldi. Yanvarın 13-də Bakıda erməni talanları təşkil olundu. Çox çətinliklə yanvarın 16-da talanın qarşısı alındı. Yanvarın 17- də Bakıda istefa tələbi ilə mitinqlər başladı.

Moskva Oyuncaq hakimiyyəti qurmaq və milli-azadlıq hərəkatını boğmaq üçün yanvarın 19-dan 20-nə keçən gecə xəbərdarlıq etmədən Bakıya qoşun yeritdi. İşğalçı rus qoşunları Bakıda dəhşətli qırğın törətdilər. Rus qoşunları bu faciəni Kürdəmirdə, Lənkəranda da reallaşdırdlar. Yüzlərlə adam həbs olundu. Lakin Moskva Azərbaycan xalqının azadlıq əzmini qıra bilmədi.

Milli hərəkatın *III mərhələsi* milli - azadlıq hərəkatının enməsi və sabitləşməsi mərhələsi kimi xarakterizə olunur və 1990-cı ilin yanvar və 1991-ci ilin avqust aylarını əhatə edir. Artıq bu mərhələdə milli - azadlıq hərəkatının bayradarı rolunu oynayan AXC-də SSRİ-dən kənarda müstəqil Azərbaycan ideyasının formalaşması başa çatır. Azərbaycanın müstəqilliyi-

nin əldə edilməsi və ərazi bütövlüyünün qorunması üçün tətil və mitinqlərin kifayət etmədiyini başa düşən demokratik qüvvələr parlamentdən istifadəni önə çəkirlər.

20 yanvar faciəsindən sonra ümumilikdə milli hərəkatda zəifləmə və durğunluq dövrü başladı. Bunun obyektiv səbəbləri vardı. Məlumdur ki, 20 yanvarda xalq hərəkatına qanlı divan tutulması, hərəkat liderlərinin bir çoxunun həbs olunması, bəzilərinin mühacirət etməsi, Bakıda, o cümlədən respublikanın iri şəhərlərində fövqəladə vəziyyət rejiminin tətbiqi ümumilikdə hərəkata mənfi təsir göstərmişdi. Mərkəz 20 yanvar faciəsindən sonra oyuncaq Ə.Vəzirovu, oyuncaq A.Mütəllibovla əvəz etmişdi. Azərbaycan xalqı isə «Qanlı Yanvar"» hadisələrinin ilhamvericisi olan sovet imperiyasına etiraz və nifrət əlaməti olaraq 40 günlük tətil keçirdi.

İlk dövrdə AXC ilə respublika rəhbərliyi arasında kəskin fikir ayrılığı yarandı. Bunun çox təhlükəli sonluqla bitəcəyini hiss edən ziyalıların - Azərbaycan Elmlər Akademiyasının 75 üzvünün imzaladığı «75-lərin bəyanatı"» verildi. Bəyanatda respublika rəh bərliyi ilə AXC arasında dialoqun təşkili əsas yer tuturdu. Nəhayət, respublika rəhbərliyinin AXC ilə dialoqu baş tutdu, Məşvərət Şurası yaradıldı. Mayın 17-də keçirilən Məşvərət Şurasının ilk iclasında Azərbaycanda prezident postunun təsis olunması və müstəsna hal kimi prezidentin Ali Sovetdə seçirilməsi haqqında razılaşma əldə olundu.

Milli-azadlıq hərəkatının zəifləməsindən, onun tanınmış liderlərinin həbsindən istifadə edən partiya elitası 20 yanvar hadisələri səbəbli kecikmiş parlament seçkilərini keçirmək qərarına gəldi. 1990-cı il iyun ayının 26-da Ali Sovetin sessiyasında seçki qanunu qəbul edildi və seçkilər həmin ilin sentyabr ayının 30-na təyin edildi.

İyul ayında AXC-nin təşəbbüsü ilə Demokrtik Azərbaycan bloku (Demblok) təsis edildi və buraya 50-yə qədər təşkilat daxil oldu. Demblok 166 seçki dairəsindən 231 namizəd irəli sürdü.

Kütləvi saxtakarlıqla müşahidə olunan 1990-cı il 30 sentyabr seçikilərində partiya elitası qalib gəldi. Demblokdan olan namizədlərin 30 nəfəri deputat mandatı əldə edə bildi. Deputat mandatı qazanmış müxalifətdən olan millət vəkilləri parlamentdə müstəqil Azərbaycan Deputat Blokunu (MADB) təsis etdilər. Beləliklə, Azərbaycanda ilk parlament müxalifəti yarandı. Lakin hələ də İttifaqdan ayrı yaşamağı qeyri - mümükün hesab edən partiya elitası referendum haqqında qanunu kobud şəkildə pozaraq Azərbaycan xalqını SSRİ -nin saxlanılması haqqında referenduma sürükləmək cəhdi yenidən respublikada mitinqlər və tətillər dalğasının artmasına səbəb oldu.

AXC referendumu baykot etdi. AXC-nin lideri Ə.Elçibəy və Demblokun bir qrup deputatı aclıq elan etdi. Xalqın referenduma qarşı çıxması müstəqillik hərəkatının parlaq təzahürü idi. Hər cür təzyiqlərə baxmayaraq o zaman Naxçıvan Ali Məclisinin sədri olan H.Əliyevin cəsarəti və qətiyyəti nəticəsində Naxçıvan Muxtar Respublikası referendumda iştirak etmədi. Lakin kütləvi saxtalaşdırma nəticəsində 95% əhali İttifaqın qalmasına «səs verdi».

Ermənistan SSR referendumda iştirak etmədiyinə görə mərkəz onu cəzalandıraraq məşhur Çaykənd əməliyyatını keçirdi. Bu əməliyyat, həm də Azərbaycan rəhbərliyinin referendumda iştirakına hədiyyə olub Azərbaycanı yeni ittifaq müqaviləsinə şirnikləşdirmək məqsədi daşıyırdı.

«Çaykənd" əməliyyatı» A. Mütəllibovun və onun kommunist rejiminin «nüfuzunu qaldırdı». Mütəllibov ümumxalq səsverməsi ilə prezident seçilmək, öz hakimiyyətini möhkəmlətmək qərarına gəldi və 1991-ci il sentyabr ayının 8-nə prezident seçkiləri təyin olundu. Lakin avqustun 19-da Moskvada qiyam baş verməsi, A.Mütəllibovun FHDK –nı (QKÇP –ni) müdafiə etməsi və gözlənilmədən qiyamın baş tutmaması A. Mütəllibovun şişirdilmiş nüfuzunun aşağı düşməsinə

səbəb oldu. Beləliklə, avqust hadisələri ilə milli-azadlıq hərəkatının III mərhələsi başa çatdı və yeni yüksəliş dövrü başlandı.

Azərbaycanda milli-azadlıq hərəkatının *IV mərhələsi 1991-ci ilin avqustunda* başladı. Bu mərhələ son nəticədə Azərbaycanın müstəqliliyinin bərpası ilə başa çatdı. Bundan sonra milli-azadlıq hərəkatı mahiyyətcə yeni xarakter almağa başladı.

### 7.8. 1990 - cı il 20 yanvar faciəsi

1990-cı il Azərbaycan xalqının həyatında xüsusi səhifəni təşkil edir. 1990-cı il faciəsinə gedən yol isə ağır və çətin olmuşdu.

1989-cu ilin sonunda baş verən hadisələr - AXC-nin daxilində parçalanmanın üzə çıxması, dekabrda Cəlilabadda baş verən hadisələr, Naxçıvan MSSR-də sərhəd boyundakı hərəkat hakimiyyət böhranının dərinləşdiyini göstərirdi.

Dekabrın 31- də saat 12-00 da Araz çayı boyu 137 km. Sovet-İran sərhəddində həyacanlar başladı. Sərhəd qurğuları dağıdıldı. 1990-cı il yanvarın 7-də SSRİ-Turkiyə sərhəddində həyacanlar baş verdi. Biləsuvar və Cəlilabadda sərhəd qurğuları söküldü. 1990-cı il yanvarın 11-də Lənkəranda hökumət orqanlarının fəaliyyəti dayandırıldı.

Respublikada hadisələrin məcrasından çıxması və hadisələr üzərində nəzarətin itirilməsi ilə razılaşmayan mərkəz müxtəlif qoşun hissələrini Azərbaycanda cəmləşdirməyə başladı. «Tayfun» adlı əməliyyat planı hazırlandı.

1990-cı il yanvarın 13, 15, 16, 17 və 18-də Azərbaycan KP MK-nın büro iclaslarında respublikadakı vəziyyət müzakirə olundu. Müzakirələrdə Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafa rova, M.Məmmədov, V.Hüseynov və başqaları, həmçinin Bakıda olan Y.Primakov və digər hərbiçilər güc tətbiq edilməsini zəruri saydılar.

Yanvarın 15-də Ə.Vəzirovun Moskvaya göndərdiyi teleqramda hərəkat liderlərindən bir qrupunun məsuliyyətə cəlb olunması tələb olunurdu. Azərbaycan SSR Nazirlər Sovetinin

sədri Ayaz Mütəllibovun Moskvaya göndərdiyi telelqramda isə qeyri-qanuni birləşmələrin tərksilah edilməsi üçün əməliyyat keçiriləcəyi təqdirdə hərbi kontingentin ərzaqla təmin edilməsi üçün imkanlar olduğu bildirilirdi. Bir sözlə, respublika rəhbərləri hərbi qüvvələrin ölkəyə gətirilməsi ilə xalqın milli müstəqillik arzularını susdurmaq istəyirdilər.

Demokratik qüvvələrə divan tutmaq vaxtı çatmışdı. Bunun üçün isə ilk növbədə fövqəladə vəziyyət elan olunması vacib idi. Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov yanvarın 14-dəki büro iclasında belə qərarın qəbuluna nail oldu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də «DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında» fərman verdi.

Respublikada vəziyyət getdikcə ağırlaşırdı. Şəhərdə barrikadalar qurulur, respublikada cəmləşdirilmiş qoşunların daxilinə irəliləməsinə yol verməmək üçün maneələr yaradılırdı. Moskvadan Bakıya gələn yüksək çinli emissarların AXC nümayəndələri ilə danışıqları da bir nəticə vermirdi. Yanvarın 17- də Azərbaycan



**20 Yanvar şəhidlərinin dəfn mərasimi -**
**22 yanvar 1990 - cı il.**

KP MK binası qarşısında mitinqlər başladı və ümümi tətil elan olundu.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan «Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında» fərman verdi. Fövqəladə vəziyyətin elan olunacağı vaxt isə xalqdan gizli saxlanıldı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-dan başlamasına baxmayaraq qoşun hissələri yanvarın 19-da saat 21-dən şəhərə yeridildi. «Bakı əməliyyatı» na SSRİ Müdafiə Naziri Dmitri Yazov şəxsən rəhbərlik edirdi. Ağır hərbi texnika qarşısına çıxan hər şeyi dağıdaraq əliyalın əhalini gülləboran etdi. Şəhər nəqliyyatı, yaşayış evləri, təcili yardım maşınları, bir sözlə, qarşıya çıxan hər şey məhv edildi.

Rəsmi məlumata görə, Sovet ordusunun hücumu vaxtı Bakıda və başqa yaşayış məntəqələrində 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü.

20 yanvar hadisələri respublikanın rayonlarında yeni mitinqlər dalğasına səbəb oldu. İnsanlar kütləvi surətdə Sov.İKP sıralarından çıxmağa başladılar. Təşkil olunmuş mitinqlərdə partiya biletləri yandırıldı. Xalq milli – azadlıq uğrunda şəhid olmuş qəhrəman övladlarını yanvar ayının 22- də son mənzilə yola saldı.

20 yanvarda Azərbaycan xalqı bir daha azad yaşamağa layiq
və qadir olduğunu təsdiq etdi. milli-azadlıq mübarizəsinin zirvəsi olan 20 yanvarda şəhid olanlar xalqın qəlbində əbədi yaşayacaqdır.

**7.9.Xocalı soyqırımı** XX əsrdə Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri 1992-ci ilin fevralında törədilən Xocalı soyqırımıdır. Erməni qaniçənləri Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə əlbir

olaraq XX əsrin Xatın, Sonqımı faciələrindən daha dəhşətli soyqırımı törətdilər.

1992-ci il fevralın 25-də saat-21- də erməni hərbi birləşmələri, 366-cı alay, habelə xaricdən gətirilmiş muzdlular Xocalıya hücum etdilər. Hava limanına vurulan zərbələrdən sonra azsaylı və pis silahlanmış şəhər müdafiəçiləri müdafiə olunmaqda davam etdilər. Bu döyüşdə Xüsusi Təyinatlı Milis dəstəsinin rəisi, milis mayoru Əlif Hacıyev və onun 22 nəfərlik dəstəsi mərdliklə müdafiə
olundular. Qeyri-bərabər döyüşün nəticələrini başa düşən Ə.Hacıyev hava limanının dispetçer məntəqəsini partlatdı. Ağır yaralanan komandir qəhrəmanlıqla həlak oldu. Ölümündən sonra ona Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı



**Xocalı soyqırımının qurbanlrı.1992- ci il fevral**

verildi.

Düşmən tankları və zirehli maşınları artilleriya hazırlığından sonra Mehdikənd, Qərargah və Daşbulaq tərəfdən

Xocalıya soxul dular. Ermzənilərin komandanlıq etdiyi 366-cı alayın ikinci (komandir, mayor Ohanyan), üçüncü (komandir, mayor Nabodixın) motoatıcı taborlar, topçu diviziyası, Lixodeyanın rəhbərliyi altında D-3 topu xüsusi vəhşiliyi ilə fərqləndi.

Düşmən alaylarına qarşı qeyri-bərabər döyüşdə son gülləsini özünə vuran Tofiq Hüseynovun taboru xüsusi mərdliklə vuruşdu. Ölümündən sonra ona Azərbaycan Respublikasının Milli Qəhrə manı adı verilmdi.

Düşmən əsgərləri müxtəlif istiqamətlərdən Xocalıya soxularaq onu yandırdılar. Müdafiəsiz qalan şəhər əhalisi-əsasən qadınlar, uşaqlar və qocalar Ağdam istiqamətinə üz tutdular. Əhalinin bir hissəsi qarlı-şaxtalı gecədə həlak oldu. Sağ qalanlar isə səhərisi gün Qaraqaya adlı yerdə pusquda dayanan erməni əsəərlərinin gülləsinə tuş gəldilər.

Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədildi. 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü. 1000-dən artıq dinc sakin şikəst oldu. 1.275 nəfər əsir götürüldü, 8 ailə tamamilə məhv edildi. 56 nəfər diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi.

Xocalı faciəsi respublikada siyasi gərginliyi artırdı.Nəticədə Azərbaycan Ali Sovetinin sədri Elmira Qafarova və prezident Ayaz Mütəllibov istefa verdilər.

Xocıla soyqırımından sonra Azərbaycan xalqı dəhşətli günləri yaşamaqda davam etdi. Əbədi və əzəli torpaqlarımız işğal olundu.

XX əsrin sonlarında baş verən hadsələr, 20 yanvar faciəsivə Xocalı soyqırımı sovet imperiyasının işğalçılıq siyasətinin son akkordları idi. 1813- cü ildən Azərbaycan torpaqlarını ikiyə bölən imperiya sonrakı mərəhələrdə vətənimizin torpaqlarını hərraca qoymuş, onu hissə-hissə öz dindaşlarına və müttəfiqlərinə «hədiy yə» etmişdi.

Tarixin yaddaşına nəzər salaq.

1813 -1828 - ci ilə qədər Azərbaycan ərazisi təxminən 410 min kv. km. idi. 1813 -1828 - ci illərdə Azərbaycan ərazilərinin

bir hissəsi –Cənubi Azərbaycan ərazisi (sahəsi 280 min kv.km.) İran əsarəti altına düşmüşdür. Rusiya əsarəti altına düşən ərazi isə 130 min kv.km olmuşdur. 1918 - ci ildə Rusiyanın təzyiqi ilə ərazisi 9 min kv.km olan İrəvan xanlığı ermənilərə verilmişdir. Rusiyanın əsarəti altında keçən, sahəsi 7 min kv. km. olan Dərbənd xanlığı yaradılmışdır.

1918 - 1920 - ci illərdə Azərbaycan Demokratik Respub likasının qurulduğu ərazinin sahəsi 114 min kv.km olmuşdur. 1920- ci ildə ADR-i işğal edən Rusiya sovet imperiyası Azərbaycan ərazilərini bölüşdürərək Zəngəzur, Göyçə, Şərur, Dərələyəz və Dilicanı ermənilərin, Borçalı ərazisini gürcülərin nəzarətinə verilmişdir.

Ümumiyyətlə, Azərbaycan XI ordunun işğalından sonra 29.338,2 kv. km. ərazisini Ermənistan və Gürcüstana hədiyyə etmişdir. Bu ərazilərdən İrəvan (qalan hissəsi) (3.100, 2 kv. km), Zəngəzur (çox hissəsi) (5.115, 4 kv. km), Qazax (2.980, 3 kv.km), Dərələyəz (1.583, 8 kv.km) Ermənistana, Borçalı (bir hissəsi) (5.161,4 kv.km.), Sıqnax (6.832, 6 kv. km) və bir sıra başqa ərazilər (4.564, 6 kv. km.) Gürcüstana verirlmişdir. 1920-1991- ci illərdə SSRİ  əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respub likasının ərazisi 86,6 min kv. km olmuşdur.

1988 - 1994- cü illərdə Azərbaycanın əraziləri erməni separat çıları tərəfindən işğal edilmişdir. Azərbaycan tarixinə qara səhifə kimi düşmüş həmin tarixi günləri hər bir Azərbaycan vətəndaşı unutmamalıdır:

**Keçmiş Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut):

**İşğal tarixi** – 1988-1994- cü illər. Sahəsi: **4.400 kv.km.**

**Şərur rayonunun Kərki və Künnüt kəndləri** (17 fevral 1990-cı il) – **19 kv.km**.

**Laçın** (17 may 1992 - ci il) - **1.835 kv.km.**

**Kəlbəcər** (3-4 aprel 1993 - cü il) **- 1.936 kv. m.**

**Ağdam** (23 iyul 1993- cü il) – **1.094 kv. km.**

**Cəbrayıl** (18 avqust 1993 - cü il) - **1.050 kv.km.**

**Füzuli** (23 avqust 1993 - cü il) – **1.386 kv.km.**

**Qubadlı** (31 avqust 1993- cü il) - **802 kv.km.**
**Zəngilan** (30 oktyabr 1993- cü il) - **707 kv.km**.

## 7.10. XX əsrin 80-90-cı illərinin milli-azallıq hərəkatının liderləri (Ə.Əliyev, B.Vahabzadə, X.R. Ulutürk, A.Məmmədov, S.Rüs-təmxanlı, D. Əliyeva və b. )

Dünyanın siyasi xəritə sində, bəşəriyyətin tərəqqi və inkişafında xüsusi mərhələni təşkil edən XX əsr bütün dünyada olduğu kimi, Azərbay canda da milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal uğrunda mübarizə ilə xarakterikdir. Əsrin birinci iki onilliyində sürətlə cərəyan edən milli istiqlal hərəkatı öz öndərlərini, görkəmli xadimlərini tarix səhnəsinə çıxarmışdı. XX əsrin sonla rında Azərbaycanda geniş vüsət alan milli-azadlıq hərəkatı Müstəqil Azərbaycan Respublikasının yaranmasına gətirib çıxardı və təbii ki, bu prosesdə azadlıq hərkatnın liderləri yetişdi.

Azərbaycan xalqının milli müstəqillik hərəkatı tarixində öndə duran liderlərin başçısı və müdrik rəhbəri **Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) (24.07.1938-22.08.2000)** olmuşdur. Əbülfəz Əliyev 1938-ci il iyun ayının 7-də Naxçıvan MR-nın Ordubad rayonunun Kələki kən-dində anadan olub. 7 illik Unuskənd məktəbini bitirdikdən sonra Ordubad şəhər 1 saylı orta məktəbdə təhsi lini davam etdirib. 1957-ci ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə daxil olub. 1962-ci ildə universiteti bitirdikdən sonra təyinatla SSRİ Hidrolayihə İnstitutunun Bakı şöbə sində tərcüməçi işləyib. Misir Ərəb Respub likasına göndərilən Əbülfəz bəy 1963-1964-cü cü illərdə Əsvan bəndinin tikintisində tərcüməçi kimi çalışıb. Xarici ezamiyyətdən dönərək 1965-ci ildə BDU-nun aspiranturasına daxil olan Ə.Əliyev 1968-ci ildə aspiranturanı bitirmişdi. 1969-cu ildə «Tulunilər dövləti (868-


**Əbülfəz Əliyev**

905) mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alan Ə.Əliyev 1968-1975-ci illərdə BDU-nun «Asiya və Afrika ölkələri tarixi» kafedrasında müəllim və baş müəllim işləyib.

1975-ci ilin yanvarında Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi onu tələbələr arasında millətçi və antisovet təbliğatı aparmaq adı ilə həbs etmişdi. 17 iyul 1976-cı ilədək siyasi dustaq kimi azadlıqdan məhrum olunan Ə.Əliyev həbs müddətində Qaradağ daş karxanasında ağır fiziki işlərə məhkum edilmişdi. Həbsdən buraxıl dıqdan sonra bir müddət işsiz qalmış, nəhayət 1976-cı ilin dekabrında Azərbaycan EA-nın Əlyazmalar institutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamış və 1992-ci ilədək orada böyük elmi işçi, şöbə müdiri, aparıcı elmi işçi kimi vəzifələrdə çalışmışdır.

Klassik və müasir ərəb dilini, islam dininin əsaslarını, Şərq ölkələrinin elm, tarix, fəlsəfə və mədəniyyətini dərindən bilən Ə.Əliyev (Elçibəy) Azərbaycan tarixşünaslıq və şərqşünaslığında indiyədək öyrənilməyən sahələrdə çox dəyərli və əsaslı elmi araşdırmalar aparmış, 40-dan çox əsəri nəşr olunmuşdur. BDU-nun «Elmi əsərləri» ndə, Azərbaycan EA-nın «Elmi əsərləri» ndə, «Əlyazmalar xəzinəsində» toplusunda və nəşrlərdə çıxan «Əhməd ibn Tulun və Tulunilər dövlətinin yaranması» (1967), «Abbasilər xilafətinin tənəzzülü və parçalanmasına dair» (1968) «IX-X əsrlər Ərəb-Misir ədəbiyyatı haqqında» (1971), «Tulunilər dövləti və Qərmətilər» (1971), «Abbasilər xilafətinin parçalanması və feodal dövlətlərinin yaranmasına dair» (1971), «IX yüzilliyin ikinci yarısında Misirdə sənətkarlıq və ticarət» (1972), «Hənəfilik və onun əsas qaydaları» (1986), «Əhməd Tantarani Marağayi və onun Tantaraniyyə qəsidəsi» (1987) və başqa bir çox tədqiqatları mütəxəssislər tərəfindən maraqla qarşılanmışdır. Onun İstanbulda 1997- ci ildə «Tulunoğulları dövləti (868-905)», 1998- ci ildə «Bütöv Azərbaycan yolunda» kitabları nəşr olunmuşdur.

Əbülfəz Əliyev (Elçibəy), hələ tələbəlik illərindən sovet rejiminin müstəmləkə siyasətinə qarşı mübarizə aparmış, gizli

tələbə dərnəkləri yaratmış və azadlıq ideyalarını geniş şəkildə yaymışdır. 1975-ci ildə həbs edilməsi onu əqidəsindən döndərə bilməmişdir. 1988-ci ildə Azərbaycanda xalq hərəkatı başlayanda Elçibəy onun öndərlərindən birincisi olub. O, hərəkatın təşkilatlanmış forması olan Azərbaycan Xalq Cəbhəsini yaradan lardan biri və ömrünün sonunadək onun sədri olmuşdur. Azərbaycanın Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbu lunda Elçibəyin xidmətləri əvəzsizdir. Əbülfəz Elçibəy təkcə Azərbaycan milli - azadlıq öndəri yox, həm də türk dünyasının aparıcı lideri və demokratiyanın carçısı idi.

1992-ci il iyun ayının 7-də Azərbaycan Respublikasında ilk dəfə demokratik yolla prezident seçilən Ə.Elçibəy ölkədə demokratiyanın bərqərar olması, Azərbaycanın tam suveren dövlətə çevrilməsi və xalqımızın rifahının yaxşılaşdırılması yolunda çox mühüm işlər görmüşdür. Onun prezidentliyə başladığı ilk vaxtlarda dövlətimizin qarşısında duran təxirəsalınmaz vəzifələr sırasında Azərbaycanın dövlət müstəqilliyinin gerçəkləşdirilməsi, Milli Ordunun yaradılması əsas yeri tuturdu. Məhz buna görə də, Ə.Elçibəy bütün imkanları milli ordu quruculuğuna səfərbər etmiş, könüllü batalyonlardan nizami orduya doğru ilk ciddi addımlar atılmışdır. Qismən hərbi səfərbərlik və orduya çağırış işi yoluna qoyulmuşdu. Nəticədə Ağdərə və Goranboy rayonları erməni işğalçılarından təmizlənmişdi. İşğal altında olan Laçının əksər kəndləri onun prezidentliyi zamanında düşməndən azad edilmişdi. Keçmiş Sovet Respublikaları arasında birinci olaraq rus ordusunun Azərbaycandan çıxarılmasında Elçibəyin xidmətləri danılmazdır. Onun hakimiyyəti zamanında Azərbaycan sərhədlərinin qorun masını öz üzərinə götürmüş, sərhəd zonalarında hərc-mərcliyin qarşısı alınmış, sərhəd qoşunları yaradılmağa başlanmışdı. Kömrük sisteminin yaradılması nəticəsində ölkənin təbii sərvətlərinin xaricə daşınmasının qarşısı xeyli dərəcədə alınmışdı. 1992-ci ildə Dövlət

Ləl Cəvahirat Fondu yaradılmış, həmin ildə Azərbaycanın milli valyutası dövriyyəyə buraxılmışdı.

Ölkənin siyasi sisteminin dəyişdirilməsi istiqamətində də mühüm addımlar atılmışdır. Siyasi partiyalar və ictimai təşkilatlar, kütləvi informasiya vasitələri haqqında qanunlar bu dövrün məhsuludur. Həmin qanunlar əsasında 30-a qədər siyasi partiya, 200-dən artıq ictimai birlik, 500-dən artıq mətbuat orqanı və informasiya vasitəsi qeydə alınmışdı.

Respublikada məhkəmə hakimiyyətini gerçəkləşdirmək üçün məhkəmələrin statusu haqqında qanun qəbul edilmiş, İslah-Əmək sistemi Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Ədliyyə nazirliyinin tabeliyinə verilmişdi.

Ə.Elçibəyin prezident olaraq yürütdüyü siyasətdə iki istiqamət əsas götürülmüşdü: birincisi, köhnə dövlət təsərrüfatını vaxtsız dağılmaqdan qoruyub saxlamaq və bunun üçün dövlət əmlakının talan edilməsinin qarşısını almaq, əmək intizamını möhkəmlətmək, vəzifəli şəxslərin məsuliyyətini artırmaq, ictimai sərvətin mühafizəsini gücləndirmək və sabitliyə nail olmaq. İkincisi, liberal iqtisadi islahatlara başlamaq. Bu məqsədlə Dövlət Əmlak Komitəsi, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Yardım Komitəsi, İqtisadiyyat Nazirliyi, Torpaq Komitəsi və s. dövlət orqanları yaradılmışdı. İqtisadi islahatları tənzimləmək məqsədilə 34 qanun, o cümlədən dövlət əmlakının özəlləşdirilməsi haqqında, banklar və bank fəaliyyəti haqqında, mülkiyyət haqqında, xarici investisi yaların qoyulması haqqında, icarə haqqında, torpaq vergisi haq qında, aksizlər haqqında qanunlar qəbul edilmiş, ticarətin liberal laşdırılması, dövlət ticarət müəssisələrinin kommersiyalaşdırılması, yarımçıq qalmış tikintilərin icarəyə verilməsi, xırda sahibkarlığa kömək haqqında prezident fərmanları verilmişdir. Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb edilməsindən ötrü mühüm işlər görülmüşdü.

Ə.Elçibəyin prezidentliyi dövründə elm, mədəniyyət və təhsil sahəsində əsaslı islahatların əsası qoyulmuşdu. 1992-ci ildə «Təhsil haqqında» qanun qəbul edilmişdi. Ali və orta ixtisas

məktəblərinə qəbulun testlə aparılması bu dövrün uğurlarındandır. Orta ümumtəhsil məktəblərinin milli ideologiyamıza uyğun olaraq yeni proqram və dərsliklə təmin edilməsinə başlanmış, «Öyrət mən» nəşriyyatı yaradılmış, uzun müddət müzakirə obyektinə çevrilən latın əlifbasına keçidə nail olunmuşdu. Dövrün çətinlik lərinə baxmayaraq Azərbaycanın müstəqilliyinin qanunverici bazasının təmin edilməsi üsün Milli Məclisdə 118 qanun, 160 qərar qəbul edilmişdi.

Ə.Əliyev Azərbaycanın beynəlxalq birliklərdə bərabərhüquqlu dövlət kimi təmsil olunmasına səy göstərmişdi. Bakıda BMT-nin nümayəndəliyi açılmış, Rusiya, Türkiyə, İran, Ukrayna və Gürcüstanla qarşılıqlı faydalı əməkdaşlığın əsası qoyulmuş, Belçika, ABŞ, Almaniya, İsrail, Misir, Pakistan, İngiltərə ilə sıx əlaqə yardılmışdı. Nəticədə ABŞ və Avropanın transmilli şirkətləri Azərbaycana üz tutmağa başlamış, Amoko, BP, Yunokal, Statoyl, Penzoll və digər şirkətlərlə neft sənayesi sahəsində müqavilələr imzalanmışdı.

Bütün bunlarla bərabər, ölkədə siyasi sabitliyi qoruyub saxlamaq mümkün olmamışdı. Ə.Elçibəy 1993-cü ilin iyun ayında hakimiyyətdən uzaqlaşaraq doğma Kələki kəndinə getiş və 1997-ci ildə Bakıya qayıtmışdı. Həmin ilin noyabrında Bütöv Azərbaycan Birliyini yaradan Ə.Əliyev, həm də Türk Xalqları Assambleyasının fəxri sədri seçilmişdi. Ə.Elçibəyin siyasi və nəzəri görüşləri «Bu mənim taleyimdir» (Bakı, 1992), «Deyirdim ki, bü quruluş dağı lacaq» (Bakı, 1992), «Demokratiya və azadlıq» (İstanbul, 1992), «Bütöv Azərbaycan yolunda» (İstanbul, 1998), «Əbülfəz Elçibəy: Mən qurtuluşçuyam!» (Bakı, 2002), «Elçi düşüncələri» (Bakı, 2002) kitablarında əksini tapıb. Elçibəyin mübarizə yolundan bəhs edən K.Nərimanoğlunun «Azərbaycan türklərinin azadlıq elçisi Əbülfəz Əli Elçibəy» (İstanbul, 1992), A.Səmədoğlunun «Elçibəy və Azərbaycan» (İstanbul, 1994), F.Qəzənfəroğlunun «Əbülfəz Elçibəy. Tarixdən gələcəyə» (İstanbul, 1994), Ə.Tahirzadənin «Elçi bəy» (Bakı, 2001), «Elçibəylə 13 saat üz-üzə» (Bakı, 1999; İstanbul, 2001), «Prezident Elçibəy» (Bakı, 2001), Q.Məmmə dovun «Elçibəy ilə

birlikdə otuz il» (İstanbul, 1999) və b. kitablar oxucuların marağına səbəb olmuşdur. Elçibəy «Bütövləşmə, Millətləşmə, Dövlətləşmə» ideologiyasının ülküsünü irəli sür müşdür. M.Tetçerin «Qafqazda ən böyük demokrat» adlandırdığı Ə.Elçibəy 2000-ci il avqustun 22-də 63 yaşında Türkiyənin Ankara şəhərində əbədiyyətə qovuşmuşdur. Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.

Bütün varlığı ilə xalqına bağlı olan, həyatını və istedadını Azərbaycanın suverenliyi, milli istiqlaliyyəti uğrunda mübarizəyə həsr edən, Vətən və xalq dərdinə şam kimi yanan şəxsiyyətlərdən biri də, **Bəxtiyar Vahabzadədir**.[1]



**Bəxtiyar Vahabzadə**

**Vahabzadə Bəxtiyar Mahmud oğlu (1925-2009)** 1925-ci ildə Şəkidə anadan olmuşdu. Orta təhsilini başa vurduqdan sonra 1942-1947-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almış, universitetin aspiranturasında saxlanmışdı. O, «S.Vurğunun lirikası» mövzusunda namizədlik, sonralar isə «S.Vurğunun həyat və yaradıcılığı» mövzu sunda doktorluq dissertasiyaları müdafiə etmişdi.

B.Vahabzadə bədii yaradıcılığa 1943-cü ildə başlamış, yaradıcılığında dövrün problem ləri lirik-fəlsəfi planda öz əksini tapmışdır. Onun «İkinci səs», «Vic dan», «Yağışdan sonra», «Yollara iz düşür», «Fəryad», «Hara gedir bu dünya», «Özümüzü kəsən qılınc», «Dar ağacı» və başqa pyesləri Azərbaycan Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. 1945-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan şair 1983-cü ildə Azərbaycanın xalq şairi adına layiq görülmüşdü. Azərbaycan Dövlət mükafatı laureatı, M.F.Axundov adına mükafat laureatı olan B.Vahabzadə «Əməkdar incəsənət xadimi», filologya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü idi. B.Vahabzadə

---

[1] Materialın hazırlanmasında göstərdiyi köməyə görə AMİ-nin Şəki filialının baş müəllim H.Manaflıya təşəkkür edirik.

həm də ictimai xadim idi. O, 1990, 1995, 2000-ci illərdə millət vəkili seçilmişdi.

Böyük şairin ictimai-siyasi lirikası M.Ə.Rəsulzadənin «İnsanlara hürriyyət, millətlərə istiqlal» ideyası ilə səsləşir. Daim tərəqqidə olan milli istiqlal ideyası Bəxtiyar poeziyasının əzəli ideyası kimi dəyişməmiş, böyük şair sovet hakimiyyəti dönəmindəki sərt senzura şəraitində istiqlal ideyasından əl çəkməmişdi. Milli istiqlal hərəkatının lideri Əbülfəz Elçibəyin təbiri ilə desək, 60- cı illərdə B.Vahabzadənin şerləri hər yanda oxunur, «Gülüstan» poeması əldən-ələ gəzirdi».

Böyük sənətkarın «İstiqlal», «Neo», «Vətəndən vətənə», «Riyakar», «Anamın kitabı», «Dan yeri», «Qoruq», «Azadlıq», «Əsarət- azadlıq» və başqa şeir və poemalarında istiqlal ideyası öncül yer tutur.

Bir çox xalqların, xüsusilə türk mənşəli xalqların taleyində faciələrə səbəb olmuş Rusiyanın işğalçılıq siyasəti B.Vahabzadənin ictimai-siyasi lirikasının əsas mövzularındandır. Bu baxımdan «Gülüstan» və «Şəhidlər» poemaları, «150 il», «Yevtuşenkoya məktub», «İkibaşlı qartal», «Qatilinə pənahım deyir» şeirləri olduqca səciyyəvidir.

Ey ikibaşlı qartal,
Üç yüz ildir dünya dad çəkir sənin əlindən.
Düşən qurtara bilmir o qanlı çəngəlindən.
Sən ağ oldun Allaha.
Bizim nağıllardakı yeddibaşlı əjdaha
İkibaşlı qartalın doğmaca əcdadıymış-
Zülmün başqa adıymış.

İçin qara, çölün ağ, başdan başa boyasan,
İftirasan, riyasan.
O biri dünyada da hələ gözün var sənin
İki qanad, iki baş, iki üzün var sənin.
Həm qərbə, həm də şərqə gərib qanadlarını
Bəsdir kölgə saldığın.
Baxıb iki tərəfə həmişə çaş qaldığın.

Sən həm dünən, həm bu gün
İki başla düşündün.
Kəsilsəydi bir başın, qan içməkdən doyardın.
Sən də bu aləm kimi
Bir baş ilə düşünüb dünyanı dinc qoyardın –

deyən şairə görə Rusiya imperiyasının ambisiyalarına son qoyulmayınca bəşəriyyət üçün təhlükə sovuşmayacaqdır.

Şair istiqlal arzularını Azərbaycan tarixinin faciəvi səhifəsinə həsr olunan «Gülüstan» poemasında daha da inkişaf etdirmiş, əsarətdə qalan xalqlara ismarıc göndərmişdi.

«Gülüstan» poeması tarixi həqiqətlərin qadağan edildiyi Sovet İttifaqında bomba kimi partladı. B.Vahabzadənin imperiyanın işğalçılıq siyasəti yeritdiyini söyləməsi rəsmi dairələr tərəfindən «top-tüfənglə» qarşılandı. İstiqlaliyyətimizin itirilməsinə, vətəni mizin Rusiya ilə Qacarlar sülaləsinin idarə etdiyi dövlət arasında bölünməsinə üsyan edərək

Atıb imzasını hər kəs varağa
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla, təsbehli ağa,
Qalxıb əl də verir biri-birinə.

Onların birləşən bu əllərilə
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

Bir deyən olmadı, durun ağalar!
Axı bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız, bayaqdan bəri-
Bəs hanı bu yurdun öz sahibləri?

Bəs hanı həqiqət, bəs hanı qanun?
Qocadır bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun,

Bir vahid ölkənin iki qardaşı? – deyən ustad

Necə ayırdınız dırnağı ətdən-
Ürəyi bədəndən, canı cəsəddən?
Axı kim bu haqqı vermişdir Sizə,
Sizi kim çağırmış, Vətənimizə?-

sualına cavab axtarır, cavab almayan şair xalqımızın istiqla liyyətdən məhrum edilməsindən və ikiyə bölünməsindən kədərlənsə də, Azərbaycanın müstəqil olacağına, Təbrizin də Bakı kimi doğma yurda qatılacağına inanaraq:

Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.
Böl, kağız üstündə, böl, gecə-gündüz,
Torpağın üstünə dirəklər də düz,
Gücünü, əzmini tök də meydana,
Qoşundan, silahdan sədd çək hər yana.
Torpağı ikiyə bölərsən, ancaq
Çətindir bədəni candan ayırmaq! –

deyərək mətləbi özü çözməyə başlayır, imperiyanın iç üzünü açaraq

Millətlər dostluğu! Astar üz imiş,
Bunun nəyi varmış sözündən özgə? –

qənaətinə gəlir və bir daha əmin olur ki, «türkün özündən özgə dostu yoxdur».

B.Vahabzadə yaradıcılığında azadlıq məfkurəsi ana xətt təşkil edir. Şair əmindir ki, azadlıq olmayan yerdə ədalətsizlik, rəzalət hökm sürəcək, insanlıq itəcəkdir. Şairin bu inamı onun azadlığa olan sevgisinin təsdiqinə çevrilir.

Azadlıq!
Azadlıq əldən getdimi

Dünya xəyala da darısqal gələr;
İnsan azadlığı itirən kimi
Bütün fəlakətlər dalbadal gələr.

Gedər ağızlardan dad da, ləzzət də
Ağıl da, ürək də gülər arzuya.
Azadlıq olmayan bir məmləkətdə
Həqiqət riyadır, ədalət boya!

İnsan urəyində kin də, nifrət də,
Əbədi köz bağlar, bir anlıq olmaz.
Azadlıq olmayan bir məmləkətdə
Adamlar yaşayar, insanlıq olmaz.

Düşünən beyinlər sönər zulmətdə -
Yalanla həqiqət üzbəüz olar.
Azadlıq olmayan bir məmləkətdə
Düz əyri adlanar, əyri düz olar.

İdrak da boğular, söz də, sənət də
Ağıl kilidlənər dildə, dodaqda;
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzər, aqil ayaqda. -

deyən B.Vahabzadə düçar olduğumuz bəlaların kökünü araşdırır və bugünkü vəziyyətə düşməyimizin səbəblərini tarixə münasi bətimizdə axtarır. Mənəvi təmizlik, rəhimlilik, şəfqətlilik, kin-kudurətdən uzaq olmaq, abır-həyaya qısılmaq, pislikləri tez unutmaq kimi dəyərləri yada salaraq yazır:

Əsrin əvvəlini unutmuşuq biz,
Saldın yadımıza dünənimizi
Sadəqəlbliyimiz, təmizliyimiz
Tarixdə nə qədər aldatmış bizi!

Erməni zülmündən yüz ildən bəri

Daşdan-daşa dəydi bu xalqın başı.
Unutdu çəkdiyi müsibətləri,
Niyə oğurlandı onun yaddaşı!

Biz başdan ayağa rəhimik, şəfqətik,
O kin dağarcığı, o goreşəndir.
Biz əvvəl insanıq, sonra millətik.
O, insan olmadan millətləşəndir.

Bilmədik, içini gəmirir bu kin,
Sözü keçməyəndə üzdən həlimdir.
Unutduq, nifrətlə mayalanmışın
Fikri-intiqamdır, qəsdi-zülmdür...

Biz boğub vicdanı, qəhr edib arı,
Şərə yoldaş olub haqqı danmırıq.
Heç vaxt unutmarıq yaxşılıqları,
Amma pislikləri unudanlarıq.

Böyük şairin yazdığı yuxarıdakı səbəblərdən də, 1988-ci ilin fevralında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbilə imza toplanması kampaniyasına və Azərbaycan türklərinin öz dədə-baba ərazilərindən-İrəvandan, Vedidən, Göyçədən, Zəngəzurdan, Dilicandan vəhşiliklə qovulmasına göz yumulduğu halda, bu qanunsuzluqlara son qoyulması tələbilə Azərbaycanda 1988- ci ilin noyabrında başlanan etiraz hərəkatı zorakı tədbirlərlə boğuldu. Moskvanın ikiüzlü, ikibaşlı siyasətini kəskin tənqid edən B.Vahabzadə «Şəhidlər» poemasında xalqların hüquq bərabərliyi ideyasının kağız üzərində sözdən başqa bir şey olmadığını bildirdi:

Mərkəz dəyişdirir gündə rəngini,
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini,
Amma erməninin topunu görmür.

Anladıq xalqların bərabərliyi,
Kağız üzərində bir quru sözmüş.
Bu qətldən sonra bildik çox şeyi,
Bizim günahımız türklüyümüzmüş!

B.Vahabzadə xalqımızın həyatında, taleyində kəskin dönüş ili olan 1988-ci ildə təkcə yaradıcılığı ilə deyil, həm də fəal içtimai-siyasi fəaliyyəti ilə milli-azadlıq hərəkatının önündə getmişdir. O, şəxsi nümunəsi ilə xalqına, vətəninə sevgisini təkcə yaradıcılığı ilə deyil, həm də fəaliyyəti ilə təsdiq etdi. 1988- ci ilin 17 noyabrından başlanan və 19 gün davam edən Meydan hərəkatının iştirakçılarından biri oldu. Onun çıxışları geniş xalq kütləsi tərəfindən hərarətlə qarşılanırdı.

Böyük şair torpağının zəbt edilməsinə yönələn hər cür əmələ dözməyərək haykırdı:

Bir soruşan olmadı nədir sənin bu davan?
Bəlkə çatışmır suyun, bəlkə çatışmır havan?
Yaşasa da bu millət lap dilənçi kökündə,
Yoxsul güzəranından danışmadı bir gün də.
Daxmalarda yaşadı, özünü sındırmadı,
Meydanda «mənzil»-deyə bir dəfə qışqırmadı.
Qara qızıl çıxartdı yerin yeddi qatından.
«Nədir bunun qiyməti?» -deyə bir dəfə qışqırmadı,
Onun qızıl neftini qızıla da satdılar.
Qızılın sahibini söz ilə aldatdılar.
Bu millətin sərvəti özünə düşmən oldu,
Becərdiyi pambığı əyninə kəfən oldu.
O, yenə də dinmədi
Dözdü, heç deyinmədi.
Nə istəyir bəs bu xalq?
O istəyir sərvəti manat olub özgənin
Xəzinəsinə dolsa da,
Dərisi soyulsa da

Onun ləyaqətinə,
Namus və qeyrətinə
Bir daha qıymasınlar,
Min illik torpağını hərraca qoymasınlar.

Şairin dili ilə söylənmş xalqın bu istəyi Mərkəzin xoşuna gəlmədi. 1990-cı ilin Qanlı şənbə gecəsi törədildi. Çünki, Mərkəzin iradəsinə qarşı çıxaraq torpaqlarımızın «qızıl sinidə» ermənilərə verilməsinə müqavimət göstərmişdik.

Dedim: - Günahımı başa sal mənə,
Dedin: - Anlamadın məni sən yenə.
Bilmədin, günahın bir deyil, mindir.
Amma ən böyüyü gözəlliyindir.

Məndən icazəsiz axı çox şeyi
Sən qanmaq istədin, duymaq istədin.
Sən öz ayağını mənim çəkdiyim.
Cızıqdan kənara qoymaq istədin.
Budur günahın!

Sən öz torpağında qul olduğunu,
Bağırmaq istədin, budur günahın.
Zülmün girdabında boğulduğunu,
Çığırmaq istədin, budur günahın.

O torpaq istədi səndən bir qarış.
Niyə tələbkarın xətrinə dəydin?
Onun istəyilə dedim, sən barış
Sənsə tərəzinin gözünü əydin.
Budur günahın!

Bu qanlı çəkişmə düşəndən bəri,
Bir dəm ayağını qoymadın geri
Sən də neçəsinin qanını tökdün

Erməni qıranda sizinkiləri.
Budur günahın!

Mən sənin qanını tökdüyüm zaman,
Baxdın nifrət ilə... Budur günahın!
Sən mənim tankıma çırtma vurmusan,
Hansı cürət ilə?-Budur günahın!

20 yanvar şəhidləri Azərbaycan xalqının əsrin əvvəlindəki, lap elə dünənki xalq olmadığını sübut etdi. Məhz onların müqəddəs rəmzə çevrilmiş obrazları «əl-ayağı zəncirli, başı qapazlı, sinəsi dağlı xalqı» «talahsız nigah» sazişinin əsarətindən xilas olmaq uğrunda mübarizəyə ruhlandırdı.

Azadlıq verilmir, alınır, dayan!
Onun elçisidir, ölüm, qan-qada
Ölümə, cəfaya hazır olmayan,
Millət hazır deyil azadlığa da,

Yalan əllər ilə tanklar üstünə,
Atılan cavanlar, eşq olsun sizə!
Siz təsdiq etdiniz azadlığın da
Halal olduğunu millətimizə!

Şəhid rütbəsinə qalxan cavanlar,
Sinəsi hər zülmə qalxan cavanlar
Böyük Nəsiminin, ulu Babəkin,
Xeyir-duasını aldı o gecə.
Zamandan irəli sıçrayıb yəqin,
Tarixdə tarix tək qaldı o gecə

B.Vahabzadə sinəsinə tuşlanan avtomat lüləsindən çəkinməyərək 20 yanvar faciəsini törətmiş Ovçinnikova «sən mənim millətimi qırmış faşistsən» deyəndə, işğal altında olan

Bakıda Ali Sovetin rəhbərliyi səviyyəsində cinayət törətdiyini təsdiq edən hüquqi sənədin qəbul edilməsinə nail olanda qəhrəman səviyyəsinə yüksəldi, ancaq onun əsl qəhrəmanlığı zəka qəhrəmanlığı, mənəvi qəhrəmanlıq idi. O, vətənin vətəndaşı olduğunu bir daha təsdiqlədi.

Lakin tarixin ən faciəli qətlamı olan Xocalı faciəsi göstərdi ki, Rusiyanın siyasi dairələri özlərinin imperiya ambisiyalarına son qoymaq fikrində deyillər. Bu siyasətin nəticələrini hamıdan yaxşı hiss edən şair «Əgər qorunmazsa istiqlalımız» şeirində xalqı Rusiya tərəfindən gözlənilən yeni-yeni təhlükədən xəbərdar edirdi.

Çıxsa da əlindən xalqlar, ölkələr
Ölməyib o iblis, o şeytan hələ.
Üç yüz il dünyaya qan udduran taxt
Çürüyüb, sahibi inana bilmir.
Ondan üz döndərib bu dövran, bu vaxt
Böyük gələcəyi o qana bilmir.
Həqiqət, ədalət məhkəməsinə
Qol çəkir, qoluna inana bilmir.
Tərgitmək bilmir köhnə vərdişi,
Anlaya bilmir ki, qırılıb dişi.

B.Vahabzadə imzasının Azərbaycanın azadlıq mücadiləsində öz yeri vardır. Bu imza təkcə şeirlərdə, poemalarda deyil, həm də azəri türklərinn ürəyindədir. Ürəkdəki imzaları ancaq Tanrı silə bilər.

Azərbaycan xalqının milli-azadlıq mücahidlərindən biri də **Xəlil Rza Ulutürkdür (1932-1994).**

Tənqidçi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, «Əmək dar incəsənət xadimi», xalq şairi **Xəlilov Xəlil Rza oğ**lu 1932-ci ildə Salyan rayonunun Pirəbbə kəndində dünyaya göz açmışdı. ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdı. Əmək fəaliyyətinə «Azərbaycan qadını»

jurnalında başlayan Xəlil Rza, həm də müəllimliklə məşğul olmuş, uzun müddət APİ-də (indiki ADPU) dərs demiş, namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişdi. «Davam edir … 37» şeirlər toplusu M.Axundov adına mükafata layiq görülmüşdü. Mətbuatda şerlər və ədəbii-tənqidi məqalələrlə çıxış etmişdi. Dünya poeziyasından tərcümələri «Turan çələngi» (1992) adı ilə toplu halında çap olunmuş, «Türk milləti mükafatı laueratı» fəxri adına layiq görümüşdü. X.Rza Ulutürk Azərbaycan nümayəndə heyətinin tərkibində Türkiyədə (1968) və Özbəkistanda (1980) keçirilən «Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü» nün iştirakçısı olmuşdu.



**Xəlil Rza Ulutürk**

X. Rza Ulutürk 1998- ci ildə Həcc ziyarətinə getmişdi.

Xəlil Rza hələ müəllim işlədiyi illərdə özünün vətənsevərliyi, millətsevərliyi ilə tələbələrin və iş yoldaşlarının diqqətini çəkmişdi. Azərbaycanın ikiyə parçalanması, qardaşın qardaşa, ananın oğula, qohumların bir - birinə tikanlı çəpərlər arxasından baxması daim onu narahat etmiş:

Ürək dustaq, Vətən məhbəs,
Hanı Babək, Cavanşir bəs
Həyat bu cür qala bilməz,
O sahildə, bu sahildə –

deyərək xalqı birliyə səsləmişdi.

Əslində Xəlil Rzanın həyat yolu kiçik yaşlarından müəyyənləşmişdi. Bu yol, bu istiqamət ömrünün sonunadək dəyişməmiş, əksinə, onun azadlıq ideyaları ilə döyünən ürəyini duyan insanlar onu sevməyə, onu qorumağa başlamışlar. Xəlil Rza azadlıqdan, müstəqillikdən, torpağın sahibi olmaqdan söz düşəndə sakit danışa bilmirdi, vulkan kimi püskürürdü, düşmənlərini qaynar lava kimi yandırıb yaxırdı. İstəyirdi ki,

mənfur sovet imperiyasının gözəgörünməz zəncirlərini qırıb atsın. Ona görə də, ucadan, daha gur səslə

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək.
Qıram!
Qıram!-

deyərək gözləri önündə xalqımızın yaşadığı repressiya illərini canlandırırdı. O illərin qurbanlarnı xatırlayanda qanı-canı millətimizdən olmayanları qamçılayır, onlara züytutanları nifrətlə yad edirdi.

Haqq - bağıran boğazlara qurşun tökdü
Mirzoyanlar, qriqoryanlar.
Yanda durdu Topiridze, asta cəllad, usta cəllad
Adı doğma, ürəyi yad.

Xalqımızın keşməkeşli və acı taleyini, xüsusi ilə XX əsrin 20-ci illərindən başlayaraq yaşanan onillikləri dönə-dönə xatırlayan və xatırladan şairi bir məsələ heç rahat buraxmamışdı. Əcəba, nə üçün qanı-canı bizdən, «sapı özümüzdən olan baltalar»

Daloy muğam!
Daloy papaq!
Daloy tar da!
Daloy saz da!-

deyib Müşfiqi xəyanətə qurban verdilər. Cavidi, Yusif Vəziri, Əhməd Cavadı, Bəkir Çobanzadəni, onlarla, yüzlərlə Azərbaycanın qeyrətli zəkalarını müvəqqəti kürsüyə, kiçik dəmir parçasına, yaxud özgə «malades» inə satdılar. Ümid bəslədiyi, etibar etdiyi insanlardan soruşanda isə bir cavab alırdı: «Dözümlü olmaq lazımdır». Ancaq qorxu ilə qorxusuzluq arasında

yaşayan şairə bir şey aydın idi: Nə mərəz, nə qərəz…heç ölüm belə onu öz yolundan saxlaya bilməz».

X.R.Ulutürkə yaxşı bəlli idi ki, sovetlər adlı imperiya qan üzərində qurulub. Smolnıda hakimiyyəti ələ alan, Kremldə oturub yerlərdə sovetlərin zəfər yürüşünə fitva verən Lenin 300 illik bir şəcərəni məhv edərək onların cəsədləri üzərində sovetlər divarını ucaltdı. Ancaq «unutmuşdu» ki, bu divarın suvağı qanla yoğrulmuş palçıqdan idi.

X.R.Ulutürk qızğın millətçi idi. Lakin onun millətçiliyi hər cürə şovinist millətçilikdən fərqli idi. Onun yaradıcılığında xalqın azadlığı, müstəqilliyi, torpağın bütövlüyü başlıca mövzulardan idi. Milli-azadlıq hərəkatının iştirakçısı kimi, 1990-cı ilin yanvarında həbs edilib Moskvada Lefertova zindanında 22 ay saxlanılmış, nəhayət xalqın tələbi ilə azadlığa buraxılmışdı. Oğlu Təbriz Qarabağ döyüşlərində şəhid olmuş, ona 1992-ci ildə Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdi. Nə 20 yanvar qırğını, nə şəhid olmuş balası Təbrizin dərdi Xəlil Rzanın azadlıq ruhunu sarsıda bilmədi. Yenə də səsini ucaldaraq Azərbaycana xitabən

Varamsa da, yoxamsa da, həmişəlik mən səninəm
Getsəm, qəbir sipərimdir, qalsam özüm sipərinəm.- dedi.

Şair «Azadlıq meydanı» ilə nəfəs alırdı. Sanki oradan ayrılan kimi təngnəfəs olur, havasızlaşır, xalqından ayrı düşən kimi dər yadan ayrılmış balığa dönür, cansız əşyaya çevrilirdi.

Burda iki milyon ağız, Azərbaycan söyləyəndə
Satqınların cır ürəyi düşüb bəndə

Bu meydanda anladım ki, nə quzuyam, nə də ceyran
Azərbaycan bu gün doğar özü boyda Azərbaycan.- dedi

Xəlil Rza heç bir vəzifəyə yaxın buraxılmayıb. Millət vəkili olmaq istyəndə onun qarşısında sədlər çəkilib. Bu təbii idi. Axı

azadlıq yolunda canlarından keçərək əbədiyyətə qovuşanların qələbə meyvələrindən ona layiq olmayanlar istifadə edərək yüksək vəzifə kürsülərinə yiyələnmişdilər. Onlar yol verməzdilər ki, millətin əsil vəkili adına layiq olan Xəlil Rza onların iç üzünü açıb töksün. Bu şairin məğlubiyyəti deyil, qələbəsi idi.

Qocaman palıd ağacına bənzəyən şair bütün yaradıcılığı boyu azad, müstəqil, süveren Azərbaycan arzulamışdı. Arzulamışdı ki, bu torpağın yeraltı və yerüstü sərvətləri xalqın malı olsın. Bəd niyyətli adamlar onun azadlıq ideyalarını əlindən ala bilmədilər, onu içəridən dağıtmaq üçün min cür damğa vurdular, şərlədilər, böhtan atdılar, zindana saldılar ki, bəlkə əyilə, sına, zəifləyə. Yanılırdılar. Xəlil Rza poladdan tökülmüşdü, sınardı, əyilməzdi. O, son nəfəsində də dedi:

Azərbaycan-aləmin azadlıq meydanıdır
Kişi kibi yaşamaq imanıdır, canıdır
Yurdu yalnız ərənlər, qəhrəmanlar tanıdır.
...
Haray Sərab, Ərdəbil, haray Dərbənd, Naxçıvan!
Al gözümü verirəm, ay ulduzsuz asiman.
Gəlsin, kimdə qalıbsa barı yarım damla qan.
...
Sular məni aparsa, mən ona sel deyərəm,
Yel palıdı qoparsa, mən ona yel deyərəm.
Zərbi gərən sındıran bir elə el deyərəm.
Yelin, selin birlikdədir qüvvəti
Təpiyinlə əzilsin qoy əqrəblər zümrəsi.

Ulutürk Azərbaycanın dirçələcəyinə, belini düzəldəcəyinə, müstəqil dövlət kimi tanınacağına inanırdı və deyirdi: «Qalx ayağa, Azərbaycan!» Bu inam onun yaradıcılığının etiqad simvoluna çevrilmişdi.

Sürünmüsən iki əsr,
Övladların əsir-yesir.

Sən can dedin, çor dedilər
Haqqını basıb yedilər.
Pak, müqəddəs torpağını
Parçalayıb çeynədilər.
Quldurlara sən vermə can,
Qalx ayağa, Azərbaycan!

Var yoxunu yerli-dibli
Səndən xüms, zəkat alan
Əl çəkəcək səndən haçan
Qalx ayağa, Azərbaycan!

Azərbaycanın azadlıq mücahidi Xəlil Rzaya Azərbaycanın indiki uğurlarını görmək qismət olmadı. Ancaq onun ruhu Azərbaycanın başı üzərində daim dolaşır, Azərbaycanın uğurlarını tərənnüm edərək bizə qoyub getdiyi azadlıq fidanlarını böyütməyi məsləhət bilirdi.

Zirvələrdən üzü bəri
gəlir məğrur Azərbaycan!
gəlir cəsur Azərbaycan!
Varlığımda od yerinə
gəzən qanım Azərbaycan!
Acgözlərə, zalimlərə
yağı, qənim Azərbaycan Azərbaycan!
Ey yolkəsən, çəkil, rəd ol!
Açır yolu Azərbaycan!
böyük, ulu!
Mənim qanım kibi dəli,
Dəli-dolu Azərbaycan!
Qupquru zoğlar içindən
Qalxır fidan Azərbaycan!
Sən mənə bax, ora baxma, ey yarımcan,
Mən özüməm yeni era,
Yeni, cavan Azərbaycan!

Xəlil Rza Ulutürk 1994- cü ilin iyun ayının 22- də vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdu.

**Aydın Mirsaleh oğlu Məmmədov (1944-1991)** 1944-cü ildə Şəki rayonunun Kiş kəndində anadan olmuşdu. Tənqidçi, ədəbiyyatşünas, Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990) olan A.Məmmədov elmi yaradıcılıqla yanaşı, ictimai xadim kimi də fəal iş aparırdı. XX əsrin sonlarında başlayan mitinqlərdəki nitqləri, Moskvada, Türkiyədə, İranda, Fransadakı çıxışları onun xalq üçün döyünən ürəyinin arzuları idi. Əslində onun yazısını oxuyanlar Azərbaycanın mənzərəsi ilə tanış olurdular. B.Vahabzadənin təbirincə desək, «Aydının ağlı və istedadı Azərbaycanın milli sərvəti idi».



**Aydın Məmmədov**

Aydının fikirləri özü üçün də, xalq üçün də aydın idi. O, xalqının azad, müstəqil, firavan yaşamasını, qəsbkar əllərin Azərbaycan torpa ğından qoparılmasını istəyirdi. Onu bir sual həmişə düşündürürdü: küçədə rastlaşdığı, meydanlarda seyr etdiyi, efirdə dinlədiyi insanlar hansı amal uğrunda mübarizə apardıqlarını anlayırlarmı. Millətin bütövlüyü, qarşıdakı sabahın aydınlığı, özünüdərki yolları Aydını daim düşündürürdü. Və qorxurdu ki, ürəyindəki arzularını həyata keçirməyə ömrü çatmasın. Özünün yazdığı kimi, bir gün deyəcəklər: «…gəlmişəm, çatmısan, sən də artıq mənzil başındasan». Belə də oldu. 1991-ci ilin aprelin 19-da avtomobil qəzasında faciəli sürətdə dünyasını dəyişdi. Dünyaya göz açdığı Kiş kəndində torpağa tapşırıldı. Mitinqlərdə, Ali Sovetin iclaslarındakı çıxışlarını, qəzet səhifələrindəki yazılarını səbirsizliklə gözləyən xalq onu son mənzilə yola saldı. Təskinlik yalnız onda idi ki, Aydının tribunadakı yeri ürəklərə köçmüşdü.

Azərbaycan xalqının yadında Cahandar ağanın simasını xatırladan, millət təəssübkeşi, əsil Azərbaycan kişisi xüsusiyyət-

lərini özündə təcəssüm etdirən **İsmayıl Şıxlı** obrazı daim yaşayacaqdır.

**Şıxlınski İsmayıl Qəhrəman oğlu (1919-1995)** 1919-cu il martın 22- də Qazax rayonunun II Şıxlı kəndində anadan olmuşdu. Əvvəllər Kosalar kənd ibtidai məktəbində, sonra isə Qazax pedaqoji məktəbində təhsil almışdı. Əmək fəaliyyətinə bir zamanlar ibtidai təhsil aldığı Kosalar kənd məktəbində baş dəstə rəhbəri kimi başlayan İsmayıl müəllim 1937-1941-ci illərdə APİ-nin (indiki ADPU) dil və ədəbiyyat fakültəsində təhsil almışdı. Təh- silini başa vurduqdan sonra 1941-1942-ci illərdə Kosalar kənd məktəbində dərs hissə müdiri işləyən İsmayıl müəllim orduya çağırılmış və Şimali Qafqaz, Krım, III Belorusiya cəbhələrində və Şərqi Prussiyada döyüşən orduda olmuşdu. Ordudan tərxis edildikdən sonra yenə Kosalar kənd məktəbində dərs hissə müdiri işləyən İ.Şıxlı 1946-1949-cu illərdə APİ-nin aspiranturasında oxumuşdu.


**İsmayıl Şıxlı**

İ.Şıxlı demək olar ki, ömrünü APİ-yə bağlamışdı. Orada müəllim, baş müəllim, kafedra müdiri işləmiş, 1976-1978-ci illərdə «Azərbaycan» jurnalının baş redaktoru, 1986-1987-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi vəzifəsində müvəffəqiyyətlə çalışmışdı.

İ.Şıxlı yaradıcılığında Azərbaycan reallığı üstünlük təşkil etmişdi. Onun «Ayrılan yollar» (1957), «Dəli Kür» (1968) əsərləri oxucuların stolüstü kitabına çevrilmişdir. Əsərləri keçmiş SSRİ-nin və xarici ölkələrin dillərinə tərcümə olunmuşdu.

İsmayıl Şıxlı fəal ictimaiyyətçı idi. Bakı şəhər sovetinin deputatı, Azərbaycan KP Bakı Komitəsinin üzvü, AHİŞ-nin Rəyasət Heyətinin üzvü, SSRİ Yazıçılar İttifaqının idarə heyətinin üzvü olmuş, dəfələrlə xarici ölkələrə göndərilən nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. Xidmətlərinə görə «Qırmızı

Əmək bayrağı» (1979), II dərəcəli «Vətən müharibəsi» (1985) ordenləri və medallarla təltif olunmuşdu.

XX əsrin sonlarında qüvvətlənən milli-azadlıq hərəkatı İ.Şıxlının həyatında dönüş mərhələsi olmuşdu. Həmişə xalqının kədərini öz kədəri, sevincini öz sevinci hesab edən yazıçı İ.Şıxlı ictimai xadim İ.Şıxlıya çevrilmiş, Azərbaycan torpaqlarının işğalına, xalqın azadlığı uğrunda mücadilə edən oğul və qızlarına rus ordusunun divan tutmasına etiraz etmiş, həmişə xalqla birlikdə olmuşdu. İ.Şıxlı Meydan hərəkatının liderlərindən biri idi. 1990- cı il yanvar hadisələri yazıçını hiddətləndirmiş, sovet ordusunun hərəkətlərinə etiraz etmiş və 20 yanvar hadisələrini Azərbaycan xalqının milli hissələrinə qəsd kimi qiymətləndirmişdi. O, ən ağır günlərdə B.Vahabzadə ilə birlikdə Ali Sovetin sessiyasının çağrılmasına nail olmuş, faciənin günahkarları olan partiya elitasının cəzalandırılmasını tələb etmişdi.

İ.Şıxlı 1995-ci ildə vəfat etmiş, Fəxri xiybanda dəfn olunmuşdur.

XX əsrin sonlarında yenidən yüksək vüsət alan Azərbaycan milli-azadlıq hərəkatının liderlərindən biri də **Sabir Rüstəmxanlıdır**.



**Sabir Rüstəmxanlı**

**Rüstəmxanlı Sabir Xudu oğlu (1946)** 1946-cı il mayın 20-də Azərbaycanın Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdu. 1963-1968-ci illərdə ADU-nun filolo giya fakültəsində təhsil almışdı. 1967-ci ildə yaradıcılığa başlayan gənc Sabirin dövri mətbuatda şeir, hekayə, ədəbi-tənqidi, publi sistik məqalələri və tərcümələri çap edilmiş, respublikanın mətbuat orqanlarında və nəşriy yatlarında müxtəlif vəzifələrdə çalışmış, 1989-1991-ci illərdə «Azərbaycan» qəzetinin təsis çisi və baş redaktoru, 1991-ci ildə Mətbuat və

informasiya naziri olmuşdu. Gənc şairlərin və yazıçıların festivallarının və müşavirələrinin iştirakçısı olan S.Rüstəmxanlı SSRİ Yazıçılar İttifaqının VII və VIII qurultayl arına nümayəndə seçilmişdi.

S.Rüstəmxanlının sənətkar ömrünü və milli mücadilə yolunu izləmək üçün onun 1976- cı ildə yazdığı «Bütövlük» dastanına və «Ömür kitabı»na nəzər salmaq kifayətdir. «Bütövlük» poemasında Vyetnam xalqının, Vyetnam torpağının birləşməsindən, vahidləş məsindən bəhs etsə də, əslində Azərbaycan torpaqlarının da birləşəcəyini duyurdu. Poemanı oxuyan hər kəs orada Azərbay canın azadlığa, müstəqilliyinə gedən yolunu görür. Bir sözlə dastan azadlığa çağırış ruhuna köklənmişdir. Elə buna görə də şair:

Müstəqillik! İlk inamım, ilk həsrətim!
Müstəqillik! Xalqın məslək bayrağıdır.
Müstəqillik-bir ölkənin, məmləkətin
Zülm, əsarət orbitindən çıxmalıdır - deyir.

S.Rüstəmxanlı hesab edir ki, müstəqillik səadətinə çatmaq üçün millətin sayından çox onun sanbalı önəmlidir. Bu həqiqətin işığına doğru irəliləyən azadlıq aşiqində yəqinlik vardır ki, «Ən kiçicik ulduz var ki, adı bəllidir, nəhəng peyklər var ki, onlar işığa möhtacdır. Öz işiığı, atəşi olmayan nəhənglər isə tezliklə unudulurlar».

S.Rüstəmxanlı o taylı, bu taylı soydaşlarımızın sükunət halından, öz milli mənliklərinin tapdalanmasına dözmələrindən qəzəblənir, dilini, dinini, adət və ənənələrini qoruyub saxlamaqla yanaşı azadlıq uğrunda, müstəqillik uğrunda, nəhayət bütövlük uğrunda mübarizəyə səsləyir, milli özünütəsdiqin ifadəsi olaraq yazır:

Alnına ayrılıq sözü yazılan,
Özü bu dünyaya göz yummamışdan

Qəlbində ümidə məzar qazılan,
Cənublu, Şimallı, - o tay, bu taylı
Hicranı, əsrlə başabaş olan,
Dərbəndli, Kərküklü, Qarayazılı.
Türk, tatar, iranlı, əcəm, müsəlman,
Gah da tərəkəmə, qızılbaş olan,
Qolları Araza körpü olmamış,
Sınıq körpüləri su altda qalan,
Fikirli qardaşlar, qəmli bacılar.
Sizin sükutunuz yandırır məni.

Böyük Azərbaycan şairi, milli mücadilə tarixinə adını qızıl hərflərlə yazmış Xəlil Rza Ulutürk S.Rüstəmxanlı poeziyasından bəhs edərkən «onu milli şüur poeziyası, xalqın, millətin öz mənliyini, əzəmətli keçmişini dərk etmək uğrunda mübarizənin, bütün rəsmi və qeyri rəsmi yalanları, saxtakarlıqları darmadağın etmək yolunda səfərbər olunmuş iradə gücünün, mətanət və mərdanəliyin, qarşısıalınmaz ruh qüvvəsinin poeziyası» adlandırmışdı.

S.Rüstəmxanlı Türkiyə, İran, Misir, ABŞ, Hollandiya, Almaniya və başqa ölkələrdə, Quzey Kıprıs Türk Cümhuriyyətində və türk-islam dünyasının müxtəlif qurultaylarında milli mücadiləmizlə bağlı çıxış etmişdir. Demokratik mətbuat ənənələrinin bərpası və inkişafında xüsusi xidmətləri olan S.Rüstəmxanlı Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə və siyasi fəaliyyətinə görə «Şöhrət» ordeni ilə təltif olunsa da, etiraz əlaməti olaraq ordeni almaqdan imtina etmişdi.

XX əsrin 80-90- cı illərində yüksələn milli – azadlıq hərəkatının liderlərindən olan S.Rüstəmxanlı Milli Məclis yaranandan bu günədək onun üzvü kimi fəal ictimai-siyasi iş aparır. O, «Vətəndaş həmrəyliyi» partiyasının təsisçisi və rəhbəridir. Onun «Ömür kitabı» (1985) Azərbaycan ziyalıları tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycanın milli müstəqilliyi uğrunda fəal mücadilə aparan ziyalılarımızdan biri də **Dilarə Əliyeva (1929-1990)** olmuşdur.



**Dilarə Əliyeva**

**Əliyeva Dilarə Ələkbər qızı** 1929- cu il dekabrın 14-də Tbilisi şəhərində anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra ADU-nun şərqşünaslıq fakültəsində, sonra isə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almışdı. Nizami adına Dil və Ədəbiyyat İnstitutunda müxtəlif vəzifələrdə çalışan D.Əliyeva Azərbaycan - Cürcüstan ədəbi əlaqələrini araşdırmış, bu mövzuda doktorluq dissertasiyası müdafiə etmişdi. Onun 1958-ci ildə «Azərbaycan-gürcü ədəbi əlaqələri tarixindən» monoqrafiyası işıq üzü görmüşdü. Gürcü dilindən tərcümələri vardır. D.Əliyeva XX əsrin sonunda yüksələn milli-azadlıq mübarizəsinin fəal iştirakçılarından idi. Azərbaycanın bölgərində olan D.Əliyeva xalqı birliyə, bütövlüyə, müstəqilliyə çağırırdı. 1990-cı il 20 yanvar hadisələri onun vətənpərvərlik ruhunu daha da artırmışdı. 1991-ci il aprelin 20-də Aydın Məmmədovla birlikdə avtomobil qəzasında faciəli şəkildə həlak olmuşdur.

# VIII F Ə S İ L

## Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin memarıdır.

Azərbaycan xalqının xöşbəxtliyi və gələcəyi uğrunda həya tını verən insanlardan biri də, tarixə qurucu və xilaskar kimi daxil olmuş **Heydər Əlirza oğlu Əliyevdir**. H.Əliyev Azərbaycana rəh bərlik



**Heydər Əlirza oğlu Əliyev**

etdiyi bütün illərdə öz zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bə ləd olması sayəsində ardıcıl olaraq milli siyasət işləyib hazırlamış və bütün çətinlik lərə sinə gərərək onu dön mədən həyata keçirmişdir.

H.Əliyevin Azərbacana rəhbərlik etdiyi 70-ci illər Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni tarixində yeni bir dövr hesab olunmalıdır. 1970-1982-ci illər ərzində respublikada 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdi. Həmin dövrdə Azərbaycanda hər gün 41 min ton neft, 37 milyon kubmetr qaz çıxarılır, 2.200 ton polad tökülür, 69 min metr boru, 4.900 avtomobil təkəri, 2.700 ton mineral kübrə, 968 məişət kondisioneri, 734 soyuducu istehsal olunur, 546 min metr parça toxunurdu.

70-ci illər Azərbaycan təhsilinin də intibah dövrüdür. Həmin dövrdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1.600-dən 1.875-ə çatmış, ümumtəhsil, texniki peşə, orta ixtisas məktəblərinin və ali təhsil müəssisələrinin şəbəkəsinin inkişaf etdirilməsi

Heydər Əliyevin adı ilə bağlıdır. 1970-1982-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmışdı.

1970-80-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərlərinin 170-dən çox ən məşhur ali məktəblərində respub likanın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80 - dən artıq sahəsini əhatə edən və zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına imkan və şərait yaradılmışdı.

Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə kəskinliyi ilə qoyulmuşdu. Gərgin axtarışlar heç bir elmi adı, alimlik dərəcəsi olmayan, intellektin zirvəsində dayanan H.Əliyevin bilavasitə, yaxud dolayısı ilə rəhbərliyi altında getmişdi.

Azərbaycan tarixinin XX əsrinin son yarıməsrlik tarixi H.Əliyevin adı və şəxsiyyəti, dövlətçilik təfəkkürü və yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. 70-ci illərdə sağlam millətçilik ideyalarının yayılmasında, xalqda milli mənlik və milli qurur hissinin tərbiyə olunmasında Azərbaycan dövlətinin başçısı olmuş H.Əliyevin xidmətləri misilsizdir. O, heç kimdən və heç nədən çəkinmədən Azərbaycanı iqtisadi və mədəni cəhətdən dirçəltmək, onun qədim xalqını öz torpaqlarının sahibinə çevirmək yolunda əzmlə mübarizə aparmışdır. H.Əliyevin xidmətlərini xarakterizə edən Qazaxıstanın prezidenti N.Nazarbayev demişdir: «Heydər Əliyev xalqı sıx birləşdirməyə və onu tərəqqi, inkişaf yoluna istiqamətləndirməyə müvəffəq olmuşdur. Buna müasir tarixdə əslində heç kəs nail olmamışdır».

H.Əliyev milli tarixin yaradıcılarındandır. O, həmişə tarixi təhrif etməyin əleyhinə olmuşdu. 1993-cü ildə ziyalılarla görüşündə Heydər Əliyev demişdi ki, «...tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır... Xalqımız qədim xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik xalqdır. Onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda

vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycançılıq hissini yüksəldərik».

Ümummilli liderin gündəlik qayğısı sayəsində Azərbaycan tarixinin bir sıra dövrlərinin və problemlərinin, xüsusən Azərbaycanın XIX-XX əsrlər tarixinin obyektiv işlənməsinə daha çox diqqət yetirilməyə başlandı. Heydər Əliyev 1997-ci il yanvarın 31-də Prezident sarayında alimlərlə görüşündə demişdi: «...XIX əsr xalqımız üçün müsibətli olubdur. Gərək onu doğru-düzgün, nə cür və necə olubdursa, elə də yazaq. Bunların hamısı həm də xalqımızın özünü tanıması, həm də bu günkü siyasətimiz üçün lazımdır».

Ulu öndərin fəaliyyətini araşdırarkən məlum olur ki, o, Azərbaycan tarixində və mədəniyyətində görkəmli yer tutan siyasi xadimlərin, tanınmış simaların fəaliyyətinin obyektiv qiymətləndirilməsi üçün məqsədyönlü iş aparmış, hətta imperiyanın yuxarı pillələrində əyləşən antiazərbaycan qüvvələrinin müqavimətini qırmağa müvəffəq olmuşdu. O, Səməd Vurğunun 7 mart 1997-ci il tarixdə Respublika sarayında keçirilən yubileyindəki çıxışında demişdi: «...Bu gün biz azad, müstəqil ölkəmizdə yaşayarkən keçmiş nəsillərə minnətdar olmalıyıq, bizdən qabaq yaşamış, yaratmış insanlara daim minnətdarlığımızı bildirməliyik. Çünki, bu günkü Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binanı kərpiç-kərpiç qoyan indiyə qədər yaşamış, yaratmış nəsillərdir. Bu binaya hərə öz payını qoyubdur - kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yaratmağa və inkişaf etdirməyə çalışmışdır». Ulu öndərin bu qiymətli sözləri, əslində elə onun özünə şamil edilməlidir. Ümummilli lider Müstəqil Azərbaycanın qurucusu kimi, şüurlu həyatını milli dövlət quruculuğuna həsr etmiş, özünün dediyi kimi, 70-ci illərdən başlayaraq onu kərpiç-kərpiç tikmişdir. Heydər Əliyevin qətiyyəti və xalqa olan sevgisinin nəticəsi olaraq N.Nərimanovun yubileyi keçirilmiş, bir zamanlar adlarının çəkilməsi yasaq olunmuş Cümhuriyyət qurucularının fəaliyyətinə qiymət vermək mümkün olmuşdur.

Milli bayram - Respublika günü münasibətilə 1996-ci il may ayının 26-da keçirilən təntənəli yığıncaqda çıxış edən Heydər Əliyev Azərbaycan Demokratik Cümhuriyyətinin tarixi roluna qiymət verərək demişdir: «Azərbaycan Demokratik Cümhuriy yətinin, onun hakimiyyətinin ömrü qısa olmuşdur. Bu Cümhuriyyət 23 ay ömür sürmüşdür. Ancaq bu qısa zamanda çox böyük işlər görülmüşdür. Ən böyük nailiyyət, tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir ...Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasında böyük işlər görmüş, xidmətlər göstərmiş Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusibbəyov və digər dövlət xadimlərinə Azərbaycan xalqının həyatında, tarixində oynadıqları böyük rola öz hörmət və ehtiramlarımızı bildiririk. Onların xidmətləri Azərbaycan tarixində olub. Bu xidmətlər heç vaxt unudulmayacaqdır».

Heç şübhəsizdir ki, AXC-nin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasnın Prezidenti İlham Əliyevin fərmanı ulu öndərin tarixi irsinə hörmət əlaməti ilə yanaşı, həm də milli tariximizə verilən qiymətin bariz nümunəsidir.

Azərbaycan tarixinin mühüm problemlərindən biri olan Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı, xalqımızın faşizm üzərindəki qələbəyə tövhəsi Heydər Əliyevin diqqətindən kənarda qalmamışdır. Bu problemdən danışan Heydər Əliyev demişdir: «Xalqımız çoxəsrlik tarixində qəhrəmanlıq nümunələri, cəsurluq nümunələri göstəribdir. Öz azadlığı uğrunda, səadəti, xoşbəxtliyi uğrunda mübarizə aparıbdır. Ancaq zaman-zaman tarixin cürbəcür mərhələlərində məğlubiyyətlərə də uğrayıbdır, bəlalara da düşübdür, faciəli dövrlər keçiribdir».

1996-cı il may ayının 9-da alman faşizmi üzərində qələbənin 51-ci ildönümü münasibətilə Həzi Aslanov adına Bakı

Ali Ümumqoşun komandirləri məktəbinin geniş salonunda müharibə və əmək veteranları ilə görüşündə Heydər Əliyev tariximizin bu illərinə münasibətini bildirərək demişdir: «Qələbənin 50 illiyi münasibətilə Moskvada keçirilən təntənəli mərasimlərdə dünyanın ən böyük dövlətlərinin başçılarının hamısı iştirak edirdi. İndi görün. Bunun nə qədər böyük ümumdünya əhəmiyyəti var. Ona görə də, belə bir hadisəni unutmaq, yaxud onun üstündən xətt çəkmək, ona siyasi qiymət vermək - bunu kim edə bilər? Buna heç bir nəslin ixtiyarı yoxdur. ... Azərbaycanın bu qədər tarixini silmək, pozmaq mümkün deyil...Bəs cəbhədən qayıtmayan 300 min insanın xatirəsi? 1945-ci ildən bu günədək dünyasını dəyişmiş müharibə iştirakçıları. O illərdə Azərbaycanın xalq təsərrüfatını, iqtisadiyyatını işlədən, yaradan, respublikamızın neft mədənlərində gecə-gündüz çalışan və bu məhsulu əzab-əziyyətlə cəbhəyə göndərən insanlar? Bu qələbənin bəşəri nöqteyi-nəzərdən siyasi mənası nə qədər böyükdür. Alman faşizminə qarşı döyüşlərdə qəhrəmanlıq göstərmiş Həzi Aslanovun, İsrafil Məmmədovun, Hüseynbala Əliyevin, Qafur Məmmədovun və minlərlə belə oğulların igidlikləri gənclərimiz üçün nümunə olmalıdır». Eyni fikirləri ulu öndər bir az da genişləndirərək alman faşizmi üzərində qələbənin 52-ci ildönümü münasibətilə İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarı önündə keçirilən nitqində demişdir: «...Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olubdur...Azərbaycan xalqının xidmətləri misilsiz, əvəzsiz, tarixidir».

Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti milli dövlətçilik tariximizin tərkib hissəsidir. Məhz həmin illərdə Azərbaycan dövlətçiliyinin atributları dirçəldilmişdir. H.Əliyevin qətiyyəti nəticəsində Muxtar Respublikanın adından «sovet», «sosialist» sözləri çıxarılmış, üç rəngli bayraq Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul olunmuşdu. 31 martın «Dünya azərbaycanlıları günü» elan olunması və hər il qeyd edilməsi

Heydər Əliyevin xüsusi xidmətlərindəndir. Ümumilikdə, ağır blokada şəraitində yaşayan Naxçıvanın düşməndən qorunub saxlanması Heydər Əliyevin uzaqgörənliyi, cəsarəti və bacarığı sayəsində mümkün olmuşdur.

Azərbaycanın milli tarixində onun yeni Konstitusiyası mühüm yer tutur. Heydər Əliyev bütün çıxışlarında bəyan etmişdir ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır. Məhz onun qətiyyəti nəticəsində Azərbaycanın yeni Konstitusiyasında Azərbaycanda dövlət hakimiyyətinin təşkil olunmasının demokratik prinsipləri əksini tapmışdır. Mübahisəsiz bir həqiqətdir ki, Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Heydər Əliyevin əvəzsiz xidmətidir.

Bu gün Azərbaycan xalqı yenidən bərpa olunmuş dövlət müstəqilliyinin qorunub saxlanması üçün Heydər Əliyevə minnətdardır. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın ən yeni tarixi başlanmışdır.

# IX F Ə S İ L

## 1978 -1979 -cu illər İran inqilabı və Cənubi Azərbaycan

XX əsrin II yarısında ümumdünya miqyasında demokratikləşmə uğrunda gedən mübarizədə 1978-1979-cu illər İran inqilabı mühüm yer tutur. Bu hərəkat ölkədə şah üsul idarəsinə, eyni zamanda ölkənin ABŞ inhisarlarının xammal əlavəsinə çevrilməsinə qarşı yönəlmişdi. İnqilab nəticəsində ən qədim və müstəbid İran monarxiyası devrilmişdi.

Ümumiyyətlə, 60-cı illərdə İranı bürümüş dərin iqtisadi, siyasi və sosial böhran şahı məcbur etdi ki, genişlənən demokratik mübarizənin qarşısını hərbi yolla almaqla bərabər, islahatlar da keçirsin. İran tarixinə bu «Ağ inqilab»" adı ilə düşmüşdür.

1962-ci ilin yazında baş nazir Amin istefa verdi. Ələm yeni hökumət təşkil etdi. Bu hökumət şahın göstərişi ilə «Ağ inqilab»" la bağlı altı qanun layihəsini hazırladı. 1)Bütün ölkədə torpaq islahatının keçirilməsi; 2) Meşələrin milliləşdirilməsi; 3) Dövlətə məxsus fabrik və zavodların satılması; 4) Məclisə seçkilərin keçirilməsinə aid qanunun dəyişdirilməsi; 5)Müəssisələrin gəlirlərinin müəyyən ləşdirilməsində fəhlələrin iştirakının təmin edilməsi; 6) Kənddə savadsızlığa qarşı mübarizə aparmaq üçün maarif korpusu" yaradılması qanın layihələrində əksini tapmışdı. Bütün bunlarla əlaqədar, 1963-cü il yanvarın 26-da referendum keçirildi və əksəriyyət bunu bəyəndi.

İslahat planının 6 maddəsinə kənd əhalisinə tibbi yardım göstərmək məqsədilə a) «Tibb korpusu"» nun; b) İşlərin yeni, müasir metodla aparılamsı üçün «tərvic korpusu»" nun (tətbiq korpusu) ; c) Kəndlərdə kiçik işlərə baxılması və onların həll

edilməsi üçün ədalət evlərinin" yaradılması; d) Su mənbələrinin milliləşdirilməsi haqqında; e) Həyat şəraitini yüksəltmək üçün şəhərlərin və kəndlərin yenidən qurulması proqramının qəbulu; nəhayət, k) İnzibati islahatların keçirilməsi haqqında qanunlar əlavə edildi.

1963-cü ilin fevral ayının 27- də şah İranda feodal sisteminin 30 il ərzində ləvğ olunacağını bildirdi. Lakin feodallar torpaq haqqında qanuna müqavimət göstərir, onu qəbul etmək istəmirdilər. Onlar qohumlarına torpağa yiyələnmək üçün sənəd verir, hətta belə halların qarşısını almaq istəyənlərə qarşı sərt tədbirlər görürdülər.

Savadsızlığın ləvği üçün atılan addımlar, qadınların hüquqlarının genişlənməsi üçün edilən qanun dəyişiklikləri də heç bir nəticə vermədi.

1970-ci ilin martında dövlət «Yeni iqtisadi siyasət»" elan etdi. YİS-də dövlət hesabına yeni müəssisələrin yaradılması qadağan edilir, qarışıq müəssisələrdə səhmlərin əksəriyyətinin xüsusi sektora mənsub olması, dövlət vəsaiti ilə tikilən metallurgiya, maşınqayırma, neft-kimya və b. müəssisələrin xüsusi kapitala verilməsi nəzərdə tutulurdu.

Bütün bunlara baxmayaraq, ölkənin daxilində Milli Cəbhənin fəaliyyəti genişlənirdi. Fransada mühacirətdə olan Ayətullah Ruhullah Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı getdikcə güclənirdi. Əsasən, 1978-ci ilin əvvəlindən başlanan bu hərəkat öz xarakteri və hərəkətverici qüvvələrinə görə müxtəlif mərhələlər keçərək həmin ilin oktyabrın sonu-noyabrın əvvəlində şah diktaturasına qarşı ümumxalq inqilabı xarakteri aldı.

Şah başlanmış inqilabi mübarizənin qarşısını almaq üçün bir neçə kabinet dəyişikliyi etdi. 13 il İranın baş naziri işləmiş Əmir Abbas Hübeyda vəzifəsindən kənar edildi. Qısa müddətdə baş nazir vəzifələrini Qulam Rza Əzhari, D.Amuzqari, Şərif İmami və başqaları tutdular. 1978-ci il dekabrın 29-da Rza şah burjua Milli cəbhəsinin liderlərindən biri Şahpur Bəxtiyara

hökümət təşkil etməyi tapşırdı. Noyabrın 6-da hakimiyyətə gəlmiş general Əzhari dekabrın 31-də istefa verdi. Şah rejiminin geri çəkilməsi ilə inqilabın müvəffəqiyyətli səhifəsi başlandı.

Geniş xalq hərəkatının təsiri altında 1979-cu il yanvarın 16-da şah Məhəmməd Rza Pəhləvi ölkədən gedir.

Devrilmiş şah Misir prezidenti Ə.Sadat tərəfindən hörmətlə qarşılanır. 6 gün sonra o, kral II Həsənin dəvəti ilə Mərakəşə gedir. 1979-cu il martın 30-da M.Rza şah və Şahbanu Fərəh Amerikaya gəlirlər. İranda isə din xadimi Sadıq Xalxali onları ölümə məhkum edir. Şahın xəstəliyi şidətlənir. Bir müddət Meksikada müalicə olunan şah 1979-cu il oktyabrın 24-də əməliyyat olunur. Lakin çox çəkmir ki, onun səhhəti pisləşir və dünyasını dəyişir.

Şah Məhəmməd Rza Pəhləvi 1980- ci il iyulun 29- da Miirdə Əl –Rifah məscdində dəfn edilmişdi. Dəfn mərasimində Amerikanın keçmiş prezidenti R.Nikson, Misir prezidenti Ənvər Sadat, yunan kralı Konstantin və xanımı, Sovoya şahzadəsi Viktor Emmanuel, Mərakeş krlı II Həsənin ən yaxn adamı Hafid, şahın oğlu Rza, qardaşı Qulam Rza, Əbdül Rza və başqaları iştirak etmişlər. Ənvər Sadatın xanımı Cahan Sadat xatirələrində yazır ki, « .. bu vaxtacan heç belə böyük yas mərasimi olmamışdı… Dünyanın çox böyük dövlətlərinin prezidentləri də burada idi». M.Rza şahın ölümündən 4 ay sonra Ənvər Sadat da hərbti mərasimdə qətlə yetirilir.

1979-cu il fevralın 1-də İran inqilabının lideri Ayətullah Xomeyni Fransadan vətənə qayıdıq.

**İmam Ruhullah Musəvi Xomeyni** 1900-cü ildə Xomeyni kəndində anadan olmuş du. Onun adı Ruhullah «allah rühü» mənasını ifadə edir. Xomeyni kəndində dini təhsil alandan sonra o, Qumda yaşamış, fəyziyyədə fəl səfə,




**İmam Xomeyni**

mistika və etikadan dərs demişdi. 30-cu illərdə onun dərs deməsi şah tərəfindən qadağan olunsa da, fəaliyyətini davam etdirmiş, monar xiyaya qarşı mübarizə üçün öz şagirdlərini yetişdirmişdi. Xomeyni 1964-cü ildə Türkiyəyə sürgün edimiş, 11 aydan sonra İraqa gəlmiş, Nəcəfdə dini məktəblərdə mühazirələr oxumuş, islam dövləti haqqında öz konsepsiyasını hazırlamışdı. 1971-ci ildə onun «İslam hökuməti» kitabı çap olunmuşdu.

Xomeyni İraqda da təqib olunmuş, şahın tələbi ilə İraqı tərk etməyə məcbur olmuşdu. 1978-ci ildə Parisdə Nofle-de Şato adlı məntəqədə yerləşmişdi.

Xomeyni Hofle-le Şatoda olduğu müddətdə (7 oktyabr 1978-1 fevral 1979) İranda hadisələrin gedişinə rəhbərlik etmiş, bu işdə ona ölkədəki 80 mindən çox məscid, 180 min molla, yüz minlərlə dindar köməklik göstərmişdi. 1979-cu il fevralın 1-də Xomeyninin Tehrana gəlişi ilə 15 illik mühacirət başa çatmışdı.

Tezliklə şəhərlərin çoxunda inqilabi özünüidarə orqanları yaradılmağa başladı. Ordunun əsas hissəsi xalqın tərəfinə keçdi. 1979-cu il fevralın 9-da axşam Tehrandakı Duman-Təpə hərbi hava bazasında Xomeyninin qayıtması haqqında film göstərilərkən şah tərəfdarı olan təyyarəçilərlə Xomeyni tərəfdarı olan təyyarəçilər arasında toqquşma başladı. Bundan sonra ordunun bitərəfliyi haqqında bəyanat verildi.

Ordunun geri çəklməsi inqilabın qələbəsi demək idi. Fevralın 12-də üsyançılar Tehranda hakimiyyəti ələ aldılar. Başqa şəhərlərdə də inqilab qələbə çaldı, «İranın müstəqilliyi» hərəkatı"nın lideri Mehdi Bazərganın başçılığı ilə müvəqqəti hökumət təşkil edildi. Bəxtiyar hökuməti qaçdı. Beləliklə, 13 ay davam edən mübarizə 2500 illik şah üsul-idarəsinə son qoydu.

İran islam inqilabı 3 mərhələdən keçmişdir:

**Birinci mərhələ** 1978-ci il yanvarın 9-da Qumda baş verən hadisələrlə başlamış, həmin gün demokratik dəyişikliklər uğrunda çıxış edən ruhanilərin nümayişi gülləboran edilmişdi. Hərəkat onlarla şəhərləri əhatə etmiş, sentyabrın 8-də (Qara cümə) Tehranda xalqa divan tutulmuşdu.

**İkinci mərhələ**də sənaye proletariatı mübarizəyə qoşul muşdu. Kütlələrdə şah rejiminin devrilməsinə inam yaranmışdı.

**Üçüncü mərhələ** 1979-cu ilin yanvar-fevral aylarını əhatə edir. Bu mərhələ xalq kütlələrinin hücumu nəticəsində şah rejiminin devrilməsi ilə başa çatmışdı.

İran İslam inqilabı özünəməxsus xüsusiyyətləri ilə digər inqilablardan fərqlənir. İlk növbədə 1979-cu il fevralın 9-12-də Tehranda baş vermiş üsyan böhranın dinc yolla nizama salınması planını pozdu. Fevral inqiabı həm də çevrilişin qarşısını aldı. Tehran üsyanı birinci növbədə nüfuzlu qüvvə olan ruhanilərinin mənafeyinə uyğun olsa da, müsəlman ruhanilərinin və İranın əksər əhalisinin iradəsini ifadə edirdi. Bu səbəbdən də, mühafizəkar sosial təbəqə xalq inqilabına başçılıq etməyə başlamışdı. İnqilabın tezliklə qələbə çalmasında islam ideologiyasının xalq kütləlеri içərisindəki nüfuzu mühüm rol oynadı. İnqilabda iştirak edən əhalinin müxtəlif təbəqələri, insanların müxtəlif qrupları rejimin dərhal devril məsinin tərəfdarı idilər. İnqilabın qələbəsində şəhər partizanları, xomedorlar (leytenant rütbəli zabit və əsgərlər) mühüm rol oynadılar. İnqilab xalq kütlələrini geniş siyasi fəaliyyətə cəlb etdi . 1979-cü ilin yanvar-fevral aylarında kütləvi təşkilatlar yaradıldı. Hadisələrin əsil mərkəzi «Xomeyni komitələri» oldu.

Kəndlilər inqilabda iştirak etməklə müxtəlif aspektlərdə özlərini göstərərək şah rejiminə qarşı mübarizədə ruhaniləri dəsətəklədilər və müxtəlif vasitələrlə mübarizə apardılar. Sözsüz ki, inqilabda sənaye proletariatının iştirakı inqilaba daha ardıcıl məna və məzmun verdi, qələbə imkanlarını artırdı.

Qərbi Avropa ölkələri inqilablarında olduğu kimi, İran inqilabı da «İnqilab təhlükədədir» şüarı altında baş verdi. İnqilabın mühüm xüsusiyyətlərindən biri də o idi ki, istər inqilab qələbə çalana qədər, istərsə də sonra ölkədə ikihakimiyyətlilik olmuşdur. Bu tarixdə nadir hadisələrdən olub 1778-1779-cu illər Böyük Fransa burjua inqilabında, 1917-ci il Rusiya fevral-burjua demo kratik inqilabında baş vermişdi

İnqilabın qələbəsindən sonra ruhanilərin əsas vəzifələri öz qüvvələrini birləşdirmək, dövlət aparatına yiyələnmək, İmam Xomeyni başda olmaqla xalqı küçələrdən yığışdırmaq və tərkisilah etməkdən ibarət oldu. İranda da Bazərganın başçılığ ilə Müvəqqəti inqilabi hökumət yaranmışdı. Bazərganinin hökuməti keçid höku məti olub, əsas vəzifəsi ölkədə vəziyyəti sabitləşdirmək, Müəs sislər Məclisinə seçkilər təşkil etmək, yeni Konstitusiyanın qəbulu üçün referendim keçirmək idi.

1979-cü il fevralın 1-də Xomeyninin mühacirətdən qayıtması münasibətilə onun tərəfdarlarının yaratdıqları İslam inqilabı Müvəqqəti Şurası da müvəqqəti koalisiyon hökumətlə yanaşı, onunla məsləhətləşmədən, bəzən də onun iradəsi əleyhinə olaraq tədbirlər həyata keçirirdi.

İranda din xaldimlərinin hakimiyyətə gəlməsi səbəblərindən biri də, ölkədə bütün təbəqələr arasında dinin dərin təsirə malik olması, İranda şahlıq rejiminə qarşı mübarizənin uzun müddət davam etməsi, müstəqil xarici siyasət yeridilməsi, xarici kapitalın təsirinin məhdudlaşdırılması, azlıqda qalan xalqlara milli-mədəni muxtariyyat verilməsinin vəd edilməsi və geniş xalq kütlələrinin inqilabi hərəkata cəlb olunmasıdır.

Ölkədə həyata keçirilən mühüm siyasi tədbirlərdən biri də, referendumun keçirilməsinə hazırlıq olmuşdu. Müvəqqəti Şura 1979 - u il martın 30-31-də İranının dövlət statusunu müəyyən etmək üçün keçirilən referendumda qələbə çalaraq aprelin 1-də İran İslam Respublikası elan olunmasına, noyabrda isə Bazərgah hökumətinin istefasına nail oldu. Hakimiyyət İslam İnqilabı Şurasının əlinə keçdi. Xomeyninin tərəfdarları qələbə çaldı. Şahın 37 illik fəaliyyətinə son qoyuldu. Məclis buraxıldı. 1906-cı ildən mövcud olan Konstitusiyanın fəaliyyəti dayandırıldı.

İranın dövlət dili fars dili elan edildi. 1979-cu ildə referendumla «İslam Konstitusiyası» qəbul edildi.

Yeni Konstitusiyaya görə dövlətdə ali vəzifə rəhbərə və prezidentə məxsus idi. Rəhbər ölkədə şiə müsəlmanlarının dini

lideri hesab olunurdu. Prezident 4 il müddətinə birbaşa səsvermə yolu ilə iki dəfədən artıq seçilə bilməzdi. 270 deputatı olan bir palatalı məclis qanunverici hakimiyyəti təşkil edilirdi. Məclis ölkənin 23 əyalətindən və bir paytaxt mahalından nümayəndələr olmaqla birbaşa, gizli səsəvermə ilə 4 ilə müddətinə seçilirdi. İcraedici hakimiyyət prezidentə və baş nazin rəhbərliyi ilə hökumətə aid idi. Baş naziri prezident təyin edirdi.

Konstitusiyaya görə prezident və hökumətin fəaliyyətinə ali dini və siyasi nüfuzlu şəxs nəzarət etməli idi. Xomeyni ömrünün sonuna kimi fəqih və İran İslam İnqilabının rəhbəri vəzifəsinə təyin edilmişdi.

İranda şah rejiminə qarşı mübarizədə Azərbaycan xalqı fəal iştirak etmişdi. 1979-cu il fevral inqilabının qələbəsindən əvvəl Xomeyni İranda yaşayan xalqlara özünüidarə hüququ veriləcəyini vəd etsə də, qələbədən sonra bu məsələ Xomeyninin dünyabaxışı çərçivəsində həll edildi. Xomeyni belə hesab edirdi ki, İranda islam dininə xidmət edən xalqlar vahid İran millətini təşkil etməlidir. Eyni doktrina sovetlər birliyində də həyata keçirilirdi. Şübhəsiz ki, bu hal digər xalqlarla bərabər, azərbaycanlılar arasında da narazılığa səbəb oldu. Əsrin əvvəllərindən 3 dəfə ( 1905-1911, 1917-1920, 1945-1946) milli-azadlıq mübarizəsinə qalxan Azərbaycan xalqı yeni inqilabdan da gözlədiyini ala bilmədi. Cənubi Azərbaycana İran daxilində muxtariyyat verilmədi, Azərbaycan dilinin və mədəniyyətinin inkişafı üçün şərait yaradılmadı.

Güney Azərbaycanında İslam rejiminin (1979) formalaşması ilə əlaqədar mühacirətin son mərhələsi başlandı. Təxminən həmin illərdən etibarən keçmiş Sovetlət Birliyində milli-azadlıq hərəkatının güclənməsi, «yenidənqurma», «aşkarlıq» və s. kimi siyasi proseslər dəmir pərdənin tədricən aradan götürülməsinə gətirib çıxarmış, bu isə mühacirətin yeni bir dalğasının yaranmasına təkan vermişdi. Bu illərdə mühacirətin yaranmasını şərtləndirən əsas amil, bir tərəfdən, vətənimizin güneyində yaşayan soydaşlarımızın milli hü-quqlarının tapdanması ilə bağlıdırsa, digər tərəfdən, Quzeydə

milli-azadıq hərəkatının güclənməsi, itirilmiş dövlətçiliyin bərpa olunması (Azərbaycan Respublikasının yaranması), azad, demokratik dünya ilə əlaqə və rabitə ehiyaclarının reallaşması idı.

Bu mərhələnin özünəməxsusluğunu şərtləndirən əsas amillərdən biri həmin mərhələdə Azərbaycanın hər iki parçasının-həm şimalındakı, həm də cənubundakı ziyalılarının istiqlalçılıq, vətənçilik, dövlətçilik dünyagörüşü zəminində Bütöv Azərbaycan məfkurəsini formalaşdırmaq cəhdi ilə bağlıdır. Bu, olduqca mühüm əhəmiyyət kəsb edən və mühacirətin keyfiyyətcə yeniləşməsini göstərən siyasi-mədəni amildir.

# N Ə T İ C Ə

XX əsrin əvvəllərində Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər nəticəsində bazar münasibətləri bərqərar olmuş, milli burjuaziya meydana gəlmiş, demokratikləşmə və siyasiləşmə başlamışdır. Ölkəmizdə ictimai-siyasi şəraitin dəyişməsi, yeni siniflərin, ictimai qrupların və partiyaların yaran ması milli demokratik fikrin formalaşmasına, milli yaddaşın inkişafına təkan vermişdir.

XX yüzilliyin Azərbaycanın siyasi tarixində özünəməxsus yeri vardır. Bu əsrdə milli-demokratik və milli-azadlıq hərəkatları baş vermiş, 1918-ci ilin mayında Azərbaycan Demokratik Respub likası elan olunmuş, 1920-ci il 28 aprel çevrilişindən sonra Azərbaycan SSR ilə əvəz olunmuşdur. Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini elan etmişdir. Artıq 20 ilə yaxındır ki, Müstəqil Azərbaycan Respublikası beynəlxalq aləmdə bərabərhüquqlu tərəfdaş kimi fəaliyyət göstərir.

Azərbaycan yeni minilliyə-XXI əsrə qədəm qoymuşdur. İqtisadiyyatın və mədəni həyatın dirçəlməsi, dünyəvi və hüququ dövlət quruculuğu sahəsində həyata keçirilən islahatlar, həyatın müxtəlif sahələrində baş verən dəyşikliklərin yeni dövlət quruculuğunun uğurla həyata keçirildiyindən xəbər verir.

Əsası ümummilli lider H.Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsi nəticəsində Azərbaycanın dünya dövlətləri birliyində nüfuzu artmış, Azərbaycan ümum dünya əhəmiyyətli layihələrin həyata keçirilməsinin təşkilatçılarında birinə çevrilmişdir. Artıq Azərbaycanın iştirakı olmadan heç bir mühüm layihələrin gerçəkləşməsi mümkün deyildir. Başqa sözlə, dünyanın aparıcı dövlətləri Qafqaz siyasətində Azərbaycanla hesablaşmağa məcburdurlar.

Müstəqil Azərbaycan Respublikası həlli çətin olan bir problemlə üz-üzə qalmışdır. Bu Dağlıq Qarabağ, Ermənistan-

Azərbaycan münaqişəsidir ki, region dövlətlərinin ikili yanaşmalarının nəticəsi olaraq 20 ilə yaxındır ki, həll olunmur. Münaqişənin həlli üçün Azərbaycan tərəfindən bütün səylər göstərilməsinə baxmayaraq Ermənistan Respublikasının qeyri-konstruktiv mövqeyi nəticəsində qarşılıqlı razılaşma əldə etmək mümkün olmamışdır. Azərbaycan dövləti münaqişənin sülh yolu ilə həlli üçün diplomatik səylərə üstünlük verir və çalışır ki, münaqişə beynəlxalq hüquq normaları daxilində, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunsun.

Ümummilli lider H.Əliyev demişdir: Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, daimidir. Hər bir Azərbaycan vətəndaşı bü müstəqillyin qorunması və möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməməlidir.

# Ədəbiyyat

**Azərbaycan dilində**

1.Abdullayev Z. 1905-1907-ci illər rus inqilabının Şərq ölkələrində inqilabi hərəkatın yüksəlişinə təsiri. Bakı, 1955.

2.Acı həqiqətlər. Bakı, 1991.

3.Ağ ləkələr silinir. (Tərtibçi O.Mirzəyev). Bakı, 1991.

4.Axundov B. Azərbaycanlılar doğma Qafqaz uğrunda vuruş malarda. Bakı, 1943.

5.Axundov M.F. Əsərləri II cild. Bakı, 1961.

6.Axundov M.F. Əsərləri III cild. Bakı , 1962.

7.Alıcanov M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər). Bakı, 1975.

8.Atakişiyev A.M. Azərbaycanda xalq təsərrüfatının bərpası dövründə fəhlə sinfi ilə kəndlilərin ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizə (1921-1925-ci illər). Bakı, 1961.

9.Azərbaycan tarixi. Yeddi cilddə. Bakı, 1988-2001.

10.Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 1994.

11.Azərbaycan Xalq Cümhuriyyəti. Bakı, 1998.

12.Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I cild, Bakı, 1998.

13.Azərbaycan KP tarixinin oçerkləri. Bakı, 1964.

14.Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

15.Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. Bakı, 1990.

16.Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.

17.Azərbaycan hökuməti və onun devrilməsi səbəbləri. «Elm» qəzeti. Bakı,1991, № 21 -22.

18.Azərbaycan parlamentinin son saatları. «Elm» qəzeti. Bakı, 1991, № 19-20.

19.Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. I cild. 1920 -1937. Bakı, 1987.

20.Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi (AR SPİH MDA).

21.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild, Bakı, 2004; II cild, Bakı, 2005.

22.Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı,1985.
23.Azərbaycan Sovet Ensiklopediyası. I-X cildlər. Bakı, 1976-1987.
24.Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970.
25.Balayev A., Mirzə R. 20 yanvar hadisələri. Sənədlər, mövqelər, şərhlər (1990 -2000). Bakı, 2000.
26.Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı, 1951, 2000.
27.Baykara H. Azərbaycan milli istiqlal mübarizəsi tarixi. Bakı, 1992.
28.Bünyadov Z. Qırmızı terror. Bakı, 1993.
29.Cəfərov N. Milli-ictimai fikir tariximizdən. Bakı, 1993.
30.Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917). Bakı, 1985.
31.Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. Bakı, 1993.
32.Çəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı, 1993 .
33.Dadaşlı A. Azərbaycanda sovet hakimiyyətinin qurulması // ÜİK (b) P yanında MLİ AF əsərləri. Bakı,1947.
34.Dəmirli M., Məmmədli M. ADR dövründə ermənilərin ərazi iddiaları və Cənubi Qafqazda Sovet hakimiyyətinin qələbəsindən sonra onun daşnaq bolşevik sayağı həlli // Azərbaycan XXI əsrin astanasında. Bakı, 1998.
35.Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992.
36.Ermənistan Azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995.
37.Əhmədova F. Həriman Nərimanovun siyasi fəaliyyəti (1920-1921-ci illər). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı, 2000.
38.Əhmədov Nəzir. (Nəzir Eltəkin). Qaçaq Abbas. Bakı, 2001.
39.Əliyev H. Yeni 2001- ci il yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. Bakı, 2001.
40.Əliyev M. Qanlı günlərimiz. Bakı, 1993.
41.Əliyev İ. Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr. Bakı, 1989.
42.Əliyev X.Əlimirzəyev X. Azərbaycan kənd təsərrüfatının kollektivləşdirilməsi tarixindən. (1930-1934- cü illər). Bakı, 1957.

43.Əlizadə N. Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən. Bakı, 1974.

44.Əlimirzəyev X.O. Kənd təsərrüfatının elliklə kollektivləşməsi üçün şərait yaradılması. Bakı, 1956.

45.Əmrahov M.İ. Ümumtəhsil məktəblərində tarixin tədrisində Heydər Əliyev əsərlərinin öyrədilməsi. Bakı, 2003.

46.Əmrahov M.İ. Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində. Bakı, 2004.

47.Əmrahov M.İ., Salahov M.N., Əsədov N.N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri. (1917-1941- ci illər). Bakı, 2007.

48.Əsgərov L. H. 1926-1932-ci illər ərzində Azərbaycan SSR xalq təsərrüfatının inkişafı tarixindən. Bakı, 1986.

49.Əzizbəyova P.Ə. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində böyük rus xalqının qardaşlıq köməyi. Bakı, 1954.

50.Fətəli xan Xoyski-həyat və fəaliyyəti. Bakı, 1998.

51.İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. Bakı. 1957.

52.İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920 -1930). Bakı, 1996.

53.İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı,1996.

54.İsmayılov M., İbrahimov M. XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesi. Bakı, 1991.

55.İsmayılov M. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960.

56.Həsənov Cəmil. «Ağ ləkə» lərin qara kölgəsi. Bakı, 1991.

57.Həsənov C. İstiqlaliyyətin çətin yolu. Bakı, 1992.

58.Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sis temində. 1918-1920. Bakı, 1993.

59.Həsənov N. Oyanmış Təbriz və Səttarxan. Bakı, 1986.

60.Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1982.

61.Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik (Günay səhifələrində). Bakı, 2004.

62.Hüseynov Ş. Milli haqq və ədalət axtarışında (1988-2000). Bakı, 2004

63.Görkəmli inqilabçı Səttarxan. Bakı, 1972.

64.Xəlilli Xəlyəddin. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. Bakı, 2007.

65.İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1997.

66.İslam Sadıq. Ermənilərin Birinci Pyotrla görüşü. Bakı, 1993.

67.Yaqublu N. Xocalı qırğını. Bakı, 1992.

68.Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, 1993.

69.Yaqublu N. Azərbaycan Milli istiqlal mübarizəsi və Məmmədəmin Rəsulzadə. Bakı, 2001.

70.Yaqublu N. Azərbaycan legionerlərı. Bakı, 2005.

71.Köçərli T. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı, 1972.

72.Köçərli T. Nəriman Nərimanov. Bakı, 1977.

73.Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1988.

74.Qasımov M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.

75.Qasımlı Musa. Azərbaycan türklərinin milli mücadilə tarixi. 190-1945.İstanbul, 2006.

76.Qafqazda Sovet totalitarizmi (20 -30-cu illər). Elmi konfransın materialları. Xəzər Universiteti 6-7 noyabr 1998. Bakı, 1998.

77.Qaffarov T. Azərbaycan tarixi (1920 -1991). Bakı, 1999.

78.Qafarov T. Azərbaycanın ən yeni tarixi. Bakı, 2006.

79.Qlinka S.İ. Ermənilərin Azərbaycana köçürülməsi. Bakı , 1995.

80.Qriboyedov A.S., Zaslavski R.D. Rusiya Zaqafqaziya şirkətinin yaradılması haqqında qeydlər. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s.286-300.

81.Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, 1992.

82.Manaflı H. Şəki üsyanı, Bakı, 2004.

83.Mədətov Q.Ə. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR yaradılması. Bakı, 1958.

84.Mədətov Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsində. 1941-1945. Bakı, 1965.

85.Məmmədzadə Mirzə Bala. Azərbaycan Milli xartiyası. «Azərbaycan» jurnalı. Bakı, 1991, № 4

86.Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.

87.Məmmədzadə Mirzə Bala. Ermənilər və İran. Bakı, 1993.

88.M.Sədi Koçaş. Tarixdə ermənilər və türk-erməni münasibətləri. Bakı, 1998.

89.Məmmədov İ.,Əsədov S. Ermənistan azərbaycanlıları, onların acı taleyi. Bakı, 1992.
90.Məmmədov X. Azərbaycan Milli hərəkatı (1875-1918-ci illər). Bakı, 1996.
91.Məmmədov E. Elliklə kollektivləşmə dövründə Azərbaycan kəndində sinfi mübarizə. Bakı, 1960.
92.Məmmədov Ə. Müstəqil Azərbaycan dövlətçiliyinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, 1999.
93.Mehdizadə M. Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958.
94.Mir Cəfər Bağırovun məhkəməsi (arxiv materialları). Baki, 1993.
95.Mirhadiyev M.M. Azərbaycan SSR-də sosializmin qələbəsi. Bakı, 1959.
96.Mustafayev V. Cənubi Azərbaycanda Milli şüur. (XX əsrin birinci yarısı). Bakı, 1998.
97.Musayev T. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilən faciələr. Bakı, 1991.
98.Musayev İ. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət (1917-1920). Bakı, 1992.
99.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti. Bakı, 1996.
100.Muradzadə M. Mart hadiseyi-əliməsi. Bakı, 1996.
101.Müslümov İ., Mosesova İ.,Sarkisyan U. Sovet Dağlıq Qarabağı Lenin Milli siyasətinin təntənəsidir. Bakı, 1983.
102.Nəcəfov V. Deportasiya. Bakı, 1998.
103.Nərimanov N. Seçilmiş əsərləri. I cild. 1890 -1917. Bakı, 1988.
104.Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 1992.
105.Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
106.Nəzirli Ş. Tam artilleriya generalı Səməd bəy Mehmandarov. Bakı, 1997.
107.Ordubadi M.S. Qanlı illər. Bakı, 1991.
108.Orucov M. Azərbaycanda və mühacirətdə «Müsavat» partiyasının fəaliyyəti (1911-1922) Bakı, 2001.
109.Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.

110.Rəsulzadə M.Ə. Azərbaycanın təşəkkülündə «Müsavat». Bakı, 1920.
111.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
112.Rəsulzadə M.Ə. Panturanizm haqqında. «Azərbaycan» jurnalı. Bakı, 1991, № 6.
113.Rəsulzadə M.Ə. Qafqasiya türkləri «Azərbaycan» jurnalı. Bakı,1991, №2.
114.Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991.
115.Rəsulzadə M.Ə. Azərbaycan davası. Bakı, 1998.
116.Rüstəmbəyli M.K. Xalqın xöşbəxtliyi uğrunda (Azərbaycanın Quba qəzasında Sovet hakimiyyəti uğrunda mübarizə. 1917-1920- ci illər). Bakı, 1969.
117.Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevskinin xatirələri. Bakı, 1994.
118.Sərdarniya Səməd. Arazın hər iki tayında azərbaycanlıların soyqırımı. Bakı, 2006.
119.Sultanov O.B. 80- ci illərin sonu – 90 - cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.
120.Süleymanov M. Azərbaycan ordusu. (1918-1920). Bakı, 1998.
121.Süleymanov M. Mehmandarov. (həyatı, xidmət yolu və silahdaşları). Bakı, 2000.
122.Siyasi tarix. I hissə. Bakı, 1995.
123.Siyasi tarix. II hissə. Bakı, 1998.
124.Svyatoxovski T. Rusiya Azərbaycanı. (1905-1920-ci illər). «Azərbaycan» jurnalı. Bakı,1989, № 11.
125. Svyatoxovski T. «Hümmət» partiyası. Rusiya Azərbaycanında sosalizm və milli məsələ. Bakı, 1978.
126.Şahgəldiyev K. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. Bakı, 1960.
127.Şirinov A. Çoxmillətli sovet mədəniyyəti. Bakı, 1973.
128.Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997.
129.Topçubaşov Ə.M. Azərbaycanın təşəkülü //Azərbaycan EA xəbərləri. Tarix, Fəlsəfə və Hüquq seriyası. Bakı,1990, №3.
130.Vəliyev İ.,Muxtarov K., Hüseynov F. Deportasiya. Bakı, 1998.
131.Vəliyev İ. Dünya susur, tarix susmur. Bakı, 1994.
132.Vəlili Məmmədhəsən. Azərbaycan. Bakı, 1993.

133.Vəliyev T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987 .
134.Yusifov Y. Azərbaycan Kommunist partiyasının kənd təsərrüfatında əsaslı dönüşün yaradılması sahəsində təşkilatı işi (1970-1979- cu illər). Bakı, 1979.
135.Ziyadxanov A. Azərbaycan. Bakı, 1993.
136.Zülfüqarlı M.P. Azərbaycan tarixi. İkinci respublika dövrünün tarixşünaslığı. Bakı, 2001.

**rus dilində**

137.Abbasov M.Q. Baku v qodı Velikoy Oteçestvennoy voynı. Baku, 1967.
138.Axmedşina F. Azerbaydjan v bratskom sodrujestve. Baku, 1979.
139.Amraxov M.İ. Narodnoe obrazovanie v Azerbaydjane v qodı elikoy Oteçestvennoy voynı 1941-1945 qq. Baku, 2004.
140.Baqirova İ. Politiçeskie partii i orqanizaüii Azerbaydjana v naç. XX v. Baku, 1997.
141. Balaev A. Azerbaydjanskoe naüionalğno-demokratiçeskoe dvijenie. 1917-1920. Baku, 1990.
142. Vtoroy Vseazerbaydjanskiy scezd Sovetov. Sten. Otçet. Baku, 1922.
143. İsmailzade D.İ. Russkoe krestğənstvo v Zakafkazğe (30-e X1X-naçalo XX v). M., 1982.
144. Kamuran Kör. Armənskoe dosğe. Ankara, 1985.
145. Monopolistiçeskoy kapital v neftənoy promışlennosti Rossii. Dokumentı i materialı. L., 1961.
146. Musaeva T. Revolöüiə i narodnaə obrazovaniə. Baku, 1979.
147. Seidzade D.B. İz istorii azerbaydjanskoy burjuazii v naç. XX v. Baku, 1978.
148. Seidzade D.B. Azerbaydjanskie deputatı v Qosudar-stvennoy Dume Rossii. Baku, 1991.
149. Şavrov N.. Novaə uqroza russkomu delu v Kafkaze. Baku, 1990.

# MÜNDƏRİCAT

**G İ R İ Ş ........................................................................................ 4**

**I F Ə S İ L. XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanın ictimai-siyasi və iqtisadi vəziyyəti. Milli-demokratik fikir .............. 26**

1.1. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda iqtisadi vəziyyət ........................................................................ 27
1.2. XIX əsrin sonu -XX əsrin əvvəllərində Azərbaycanda ictimai - siyasi vəziyyət.......................................................... 34
1.3. Milli - demokratik və inqilabi fikrin nümayəndələri (Ə.Hüseynzadə, Ə.Ağayev, Ü.Hacıbəyov, M.Hadi, Ə.Cavad) ..... 44

**II F Ə S İ L. Birinci dünya müharibəsi ərəfəsi və dövründə Azərbaycanda milli-demokratik hərəkat........................................... 57**

2.1.1905-1907-ci illər Rusiya inqilabı və Azərbaycan.................... 57
2.2. Qafqazda milli münasibətlərin kəskinləşməsi. Erməni-Azərbaycan münaqişəsi ........................................................................ 67
2.3. Şimali Azərbaycanda ictimai hərəkatların, siyasi partiyaların və təşkilatların təşəkkülü. Milli-demokratik hərəkatın genişlənməsi . 74
2.4. 1905 - 1911-ci illərdə Cənubi Azəbaycanda milli-demokratik hərəkat............................................................................................ 84
2.5. Birinci dünya müharibəsi ərəfəsində və illərində türk vilayətlərində milli hərəkat...................................................... 90
2.6.Gənc türklər hərəkatı ........................................................... 99

**III F Ə S İ L. 1917-1920-ci illərdə Azərbaycanda milli-demokratik hərəkat. Azərbaycan Xalq Cümhuriyyəti.........................................105**

3.1. Azərbaycan milli-demokratik hərəkatı Rusiyada fevral inqilabından sonra..............................................................105
3.2. Rusiyada Oktyabr çevrilişi və Azərbaycan ..........................112
3.3. 1918-ci ilin mart hadisələri və onun nəticələri .......................114
3.4. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və onun ilk addımları ....................................................................126
3.5.Azərbaycan dövlətçiliyinin təşəkkülü və möhkəmlənməsi. Azərbaycan parlamenti.........................................................145
3.6. Azərbaycan ordusu .................................................................147

3.7. İstiqlalımızın qənimləri. ADR - in süqutu.............................151
3.8. Azərbaycan Cümhuriyyə tinin qurucuları
(M.Ə.Rəsulzadə, F.İ.Xoyski, N.Y.Yusifbəyli, Ə.M. Topçubaşov
və b.)...........................................................................................156

**IV F Ə S İ L. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı...............................................................173**
4.1. Heydər Xan Əmoğlu hərəkatı ............................................173
4.2. 1920 - ci il Təbriz üsyanının sosial-iqtisadi və siyasi zəmini...175
4.3. Üsyanın başlanması, İctimai İdarə Heyətinin yaranması ......179
4.4. Milli hökumətin yaradılması və fəaliyyəti. Ş. M. Xiyabani ..183
və hərəkatın məğlubiyyət
səbəbləri.....................................172
4.6. Məhəmməd Taqi Xan Peysan hərəkatı.................................188

**V F Ə S İ L. Azərbaycan 1920-1941-ci illərdə...............................190**
5.1. Azərbaycanda sovet rejiminin bərqərar olması......................190
5.2. Antisovet üsyanları.............................................................197
5.3. Azərbaycan siyasi mühacirəti ..............................................217
5.4. Milli problemlərin bolşeviksayağı həlli. Naxçıvan MSSR-in yaradılması və Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili..........227
5.5.Sovetlər əleyhinə üsyanlar ..................................................237
5.6. Müstəqilliyin dayaqlarına - milli - mədəni dəyərlərə hücum.249
5.7. Milli təhsilin təşkilində əyintilər...........................................251

**VI F Ə S İ L. Azərbaycan İkinci Dünya müharibəsi illərində. Milli suverenlik uğrunda mubarizə ...............................................263**
6.1 İkili yanaşmanın acı nəticəsi.................................................263
6.2.Döyüş meydanlarında ........................................................266
6.3.Azərbaycan diviziyaları.......................................................277
6.4 Arxa cəbhədə…………………………………….259
6.5. Milli-azadlıq hərəkatı ....................................................... 283
6.6. Azərbaycan mühacirəti müharibə illərində …………………..
264
6.7. Şəxsiyyətə pərəstiş və onun nəticələri..................................296
6.8.1945 - 1946-cı illərdə Cənubi Azərbaycanda
milli - azadlıq hərəkatı ...........................................................299

**VII F Ə S İ L. Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyası ....................................................................................................307**
7.1. Tarixə nəzər.............................................................................307
7.2.Ermənilər kimdir? ....................................................................309
7.3. Çarizmin Qafqaz siyasətinin reallaşmasında ermənilərin rolu ...................................................................................................312
7.4. Azərbaycan torpaqları hesabına Ermənistan SSR-nin yaradılması ...............................................................................316
7.5.1948-53-cü illərin deportasiyası ..............................................319
7.6. XX əsrin sonlarında ermənilərin Azərbaycandan ərazi iddiaları ...................................................................................................326
7.7. XX əsrin 80-90-cı illərində Azərbaycanda milli-azadlıq mübarizəsinin güclənməsi...........................................................333
7.8. 1990 - cı il 20 yanvar faciəsi ..................................................339
7.9.Xocalı soyqırımı...................... **Oşibka! Zakladka ne opredelena.**
7.10. XX əsrin 80-90-cı illərinin milli-azallıq hərəkatının liderləri (Ə.Əliyev, B.Vahabzadə, X.R. Ulutürk, A.Məmmədov, S.Rüstəmxanlı, D. Əliyeva və b. )...............................................345

**VIII F Ə S İ. Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin memarıdır.........................................** Oşibka! Zakladka ne opredelena.

**IX F Ə S İ L. 1978-1979-cu illər İran inqilabı və Cənubi Azərbaycan ...................................................................................378**

**N Ə T İ C Ə ..................................................................................386**

**Ədəbiyyat .....................................................................................388**

## ƏMRAHOV MAİS İSRAİL oğlu
***tarix elmləri doktoru***



1948 - ci ildə Şəki rayonunun Cəfərabad kəndində anadan olmuşdur. 1966 - cı ildə Şəki Pedaqoji texnikumunu, 1970 - ci ildə ADPU-nun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1970 – 1973 -cü illərdə Şəki rayonunun Cəfərabad kənd məktəbində tarix müəllimi, 1973 - 1979 - cu illərdə Göybulaq kənd məktəbində direktor işləmiş, 1979 - cu ildə partiya işinə irəli çəkilmişdir. O,1979-1989 - cu illərdə Şəki Şəhər Partiya Komitəsində təlimatçı, siyasi maarif kabinetinin müdiri, təbliğat və təşviqat şöbəsinin müdiri vəzifələrində, 1989 – 1994-ci illərdə Şəkidəki 43 saylı TPM - də direktor, PKİA və YH Baş İnstitutunun Şəki filialında müəllim, Şəki Şəhər Təhsil Şöbəsində metodist və inspektor, 1994 – 1998 - ci illərdə Şəki Şəhər İcra hakimiyyətində baş məsləhətçi və şöbə müdiri, 1999 - cu ildə PKİA və YH Baş İnstitutunda metodist və kabinet müdiri, 2000 - ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Respublika Elmi - Metodiki Mərkəzində böyük metodist, 2001 -2007- ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında kabinet müdiri, 2007- 09-cu illərdə həmin institutda əlavə təhsil üzrə direktor müavini vəzifələrində işləmişdir. Hazırda ADPU-nun «Türk və Şərqi Avropa xalqları tarixi və taixin tədrisi metodikası» kafedrasının professorudur.

M.İ.Əmrahov 1977-1981 - ci illərdə ADPU-nun aspiran turasında oxumuş, 1984 - cü ilin oktyabr ayının 26 - da «Böyük Vətən müharibəsi illərində Azərbaycanda xalq maarifi (1941-1945-ci illər)» mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi, 2006 - cı il oktyabr ayının 25-də «Azərbaycan

mədəniy yəti İkinci Dünya müharibəsi illərində» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. 2004 - cü ildə AAK ona «dosent» elmi adı vermişdir.

1979 –1988 –ci illərdə Şəki Şəhər Partiya Komitəsinin üzvlüyünə namizəd və üzv, 1979 - 1990 - cı illərdə Şəki Şəhər XDS-nin deputatı olmuş, 1979 - cu ildə «Azərbaycan Respub likasının qabaqcıl maarif xadimi» döş nişanı ilə təltif olunmuşdur.

M.İ.Əmrahov 81 elmi əsərin, (o cümlədən 13 kitabın, onlardan 9-u metodik vəsaitdir), 50 - dək elmi, elmi – metodiki və elmi – publisistik məqalənin müəllifidir. O, «Azərbaycan Respub likası ümumtəhsil məktəblərinin X – XI sinifləri üçün tarix proqramları» nın həmmüəlliflərindəndir. Onun «Qələm süngüyə çevriləndə» (1995), «Şəki qartalları» (1998), «Unutsan, unudularsan» (2002), «Narodnoe obrazovanie v Azerbaydjane v qodı voynı (1941-1945 qq.)» (2004), «Azərbaycan mədəniyyəti İkinci Dünya müharibəsi illərində» (2004) monoqrafiyaları, Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrifi ilə çap olunmuş «Qədim dünya tarixinin tədrisi metodikası» (2003), «Azərbaycan tarixi. Testlər. I hissə VI - VIII» (2003), «Ümumii tarix.Testlər. VI-X» (2003 ), «İkinci Dünya müharibəsinin yekunları və dərsləri» (2006) metodiki vəsaitləri, «Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsiin təşkili və inkişafı tarixinin oçerkləri (1917 – 1941 - ci illər)» (2007 ), « Qarabağ xanlığı» (2008 ) dərs vəsaitləri pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. M.İ.Əmrahovun 9 elmi əsəri - Rusiya Federasiyasının Moskva və Sankt –Peterburq şəhərlərində nəşr olunan «Sovetskaə pedaqo qika», «İstoriə, Praktika i Perspektiva», «Obhestvo i pravo», «Voprosı qumanitarnıx nauk» kimi nüfuzlu jurnallarında çap edilmiş, «**Nenasiliə kak obraz jizni» mövzusunda keçirilən** XXV Beynəlxalq elmi - praktik konfransın iştirakçısı olmuşdur.